# AZƏRBAYCAN TOYU



Elçin Aslanov

# AZƏRBAYCAN TOYU

toy mədəniyyətimizin
bələdçisi

Azərbaycan Milli Kitabxanası

TUTU
nəşriyyatı

**AZƏRBAYCAN TOYU**

**Birinci nəşr**

Elçin Aslanov (mətn)
Tərlan Qorçu (bədii tərtibat)
Sevda İsmayıllı (redaktor)
Hikmət Aydınoğlu (kompüter düzümü)

© *TUTU* nəşriyyatı, Bakı, 2003-cü il

*http://www.tutu.az*
*e-mail: main@tutubooks.az*

Türkiyədə çap olunub

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanunsuzdur.

**WEDDING TRADITION OF AZERBAIJAN**

**First Edition**

Elchin Aslanov (text)
Tarlan Gorchu (book design)
Sevda Ismayilli (editing)
Hikmat Aydinoghlu (computer layout)

© 2003, *TUTU* Publishers, Baku

Printed in Turkey

All rights reserved. No part of this publication may be reproduced, translated, stored in a retrival sistem, or transmitted, in any form or by any means, without permission.

ISBN 9952-410-00-4

Azərbaycan Milli Kitabxanası

# İkiyarılı ön söz

## BİRİNCİ YARI VƏ YA BU KİTABIN HƏDƏFİ

◆ Ulularımızdan yadigar bir deyim var: *"dünya üç gündür: biri - anadan olan gün, biri - evlənən gün, biri də ölən gün!"*. Bu *"gün"*lərin hər biri öncə yaşanmayan bir aləmdən soraq verir. Doğulub *işıqlı dünya*ya salam verirsən, boya-başa çatıb evlənərək dünya evinə girirsən və görüb-götürərək, bacarıb-bitirərək ölürsən, yəni dünyaya vida deyirsən. ◆ Bu kitabda "2-ci gün"dən - dünya evi hazırlıqlarından söz açılır, çünki toy mərasimi, evlənmə olayı dünyaya salam söyləyən iki gəncin sərbəstliyinin sonu və dünyaya cavabdehliyinin başlanması deməkdir. Çünki toydan sonra sanki ikinci dəfə doğulursan - tam yeni keyfiyyətdə, yeni statusda dünyaya gəlirsən!.. ◆ Qeyd etdim ki, evlənmək dünyaya cavabdehliyi paylaşmaq deməkdir. Öz yarına qovuşursan, tamlaşırsan və başlayırsan dünya yükünü birgə daşımağa. Bu baxımdan *toylarımız*dan söz açmaq bir oğlanla bir qızın sevincindən, iki ailənin qohumluğundan, bir məhəllənin, bir kəndin, bir şəhərin hüdudlarını aşmayan el şənliyindən danışmaq deyil, məzmununa və mahiyyətinə görə *milli varlığımız*ın çox dərin qatlarını "dindirən" dünya əhəmiyyətli bir hadisəyə baş vurmaqdır. Çoxpilləli, dolambaclı və rəngarəng evlənmə olayı, toy hazırlıqları, toy mərasimi millətimizin uzun tarix boyu qoruyub tapındığı saysız-hesabsız adət və ayini üzə çıxarır, Azərbaycanın zəngin *mədəni sərvət*inə işıq salır, bizləri bizim özümüzə və təbii ki, başqalarına tanıdır. ◆ Odur ki, bu mövzuda əsaslı yazılan hər bir kitab yaddaşı qaytarır, elin-obanın mənliyini nişan verir və Azərbaycan deyilən bənzərsiz və indisi yarsız-yarısız yurdun toy-düyünlü sabahına ümidləri artırır.

## İKİNCİ YARI VƏ YA BU KİTABA BƏLƏDÇİ

◆ Diqqətinizə yetirilən bu kitabda azı 730 toy termini, ad və deyimi əksini tapıb və mümkün olduğu qədər açıqlanıb. Birköklü deyimlər əlifba sırası ilə verilərək nömrələnib və mətndə hər hansı deyimin adı təkrarlandıqca onun sıra nömrəsi göstərilib. Tutalım, oxucu *gəlinapardı toyu*nun açmasına baxanda yağlı şriftlə sezdirilən **xınayaxdı toyu** [138], **gəlinlik hamamı** [98], **gəlinlik cehizi** [98] və bu kimi başqa *mərasim adları* ilə üzləşir. Həmin mərasimlərin açıqlamasını oxumaq üçün onların sıra nömrəsini bilməyiniz yetər. ◆ *Deyimlər və açmalar* əlifba sırası ilə düzüldüyündən, təbii ki, toy mərasimlərinin ardıcıllığı pozulub. Olub ki, son mərhələlərin adı və açıqlaması kitabın əvvəlində gedib, başlanğıc mərhələlərsə axırda sadalanıb və axırda açıqlanıb. Bununla bağlı çaşqınlıq yaratmamaqdan ötrü

Azərbaycan Milli Kitabxanası

toy ardıcıllığını on iki mərhələyə ayırıb kitabın "qırmızı səhifələri"ndə diqqətinizə yetirmişik. ◆ İlk öncə *"qırmızı səhifələr"*də arvad və kişi elçiliklərilə əlaqədar: **I - ağızbildi** [s.17]; **II - sözaldı** [s.35]; **III - hə-yox** [s.57]; **IV - hərialdı** [s.77] tədbirləri yer alıblar. Sonra nişanla bağlı: **V - üzükşal toyu** [s.97]; **VI - nişantaxdı toyu** [s.115] mərasimləri, ardınca qız toyu ilə bağlı: **VII - paltarkəsdi toyu** [s.135]; **VIII - xınayaxdı toyu** [s.153]; **X - gəlinapardı toyu** [s.189] və nəhayət, oğlan evindəki toylar: **IX - ixtilat toyu** [s.171]; **XI - gəlingətirdi toyu** [s.197] və toy şənliklərinin sonu və yekunu sayılan: **XII - üzəçıxdı toyu** [s.219]. ◆ Kitabın sonunda verilən *toy mədəniyyətimizə dair deyimlərin siyahısı* sizi maraqlandıran hər hansı deyimi tapmağınızı asanlaşdırmaqdan ötrüdür.

*Müəllif*

# Redaktordan

*◆ Öncə bu kitabın müəllifinə - Elçin Aslanova dərin sayqılarımızı bildirək. O, Azərbaycana - həlalik çağdaş dünyaya bir qədər küskün və ürkək baxan bu qədim vətənə SEVİNCin bütün rənglərini qaytarmağa çalışıb. O, ölkəni qarış-qarış gəzərək Azərbaycan ellərini sözbəsöz dilləndirib və yaddaş xurcunlarını düyün-düyün açaraq toy mədəniyyətimizin tutumlu bir bələdçisini ortaya qoyub. Bu bələdçi bizləri iz-iz, cığır-cığır aparacaq, dolambaclar aşdıracaq və YOLa qovuşduracaq. Diri və gülərüz olmaq istəyənlər, xoşbəxt olmağı hədəf götürənlər YOLsuz ötüşə bilməzlər. Yolsalana və yolgöstərənə dərin təşəkkürlər düşür. ◆ Daha bir gerçək də budur ki, "Tutu" nəşriyyatı təkcə gənclərə və bütün oxuculara deyil, həm də etnoqraflara, folklorçulara, mədəniyyətşünaslara, digər mütəxəssislərə çox dəyərli bir qaynaq - Azərbaycan toyu haqqında 1001 bilgi verir. Zəngin toy mədəniyyətimizi yenidən dəyərləndirə, çağdaş gözlə nəzərdən keçirə biləcəyik. Tək-tük köhnə nəşrlərdə əksini tapan və tək-tək adamın yaddaşında yaşayan toy gerçəklərimizi bütöv və çatımlı bir kitaba toplamaq mümkün olub. ◆ Toy bizə ciddi və könüllü seçim öyrədir və bu seçimi o qədər çoxpilləli, o qədər miqyaslı və ən başlıcası, o qədər açıq-aşkar edir ki, sabah bu seçim üçün məsuliyyətimizi heç cür dana bilməyək. Toy bizə təkcə seçməyi deyil, qatılmağı və birgəliyi də aşılayır. O biri yandan da azlığın varlığına biganə qalmamağı - 2 nəfərin seçimini hesabdan silməməyi öyrədir. ◆ Kitabınız mübarək!..*

Azərbaycan Milli Kitabxanası

# Azərbaycan toyu

toy mədəniyyətimizin bələdçisi

**1.**

## ADAĞ // ADAX

[ *həm "ilk addım", həm "adetmə" mənasındadır* ] ◆ **Elçilik**lərdən [81] sonra **oğlan və qız evi** [208], [178] arasında qohumluq əlaqələrinin təməlini qoyan, dilimizdə *"nişan"*, *"deyik"* anlamında işlənən sözlərdən biri. ◆ Yurdumuzun bəzi bölgələrində toy məclisinə dəvət edilmiş qonaqların **gəlin qız** [98] üçün gətirdikləri hədiyyələr də (onlara bəzən *"ərməğan"* da deyilir) bu adı daşıyır.

## ADAĞAGETMƏ

◆ Gürcüstanda yaşayan soydaşlarımızda **gəlingətirdi toyu**ndan [98] bir həftə keçmiş, yaxın qonum-qonşunun hədiyyələrlə **təzəgəlin**in [267] görüşünə gəlməsi münasibətilə çağırılan qonaqlığın adı. ◆ Uzaq keçmişdə yurdumuzda bu məclisi *"bəyügörmə"*, *"boygörmə"*, *"gəlingördü"* adlandırmışlar.

*"Anama qurban olum, məni tez adaxladı"*
(toy oxumasından)

## ADAĞLAMA

[ *"ilk cəhddə ayağı bağlamaq" mənasındadır* ] ◆ Xalq arasında subay qızın artıq rəsmi şəkildə nişanlı olduğunu təsdiqləyən *"üzükaparma"*, *"nişanlama"*, *"deyikləmə"* anlamları əvəzinə işlənən ifadə. Ayrı-ayrı yerlərdə buna *"adaxlama"*, *"adağetmə // adağeləmə"*, *"adelədi // adolma"* (Qazax), *"adax günü"*, *"addandırmax"* (Gəncə) da deyirlər.

## ADAĞLI // ADAXLI

[ *məcazi mənası "ayağıbağlı"dır; digər bir mülahizəyə görə "ayaqlı, piyada" anlamındadır* ] ◆ **Hərialdı** [119] rəsmi böyük kişi elçiliyindən sonra **nişan**lanmış [205] oğlana verilən ad. Bəzən bu adı oğlan bir il daşımalı olur. Əslində, bir vaxtlar bu ad daha çox beşikdən, körpəlikdən nişanlananlara verilərdi. ◆ Onun *"adaxlu"* deyiliş şəklinə IX-XI yüzillərin yazılı abidəsi "Kitabi Dədə Qorqud"da rast gəlinir. Abşeronda isə onun *"ədaxlı"* tələffüz şəkli mövcuddur. Uzaq keçmişdə onu *"xastkar"*, *"novşah // novşəh"* adlandırmışlar (el içində pis niyyətlə deyilən *"adaxlı üzünə həsrət qalasan"* və ya *"adaxlı görməyəsən"* bədduası da yaşamaqdadır). ◆ Deyim daha çox *"adaxlı oğlan"* şəklində işlənir.

*"Adaxlın gəlsin aşiq olsun sənə"*
(toy oxumasından)

## ADAĞLIBAZLIQ

◆ Bir vaxtlar toydan əvvəl adaxlı oğlanın nişanlısı ilə görüşməsinin adı. ◆ Bu görüş qızın atası və qardaşlarının xəbəri olmadan, gecə vaxtı hamı yatandan sonra baş verir. Adaxlı oğlan qabaqcadan danışılmış xəlvəti bir evə gəlir, sonra qızın anası *"utancaq*

Azərbaycan Milli Kitabxanası

*qızını"* burada oğlanla görüşdürür. Ev sahibi onlara yemək, çay gətirir. ◆ Bir para yerlərin adətincə, **nişanlı**lar [205] hər gün və ya vaxtaşırı açıq görüşə bilərlər, bu vaxt oğlan öz nişanlısına, bir qayda olaraq, qırmızı alma, şaftalı və ya kişmiş verməlidir (əski qayda-qanuna görə isə, oğlan qızı **gərdək gecəsinə** [100] qədər görməməliydi). ◆ Ayrı-ayrı yerlərdə ona *"adaxlıbazlıq"*, *"nişanbazlıq"*, *"namzədbazlıq"* da deyirlər.

## ADAĞLI OXŞAMASI

*"Arvadların əri var, qızların adaxlısı"*
(toy oxumasından)

◆ Bəzi yerlərin qaydasına görə, **nişantaxdı toyu** [205] böyük nişan mərasimindən sonra qız evində çağırılan məclislərdə oxunan ənənəvi mahnının adı. Bu mahnıda **ərə** [89] veriləcək qızdan təkidlə nişanlısının adı soruşulur, adaxlı oğlan hər cəhətdən təriflənir, onun tezliklə qızla görüşü arzulanır və s. ◆ *"Adaxlı oxşaması"* deyiliş şəkli də var.

## ADAĞLI ŞİRNİSİ

◆ Qız toyu şənliklərinin ikinci günü, **xınayaxdı toyunun** [135] axşamı qızın dədəsi evində bişirilib **gərdək gecəsi** [100] bəy ilə gəlinin yediyi xurma, yaxud mütəkkə biçimli həlviyyat növünə xalq arasında verilən ad. ◆ Güman edilir ki, bu, cənnətdə ulu nənəmiz Həvvanın babamız Adəmə verdiyi əfsanəvi *"buğda"* ya bir işarə, onun bir növ timsalıdır. ◆ Bu ad çox vaxt *"adaxlı şirnisi"* kimi də səslənir.

## ADAĞ TOYU

*"Adaxlına qurban, toyuna qurban"*
(toy oxumasından)

◆ Salyan və Biləsuvar bölgələrimizdə qız evində, bir qayda olaraq, üç gün bir-birinin ardınca qadınlar üçün çaldırılan **qız toyunun** [178] adı. Vaxtilə buralarda qız üçün ayrıca toy dəbdə olmamış, ancaq oğlan evində *"əsas toy"* çaldırılmışdır. *"Adax toyu"* deyiliş şəkli də mövcuddur. ◆ Bəzi yerlərdə ona *"arvad toyu"*, *"qız toyu"* da deyilir.

**2.**

## ● AĞAMƏT // AĞAMMƏTLİK

[ *"arxa durmaq, yardım etmək"* anlamındadır ] ◆ Vaxtilə indiki Ermənistanda yaşayan soydaşlarımızda **toydan** [269] üç-dörd gün əvvəl **oğlan evinin** [208] nişanlı qızın atası evinə göndərdiyi, toyda sərf olunacaq ərzaq və yaxud onun xərci - **bazarlığa** [31] verilən ad. ◆ Gədəbəy, Kəlbəcər və Naxçıvanda ona *"ağamat"*, Abşeronda isə *"mitmaxxərci"* və ya *"toyxərci"* deyirlər.

**3.**

## ● AĞCADABAN

◆ Ötən çağlarda Şirvanda çaldırılan toy məclislərində, bir qayda olaraq, məzəli oyunlar göstərib qonaqları əyləndirən komik oyunçu və peşəkar məsqərəbaza verilən ad. O, yeri gəldikdə rəqqas və laloyunçu, lazım gələrsə akrobat-canbaz, yaxud məzhəkəçi-təlxək təki çıxış edirdi. El-oba içində ona bəzən *"lağbaz"* və *"şəbədəçi"* də deyirdilər.

Azərbaycan Milli Kitabxanası

## AĞ XONÇA

[*"işıqlı, ağ bəxtli xonça" mənasındadır*] ◆ **Oğlan evində** [208] Novruz, Ramazan və digər xalq bayramları şərəfinə tutulub **nişanlı** [205] qızgilə aparılan və həmin gün qızgildən oğlan evinə gətirilən xüsusi bayram **xonça**sının [138] adı. ◆ Üstü qırmızı kəlağayı və ya saçaqlı tirməşalla örtülən bu xonçaya səməni qoyar, rəngli şamlar yandırarlarmış. ◆ Onun başqa adı *"bayram yemişi"*, *"görəlgə"*, *"novruzpayı"*dır.

## AĞPAPAQ

◆ Ötən çağlar şəhərlərdə **çəngi** [50] adı ilə tanınan qaraçı rəqqas və rəqqasələri varlı toy məclisləri üçün hazırlayan, onlara təlim-tərbiyə verən ustad rəqqas - **çəngibaşı**ya [50] xalq arasında verilən ad. Bu rəqqas əyninə gümüş vəznəli ağ çuxa geyər, başına iri ağ papaq qoyar, belinə *"təkbənd"* deyilən kəmərdən gümüş xəncər asar, ayaqlarına yumşaq məst keçirərmiş. Məclislərdə o, adətən, çalğıçıların yanında dayanıb rəqqasların oyununu idarə edər, arzu olunduqda özü də bu oyunlara qatılarmış.

## AĞSAQQAL TOYU

◆ Masallı və Lənkəran bölgələrində **hərialdı** [119] rəsmi böyük kişi **elçi**liyindən [81] sonra oğlan adamlarının **qız evinə** [178] gəlib buradakı ağsaqqallarla birlikdə **başlığın** [29] miqdarının müəyyənləşdirməsi ilə bağlı keçirdiyi qonaqlığın adı. ◆ Burada ağsaqqallar bir sıra toyqabağı tədbirlərin günlərini müəyyən edib, qız evinin bir neçə şərti barədə razılığa gəldikdən sonra süfrə açılır, qonaqlara yemək verilir. ◆ Başqa yerlərdə bu qonaqlığa *"ağsaqqallar toyu"*, *"danışığagəlmə"*, *"kəsibiçi"* (Goranboy), *"kəsimkəsmə"* (Gürcüstandakı soydaşlarımızda) deyirlər.

**4.**

## ● AĞIRDONLU

◆ Borçalı diyarında **toy** [269] mərasimi zamanı ağsaqqal və ağbirçəklərin ifa etdikləri özünəməxsus bir rəqsin adı. ◆ Don ətəyinin yerlə sürünməsi, qolların qanad kimi qalxıb enməsi və digər buna bənzər "gülməli hərəkətlər" və laloyunu cizgilərindən ibarət olan bu oyun bəzən *"ağırdonnu // qaradonnu"* da adlanır.

## AĞIR DÜYÜN // AĞIR TOY

◆ Bir vaxtlar oğlan evində üç gün, üç gecə kişilər üçün çaldırılan **böyük toy** [41], sonralar **oğlan toyu** [208] anlamı əvəzində işlənən deyim. ◆ Bu sözə IX-XI yüzillərin yazılı abidəsi "Kitabi Dədə Qorqud"da rast gəlinir. Sonrakı dövrlərdə və bəzən bizim günlərdə də onu *"böyük düyün"*, *"kişi toyu"* adlandırırlar.

## AĞIRLIQ

◆ Yurdumuzun bir para yerlərində toyqabağı tədarük və **gəlinlik cehizi** [98] hazırla-

Azərbaycan Milli Kitabxanası

maqdan ötrü **oğlan evinin** [208] **nişanlı** [205] qızın valideynlərinə verdiyi maddi vəsait - **başlığın** [29] adı. Digər yerlərdə o, *"əryanlıq"*, *"halallıq"*, *"cehizpulu"* və s. adlar daşıyır. ◆ Onun *"ağırrıx"* (Qazax) deyiliş şəkli də var.

**5.**

*"Qabağına halal süd əmmiş çıxsın"*
(el xeyir-duası)

## ● AĞIZARAMA

[ *"rəy öyrənmək üçün ilk təşəbbüs" mənasındadır* ] ◆ Oğlan adamları öz niyyətlərini açmayaraq qızı görüb bəyəndikdən (**qızgördü** [178] tədbirindən) sonra oğlan tərəfin qız evinə göndərdiyi vasitəçi qadının qız tərəflə elçilikqabağı görüşü. ◆ Oğlan evi bu görüşə qızın ailəsinə bələd olan bir ağbirçəyi və ya tanınmış **ara arvadını** [11] göndərir. Həmin vasitəçinin vəzifəsi, ilk öncə, *"ağız aramaq"* - qız evinin ilk rəyini öyrənmək, sonra da onlara kimlər tərəfindən və nə vaxt **elçi** [81] gələcəyini xəbər verməkdir. Bunun üçün o, qız anası ilə görüşür. Görüş, bir qayda olaraq, evdə-otaqda deyil, həyətdə, küçədə, bağda-bostanda baş verir. ◆ Oradan-buradan aparılan söz-söhbətdən sonra əsas mətləb üstünə gəlinir, qız anasına onun **qızının** [178] istənildiyi bildirilir, **oğlan** [208], onun ailəsi və soyu hər cəhətdən vasitəçi tərəfindən təriflənir. Qız anası isə cavabında: *"vallah, heç bilmirəm indi mən nə deyim, get de adamlarını göndərsinlər, baxıb görək nə eyləyərik"* - deyir. Ara arvadı isə, bəzən elə buradaca elçilərin gələcəyi günü müəyyən etdikdən sonra: *"gün o gün olsun, qapınızı xoşbəxtlik döysün, eviniz elçi üzü görsün, toy şirnisin yeyək, inşallah"* və bu kimi sözlərlə qız anası ilə xudahafizləşib geri dönür. ◆ Bununla, necə deyərlər, *"qız evinin ağzı aranır"*, başqa sözlə desək, qız tərəfin ilk və səbatsız rəyi öyrənilir, qız üçün elçi gəlmək razılığı alınır. ◆ **Evlənmə** [84] işində çox əhəmiyyətli sayılan bu *"ilk görüş"* xalq arasında *"qız evinə saqqız oğurluğuna getmək"* adlanır. ◆ Onun *"ağızaralama // ağızyoxlama"* deyiliş şəkilləri, *"xəbər göndərmə"*, *"duyuxlama"*, *"öyrənmə"* və *"rizaaldı"* adları da var.

*"Oğlan seçib, qız görməyə gəlmişik"*
(toy oxumasından)

## AĞIZBİLDİ (I)

[ *"dilləşməklə, rəy öyrənmək" mənasındadır* ] ◆ Oğlan tərəfin qız evinə göndərdiyi birinci **arvad elçiliyinin** [12] adı. Bu qeyri-rəsmi görüşə, bir qayda olaraq, qabaqcadan xəbər verildikdən sonra, bəzi hallarda isə (əgər *"qızgördü"*, *"ağızarama"* tədbirləri zamanı bunun üçün bir gün müəyyən edilməyibsə) heç bir xəbər göndərmədən, hətta qızın özünün belə xəbəri olmadan da gedilir. ◆ Adət üzrə, elçiləri çağırılmamış qonaq təki, bir qədər soyuq qarşılayırlar. Çox vaxt qız evi adamları özlərini "bilməməzliyə" qoyur, qonaqların niyə gəldiklərini üzə vurmurlar... ◆ Bələdçinin *"qırmızı"* bölməsində [səh. 17] milli toy ənənəmizin **ağızbildi** [I] mərhələsi haqqında daha ətraflı yazılır.

## AĞIZ ŞİRİNLİYİ

◆ **Dəvətçi** [64] tərəfindən **toy** [269] məclisinə çağırılan zaman dəvətlilərə, yaxud rəsmi **elçilik** [81] və **nişan** [205] mərasimlərində məclisdəkilərə paylanan **şirniyə** [259] verilən adlardan biri. ◆ Əslində bu deyim, bir adət olaraq, mərhumun birinci hüzr gecəsi üçün çalınan *"ağız acılığı"* halvasının qarşılığı kimi ortaya çıxmışdır. ◆ Onun başqa adı sadəcə *"şirniklik"*, *"nişan şirnisi"*, *"qız şirnisi"* və *"nabatlıq"*dır.



Azərbaycan Milli Kitabxanası

6.

## AİLƏ BAĞI

◆ Bəzi yerlərin ağzında **qız toyu** [32] şənliklərinin üçüncü günü - **gəlinapardı toyun**dakı [98] **belbağlama** [32] ayini zamanı **bəyin** [36] kiçik qardaşının və ya oğlangildən gəlmiş bir yeniyetmənin **gəlin qızın** [98] belinə bağladığı yaylıq, kəlağayı, qurşaq və s. belbağının adı. ◆ Digər yerlərdə ona *"ailə belbağısı"*, *"qardaşbağı"*, *"soybağı"*, və *"gülşaftalı"* da (Astara) deyilir.

7.

## ALAFA

◆ Şəki, Quba, Zaqatala və Ağdam bölgələrində çaldırılan **gəlinapardı toyu**nda [98] **gəlinin cülusu** [98] zamanı, bir adət olaraq, gəlin qızın üzünə salınan böyük və zərif ipək baş örtüyü - **duvağın** [72] adı. ◆ Bu örtük bəzən incə bəzəkli yumşaq taftadan və ya qırmızı rəngli tirməşaldan hazırlanır.

8.

## ALDIM-VERDİM

◆ Quba diyarının bir para kəndlərində **sözaldı** [240] ikinci arvad elçiliyindən sonra **nikaha** [203] razılıq almaq məqsədilə **qız evində** [178] keçirilən qeyri-rəsmi **hə-yox** [121] birinci kişi elçiliyinə verilən ad. ◆ Başqa yerlərdə ona *"sövdələşmə"*, *"xastakarlıq"* (Salyan, Lənkəran) deyilir.

9.

*"Heydərbaba, kəndin toyun tutanda,*
*Bəy gəlinə damnan alma atanda..."*
(M. Şəhriyar)

## ALMAATDI

◆ **Oğlan toyu** [208] şənliklərinin ikinci günü - **gəlingətirdi toyu**nda [98] gəlin qız **ər evinə** [89] daxil olduğu zaman bəy oğlanın **sağdış-soldışı** [225] və yaxın dostları ilə uca bir yerə - dama, hasara və ya eyvan-artırmaya qalxıb oradan, yaxud evin həyətə açılan pəncərəsindən gəlinə qırmızı alma (bəzi yerlərdə heyva, nar, portağal və ya naringi) atması ilə bağlı qədim bir el adətinin adı. ◆ Bir para yerlərin adətincə isə, yeni mənzilə təqribən otuz metr qalmış **gəlin qızın** [98] mindiyi at saxlanılır və **bəy oğlan** [36] qız tərəfə dörd hissəyə bölünmüş bir alma, yaxud üç bütöv alma atır. Almalar gəlinə dəyərsə, bəyin yoldaşları: *"qoy qız bu evdə xoşbəxt olsun, çoxlu övladı olsun"* - deyə, göyə atəş açırlar. Almalar qıza dəyməyib onun adamları tərəfindən tutularaq ona verilərsə bəy kədərlənir. Meyvəni gəlin özü göydə qapdıqda, əmin olurlar ki, gələcəkdə o, ərinin üstündə hökm edəcəkdir. ◆ Bəzi hallarda bəy oğlan öz sağdış-soldışı ilə damdan yerə enmək istədikdə, qızgildən gəlmiş bir oğlan uşağı nərdivanı götürüb bəydən pul-nəmər almamış onu yerə enməyə qoymur və s. ◆ Bu adətin başqa adı *"alma atışı"* və *"gəlinvurdu"* dur.

Azərbaycan Milli Kitabxanası

**10.**

## ANAPAYI

◆ Abşeronda **toy**dan [269] sonra üç gün dalbadal qız anasının hazırlayıb iri sinidə **kürəkən** [153] evinə göndərdiyi yeməyin adı. ◆ Dədə-baba qaydasına görə, birinci gün cavanlara duzlu yeməklər gətirilməz, ikinci gün - düşbərə, qutab, üçüncü gün isə turşuqovurmalı plov gətirilməlidir. ◆ Başqa yerlərdə ona *"dəsturaşı"* deyirlər.

## ANAYOLU

◆ Gəncədə **gəlingətirdi toyu**ndan [98] 20-25 gün sonra **təzəgəlin**in [267] atasıgilə gəlməsi münasibətilə qızın dədəsi evində çağırılan **ayağaçdı** [19] ziyafətinə təzəgəlinin **ər evindən** [89] doğma anası üçün apardığı sovqat və ya hədiyyənin adı. Həmin məclisdə təzəbəyin öz **qayınana**sına [168] verdiyi **xələt** [132] də bu adı daşıyır.

**11.**

## ARA ARVADI // ARALIQ ARVADI

◆ İki ev - oğlan evi ilə qızgili arasında vasitəçilik edən orta yaşlı, bəzən isə dünyagörmüş ağbirçək qadına verilən ad. ◆ Ötən çağlar hər kəndin, məhəllənin camaatın xeyir-şərinə yarayan, sözünün, hərəkətinin yerini bilən, dilli-dilavər və çoxbilmiş, zirək bir qadını olurdu. O, adətən, bir evin, ailənin oğlu üçün almaq istədiyi **ərgən** [89] qızgilə yollanaraq onun anası ilə ünsiyyətdə olub, qızın neçə yaşında olduğunu, gözaltısı olub-olmadığını və bu kimi lazımi məlumatlar toplayırdı. Burada o, bəzən qızın kimlər tərəfindən istənildiyini bildirir, həmin ailə və oğlan haqda qız anasında müsbət təsəvvür yaratmağa çalışır, əsas etibarilə, **qız evinin** [178] meylini və şərtlərini öyrənir. Eyni zamanda o, qıza da göz qoyub onun səliqəliyi və evdarlığına diqqət yetirir. Bu təcrübəli qadın sonralar, bir qayda olaraq, **yengəlik** [296] vəzifəsini də öz üzərinə götürür. ◆ Bəzi yerlərdə o, *"teyzə qadın"*, *"tayfa qadını"*, *"araçı // ara adamı // aralıq adamı //aradüzəldən"*, *"dəllalə // evlənmə dəllalı // ərus dəllalı"*, *"qılavuz // qallavuz"*, *"bələdçi"*, *"diləkçi"*, *"xəbərçi"* və s. adlar daşıyır.

## ARAKƏSMƏ

◆ Bəzi yerlərin dilində **gəlingətirdi toyu** [98] günü oğlan evindəki gəlin otağının yuxarıbaşında, yaxud bir guşəsində yengə tərəfindən bəy oğlan və gəlin qız üçün xalça-palaz, qırmızı ipək, yaxud çit parçadan qurulmuş pərdə qurğunun - **gərdəyin** [100] adı.

## ARA ADAMI // ARALIQ ADAMI

◆ Oğlan və qız evlərindəki toy-nişan mərasimləri zamanı həm qadın, həm kişi məclislərində qonaqlara xidmət edən **ayağüstüy**ə [19] bir para bölgələrimizdə verilən ad. ◆ Həmçinin **oğlan və qız evləri** [208], [178] arasında vasitəçilik edən yaşlı qadın - **ara arvadının** [11] başqa adı.

Azərbaycan Milli Kitabxanası

12.

"Arvad var ev yapar, arvad var ev yıxar"
(atalar sözü)

## ARVAD

◆ Xalqımız arasında **ərli** [89] qadın və ya vaxtilə əri olmuş qadın anlamında işlənən söz. Dilimizdəki *"arvad almaq"* ifadəsi əslində evlənmək mənasında başa düşülür. Ayrı-ayrı zamanlar bir para yerlərdə onun adı *"qarı"*, *"evlik"*, *"zövcə"*, *"övrət"*, *"halal"* və *"hərəm"* olmuşdur. Sonralar onu *"baş yoldaşı // həyat yoldaşı"* adlandırdılar.

## ARVAD ELÇİLİYİ

◆ Yaşlı qadınların iştirakı ilə **qız evində** [178] keçirilən birinci - **ağızbildi** [5] və **sözaldı** [240] elçiliklərinin müştərək adı. ◆ Hər ikisi qeyri-rəsmi olub rəsmi böyük **kişi elçiliyinin** [151] keçirilməsi üçün mühüm bir hazırlıqdır.

## ARVAD ELÇİSİ

◆ Bəzi bölgələrin dilində **oğlan evinin** [208] nümayəndəsi tək, **elçi** [81] sifətilə təkbaşına, çox vaxt isə bir dəstə tərkibində (oğlan anası başda olmaqla) qızgilə yollanıb burada qızın ata-anasının **nikaha** [203] razılığını almaq istəyən yaşlı ağbirçək qadına verilən ad. Yaxud *"qız elçisi"*nin başqa adı.

## ARVAD SİLSİLƏSİ

◆ Toy günü **duvaq** [72] üstündən **gəlin qızın** [98] başına taxılan bir bəzəyin adı. ◆ Bir-birinə keçirilmiş halqa və pilələrdən ibarət olan bu qızıl bəzəyə ayrı-ayrı yerlərdə *"başlıq"*, *"cərgəgül"*, *"cütqabağı"*, *"dingə"*, *"qabaqlıq"* deyirlər. Bir vaxtlar isə onun yerinə *"tac"* deyilən bir bəzək taxardılar.

## ARVAD TOYU

◆ Abşeron kəndlərində **ər evinə** [89] köçürüləcək **nişanlı** [205] qızın dədəsi evində **oğlan toyu** [208] ərəfəsində, bir qayda olaraq, qadınların iştirakı ilə üç gün bir-birinin ardınca vurdurulan üç **toy** [269] mərasimindən ibarət **qız toyuna** [178] verilən ad.

13.

## ARZU NOĞULU

◆ **Oğlan evində** [208] çaldırılan **gəlingətirdi toyunda** [98] gəlin qızın ər evinə qədəm basdığı zaman eyvandan, yaxud evin damı üstündən onun başına səpilən noğul, şirniyyat və xırda təzə pula verilən ad. Ətrafdakılar, xüsusilə **subay** [241] qızlar həmin şirniyyatdan götürməyə çalışırlar. Xalqımızın əski əqidəsincə, bu şirniyyatdan yığıb yeyən **ərgən** [89] qızın bəxti tez açılır, tezliklə toyu olur. Digərləri isə guya onu yeyib sağlam olurlar. ◆ Bu adət gəlin qədəmlərinin yeni mənzilə, ailəyə bar-bərəkət gətirməsi arzusu ilə bağlıdır. ◆ Bu ad keçmiş Basarkeçər ərazisi üçün daha səciyyəvidir.



Azərbaycan Milli Kitabxanası

**14.**

## ASQI

[ *"pərdə" anlamındadır* ] ◆ Toy günü **gəlin otağında** [98] qızın başı üzərində tavandan asılmış pərdə - **gərdəyin** [100] başqa adı. O, adətən, çəhrayı tordan ibarət olub biçim etibarilə dairəvi çadır və bəzəkli taxtrəvanı xatırladaraq, adət-ənənəyə görə, zərli ulduz, çiçək dəməti naxışları ilə bəzənir. Bu, həmçinin gəlin otağının asma bəzəklərinə verilən ümumi bir addır. Bəzi yerlərdə isə gəlini ər evinə gətirən **cilovdar** [45], faytonçu və digərilərinə oğlan evi tərəfindən verilən xələt və ya parça da bu adı daşıyır.

## ASQIÇI

◆ Bəzi yerlərin dilində, **gəlingətirdi toyu** [98] günü oğlan evindəki **cehizdüzdü** [42] zamanı gəlinin **ər evinə** [89] daşınmış avadanlığı və əşyalarını **gəlinlik otağında** [98] yerbəyer edib səhmana salan qız tərəfi nümayəndəsinin adı. Bu adı bu işlə məşğul olan üç-dörd qohum qız-gəlindən ibarət bir dəstə də daşıya bilər.

## ASMAKƏSMƏ

◆ Naxçıvan diyarındakı toy məclislərində ifa olunan ən qədim milli rəqslərimizdən birinin adı. Rəqs **gəlinapardı toyunda** [98], bir qayda olaraq, gəlin qızın qarşısında onu müşayiət edən qadınlar tərəfindən oynanılır. İstər rəqs edənlər, istər ətrafdakılar oyun vaxtı xüsusi mahnı oxuyurlar.

**15.**

## AŞ GÜNÜ

◆ Zaqatala bölgəsində vaxtilə üç gün davam edən **oğlan toyunun** [208] ikinci gününün adı. Bu yerlərin adət-ənənəsinə görə, toy məclisinə dəvət edilmiş qonaqlar üçün açılan süfrəyə *"toy aşı"* deyilən bir plov verilir. Yeməkdən sonra isə ortaya qaval gətirilir və hər qonaq imkanı daxilində onun içinə pul salır ki, onu burada *"dövran yığımı"* adlandırırlar. ◆ Bu günə bir para yerlərdə *"paça günü"*, cənub torpaqlarımızda isə *"sabahda"* deyirlər.

**16.**

*"Aşıqsız toy uğursuz olar"*
(atalar sözü)

## AŞIQ

[ *həm "işıq", həm "aşiq" sözündəndir* ] ◆ Xalqımız arasında geniş şöhrət tapmış, **toy** [269] məclislərində saz çala-çala oxuyub-oynayan, iri həcmli dastanlar danışan el şairi və xanəndə. O, dastanların ifası zamanı məclisdəkiləri uzun müddət dərin maraq içində saxlayır. Toy məclislərində o, çox vaxt bir dəstənin tərkibində çıxış edir. ◆ Yardımlı bölgəsində çaldırılan **oğlan toyu** da [208] bu adı daşıyır. ◆ El-oba içində ona daha çox *"toy aşığı"* deyirlər.



Azərbaycan Milli Kitabxanası

## AŞIQÇI

◆ Yurdumuzun Muğan düzündə və Salyanda çaldırılan **toy** [269] məclislərini müşayiət edən çalğıçı üçlüyü və ümumiyyətlə toy şənliklərində oxuyub çalan peşəkar musiqiçi **toyçunun** [269] başqa adı. ◆ Son illərin adətincə, qabaqcadan əldə edilmiş razılığa əsasən, məclislərdə yığılan pullar, ya bütünlüklə çalğıçılara çatır, ya da toy sahibi onların topladığı pulun üstünə müəyyən məbləğ pul attırıb musiqiçiləri razı salır.

*"Gedin deyin dayıma, yığsın aşıqları toyuma"*
(toy oxumasından)

## AŞIQ TOYU

◆ Çalğıçı **toyçular** [269] deyil, aşıqlar tərəfindən müşayiət edilən toy məclisinin adı. Burada, adətən, rəqs əvəzinə bir aşıq dəstəsi toy boyu saz çalıb oxuyur. Dəstənin oxuduğu aşıq mahnıları, ustadnamələr, söylədiyi məhəbbət dastanları, duzlu-məzəli nağıllar toy məclisini üçqat zənginləşdirir.

**17.**

## ● ATALIQ

◆ Şəki bölgəsində toyqabağı tədarük və **gəlinlik cehizinin** [98] hazırlanmasından ötrü, bir qayda olaraq, oğlan tərəfin toy ərəfəsində **nişanlı** [205] qızın dədəsinə verdiyi maddi vəsait - **başlığın** [29] adı. ◆ Burada ona bəzən *"atapulu"* da deyirlər. ◆ Onun *"atalıq"* və *"atalıx"* deyiliş tərzi də mövcuddur.

*"Atamalına göz tikən mal-davarsız qalar"*
(atalar sözü)

## ATAMALI

◆ Bəzi yerlərin adətincə, **toydan** [269] 20-25 gün sonra icra olunan **ayağaçdı** [19] qonaqlığında qız atasının övladına bağışladığı camış və ya yanında buzovu olan sağmal inək, xalça-palaz və bu kimi ev təsərrüfatı üçün gərəkli olan bir hədiyyəyə verilən ad.

**18.**

## ● ATLILAR

◆ Gürcüstanda yaşayan soydaşlarımızda həm **toy alayına** [269], həm də bu alayın iştirakçılarına verilən müştərək ad. ◆ **Gəlinin** [98] fayton, maşın və digər miniklərdə **ər evinə** [89] yollandığı çağlar keçib dəyişsə də, bu alay yenə həmin adı daşımaqdadır. ◆ Gəncədə ona *"cıdırçılar"*, Qazax, Tovuz bölgələrində - *"özünəbəylər"*, başqa yerlərdə isə *"toy atlıları"* deyirlər.

**19.**

## ● AYAĞAÇDI

◆ Bizim günlər **üzəçıxdı toyundan** [278] bir həftə sonra, yaxud **gəlingətirdi toyundan** [98] 20-25 gün, ata-baba qaydasına görə isə gəlinin qırxı çıxdıqdan sonra (bəzi yerlə-

Azərbaycan Milli Kitabxanası

rin qaydasınca, gəlinin ilk övladı olduqdan sonra) yeni evlənənlərin bir neçə yaxın kişi qohum-qardaşı ilə birlikdə (bəzən ayrı-ayrılıqda) **təzəgəlin**in [267] atasıgilə qonaq çağırıldığı ziyafətin adı. ◆ Vaxtilə çox dəbdəbə ilə qeyd olunmuş bu qonaqlıqda təzəbəy və gəlinin ayağı altında bir erkək kəsilər, onların qədəm basacağı yola xalça-palaz döşənər, cavanların üzərinə və ayağı altına təzə qəpik-quruş və gül-çiçək atılardı. **Üzərlik** [281] yandırıb cavanları onun tüstüsünə tutardılar. Bunların hamısı qızın dədəsi evində bəy ilə gəlinə bəslənən hədsiz ehtiram və sevgi hisslərinin nümayişi olardı. ◆ Təzəbəyin həmin məclisə dəvət olunmuş atası, sağdış-soldışı və digər qohumu burada yeyib-içir, əylənirdilər. Yaslı və sonsuz qadınların bu məclisdə iştirakı məsləhət görülmürdü. ◆ Dədə-baba qaydasına görə, **qız evi**nə [178] mənsub olan hər qonaq bu məclisə girəndə *"təzəbəy-kürəkən"* ayağa qalxmalıydı. Yeməkdən sonra gəlinin anası öz qızı və kürəkəninə bir hədiyyə, dədəsi isə övladına, qaydaya görə, bir çadra verməliydi. Tünd rəngli adi çadra örtüklərindən fərqli olaraq bu örtük, adətən, üzərində zolaqlar və ya dama-dama naxışı olan bahalı ipəkdən tikilmiş açıq rəngli çadra (ona bəzən *"toy çadrası"* da deyilir) olurdu. ◆ Bəzi yerlərin qaydasınca, atası bu çadranı qızına toy günü verməlidir. Ona görə də, toy-nişan tədbirlərində oğlan evi, bir qayda olaraq, nişanlı qıza çadralıq parça gətirməz. Qızın dədəsi varlı olduqda o, çadradan başqa qızına **atamalı** [17] deyilən camış və ya yanında buzovu olan sağmal inək, xalça-palaz, kürəkəninə isə libaslıq parça, yaxud arabası ilə birlikdə bir köhlən at bağışlayar. Bunların əvəzində təzəgəlin anasına **ər evi**ndən [89] gətirdiyi bir sovqat, təzəbəy isə qayınanasına bir xələt bəxş edir ki, ona xalq arasında **anayolu** [10] deyirlər. Məclisin sonunda **quda**lar [182] və qonaqlar bir-birinə: *"xoşbəxt olsunlar, ömürləri gül-çiçək içində keçsin, qoşa qarısınlar, oğul-uşaq sahibi olsunlar, nəvəli-nəticəli olsunlar"* - və s. deyib evlərinə qayıdırlar. ◆ Digər yerlərdə isə təzəgəlin həmin gecə (uzaq keçmişdə o, toyun sabahı dədəsi evinə qayıtmalıydı) atası evində *"qonaq"* qalır və bir neçə gündən sonra kürəkən gəlib onu həmişəlik yeni mənzilinə aparır. ◆ Bəzi yerlərdə isə təzəgəlinin ata-anası ilə görüşü 10-15 gün davam edir (əcdadımız Oğuz türklərində bu *"qonaqqaldı"* bir aydan bir ilə kimi davam edərmiş, özü də həmin dövr ərzində bəy müntəzəm surətdə arvadının yanına gəlib ona baş çəkərmiş). Bütün yaxın qohumları bir-bir gəlini evlərinə qonaq çağırır, onun ayağı altında erkək kəsib süfrə açır, təzəgəlin isə ər evindən özüylə gətirdiyi hədiyyələri ailə üzvlərinə paylayır. Bunun əvəzində, qohumlar da gəlinə xoşbəxtlik, uğurlar dilədikdən sonra bəxşiş verirlər. Sonra ər evinə qayıtmış təzəgəlin ata-anası və qohum-qardaşından topladığı hədiyyələri ərinin yaxın qohumlarına paylayır. ◆ El-oba qaydasınca, ancaq *ayağaçdı* ziyafətindən sonra **kürəkən-təzəbəy** [153], [267] qızın dədəsi və dayısından artıq *"gizlənməyib"* arvadı ilə qayınata evinə gedib-gələ bilər. ◆ Ardınca, təzəbəyin ən yaxın qohumları və dostları da təzə evlənənləri növbə ilə qonaq çağırır ki, bu ziyafətlər də həmin ad ilə tanınırlar. ◆ Ümumiyyətlə, *"ayağaçdı"* ifadəsinin toy mərasimləri ilə bağlı bir neçə mənada istifadə olunmasına rast gəlinir. Bunlardan birincisi və əsası yuxarıda ətraflı təsvir edilibdirsə, bir neçə başqasını da burada xatırlamaq yerinə düşər. O da qeyd olunsun ki, *"ayağaçdı"* ifadəsinin bütün istifadə hallarının əsasını yeni ailə quran şəxslərin müəyyən *"dəyişmə, yeniləşmə"* yaşayıb, *"yeni simada"* qohum-qardaşa qatılmalarını vurğulamaq ənənəsi təşkil edir. ◆ Yurdumuzun bəzi yerlərində nişanlanmadan sonra **adaxlı oğlan**ın [1] bir-iki yaxın qohumu ilə birlikdə qız evinə dəvət edilməsi və bunun şərəfinə çağırılan kiçik bir məclis də belə adlanır. Burada qız evi oğlana hədiyyə verir, bəzi hallarda isə onun barmağına bir **üzük** [282] taxır. Bundan sonra adaxlı oğlanın nişanlısı evinə gedib-gəlməsi ayıb sayılmır. ◆ Bir para yerlərin adətinə görə, bu cür *"görüş"*lər **toy** [269] gününə

Azərbaycan Milli Kitabxanası

qədər hər cümə axşamı günü təkrar oluna bilər. Bunlara *"gəlinəbaxma // gəlingörmə // gəlini ziyarət"*, *"üzgörmə // üzgörüşü"* də deyirlər. ◆ Qız **nişanlı** [205] olduğu müddətdə oğlan evinin qızgilə qarşılıqlı pay və hədiyyə aparma adəti də bu adı daşıyır. ◆ Bəzi yerlərdə toydan iki-üç ay sonra oğlan evində çağırılan **gəlingördü** [98] məclisi də belə adlanır. ◆ Ona həmçinin *"ayağıaçıldı // ayağaçma"*, *"quda qonaqlığı"* (Abşeron), *"ayağçı"* (Lənkəran), *"ayaxaçı"* (Bərdə), *"əğaşdı"* (Ağsu), *"ayağdöndü"* (qərb bölgələrimiz), *"paguşa"* (cənub torpaqlarımız) da deyilir.

## AYAĞÜSTÜ // AYAĞÇI

◆ Toy-nişan məclislərində (istər kişi, istər qadın məclisi olsun) qonaqlara xidmət edən şəxsə verilən ad. Ayrı-ayrı yerlərdə onu *"ayağüsdi"* (Quba), *"ayaxçı"* (Şəki), *"ayağçı"* (Salyan), *"əyaxçı"* (Qazax), *"sərpayı"*, *"xəlifə"* (Abşeron), *"qazaq"* (Muğan), *"aralıq adamı"* da çağırırlar.

## AYAĞÜSTÜLÜK

◆ Bir vaxtlar ilk əvvəl **elçilik**lər [81], sonra isə **nişan** [205] mərasimləri zamanı, bir qayda olaraq, oğlangildən gəlmiş adamlara qız evində xidmətetmə işinin adı. Bu iş qonaqlara gülab və şərbət paylamaq, əlsuyu vermək, süfrə salıb yığmaq və s. işlərdən ibarət olub, əsasən, **ayağüstü** və ya **sərpayı** [236] tərəfindən görülürdü. ◆ Bəzi yerlərdə bu işə *"ayağçılıq"* və *"sərpayılıq"* da deyirlər.

**20.**

*"Ondan-bundan yığaram, oğluma toy quraram"*
(atalar sözü)

## AYANAT // AYNAT

[ *"qarşılıqlı yardım, kömək" anlamındadır* ] ◆ Naxçıvan və Qarabağ diyarında çaldırılan toy məclislərinin ikinci günü oğlan evinə dəvət edilmiş kişi qonaqların, bir qayda olaraq, yeməkdən sonra oğlan atası üçün yığdıqları pulun adı. ◆ Ordubadda onu *"hətbaş"*, digər yerlərdə isə *"dizdayağı"* və *"dövran"* adlandırırlar.

**21.**

## AYNAÇAĞIRDI

◆ Toy mərasiminin həm **gəlin** [98] aparan, həm gəlin gətirən zamanında iştirakçı uşaq və **subay** [241] cavanların sevincdən papaqlarını göyə atıb-tutaraq birlikdə *"hürrey"* çığırması. ◆ Abşeron kəndlərində bunu *"aynaçəkdi"* adlandırırlar.

## AYNATUTAN // AYNAÇI

◆ **Gəlin qız** [98] geyindirildikdə və **ər evinə** [89] köçürülən zaman **bəxt güzgüsünü** [34] onun qarşısında tutub addımlayan adama verilən ad. ◆ O, bir qayda olaraq, **qız soldışı** [178] və ya **oğlan yengəsi** [208], bəzən isə iki kiçik oğlan uşağı olur. Keçmişin yazılarında bu adam *"ayinədar"* adı ilə qeyd olunur.

Azərbaycan Milli Kitabxanası

**22.**

## BACIBACI

◆ Ötən əsrin əvvəllərində Abşeronda və cənub torpaqlarımızda **qız toyu** [178] şənliklərinin ikinci günü qız evində **xınayaxdı toyu** [135] zamanı oynanılan özünəməxsus bir oyunun adı. ◆ Qızlardan biri dabanlarına əski-üskü sarıyaraq onu insan başı şəklinə salıb rübənd taxır. Sonra ayaqlarını büsbütün çadraya bürüyüb arxası üstə yerə uzanır və ayaqlarını göyə qaldıraraq onları açıb bükməklə, çadralı "fiqurları" hərəkətə gətirir, əlindəki bir cüt qaşığı çalıb fiqurların adından danışaraq bir tamaşa göstərir. ◆ Oyun məzmunca iki qadın - *Bacıbacı* (və ya *Badambacı*) ilə *Canbacı* (yaxud *Cicibacı*) arasında gedən məzəli **arvad**lararası [12] söhbətdən ibarət olub, bir qayda olaraq, qarmon çalğısı ilə müşayiət edilir. ◆ Onun başqa adı *"bacıbacıcan"*dır.

## BACILIQ

◆ **Nişanlı** [205] qız və ya **gəlin**in [98] ən yaxın rəfiqələri arasından doğma bacısını əvəz edən qızın və onun bu *"qohumluğa"* qəbuledilmə mərasiminin adı. ◆ Dədə-baba adətinə görə, vaxtilə bir qız öz rəfiqəsilə *"ana-bacı"* kimi çox yaxın olmaq arzusuna düşdükdə, o, bir **başıbütöv** [29] qadından mumdan gəlincik hazırlamağı xahiş edir, bu gəlinciyi sininin ortasına qoyub ətrafına şirni düzür və onu həmin qadınla rəfiqəsinə göndərir. Rəfiqə gəlinciyin boynuna əlvan bir yaylıq bağlayır, sonra qadına **xələt** [132] verib yola salır. Qaydaya görə, bu gündən etibarən hər ikisi rəsmən bir-birinin *"bacılığı"* sayılır. ◆ Bu mərasimlə yanaşı, buna *"siğə"* yolu ilə də nail olunur. Bunun üçün hər iki qız, ənənəvi olaraq, Qədir günü məsciddə *"siğə-bacılıq"* duası oxutdurub bir qabdan şərbət içir, qucaqlaşıb öpüşür, bir-birinə *"bacı"* deyir və bu münasibətlə özlərilə gətirdikləri on iki yaylığa düyün vurub məsciddə qoyurlar. Bundan sonra qonum-qonşu, dost-tanış onları təbrik edir, onların ailələri arasında əsl qohumluq əlaqələri yaranır. Qaydaya görə *"bacılaşanlar"*ın qardaşları bir-birindən qız ala bilməz. ◆ Toy günləri *"bacılıq"* **ərli** [89] olduqda - **sağdış** [225], **subay** [241] ikən isə - **soldış** [239] *"vəzifəsi"*ni öz üzərinə götürməklə, daima gəlin qızın yanında olub, canla-başla onun qayğısına qalır. O, **gəlinapardı toyu** [98] günü gəlinin şərəfinə bir **qız şaxı** [178] qaldırıb onunla qızı **ər evinə** [89] müşayiət edir. ◆ Bu adət və deyim Qarabağ və Gəncə bölgələri üçün daha səciyyəvidir. Burada ona bəzən *"bacılaşma"*, *"cici"* və *"cici-bacılıq"*, Qazaxda isə *"bajılıq"* deyilir.

**23.**

## BAĞBAŞI

"Novbarın mübarək olsun"
(el xeyir-duası)

◆ Yayın əvvəllərində **nişanlı** [205] qız, yaxud **adaxlı** [1] oğlan bağa köçdükdə, **oğlan evinin** [208] bağ-bostanının novbar meyvələrindən qızgilə göndərdiyi sovqat və **xonçanın** [138] adı. ◆ Həmin xonçaya bir yay paltarı, şəkər, düyü, şorqoğalı, şəkərbura və s. əlavə olunur. Tədbir qadınların iştirakı ilə və yalnız nişanlı qızı bir daha görmək məqsədilə keçirilir. ◆ **Qız evinə** [178] novbar meyvə xonçası aparmaq adəti Abşeron kəndləri üçün daha səciyyəvidir. ◆ Ona bəzən *"novbarlıq"* da deyilir.

Azərbaycan Milli Kitabxanası

# • I • AĞIZBİLDİ

**5.**

[ "dilləşməklə, rəy öyrənmək" mənasındadır ] ◆ ***Ağızarama*** [5] *görüşü zamanı qızgilə elçiliyə gəlmək razılığı alındıqdan sonra, oğlan evinin həyata keçirdiyi birinci* ***arvad elçiliyi****nin* [12] *adı.* ◆ *Bu qeyri-rəsmi görüşə, bir qayda olaraq, qabaqcadan xəbər verildikdən sonra, bəzi hallarda isə (əgər "qızgördü", "ağızarama" tədbirləri zamanı bunun üçün bir gün müəyyən edilməyibsə) heç bir xəbər göndərmədən, hətta qızın özünün belə xəbəri olmadan da gedilir.* ◆ *Bir vaxtlar* ***qız evi****nə* [178] *üz tutmuş elçilərə şər qüvvələr qoşulmasın deyə,* ***oğlan evi****nin* [208] *qapısına və ya qapının birləşdiyi divara iynə sancarmışlar. Guya burada "məskunlaşmış" şər ruhlar metal iynədən qorxduqlarına görə, evdə sancılıb qalaraq, elçilərlə birlikdə qızgilə yollana bilməzlər.* ◆ *Oğlan anası öz bacısı, baldızı, yaxud sözükeçən bir ağbirçək qadınla, çox vaxt isə qız evinə uzaqdan bələd olan tanış bir qadınla günün birinci yarısı (bu işə "nəhs gündə" və gecə vaxtı getmək olmaz)* ***qız qapısı****na* [178] *üz tutur.* ◆ *Adət üzrə, burada gələn "elçiləri" çagırılmamış qonaq təki, bir qədər soyuq qarşılayırlar. Çox vaxt "qız evi adamları" - qızın anası və bir-iki qohum qadın özlərini "bilməməzliyə" qoyub qonaqların nə məqsədlə gəldiklərini qəsdən üzə vurmurlar. Oğlan adamları isə fürsətdən istifadə edib, ilk öncə, qızgilin həyət-bacası, ev-eşiyinin səliqə-səhmanına əməlli-başlı diqqət yetirir və sonra hər vasitə ilə, nəyin bahasına olursa-olsun, gəlin alınacaq qızı görməyə çalışırlar. Ancaq bunu əvvəlcədən bilən qız abır-həya güdüb, evdən çıxır, yaxud bir yerdə gizlənib gözə görünmür.* ◆ *Tərəflər bir-birilə tanış olur və mətləbə dəxli olmayan uzun, arvadlararası söhbətə başlayırlar. Nəhayət, oğlan anası çox ehtiyat və tərəddüdlə gəlişin əsl səbəbini açır və səbrsizliklə qız anası və onun yaxın qohumlarının buna cavabını, rəyini gözləyir. Bu "sövdələşmə" qız anasını tam qane etsə belə, özünü bir qədər ağır aparmağa çalışır, çox vaxt tanımadığı yad* ***oğlan*** [208] *və onun ailəsi barədə ətraflı, dolğun məlumat toplamaq üçün bir az vaxt və imkan olsun deyə, zahirən qərarsızlıq və tərəddüd içində qonaqlara: "indi siz gəldiniz, arzu-niyyətinizi bildirdiniz, qoy evin başçısı gəlsin, bu məsələni ona çatdıraq, qızın öz fikrini öyrənək, yığışaq, oturub fikirləşək, varavurd eyləyək, sonra rəyimizi, qərarımızı sizə bildirək, indi isə siz bizim əziz qonağımızsınız" - deyir.* ◆ *Bəzən isə qız anası oğlanı bilavasitə görüb onunla yaxından tanış olmaq, danışmaq istədiyini və s. arzusunu bildirir.* ◆ *Bunlardan sonra süfrə açılır, çağırılmamış "qonaqlar"ın üzünə xoş baxılır. Amma oğlan tərəf, bir adət-ənənə olaraq, bu süfrəyə əsla əl vurmayıb qız evi adamlarına: "indi siz düşünün-daşının, məsləhətləşin, varavurd eyləyin, biz inşallah yenə gəlib sizi narahat eyləyəcəyik" - deyir, sonra ayağa qalxıb ətrafdakılara: "gün o gün olsun ki, eviniz elçi üzü görsün, Allah sizə toy-nişan qismət eyləsin, evinizdən şadlıq səsi gəlsin, istədiyinizə qovuşasınız, toy şirninizdən yeyək, inşallah" və s. arzulayıb qız anası ilə xudahafizləşir və oğlan evinə qayıdaraq, eşidib gördüklərini evdəkilərə birər-birər nağl edirlər. Görüşdən sonra bir müddət qızgilin "düşünüb daşınması, məsləhətləşməsi"nin nəticəsini gözləyirlər.* ◆ *Başqa sözlə, bu addımla iki bir-birinə yad ailənin qohumlaşması, gələcək* ***nikah*** [203] *nəticəsində yaranacaq yeni ailənin kövrək təməli qoyulur.*

İndiki zamanın sözü ilə desək, "bu işə yaşıl işıq yandırılır". ◆ Qızgildə isə qızın anası, yaxın qohumları qızdan, ilk növbədə, oğlanı tanıyıb-tanımadığını öyrənirlər. Əgər tanıyırsa, qız oğlan haqda öz bildiklərini, öyrəndiklərini deyir, əgər tanımırsa qohumlar **elçi**lərin [81], yaxud **ara arvadı**nın [11] oğlan və onun ailəsi haqqında danışdıqlarını qıza çatdırarlar. Onun bu "işə" necə baxdığını öyrənir, çox vaxt isə ona tələsməyib, yaxşıca fikirləşib, götür-qoy etdikdən sonra qəti qərara gəlməyi tövsiyə edir, bundan ötrü ona müəyyən vaxt verirlər. Qız isə, əgər onun bu nikaha meyli varsa, susur, ya da, bir qayda olaraq, utanaraq: "özünüz bilərsiniz" - deyib çıxır. Bu da onun etiraz etmədiyinə işarədir. ◆ Axşam "evin başçısı" gəldikdə, qız anası "məsələni" təfərrüatı ilə ona danışır, öz fikrini, qızın razı olub-olmamasını ona bildirir. O isə xeyli fikirləşir və qəti bir cavab deməyib bu barədə əməlli-başlı düşünüb-daşınacağını vəd edir. ◆ Buna baxmayaraq, elə günü sabahdan həm qızın dədəsi, həm də ailənin qeyri üzvləri müxtəlif yollarla **evlənmək** [84] niyyətində olan yad oğlanın "əsli-nəcabəti", şəxsi keyfiyyətləri və maddi imkanları barədə lazımi məlumat toplamağa başlayırlar. ◆ Əski dövrlərin yazılarında bu qeyri-rəsmi ilkin arvad elçiliyi, bir qayda olaraq, "bələdolma // bələdləmə" adı ilə qeyd edilsə də, sonralar ona "iqrarагəldi", yəni müəyyən razılığa gəlmə də demişlər.

• I •

*Ardı:*
***SÖZALDI ◆ II***
*(35-ci səhifədə)*

Azərbaycan Milli Kitabxanası

24.

## BAĞLANC

◆ Qazax bölgəsində qız toyunun birinci günü **paltarkəsdi toyu** [215] zamanı oğlan evinin nişanlı qıza apardığı hədiyyə və ümumiyyətlə, buradakı xüsusi **boğçaya** [39] verilən ad. Bu hədiyyənin əvəzində qız anası **adaxlı** [1] oğlana bir köynək göndərir.

## BAĞLANIŞMA

◆ Bir para yerlərin dilində, bir qızla bir oğlanın artıq rəsmi şəkildə bir-birinə bağlı olduğunu bildirən böyük **nişantaxdı toyuna** [205], həm də **kəbinkəsdi** [143] mərasiminə verilən adlardan biri. ◆ Bunu bəzən *"bağlanış"* da adlandırırlar.

25.

## BAL AYI

◆ **Gəlingətirdi toyundan** [98] sonra təzəbəy ilə təzəgəlinin bir evdə, bir dam altında birgə yaşaması, evlilik həyatının bir aylıq müddəti. ◆ Deyim və adət XIX əsrdə özgə mədəniyyətlərdən iqtibas olunmuşdur. ◆ Əski yazılarda onun *"mahi-əsəli"* (əsəl - ərəbcə bal deməkdir - *Red.*) adına rast gəlinir. ◆ *"Ballı ay"* deyiliş tərzi də mövcuddur.

## BAL GƏZİNTİSİ

◆ Toy mərasimindən sonra təzəgəlinlə bəyin, bir qayda olaraq, gəzintiyə, səyahətə yollanması. Təzə evlənənlər bu səyahət zamanı uzaq şəhərlərə səfər edib, görmədikləri yerləri gəzib dolaşırlar. Bu adət varlı ailələr və bizim zamanımız üçün daha səciyyəvidir. ◆ Ona *"bal gəzisi // bal səyahəti"*, *"gəlin gəzintisi"* də deyilir.

26.

## BALBAĞAN

[ *"balboğan" sözündəndir* ] ◆ Qax, Zaqatala və Şəki bölgələrimizdə çaldırılan **oğlan toyu** [208] məclislərində canla-başla iştirak edərək, bir qayda olaraq, bəy oğlanın sağ tərəfində oturan cavan kişi - **sağdış** [225] və ya sol tərəfində əyləşən subay oğlan **soldışa** [239] verilən adlardan biri. ◆ Bu sözün *"balvağan"* tələffüz şəkli də var.

27.

*"Barxanan xaraba qalsın"*
(el bədduası)

## BARXANA

[ *"ev əşyaları, köç avadanlığı" mənasındadır* ] ◆ Qazax və Ağstafada **nişanlı** [205] qız üçün dədəsi evində hazırlanan **cehizə** [42] verilən ad. Dilimizdə işlənən *"qız barxanası"* sözü əslində gəlinlik cehizi kimi mənalandırılır. ◆ *"Barxanə"* deyiliş şəkli də var.

Azərbaycan Milli Kitabxanası

28.

## BARMAQLIQ

◆ Bəzi yerlərin dilində kiçik nişan mərasiminin **üzükşal toyu** [282] zamanı, evlilik rəmzi tək, ərə veriləcək qızın barmağına taxılan qaşsız həlqə - **həri üzüyünün** [119] adı. ◆ Onun *"barmaqça // barmaqçalıq"* (Quba, Muğan), *"barmaqçalıx"* (Borçalı), *"barmaqçılıq"* (Abşeron), *"barmaxçılıx"* (Bərdə), *"barmaxçıl"* (qərb bölgələrimiz) deyiliş şəkilləri də var. Ona sadəcə *"həlqə"* də deyirlər.

29.

*"Başında ipək ləçək, bəzədilər telini"*
(toy oxumasından)

## BAŞBƏZƏMƏ

◆ Bəzi yerlərin dilində qız evində çaldırılan **gəlinapardı toyu** [98] günü gəlin köçürülən qızın geyindirilib süslənməsi - **gəlinbəzəmə** işinin digər adı. Qəbələdə ona *"gəlinbaşı bəzəmə"* və *"başbağlama"* deyirlər. El-oba içində bununla bağlı *"evdə öz başını bağlaya bilmir, toyda gəlin başı bağlayır"* zərbi-məsəl yaşamaqdadır.

## BAŞBƏZƏYƏN

◆ Bir para yerlərdə **gəlinapardı toyunda** [98] qız evinə xüsusi dəvət edilərək, hamamdan qayıdıb yol üstündə olan gəlin qızı geyindirən, onun üst-başını, üz-gözünü bəzəyən peşəkar usta qadın - **məşşatəyə** [192] verilən adlardan biri.

## BAŞBƏZƏYİ

◆ **Gəlinapardı toyu** [98] günü **oğlan yengəsinin** [208] qız evində **qız yengəsinə** [178] verdiyi, bəzən isə gəlinin başına qoyduğu pul və **şirni xonçasının** [259] başqa adı. Bu ad kənd yerlərində çaldırılan çağdaş toy mərasimlərinə (Ağstafa) daha xasdır. Ona bəzən *"başbəzəyi pulu"* (Goranboy) və *"başbəzəmə haqqı"* da deyilir.

## BAŞIBAĞLI

◆ Xalq arasında, bir adət olaraq, *"evli-arvadlı kişi"* anlamında işlənən söz. ◆ Bir zamanlar evlənmək əzmində olan **subay** [241] oğlan evli-arvadlı kişilər sırasına (vaxtilə onlara *"başıbağlılar cərgəsi"* demişlər) keçmək, *"dünya evinə"* girmək üçün **toy** [269] ərəfəsində və toy günü bir para mərasim və sınaqdan keçməliydi. İndinin özündə oğlanın **nişan**lanması [205] və ya **evlənməsi** [84] xalq arasında yarızarafat, yarıgerçək *"başı (və ya "ayağı", yaxud "əl-ayağı") bağlama // başı bəndetmə // başı noxtalama"*, *"baş-göz etmə"*, *"quyruxlama"*, *"əl-ayağı yığışdırma"* kimi təqdim olunur.

## BAŞIBÜTÖV

[ *əslində "əl dəyməmiş, toxunulmamış" deməkdir* ] ◆ Bircə dəfə ərə gedib xoşbəxt ömür sürərək, sağ-salamat bir neçə oğul böyütmüş, həyatından son dərəcə razı, el-oba içində

Azərbaycan Milli Kitabxanası

hamının ehtiramını qazanmış ağbirçək qadına verilən ad. ◆ Bu qadın bir-birilə doğma bacı olmaq niyyətində olan gəlin qız və onun yaxın rəfiqəsi arasında vasitəçilik edib onların **bacılığı**na [22] yol açır. **Qız toyu** [178] tədbirlərində **ərə** [89] veriləcək qız üçün yorğan-döşək salır, ona **gəlinlik paltarı** [98] biçir və bu paltarı ona geydirir. Qızın başına və əl-ayağına **xına** [135] yaxmaq, oğlan evində **gərdək** [100] ardındakı **nikah** [203] yatağını hazırlamaq və bir çox bu kimi işlər, **yengə** [296] ilə yanaşı (bu iki "vəzifə" bəzən bir simada birləşir) onun əli və rəhbərliyi ilə görülür. ◆ Bu qadın başındakı yaylığını açıb gəlin qızın başına bağlayaraq: *"qoy, Allah sənə oğul versin, onda bunu sən yenidən mənim başıma bağlayarsan, inşallah"* - deyir. Yaxud gəlin qız dədəsi evində ata mindirildikdə onun paltarından bir tikə kəsib atın yəhərinə düyünləyir. Bu da **gəlin qıza** [98] nəsil artırmaq həvəsini aşılamaq üçün lazım olan sehrli qüvvələrə inamın qalıqlarıdır. ◆ Dilimizdə bu söz daha çox *"başıbütöv qadın"* və ya *"başıbütöv arvad"* kimi işlənir.

## BAŞQIRXDI

◆ Qəbələ bölgəsində **oğlan evində** [208] çaldırılan **toy** [269] şənliklərinin ikinci günü - **gəlingətirdi toyu** [98] zamanı günorta çağı **toyxanada** [269] keçirilən **bəydurma** [36] mərasimindən əvvəl icra olunan **bəylik təraşının** [36] bir başqa adı. ◆ Digər yerlərdə o, *"bəybaşıqırxdı"* adı da daşıyır.

*"Bəy ətəyi, dağ ətəyi"*
(atalar sözü)

## BAŞLIQ

◆ Toyqabağı tədarük və **gəlinlik cehizinin** [98] hazırlanmasına sərf etmək üçün oğlan evinin **nişanlı** [205] qızın ata-anasına verdiyi maddi vəsait. ◆ Müəyyən məbləğ pul və ya mal ilə ifadə edilən bu ödənc haqqı barədə söhbət toy ərəfəsində, kişilərin böyük rəsmi **hərialdı** [119] elçiliyində gedir və bu haqq **gəlin qız** [98] **ər evinə** [89] köçürülən zaman, yaxud bundan bir neçə gün əvvəl *"qız sahibi"*nə çatdırılır. ◆ Dədə-baba adətinə görə, onun miqdarı kənd yerində **cehiz** [42] xərcindən bir neçə dəfə yüksək, beş inəkdən on-iyirmi inəyin dəyərinə qədər olur. Babalarımızın fikrincə, valideynlər qız böyüdüb onu özgəyə verməli və eyni zamanda qıza cehiz hazırlamalıdırlar. Cehiz də qızın dədəsi evində qalmayıb təzə evlənənlərə ev-eşik qurmaq üçün gərəkdir. ◆ Bəzi hallarda isə bu ödənc haqqı alınmır, oğlan evindən yalnız **südpulu** [244] qəbul edilir. İndi şəhərlərdə bu əski adət-ənənə, ümumiyyətlə, unudulmuş, kəndlərdə isə bu haqq **toyxərcinə** [269] qarışmışdır. ◆ Bu, eyni zamanda, **gəlinapardı toyunda** [98] gəlin qızın başına taxılan qızıl *"cütqabağı"* və ya *"qabaqlıq"* adlanan zinət əşyasının digər adıdır. ◆ Yurdumuzun ayrı-ayrı bölgələrində bu ödənc haqqı müxtəlif adlar daşıyır. Onlardan *"ağırlıq"*, *"atalıq // atapulu"* (Şəki), *"başdıq // başdıx"* (Biləsuvar), *"başlıqpulu"*, *"qızyolu, qızpulu // yolpulu // rahpulu // cehizpulu"*, *"əryannıx"* (Qazax) *"qazmə"*, *"kəbin"*, *"sədaq"*, *"halallıq"* və s. adları göstərmək olar. Xınalıqda isə ona *"dədəvi-alçaq"* deyirlər.

## BAŞLIQVERMƏ // BAŞLIQÖDƏMƏ

◆ Oğlan evinin qızgilə **toyxərci** [269] gətirməsi münasibətilə çağırılan bir qonaqlığın adı. Qız evində süfrə açılır, hamı yeyib-içdikdən sonra evlərinə qayıdır. ◆ Gürcüstanda yaşayan soydaşlarımız içində geniş yayılmış bu adətin adı *"xərcgətirmə"*dir.



Azərbaycan Milli Kitabxanası

## BAŞPALTAR

◆ Toy günü **gəlinin cülusu** [98] ayini zamanı **ər evinə** [89] köçürülən gəlin qızın geyinib **toy** [269] məclisinə çıxdığı bir dəst **gəlinlik paltarının** [98] adı. ◆ Vaxtilə, hər ərli qadının toy-bayram üçün ayrılmış *"bəzək-düzək paltarı"*nın başqa adı olmuşdur.

**30.**

## ● BAYRAMAŞI

◆ Abşeronda Novruz və Orucluq bayramlarının axşamı **oğlan evindən** [208] **nişanlı** [205] qıza göndərilən plovun adı. ◆ Bəzən bu yeməkdən əlavə şorqoğalı da göndərirlər. Bunların əvəzində, elə həmin axşam qızgildən də oğlan üçün plov göndərilir. Onun üstünə qız öz nişanlısına ipək yaylıq, çorab, və s. qoyur.

## BAYRAMLIQ // BAYRAMPAYI

"Bu bayramın xonçası adaxlın evinə gedər"
(toy oxumasından)

◆ Ümumxalq bayramları ərəfəsində, xüsusən, İlaxırçərşənbə, Novruz axşamı, oğlan evinin qadınları tərəfindən günortadan sonra, bəzən çalğı ilə nişanlı qızgilə gətirilən bayram sovqatının adı. Burada 3-4 böyük **xonçaya** [138] qız üçün *"əyinbaş"* - qırmızı bayram libası, yaxud ipək parça, qırmızı baş yaylığı, kəlağayı və zinət əşyası ilə yanaşı, bir cüt quş əti, yeddi rəngə boyanmış yumurta və ya əlli bir ədəd qırmızı yumurta, müxtəlif *"bayram yemişi"*, qırmızı alma, yeddi növ şirniyyat - **yeddilövün** [294], bir də qızın ata-anası, qardaş-bacısı üçün hədiyyələr qoyulur. ◆ Bəzi yerlərdə, xüsusən Lənkəranda, quş əti əvəzinə xonçaların birinə ağzında hil (hazırda isə qaşlı üzük) olan ağ rəngli ziyad balığı yerləşdirilir. Xonçaların üstü qırmızı kəlağayı və saçaqlı tirməşalla örtülüb, səməni və əlvan şamlarla bəzənir. ◆ Başqa yerlərdə isə həmin *"bayram yemişi"*nə baş-ayağına **xına** [135] qoyulub, boynuna qırmızı parça sarılmış buynuzlu bir erkək də qatılır. Oğlanın qızgilə gəlmiş bacıları və yaxın qadın qohumları burada **nişanlı** [205] qıza mahnılar oxuyur, sonra **qız evinə** [178]: *"neçə-neçə belə novbahara çatasınız, gününüz gündən işıqlı olsun, həmişə toy-bayram içində olasınız"* və s. arzu-dilək söyləyir, cavabında isə qız adamlarından: *"xeyir-duanız qəbul olunsun, payınız artıq olsun"* sözləri eşidirlər. Sonra xonça gətirənlərə hil, darçın, yaxud zəncəfil çayı verilir, xələt paylanır və *"bu yaz bayramını da gördük, neçə-neçə belə xeyirli bayramlar görəsiniz"* sözləri ilə gətirilən xonçaların içinə adaxlı oğlan üçün köynək, kəmər, qırmızı və yaşıl boyanmış 30-40 yumurta qoyub qaytarırlar. ◆ Bayramın sabahı günortaya yaxın oğlan anası, bibisi və bacıları yenə bir-iki xonça ilə qızgilə yollanırlar. Bayram günü nişanlı qızın yaxın qohumları da xonça tutub oğlan evinə pay göndərirlər. ◆ Bəzi yerlərdə Novruz axşamı qızın nişanlısı ilk dəfə olaraq **qayınata** [168] evinə ayaq basır. Bu halda qız evində ikiqat bayram olur. ◆ Eyni qayda və təmtəraq *Xəzan, Çırağan, Abrizan* və digər əski milli bayramlarımızda da müşahidə olunur. Ancaq, bu vaxt qızgilə səməni əvəzinə çilə qarpızı, yemiş, portağal və digər payız meyvələri göndərilir. ◆ Gətirilən şeylərdən qonum-qonşuya pay ayrılır. Bir-iki gündən sonra qız tərəf pay qoyulmuş qablara şirni və kiçik hədiyyələr düzüb onları geri göndərirlər. El içində buna *"süfrəqaytardı"* deyilir. ◆ Bəzi yerlərdə isə bu bayram sovqatı *"bayram yemişi // bayram xonçası // bayram şirnisi // bayramçılıx"* (Sabirabad), *"eydi"*, *"novruzpayı"*, *"novbahar xonçası"*, *"görəlgə"* adları daşıyır.

Azərbaycan Milli Kitabxanası

31.

"Bazara gəldi qız alan"
(atalar sözü)

## BAZARLIQ

◆ Nişandan sonra və ya toydan əvvəl, oğlan tərəfin **nişanlı** [205] qızgilə göndərdiyi toy üçün sərf olunacaq ərzaq və ya onun xərci. Oğlan evindən tələb olunan ərzaqın miqdarı toya dəvət edilən adamların sayına uyğun müəyyən edilir. Yağ, düyü, şəkər, çay, təqribən 4-5 erkək və s. ərzaq, eləcə də bir dəst paltar, ya da pul **toyxərci** [269] gətirilir. Adətə görə, **oğlan evinin** [208] göndərdiyi ərzaq və əşyalar içində əl yaylığı, kömür, duz və soğan olmamalıdır, çünki onlar ayrılıq, qaranlıq, şorluq və acılıq əlamətidirlər. Qızın anası boyunlarına qırmızı lent və ya kəlağayı bağlanmış erkəkləri və ərzaqı gətirmiş adamlara hədiyyə verir, süfrə açılır. ◆ Gürcüstandakı soydaşlarımız bu **qonaqlığa** [180] **xərcgətirmə** [134] deyirlər. ◆ Bəzi yerlərdə nişandan sonra oğlan və qız tərəfin bir-birinə verdiyi hədiyyələr də bu adı daşıyır. ◆ Bir vaxt Ermənistanda yaşayan azərbaycanlılar ona *"ağamət"* demiş, Gədəbəy, Kəlbəcər və Naxçıvanda - *"ağamat // ağammətlik"*, Abşeronda - *"mitmaxxərci // toyxərci"*, Yardımlıda - *"kəsmət"*, Lənkəranda - *"xırdaba"*, Muğan və Cəlilabadda - *"şələmzər"*, Qubada - *"tabağqırağı"*, bəzən isə *"toy bazarlığı"* deyirlər.

32.

"Toy günü yar belini bir cavan əli bağlar"
(toy oxumasından)

## BELBAĞI

[ *"qurşaq" mənasındadır* ] ◆ Abşeronda çaldırılan **gəlinapardı toyu**ndakı [98] **belbağlama** [32] ayinində oğlan tərəfin gəlinin belinə bağladığı **ailə bağı** [6] - kəlağayı, qaytan, qayış və digər bağın adı. Erkən çağlar bu, üzərində bu və ya digər soyun, tayfanın nişan əlaməti - *"damğası"* həkk edilmiş qızıl və ya gümüş bir qurşaq olmuşdur. ◆ Bəzən bu qurşağı tam başqa məqsədlə taxılan **kəmər**lə [147] eyniləşdirirlər.

"Bağladılar belini, apardılar gəlini"
(toy oxumasından)

## BELBAĞLAMA

◆ Qız toyu şənliklərinin üçüncü günü - **gəlinapardı toyu**nda [98] gəlin qız üzərində icra olunan qədim bir ayinin adı. ◆ **Bəzək otağı**nda [37] gəlinin başına **duvaq** [72] salındıqdan sonra, onun dalınca gəlmiş oğlan adamlarından bəyin doğma kiçik qardaşı, o olmadıqda **oğlan sağdışı** [208], yaxud oğlangildən bir yeniyetmə otağa daxil olub əlindəki qırmızı kəlağayını (başqa yerlərdə, qırmızı ipək xara, örpək, yaylıq, dəsmal, qaytan, sonralar isə adi qırmızı lenti), bəzən isə öz belindən açdığı qayışı gəlin qızın belinə duvaq və kəmər üstündən bağlamağa çalışır. Əski dədə-baba qaydasına görə, bağlaya-bağlaya o, ucadan: *"anam-bacım* (yaxud *"qızım-qızım"*) *qız gəlin, əl-ayağı düz gəlin, yeddi* (başqa yerdə - *"on iki"* ) *oğul istərəm, bircə dənə qız gəlin"* və ya *"bizim gəlin sağ olsun, doğduğu oğlan olsun, sonbeşiyi qız olsun"* sözlərini deyir, çox vaxt isə bu sözləri onun əvəzinə **oğlan yengəsi** [208] söyləyir. ◆ Bəyin qardaşı belbağını (çox vaxt onun içinə kiçik metal əşya, qəpik-quruş gizlədilir) iki dəfə qızın belinə sarıyıb açır və üçüncü dəfə ona düyün salmadan ilməkləyir. Ətrafdakılar isə gəlin qıza: *"yeddi oğulla bir süfrəyə əl uzadasan, yeddi muradının yeddisinə də çatasan"* və bu kimi arzu-diləklər deyirlər. ◆ Bəzi yerlərin adətinə görə, qızın belini kəlağayı ilə bağladıqda onun ucları düyünlənir: gəlinin yeddi oğlu və iki qızı olsun deyə, kə-

Azərbaycan Milli Kitabxanası

lağayının özünə doqquz düyün vurulur. Bunun da mənşəyi qədim zamanlarla bağlıdır. ◆ Bir başqa yerdə, bəyin böyük qardaşı, yaxud dayısı, onlar olmadıqda isə **oğlan sağdışı** [208] irəli çıxıb gəlin qıza pul verib və ya ona damazlıq bir heyvan vəd etdikdən sonra kəmərini açıb onunla gəlinin belini bağlayır. Sonra o, başındakı papağı (bəzən bu oğlanın **bəylik papağı** [36] olur) çıxarıb üç dəfə qızın başına qoyub götürür və bununla guya, gələcək arvadın ərinə həmişə itaətdə olmasını təmin edir. ◆ O biri yerlərin adətincə, bəy oğlanın böyük qardaşı papaq əvəzinə, üç dəfə gəlinin başından qırmızı ipək xara keçirir. ◆ Bəzi yerlərdə isə bəyin qardaşı gəlinin sağ əlinə, qızın doğma qardaşı onun sol əlinə pul basırlar. Elə bu aralıqda ətrafdakı qadınlardan biri, çox vaxt oğlan yengəsi: *"a balam, belbağlayanın düşərliyini gətirin, verin"* - deyir. Qız anası bundan ötrü qabaqcadan hazırladığı pul kisəsi, ipək yaylıq və təzə araxçından ibarət olan dəsti qızın başına qoyur. Qızın belini bağlayan şəxs dəsti götürür, düşərliyin əvəzində gəlinin başına bir gümüş pul qoyub otaqdan çıxır. ◆ *"Gedirəm, gəlsin qardaşım, belim bağlasın"* gəlin oxumasından isə aydın olur ki, bir vaxtlar qızın belini onun doğma qardaşı bağlayarmış. O, bunu edərkən ətrafdakılara: *"bağlanmır"* deyər, bacısının belinə qırmızı xaranı oğlan tərəfin xələtini aldıqdan sonra sarıyarmış. ◆ Bundan sonra qız evinin adamları belbağlayanın üst-başına buğda unu səpir ki, bu ayinə də **unlama** [273] deyirlər. Gəlinin getdiyi yer ruzulu, bərəkətli olsun deyə, **qız yengəsi** [178], yaxud qızın bibisi və ya xalası, bəzən həddi-buluğa çatmamış bir oğlan uşağı gəlinin belinə bağlanmış bağın arasına bir parça pendir və bütöv bir kürə çörəyi (el inamına görə, pendir-çörək salamatlıq əlamətidir) keçirir. ◆ Beləliklə, qızın üzünə duvaq atıb onun bu günə kimi heç zaman qurşaqlanmamış belini bağlamaqla oğlan tərəf rəmzi şəkildə *"gəlin qız bu andan etibarən yalnız onu alan oğlana məxsusdur, onun namus-qeyrəti isə artıq toy eyləyən oğlanın ailəsi və soyunun namus-qeyrətidir"* demək istəyir və bununla gəlin qızı, necə deyərlər *"özünküləşdirib"*, soy gəlini - ev gəlini edirlər. Evlənmə zamanı qız belini **ailə bağı** [6] ilə bağlamaq, toxunulmazlıq, başıbütövlük timsalı olub, məcazi mənada gəlin qızı ömürlük bir kişiyə bağlamaq məqsədini güdür. ◆ Ayrı-ayrı yerlərdə ayin *"belqurşama"*, *"qurşaqbağlama // qurşama // qurşaq"*, *"kəmərtaxdı"*, *"toqqalama"* və s. adlar daşıyır.

**33.**

## ● BEŞİKKƏRTİYİ

◆ Ötən çağlarda körpə hələ beşiyə salınan zaman ata-anası tərəfindən adaxlanmış, yaxud nişanlanmış oğlan və qıza verilən ad. Vaxtilə el-oba arasında bu ad daha çox *"yavuqlu"*, yaxud *"beşikkərtmə yavuqlu // beşikkərtmə nişanlı"* şəklində işlənərmiş.

## BEŞİKKƏRTMƏ // BEŞİKKƏSMƏ

*"Qızı saldın beşiyə, cehizi çək eşiyə"*
(atalar sözü)

◆ Bir zamanlar yurdumuzda iki qohum və ya iki yaxın dost, iki ailə arasında beşikdə kərtik asmaqla qız ilə oğlanı körpə ikən adaxlı etmək, nişanlamaq adəti. ◆ Bəzi hallarda isə hələ doğulmamış uşaqların ataları öz aralarında övladları oğlan və qız olarsa, onları bir-birilə evləndirəcəklərinə sözləşirdilər. Hətta **başlığın** [29] miqdarı belə müəyyən edilirdi. Kimin oğlu doğularsa, o, qız övladı olan dostuna bir at bağışlayırdı, qız ilk dəfə beşiyə qoyulduğu gün körpənin beşiyindən metal pul asmaqla onu, necə deyərlər, *"nişanlayır"* və bu münasibətlə böyük bir ziyafət verirdi. Bir az sonra ata-

Azərbaycan Milli Kitabxanası

lar bir-birinə nişanlanmış körpələrin adlarını xəbər verir və oğlan atası həmin gündən etibarən qızın on beş yaşına tək, hər il qız atasına hədiyyə göndərirdi. Bu, adətən, daha çox iki qardaşın uşaqları, əmioğlu-əmiqızı arasında baş verirdi. ◆ İlk dəfə "Kitabi Dədə Qorqud" dastanlarında təsadüf olunan bu adətin başqa adları *"ərusəkbazlıq"*, *"yavuqluetmə"* və *"göbəkkəsmə"*dir. Şəkidə isə ona *"beşixkərtmə"* deyilir.

**34.**

"Xeyir-dua verin, açılsın bəxti"
(toy oxumasından)

## BƏXTAÇDI

◆ Qız toyu şənliyinin üçüncü - **gəlinapardı toyu** [98] günü gəlin ər evinə yola salındığı zaman **qız evində** [178] icra olunan bir ayinin adı. Bu yerdə qızın yaxın rəfiqələri bir-bir ona yanaşaraq: *"ayağın yüngül olsun"*, *"aydınlığa çıxasan"*, *"uğura qənşər gələsən"*, *"Allah bütün qızların bəxtini açsın, bizimki də içində"* - və bu kimi xoş arzu-diləklər söyləyirlər, gəlin qız isə onlara: *"sizə də qismət olsun, inşallah"* - deyərək, cavab verir. Qızlar yaşıl saplı bir iynəni əvvəlcə gəlinin **duvağına** [72] keçirir, sonra öz yaxalarına sancırlar. Bu da, *"qoy mənim də bəxtim səninki kimi açılsın"* deməkdir. ◆ El inamına görə, **kəbinkəsdi** [143] mərasimindən sonra gəlin qızın əyləşdiyi yerə dərhal oturan subay qızın bəxti tez açılır, qapısına elçilər gəlir. ◆ Ötən zamanlarda ərə getmək vaxtı keçmiş, ata evində qalmış qızın *"bəxtini açmaq"* üçün onun nazik kəlağayısını, yaxud başqa bir baş örtüyünü qoyun bağırsağının içindən keçirər, *"yəhudi hamamı"*na aparardılar. Buna da *"bəxt düyününün açılması"* deyərdilər.

"Baxmasın gözəllərə adamların bədnəzəri"
(toy oxumasından)

## BƏXTBAĞLAMA

◆ Yeni evlənənlərə düşmən kəsilmiş *"gözə görünən və görünməyən"* bədxah qüvvələrin cavanların birləşməsinə, xoşbəxt ailə qurmasına, can bir qəlbdə yaşamasına mane olmaq, aralarına kin-küdurət və nifrət toxumu səpmək niyyəti və bəzən bu niyyətlə **toy** [269] günləri həyata keçirdikləri bəd əməllərə verilən ad. ◆ Dədə-babalarımızın əski etiqadına görə, yeni evlənənlərə və onların ailələrinə ziyan vurmaq, qanqaralıq salmaq istəyənlər varsa, onlar **oğlan** [208] ilə **qızın** [178] paltarına, ən çox isə - qızın baş yaylığının ucu və ya saçağına gizlincə düyün salmaqla bütün bədxah ruhları, cin-şəyatini oraya cəmləşdirib, **kəbini** [143] kəsilənlərin bəxtini bağlamağa, onların bir-birilə yaxınlaşmasının qabağını almağa nail ola bilərlər. İnanmışlar ki, düşmən qüvvələr **gəlinin** [98] **ər evinə** [89] getdiyi yolu ovsunlayıb, yolda sehrli cadu tədbirləri görməklə **gərdək gecəsi** [100] **bəyin** [36] gəlin ilə əlaqəyə girməsini qeyri-mümkün edə bilərlər. Bizim günlər **xınayaxdı** [135], **paltarkəsdi** [215] toyları və **gəlinbəzəmə** [98] zamanı gəlin qız ətrafında qaval çalıb ucadan oxumaq və əl-ələ verərək rəqs etmək adəti, həmçinin **toy alayı** [269] iştirakçılarının yol boyu tüfəng və tapançalardan fasiləsiz havaya atəş açması və nəhayət, toy günü həddindən çox od-alovun, məşəllərin yandırılması, əslində, şər ruhları, cin, şeytan və iblisləri qorxudub gəlin qızdan uzaqlaşdırmaqdan ötrü keçirilən qədim ayinlərin qalıqlarıdır. *Bəxtbağlama* qorxusundan xalq içində vaxtilə belə bir adət-ənənə olmuşdu ki, kəbin kəsildikdə, yaxud gərdək gecəsindən əvvəl bəyin kəməri, qızın baş yaylığı, bəy və gəlinin paltarında olan bütün düyünlər açılmalıydı. ◆ Uşağı olmayan sonsuz qadınlar da gəlin qızın ən qatı düşməni sayılırdı. Xalq əqidəsincə, insanların bəxtinə qara gətirən bütün ziyankar qüvvələr, fəna ruhlar, sən demə, sonsuz qadının vücuduna, pal-paltarına

Azərbaycan Milli Kitabxanası

cəmləşirlər. Ona görə kəbin kəsilən zaman evin ətrafına göz qoyur, evin damından ehtiyat edirdilər. İnanırdılar ki, **nikah** [203] bağlanan zaman sonsuz qadın dama qalxıb onun bir tərəfindən o biri tərəfinə keçsə, öz *"çilləsi"*ni gəlin qıza ötürüb ondan azad ola bilər. Odur ki, qırxı çıxmamış zahı, yas saxlayan qadın, yaxud uşaqları bir-birinin ardınca ölən *"həmzatlı"* və sonsuz **arvad** [12] qadınların toplandığı toy şənliklərinə, bir qayda olaraq, buraxılmırdı. ◆ Bəziləri qızın mindiyi atın üzəngisindən və ya miniyin təkərləri arasından düşmənçilik məqsədilə xəlvəti daş keçirməklə yenə bəy və gəlinin bəxtini bağlamağa çalışırdılar. Odur ki, qızın mindiyi at və ya miniyin yanınca addımlayan oğlan və qız evi adamları göz-qulaqda olur, sonsuz qadının gəlini aparan toy alayının qarşısından ötməsinə, üzəngilərdən daş keçirməsinə yol vermirdilər. ◆ Nəhayət, gəlin **bəy qapısına** [36] çatdıqda, ona yetirilmiş bütün ziyan və bədniyyətli ovsunlar öz təsirini itirsin deyə, qızı iki çıraq, yaxud iki məşəl arasından və ya tonqal üstündən keçirirdilər.

## BƏXT GÜZGÜSÜ

*"Gəlininin bəxtinə güzgü tutum"*
(el xeyir-duası)

◆ Böyük nişan mərasiminin **nişantaxdı toyu** [205] zamanı oğlan evindən qızgilə gətirilən, sonra isə **gəlinapardı toyunda** [98] **gəlin çırağı** [98] ilə yanaşı yolboyu qızın qabağında və ya sol tərəfində oğlan yengəsi, yaxud **qız soldışının** [178] əlində gəzdirilən ənənəvi güzgünün adı. Toy münasibəti ilə ətrafı qırmızı parça ilə haşiyələnmiş, hündürlüyü 60-65 sm., eni təqribən 40-45 sm.-ə çatan bu taxta dayaqlı *"daş güzgü"*, əsas etibarilə, **paltarkəsdi** [215], **xınayaxdı** [135] toyları və **kəbinkəsdi** [143] mərasimində nişanlı qızın qarşısına qoyulur və hər tərəfində bir şam yandırılır. Ona baxan gəlin, guya gözdolusu *"gələcək ağ günlərini"* görür, güzgü onun önündə aparıldıqda isə *"cəmi xəta-bəladan, bədnəzərdən"* qorunur. ◆ Xalq arasında su ilə yanaşı işıqlı gələcək, saflıq, duruluq və aydınlıq rəmzi sayılan güzgü uzun zaman ilahi əhəmiyyətə malik olmuşdur. El-oba inamına görə, suda və güzgüdə əks olunanlar, sən demə, insanın oxşarı, ekizidir. Oxşar isə, yalnız insanın ruhu ola bilər. Odur ki, bir vaxtlar bu *"can və tale güzgüsü"*nə baxdıqdan sonra hökmən onu öpmüşlər. İndiki toylarda da **ər evinə** [89] yollanan gəlin bəxt güzgüsünü öpüb onu **oğlan yengəsinə** [208] tapşırır. ◆ **Gərdək gecəsi** [100], adət üzrə, bəy ilə gəlin bu güzgüyə eyni vaxtda baxmalıdırlar. Bəy ilə gəlinin güzgüyə birgə baxması onların həm bu güzgüdə, həm də gerçəkdə can-ruhlarının bir-birinə qovuşması, birləşməsi deməkdir. ◆ Dədə-babalarımız *"güzgü çatdağı qəbul etməz, onun sınması bədbəxtlik gətirər"* demiş və inanmışlar ki, toy günü bu güzgü sınarsa, evlənənlər tez bir zamanda ayrılar, ya qız ölər, ya oğlan. Birinin bəzən pis niyyətlə başqasına dediyi *"adaxlın üzünə güzgü tutmasın"* bədduası əks tərəfdən çox ağır təhqir təki qarşılanarmış. Elə bizim günlərdə də bütün toylarda gəlin güzgüsü göz bəbəyi tək, ciddi-cəhdlə qorunur. ◆ Bu güzgü ayrı-ayrı yerlərdə *"bəxt aynası"*, *"gəlinlik güzgüsü // nişan güzgüsü // tale güzgüsü"* adlanır.

## BƏXT KÖYNƏYİ

*"Köynək tikdim yaxasız"*
(toy oxumasından)

◆ **Qız evindəki** [178] **toy** [269] şənliklərinin üçüncü günü - **gəlinapardı toyunda** [98] **nişanlı** [205] qıza geydirilən xüsusi alt köynəyinin adı. ◆ Əski dədə-baba adətinə görə, qız atasının şəhərdən aldığı ağ çitdən tikilmiş bu köynəyə yeddi **subay** [241] qız sapla tikiş vurmalı, onun yaxası heç cür kəsilməməlidir. Guya gecələr cin-şəyatin və digər şər qüvvələr hazır paltarları geyib ziyafət keçirirlər. Əgər onlar gəlin qızın bu



Azərbaycan Milli Kitabxanası

köynəyindən istifadə etsələr, qız çilləyə düşə bilər. Odur ki, bəxt köynəyinin bağlı yaxası ancaq gəlinin **ər evinə** [89] yollanmağından bir qədər əvvəl, **gəlinbəzəmə** [98] zamanı açılır. Qızın ən yaxın adamlarından biri (xalası, bibisi) onun başı üstə durub *"bismillah"* deyərək, köynəyin yaxasını kəsir, bundan ötrü **oğlan evi** [208] ona **xələt** [132] verir. Bu *"qeyri-adi köynək"* gəlinə geydirilən zaman həddi-buluğa çatmış bir qız gəlinin sinəsinə güzgü tutur. ◆ Onun *"baxt köynəgi"* deyiliş şəkli də var.

## BƏXT ÜZÜYÜ

◆ Böyük nişan mərasimi - **nişantaxdı toyu** [205] zamanı oğlan evindən gətirilib ərə veriləcək qızın sol əlinin adsız barmağına nişan, *"əlamət"* tək taxılan daş-qaşlı halqa - **nişan üzüyünə** [205] verilən adlardan biri. Bir para yerlərin dilində ona *"əyrəmçə"* deyirlər.

35.

## ● BƏLGƏ // BƏLGƏQOYDU

[ *əski "belgu" sözündən olub, "nişan, əlamət" mənasındadır* ] ◆ Qız evindəki **hərialdı** [119] böyük rəsmi kişi elçiliyindən bir ay sonra keçirilən **üzükşal toyu** [282] kiçik nişan mərasiminin və burada nişanlanmış qızın barmağına taxılan **həri üzüyü** [119] və **şal** [249] örpəyin müştərək adı. ◆ Ayrı-ayrı yerlərdə ona *"bəlgi"* (Kəlbəcər), *"bəlyə"* (Şəki, Qazax, Borçalı), *"bərgə"* (Zaqatala, Qax) və *"bəlgəapardı"* da deyirlər.

## BƏLGƏƏVƏZİ

[ *"nişan, üzük əvəzinə" deməkdir* ] ◆ Bir para yerlərin adətincə, qız evində çağırılan **hərialdı** [119] böyük kişi elçiliyi zamanı əldə edilən razılıqdan sonra oğlan tərəfin qızgilə qabaqca verdiyi beh pulunun adı. Qax, Zaqatala və Şəkidə bu pula *"sözkəsən"* deyirlər.

## BƏLGƏLƏMƏ

◆ Ötən çağlar, bəzi bölgələrdə isə elə bizim günlərdə də xalq arasında **ərgən** [89] qızın artıq rəsmi şəkildə **nişanlı** [205] olduğunu təsdiqləyən *"nişanlama"*, *"adaxlama"*, *"deyikləmə"* anlamları qarşılığında işlənən deyim. ◆ Onun *"bəlləmə"* (Ağstafa) tələffüz şəkli də mövcuddur.

36.

## ● BƏY

*"Üç günün bəyliyi də bir bəylikdi"*
(atalar sözü)

[ *bu söz burada "ixtiyar sahibi" anlamındadır* ] ◆ Evlənmək, ailə qurmaq niyyətilə toyu çaldırılan adaxlı oğlana **ixtilat toyu**ndan [141] sonra, yaxud **bəydurma** [36] mərasimi zamanı verilən ad. O, evli-arvadlı kişilər - *"başıbağlılar"* cərgəsinə keçmək və bu adı qazanmaqdan ötrü **oğlan qonaqlığı**nda [208] subay tay-tuşları ilə vidalaşdıqdan sonra, hamama yollanır, başını qırxdırır və bəydurma mərasimində başına təzə papaq qo-



Azərbaycan Milli Kitabxanası

yub belinə xüsusi kəmər taxır, əyninə bəylik çuxası geyərək **toyxanada** [269] **bəylik taxtında** [36] əyləşir. ◆ Ötən əyyamlarda adaxlı oğlan dilənçi olsa belə, toy günləri ona hökmən həqiqi xan və bəylərə məxsus bir *"kisvət"* (kisvət - ərəb sözüdür, paltar, qiyafət deməkdir - *Red.*) geydirib *"bəy"* kimi təqdim edir və o, yanında **yançı** [289] *"vəzirlər"*i, hökmdarların taxtına bənzər təmtəraqlı bir kürsüyə qalxaraq üç gün *"hökmranlıq"* edirdi. Ancaq toydan sonra bu cavan sanki *"taxtdan salınaraq"*, bir neçə gün evindən qaçıb gizlənməyi də bacarmalı idi. Sonrakı toy mərasimləri arasında **bəydurma** [36], **xanoturdu** [124], **üzəçıxdı toyu** [278] kimi tədbirlər həmin qədim adət-ənənənin törtöküntüsü, qalıqlarıdır. ◆ Toy günləri adaxlı oğlana xüsusi imtiyazların verilməsi, bu müvəqqəti adın şərtiliyi, xalq arasında onu *"özbəy"*, *"özündənbəy"* və ya *"özünəbəy"*, yəni saxta bəy adı ilə çağırılmasına səbəb olmuşdur. Toy günləri, bu cavanı, bir adət olaraq, **sağdış-soldış** [225] müşayiət edir. ◆ Ayrı-ayrı dövrlərdə yurdumuzun müxtəlif yerlərində ona *"bəy oğlan // bəy kişi"*, *"damad // novdamad"*, *"eniştə"*, *"kədxuda // novkədxuda"*, *"giyöv // güvey"*, *"xastakar"* və s. demişlər.

## BƏYBAĞLADI

◆ Oğlanın qızla evlənməsini istəməyən, bu cavanlara pis münasibət bəsləyən bir para adamların toy günləri əl atdıqları *"sehrli cadu"* vasitələrinə xalq arasında verilən ad. ◆ Bədniyyətli adamlar bir cadugər və ya ovsunçuya bəyi *"bağlamağı"* sifariş etdikdə o, oğlanın **toyluq libasının** [269] parçasından bir tikə kəsdirib xüsusi bəddua oxuyaraq, bu tikəyə düyünlər salır. Yaxud kəndiri yeddi yerdən, yeddi dəfə düyünləyərək paslı bir qıfılın ağzına bağlayıb suya atır və ya yerə basdırır ki, buna *"qıfılbənd"* deyilir. Vaxtilə inanırdılar ki, **kəbinkəsdi** [143] mərasimi zamanı qaşıq, bıçaq və ya qayçı sındırdıqda, toy gecəsi bəy *"bağlanıb hərəkətdən düşür"* və gəlin qızla əlaqəyə girə bilmir. Belə olarsa, oğlan evi digər cadugərə müraciət edib, hökmən həmin bağlı qıfılı və yeddi düyünlü kəndiri axtarıb tapdırır və düyünləri açaraq kəndiri məhv etməklə bəy oğlanı *"açıb hərəkətə gətirirlər"*. ◆ Əslinə qalarsa, bu cür müşkül vəziyyət çox vaxt bu işdə təcrübəsizlik, utancaqlıq və müəyyən psixoloji gərginliklə bağlı olub **gərdək gecəsi** [100] bəy oğlanın gəlin qızla cinsi əlaqəyə girməsinə mane olur. ◆ El-oba içində buna *"bəxtbağlama"* və *"oğlanbağlama"* da deyilir.

## BƏYBAŞI

[ *"bəyin başına toplaşma" mənasındadır* ] ◆ Yurdumuzun Masallı, Salyan və Lənkəran bölgələrində qız evindəki böyük nişan mərasimi - **nişantaxdı toyu**ndan [205] sonra, günlərin birində, gecə vaxtı oğlan evində icra olunan **oğlan qonaqlığı**na [208] verilən ad. Məclis qızgildəki **qızbaşı** [178] məclisində bişirilmiş bir qazan plov ilə yola verilir. ◆ Bu qonaqlıq xalq arasında daha çox *"bəybaşı toyu"* adı ilə tanınır. Bəzi yerlərdə isə buna **bəydurma** [36] mərasimi deyilir.

## BƏY BOĞÇASI

◆ Bəzi yerlərin ağzında, **oğlan toyu**nun [208] birinci mərasimi - **ixtilat toyu**nun [141] axşamı qız anasının oğlan yengəsi ilə adaxlı oğlana göndərdiyi **hamam boxçası**nın [113] başqa adı. Burada içinə şirni və yumurta düzülmüş bir xonça boğçaya bükülüb, bir qazan plov ilə birlikdə oğlan evinə gətirilir. ◆ Ona *"bəylik xonçası"* da deyilir.

Azərbaycan Milli Kitabxanası

## BƏYDƏSİ

[ *"bəyin dəstəsi, həmyaşıdları" anlamındadır* ] ◆ Tovuz bölgəsində **gəlingətirdi toyu** [98] günü, günorta çağı oğlan evinin ayrıca otağında və ya çadırda bəy oğlanın ən yaxın dost-tanışı və **subay** [241] yaşıdları ilə keçirdiyi **oğlan qonaqlığının** [208] başqa adı. ◆ Bəydəsinin sonunda süfrəyə xına gətirilir və cavanlar barmaqlarını ona batırırlar.

## BƏYDURMA // BƏYÇIXMASI

[ *"bəylik dərəcəsinə yüksəlmək" deməkdir* ] ◆ Oğlan toyunun ikinci günü, **gəlingətirdi toyunun** [98] həm əvvəllində - **bəylik hamamı** və **bəylik təraşından** [36] sonra, həm də toyun axırında toyxanada icra olunan bir mərasimin adı. Burada adaxlı oğlan **sağdış-soldışla** [225] müvəqqəti oturduğu ev, otaq (bu adətən, sağdışın və ya yaxın qonşunun evi olur), yaxud ayrıca qurulmuş bir çadırdan *"bəyçıxması"* havasının sədaları altında toyxanaya gətirilir. O, üç dəfə dinməz-söyləməz baş əyməklə məclisdəkiləri salamlayır və sağdış-soldışı ilə birgə toyxananın xalçalar döşənmiş, xüsusi ayrılmış yerinə keçir, divara vurulmuş xalçaya söykənib dayanır. Bu məqamda məhəllə ağsaqqallarından biri, yaxud bəyin sağdışı və ya çoxlu oğul-nəvəsi olan yaşlı bir kişi qohumu adaxlı oğlanın başına bir təzə **bəylik papağı** [36] qoyur. ◆ Ötən çağlarda bu mərasim zamanı adaxlı oğlana xüsusi bir *"toy və ya bəylik çuxası"* da geydirilir, belinə qurşaq və ya *"toqqakəmər"* də bağlanır, başına öz zümrəsinə müvafiq təzə papaq qoyulurdu. Bu andan toyun təzəbəyi artıq *"başıbağlılar"*, yəni evli-arvadlı kişilər cərgəsinə qəbul edilmiş sayılırdı. ◆ Bu dəmdə bəzi yaxın qohumlar özlərilə gətirdikləri qoyun-quzunu oğlanın ayağı altında qurban kəsir, onun qarşısına sağdışın hazırladığı **oğlan şaxı** [208] qoyurdular. Sonra oğlanın ata-anası ona yaxınlaşır, övladlarının boynuna bir kəlağayı bağlayıb üz-gözündən öpür, *"Allah arzu-istəyinə çatdırsın, ulduzlarınız barışsın, Allah sənə xeyirli ömür versin, üzünə gün doğsun"* və bu kimi xeyir-dualar verirdilər. Ardınca bəy oğlanın başı üzərində iri bir kürə çörəyini dörd yerə parçalayıb ev qapısının yuxarı taxtası üstə qoyurdular. Bəyin bacıları, bibisi, xalası və digər yaxın qohumları başlarında xonça toyxanaya daxil olur, xonçaları oğlan qarşısında yerə düzüb onun və sağdış-soldışın qabağında oynadıqdan sonra hər üçünün qoluna xələt bağlayır, adaxlı oğlanın alnına isə kağız pul - "əskinas" yapışdırırdılar. Hamı oynayanlara **şabaş** [245] atır, toybəyinin işarəsilə aşıq və ya xanəndə **bəyin tərifini**, necə deyərlər, göylərə qaldırırdı. ◆ Adət-ənənəyə görə, bəydən ötrü tutulmuş xonçaların ümumi sayı yeddi və ya doqquzdan artıq olmamalı, onların içində hökmən 7-9 növ qırmızı rəngli şey, məsələn, alma, nar, boyanmış yumurta, qızardılıb zəfəran vurulmuş toyuq və s. olmalıdır. Buradakı **bəy xonçasından** [36] başqa, altı xonçadan üçü - çalğıçılara, biri -xanəndəyə, biri - toybəyiyə, biri isə dəllək və aşpaza çatmalıdır. ◆ Bir azdan qol-boyunlarına xələt bağlanmış bəy oğlan və sağdış-soldış ata-ananın, yaxud məhəllə ağsaqqalının icazəsilə toyxananı tərk edib gəldikləri yerə qayıdırlar. Bundan sonra, adət üzrə, *"külli-ixtiyar sahibi"* sayılan **bəy oğlan** [36] artıq heç bir razılıq almadan dədəsinin və ya yaxın qohumunun erkəyini kəsib tay-tuşlarına qonaqlıq verə və buna oxşar hərəkətlər edə bilər. Toy günləri bunlar onun üçün qəbahət sayılmır. ◆ Zənn edilir ki, ötən çağlarda bunlar bəylik hamamı və bəylik təraşı tədbirləri ilə yanaşı, toy mərasiminin üzvü hissələri olaraq oğlana *"bəylik rütbəsi"*nə yiyələnməkdən ötrü müəyyən həddi dəf etməyə kömək edən addımlar kimi qəbul olunmuşdu. Hələ **oğlan qonaqlığında** [208] subay tay-tuşları ilə vidalaşmış oğlan, bu mərasimdə doğma ata-anası və ən yaxın qohumlarından ayrılır və artıq yeni qurulan

bir evin sahibi tək müstəqil həyata üz tutur. ◆ Mərasimin axşam hissəsində, yəni toyun özündə o, cəmiyyət qarşısında artıq *"başıbağlı"* lar , yəni evli-eşikli kişilər səviyyəsinə qalxır. Əslinə qalarsa, bu mərasim mahiyyət etibarilə gəlinin *"taxta çıxması"* ilə eyni məqsəd güdən bir tədbirdir. Odur ki, onu inamla *"bəy oğlanın cülusu"*, yəni bəylik taxtına çıxması da adlandırmaq olar. ◆ Xalqımız arasında bu mərasimə *"bəydurması // bəyoldu"* (Muğan), *"bəyoturma // bəyoturtması"* da deyilir.

## BƏYƏVRƏZİ

[ *"adaxlı oğlanın iməciliyi" anlamındadır* ] ◆ Vaxtilə kəndlərdə **qızın** [178] **nişanlı** [205] olduğu müddət ərzində **adaxlı** [1] oğlanın vaxtaşırı qız evi üçün işləməsi. Burada oğlan lazım gələrsə odun tədarükü görür, dəyirmana dən aparıb, üyüdüb gətirir, dostları ilə və ya təkbaşına qanov və arx çəkilməsi, yaxud əkin, taxıl biçini, ot çalınması və s. işlərə kömək edir. Adaxlı oğlanın köməyə gəlməsi qız evinə əvvəlcədən xəbər verilir. Bu zaman oğlan, qızın ona bağışladığı *"patava"* dolağını ayağına sarıyır. Qızın dədəsi adaxlı oğlan və onun dostları üçün bir erkək kəsdirir, amma özü işdə və yemək süfrəsində iştirak etmir. ◆ Qubada bu iməciliyə *"qızəvrəzi"*, Lənkəran və Astarada isə *"zoma-koya"* deyirlər. Onun *"bəyevrəzi"* deyiliş şəkli də var.

## BƏYGÖRÜMCƏYİ

◆ Şəki bölgəsində **toy** [269] mərasimlərindən üç gün sonra **təzəbəyin** [267] üzə çıxması münasibəti ilə çağırılan **üzəçıxdı toyunun** [278] başqa adı. ◆ Bəzi yerlərdə toyun sabahısı təzəbəyin yaxın dostları ilə hamama yollanması, bəzilərində isə **kürəkənin** [153] ilk dəfə **qayınatası**gilə [168] *"ayaq açması"* da bu cür adlanır.

## BƏYGÖRÜŞÜ

[ *"bəy ilə tanışlıq" mənasındadır* ] ◆ Bəzi yerlərin adətincə, **nişantaxdı toyu** [205] mərasimindən sonra, yaxud İlaxırçərşənbə və ya Novruz bayramı axşamı **adaxlı** [1] oğlanın ilk dəfə nişanlı qızgilə gəlişi. ◆ Nişanlama zamanı sındırılıb ona çatdırılmış qənd parçasının (ona xalq arasında *"abluç"* deyirlər) üstünə bir neçə əşya - qırmızı alma, şaftalı və ya kişmiş qoyaraq bəy oğlan **sağdışı** [225] ilə qız evinə yollanır. **Adağlıbazlıq**dan [1] fərqli olaraq, bu "gəliş" qızın ata-anası və qardaşlarının xəbəri və razılığı ilə keçirilir. Qızın atası evi 2-3 otaqlı olduqda, görüş boş otaqların birində, adətən, qonaq otağında baş verir. Çox vaxt isə oğlan ilə dostu əvvəlcədən razılaşdırılmış bir yerə, məsələn yaxın qonşunun evinə gəlir və həmin evə yaxınlaşdıqda ov tüfəngindən atəş açmaqla gəldiklərini bildirirlər. Qızın anası bu münasibətlə plov bişirib onu corab, əl dəsmalı, dolaq və s. ilə birlikdə oğlan üçün görüş yerinə göndərir. Bəzən qızın ata-anası da bu *"tanışlıq"*da iştirak edir və bəy oğlanı qıza göstərərək: *"bu sənin nişanlındır"* - deyir, cavanları bir-birinə tanıdırlar. ◆ Bir para yerlərdə bu görüş *"adaxlı görüşü"*, *"bəyəbaxma // bəygördü"*, *"bəygörümü // bəygörümcəyi"* adlanır.

## BƏY XONÇASI

◆ **Gəlingətirdi toyu**nda [98] toyxanada keçirilən **bəydurma** [36] mərasimi əsnasında



Azərbaycan Milli Kitabxanası

yaxın qohumların bəy oğlan qarşısında düzdüyü yeddi **xonçadan** [138] birinin adı. Bəy ilə gəlin üçün nəzərdə tutulmuş bu xonçanı oğlanın anası, bacısı və ya dayısı arvadı tutur. İçindəki əşyaları qonaqlara nümayiş etdirdikdən sonra onu aparıb **boğçaya** [39] bükərək **gəlin otağına** [98] qoyurlar.

*"Sən olasan yeddi oğul atası, a bəy, toyun mübarək"* (toy oxumasından)

## BƏYİN TƏRİFİ // BƏY TƏRİFİ

◆ **Toy** [269] günü gündüz **bəydurma** [36] mərasimi zamanı və toy şənliklərinin axırına yaxın **aşıq** [16] və ya xanəndə tərəfindən bəy oğlanın vəsf edilməsi. Burada oğlanın ata-anası, qardaşı, bacısı və digər yaxın qohumları **toyxanaya** [269] çağırılır və xanəndə oxuyan zaman onlardan **xələt** [132] və ya nəmərpulu alınır. Təriflər qurtardıqda hamı bir yerdə **bəy oğlanın** [36] ətrafında yallı gedir.

## BƏY QAPISI

◆ **Nikah** [203] yolu ilə evlənib ailə qurmaq üçün toy tədbirləri keçirən bəy oğlanın atası evinin *"qapısı"*na xalq arasında verilən ad. ◆ Əski el-oba adətinə görə, **ərə** [89] veriləcək qız **nişanlı** [205] olduğu müddətdə bu qapıya əsla yaxınlaşmamalı, o, ilk dəfə bu qapıdan toy günü **gəlin** [98] *"surətində"* keçməlidir. Yad bir ailəyə daxil olmaq, istədiyi oğlan ilə bir yerdə yaşamaq arzusunda olan gəlin qızı toy günü bu qapı ağzına gətirib buradakı tonqal və ya ocaq ətrafına dolandırdıqdan sonra ayağı altında qurbanlıq heyvan kəsirlər. ◆ Bəzi yerlərdə ona *"ər qapısı"* da deyilir.

*"Gün o gün olsun bəy qonaqlığına gələk"* (el xeyir-duası)

## BƏY QONAQLIĞI

◆ Şəki diyarında toydan sonra bir gün **sağdış** [225], o biri gün **soldışın** [239] evində qalan **təzəbəyin** [267] şəninə verilən **qonaqlıqların** [180] adı. ◆ Həmçinin, üç gün toydan sonra təzəbəyin axşamçağı öz evinə qayıtması, *"üzə çıxması"* münasibətilə çağırılan **üzəçıxdı toyunun** [278] başqa adı. ◆ Bu qonaqlığa *"bəygörümcəyi // bəygörüşü"* və *"xangəldi"* də deyilir.

## BƏYLİK ÇUXASI

◆ Oğlan toyunun ikinci şənliyi - **gəlingətirdi toyu** [98] günü **bəydurma** [36] mərasimi zamanı və ya **bəylik hamamında** [36] bəy oğlanın qırmızı arxalıq *"qoftan"* üstündən geydiyi **toy çuxasının** [269] başqa adı. ◆ Bəy **nikah** [203] yatağı **gərdəyə** [100] bu libasda daxil olur. ◆ Bəzən onu *"bəylik çuxa"* və *"ərgənlik"* adlandırırlar.

*"Döndərin rəvana, döndərin, oğlanı hamama göndərin"* (toy oxumasından)

## BƏYLİK HAMAMI // BƏY HAMAMI

◆ Oğlan toyu şənliklərinin ikinci - **gəlingətirdi toyu** [98] günü günortadan sonra bəy oğlanın təntənəli şəkildə çalğı ilə el hamamına yollanması və burada keçirilən şənliyin adı. Bu münasibətlə oğlan evi hamamı iki-üç saatlıq icarəyə alır, oğlanın anası oğlu üçün içinə alt paltarı, təzə şalvar, bəylik papağı və s. düzülmüş bir xonça tutur və qız anasının göndərdiyi al qırmızı yaylığı onun üstünə qoyur. Qızgildən bəy üçün göndərilib üzərinə zərli örpək salınmış **hamam boğçası** [113] da həmçinin hamama



Azərbaycan Milli Kitabxanası

gətirilir. Bəzən isə, qız evi ayrıca olaraq bəyin sağdış-soldışı üçün də alt paltarı və araxçın qoyur. ◆ Bir sözlə, hamamın soyunub-geyilən yeri - *"sərbinə"*də bəy oğlan üçün xüsusi bir guşə ayırıb orada bütün boğçaları açır, hamam ləvazimatını səki üstə sərirlər. Qız evindən gətirilmiş digər xonçadan isə meyvə və şirniyyat çıxarılır. Bəy büsbütün soyunub *"darayı"* deyilən ipək fitəyə büründükdən sonra **soldış** [239] onun çıxardığı paltarları boğçaya büküb bir uşaqla oğlangilə göndərir. Bəzən bu məqamda iştirakçılardan biri bəy oğlanın paltarlarını zarafatyana oğurlayıb qız evinə çatdırır, onun əvəzində **nəmər** [201] və ya **xələt** [132] alır. ◆ Oğlan hamamda tay-tuşları ilə bir yerdə yuyunur, sağdış-soldış ona hər cür xidmət göstərir. Hamamın qapısı ağzında isə zurnaçılar çalır və buraya gələnlərin bir qismi oynayıb-əylənərək bəyin yuyunub qurtarmasını gözləyirlər. O yuyunduqdan sonra sərbinəyə gətirilir. Bu yerdə **sağdış** [226] yanan bir manqala **üzərlik** [281] atıb bəy oğlanı manqal üstündən keçirdib öz *"guşəsi"*ndə oturdur. Bəy ilk öncə qızgilin boğçasındakı tiftikli sərqətfə ilə qurulanıb, təzə ağ tuman-köynəyini geyir. ◆ Əski el-oba qaydasınca, bu zaman sağdış və ya soldış bəyin başı üstə ucu yuxarı bir bıçaq, yaxud xəncər tutur. Bunun ardınca **xəlfə** [133], yaxud sağdış bəy oğlanın üst ipək köynəyini açıb əlində tutur, sonra bir dua oxuyub *"bismillah"* deyərək, köynəyi oğlanın başına keçirir. Qaydaya görə, burada oğlan ilk əvvəl sağ əlini köynəyin qoluna keçirməli, həmçinin ayağını da ilk öncə sağ ayaqqabıya geyməlidir. ◆ Bir para yerlərin adətincə, bəy oğlanın toy paltarını hökmən çoxlu oğul-nəvə sahibi olan yaşlı bir **kişi** [151] geydirməlidir. O, **bəylik paltarını** [36] bəyin əyninə geydirməyə başlayanda, bir adət olaraq, musiqi çalınır, atəş açılır, bəyin başına təzə qəpik-quruş səpilir, hamıya sərin şərbət paylanır. Hamı şərbəti içdikdən sonra bir-birinə və bəy oğlana *"Allah mübarək eyləsin, sihhəti-vücud, həmişə təmizlikdə, isti su rahatlığı"* və bu kimi arzular diləyir. Bəy isə, cavabında hamıya müraciətlə: *"Allah razı olsun, sağ-salamat olasınız, sizlərə də qismət olsun, oğlunuzun bəylik hamamına gələk, inşallah"* - deyir. ◆ Bu aralıqda şərbətdən dadmış hamam sahibi güzgüsünü çıxarır və bəy oğlana uzadıb *"al, özünə bax"* - deyir. Bəy güzgüyə baxıb onu öpür və adət üzrə, üstünə pul-nəmər qoyub *"halal xoşun olsun"* - deyə, onu hamamçıya qaytarır. Onun ardınca sağdış-soldış, bəyin tay-tuşu da güzgüyə pul atır. Qətfəçi, camadar, cansürtən və digər hamam xidmətçilərinə də xələt, pul verilir. Xələt alanlar, adətən, *"Allah xeyrə calasın, canın-başın sağ olsun, sihhəti-vücud"* - deyirlər. ◆ Bəzi hallarda hamam sahibinə ayrıca bir xonça tutulur. Sonra bəy oğlan qız anasının ona göndərdiyi al ipək yaylığı cibinə qoyub, qızgildən gətirilmiş yeməklərdən bir az dadır. Bir sözlə, buraya gələnlərin hamısı geyinib hamamdan çıxanda zurnaçılar küçədə yenə çalmağa başlayır və bəy oğlan cah-cəlalla öz evinə qayıdır. ◆ Bəzi yerlərdə yolda bəy üzərində əlvan bir *"padşah çətiri"* də tutulur. ◆ Qaydaya görə, yol boyu hər tində bəyi saxlayıb ətrafında oynayırlar. O, öz həyətlərinə daxil olduqda isə, oğlan evi qadınları bəy oğlanın başına üzərlik dolandırıb ocağa atırlar. Sonra bəyin önündə şam yandırır, oğlanın sağ tərəfində - sağdışı, solunda - soldışı əllərində şam durub dayanırlar. Oğlanın anası, bacısı və qohumları bəyin qabağında çırtma çala-çala *"a, təzə paltar geymisən boyuna qismət olsun"* - deyərək, rəqs edib oxuyur, bəyin təzə paltarına dumduru su çiləyirlər. ◆ Ardınca, bəy həyətdə asılmış qazanların üstünə pul-nəmər qoyur ki, buna da el ağzında **qazanüstü** [170] deyirlər. Bəzən, əvvəlcədən bir çörəyin içini ovub oraya xırda təzə qəpik-quruş doldururlar və qadınların biri, çox vaxt isə oğlan anası özü, oğlunun evindən ruzu əskik olmasın, qazanıb gətirdikləri bərəkətli olsun deyə, çörəyi oğlunun başı üstə parçalayır. Oradan tökülən pulları uşaqlar yığır, çörək tikələrini isə dama atırlar. O biri qadınlar xeyir-dua verə-verə bəyin üzərinə **şabaş** [245] atır, **şirni** [259] səpələyir və s. ◆ Bundan



Azərbaycan Milli Kitabxanası

sonra bəy oğlan sağdış-soldışı ilə **bəylik otağına** [36], çox vaxt isə sağdışın və ya qonşunun evinə yollanıb orada yaxın dostları ilə ayrıca məclis qurur və gəlin gətirilənə qədər oradan eşiyə çıxmır. ◆ Lənkəran və Masallı bölgələrində təzəbəyi xüsusi oxumalarla hamama qızlar yola salır, oxumalarla da qarşılayırlar. ◆ Uzaq keçmişdə isə bəy oğlan toy günü səhər sağdış-soldışı ilə çay kənarı və ya bulaqbaşına yollanıb orada çimərdi. ◆ Əslinə qalsa, bu *"yuyunma mərasimi"* mənşəinə görə sadəcə çimmək deyil, **bəylik tərəşı** [36] tək, təmizlənmədən sonra tam yeni və başqa keyfiyyətdə ortaya çıxmaq kimi qiymətləndirilən, mühüm bir ayin sayılırdı. ◆ Bəzi yerlərdə bu yuyunma mərasiminə *"bəyin toy hamamı"*, yaxud sadəcə, *"toy hamamı"* da deyirlər.

"On iki şam yandıraram
xonçada bəy otağında"
(toy oxumasından)

## BƏYLİK OTAĞI // BƏY OTAĞI

◆ **Oğlan evindəki** [208] **toy** [269] şənliklərinin ikinci - **gəlingətirdi toyu** [98] günü bəy oğlanın **sağdış-soldışı** [225] və yaxın dostları ilə birlikdə oturub vaxt keçirdiyi otağın adı. ◆ Adət üzrə, bu otaq oğlan evinin özündə, yaxud yaxın qonşunun, çox vaxt isə **sağdışın** [225] və ya **oğlan yengəsinin** [208] evində yerləşən otaqların biri olur. Burada bəy dostları ilə atası evindən gətirilmiş xörəkləri yeyib əylənir, bir gündüz, bir də axşam sağdış-soldışının dövrəsində atası evindəki **toyxanaya** [269], oradan isə **gəlinlik otağına** [98], onu səbirsizliklə gözləyən gəlin qızla görüşə yollanır. ◆ Uzaq keçmişdə əcdadımız Oğuz türklərində toy mərasimi günü eyni məqsədlə **bəyin** [36] atası evi/çadırından bir oxatma məsafəsində qurulmuş digər bəzəkli çadır da bu adı daşımışdır. ◆ Bəzi yerlərdə içində nikah yatağı və **gərdək** [100] hazırlanmış otaq da bu adla çağırılır. Onun *"bəy evi"* adına da hərdən rast gəlinir.

## BƏYLİK PALTARI

◆ Toy şənlikləri zamanı evlənən **bəy oğlanın** [36] əyninə geydiyi libas dəsti. ◆ Ötən çağlarda toy günləri oğlana, bir qayda olaraq, həqiqi bəy, xan və padşahların libas və tacını yamsılayan bir *"kisvət"* geydirilirdisə, əcdadımız Oğuz türklərində bu yun və ya ipək parçadan tikilmiş qırmızı *"qoftan"* (*"qaftan"*), əslində isə arxalıq olmuşdur və bəy oğlan bu libasda **gərdəyə** [100] girərmiş. Qaydaya görə, bu *"qoftan"*, (ona *"ərgənlik"* də deyilir) toydan qırx gün sonra **təzəbəyin** [267] əynindən çıxarılıb bir fəqir və ya gəzərgi dərvişə pay verilirdi. Əslinə qalarsa, həmin zamanlar təzə qohumlaşan ailələrin varlı və ya kasıb olmalarına baxmayaraq, libasın biçimi eyni olmuş, onlar yalnız tikildiyi parça növü ilə fərqlənmişlər. ◆ Sonrakı dövrlərin adətinə görə, qız tərəf oğlan üçün ən azı iki dəst paltar tikdirməliydi. Qızgildən **hamam boğçasında** [113] göndərilən təsək, arxalıq və **toy çuxasından** [269] başqa, oğlan anasının doğma oğlu üçün hazırladığı paltarları da bəy oğlan, bir qayda kimi, **bəylik hamamında**, yaxud toy günü oturduğu **bəylik otağında** [36] geyirdi. ◆ Əski dədə-baba adətinə görə, bu paltarları bəy oğlana çoxlu oğul-nəvəsi olan yaşlı bir kişi geydirməlidir. Bəzi yerlərdə rəmzi məna daşıyan bu *"geyinmə"* **bəydurma** [36] mərasimi zamanı baş verir. ◆ Bir zamanlar bəyin başına qoyduğu papaq, geydiyi libas, ayağındakı ayaqqabının biçimi onun hansı zümrəyə mənsub olduğunu bildirirdi. Tutalım, kasıb ailələrdə bəy əyninə *"aşırmalı"*, yaxud *"önürlü"* bir arxalıq geyərək, ayağına *"şirazi"* çarıq keçirir, arxalıq üstündən isə belinə təzə kəlağayıdan qurşaq və ya qayış kəmər bağlayaraq, qabağından üç yaylıq asıb üstündən çuxa geydinirdi. Varlı ailələrdə o, ağ ipəkdən və ya məxmərdən köynək geyir, qız anasının ona göndərdiyi al qırmızı ipək yaylığı ci-

Azərbaycan Milli Kitabxanası

binə basıb başına öz zümrəsinə məxsus **bəylik papağı** [36] qoyur, çuxa üstündən belinə *"təkbənd"* gümüş kəmər və xəncər taxır, ayağına isə vaxtilə *"cıqcıq"* deyilən ayaqqabı, yaxud yumşaq dəridən uzunboğaz çəkmə keçirirdi. ◆ Bu geyinmədən sonra bəyin ətəyinə duz gəzdirib başına çevirərək manqala atır, paltara dumduru su çiləyirdilər. Bundan sonra bəy oğlanın geydiyi paltar digər *"başıbağlı"*, yəni evli-arvadlı **kişilərin** [151] libası və zahiri görkəmindən əsla fərqlənmirdi. ◆ Bir para yerlərin dilində, bu paltara *"bəylik libas // bəylik kisvət // bəylər paltarı"*, *"güveylik libas"*, *"toyluq libas"*, *"ərkənlik"* və *"şahanə"* deyilir.

*"Papaq isti-soyuq üçün deyil,*
*namus üçündü"*
(atalar sözü)

## BƏYLİK PAPAĞI // BƏY PAPAĞI

◆ **Bəydurma** [36] mərasimində adaxlı oğlanın başına qoyulan qaragül dərisindən şiş-papaq, yaxud *"daqqa"* və ya *"yappa"* papağın adı. Birincisi konusvari biçimli, təpəsi yastı olduğu halda, ikincisinin aşağısı və yuxarısı eyni ölçüdə olub, üstü mahuddan tikilirdi. ◆ Ötən zamanlar bu cür papaqlardan bir kənddə, olsa-olsa, bir və yaxud iki ədəd tapmaq olardı, onlar yalnız *"bəy ailələri"*nə məxsus olduğu üçün ancaq toy günləri geyinilir, sonra isə hərə öz zümrəsinə uyğun papaq (keçmişdə başıaçıq gəzmək qəbahət sayılırdı) qoyurdu. ◆ Bəzi yerlərin qaydasınca, bu papağı qız evinə aparıb **belbağlama** [32] ayini zamanı gəlin qızın başına üç dəfə qoyub çıxarırlar. ◆ Digər bölgələrin adətinə görə, qız anası toy ərəfəsində bəy oğlana papaq altından geymək üçün qırağı qızılı və gümüşü baftaya tutulmuş *"istiba təsək"* deyilən bəzəkli bir araxçın göndərirdi. Keçmiş əyyamlarda isə bu mirvaridən gül-çiçək naxışları ilə bəzənmiş *"səhrə"* deyilən xüsusi bir çələng olmuşdur. Bununla adaxlı oğlan rəmzi şəkildə, *"başıbağlılar"*, yəni evli-arvadlı kişilər cərgəsinə daxil olmuş hesab edilirdi.

*"Gəlib çıxdın sən də bəylik taxtına"*
(toy oxumasından)

## BƏYLİK TAXTI // BƏY TAXTI

◆ Toyxananın yuxarı başında toyu çaldırılan bəy oğlan üçün yerləşdirilmiş kürsünün adı. El arasında deyirlər: *"bir günlük bəylik də bəylikdir, adamın toyu ömründə bir dəfə olduğu kimi, bəylik taxtına da ömründə bir dəfə qalxır"*. ◆ Əski **xanoturdu** [124] və **bəydurma** [36] mərasimlərinin məzmununa arxalanaraq, güman edilir ki, keçmiş əyyamlarda toy vurduran bəy bir gün ərzində *"hökmdar taxtı"*nı xatırladan bər-bəzəkli zəngin bir kürsüdə əyləşirmiş. XIX əsrin əvvəllərindən bu yana isə, yerdən bir qədər hündür oturacağın üzərinə xalça döşəyib burada yerləşdirilən adi kürsü üstünə qalın döşək (uzaq keçmişdə isə *"qurama"* yorğan) salıb, yanlarına isə mütəkkə atır, onun qabağına qırmızı süfrəli bir masa qoyurlar. Masa üstünə qırmızı qaytanla sarınmış güzgü, şamdan və şirniyyat qabları düzülür. Oturacağın ətrafı gül-çiçək dibçəkləri və güldanlarla bəzənir, arxa divara isə xalça vurulur. ◆ Bir para yerlərdə **gəlinlik cehizinin** [98] bəzi əşyalarını buraya gətirib bəzək kimi onlardan istifadə edirlər. ◆ Toyun sonuna yaxın bəy oğlan **sağdış-soldışı** [225] ilə buraya gəlib masa arxasında əyləşir. ◆ Bəzi yerlərin adətincə, burada ona **toy çuxası** [269] geydirir, qabağına iki xonça gətirib qoyurlar: biri qız evindən - içində şirni, qoz-fındıq və meyvə düzülmüş, o birisi oğlan anasından - içində sağdış-soldışdan ötrü yaylıq, köynək və s. hədiyyələr olan xonça. Bunlardan əlavə, bəyin qarşısına bir tabaq meyvə, onun ortasına isə bəzənmiş **oğlan şaxı** [208] qoyulur. Bəy kürsüyə əyləşdikdə xonçadakı şamlar alışdırılır. ◆ Əslində buradakı qırmızı süfrə, qurama yorğan və əşyalara sarınmış qırmızı qaytan bəzək üçün deyildi. Onlarla bəy oğlanı *"şər qüvvələrdən,*

Azərbaycan Milli Kitabxanası

# • II • SÖZALDI

**240.**

[ "dilləşməklə, rəy öyrənmək" mənasındadır ] ◆ *Birinci qeyri-rəsmi arvad elçiliyi* ***ağızbildi-*** *dən* [5] *sonra oğlan evinin həyata keçirdiyi ikinci* ***arvad elçiliyi****nin* [12] *adı. Belə ki, qızgilin artıq məsləhətləşdiyindən xəbər tutan oğlan anası və digər elçilər bu dəfə qız evinə qabaqcadan xəbər verildikdən sonra, müəyyən olunmuş gündə, vaxtda və hökmən bundan əvvəlki tərkibdə, paysız-pürüşsüz, hədiyyəsiz (XIX əsrdə isə yalnız bir gül-çiçək dəstəsi ilə) təkrarən yollanırlar.* ◆ *Əgər qız tərəf ərə veriləcək* ***qızın*** [178] *rəyini öyrənib evlənmək istəyən* ***oğlan****ın* [208] *şəxsi keyfiyyətləri, maddi imkanları və ata-anası barədə məlumat toplayaraq, öz aralarındakı məsləhətləşmələrdən sonra oğlan evilə qohum olacağını qət eyləyibsə, bu dəfə hazırlıqlı olub məclisə qohumlardan sözünün, hərəkətinin yerini bilən bir neçə çoxbilmiş ağbirçək də dəvət edirlər.* ◆ *Birinci* ***elçilik****dən* [81] *fərqli olaraq qonaqlara açıq-aşkar meyl göstərir, elçilərin üzünə xoş baxıb onları artıq köhnə və mötəbər tanış kimi otağın yuxarıbaşına keçirərək, süfrə açıb qabaqlarına isti çay, şirni qoyurlar.* ◆ *Qonaqlar yenə süfrədəkilərə məhəl qoymayıb, ilk əvvəl, bir az oradan-buradan danışırlar. Hiss edilmədən qız tərəf öz* ***argən*** [89] *qızları barədə,* ***oğlan evi*** [208] *isə evlənmək istəyən cavan haqqında bir-birinə bolluca və ətraflı məlumat verib, hər ikisini tərifləyirlər. Bir qədər çək-çevirdən sonra oğlanın anası və ya bibisi söhbəti söz üstünə gətirib* ***qız evi*** [178] *qadınlarına: "qapınıza həmişə şadlığa gələk, biz yenə xeyir işdən ötrü, qızınız üçün gəlmişik, qərarınızı bizə çatdırın" - söylədikdə, qızın anası yenə özünü ağır tutaraq, qız evindəki məsləhətləşmənin nəticəsini səbrsizliklə gözləyən oğlan evi qadınlarına: "indi siz xoş gəldiniz, qədəm əziz eylədiniz", sonra bir qədər minnət və şikayətlə: "a balam, axı bir deyin görüm mən kiməm, indi mən sizə burada nə deyə bilərəm, istədiyiniz qızın atası, əmisi, dayısı, az da olsa evin ağsaqqalı var, atalar necə deyib, qız ərə vermək bacılar işi deyil, hacılar işidi, gedin deyin kişiləriniz gəlsin, kişilərimizlə üz-üzə oturub danışsınlar, baxsınlar, görsünlər nə eyləyərlər" - deyir. Bu o deməkdir ki, rəsmi* ***kişi elçiliyi****nə* [151] *artıq razılıq verilir.* ◆ *Əslinə qalarsa, dədə-baba adətincə, oğlan evinin qadınları burada qızın anasından heç cür rəsmi razılıq ala bilməzlər, çünki əsas sözü yalnız qız evinin kişiləri, ağsaqqalları deməlidir. Odur ki, elçilər yenə çaya, süfrədəki yeməklərə əl vurmayıb, bəzən elə burada* ***kişi*** [151] *elçilərinin gələcəyi günü və vaxtını müəyyən elədikdən sonra, ayağa qalxaraq qız anasına: "Allah süfrənizə bərəkət versin, ev-eşiyinizi həmişə mehribançılıq, ülfət bürüsün, gün o gün olsun qızınızın bəxt ulduzu parlasın, qapınızdan şadlıq səsi əskik olmasın, inşallah" - və s. dil-ağız eylədikdən sonra onunla sağollaşıb oğlan evinə qayıdırlar.* ◆ *Elçilər qız evindəki bütün söz-söhbəti olduğu kimi onları gözləyən "hacılara" danışdıqdan sonra: "biz, getdik qızın "hə" cavabını aldıq, indi siz kişilər buyurub gedin elçiliyə, rəsmi razılığı alın, qurtarsın getsin"- deyirlər. Sonra oğlanın ata-anasına üz tutub: "Allah arzu-istəyinizə çatdırsın, oğlunuzun* ***nişan*** [205] *gününə gələk,* ***toy şirnisi****ndən* [269] *yeyək, inşallah" - deyə niyyət edirlər, irəlidəki rəsmi kişi elçiliyi, orada kimlərin iştirak etməsi və s. haqqında hamılıqla məsləhətləşib müəyyən qərara gəlirlər.* ◆ *Amma bəzi hallarda bu qeyri-rəsmi*

Azərbaycan Milli Kitabxanası

arvad elçiliyində qız tərəf oğlan evi qarşısında bir sıra ağır şərtlər, qəti tələblər qoyur. Məsələn, bəzən burada qızın bu və ya digər səbəbdən hələ də ərə getmək fikrində olmadığı və bundan ötrü oğlanın uzun müddət gözləməli olduğu bildirilir. Yaxud oğlan tərəfin kasıb olduğuna işarə eyləyib onlardan tələb olunan **toyxərci** [269]/ **başlığı** [29] vermək, qız üçün bu və ya digər bahalı əşyalar almaq iqtidarında olmadığı göstərilir. Və ya toydan sonra oğlan ilə qızın mütləq ayrıca bir evdə, mənzildə yaşaması tələb olunur və digər buna oxşar məsələlər ortaya çıxır ki, onların həlli üçün oğlan tərəfin qadınları 3-4 dəfə qız evinə gedib gəlir, bu da **nikah**a [203] qəti razılıq əldə etməyi şübhə altına qoyur. Belə olduqda, oğlan evi rəsmi kişi elçiliyinə [151] tələsməyib müəyyən vaxt ərzində "hazırlıq işləri" aparır. ◆ Ayrı-ayrı yerlərdə bu ikinci arvad elçiliyinə "sözbir // sözbirolma // sözbirelədi", "söyləşmə" və "sözqoydu // sözverdi" də deyirlər.

• II •

Ardı:
HƏ-YOX ◆ III
(57-ci səhifədə)

Azərbaycan Milli Kitabxanası

*bədxah ruhlardan qorumaq"* məqsədi güdülürdü. Sonralar bu taxt *"döş masası // döş stolu"* adı daşıdı.

## BƏYLİK TƏRAŞI // BƏY TİRAŞI

◆ Oğlan evindəki birinci, yaxud ikinci toy şənlikləri - **ixtilat** [141], yaxud **gəlingətirdi toyu** [98] günü günorta çağı **bəylik hamamı** [36] tədbirindən sonra **bəy oğlan**ın [36] üzünün və başının qırxılıb yeni biçimə salınması ilə bağlı mərasimin adı. Adətən, qızgildə keçirilən **gəlinbəzəmə** [98] mərasimi ilə eyni vaxtda icra olunan bu məclisə, əsas etibarilə, təzə evlənmiş cavan kişilər çağırılır. Buraya dəvət edilmiş dəllək toyxananın düz ortasında kürsü quraraq, ilk əvvəl, kiçik bir oğlanın başını tamam qırxıb daz eyləyir. Sonra bəy oğlan **sağdış-soldışı** [225] ilə buraya gətirilir və qaydaya görə, o uşağa pul verib onun yerində oturur. ◆ Bu halda dəllək *"bismillah"* deyərək, bütün qonaqların qabağında bəy oğlanın başını *"tiraş edib"* üzünü qırxır. ◆ Vaxtilə subay cavanlar başlarında *"tel"* və *"kəkil"* saxladığı halda, evli-arvadlı *"başıbağlı"* kişilər, bir qayda olaraq, 45-50 yaşına qədər iki cür saç saxlamışlar. Birincidə, baş alından peysərə qədər ensiz zolaq şəklində tamam qırxılır, yalnız yanlarda *"birçək"* saxlanır, ikincidə, baş ancaq alından əmgəyə kimi qırxılır ki, buna da *"dalbirçək"* deyilir. ◆ Uzaq keçmişdə bu mərasim zamanı sağdış bəy oğlanın başı üstündə hökmən ucu yuxarı bir bıçaq və ya xəncər, sonrakı dövrlərdə isə kəlləqənd tuturdu. Bu vaxt soldış, yaxud evin damına qalxmış cavanlar, bəy oğlanı şər qüvvələrdən qorumaq niyyətilə ov tüfəngindən göyə fasiləsiz atəş açır, qadınlar isə qaval çalıb ucadan oxuyurlar. ◆ Dəllək işini bitirib bəyin çətirini daradıqdan sonra cibindən bir güzgü çıxarır və bəy oğlanın üzünə tutur. Bəy güzgüdə özünə baxıb bığlarını burur və güzgünün üstünə bir qədər nəmər-pul qoyub onu dəlləyə qaytarır. Əksər hallarda isə bu haqqı sağdış və ya onun yaxın dostlarından biri verir. Bundan əlavə, dəlləyə qız anasının göndərdiyi bir xonça və ya xələt də təqdim olunur. Ondan ötrü bir xonçanı da oğlanın anası tutur. ◆ Dəllək xonçalardakı yeməli şeylərin hərəsindən bir az götürüb ağzına atır və ətrafdakılara *"toyunuz mübarək, payınız artıq olsun, subaylarınızdan görəsiniz, inşallah"* - dedikdən sonra, xonçalardakı şeyləri yaylığına və ya torbasına boşaldır, sağollaşıb toyxananı tərk edir. Bundan sonra buradakı qohum-qardaş növbə ilə bəyə yaxınlaşıb onu təbrik edərək: *"maşallah, bədnəzərdən uzaq olasan, Allah səni xətabəladan saxlasın", "səni görüm saqqalın ağarsın, oğul toyunda qırxdırasan"* və bu kimi xoş arzular diləyir. Arzular deyilib bitdikdən sonra sağdış-soldış bəy oğlanı toyxanadan çıxarıb yenidən sağdış və ya qonşunun evinə aparırlar. ◆ Sonralar bu mərasim, bir qayda olaraq, bəyin oturduğu otaqda icra olunmağa başladı. ◆ Əski adət-ənənəyə görə, qırxılmış saçı tapdalamaq, yaxud onu ətrafa dağıtmaq qəti qadağandır. Vaxtilə inanmışlar ki, kəsilmiş saç tapdalansa, adamı baş ağrısı tuta bilər. Odur ki, qırxılmış telləri bir qutuya yığaraq xəlvət bir yerdə basdırırdılar. ◆ Güman edilir ki, vaxtilə bu adət **bəydurma** [36] mərasiminin üzvü bir hissəsi olmuşdur. Lap uzaq keçmişdə isə bu mərasim həddi-buluğa dolmuş oğlanın saç-saqqalının tiraşı ilə evlənmək hüququ qazanıb *"evli-arvadlı kişilər cərgəsi"*nə keçməklə icmanın, cəmiyyətin tam hüquqlu üzvünə çevrilmək məqsədi güdmüşdü. ◆ Başqa sözlə desək, burada gəlin qız ilə olduğu tək, adaxlı oğlanın bu vaxta qədər saxladığı **subay**lara [241] məxsus saç biçimi **başıbağlı** [29] **kişilərin** [151] daradığı saç ilə əvəz edilir və o, artıq onların cərgəsinə daxil olur. ◆ Bəzi yerlərdə və ayrı-ayrı vaxtlarda bu mərasim *"başqırxdı"* (Qəbələ), *"güveylik tiraşı // güveytəraşlıq"* və *"sərtəraşi // sərtiraşlıq"* adlandırılmışdır.



Azərbaycan Milli Kitabxanası

## BƏY OĞLAN

◆ Yurdumuzun əsas etibarilə cənub-şərq torpaqları və bəzi bölgələrində çaldırılan **ixtilat toyundan** [141] sonra, yaxud **bəydurma** [36] mərasimi zamanı evlənmək, ailə qurmaq əzmində olan **adaxlı** [1] oğlana verilən ad. ◆ Bir para yerlərdə isə bu deyim *"bəy kişi"* təki səslənir.

## BƏYOYNATMA

◆ Oğlan evindəki ikinci toy şənliyi **gəlingətirdi toyunun** [98] axırında **bəyin tərifindən** [36] sonra, bir adət-ənənə olaraq, bəy oğlanın öz toyunda oynaması. ◆ Xalq əqidəsincə, bəy öz toyunda oynayarsa, hökmən bolluq, ucuzluq ola bilər. Bəy oynayan zaman ən yaxın qohum-qardaşı ona pul verməyə çalışır, alnına kağız pullar yapışdırır və ya cibinə basırlar. ◆ Bu deyimin *"bəyoynatması"* şəkli də var.

## BƏYPAYI

◆ Şəkidə və digər bölgələrdə **ərgən** [89] **qıza** [178] **nişan** [205] gətirildikdən sonra qız evinin oğlangili üçün hazırladığı sovqatın adı. ◆ Burada qız adamlarından bir cavan, içində bir kasa qatıq, dovğa, şirniyyat və digər yeməklər düzülmüş xonçanı **adaxlı** [1] oğlanın evinə gətirir. ◆ Güman edilir ki, bu ad *"qabqaytarma"*, *"vəzöurd"* adətinin bir başqa adıdır. Onun *"bəylayı"* deyiliş şəkli də var.

## BƏY SAĞDIŞI

◆ Bəzi bölgələrimizdə toy günləri, bir qayda olaraq, bəy oğlanın sağında gəzib dolaşan, məclislərdə onun sağ tərəfində əyləşən cavan evli kişi - **oğlan sağdışının** [208] adı. O, bu *"vəzifəyə"* böyük **nişantaxdı toyu** [205] mərasimindən sonra təyin olunur.

## BƏYIN SOLDIŞI

◆ Oğlan evində keçirilən bütün toy şənliklərində bəyi daima müşayiət edib, məclislərdə, adət üzrə, onun solunda oturan **subay** [241] dostlarından biri - **oğlan soldışının** [208] adlarından biri. Bəy oğlanın əsas mühafizəkarı, cangüdəni kimi bu cavan, adət-ənənəyə görə, **toy** [269] günləri özüylə hökmən silah gəzdirməlidir.

## BƏY ŞAXI

◆ Bir para bölgələrin dilində (Qazax, Ağstafa), toy ərəfəsində **oğlan sağdışının** [208], bir qayda olaraq, bəyin toyu münasibətilə hazırlayıb qaldırdığı toy qurğusu - **oğlan şaxının** [208] adı. ◆ Onu toy günü sağdışın evindən qaldırıb təntənə ilə bəy oğlanın evinə gətirirlər.

## BƏYÜ // BƏYÜKƏ

◆ Ötən dövrlərdə xalqımız arasında, bir adət kimi, **nikaha** [203] girərək, **toy** [269] vur-



Azərbaycan Milli Kitabxanası

durma yolu ilə başqa bir yad ailəyə, **ər evinə** [89] köçürülmüş qadın - **"gəlin"** [98] və **"təzəgəlin"** [267] anlamlarında işlənən sözlərdən. ◆ Sonrakı dövrlərdə onun *"bəyim"*, *"vəyü // veyə // viyü"* şəkilləri ortaya çıxmışdır.

## BƏYÜGÖRMƏ

◆ Uzaq keçmişdə toydan 7-10 gün sonra təzəgəlinin ata-anası və digər qohum-qardaşının onun görüşünə gəlməsi münasibətilə çağırılan qonaqlığın adı. Sonralar bu deyim təhrif olunaraq *"böyükgörmə"*, *"boygörmə"* şəkillərinə düşmüşdür. Əslində isə bu ad *"adağagetmə"*, *"duvax"* (Şəki), *"gəlingördü"*, *"xoşgəldin"* məclislərinin ən qədim adıdır. Onun *"bəyükəgörmə // bəyügördüsü"* tələffüz şəkilləri də olmuşdur.

## BƏYYANI

◆ Yurdumuzun bəzi bölgələrində **oğlan toyu** [208] günləri, addımbaşı **bəy oğlanı** [36] müşayiət edib məclislərdə onun sağ və sol böyründə əyləşən iki *"toy yoldaşı"* - **sağdış-soldışa** [225] verilən adlardan biri. Digər yerlərdə onları daha çox *"yançılar"*, yaxud *"böyük yançı"*, *"kiçik yançı"* kimi tanıyırlar.

## BƏY YENGƏSİ

◆ Bir para yerlərin dilində, toy-nişan tədbirlərində oğlan və qız evləri arasında vasitəçiliklə məşğul olan, toydan sonra da təzəgəlinə ər evində bələdçilik edən, oğlan evi tərəfindən təyin olunan **oğlan yengəsinin** [208] digər adı. Oğlan evi bu *"vəzifəni"* adətən bəy oğlanın yaxın qadın qohumlarından birinə - bəyin ərdə olan böyük bacısı, qardaşı arvadı, xalası və ya bibisinə həvalə edir.

**37.**

*"Gözələ bəzək nə gərək"*
*(atalar sözü)*

## BƏZƏK

◆ Ayrı-ayrı bölgələrimizdə qız toyu şənliklərinin üçüncü - **gəlinapardı toyu** [98] günü qız evindəki **üzalma** [278] zamanı ər evinə köçürülən gəlin qızın üz-gözünü boyayıb bəzəmək mərasimində istifadə edilməkdən ötrü hazırlanmış **həftrəng** [118] adlı yeddi növ ənənəvi kosmetik maddə və digər süsləməyə verilən ümumi ad. ◆ Buna bəzən *"bəzərlik"* də deyirlər.

## BƏZƏKÇİ // BƏZƏMƏÇİ

◆ Üç gün ərzində çaldırılan **qız toyuna** [178] xüsusi dəvət edilib, hamamdan çıxmış (bəzən hamamın özündə) gəlin qızı süsləyib geyindirən, onun üst-başını, qaş-gözünü *"düzəldən"* peşəkar süsləməçi, usta qadın. Əski çağlar və klassik ədəbiyyatımızda onu **məşşatə** [192] adlandırırdılar. ◆ Digər adət-ənənəyə görə, gəlin qızı **başıbütöv** [29] bir qadın bəzəməlidir. Şəkidə isə gəlinin saçını hökmən baldızı daramalı, bəzəyi də elə o vurmalıdır. ◆ Bu sənətçi ustanın digər adları *"bəzəkvuran"*, *"düzgünçü"*, *"zinətçi"*, *"yazıcı"*, *"pirayəbəxş"*, *"üzalan"*dır (Abşeron).



Azərbaycan Milli Kitabxanası

## BƏZƏK XONÇASI

◆ Bir vaxtlar toyun sabahı qızın dədəsi evindən **anapayı** [10] ilə birlikdə **təzəgəlinə** [267] gətirilən xüsusi bir **xonçanın** [138] adı. Buraya bir şüşə ətir, *"qaş daşı"*, sürmədan, bir qab *"qələyi-kirşan"*, ənlik, sabun, çətir darağı qoyulur. Xonçanı **oğlan evinə** [208] **qız yengəsi** [178], yaxud **dərnə** [61] gətirir.

## BƏZƏK OTAĞI

◆ Toy günü qız evində **gəlini** [98] bəzəmək üçün ayrılmış xüsusi otaq. Burada *"taxta qalxmış"* gəlin qızı **yengə** [296], **məşşatə** [192], qız **sağdış-soldışı** [225], bəzən isə oğlanın bacıları və yaxın rəfiqələri geyindirib bəzəyirlər.

## BƏZƏKPULU

◆ Bəzi yerlərdə **gəlinapardı toyu** [98] zamanı oğlan evi adamlarının, bir qayda olaraq, **oğlan yengəsinin** [208] geyinib-keçinmiş gəlin qızın başına qoyduğu pulun adı. ◆ Həmin pul gəlin qızı bəzəyən peşəkar usta - **məşşatə** [192], yaxud **qız yengəsinə** [178] çatmalıdır.

## BƏZƏKVURDU

*"Yaxşı bəzək vurun bizim gəlinə"*
(toy oxumasından)

◆ Bir para yerlərin dilində, **gəlinapardı toyu** [98] zamanı, **bəzək otağında** [37] ər evinə varan qızın geyindirilib bəzənməsi işinin adı. Bu işlə, bir qayda olaraq, **məşşatə** [192] qadın və ya **qız yengəsi** [178] məşğul olur. ◆ Əslində, digər yerlərdə *"gəlinbəzəmə"* adı ilə tanınan bu əməliyyata bəzən *"gəlinə bəzəkvurdu"* da deyirlər.

38.

## ● BİBİYOLU

◆ Qız evində qadınların iştirakı ilə çağırılan **paltarkəsdi toyunda** [215] oğlangildən **nişanlı** [205] qıza xonçalarda gətirilmiş **xələtlik** [132] parçalar, pal-paltar və s. əşyalar arasında, bir qayda olaraq, qızın doğma bibisi üçün nəzərdə tutulan hədiyyə - paltarlıq parçanın adı. ◆ Bu hədiyyə Gəncədə *"büvüyolu"* adını daşıyır.

39.

## ● BOĞÇA // BOXÇA

◆ İçinə sini, tabaq kimi sərt müstəvi qoyulmayan (**xonçadan** [138] fərqli olaraq), dördbucaq biçimdə bükülmüş, ucları bir-birilə düyünlənən, yaxud heç düyünlənmədən sancaqla bağlanan düyünçə - zərli ipək parça, kiçik süfrə və ya iri alabəzək yaylıq bağlaması. **Xeyir işlərdə** [129] müxtəlif pal-paltar, dəyişək, parça və bu kimi digər əşyaları üst-üstə yığıb boğça tutarlar. Toy zamanı, adətən, cehiz, hədiyyə, şirni və s. daşımaqdan ötrü çox sayda boğça tutmaq lazım olur. ◆ Qubada ona *"sərig"*, Qazaxda

Azərbaycan Milli Kitabxanası

isə *"bağlanc"* və *"bükülü"* deyirlər. ◆ *"Buxça"* deyiliş şəkli də mövcuddur. **Toy** [269] tədbirlərində *"bəy boğçası"*, *"gəlin boğçası"*, *"hamam boğçası"*, *"cehiz boğçası"* və bu kimi adlar daşıyan bağlama növlərindən istifadə olunur.

**40.**

## BOYGİZLƏTMƏ

◆ Ötən çağların adətincə, böyük **nişantaxdı toyu** [205] mərasimindən sonra **nişanlı** [205] qızın üzünü **adaxlı**sının [1] kişi qohumları və tay-tuşlarından gizlətməsi, **yaşmaq** [291] tutması. Bu da qızın artıq *"özgə malı"*, yalnız müəyyən bir kişiyə məxsus olduğuna işarədir. ◆ Bir para yerlərdə bu adətə *"üzgizlətmə"*, *"boyqaçırma"*, *"yaşınma // yaşmanma // yaşırma // yaşmaqlanma"* deyirlər.

## BOYGÖRDÜSÜ

[ *qədim "bəyügördüsü" deyiminin təhrif olunmuş şəklidir* ] ◆ Oğlan toyu şənliklərinin ikinci - **gəlingətirdi toyu** [98] günü **ər evinə** [89] gətirilmiş **gəlin qıza** [178] **oğlan** [208] anasının bağışladığı **xələt** [132] və ya hədiyyənin adı. Bəzi yerlərin adətincə, qırx gün **gərdək** [100] arxasında gizlənmiş təzəgəlinin onunla görüşə gələn qonum-qonşudan hədiyyə aldıqdan sonra *"üzə çıxması"* da bu cür adlanır. ◆ Onun başqa adı *"boygörüncəyi // üzgörüncəyi"* və *"düzayağı"* dır. *"Boygörümcəyi"* deyiliş şəkli də var.

## BOYGÖRMƏ

[ *"bəyügörmə" deyiminin sonrakı təhrifidir* ] ◆ Naxçıvan diyarında toydan sonra oğlan evində cavan qadın və ərgən qızların təzəgəlinlə ilk görüşü və tanışlığı ilə bağlı **xoşgəldin** [139] məclisinin adı. Başqa yerlərdə ona *"duvax"* (Şəki), *"gəlingördü"*, *"qızyığdı"* və *"bəyügörmə"* də deyilir.

**41.**

## BÖYÜK ELÇİLİK

◆ Bəzi yerlərin dilində **hə-yox** [121] qeyri-rəsmi kiçik kişi elçiliyindən sonra oğlan atasının, yaxın qohumları ilə təkrarən qızgilə yollanıb **qız evinin** [178] rəsmi *"həri"* cavabını alması ilə bağlı növbəti və əsas sayılan elçiliyin başqa adı. ◆ Ona çox vaxt *"böyük kişi elçiliyi"* və ya *"həriald1 // hərivermə"* də deyirlər.

## BÖYÜK MƏSLƏHƏT

◆ **Oğlan toyu** [208] şənlikləri ərəfəsində **oğlan evində** [208] keçirilən ikinci *"məsləhət gecəsi"*nə Şəkidə verilən ad. Birinci **kiçik məsləhət**dən [150] fərqli olaraq, buraya daha çox adam toplanır, toya hazırlıq işləri, ayrı-ayrı qohumlara tapşırılmış vəzifələr bir daha yoxlanıb dəqiqləşdirilir, axşam isə yığışanlar üçün süfrə açıb, **məsləhətaşı** [191] verirlər.



Azərbaycan Milli Kitabxanası

## BÖYÜK NİŞAN

◆ Bir para yerlərdə qızı nişanlamaq məqsədilə qadınların keçirdiyi **üzükşal toyu** [282] kiçik nişan mərasimindən bir müddət sonra qız evinin oğlan adamları ilə birlikdə keçirdiyi böyük **nişantaxdı toyu** [205] mərasiminin adı. ◆ Keçmişdə yalnız kişilərin iştirakı ilə keçirilən bu məclis sonralar kişili-arvadlı tərkibdə icra olunmağa başladı. Bəzi yerlərdə bu mərasimə *"ikinci nişan"* da deyilir.

## BÖYÜK TOY

*"Bu gün böyük toydu, gəlin"*
(toy oxumasından)

◆ Bəzi bölgələrimizin dilində, üç gün, üç gecə oğlan evində çaldırılan **ixtilat** [141], **gəlingətirdi** [98] və **üzəçıxdı toyu** [278] mərasimlərinin ümumi adı. Başqa bölgələrdə onu *"ağır düyün // ağır toy"*, *"böyük düyün"*, *"oğlan toyu"* və *"kişi toyu"* adlandırırlar.

## BÖYÜK ÜZÜK

◆ Oğlan evindən qızgilə böyük **nişantaxdı toyu** [205] mərasimində gətirilib, bir qayda olaraq, təntənəli surətdə ərə verilən qızın sol əlinin adsız barmağına taxılan nişan üzüyünün adlarından biri. Bəzi yerlərdə o, *"bəxt üzüyü"* və *"əyrəmçə"* adı daşıyır.

## BÖYÜK YANÇI

◆ Şəki bölgəsində oğlan evində çaldırılan toy məclisləri zamanı bəy oğlanın qardaşlığı, yaxın dostu və *"toy yoldaşı"* sayılıb, bir qayda olaraq, addımbaşı bəyi müşayiət edib şənliklərdə onun sağ tərəfində əyləşən cavan kişi - **oğlan sağdışının** [208] adı.

**42.**

## ● CEHİZ

*"Cehizin can sağlığına qismət olsun"*
(el xeyir-duası)

[ *"cihaz" sözündən olub ev avadanlığı deməkdir* ] ◆ Ərə verilən qıza ata-anası tərəfindən hazırlanıb gündəlik həyat, ev-eşik üçün ən vacib sayılan şeylər toplusu. Qız evi bu avadanlığı oğlangildən aldığı **başlığın** [29] hesabına əldə edir. Adət-ənənəyə görə, qızın atası oğlan tərəfdən başlıq alıbsa, o hökmən qızına avadanlıq qoşmalıdır. ◆ Vaxtilə kasıb ailələrində bu avadanlıq anasından qızına bir miras tək ötürülürdü. Qız doğulduğu gündən başlayaraq, anası öz cehizindən qalmış əşyalara çatmayanları yenidən alıb əlavə edərək, ayrıca bir sandıqçaya yığırdı. El-oba qaydasına görə, şeylərin çoxunu nişanlı qız özü, öz əllərilə hazırlayır, xalı, corab toxuyub, saatqabı, tənbəki kisəsi və s. tikirdi. Varlı ailələrdə isə cehizi büsbütün yenidən və təzəsini toplayırdılar. ◆ Əslinə qalarsa, tədarük işləri böyük **nişantaxdı toyundan** [205] sonra, çox vaxt isə lap beşikdən, qızın uşaqlıq yaşlarından başlayıb, toy günlərinə qədər davam etdirilirdi. Bu müddət ərzində həmin avadanlığın bir hissəsi qonum-qonşu qadınların köməyilə düzəlir, yun yuyulub daranır, yorğan-döşək tutulur, xalça-palaz toxunur və s. ◆ El-oba qaydasınca, buraya köməyə gəlmiş hər subay qıza bir tikə yorğan-döşək parçasından və bir çəngə yun verib *"başına gəlsin"* deyirlər. Yaxın qohumların verdiyi və qonaqların özlərilə **qız toyuna** [178] gətirdikləri hədiyyələr

Azərbaycan Milli Kitabxanası

(bunlar qazan, tas, ləyən, sürahi, və s. olur) də bu avadanlığa qatılır. Qız evi kasıb olduqda, çox vaxt adaxlı oğlan özü bu əşyaları toplayıb toy gününə qədər qızgilə çatdırır və **gəlinapardı toyunda** [98] onu gəlin qız ilə birlikdə ər evinə daşıyırlar. ◆ Keçən əsrin əvvəllərində qeydə alınmış və bu avadanlığa daxil olan ənənəvi əşyalar bunlardır: ilk öncə, vaxtilə hər ev, hər ailə üçün vacib sayılan Quran nüsxəsi, sonra üstündə namaz qılmaq üçün əbrişim şaldan tikilmiş iki-üç canamaz, möhürqabı, yüz bir danəli təsbeh. Daha sonra - ikiadamlıq qırmızı yorğan və qırmızı məxmərdən üzlənmiş böyük taxt döşəyi, iki yun döşəkçə, iki tük mütəkkə, bir böyük nazbalınc, qayınata-qayınana üçün iki kiçik döşək. Nişanlı qızın özü, yaxud qız evi qadınları tərəfindən bəy oğlan üçün hazırlanmış tikmə əl işləri - güləbətinli tirmə araxçın, ipək daraqqabı, saatqabı, zərxaradan on iki ədəd tənbəki və pul kisəsi, 20-30 cüt çarıqbağı, at üçün zinpuş, qələmdanqabı və s. Yenə məişət üçün dəstərxan süfrə, əl-üz dəsmalı, isti qabları qaldırmaq üçün yeddi cüt *"tutqac"* və s. ◆ Gəlinin özü üçün sürmədan, ətirqabı, qayçıqabı, iynəqabı, sayı yeddi olmaqla iynə, qıyıq, güləbətinli pərdəbağı, ipək tumanbağı, taxça və güzgü pərdəsi, qara ayağdaşı və s. Bunlardan başqa, bir *"camaxatan sandığı"*, yun məmulatından bir-iki xalça-palaz, camədan-məfrəş, xurcun, saxsı qab-qacaqdan - nehrə, küpə, kuzə, aşsüzən, ağac məmulatından - yeddi taxta qaşıq, tabaq, oxlov, çanaq, çömçə, çörəkqabı, bazardan alınmış təzə, yaxud yenicə qalaylanmış mis qab-qacaq, gəlinin yuyunması üçün böyük teşt, farş, qazan, gülabzən, mis aftafa-ləyən, hamam satılı, altı kabab şişi və s. metal əşyalar. ◆ El-oba adətinə görə, buradakı mis, yaxud saxsı su qablarını yeni mənzilə əsla boş aparmaq olmaz, onlar hökmən su ilə doldurulmalıdır. Bundan əlavə, gəlin özüylə **ər evinə** [89] müxtəlif rəngli parçalardan tikilmiş yeddi kiçik torbada (hərəsi bir kq), yeddi cür taxıl növü - buğda, arpa, düyü, mərci, noxud, lobya, darı və **uğursuyu** [271] deyilən bir səhəng təmiz içməli su və bir qab neft aparırdı. ◆ Qaydaya görə, qız gəlin köçürüldükdə, ayaqqabısından başqa, istədiyi bütün paltarlarını yeni mənzilinə apara bilər. Amma bəzi yerlərin adətincə, gəlinin bəxti ağ olsun deyə, avadanlıqla, bəzən isə elə qızın özüylə onun bir tay köhnə ayaqqabısı da ər evinə aparılır. ◆ Bir sözlə, şeylər siyahıya alındıqdan sonra bədnəzərdən qorumaqdan ötrü onları qırmızı qaytan və lentlərlə sarıyaraq cecim sandıqlarına yerləşdirirlər. ◆ Ötən əsrlərdə varlı ailələrdən ərə verilən qızların ata-anası övladlarına malqara sürüsü, ev-imarət, zəmi və bağ-bağça kimi *"şeylər"* qoşur, hökmdarlar isə gəlin köçürdükləri qızlarına, bir adət olaraq, geniş bir ərazi və ya bir neçə kənd bağışlayırdılar. ◆ Xalqımızın adətincə, qıza verilən bütün şeylər onun şəxsi malı hesab edilir, o icazə vermədikdə əri onlardan istifadə edə bilməz. ◆ Bəzən el içində həqarətlə deyilən *"cehizindən xeyir görməyəsən"*, yaxud *"cehizin qayıtsın"* kimi bəddualar hələ də yaşamaqdadır. ◆ Ayrı-ayrı dövrlərdə, müxtəlif bölgələrdə qız ərə verdikdə ona qoşulan bu ev avadanlığı - *"ağırlıq"*, *"barxana // qız barxanası"*, *"verdik // verdük"*, *"dədəverdi // dədəmalı"*, *"mal"* (Şəki), *"kabin"*, *"öllüx-dirilıx"* (Quba), *"sədəqə"*, *"təchiz"*, *"tuti"*, *"xərcxəcələt"* (Salyan), *"cehiz qoşma // cehizləmə // cehizçilik"*, *"cer-cehiz"*, *"şeylan"* və bu kimi adlar daşıyır. Onun *"cehaz // ceyiz // cihaz"* (Ordubad) deyiliş şəkilləri də var.

*"Cer-cehizin vurmuş yükə"*
(toy oxumasından)

## CEHİZ ALAYI

◆ Əksər hallarda **gəlinapardı toyu** [98] günü gəlin qız ər evinə varan zaman, yaxud bundan bir və ya bir neçə gün əvvəl, onun ev avadanlığının dədəsi evindən təzə

mənzilinə daşınması. Qız evi buna qabağcadan hazırlaşaraq, yorğan-döşək, xalça-palaz, qab-qacaq və bu kimi əşyaları çuval, kisə, yun məfrəş, müxtəlif qutu, böyük və kiçik sandıqlara (sonralar - çamadanlara) və boğça-bağlamalara yığıb qablaşdırır. ◆ Oğlan tərəf müxəlləfatın daşınmasından əvvəl, bir qayda olaraq, qız evinə **kəbin kağızını** [143] təqdim etdikdən sonra qızın qardaşları, əmisi və dayısı oğlanları, bəyin dostları və **sağdış-soldışı** [225] avadanlığı miniklərə yükləməyə başlayırlar. Amma çox vaxt bundan əvvəl avadanlıq ətrafdakılara nümayiş etdirilir. Burada ilk öncə çörək-şirniyyat bağlamaları və müxtəlif xonça-xələt açılıb göstərilir. ◆ Vaxtilə kənd yerlərində evlənənlərin mənzili yaxın olduqda, ev əşyaları tabaq və sinilərə qablaşdırılıb xüsusi *"tabaqkeş"* lərin, yaxud subay oğlan və qızların başlarında oynaya-oynaya, oxuya-oxuya piyada oğlan evinə çatdırılırdı. ◆ Bəzən bu üsulla avadanlıq daşıyanlar şeylərin *"hədsiz ağır"* olduğunu bildirmək üçün tez-tez əyilib bükülür, guya taqətdən düşüb durur, əşyaların daşınmasından imtina etmək istəyirdilər. Bunu görən oğlan evi adamları onlara xələt, pul boyun olub ruhlandırırdılar. Əslində isə, bu cehizin nə qədər ağır və çox olduğunu ətrafdakılara nümayiş etdirməkdən ötrü *"oynanılan"* adicə tamaşa idi. ◆ Bəzi kənd yerlərində isə avadanlıq sıraya düzülüb xalça və zınqrovlarla çullanmış ağ atlar üzərində, yaxud at-arabada, şəhərlərdə isə faytonlarda daşınmışdır. Burada hər minikdə bir ev əşyası aparılır, belə ki, ön sırada bir atlı əlindəki sinidə Quran nüsxəsi, onun üstündə isə canamaz aparırdı. İkinci atlı - güzgü, üçüncü - şamdan və ya lampanı yandırıb əlinə alırdı. Başqa miniklərdə isə əllərində, içində çay-qənd olub üstü parça ilə örtülmüş sini, gülabzən, samovar, qumaşa sarılmış yorğan-döşək və s. tuturdular. **Cehiz sandıq**ları [42] və mücrüləri at belinə salınmış xurcunlara yerləşdirir, yaxud bütün avadanlıq bir-iki arabaya qalanırdı. Qız evi varlı olduqda, bu işə həddindən çox at-araba cəlb edirdi. Ev əşyaları ilə yanaşı qız anası, gənc ailə üçün müəyyən miqdarda un, yağ, düyü və s. ərzaq qoyurdu. ◆ Əşyalar **cehiz siyahısı** [42] üzrə oğlan tərəfə təhvil verilib qol çəkdirildikdən sonra siyahını geri aparırdılar. Gətirilmiş avadanlıq **gəlinlik otağı**na [98] yığılır və otaq üzərlik tüstüsünə tutulurdu. Sonra qız evindən gəlmiş qadınlar otağı bəzəməyə başlayırdılar ki, ona da xalq arasında **cehizdüzdü** [42] deyilirdi. ◆ İşlərini bitirmiş *"cehiz daşıyanlar"* - *"ay, mübarək olsun, Allah xeyrə calasın"*, *"can-sağlıqlarına qismət olsun"*, *"ömürləri uzun, günləri xoş keçsin, inşallah"* - və bu kimi xoş sözlər dedikdən sonra qonşu otağa süfrə başına dəvət olunurlar. ◆ Naxçıvan diyarında qız cehizi **ər evinə** [89] toydan bir gün sonra aparılır, burada bütün əşyalar, bir-bir yeni qohumlara nümayiş etdirilir. Qubada isə qız evində qızın xalası, yaxud **yengəsi** [296] tərəfindən cehiz sandıqları açarla bağlanır və yeni mənzilə gətirildikdən sonra sandıq üstə qoyulur. Oğlan anası gəlin qızın qardaşına cehizi daşıyıb düşürmək üçün xüsusi **nəmər** [201] və ya **xələt** [132] verir. ◆ Bir para yerlərdə əksər hallarda avadanlıq yüklənib araba və ya arabalarla **toy alayı** [269] sıralarında gəlinlə birlikdə aparılır. ◆ Ayrı-ayrı yerlərdə bu işə *"cehizapardı // cehizdaşındı // cehiz dəstgahı"* da deyilir.

## CEHİZ BOĞÇASI

"Qızının cehizi boğçada qalsın"
(qarğış)

◆ Qız evində **gərdək gecəsi** [100] üçün hazırlanmış bir boğçanın adı. Buraya gəlin qızın həmin gecə istifadə edəcəyi iki **ərus dəsmalı** [90] ilə yanaşı, **oğlan sağdış-soldışı** [208] üçün hədiyyə də yerləşdirilir. Bu boğça gəlinlik cehizi ilə birlikdə, yaxud **toy alayında** [269] **dərnənin** [61] əlində ər evinə gətirilib gəlinlik otağına qoyulur. ◆ Onun başqa adı *"cehizlik boxça"*, *"qız boğçası // qızlıq boğça"*dır.



Azərbaycan Milli Kitabxanası

"Gəlin axçalı olanda, cehizi boğçalı, ev-eşiyi taxçalı olar"
(atalar sözü)

## CEHİZCƏMƏN

[ *"cehiz cəmiən" sözündən olub, tamam dəstgah cehiz anlamındadır* ] ◆ Əski zamanlar işlənən və klassik ədəbiyyatımızda təsadüf olunub, adət-ənənəyə görə, gəlin qız üçün ata-anası tərəfindən bütün xırdalıqlarına qədər tərtiblənmiş, necə deyərlər, əskiksiz, qüsursuz və çox zəngin **gəlinlik cehizi** [98] mənasında istifadə edilən deyim.

## CEHİZÇİ

◆ **Kiçik və böyük nişan** [150], [41] mərasimlərindən başlayaraq, toya qədərki müddət ərzində qızın dədəsi evində, bir vəzifə olaraq, ərə veriləcək qıza **cehiz** [42] avadanlığı tərtibləməklə məşğul olan ailə üzvünə verilən ad. ◆ Bir vaxtlar xüsusi olaraq cehiz əşyaları hazırlayıb onları satmaqla məşğul olan şəxs də belə çağırılırdı.

"Gün o gün olsun, gəlin otağını bəzəyim"
(el xeyir-duası)

## CEHİZDÜZDÜ

◆ **Gəlingətirdi toyu** [98] günü ər evinə gətirilmiş cehizin **gəlinlik otağı**nda [98] yer-bəyer edilərək səhmana salınması işi. Qız anası bundan ötrü cehizlə birlikdə üç-dörd qohum qadını - gəlin qızın doğma bacısı, **başıbütöv** [29] qadın və **qız yengəsini** [178] oğlan evinə göndərir. Onlar burada avadanlığı düzüb səhmana salmazdan əvvəl, otaq bədnəzərdən uzaq olsun deyə, onu büsbütün üzərlik tüstüsünə tuturlar. İlk öncə Quran nüsxəsi, sonra isə qırmızı qaytanla sarılmış əşyalar pəncərə, dolab və taxçalara düzülür, paltar sandıqları isə camaxatana yerləşdirilir. ◆ Qız yengəsi bəy ilə gəlinə xüsusi guşə - **gərdək** [100] hazırlayır, başıbütöv qadın, bəzən qız yengəsi özü nikah yatağına yorğan-döşək salır. ◆ İş bitdikdə, qız evi adamlarına şirni və xələt paylanır, onlar da *"mübarək olsun"*, *"cansağlığına qismət olsun"* və s. dil-ağız edib qızın dədəsi evinə qayıdırlar. ◆ Buna *"gəlin otağı bəzəmə"*, *"qabdüzdü"* (Abşeron), *"ceyizdüzmə"*, *"mənzilbəzəmə"* də deyirlər. Qız evində cehiz hazırlama işi də bəzən bu adı daşıyır.

"Yaxşı qızın cehizi bəylərə xələt gedər"
(toy oxumasından)

## CEHİZ GÜNÜ

◆ Ər evinə aparılmazdan əvvəl gəlin qızın dədəsi evində siyahıya alınmış cehizin sərgilənməsi. Burada bütün əşyalar həyətə, yaxud bağçaya çıxarılıb divara çalınmış mismarlardan asılır. Ayrıca bir xonçada bəy oğlan üçün tikdirilmiş **bəylik paltarı** [36] nümayiş etdirilir. Kəndin, məhəllənin ərli qadınları, qız-gəlin və uşaqları həyətə toplanır, bir tərəfdə oxuyub rəqs edirlər. ◆ *"Baxış-sərgiyə"* gələnlər əşyaları diqqətlə, bir-bir gözdən keçirdikdən sonra gəlin qıza və anasına: *"cehizin can sağlığına qismət olsun"*, *"təzə evin düşərli olsun"*, *"halal günün olsun"* və s. xoş arzular diləyirlər. ◆ Bu məqamda oğlan anası bir xonça ilə qızgilə gəlib xonçanı gəlinin yorğan-döşəyini sırımış **başıbütöv** [29] qadına verir. Sərgilədə sonsuz qadın, qırxı çıxmamış zahı və yas saxlayan qadınların iştirakı məsləhət görülmür. ◆ Bu avadanlıq baxışına ayrı-ayrı yerlərdə *"cehiz təşhiri // cehizgördü // cehizüstü"* də deyirlər.

## CEHİZ XƏLAİQİ

[ *buradakı "xəlaiq" kəniz, xidmətçi anlamındadır* ] ◆ Ötən çağlarda varlı ailələrdə çaldırılan

Azərbaycan Milli Kitabxanası

**gəlinapardı toyu** [98] günü, adət üzrə, ərə verilmiş gəlin qızın **cehiz** [42] avadanlığı ilə birlikdə bu gənc xanımın yeni mənzilinə - **ər evinə** [89] köçürülən xidmətçi qız, kəniz və ya cariyəyə verilən ad.

## CEHİZLİK

◆ Ər evinə varan gəlin qıza **cehiz** [42] məqsədilə atası evində toy ərəfəsində hazırlanıb ayrılmış ev avadanlığı və əşyaların adı. Adət-ənənəyə görə, buradakı *"cehizlik boğça"*, *"cehizlik qab-qacaq"*, *"cehizlik xalça-palaz"* və bu kimi əşyalar, qırmızı qaytan, yaxud şilə ilə sarınır.

## CEHİZPULU

◆ Bəzi yerlərin dilində, bir qayda olaraq, nişan mərasimlərindən sonra toyqabağı tədarük və **gəlinlik cehizinin** [98] alınması üçün oğlan evinin nişanlı qızın ata-anasına göndərdiyi maddi vəsait - **başlığın** [29] başqa adı. Ona *"qızyolu // qızpulu"*, *"yolpulu"*, *"rahpulu"* da deyilir.

## CEHİZ SANDIĞI

◆ Gəlin qızın cehizinə məxsus bəzi əşyaları qablaşdırmaq və yeni mənzilə - ər evinə daşınmasından ötrü xüsusi alınmış güzgülü sandıq növü. ◆ Qızın anası cehiz sandığına bir ovuc duz, bir tikə çörək və iynə-sap da yerləşdirər ki, övladının əli yeni qurduğu ailə üçün ruzulu, bərəkətli, özü isə zəhmətsevər olsun. ◆ Ona həmçinin *"güzgülü sandıq"* da deyilir.

## CEHİZ SİYAHISI

*"Nalça verərlər gəlinə, dolça verərlər gəlinə"*
(toy oxumasından)

◆ **Cehizyazma** [42] zamanı savadlı bir şəxs tərəfindən tərtib edilən sənəd - ər evinə aparılan yorğan-döşək, qab-qacaq və bütün digər cehiz əşyalarının adı, sayı və dəyərini sıra ilə sadalayan siyahı. ◆ Adət-ənənəyə görə, bu siyahıya, ilk öncə, Quran nüsxəsi salındıqdan sonra, bir-bir bütün əşyaların adı yazılır və axırda onların ümumi dəyəri hesablanır. İki nəfər - biri oğlan, biri qız evi tərəfindən sənədin altına tarix qoyur, *"biz qızın yuxarıda göstərilən qədər cehiz aparmasına şahidik"* - sözlərini yazır və imza atırlar. Siyahı iki nüsxədə tərtib olunur. Avadanlıq oğlan evinə bu sənəd üzrə təhvil verildikdə, qız tərəf *"verdim"* sözü yerində, oğlan atası və ya bəyin böyük qardaşı *"aldım"* hissəsində imza atıb bir nüsxəsini cehiz gətirənlərə qaytarırlar. Nəhayət, bu siyahı saxlanmaqdan ötrü qızın anasına çatdırılır.

## CEHİZÜSTÜ

*"Qız yükü, duz yükü"*
(atalar sözü)

◆ Üç gün davam edən **qız toyu** [178] mərasimlərinə çağırılmış qonaqların, bir qayda olaraq, **gəlinlik cehizinə** [98] qatmaq üçün gətirdikləri bütün əşyalara (bunlar əsas etibarilə, müxtəlif qab-qacaq olur) verilən ad. Bir para yerlərdə **cehiz günü** [42] tədbiri və oğlan anasının oraya gətirdiyi xonça da bu adı daşıyır.

Azərbaycan Milli Kitabxanası

## CEHİZYAZMA

◆ Qızgildən oğlan evinə aparılacaq ev avadanlığının toy ərəfəsində və ya **gəlinapardı toyu** [98] günü siyahıya alınması mərasimi. ◆ Həm qız, həm oğlan evi bu mərasimə bərabər sayda adam çağırır. Qız tərəf bir neçə məhəllə ağsaqqalını da bu məclisə dəvət edir. Şirni düzülür, hərə bir stəkan şirin çay içib **şirni**dən [259] yedikdən sonra: *"əlhəmdülillah"*, *"Allah mübarək eyləsin"* - deyib kənara çəkilir. Süfrə yığılır və **cehiz siyahısının** [42] tərtiblənməsinə başlanır. ◆ Bir vaxtlar bu siyahını kənd mollası, yaxud savadlı bir şəxs, adətən kənd müəllimi tuturdu. Siyahı tərtib olunub imzalandıqdan sonra oğlan adamları qız evinin cavanları ilə birlikdə gəlin qızın avadanlığını daşıyıb miniklərə yükləyirlər. İş bitdikdə oğlan tərəf *"cehizyazana"* bir hədiyyə bağışlayır. ◆ Bəzi yerlərdə bu məclisə *"cehizin yazılması"*, *"siyahıyaalma // siyahıya çağırdı"* da deyirlər.

**43.**

## ● CIDIR

◆ Əski kənd toyu tədbirlərində gəlin ər evinə aparılan zaman **toy alayında** [269] müəyyən məsafəni tez qət etmək məqsədilə atçapma yarışına çıxma. Burada son səddə birinci çatan atın boğazına qırmızı kəlağayı bağlanır. Atçapma zamanı bəzən bir neçə maneə də dəf edilir. Bu toy cıdırına *"sürək"*, *"çapış // çapışma"* da deyilir.

## CIDIRAĞAC

◆ Ötən çağlar kənd toylarında icra olunan özünəməxsus bir atüstü oyunun adı. ◆ Burada, ilk əvvəl, yerdə xəndək qazılır. Oyunçular 10-12 atlıdan ibarət iki dəstəyə bölünür. Dəstələr aralanıb bir-birindən müəyyən məsafədə durur. Hər atlı bir əlinə 1m. 42sm. uzunluğunda dəyənək - *"cıdırağac"*, o biri əlinə isə qarmaq alır (onunla yerə düşmüş dəyənəyi qaldırırlar). Bəziləri qarmaq götürmür. Sonra hər dəstədən bir atlı atını qabaq-qarşı çapır və dəyənəyi o birisinə doğru atır. Ağacın ona tərəf atıldığını görən o biri atlı gərək dəyənəkdən yayınsın, yaxud onu havada vurub salsın. Bir sözlə, ağacını itirən atlı uduzmuş sayılır. ◆ Bu oyunun mükafatı bir erkək olardı ki, onu da oğlan evi verərdi.

## CIDIRÇI

◆ Gəlin qızı ər evinə aparan **toy alayını** [269] müşayiət edən atçıya (onların sayı 10-20 nəfərə çatır) Gəncədə verilən ad. Başqa yerdə ona sadəcə *"atlı"*, yaxud *"özünəbəy"* deyirlər. ◆ Həmçinin, **cıdır** və **cıdırağac** [43] yarışlarında iştirak edən atçının adı.

**44.**

*"Gəlinə bax gəlinə, cığcığa vurub telinə"*
*(toy oxumasından)*

## ● CIĞCIĞA

[ *xırda, yastı və dəyirmi nazik metal lövhəcikləri* ] ◆ Gəncə bölgəsində gız köçürəndə onun



Azərbaycan Milli Kitabxanası

saçına vurulan parlaq bəzək-düzəyin adı. ◆ Bəzi yerlərdə gəlinin başındakı qırmızı **duvağın** [72] üstü də onunla bəzənir. Xalq arsında gəzən *"bir başlıq cığcığa"* ifadəsi elə buradan törənib. ◆ Gəlinin başına salınan qızıl, parıltılı bir zinət əşyası, həmçinin qızın üzünə yapışdırılan və ya üstünə səpilən ağ-sarı *"pərək"*lər də bu adı daşıyırlar.

## CIĞCIĞALAMA

◆ Gəncə bölgəsində **gəlinapardı toyu** [98] günü **qız yengəsi** [178] və ya **məşşatə** [192] tərəfindən **gəlinbəzəmə** [98] zamanı gəlin qızın üzünə, saçına və **duvağına** [72] parıltılı, alabəzək *"pərək"*lər - **cığcığa** [44] taxmaqla onu süsləmək işi.

45.

## CİLOVDAR

*"Bacım gedir, cilovdarı kim olsun"*
(toy oxumasından)

◆ Bir vaxtlar **toy alayının** [269] önündə at belində gedən gəlin qızı ər evinə aparan atı cilovundan tutub onun başını çəkərək aramla addımlayan şəxsə verilən ad. ◆ Qızı ər evinə yola salan *"qız evi adamları"* arasında **yengədən** [296] sonra yer tutan bu şəxs qızın doğma dayısı, kiçik qardaşı, yaxud **oğlan sağdışı** [208] olardı. O, gəlin qıza at üstə və ya miniyə qalxıb-düşməkdə kömək edər, onu **bəy qapısına** [36] çatdırıb oğlan adamlarına tapşırdıqdan sonra geriyə, qızın dədəsi evinə qayıdardı. Onun *"cilovkəş // cilavdar"* (Naxçıvan) deyiliş şəkilləri və *"inandar"*, *"rikabdar"* adları da vardı.

46.

## CİLVƏ

*"Aç üzünün pərdəsini, görüm mən deyəndimi"*
(toy oxumasından)

◆ Ötənlərdə gəlingətirdi toyunun sonu - **gərdək gecəsində** [100] gəlin qızın çöhrəsini **bəy oğlana** [36] açması və bunun əvəzində bəyin qıza verdiyi **üzgörümcəyi** [278] hədiyyəsinin əski adı. Elə həmin çağlar bəy ilə **gəlinin** [98] ilk görüşü, **nikah** [203] yatağı və həmçinin, qıza bu gecə üçün xüsusi tikilmiş paltar da bu adı daşıyırdı. ◆ Onun *"cəlvə"* deyiliş şəkli də mövcuddur.

47.

## CÜMƏLİK

[ *"bayram libası" anlamındadır* ] ◆ Əski zamanlar bir para qərb bölgələrimizin adətincə, ərə veriləcək **nişanlı** [205] qızın dədəsi evində, sonralar isə **təzəgəlinin** [267] öz evində hər cümə günü geydiyi təmtəraqlı və zəngin bir paltarın adı.

48.

## ÇAĞIRIŞÇI

◆ Ötən çağlar Quba bölgəsində **toy** [269] şənliklərindən bir neçə gün əvvəl evləri qa-



Azərbaycan Milli Kitabxanası

pı-qapı gəzərək, bir qayda olaraq, tapşırılan adamları **şirni toyu** [259] və əsas toy məclisinə çağıran **toy dəvətçisinə** [269] verilən adlardan biri. Onun *"çağruqçı // çağırıççı"* (Qazax-Ağstafa) deyiliş şəkilləri də olmuşdur.

49.

## ÇARŞABYOLU

◆ Bir para bölgələrin adətincə, toy şənliklərinin gəlin köçürülən günü - **gəlinapardı-gəlingətirdi toy**larında [98] gəlin qızın miniyə minib-düşdüyü zaman onun keçdiyi yolun iki tərəfindən pərdə tək çadra və kəlağayılar tutmaqla qurulan *"dəhliz"*ə və gəlin qızın beləcə əmələ gəlmiş *"yol"* ilə aparılmasına verilən ad. ◆ **Çarşabyolu** [49] ilə gəlin qızı əvvəlcə dədəsi evindən çıxarıb miniyə, sonra da minikdən **bəy qapısına** [36] qədər aparırlar. ◆ Bəzi yerlərdə ona *"çadrayolu"* da deyirlər.

50.

## ÇƏNGİ

◆ Orta çağlar toy məclislərində oxuya-oxuya rəqs edən rəqqas və rəqqasəyə, o cümlədən çəng çalğı alətində çalan musiqiçiyə verilən ad. ◆ Keçən əsrin əvvəllərində şəhərlərdə varlı toylarına dəvət edilən qaraçı rəqqasələri də bu adı daşımışdı. Rəqs zamanı onların başdan-ayağa ipək, tül və ya qazdan ibarət olan libaslarında bədənlərinin bəzi yerləri çılpaq qalır, qollarından və ayaqlarından metal bəzəklər asılırdı. Ayaqlarında güləbətin və ya bafta ilə işlənmiş dikdaban ayaqqabı, başlarında - daşlı-qaşlı çutqu, üzləri ənlik-kirşanlı olan bu *"rəqs ustaları"* məclislərdə qaval çalıb-oxuyaraq rəqslərilə qonaqları əyləndirirdilər. ◆ Bu ad vaxtilə xalq arasında *"çingi // çingənə"* kimi də səslənmişdir.

## ÇƏNGİBAŞI

◆ Keçmiş zamanlarda əsas etibarilə varlı toy məclislərində çalıb oxuyan **çəngi** [50] - qaraçı rəqqas və rəqqasələri təlimatlandırıb hazırlayan, onları toylarda müşayiət edən ustad kişi rəqqasın adı. Xalq arasında ona daha çox *"ağpapaq"* demişlər.

51.

## ÇƏRƏZ

◆ Qış vaxtı yurdumuzda keçirilən **toy-nişan**ların [269], [205] süfrəsini bəzəyən, çox zaman ənənəvi mərasim xörəklərinin ardınca yeyilmək üçün süfrəyə gətirilən yeddi cür quru meyvə, məsələn: alma və armud qaxı, albuxara, kişmiş, innab, badam, qoz, püstə və fındıq ləpəsi, ləbləbi, qovurğa və digər məzənin ümumi adı. ◆ Əski zamanlar buradakı meyvələrin çoxu *"xüşkbar"* və *"**şirni**"* [259] adı ilə bütün toy-nişan **xonçalarına** [138], o cümlədən yeddi növ ənənəvi şirnidən ibarət **yeddilövün xonçasına** [294] da düzülürmüş.

Azərbaycan Milli Kitabxanası

## ÇƏRƏZOYNATMA

◆ Gürcüstanda yaşayan soydaşlarımızın çaldırdıqları **gəlinapardı toyunun** [98] bir məqamında **gəlin qızın** [98] bacısının, adət üzrə, başında, üzərinə **çərəz** [51] düzülüb şamlar yandırılan bir **xonça** [138] ilə rəqs etməsi. Burada ona bəzən *"çərəzlə oynama // çərəzlə oyun"* da deyilir.

**52.**

## ÇƏRŞƏNBƏ XONÇASI

◆ Bəzi yerlərin dilində, Novruz bayramı günü **oğlan evindən** [208] qızgilə göndərilən bir xonçanın adı. Burada xonçaların birinə şirniyyatla yanaşı, **nişanlı** [205] qız üçün ağzına bahalı bir hədiyyə, adətən qızıl üzük keçirilmiş iri bir "ziyad" balığı da qoyulur. Ona *"üzüklü balıq xonçası"* da deyirlər. ◆ Bu adətə daha çox Lənkəranda riayət olunur. ◆ Vaxtilə Ermənistanda yaşayan soydaşlarımızda İlaxırçərşənbə günü qızgilə göndərilib içinə yüz bir ədəd boyanmış bayram yumurtası düzülən xonça da bu adı daşımışdır. Gəncədə isə yumurtaların sayı əlli birdən artıq olmur.

**53.**

## ÇIRAQ XƏLƏTİ

◆ Toy günü **gəlinlik cehizi** [98] ər evinə aparılan zaman və ya **gəlingətirdi toyu** [98] zamanı, əlində **gəlin çırağı** [98] - şamdan, çıraq, lampa və s. işıq mənbəyini tutan adam (bu adətən **qız yengəsi** və ya **qız sağdışı** [178], yaxud bir oğlan uşağı olur) üçün oğlan evinin hazırladığı xüsusi sovqatın adı.

**54.**

## ÇİKİLƏ

◆ Gürcüstanda yaşayan soydaşlarımız arasında, toy günü qız evindəki **gəlinin cülusu** [98] ayini zamanı, bir qayda olaraq, gəlin qızın başına salınıb üzünü örtən - **duvaq** [72] anlamında işlənən deyim. ◆ Bu söz gürcü dilində də eyni məna daşıyır.

**55.**

## ÇÖRƏKKƏSDİ

◆ Bəzi yerlərin adətincə, rəsmi böyük kişi elçiliyi **hərialdı** [119] mərasimində icra olunan qədim bir ayinin adı. Burada iri bir sinidə məclisə üç qab gətirilir. Onların birində şanalı və ya sıxma duru bal, o birisində - kərə yağı, üçüncüsündə - elçilərin özlərilə gətirdiyi fətir (yuxa, lavaş və ya təndir çörəyi) yerləşir. ◆ Qız evi ağsaqqallarından biri iki-üç lavaşın və ya çörəyin arasına yağ-bal yaxıb dürmələyərək oğlan və qız atalarına verir. Onlar da onu düz ortadan kəsib iki yerə bölür və: *"mübarək olsun,*



Azərbaycan Milli Kitabxanası

*Allah xeyir versin, oğullu-qızlı olsunlar, bu çörəyi kəsdiyimiz kimi, sözümüzü bununla kəsdik"* - deyirlər. Bu yerdə oğlan atası süfrəyə müəyyən məbləğ pul - "beh" atır və ətrafdakılar bir ağızdan: *"Allah mübarək eləsin, amin"* - deyə, çörək və ya dürməyin bir hissəsini **qıza** [178], digərini **oğlana** [208] ayırırlar, yaxud onu xırda-xırda tikələyib öz aralarında paylayaraq yeyirlər. ◆ Bundan sonra, ənənəyə görə, tərəflər bir-birini "əqrəba", yəni yaxın qohum adlandırır, bu da iki ailə arasındakı razılığın artıq qanuniləşdirilməsinin rəmzi hesab edilir. Tərəflərin heç biri bu razılığı poza bilməz, çünki onun əsası çörək kəsməklə qoyulmuşdur. Adətən, **nikahın** [203] "çıxış nöqtəsi", onun ən ilk mərhələsi tək qiymətləndirilən bu ayin, bir sıra bölgələrdə *"çörəkqırma // çörəkparçalama // çörəksındırma"*, *"sözkəsdi // kəsmətkəsdi"*, *"kəsənə"* və *"kütəhüzdü"* (Quba) adlanır.

## ÇÖRƏKYAPDI

◆ Bir para yerlərin dilində, toy şənlikləri ərəfəsində, həm oğlan, həm qız evlərindəki toy məclislərinin süfrələri üçün qabaqcadan müxtəlif çörək növü tədarükü ilə bağlı **yuxaüstü** [299] mərasiminin başqa adı. ◆ Kənd yerləri üçün daha səciyyəvi olan bu mərasimə bəzən *"çörəkbişirdi"* və *"ətməkyapdı"* da deyilir.

## ÇÖRƏKYIĞDI

"Bizim gəlini etdik sınaq"
(toy oxumasından)

◆ Gəlinin qədəmləri bərəkət gətirsin, ayağı çörəkli olsun deyə, oğlan toyu şənliklərinin ikinci günü - **gəlingətirdi toyunda** [98], gəlin qız onun üçün ayrılmış otağa aparıldıqda icra olunan bir sınaq ayininin adı. Burada **gəlinlik otağına** [98] gedən yolun yerliyinə, yaxud yerə sərilmiş süfrədə duran çörəkqabılara yuxa və ya çörək tikələri düzülür. Toy əsnasında gəlin həmin yerdən aparıldıqda ayaq saxlayıb əyilir, çörəkləri bir-bir yerdən qaldırıb öpdükdən sonra oğlan anasının əlindəki tabağa qoyur. Bəzi toylarda gəlin qız tikələri yerdən deyil, oğlan evi qadınlarının əllərindən alaraq bir tərəfə qoyur. Bu çörəklər sonra oradakı qohum qız-gəlinə paylanır. Bu vaxt hər tərəfdən: *"maşallah, bərəkallah"*, *"Allah süfrənə bərəkət versin"*, *"Allah çörəyini bol eləsin"*, *"evin qonaqlı-qaralı olsun"*, *"yeddi oğulla bir süfrəyə əl uzadasan"* - və bu kimi xeyir-dualar səslənir. ◆ Gəlinin səliqəli, evcanlı və ailəsevər olduğunu göstərən bu ayin bəzən bilavasitə gəlinlik otağında keçirilir. Onun başqa adı *"bərəkətyığdı"* və *"ruzuyığma"*dır.

**56.**

## DAMAD // DAMAT

"Zəhməti məşşatə çəkir, ləzzəti damad aparır"
(atalar sözü)

◆ Qubada evlənmək, toy çaldırmaq əzmində olan *"bəy oğlana"* verilən adlardan biri. *"Kürəkən"* və *"giyov"* deyimlərinin qarşılığı kimi işlənən bu sözün başqa yerlərdə *"şahdamad // novdamad // damatbəy"* və *"dəməd"* şəkilləri də mövcuddur.

## DAMADGİRMƏ

◆ Yurdumuzun bir para yerlərinin dilində, toy mərasimindən bir az sonra bəy oğla-

Azərbaycan Milli Kitabxanası

nın artıq **güvey** [108] - **kürəkən** [153] sifətində **təzəgəlinin** [267] dədəsi evinə köçüb həmişəlik orada məskunlaşmasına verilən ad. Bəzi bölgələrdə ona *"xanədamad"* və *"içgüvey"* də deyirlər.

## DAMADİ

◆ Ötən dövrlərin yazılarında **evlənmə** [84], **nikah** [203] münasibətilə çaldırılan *"toy-düyün"*, *"toy büsatı"* anlamında işlənən sözlərdəndir. Bu yazılarda təsadüf etdiyimiz *"damadi keçirmək"* ifadəsi, əslində, evlənmək məqsədilə toy çaldırmaq deməkdir.

**57.**

## ● DEYİKLƏMƏ

◆ Arvad və kişi elçiliklərinə qız evinin razılığı verildikdən sonra ərə veriləcək qızın üzərinə ad qoyan, onun rəsmi şəkildə nişanlı olduğunu bir daha təsdiqləyən *"üzük-apardı, nişanlama, adaxlama"* mərasimi və bu anlamda işlənən deyimlərdən biri.

## DEYİKLİ

◆ Bəzi yerlərin ağzında, əsas etibarilə uşaqlıq çağlarından, çox vaxt lap beşikdən nişanlanmış qız və ya oğlana verilən ad. Əslində, bu ad onun adaxlandığına, yəni artıq üzərinə *"ad qoyulduğu"*na işarədir. Həmçinin, bir qayda olaraq, *"hərisi"* alınmış qızın ünvanına deyilən söz. ◆ *"Deyixli"* (Gəncə), *"dehli"* (Qazax) deyiliş tərzləri də var.

**58.**

## ● DƏBDƏBƏLİ TOY

[ *buradakı "dəbdəbə" qaval-nağara anlamındadır* ] ◆ Kürdəmir bölgəsində həm aşıqlar dəstəsi, həm xanəndə, həm də zurnaçı üçlüyünün iştirakı ilə çaldırılıb hədsiz təmtəraq və hay-küylə müşayiət olunan **səsdi toy** [237] (Quba) mərasiminə verilən ad.

**59.**

## ● DƏDƏVERDİ

◆ Bir para bölgələrdə ərə verilən qızın dədəsi evində oğlan tərəfin verdiyi **başlıq** [29] hesabına hazırlanıb gəlin qızın təzə mənzilinə daşınan ev əşyaları və avadanlıq - **gəlinlik cehizinin** [98] adı. Bu deyimin *"dədəmalı"* şəklinə də rast gəlinir.

**60.**

## ● DƏLLALƏ

[ *"vasitəçi qadın" anlamındadır* ] ◆ Əski yazılarda, bir qayda olaraq, oğlan və qız evləri ara-

Azərbaycan Milli Kitabxanası

sında vasitəçi kimi çalışan **ara arvadı** [11] anlamında işlənən deyimlərdən biri. Ədəbiyyatda o, bəzən *"evlənmə dəllaləsi"* və *"ərus dəllalı // gəlin dəllaləsi"* adı altında da qeyd olunur.

61.

## DƏRNƏ

[ *"yoxlayan, nəzarətçi" mənasındadır* ] ◆ Gəlin qızı ər evinə müşayiət edən **qız yengəsi**nin [178] köməkçisinə, bəzən isə elə **yengə**nin [296] özünə verilən adlardan biri. O, adətən, qızın yaxın qohumlarından - xalası, bibisi və ya dayısı arvadı olur. Toy günü gəlinin xidmətində duran dərnə ilk əvvəl onu geyindirib bəzəməyə kömək edir. Sonra o, bir əlinə bəy ilə gəlin üçün nəzərdə tutulmuş şərbətlə dolu satıl və ya gəlinbardağı, o birisinə **gərdək gecəsi** [100] üçün hazırlanmış xüsusi **cehiz boğçasını** [42] alıb, gəlinlə birgə oğlangilə gəlir və səhərə kimi yengə ilə burada qalır. Bu cür *"köməkçi"* Abşeron toyları üçün daha səciyyəvidir. ◆ Keçən yüzildə bəzi yerlərdə bu ad **məşşatə** [192] qadına verilən adlardan biri, digər yerlərdə isə toyu idarə edən **toybəyi**nin [269] bir başqa adı kimi işlənərdi. Dilimizdə onun *"darğa // dərgə"*, *"gəlin dərnəsi"* deyim şəkilləri də var.

62.

## DƏRVİŞ

◆ Ötən çağlar dini təriqət təbliğatçısı olub, sonralar xalq arasında nağıl məclisi, gözbağlıca, falaçma və bu kimi oyunlar göstərən sənətkarın adı. ◆ Bəzi bölgələrimizdə toy məclisinə dəvət olunmuş bu sənətkar otaqda və ya çadırda bu başdan o başa addımlayaraq, gah xanəndə kimi oxuyur, gah ehtiraslı hərəkətlərlə hədis və rəvayətlər danışır. Onun *"döbrüş"* (Abşeron), *"dəvriş"* (Qazax) deyiliş şəkilləri də mövcuddur.

## DƏRVİŞ TOYU

◆ Yurdumuzda islamın yayıldığı ilk dövrlərdə ortaya çıxıb bir neçə dərvişin müşayiətilə icra olunan toy mərasimi. Əslində, ağsaqqal və yaşlı kişi qonaqlar üçün keçirilən bu məclisdə musiqi səslənmir, toyu çalğıçı-sazəndələr əvəzinə dərvişlər idarə edirlər. Bu da **aşıq toyu** [16] məclisinə, xüsusən *"dərviş deyişmələrinə"* çox bənzəyir. ◆ Dərviş toyuna gələnlərə, ilk öncə, yemək verilir, süfrəyə yalnız onların arzu etdikləri xörəklər, şərbət, çay, bulaq suyu və s. gətirilir. Şəriətlə haram olan şeyləri süfrəyə düzmək olmaz. Yeyib-içdikdən sonra möhtərəm ağsaqqallardan biri toy sahibini *"mübarəkbadlıq"* edib sözü dərvişlərdən birinə verir. O da, əlində əsa məclisdə ora-bura gəzişərək, peyğəmbər-salavatullah və onun nəsli haqda hədislər danışır, muğam üstə eşq, vüqar, hicran və digər mövzulu qəzəllər oxuyur. Digər dərviş isə dini rəvayətlər söyləyir, Quran surələrindən danışır, ayrı-ayrı ayələri incələyərək məclis əhlinə xeyirxah məsləhətlər verir. ◆ Toyun sonunda bəy oğlan **sağdış-soldışı** [225] ilə məclisə gətirilir, dərvişlər onu tərifləyib təbrik edirlər. Cavabında isə bəy hamıya üç dəfə baş əyməklə öz təşəkkürünü bildirir. ◆ Bu deyim xalq arasında *"ən kasıb toy"* anlamında da işlənir.

Azərbaycan Milli Kitabxanası

63.

## DƏSTURAŞI

[ *"ənənəvi yemək" mənasındadır* ] ◆ Toydan üç-dörd gün sonra, bəzən isə üç gün dalba-dal təzəgəlin anasının bişirib iri məcməyidə qohum qadınla kürəkəngilə göndərdiyi turşuqovurmalı plovun adı. ◆ Abşeron kəndlərində ona *"anapayı"* deyirlər.

64.

## DƏVƏTÇİ

◆ Toy şənliklərindən bir neçə gün əvvəl qapı-qapı evləri gəzib tapşırılan adamlara şirni paylamaqla, onları toy-nişan şənliklərinə çağıran kişi və qadın **toy dəvətçisinin** [269] adlarından biri. ◆ Bəzi bölgələrdə ona *"nəmçi"*, *"çağrıçı"* və *"adamçağıran"* (Abşeron) da deyirlər.

## DƏVƏTİYYƏ

◆ Oğlan və qız toyu şənliklərinin keçirilməsi münasibətilə toydan bir-iki həftə əvvəl **toy dəvətçisinin** [269] **şirni** [259] ilə bərabər, yaxud şirni əvəzinə toya dəvət edilən adamlara payladığı çağırış vərəqəsinin əski adı. ◆ Sonralar onu *"dəvətnamə"* və *"çağırışnamə"* də adlandırdılar.

## DƏVƏTLİ

◆ Əvvəlcədən tutulmuş siyahı üzrə **toy** [269] məclisinə çağırılmış şəxslərə verilən ad. Hərdən onun *"toya dəvətli"* deyiliş şəklinə də təsadüf edilir. ◆ Bu deyimin digər adları *"çağrılı"* və *"vədəli"*dir.

65.

## DİLƏKÇİ

◆ Oğlan tərəfin ilk vasitəçisi kimi qız adamları ilə ünsiyyət yaradıb onların *"ağzını aramaq"* və qız evi ilə əlaqə qurmaqdan ötrü qızgilə göndərdiyi orta yaşlı və ya ağbirçək qadının - **ara arvadının** [11] bəzi bölgələrimizdə işlənən adlarından biri.

## DİLƏKÇİLİK

◆ **Ağızarama** [5] görüşü zamanı qız tərəfindən oğlan evinin yaxın vaxtda onlara elçi gəlmək fikrində olduğuna ilk münasibət öyrənildikdən sonra, oğlan evinin tapşırığı ilə qız valideynlərinin **nikaha** [203] rəsmi razılığını almaq məqsədini güdərək qızgilə yollanan **arvad və kişi elçiliyi** [12], [151] anlamında işlənən sözlərdən biri. ◆ Bu ifadə əsli cənub-qərb torpaqlarımızla bağlı soydaşlarımızın dilində daha çox istifadə olunur. Ona bəzən *"minnətçilik"*də deyirlər.

Azərbaycan Milli Kitabxanası

66.

## DİRİNGƏ // DİRİNGİ

◆ Salyan və Şamaxı bölgələri üçün səciyyəvi olub, həm az adam çağırılan bir toy məclisini, həm toy mərasimi keçirilən yeri, həm oyun havasını - ümumiyyətlə, *"çalıb oynamağı"* bildirən müştərək ad. Xalq ağzında bəzən ona *"dəfdiringi"* də deyilir.

67.

## DİŞLƏKALMA // DİŞLƏKVURDU

◆ Bir zamanlar **gəlingətirdi toyu** [98] zamanı gəlin otağında icra olunan qədim və özünəməxsus ayin. ◆ Öz otağına daxil olan gəlin qız divara söykənib dayanır, **qız yengəsi** [178] əlindəki noğulla dolu torbadan şirni çıxarıb qızın sağ ovucuna basır. Bu vaxt musiqi çalınır, xanəndə gəlini tərifləməyə başlayır. Toya gəlmiş qonaqlar bir-bir gəlin qıza yanaşır, əyilib ovucundakı noğulları dişlərilə qoparıb yeyirlər. Sonuncu noğulu **oğlan yengəsi** [208], bəyin böyük bacısı, yaxud onun ən yaxın qohumu *"dişinə alır"* və qayda üzrə, zarafatyana, qızın barmağını yüngülcə dişləyir. ◆ Ayinin başqa adı *"şirniqopardı"*dır.

68.

## DOQQAZKƏSDİ

[ *"doqqaz" həm küçə, həm də çubuqlardan hörülmüş qapı adıdır* ] ◆ Şəkidə **gəlin qız** [98] **ər evinə** [89] aparılan zaman **toy alayının** [269] yolu üstə və ələlxüsus qızın yaşadığı məhəllədə cavanların qəfildən alayın yolunu tutmaqla bağlı **qabaqkəsdi** [157] adətinə verilən adlardan biri. ◆ Qubada ona *"tuqqazkəsmə"* deyirlər.

69.

*"Yalançını dörə bir dəfə keçirərlər"*
(atalar sözü)

## DÖR // DÖRBAŞI

[ *"dövr" sözünün təhrifidir* ] ◆ Qazax, Borçalı, Ordubad və cənub torpaqlarımızda çaldırılan toy mərasimlərində gəlin qız üçün ayrılan, mərasim zamanı onun üzü qibləyə dayanmasını nəzərdə tutan, mərasimin mərkəz iştirakçısı olduğunu göstərən şərəfli bir guşənin adı. Bəzi yerlərin dilində *"toyun dorbaşı"*, *"gəlin dörü"*, *"devir // dövr // dor"* şəkillərində də işlənir. ◆ Guşənin digər adı *"paytaxt"*dır.

## DÖRDÖŞƏYİ

◆ Bəzi yerlərin adətincə, **toy** [269] mərasimlərində gəlin qızın əyləşməsindən ötrü, məclisin yuxarıbaşında, **dördə** [69] salınan xüsusi döşəkçənin adı. ◆ Onun *"dördöşək"* deyiliş tərzi də var. ◆ Lənkəran və Masallı bölgələrində onu *"nazbalınc // nazbalış"* da adlandırırlar.



Azərbaycan Milli Kitabxanası

70.

## DÖŞƏKPULU

◆ Qəbələ və Qazax-Ağstafa bölgələrində çaldırılan toyların sonu **gərdək gecəsi**ndə [100] bəy ilə gəlin muradlarına çatdıqdan sonra təzəbəyin **qız yengəsi** [178] üçün taxt döşəyi üstünə və ya altına atdığı **gərdəkpulu**nun [100] başqa adı.

71.

## DÖVRAN

◆ Ayrı-ayrı yerlərdə toy məclisinə gələn qonaqların toyxana, yaxud mağarda dövrə vurub oturması. Həmçinin, evlənənlərin ailəsi kasıb olduqda, toyda yemək-içməkdən sonra **toy bəyi**nin [269] təyin etdiyi bir adamın qaval və ya tabaq gəzdirib ətrafdakılardan çalğıçı və xanəndə üçün pul yığması da bu adı daşıyır. ◆ Hər qonaq: *"Allah mübarək eyləsin, Allah xeyrə calasın"* - deyərək, öz imkanı daxilində qavala pul atır. Qaval gəzdirən hər dəfə ucadan pul salanın adını və atdığı pulun miqdarını deyir. ◆ Bəzi yerlərdə, əsas etibarilə, kasıb evlərdə toydan əvvəl qurulan bir məclis də bu adı daşıyır. Bir gün əvvəl toy sahibi qohum və yaxın dostlarına: *"sabah günorta bizə gəl, dövranım var"* - deyərək, onları bu məclisə dəvət edir. Burada da hamıya yemək verildikdən sonra, bir nəfər nüfuzlu şəxsin təklifilə hərə öz qüvvəsi və qohumluq əlaqələrinə görə, oğlan atasına bəxşiş, nəmər verir. Yığılan vəsait toy tədarükünə, evlənənlərə təzə ev-eşik və təsərrüfat təşkilinə sərf olunur. ◆ Qəbələdə buna *"döyran"*, digər yerlərdə isə *"dövranyığma // dövranyığımı"* (Zaqatala), *"ayanat"* (Naxçıvan), *"hətbaş"* (Ordubad), *"dövranpulu"*, *"dəfgəzdirmə // tabaqgəzdirdi"* və *"pulsalma"* (Qarabağ) deyirlər.

72.

## DUVAQ

*"Duvaq salın üzünə, gəlməsin gözə dilbər"*
(toy oxumasından)

[ *əslində bu yeni doğulmuş çağanı bürüyən nazik "ətənə" pərdəsinin başqa adıdır* ] ◆ Kiçik və ya böyük nişanlama mərasimində oğlan evi tərəfindən qız üçün gətirilib **gəlinapardı toyu** [98] zamanı onun başına salınan şəffaf baş örtüyünün adı. ◆ Uzaq keçmişdə yumşaq tafta və ya qırmızı tirməşaldan hazırlanan bu örtük, gəlinin başı üstündən diz qapaqlarına qədər uzanaraq, onun üz-gözünü və gövdəsini tuturdu. Bəzən örtüyün üzəri gül-çiçək naxışları, daş-qaş, qızıl suyuna çəkilmiş **cığcığa** [44] və krujeva ilə bəzənirdi. ◆ Ötənlərdə varlı ailələrdə onun bir **telliduvaq** [265] deyilən növü də olmuşdur. Sonralar onun boyu get-gedə qısalaraq, baş yaylığından böyük olmayan ölçülərə qədər kiçilmişdir. Nazik qırmızı tüldən tikilir, bəzi yerlərdə isə onun yaşıl rənglisinə üstünlük verilir. ◆ Bu örtük toy günü oğlan evi adamlarının gəlməsindən bir az əvvəl, bəzi yerlərin qaydasına görə isə, oğlan adamları gəldikdən sonra qızın anası və ya yengəsi, **məşşatə** [192] və ya oğlan yengəsi tərəfindən gəlin qızın başına (vaxtilə ipək çadra üstündən) salınır. Adət-ənənəyə görə, gəlini aparanlar onun üzünü görməməlidirlər. **Gərdək gecəsi** [100] bəy oğlan öz əli ilə duvağı qaldırır. Ancaq toyun sabahı duvaq yenə təzəgəlinin başına salınır və nəhayət **üzaçıxdı toyu**nda [278]

Azərbaycan Milli Kitabxanası

# • III • HƏ-YOX

**121.**

◆ *İki arvad elçiliyindən sonra qız evində keçirilən ilkin qeyri-rəsmi danışıqlar - birinci kişi elçiliyinin adı.* ◆ *Əgər oğlan atası arvad elçiliklərinin nəticələrindən tam xatircəm olmayıb, qız tərəfin rədd cavabını almaqdan ehtiyat edirsə, o, tələsmədən, yaxın qohumlarını toplayıb onlarla məsləhətləşir. Götür-qoy eylədikdən sonra oğlan atası elçilik üçün kəndin-obanın sözükeçən, çox nüfuzlu şəxslərinə - hörmətli ağsaqqal, bəzən isə məhəllə mollasına üz tutur, onlardan "filan qızın" ata-anasından nikaha razılıq almaq üçün* ***elçi*** [81] *düşməyi xahiş edir. Elçilik üçün ağsaqqal seçəndə bəlli şəxslərin qız atasına nə dərəcədə təsir edəcəyi, onlara qarşı qız evinin münasibəti nəzərə alınır.* ◆ *Elçilik günü müəyyən olunduqdan sonra oğlan atası, üç-dörd yaxın qohumu - oğlanın əmisi, dayısı, böyük qardaşı və kəndin, məhəllənin bir-iki seçmə ağsaqqalı ilə, yenə pay-puruşsuz, sovqatsız qız evinə üz tutur. Bəzi yerlərin adətincə, elçilər arasında hökmən vaxtilə oğlanın "sünnət toyu"nda iştirak etmiş iki kirvə də olmalıdır. Oğlanın atası sağ olmadıqda, qızgilə dörd nəfər - üç kişi, bir qadın (oğlanın anası, ərdə olan böyük bacısı və ya xalası, yaxud bibilərindən biri) yollanır.* ◆ *Dədə-baba qaydasına görə, elçilər qız evinə elə vaxtda çatmalıdırlar ki, şər qarışmasın. Qız evi isə, bir adət olaraq, bu görüşə heç kimi çağırmır, süfrə açmır. Yalnız qızın atası elçiləri: "xoş gəlmisiniz" sözlərilə qarşılayır, onlarla əl verib görüşür, evə dəvət edir.* ◆ *Qadın elçi başqa otağa - arvadların yanına keçir, qız anasının boynunu qucaqlayır, yanağından öpür.* ◆ *Kişilər bir qədər oradan-buradan - bazardakı qiymətlərdən, havaların necə keçməsindən, siyasətdən və s. danışdıqdan sonra oğlan evi ağsaqqallarından biri qız atasına: "indi biz sizin qapınıza xeyir iş üçün gəlmişik, qapınızı həmişə xoşbəxtlik döysün, günləriniz hər gün belə xeyirli keçsin, inşallah" - deməklə, söhbəti söz üstünə gətirir.* ◆ *Keçmiş çağların adət-ənənəsinə görə, bu cür məclislərdə hər iki tərəf eyhamla, qəliz, ikibaşlı ibarə və təmtəraqlı təşbehlərlə danışmalı, tez-tez atalar sözləri, müdrik el kəlamları, məlum düstur və ifadələrə müraciət etməlidirlər. Məsələn, sözünü davam edən həmin ağsaqqal: "atalar deyib, zər olan yerdə zərgər də olar, eşitmişik ki, sizlərdə bir cavahirlər var, bizlərdə də zərgər; dilək bizdə - dölək sizdə; alan bizdə - halal sizdə; nişan bizdə - nişangah sizdə; gül üçün xiffət çəkən bülbül bizdə - boyun bükən qönçə gül sizdə; əl bizim - ətək sizin" və yaxud "məsəl var, deyərlər, bülbül gülə qonar, zərgər gümüş yonar; eşitdiyimizə görə sizin bağçanızda bir gül var, bizdə də bülbül (və ya "bağban"), gəlmişik bağçanızdakı o gül üçün" - və bu kimi sözlər deyir.* ◆ *Amma bəzi hallarda, xüsusən son zamanlar, oğlangildən gəlmiş yaşlı kişilərdən biri çox söz oynatmadan qızın atasına ibarəsiz, eyhamsız, açıq-açığına deyir: "eşitmişik sizin maşallah, Allah saxlasın, bir gözəl-göyçək qızınız var, atalar da deyib ki, bir qız bir oğlanındı". Bunu deyib, birbaşa əsl mətləbə keçir: "Allahın əmri, peyğəmbərin buyuruğu ilə (və ya "şəriətilə") sizin qızı bizim oğlumuz üçün almaq, sizin kimi yaxşı adamla quda (və ya "qohum") olmaq istəyirik". Ardınca da: "indi siz bu sövdəyə nə deyirsiniz?" - sualını verir. Bundan sonra, bəzi hallarda əlavə olaraq, "qız oğlanı, oğlan da qızı bəyənir" (adət üzrə, bu söhbətdə nə qızın, nə də oğlanın adı əsla çəkilmir) - deyir və hamı qız*



Azərbaycan Milli Kitabxanası

atasının müsbət və ya mənfi, "hə" və ya "yox" cavabını gözləyir. ◆ El-oba adətinə görə, elçi düşmüş oğlan adamları məsələ tam aydın olmayana qədər, "acılıq əlaməti" tək tütün çəkməkdən də imtina edir, onlar üçün tökülmüş acı dişləmə çayı da içmirlər. ◆ Yenə əski dədə-baba qaydasına görə, oğlan evinin son sözlərindən sonra, qız atası bu ilkin tanışlıq və qeyri-rəsmi kiçik elçilikdə nikaha öz razılığını əsla bildirmir. Çox vaxt o, elçilərə: "mən indi sizin xoş niyyətinizə qarşı bir söz deyə bilmərəm, axı bizim də yaxın adamlarımız var, qızın dayısı, əmisi var, qoy bu məsələni mən onlara yetirim, oturub onlarla söhbət eyləyək, qızın fikrini öyrənək, bundan sonra mən sizə cavab verə bilərəm", yaxud "qoy bir qızın özüylə, anası ilə, yaxın qohum-əqrəba ilə məsləhətləşək, sonra qəti fikrimizi sizə bildirərik" - və buna bənzər məlum bəhanələr gətirir. Başqa sözlə, qız atası yaxın qohumları ilə **gənəşik** [99] keçirib məsləhətləşdikdən sonra öz qəti qərarını deyəcəyini vəd edir. ◆ Bundan sonra oğlan evi adamları, "hər şey böyük **hərialdı** [119] elçiliyində həll olunacaq" ümidi ilə sağollaşıb evlərinə qayıdırlar. ◆ Qız tərəfin bu **nikaha** [205] meyli olsa belə, qızın dədəsi, adətən, hörmətli olsun deyə, elçiləri daha iki-üç dəfə gəlib-getməyə məcbur edir. ◆ Bəzi hallarda isə buna heç bir ehtiyac qalmır. Oğlan evi adamları qızın oğlana verdiyi örpəyi qız dədəsinə göstərdikdə, yaxud qızın ata-anası bir başqa yerdə qabaqcadan öz aralarında oğlanın ata-anası ilə razılığa gəldikdə, elçilər artıq: "Allah sizi arzu-istəyinizə çatdırsın, axtardığınız qənşərinizə çıxsın" - sözlərilə qarşılanır. Belə olduqda, tərəflər bir qədər çək-çevir edib, elə buradaca **başlıq** [29], **toyxərci** [269] və digər məsələlər ətrafında sözsüz, şərtsiz razılığa gəlirlər. Yenə: "Allah mübarək eyləsin, xoşbəxt olsunlar, ulduzları barışsın, gün o gün olsun toy-nişana yığışaq, subaylarınız üçün olsun, inşallah" arzuları səslənir. Bağlaşmaya xeyir-dua verə-verə stəkanlardakı isti çaya qənd salıb qarışdırırlar. ◆ Uzaq keçmişdə ulu babalarımız Oğuz türklərinin adət-ənənəsinə görə, qız evinə gəlmiş iki elçidən biri tənbəki çubuğunu doldurar, o birisi isə çaxmaqdaşını hazırlayardı. Sonra birinci elçi gəldiklərinin səbəbini qızın dədəsinə bildirər və doldurduğu çubuğu ona uzadardı. Bu vaxt ikinci elçi çaxmaqdaşı ilə od əldə edib qızın dədəsinə çubuğu yandırmağı təklif edərdi. Qız atası nikaha razı oluğunu bildirmək istədikdə, o, çubuğu alıb yandırardı. Bəzənsə o, çubuğu almazdı, elçilərdən bir az gözləməyi və s. xahiş edərdi. ◆ Xalq arasında bu qeyri-rəsmi birinci kişi elçiliyinə "aldımverdim" (Quba), "sövdələşmə", "xastakarlıq" (Lənkəran, Salyan) da deyirlər.

• III •

*Ardı:*
***HƏRİALDI ◆ IV***
*(77-ci səhifədə)*

Azərbaycan Milli Kitabxanası

**duvaqqapdı** [72] mərasimi zamanı kiçik bir oğlan uşağı tərəfindən həmişəlik başından götürülür. Bundan sonra **təzəgəlin** [267] onu sandığa qoyub ən əziz xatirə kimi ömrünün sonuna qədər orada saxlayır. ◆ Yüzillər boyu xalqımız arasında qız isməti-nin nişanəsi, bakirəlik, saflıq və təmizliyin timsalı tək tanınan bu baş örtüyü, belbağı ilə bərabər, qızın artıq müəyyən bir kişiyə məxsus olduğunu bildirən bir nikah ələməti olmuşdur. ◆ Bunlarla yanaşı, el-oba əqidəsincə, bu baş örtüyünün al-qırmızı rəngi, eyni rəngli **gəlinlik paltarı** [98] ilə birlikdə, bədxah ruhların gəlin qızdan uzaqlaşmasını təmin edir. Duvaq - gəlini bəd nəzərdən, çilləsi olan qadınlardan (gəlinin üzünü gördükdə belə qadının çilləsi gəlinə keçə bilər) və digər xəta-bəladan qoruyan etibarlı bir sipər, sınanmış vasitə sayılır. ◆ Yurdumuzun ayrı-ayrı bölgələrində bu ənənəvi baş örtüyünə *"gəlinlik duvağı // üzduvağı"*, *"bənarə"*, *"bənd"*, *"didək"*, *"xam // qırmızı xam"* da deyirlər. Onun *"duvax"* və *"duax"* (Şəki) deyiliş şəkilləri də var. El-oba içində düşmənçiliklə deyilən *"qaraduvaq olasan"* ifadəsi ən ağır bədduadan biri hesab olunur. ◆ Bu, həmçinin, Şəkidə toyun sabahı günü çağırılan **xoşgəldin** [139] məclisinin başqa adıdır.

## DUVAĞAŞI

◆ Bir para yerlərin adətinə görə, **gəlinapardı toyu** [98] gününün sabahı qonum-qonşunun toplaşaraq birlikdə bişirib, **oğlan evində** [208] *"pərdeyi-ismət"*də oturan **təzəgəlin** [267] üçün apardıqları plovun adı. Yurdumuzun digər yerlərində onu *"duvaq-plov"* adlandırırlar.

## DUVAQÇI

◆ Ötən çağlarda **ərə** [89] verilən qızların toy məclisləri üçün nazik parçalardan duvaq hazırlayan və onun üzərini müxtəlif gül-çiçək təsvirləri, daş-qaş, bafta və s. ilə bəzəyib-tikən peşəkar ustaya verilən ad. ◆ Həmçinin, el içində bu baş örtüklərini satmaqla məşğul olan adamın adı.

*"Üzünü örtmə gəlin, gözünü örtmə gəlin"*
(toy oxumasından)

## DUVAQQAPDI

◆ Təzəbəy və təzəgəlin üç gün *"pərdeyi-ismətdə"* oturduqdan sonra onların şərəfinə keçirilən **üzəçıxdı toyunda** [278] icra olunan bir mərasimin adı. Burada üzünə qırmızı ipək cunadan bir yaylıq salmış təzəgəlin məclisə gəlib süfrə başında əyləşən zaman yaxın qohumlardan birinin 8-12 yaşlı oğlu xəlvətcə ona yaxınlaşıb əlindəki iydə çubuğunu (bəzən oxlov və ya taxta qaşığı) bir-iki dəfə yavaşca gəlinin başına vurur. Sonra gəlinin üzündəki yaylığı çəkib həyətə qaçır və gəlin çox övlad sahibi olsun deyə, örtüyü barlı bir ağacın budağına atır. Hamı uşaqdan təzəgəlinin örtüyünü istəyir, amma o, **xələt** [132] almayınca duvağı vermir. Təzəbəyin anası uşağa hədiyyə verib örtüyü gəlinə qaytarır. Təzə gəlinin artıq üzüaçıq olduğunu görən qonaqlar ona: *"işıq üzünə həsrət qalmayasan, ömrünə gün doğsun"*, *"ömrün uzun, günün ağ olsun, həmişə xoş gün görəsən, şadlıq içində yaşayasan"* - və s. xoş arzularını çatdırırlar. Sonra ona **üzgörümcəyi** [278] deyilən hədiyyələr bəxş edir, onun bu ailənin ən əziz üzvü olduğunu bildirirlər. Duvaq qaçıran uşağın ata-anası da təzəgəlinə xələt verir. ◆ Bir para yerlərin adətincə, duvaq hətta gəlinin **ər evinə** [89] çatıb atdan düşdüyü zaman, yaxud **gəlingətirdi toyunda** [98] **gərdək** [100] pərdəsi arxasında əyləşdiyi məqamda



Azərbaycan Milli Kitabxanası

da, evin bir azyaşlı oğlan uşağı tərəfindən götürülüb qaçırılır. Əlbəttə, bunlar son zamanlar ortaya çıxmış adətlərdir. ◆ Dədə-baba adətincə isə, duvağı gəlin qızın başından yalnız **bəy oğlan** [36] özü götürməlidir. Sonrakı müxtəlif duvaqqapdılar isə formal və rəsmi səciyyə daşıyan kiçik bir "tamaşa"dır. ◆ Bir sözlə, bu mərasimdən sonra *"üzü açılmış"* **təzəgəlin** [267] daha heç kimdən utanıb gizlənmir və yeni ailənin tamhüquqlu üzvü olur. ◆ Uzaq keçmişdə ulu əcdadımız Oğuz türkləri bu mərasimi başqa cür icra edərdilər. Toyxananın düz ortasına gəlinin dədəsi evindən gətirilmiş dəri və ya böyük bir çit süfrə salırmışlar. Sonra buraya iki **yengənin** [296] arasında təzəgəlini gətirərdilər. Başında da duvaq olardı. Gəlin ətrafdakılara təzim edib süfrənin üstündə durardı. **Toyxanada** [269] əlində iki xəncər tutan **sağdış** [225], bəzən isə qızın doğma qardaşı görünərdi. O, gəlinin başındakı şalı və ya duvağı xəncərlərlə qaldırardı. Ardınca, yengələr təzəgəlinin üzünü tamam açar və o, toyxanada bir qədər üzüaçıq durduqdan sonra öz otağına aparılardı. ◆ Əslinə qalarsa, təzəgəlin burada başındakı nazik örtüyü atmaqla, əyani və məcazi tərzdə qızlıq çağı ilə həmişəlik vidalaşıb həyata başqa simada, artıq yeni ailə, yeni ev sahibi kimi qədəm basmış olur. ◆ Xalq arasında bu mərasimə *"duvaqaçımı // duvaqoğurlama // duvaxqapma"* və ya *"gəlinin duvaqqapması"* da deyirlər.

## DUVAQQAPMA

◆ Toy məclisində aşığın nəql edib oxuduğu dastanın sonu - bəy ilə gəlinin bir-birinə qovuşduğu yerdə və həmçinin, toyun özündə **gəlin qızın** [98] zahiri məziyyətlərini tərifləyən, ona öyüd-nəsihət verməklə toyu *"bağlayan"* nikbin ovqatlı bir **aşıq** [16] müxəmməsinin adı.

## DUVAQLIQ

◆ Gəlin qızın başına salınan qırmızı şəffaf örtük - **gəlinlik duvağı** [98] üçün istifadə olunan nazik cuna və ya tül parçanın adı. Vaxtilə yumşaq tafta, yaxud qırmızı tirməşaldan hazırlanan bu örtük, bir qayda olaraq, qızın diz qapaqlarına qədər uzanaraq, üzəri **cığcığa** [44] ilə bəzənirdi. ◆ Bizim günlər o, baş yaylığı boyda olub, bəzən ağ tüldən tikilərək krujeva ilə işlənir.

73.

## ● DÜNÜR // DÜNÜRÇÜ

◆ Bir para yerlərin adətincə, həm qızı görməyə yollanan **görücü** [105] , həm də **quda** [182] anlamında işlənən deyimlərdəndir. ◆ Onun *"düngür // düngürçü"* (Borçalı), *"dünürçü // dünürşü // dünüş"* və *"tüngür"* deyiliş şəkilləri də mövcuddur. Gürcüstanda yaşayan soydaşlarımız **toy alayını** [269] müşayiət edən atlıları da bu adla çağırırlar.

## DÜNÜRÇÜ ÇAYI

[ *"toy sahibinin çay məclisi" anlamındadır* ] ◆ Yurdumuzun cənub-qərb bölgələrində oğlan evində çağırılan **ixtilat toyunun** [141] başqa adı. Toya bir-iki gün qalmış oğlan atası



Azərbaycan Milli Kitabxanası

qonşularını qonaqlığa dəvət edib ətraf kəndlərdən **toya** [269] gələcək qonaqların qonşu evlərində yerləşdirilməsi və s. məsələləri həll edir. Qaydaya görə, yeyib-içilən zaman süfrədəki böyük bir stəkan şirin çayı kim qaldırıb içsə, həmin qonşu **toybəyi** [269] vəzifəsini öz üzərinə götürmüş sayılır. ◆ Bu məclisə bəzən *"məsləhətaşı"*, *"atlı yeməyi // dünürçü yeməyi // güvey yeməyi"* də deyilir.

## DÜNÜRDÜŞDÜ

◆ Bəzi bölgələrin dilində həddi-buluğa çatmış **oğlanı** [208] evləndirmək, ona yad bir ailədən **qız** [178] istəmək, qız tərəfin nikaha rəsmi razılığını almaq üçün oğlan evinin keçirdiyi **elçilik** [81] tədbiri anlamında işlənən sözlərdən biri. ◆ Ona *"dünürgəzmə // dünürgetmə"* də deyirlər.

## DÜNÜRLƏŞMƏ

◆ Vaxtilə və indinin özündə qərb bölgələrimizdə **evlənmə** [84], **toy** [269] tədbirləri zamanı **oğlan və qız evləri** [178], [208], cavanların ata-anası arasında əmələ gəlmiş yaxın qohumluq ünsiyyəti - **qudalaşma** [182] anlamında işlənən söz. ◆ Buralarda onu bəzən *"dünürlük"* və *"qayınlaşma"* da adlandırırlar.

74.

## DÜNYAYAGİRMƏ

[ *"cəmiyyətə tamhüquqlu bir üzv olmaq" mənasındadır* ] ◆ Ötən çağlar el-oba içində bəzən *"evlənmək, qız almaq, ərə getmək, subaylıq halından evlilik, kamillik vəziyyətinə keçmək"* anlamında işlənən ifadələrdən biri. Ədəbi yazılarda onun *"dünya evinə girmək"* şəklinə də rast gəlinir.

75.

## DÜRƏNG

[ *"ikirəngli" mənasındadır* ] ◆ Bəzi bölgələrimizin adətincə, **hərialdı** [119] böyük rəsmi kişi elçiliyi zamanı **qız evinin** [178] **nikaha** [203] razılıq əlaməti olaraq süfrəyə gətirdiyi isti şirin çayın adı. ◆ Bundan ötrü, ilk əvvəl, stəkanlara yarıya qədər qaynar su töküb, şəkər atıb qarışdırır, şirin edirlər. Sonra bunun üzərinə çayın "rəngi"ni aramla süzərək əlavə edirlər. Bu zaman altda qalan qaynar ağ suyun şəkəri olduğu üçün stəkanlardakı sular bir-birinə əsla qarışmayıb iki (yarıdan aşağı ağ-bəyaz, yarıdan yuxarı isə xınayı rəngli) hissəyə ayrılmış olaraq qalırlar. Beləcə ikirəngli çay stəkanlarla süfrəyə gətirilib, mərasimdə iştirak edənlərə verilir. Ənənəyə görə, əvvəlcə öz çayına əl vuran olmur. Yalnız qız evinin ağsaqqalı: *"Allah mübarək eləsin, Allah xeyir versin"* - dedikdə, hər kəs dərhal qaşığına əl atır və çaylar qarışdırılır. ◆ Əslində, bu qarışdırma rəmzi məna daşıyır. Stəkandakı ağ su - oğlanı, kişini, xınayı rəngli su isə qızı, qadını təmsil edir. Rənglərin qarışdırılması isə oğlan ilə qızın birləşməsinə razılıq vermək deməkdir. ◆ Ona bəzən *"ikirəngli çay"* da deyirlər.

Azərbaycan Milli Kitabxanası

76.

## DÜRÜ

◆ Bir para yerlərin dilində, həm qonaqların evlənənlərə gətirdikləri toy hədiyyəsi, həm qızın ər evinə apardığı avadanlıq - **gəlinlik cehizi** [98] mənasında işlənən deyimlərdəndir. Bəzi bölgələrdə, toy sahibinin məclisə dəvət etdiyi qonaqlara payladığı xüsusi sovqatlar da bu adı daşıyırlar.

77.

## DÜŞƏRGƏ // DÜŞƏRLİK

◆ Toy tədbirlərində canla-başla iştirak edən xanəndə, çalğıçı, **yengə** [296], **toybəyi** [269] və s. şəxslərə minnətdarlıq əlaməti olaraq, qız və oğlan evlərinin verdiyi xələt və hədiyyələrin adı. Bu sözün *"düşəlgə // düşərrik"* deyiliş şəkilləri də mövcuddur.

78.

## DÜYÜN

*"Toydu, düyündü, hamısı bu gündü"*
(atalar sözü)

◆ Yaxın keçmişdə el-oba içində və klassik ədəbiyyatımızda evlənmək, nikah bağlamaq münasibətilə keçirilən təntənəli şadlıq mərasimi -*"toy məclisi"*, *"toy büsatı"*, *"evlənmə törəni"* anlamında işlənən deyimlərdən biri. ◆ Daha çox *"toy-düyün"*, *"düyün törəni"* şəkillərində işlənir. Onun *"dügün"* deyiliş tərzinə də təsadüf olunur.

## DÜYÜN ALAYI

◆ Oğlan toyu şənliklərinin ikinci - **gəlingətirdi toyu** [98] günü kəbini kəsilmiş gəlin qızı dədəsi evindən təzə mənzilinə müşayiət edən atlılar dəstəsi və ya miniklərdən ibarət dəbdəbəli qafilə - **toy alayının** [269] digər adı. Onu bəzən *"düyün karvanı // düyün köçü"* də adlandırırlar.

## DÜYÜNBAŞI

◆ Bir para bölgələrimizdə oğlan evində çaldırılan toy məclislərini idarə etmək üçün xüsusi olaraq dəvət edilib buradakı tədbirlərin nizam-intizamlı keçməsinə zəmanət verən peşəkar sərəncamçı - **toybəyi**nin [269] adlarından biri. ◆ Onun *"düyünçübaşı"* deyiliş şəkli də var.

## DÜYÜNÇÜ

◆ El-oba içində həm toydan bir həftə əvvəl siyahı üzrə tapşırılan adamları toy məclisinə çağıran **dəvətçi** [64], həm bu məclisə təşrif gətirmiş dəvətli, həm də vurdurulan **toyun** [269] sahibinə (bu adətən, **bəy oğlanın** [36] atası, o olmadıqda doğma dayısı olur) verilən müştərək ad.



Azərbaycan Milli Kitabxanası

## DÜYÜNDƏRNƏK

◆ Yurdumuzun bir para yerlərində *"evlənmə, toy mərasimi"* məqsədini güdərək, çox az qonaq çağırılan bir məclis və ya qonaqlıq - **diringəyə** [66] verilən ad. ◆ Həmçinin, bu cür toy şənlikləri keçirmək üçün ayrılmış kiçik bir məkan, yerin adı.

## DÜYÜN EVİ

◆ Şimal-qərb bölgələrimizdə qız köçürmək, oğul evləndirmək niyyətilə çaldırılan **toy** [269] məclisi üçün ayrılan yer - ev, həyət, yaxud bu şənliklər üçün qurulmuş xüsusi çadır - **mağar** [187] və ya **toyxananı** [269] bildirən adlardan biri. ◆ Əslinə qalarsa, bu, *"toy evi"*nin bir başqa adıdır.

**79.**

## DÜZAYAĞI

◆ Yurdumuzun bəzi bölgələrində toydan üç-dörd gün sonra çağırılan **üzəçıxdı toyunun** [278] başqa adı. ◆ **Gəlingətirdi toyunda** [98] oğlan anası və ya atasının gəlin qıza verdiyi, yaxud vəd etdiyi hədiyyə, xələt də bu adı daşıyır. Kənd yerlərində bu hədiyyə, adətən torpaq sahəsi, yaxud sağmal heyvan, şəhərlərdə isə bahalı bir qızıl zinət əşyası və s.-dən ibarət olur. ◆ Abşeronda ona *"dizayağı"*, başqa yerlərdə isə *"dizdayağı"* və *"boygördüsü"* (Naxçıvan) deyilir.

## DÜZGÜ

◆ Qız evindəki toy şənliklərinin üçüncü - **gəlinapardı toyu** [98] günü **gəlin qızın** [98] çöhrəsinə bəzəkçi usta qadın **məşşatənin** [192] əlilə yaxılan ağ və qırmızı boyaların yarısıyıq qarışığı - **ənlik-kirşanın** [88] başqa adı. Ayrı-ayrılıqda ağ boya - *"ağlıq"*, qırmızı boya isə *"allıq"* adlanır.

## DÜZGÜÇÜ

◆ **Toy** [269] zamanı **ər evinə** [89] köçürülən qıza xidmət edib onun "ağız-burnunu" bəzəyib-geyindirən, bu işdə hünər və zövq sahibi sayılan peşəkar, bəzəkçi **məşşatə** [192] qadına bəzi yerlərdə verilən adlardan biri. Xalq arasında ona həmçinin *"bəzəkçi"*,*"yazıcı"*, *"üzalan"* və s. deyirlər.

**80.**

## ELAĞASI

◆ Cənub torpaqlarımızda çaldırılan toy məclislərini idarə etmək üçün dəvət edilən xüsusi sərəncamçı - **toybəyinin** [269] köməkçisinə verilən adlardan biri. ◆ Onun digər adları *"eşikağası"* və *"əmirbəyi"*dir. Yurdumuzun digər yerlərində isə onu *"fərraş"*, *"yasavul"* adlandırırlar.



Azərbaycan Milli Kitabxanası

## ELGÖRDÜ

◆ Toy şənliklərindən üç-dörd gün sonra təzəbəy və təzəgəlinin yaxın qohumları ilə görüşü münasibətilə oğlan evində çağırılan **üzəçıxdı toyu** [278] məclisinin başqa adı. Bu deyim cənub torpaqlarımız üçün daha səciyyəvidir. Başqa yerlərdə bu məclisə *"eləçıxdı"*, *"üzaçdı"*, *"üçgünlük"* və s. deyirlər.

## EL QONAQLIĞI

◆ Ər evinə köçməyə hazırlaşan nişanlı qız şərəfinə qonşular tərəfindən verilən silsilə qonaqlıqların adı. Adət-ənənəyə görə, burada hər qonşu **gəlinlik cehizi** [98] üçün qıza bir şey bağışlayır. ◆ Əski, türk mənşəli bu adətə ayrı-ayrı bölgələrimizdə *"qız qonaqlığı"* (Şəki), *"sıra qonaqlığı"*, *"qonaqlıq gəzməyi"* (Goranboy) də deyirlər.

## ELYENGƏSİ

◆ Toy şənliklərinin gəlin köçürülən günü - **gəlinapardı** və **gəlingətirdi** [98] toylarında təzə mənzilinə köçürülən gəlin qıza xidmət və məsləhət üçün təhkim olunan və onu hər yerdə müşayiət edən peşəkar qadın - **qız yengəsinə** [178] verilən adlardan biri.

**81.**

## ● ELÇİ

*"İynə sancdım divara, elçi yolladım yara"*
(toy oxumasından)

[ *burada "nümayəndə" mənasındadır* ] ◆ Oğul evləndirmək, onun üçün yad bir ailədən qız istəmək, bu nikaha qızın ata-anasının razılığını almaq məqsədilə oğlan evinin qızgilə göndərdiyi səlahiyyətli nümayəndə heyətinin üzvü. ◆ El-oba adətincə, bu heyətə və ya onun üzvünə (istər qadın, istər kişi olsun) rədd cavabı vermək həm oğlan evi, həm onun nümayəndəsinə qarşı hörmətsizlik və təhqir sayılır. Bir dəfə sözü yerə düşmüş elçi nadir hallarda təkrarən həmin evə getməyə razılıq verir. Bütün bu cəhətlər qabaqcadan nəzərə alınmaqla, həmin məsul vəzifə, adətən, çox nüfuzlu şəxslərə - kəndin, obanın sözükeçən hörmətli ağsaqqalına və 3-4 ən yaxın qohuma, məsələn, oğlanın əmisi, dayısı və böyük qardaşına həvalə olunur. Xalq arasında onları daha çox *"elçiadam"*, *"arvad elçisi // qız elçisi"*, bəzi yerlərdə isə *"qılavuz"*, *"diləkçi"*, *"yorıqçı"*, *"minnətçi"*, *"savçi"* və *"xastar"* adlandırırlar. Düşmənçilik düşən yerdə adamı qarğışladıqda çox vaxt ona *"qızın (və ya - evin) elçi üzü görməsin"* deyirlər.

## ELÇİDAŞI

*"Elçiyə zaval yoxdur"*
(atalar sözü)

◆ Ötən çağlar, həddi-buluğa çatmış ərgən qızı olan ailənin evi və ya həyətinin darvazası qarşısında yerləşdiridirilən iri daşın, yaxud oturacağın adı. ◆ Qızı almaq istəyən hər bir cavan və ya onun valideyni, yaxud **ara arvadı** [11] bu daş üzərində oturub qız sahibinin eşiyə çıxıb onunla danışacağını gözləyir və görüşdükdə arzu-məqsədini ona bildirirdi. Bu görüş (onu, bir qayda olaraq, **ağızarama** [5] adlandırardılar) ayağüstü və qeyri-rəsmi olduğu üçün *"daş-üstə-oturan"* şəxs evə, həyətə dəvət olunmurdu, danışıqlar ev yaxınlığındakı meydanda, yaxud küçədə aparılırdı. ◆ Sonralar bu adət həm qız, həm onun ailəsi üçün təhqir sayılıb aradan götürüldü.

Azərbaycan Milli Kitabxanası

*"Nəmçilər, ay nəmçilər, qapını kəsib elçilər"*
(toy oxumasından)

## ELÇİLİK

◆ Qız evində ilk görüş **ağızaramadan** [5] sonra qız tərəfin nikaha rəsmi razılığını almaq üçün oğlan evinin keçirdiyi bir neçə tədbirin ümumi adı. ◆ Birinci, yalnız qadınların iştirakı ilə **ağızbildi** [5] və **sözaldı** [240] qeyri-rəsmi arvad elçilikləri keçirilir. Burada qız anasının nikaha razı olub-olmaması öyrənilir, onun ailə başçısı ilə məsləhətləşdiyindən sonra kişi elçiliyinin gəlməsi üçün qız evindən icazə alınır. **Hə-yox** [121] və **hərialdı** [119] kiçik və böyük kişi elçiliklərində isə, ilk öncə qız dədəsinin və digər yaxın qohumların nikaha rəsmi razılığı - *"həri"* si alınır, tərəflər ümumi bir fikrə gəlirlər. Elə buradaca - **üzük-şal toyu** [282] kiçik nişan mərasiminin günü müəyyən edilir. ◆ Dədə-baba əqidəsincə, bayram günləri elçi getmək məsləhət görülmür. Həmçinin, şadlıq, xoş niyyətlə bağlı bu tədbirlər zamanı *"acılıq əlaməti"* sayılan tütün-tənbəkidən əsla imtina edərək, qəlyan, çubuq və s. çəkməzlər. ◆ Cənub-qərb bölgələrimizdə bu toyqabağı tədbirə *"diləkçilik"*, Salyan və Lənkəranda - *"gəlmə"*, *"xastakarlıq"*, başqa yerlərdə isə *"dünürdüşdü"* və *"minnətçilik"* deyilir. Onun *"elçidüşmə // elçiləmə // elçiluq"* deyiliş şəkilləri də var.

## ELÇİPLOV

◆ Toyqabağı tədbirlərdən olan **hərialdı** [119] rəsmi böyük kişi elçiliyində qız evinin nikaha razılığı alındıqdan sonra oğlan adamlarına verilən plovun adı. ◆ Bu adət yalnız Salyan və Lənkəran bölgələri üçün səciyyəvidir. Ona bəzən *"həriplovu"* və *"elçiaşı"* da deyilir.

**82.**

*"Qız ilə eniştə, qarı ilə əriştə"*
(atalar sözü)

## ● ENİŞTƏ

[ *"əngüştər", yəni üzüktaxan sözünün təhrifidir* ] ◆ Gürcüstanda yaşayan soydaşlarımızda **qızın** [178] üzərinə ad qoyub ona evlənmək fikrində olan *"***adaxlı** [1] oğlan, **bəy** [36] və **kürəkən** [153]*"* anlamlarında işlənən deyimlərdən biri. ◆ Bu deyimin *"ənüştə // əngüştə"* deyiliş şəkillərinə də təsadüf olunur.

## ENİŞTƏLİK

◆ Oğlan evindəki ikinci toy şənliyi **gəlingətirdi toyundan** [98] üç gün sonra çağırılan **üzəçıxdı toyuna** [278] - toy məclisinin özünə və burada icra olunan **duvaqqapdı** [72] mərasiminə Gürcüstandakı soydaşlarımız tərəfindən verilən ad. ◆ Onun *"eniştəlük"* tələffüz tərzi də mövcuddur.

**83.**

## ● EŞİKAĞASI

[ *əslində "nökərbaşı" anlamındadır* ] ◆ Yurdumuzun cənub torpaqlarında çaldırılan toy məclislərini idarə edən peşəkar sərəncamçı - **toybəyinin** [269] köməkçisinə verilən adlardan biri. Burada onu həmçinin *"elağası"* və *"əmirbəyi"* da çağırırlar.



Azərbaycan Milli Kitabxanası

84.

## EV ADAMI

◆ Bir ailənin həyatında, burada baş verən xeyir və şər işlərində yaxından iştirak edən, həmin evə tez-tez gəlib-gedərək, onun bir para sirr və münaqişələrinə bələd olan şəxsə verilən ad. O, yaxın və ya uzaq qohumlardan, yaxud ailə üzvlərindən birinin məhrəm dostu və ya rəfiqəsi olub **qızbəyənmə** [178], **elçilik** [81] və toy-nişan tədbirlərində oğlan və ya qız nümayəndəsi tək iştirak edir.

## EVƏRMƏ

[ *"evə yiyələnmə, ev sahibi olma" mənasındadır* ] ◆ Əski zamanlar xalq arasında **"evlənmə"** [84], *"qanuni nikahla birləşmə"*, *"ailə qurma"* anlamında işlənən sözlərdən biri. Bu deyimə ilk dəfə IX-XI yüzillərin yazılı abidəsi "Kitabi Dədə Qorqud" dastanlarında rast gəlinir.

## EVLƏNMƏ

*"Allah ev tikən ilə evlənənə yardımçıdı"*
(atalar sözü)

◆ İki şəxsin bir-birinə qanuni **nikah** [203] yoluyla bağlanaraq **ər-arvad** [89], [12] olması; onların ailə qurub bundan sonra birgə yaşaması, dünyaya yeni nəsil gətirməsi, ev-eşik sahibi olması. ◆ Xalq arasında ona bəzən *"evərmə"*, *"başgözolma // başbağlama"*, *"qoltuğagirmə"*, *"ikibaşlı olma"* da deyirlər. ◆ Əski yazılarda isə bu iş *"təzəvvüc"*, **"izdivac"** [142], **"qəmər"** [173] adlanır.

## EVLƏNMƏ DƏLLALI

◆ Yurdumuzun bəzi bölgələrində, **oğlan evi** [208] ilə qızgili arasında vasitəçilik edən, bir qayda olaraq, yaşlı ağbirçək qadın - **ara arvadına** [11] verilən adlardan biri. Ayrı-ayrı yerlərdə onu *"bələdçi"*, *"dəllalə"*, *"ərus dəllalı"*, *"qılavuz"*, *"teyzə qadın"* və s. adlarla çağırırlar.

## EVLƏNMƏ KAĞIZI

◆ Toy günü oğlanla qızın evlənməsini rəsmi şəklə salmaqla bağlı **kəbinkəsdi** [143] mərasimində tərtib olunan **kəbin kağızı**nın başqa adı. ◆ Nikah şərtləri qeyd olunan bu yazılı sənədi vaxtilə *"evlənmə müqavilənaməsi"* də adlandırırmışlar. ◆ Əski yazılarda onun *"izdivac şəhadətnaməsi"*, *"əqdnamə // əqd qəbaləsi"* adlarına da rast gəlmək olur.

## EVLƏNMƏLİK

◆ Bir para yerlərin dilində, həm oğlan, həm qız toyuna dəvət edilmiş qonaqların toy vurdurub evlənən **bəy oğlan** [36] və **gəlin qıza** [98] verdikləri, yaxud göndərdikləri hədiyyə və xələtlərin ümumi adı. Bəzi başqa yerlərdə isə ona **"adağ"** [1], **"qatqı"** [166], **"dürü"** [76], **"nəmər"** [201] və **"toypayı"** [269] deyirlər.

Azərbaycan Milli Kitabxanası

## EVLƏNMƏ TÖRƏNİ

◆ Yurdumuzun şimal-qərb bölgələrində evlənmək, **nikah** [203] bağlamaq məqsədilə çaldırılan **xeyir iş** [129], təntənəli *"toy-düyün mərasimi"*, *"toy-nişan məclisi"* və *"toy büsatı"* anlamlarının qarşılığı kimi işlənən deyimlərdən biri. ◆ Burada ona bəzən *"düyün törəni"* də deyirlər.

**85.**

## ƏQD

◆ Əski qaynaqlarda təsadüf olunub, həm qız tərəfin nikaha razılığını almaqla bağlı **elçilik** [81], həm ərə veriləcək qızın barmağına üzüyün taxılması münasibətilə icra olunan **nişantaxdı toyu** [205] - böyük nişan mərasimi, həm də evlənmək, nikah bağlamaqla əlaqədar **toy-düyün** [269] anlamları daşıyan müştərək deyim. ◆ Bu deyimin daha çox *"əqd məclisi"*, yəni toy mərasimi şəklinə təsadüf edilir.

## ƏQDANƏ

◆ Müəyyən çağlar yurdumuzda *"nikahkəsmə haqqı"* mənasında işlənən kəlmə. ◆ Başqa sözlə desək, oğlan ilə qızın **evlənməsini** [84] rəsmiləşdirən **kəbinkəsdi** [143] mərasimi zamanı nikah bağlandıqda, gələcəkdə gəlin boşanarsa, ərinin ona verməli olacağı *"kəbinpulu"*, *"kəbinlik"* və *"mehir"*in əski adlarından biri.

## ƏQDBƏNDİ

◆ Klassiklərimizin əsərlərində **oğlan** [208] ilə **qızın** [178] evlənməsinin rəsmi şəklə salınması - *"nikahbağlama"* anlamının qarşılığı olan deyimlərdən biri. ◆ **Kəbinkəsdi** [143], *"nikahoxuma"* mərasiminin əski adı kimi keçmişin yazılarında onun *"əqdkəsdi // əqdi-nikah // əqdxanlıq"* şəkillərinə də rast gəlinir.

## ƏQDNAMƏ

◆ Toy günü icra olunan **kəbinkəsdi** [143] mərasimində tərtiblənərək, oğlan ilə qızın ailə qurub birgə yaşamasını qanuni şəklə salan və nikah şərtləri qeyd olunan yazılı sənəd - **kəbin kağızının** əski adlarından biri. Sonralar ona ayrı-ayrı yerlərdə *"nikah kağızı"*, *"əqd kağızı // əqd qəbaləsi"* də demişlər.

**86.**

## ƏLSUYU

◆ Vaxtilə toy-nişan mərasimləri zamanı qonaqlara yemək-içməkdən əvvəl və sonra əllərini yumaq üçün təklif olunan xidmətin adı. ◆ Burada çiynində dəsmal, əlində ılıq su ilə dolu bürünc və ya mis bir aftafa-ləyən tutan **ayaqüstü** [19], yaxud **xəlfə** [133], məclisi gəzərək qonaqlara (ən əvvəl ağsaqqal və mötəbər şəxslərə) bir-bir yanaşıb

Azərbaycan Milli Kitabxanası

ləyəni onların qabağına qoyar və aftafadan əllərinə su tökərdi. Qonaqlar əllərini sabunla yuyub ağızlarını yaxaladıqdan sonra dəsmalla silinərdilər. Bəzi qonaqlar *"salavat"* çevirməklə bildirərdilər ki, onların əlləri təmiz, *"dəstəmazlı"*dır, yəni suya ehtiyacları yoxdur. Əlsuyu bütün qonaqlara verildikdən sonra, lap axırda ev sahibi və evin adamları, yenə yaşa görə, böyükdən-kiçiyə kimi əllərini yuyardı.

## ƏLTUTDU

[ *həm razılığa gəlmək, həm də maddi kömək göstərmək mənasındadır* ] ◆ Yurdumuzun bir para yerlərində, toydan bir həftə əvvəl oğlan evi ilə qızgilin birlikdə çağırdığı məşvərət məclisi - **gənəşikin** [99] başqa adı. ◆ Burada oğlan evindən gətiriləcək **bazarlıq** [31], **südpulu** [244] və kəbin kağızına yazılacaq **mehirin** [189] məbləği müəyyən edilib razılaşdırılır. Ayinin sonunda qarşı tərəflər bir-birinin əlini tutur. Buna *"sövdələşmə"* və *"xeyirləşmə"* də deyilir.

## ƏLVERDİ // ƏLÖPDÜ

◆ Bəzi yerlərin adətincə, **harialdı** [119] böyük kişi elçiliyində qız evi ağsaqqalının nikaha razılığını bildirən, onun oğlan atası (elçilərin başçısı) ilə qarşı-qarşıya oturub (ikisi də diz üstə), əl-ələ tutub öpüşməsindən ibarət bir ayinin adı. ◆ **Üzəçıxdı toyunun** [278] sabahı, **ayağaçdı** [19] məclisindən əvvəl, bəy-gəlinin birgə və xəbər vermədən təzəgəlinin dədəsi evinə yollanıb orada *"gizli görüş"* keçirməsi də bu adı daşıyır. Adət üzrə, qırxı çıxmamış təzəgəlin bədnəzərdən uzaq olub çilləyə düşməsin deyə, yeni evlənənlər bu görüşə xəlvəti, hava tamam qaralandan sonra gedirlər. Elə bu səbəbdən cənub torpaqlarımızda bu görüş **gizlingecə** [103] adlanır. ◆ Gəncədə bu görüş vaxtı təzəbəy qayınatasının əlindən öpdüyü üçün ona *"əlöpməyi"* deyilir. ◆ Əslində, əlöpmə adəti özü özlüyündə əli öpülən adama etibar etmək, tabelik və səcdə ifadəsi tək izah olunur. ◆ Goranboyda bu ayin *"əlöpmək"*, Sabirabad və Əlibayramlıda isə *"əlbasdı"* adı daşıyır. ◆ Orta çağlarda bu görüş *"dəstbus"* adlanardı.

**87.**

## ● ƏMİRBƏYİ

[ *"əmrləri yerinə yetirən" mənasındadır* ] ◆ Cənub torpaqlarımızda çaldırılan **oğlan toyu** [208] məclislərini idarə etmək üçün cəlb olunan peşəkar sərəncamçı - **toybəyi** [269] köməkçisinə verilən adlardan biri. Bu bölgədə onun başqa adları *"əmrbegi"*, *"eşikağası"* və *"elağası"*dır.

**88.**

## ● ƏNLİK-KİRŞAN

*"Bəylər, xanlar nişanı, sürtməz ənlik-kirşanı"*
(toy oxumasından)

◆ Qız toyu şənliklərinin üçüncü - **gəlinapardı toyu** [98] günü, gəlin qız bəzənən zaman onun üz-gözünə, dodağına sürtülüb yanaqlarını qızardan iki təbii boyanın adı. Xüsusi ot, bitki yağı və boya tozundan hazırlanmış bu qırmızı və ağ (yaxud ət rəngli) ətirli maddələrə xalq arasında *"allıq-ağlıq"* da deyirlər. ◆ Kirşanın qalaydan alınmış



Azərbaycan Milli Kitabxanası

bir növü də *"qəleyi-kirşan"* adını daşıyır. Onun *"ənnik-kirşan"* və *"ənnik // ənnix"* (Abşeron, Şuşa, Şamaxı) deyiliş şəkilləri də var.

**89.**

*"Ər ilə arvadın torpağı bir yerdən götürülüb"*
(atalar sözü)

## ƏR

◆ Qadının **izdivac** [142] və **nikah** [203] ilə təsdiqlənmiş qanuni **kişisi** [151]. Dilimizdəki *"ərə vermək // ərə getmək"* ifadələri **subay** [241] qızı və ya ərsiz qadını bir oğlan, yaxud kişiyə nikahlamaqla onu həmin kişinin qanuni **arvadı** [12] etmək kimi başa düşülür (el-oba içində bəzən səslənən *"qızın ər üzünə həsrət qalsın"*, *"səni görüm heç ər üzü görməyəsən, "ər, ər" deyə-deyə əriyəsən"* və bu kimi sözlər, birinin o birisinə ünvanladığı ən ağır bədduadır). Bəzi yerlərdə ona *"kişi"* deyirlər.

*"Ər evi - ədəb evi"*
(atalar sözü)

## ƏR EVİ

◆ Evlənən oğlan toy günü icra olunan **kəbinkəsdi** [143] nikahbağlama mərasimində kəbinlə qızın qanuni kişisi elan olunduqdan sonra, bu qızdan ötrü həmin oğlanın atası evinin və ya təzə evlənənlər üçün ayrılmış digər evin adı. ◆ Həmçinin, bəzi yerlərdə *"**oğlan evi**"*nə [208] verilən ad.

*"Ərgən ərincək olar"*
(atalar sözü)

## ƏRGƏN // ƏRGƏNCƏ

[ *"yetkinləşmiş" anlamındadır* ] ◆ Tovuz, Qazax və Salyan bölgələrində üzünə yenicə tük çıxıb həddi-buluğa çatmış, ancaq hələ evlənməmiş subay oğlan, yaxud ərə getməmiş qız uşağına verilən ad. "Kitabi Dədə Qorqud"da adaxlı oğlan bu adı toyunun sonuna qədər daşıyır və yalnız toy günü **bəy** [36] adlanır. ◆ Dilimizdə işlənən *"ərgən olmaq"* ifadəsi oğlanın evlənməmiş, qızın isə ərə verilməmiş halına işarədir. Belə cavanlara, adətən, *"qabağına halal süd əmmiş çıxsın, Allah sənə toy-nişan qismət eyləsin, istədiyinə qovuşasan, adaxlı üzünə güzgü tutasan"* və bu kimi sözləri deməklə, oğlana tezliklə evlənmək, qıza - ərə getmək arzulayırlar. **Subay** [241] qıza *"ərlik"*, *"gəlinlik qız"* da deyilir. Onun *"əryən"* (Şəki), *"əriyən"* (Tovuz) tələffüz şəkilləri də var.

## ƏRGƏNLİK

◆ Uzaq keçmişdə nişanlı qızın adaxlı oğlana göndərdiyi ənənəvi hədiyyənin adı. Bu, çox vaxt qırmızı don və ya qoftan olardı. Həmin uzun ətəkli arxalıq qırx gün təzəbəyin əynində qaldıqdan sonra çıxarılıb bir fəqirə verilərdi. ◆ "Kitabi Dədə Qorqud"da da təsadüf olunur. ◆ Onun təhrifi tək səslənən *"əryannıx"* deyimi (Qazax) subay qardaşa ayrılan **toyxərcinin** [269] adıdır. Burada bu ad *"**başlıq**"* [29] mənasında da işlənir.

**90.**

## ƏRUS

◆ Klassik ədəbiyyatımızda, xüsusən Şah İsmayıl Xətainin yaradıcılığında, həmçinin



Azərbaycan Milli Kitabxanası

yurdumuzun bəzi yerlərində bu günün özündə, ərə getmək ərəfəsində olan **nişanlı** [205] qız və yenicə toyu çaldırılmış **təzəgəlinin** [267] daşıdığı ad.

## ƏRUSBƏR

[ *"gəlinyanı" deməkdir* ] ◆ Ötən zamanlarda **qız evində** [178] çaldırılan toy məclislərində yeni mənzilinə köçürülən gəlin qızı addımbaşı müşayiət edib, bir qayda olaraq, onun sağ tərəfində oturan ən yaxın və etibarlı rəfiqəsi, cavan ərli qadın - **qız sağdışının** [178] əski adlarından biri.

## ƏRUSÇU

◆ Bir para bölgələrin toy məclislərində saz çalıb oxuyan **aşıq** [16], çalğıçılar ağzında isə toyun təşkili ilə məşğul olan *"toy sahibi"* - oğlan atası və ya bəy oğlanın dayısı, yaxud böyük qardaşı mənasında işlənən məhəllə sözü. ◆ Bu deyimin *"ərüşçü"* şəkli də mövcuddur.

## ƏRUSÇUXANA

◆ "Aşıq sənəti sözlüyü"ndə oğlan və qız evlərində toy şənlikləri keçirmək üçün quraşdırılıb çoxlu adam yerləşə bilən salon, çadır, bir sözlə *"**toyxana**"* [269] mənasında istifadə edilən deyim. ◆ Onun rast gəlinən digər tələffüz şəkli *"ərüşçüxana"*dır.

## ƏRUS DƏLLALI

◆ Vaxtilə, şəhər mühitində, qız bəyənib almaq işində səriştəli sayılan, qız və oğlan evləri arasında vasitəçilik və elçiliklə məşğul olan yaşlı qadın - **ara arvadının** [11] başqa adı. Bəzi yerlərdə ona *"dəllalə // evlənmə dəllalı"*, *"teyzə qadın"*, *"bələdçi"*, *"qılavuz"* və s. deyirlər.

## ƏRUS DƏSMALI

◆ Gəlin qızın **gərdək gecəsi** [100] istifadə etdiyi iki yaylığın adı. Onları, bir qayda olaraq, **cehiz boğçasında** [42] qızın dədəsi evindən gətirərlər. Ağ ipək parçadan, dördbucaq biçimli əlyaylığı boyda tikilən bu dəsmalların üç kənarı tikili, dördüncü tərəfi isə açıq olmalıdır. Onları bəy ilə gəlinin yatacağı döşək üzərinə sərirlər. Toyun sabahı **qız yengəsi** [178] onları bakirəliyin təsdiqi, gəlin qızın üzü ağ çıxmasının sübutu tək, qızın dədəsi evinə aparır və bu yaylıqlar uzun müddət burada saxlanır. ◆ Ona *"zifaf ağı"*, *"gərdək yaylığı"*, *"gəlinlik dəsmalı"*, *"rüsdəsmalı"* və *"qızlıq yaylığı"* da deyirlər.

## ƏRUSİ

◆ Əski zamanların yazılarında təsadüf olunub bir vaxtlar yurdumuzun bəzi yerlərində evlənmək, nikah bağlamaq məqsədilə çaldırılan təntənəli *"toy-düyün mərasimi"*, *"toy büsatı"* anlamlarının qarşılığı kimi işlənən deyimlərdən biri. ◆ Onun *"ərsi"* tələffüz şəkli də olmuş, amma bu söz daha çox *"ərus məclisi"* tək səslənmişdir.



Azərbaycan Milli Kitabxanası

91.

## ƏSNAF TOYU

[ *"kustar, yeni xırda sənətkarlara (pinəçi, saatsaz, şüşəsalan və s.) məxsus toy" mənasındadır* ] ◆ XX yüzilin əvvəllərində yurdumuzun şəhərlərində icra olunan **toy** [269] mərasimi növü. Bu cür toy məclislərinə, adətən, ikinci dərəcəli xanəndələr çağırılar, həmin dövrdə dəbdə olan ən yüngül havalar və rəqslər ifa olunardı.

92.

## ƏTTİK

◆ Əski zamanlar Zaqatala bölgəsində çaldırılan **oğlan toyu** [208] şənliklərinin birinci günü - **ixtilat toyuna** [141] verilən ad. ◆ Onun *"əttiy"* deyiliş tərzi də mövcuddur. ◆ Elə bu ərazidə toy şənliklərinin ikinci günü *"aş günü"* adlanır.

93.

*"Səhəngin doldurub qoyar gərdəndə,*
*Nə ki, gözəllər var yığılıb kəndə,*
*Kəmərin bağlayıb gərdən çəkəndə,*
*Əyrəmçədən keçər beli qızların"*
(Aşıq Alı)

## ƏYRƏMÇƏ

[ *"ərgəncə" sözünün təhrifidir* ] ◆ Bir para yerlərin dilində, kişili-arvadlı, musiqinin müşayiətilə keçirilən **nişantaxdı toyu** [205] böyük nişan mərasimində ərə veriləcək qız üçün oğlan evindən gətirilmiş zümrüd qaşlı **bəxt üzüyünün** [34] adı. Bəzi kişilərin taxdığı *"nişan üzüyü"* də bu ad ilə çağırılır.

94.

## FƏRRAŞ

[ *"kiçik vəzifəli xidmətçi, məmur" anlamındadır* ] ◆ Ötən çağlarda toy məclislərini idarə edən **toybəyinin** [269] köməkçilərinə verilən ad. Onlar, adətən, iki nəfər sağlam cüssəli, güclü-qüvvətli adam olub, əllərində uzun çubuq toyxananın qapısı ağzında dayanar, toybəyinin əmrlərini gözləyərdilər. ◆ Məsəlçün, şənlik zamanı qonaqlardan biri oynamaq üçün ortaya çıxarılanda, amma rəqs etməyi bacarmadığını söyləyərək, boyun qaçırmaq istədikdə, toybəyidən cərimə alardı - **şabaş** [245] verməli, yaxud oxumalı və ya oxumağı bacaran bir kəsi göstərməli olardı. Bunları da etmək istəmədikdə o, fərraşlar tərəfindən çubuqla "döyülərdi". ◆ Fərraşlar məclisin gedişinə mane olan, hay-küy, qarışıqlıq salanları toyxanadan çıxarardılar və s. ◆ Bəzi yerlərdə fərraşı *"yasavul"*, *"elağası"*, *"eşikağası"* adlandırırlar. Onun *"fərrac"* deyiliş şəkli də var.

95.

## FƏTİRÜSTÜ

◆ Kənd yerlərində toy şənliklərinə 3-4 gün qalmış, **yuxaüstü** [299] günü münasibətilə



Azərbaycan Milli Kitabxanası

qız evinə yığışan qadınlar toy süfrəsi üçün fətir, yuxa və digər çörəkləri bişirməkdə olduğu zaman oğlan evindən bir dəstə qadının, başda **bəy oğlanın** [208] anası olmaqla, qızgilə gəlib çörək bişirənlərə payladığı xələtlərin adı. ◆ Bəzi yerlərin dilində isə bu ad elə *"yuxa günü"* mərasiminin öz adıdır.

**96.**

## GECƏKƏSDİ

◆ Bir para yerlərin qaydasına görə, axşamdan səhərə kimi davam edən **gecə toy** [269] məclislərinə xalq arasında verilən ad. ◆ Həmin məclislərdə qonaqlar sübh açılana qədər yatmayıb, necə deyərlər, *"gecə kəsir"* - yorulmadan aşıq nağıllarını dinləyir, müxtəlif oyunlarda iştirak edir, bəzən isə güləşməyə tamaşa edərək əylənirlər.

**97.**

## GƏHƏNŞAŞİ

◆ Vaxtilə Qubada toydan əvvəl oğlan və qız evləri arasında çağırılan **məsləhət** [191] məclisinin adı. Bu mühüm əhəmiyyət kəsb edən məclisdə, ilk öncə, böyük **nişantaxdı toyu** [205] mərasiminin, ardınca isə - **gəlinapardı** və **gəlingətirdi toy**larının [98] nə vaxt keçiriləcəyi gün və başqa məsələlər müəyyən edildikdən sonra süfrə açılır.

**98.**

## GƏLİN

◆ Toy çaldırıb nikah bağlamaq yolu ilə başqa bir ailəyə, ər evinə köçürüləcək nişanlı qıza **xınayaxdı toyun**dan [135] sonra verilən ad. Onun belə adlandırılması qızın yad bir ailəyə kənardan *"gəlişi"* ilə, ataların dediyi *"gəlin düşdüyü yerə gəlindir"* kəlamı ilə bağlıdır. ◆ Digər tərəfdən, onun **duvağı** [72] və **gəlinlik paltarının** [98] al qırmızı rəngə boyanması, başı və əl-ayağına xına yaxılması, ər evinə köçürüldükdə ayaqları, yalı, quyruğu xınaya boyanmış *"xing"* adlanan ağ at (bu at xalq arasında Günəşlə, onun ağ, saf işığı ilə bağlıdır) üstə qaldırılması, əcdadımızın əski günsevərlik, od-alova tapınmasının əyani izləri tək səciyyələndirilir. ◆ Oğuz türklərinin qədim inamına görə, *"gəlin"* - Tanrının göydən saldığı İşıq şüasının ortasında yerə enmiş həmin gözəl qızdır ki, Oğuz xaqan onu sevib aldı. Ulularımızın əqidəsincə, bu *"xatun-qadın-gəlin"* və bir zamanlar onunla eyniləşdirilən *"nar qız // nardanxatun"*, yəni od-alov xanım, *"od gəlin // odlu gəlin"*, özü özlüyündə ağ günün, saf işığın, od-alovun insaniləşdirilmiş timsalı sayılmışdır. ◆ Sonralar **gəlingətirdi toyu** [98] zamanı, gəlinin üzünə həmişə gün doğsun, çöhrəsindən nur əskik olmasın deyə, onun üzünə güzgü işığı - günəş ləkəsinin salınması və bunlardan əlavə, gəlin önündə saf günəş işığının rəmzi nişanları - güzgü və yanan çırağın gəzdirilməsi, əslində həmin qədim etiqadın əyani izləridir. ◆ Bu gün bəzən el-oba içində pis niyyətlə deyilən *"gəlin üzü görməyəsən"*, *"gəlin üzünə həsrət qalasan"* - və bu kimi bəddualar, eyni zamanda *"ağ gün görməyəsən"*, *"işıq üzünə həsrət qalasan"* - kimi başa düşülərək ən həqarətli qarğışlardan

Azərbaycan Milli Kitabxanası

hesab edilir. ◆ Ayrı-ayrı dövrlərdə ona *"bəyim // bəyü"*, *"ərus"*, *"yadqızı"*, *"peyvək"* deyilərmiş. Onun *"gəlin qız"*, *"gəlinsoltan"*, *"kəlin // kelin"* (Quba) və *"cəlin"* (Ordubad) deyiliş şəkilləri də olmuşdur.

*"...Ağlama ceyran balası, ağlama,*
*Gedər gözlərin qarası, ağlama..."*
(toy oxumasından)

## GƏLİNAĞLATMA

◆ Qız evindəki toy şənliklərinin ikinci günü - **xınayaxdı toyu**nda [135] nişanlı qızın baş-ayağına xına qoyulan zaman, tay-tuşların qəmli-qüssəli mahnılar oxumaqla qızı kövrəldib ağlatması. Burada bir tərəfdən ərə verilən qızın subay rəfiqələri, o biri tərəfdən bəy oğlanın bacıları, əmisi, bibisi, xalası və dayısı qızları iki dəstəyə bölünüb, əllərində şam, ənənəvi *"xına nəğmələri"* oxuyaraq, dönə-dönə qıza "bu gecə qonaq olub ertədən yola salınacağını" xatırladırlar. Yaxın ayrılığı duyan qızın anası, bacıları və bəzi qohumları qız ilə birlikdə yanıqlı-yanıqlı ağlayırlar. ◆ **Saçkəsdi** [224] zamanı qızın hörükləri kəsildikdə o, yenə bu mahnıların təsiri altında kövrəlib ağlayır. ◆ Qız toyunun üçüncü - **gəlinapardı toyu** [98] günü anası gəlin qızı oğlan evinə *"tapşırdıqda"*, qız yenə duvağı qaldırıb oxşayır və ətrafdakılar ona qoşulub birlikdə göz yaşı axıdırlar. Bəzi yerlərdə ona daha çox "qızağlatma" deyirlər.

## GƏLİNALAN

◆ Bir para yerlərin adətincə, **gəlinapardı toyu** [98] günü oğlan evindən qızgilə gəlmiş "nümayəndə heyəti" və **toy alayı**nın [269] başçısı, əlində **kəbin kağızı** [143] tutan bəy oğlanın dayısı və ya əmisi, yaxud böyük qardaşına verilən ad. ◆ Onun başqa adı *"gəlinalıcı"*, *"qızalan"*, *"qatarbaşı"*, *"dəstəbaşı"* və *"sərqətar"*dır.

## GƏLİN ALAYI

◆ Toy günü ərə verilmiş gəlin qızı atasıgildən yeni mənzilinə aparmaq üçün oğlan evindən onun ardınca yollanmış atlı dəstəsinin, yaxud müxtəlif miniklərdən ibarət **toy alayı**nın [269] digər adı. Ona *"gəlin qatarı // gəlin dəstəsi // gəlin karvanı // gəlin köçü"* də deyirlər.

*"Oğlanın adamıyıq, aparmağa gəlmişik"*
(toy oxumasından)

## GƏLİNAPARDI TOYU (X)

◆ Üç günlük **qız toyu**nun [178] sonuncu və həlledici mərasimi. ◆ Əski zamanlar əcdadımız Oğuz türklərində **xınayaxdı toyu**ndan [135] sonra, yalnız qadınların iştirakı ilə keçirilən ən dəbdəbəli toy məclisi də bu adı daşımışdır. ◆ Sonralar bu şənliyi oğlangildə çaldırılan **gəlingətirdi toyu** [98] ilə eyni gündə keçirməyə başladılar. Bəzi yerlərdə isə bu mərasim oğlan evindəki toydan 2-3 gün və ya bir həftə əvvəl keçirilir. ◆ Adət-ənənəyə görə, bu toyda on iki yaşından yuxarı və on iki nəfərdən artıq kişi (yeniyetmə) olmamalıdır. Onlar toyun keçirilməsinə müəyyən yardım, məsələn, ətlik heyvanların kəsilib soyulması, odunun doğranması, od-ocağın qalanması və bu kimi işlərdə kömək edə bilərlər. ◆ Bir para yerlərin qaydasınca, bu toyda oğlan evi qadınlarından başqa digər qonaqlara yemək verilmir. ◆ Bizim günlər bəzi bölgələrdə bu şənliyə kişilər də çağırılır... ◆ Bələdçinin *"qırmızı"* bölməsində [səh. 189] milli toy ənənəmizin **gəlinapardı toyu [X]** mərhələsi haqqında daha ətraflı yazılır.

Azərbaycan Milli Kitabxanası

## GƏLİNATLANDI

◆ El-oba adətinə görə, **gəlinapardı toyu**nda [98] gəlin qızın, **yengələri** [296] və **sağdış-soldışı** [225] ilə dədəsi evindən çıxıb ata, yaxud miniyə (at arabası, fayton və s.) qalxması. ◆ Burada gəlin qızın qarşısına bərli-bəzəkli bir ağ-bəyaz at (xalq arasında ona *"xing"* deyilir) gətirilir. Əski adət-ənənəyə görə, qızın atası bu at üçün əvvəlcədən təzə yüyən tədarük edib toy günü onu oğlan evi adamlarına, yaxud bəy oğlanın özünə verməlidir. Qayda üzrə, atın başı qibləyə yönəlməli, yəhəri boş qalmamalı - üstündə azyaşlı bir oğlan uşağı oturmalıdır. Kənar adamlar ata yaxın gəlməməlidirlər. Bir sözlə, dədəsi qızını sol tərəfdən atın üstünə qaldırır və sonra keçib həyətin darvazasını açır. ◆ Bəzi yerlərin adətincə, gəlini dədəsi evindən oğlanın **sağdış-soldışı** [225] çıxarır, burada qızın doğma qardaşı, yaxud bəyin qardaşı və ya oğlan sağdışı atın sol böyründə dayanıb dizini bükür və gəlin ayağını onun dizi üstə qoyub ata qalxır. Hərdən gəlinlə yanaşı atın tərkinə bir kiçik oğlan uşağı da mindirirlər. ◆ Bir para yerlərdə **oğlan sağdışı** [208] və ya oğlanın dayısı ata minib qızı arxasına oturdur, **soldış** [239] isə atın yüyənindən tutub çəkir. ◆ Bu zaman çalınan ənənəvi rəqs havası da *gəlinatlandı* adını daşıyır. Bəzi yerlərin adətincə, bu rəqsi yalnız toy günü gəlin qız tək oynayır. Onun başqa tələffüz şəkli *"gəlinattandı"*dır.

## GƏLİNBACI

◆ Bəzi yerlərin dilində qız evinin dəvət etdiyi, toy mərasimində gəlin qıza məsləhətçi kimi təhkim olunub onu ər evinə müşayiət edən, xüsusi bilik və təcrübəyə malik qadın - peşəkar **qız yengəsi**nin [178] adı. ◆ Onun başqa adı *"gəlin yengəsi"*dir.

## GƏLİNBARDAĞI

◆ Quba bölgəsindəki toy-nişan mərasimlərində qız evində qonaqlara şərbət paylamaq üçün istifadə olunan qabın (dolça, bardağ, satıl və s.) adı. Adətən, **dərnə** [61] və ya **sərpayının** [236] gəzdirdiyi bu qabdakı şərbət gəlin qız barmağını ona saldıqdan sonra qonaqlara paylanılır. Başqa yerdə ona *"şərbət dolçası"* və *"şərbət satılı"* deyirlər.

## GƏLİNBƏZƏMƏ

*"Bənzəyir tovuz quşuna qırmızı, allı, gəlin"*
*(toy oxumasından)*

◆ Qız evindəki toy şənliklərinin üçüncü - **gəlinapardı toyu** [98] günü ər evinə köçürüləcək gəlin qızın geyindirilib bəzənməsi. ◆ Adət-ənənəyə görə, yalnız **kəbinkəsdi** [143] mərasimindən sonra başlanan bu işlə, bir qayda olaraq, el-oba içində **məşşatə** [192] adı ilə bəlli olan xüsusi bəzəkçi, usta qadın, yaxud **qız yengəsi** [178] məşğul olur. Toy günü gəlin qız hamamdan atası evinə qayıtdıqdan sonra, kənar adamların gözünə görünməsin deyə, onu **bəzək otağı**nda [37] ipək pərdə, yaxud zərli örpək dalında oturdurlar. ◆ Əvvəlcə **saçkəsdi** [224] tədbiri həyata keçirilir. Burada qızın hörükləri kəsilib cavan gəlinlərə məxsus yeni biçimdə daranır. Bunun ardınca, **üzalma** [278], **gəlinlik paltarının** [98] geyindirilməsi və nəhayət, qızın başı və boyun-boğazının zinət əşyaları ilə süslənməsi icra olunur. ◆ Əski qaydaya görə, gəlin qız öz toyunda başdan-ayağa kimi ancaq oğlan evinin gətirdiyi pal-paltarı geyib, gələcək ərinin ona bəxş etdiyi zinət əşyaları ilə bəzənməlidir. Bu tədbirdə sonsuz və ya yas saxlayan qadın, qırxı çıxmamış zahı və həmzatlı qadınların iştirakına yol verilməməlidir. ◆

Azərbaycan Milli Kitabxanası

**Başıbütöv** [29] qadın, yaxud qızın yaxın qohumlarından biri - xalası, bibisi, ilk əvvəl, qızın başı üstə yaxası açılmamış **bəxt köynəyinin** [34] yaxasını açır və *"bismillah"* deyərək, onu qızın başına keçirir. ◆ Sonra gəlinə qırmızı məxmər don, xara tuman və s. paltar geydirilir. Başına *"dingə"* vurub, üstündən *"dördrəng"* deyilən ipək yaylıq bağladıqdan sonra onu boğazaltının qarmaqları ilə bəndləyirlər. Ardınca, qızın saçlarına xırda mirvari düzür, qulaqlarına minalı sırğa, barmaqlarına qaşlı üzük, qollarına bilərzik, boynuna həmayıl, gözmuncuğu və mərcan asırlar. Sinəsinə *"qızılgül"*, yaxasına isə *"yaxalıq"* keçirib, belinə gümüş kəmər (onsuz qız verilməz), varlı ailələrdə *"təkbənd"* və ya *"girvənkə toqqa"* deyilən qızıl kəmər və ya dəri zolaq üstünə üç sıra gümüş pul tikilmiş qurşaq, alnına isə yenə üzərinə qızıl və ya gümüş pullar düzülmüş *"qabaqlıq"* bağlayırlar. ◆ Gəlinin başına parlaq **cığcığa** [44] tökdükdən sonra, saçlarına, üzünə oğlangildən gətirilmiş gülab və ya ənbər, paltarına isə müşk səpirlər. Bir sözlə, qırmızı duvaqdan başqa, gəlin qızın bütün bəzək və **toy** [269] libası ona geydirilir. ◆ Bu işlər görülən zaman bir **subay** [241] qız gəlinin sinəsinə güzgü tutur, qız yengəsi tez-tez onun ağzına şirni qoyur, qızın yaxın qohumlarından biri pərdə qabağında qaval çalıb ucadan oxuyur. Bununla o, sən demə, bədxah ruhları oradan qovur. ◆ Elə burada, qızın rəfiqələri və qohumları hər vasitə ilə gəlin qızı əyləndirir, vəziyyətə uyğun oxumalar ifa edirlər. Qız isə pərdə dalında, əsl mənada ərli gəlinlərə məxsus yeni və bəzən tanınmaz bir sifət alırdı. ◆ Bundan sonra o, abır-həya edib axşama qədər xəlvəti bir yerə çəkilib gizlənir, doğma dədəsi, əmisi və dayısının gözünə görünməməyə çalışır. Çox vaxt bəzəmədən sonra gəlin qız yengəsinin evinə aparılıb axşama kimi orada qalır. Onun burada qalması hamıdan gizlədilir və o, yalnız oğlan adamlarının gəlməsi üçün yenidən dədəsi evinə gətirilir. ◆ Bəzi yelərin adətincə, *"bəzəmə əməliyyatı"* qızın dədəsi evində deyil, onun yengəsi, yaxud qızın dayısı və ya xalası evində keçirilir. Axşam, oğlan tərəfin gəlişinə bir az qalmış, *"altdan geyinib üstdən qıfıllanmış, üstdən geyinib altdan qıfıllanmış"* qız **gəlinlik taxtına** [98] çıxarılır və dədəsilə halallaşır. Bundan sonra onun iznilə məşşatə və ya anası tərəfindən başına **duvaq** [72] salınır (əski dədə-baba adətincə, toy günü gəlinin üzü, ayaqları və saçı görünməməlidir). ◆ Gəlini aparanlar arasında oğlan evindən gəlmiş bir yeniyetmə duvaq üstündən qızın belini kəmər və ya kəlağayı ilə bağlayır. Sonra **oğlan yengəsi** [208] bəzənmiş gəlinin başına **bəzəkpulu** [37] qoyur. Bu pul məşşatə və ya qız yengəsinə çatır. ◆ Qız anası da öz növbəsində məşşatəyə, içinə şirniyyat, çay, köynəklik parça və s. düzülmüş xonça tutur. Məşşatə xonçalardakıları götürüb *"Allah mübarək eyləsin, Allah başından töksün"* - deyərək, razılıq edə-edə çıxır. ◆ Dastanlarımızda bu mərasim belə nağıl edilir: *"toy tədarükü başlanır, şəhərin 77 yerindən məşşatə çağırılır, gəlini geyindirib 77 qələm zinət verirlər."* ◆ Mənşə etibarilə bu *"bəzənmə əməliyyatı"* gəlin qıza gözəllik vermək üçün edilmir. Əslində, bu onun qızlar sırasından ayrılıb *"ərli qadınlar"* cərgəsinə keçməsilə bağlıdır. ◆ Bəzi yerlərdə **gəlinin tərifi** [98] də bu adı daşıyır. ◆ Bir para yerlərdə bu işə *"gəlinbəzəndi"*, *"bəzəkvurdu"*, *"gəlinbaşı bağlama // gəlinbaşı bəzəmə // gəlindonatma"* da deyirlər.

*"Həmişə çırağın yansın"*
(el xeyir-duası)

## GƏLİN ÇIRAĞI

[ *buradakı "çıraq" ümumiyyətlə, işıq mənbəyi anlamındadır* ] ◆ Qız toyu şənliklərinin üçüncü günü - **gəlinapardı toyunda** [98], **toy alayının** [369] ön sıralarında addımlayan bir oğlan uşağının (ya da **qız yengəsi** [178] və ya **qız sağdışının** [178]) əlində tutduğu və gəlin



Azərbaycan Milli Kitabxanası

qızın önündə, **bəxt güzgüsünün** [34] qarşısında apardığı işıq mənbəyi - yanan çıraq, şamdan və yaxud lampaya verilən ad. ◆ İlk çağlar o, həqiqi çıraq olardı, bal və yağ ilə doldurulub çaxmaqdaşı qığılcımından, sonralar isə qızın dədəsi evinin ocağından yandırılardı. ◆ El-oba qaydasınca, gəlinin öz od-alovu olmalıdır, atası evindən yeni mənzilinə o, yalnız bir çıraq aparmalıdır. Həmin çıraq **ər evində** [89] **təzəbəy** [267] və **təzəgəlinin** [267] yanında üç gün, üç gecə yanıb sönməməlidir. İnama görə, onun sönməsi qarşıda böyük bədbəxtliyin olduğundan xəbər verir. ◆ Çıraq aparan, adət üzrə, yol boyu tez-tez ucadan: *"Allah mübarək eyləsin, Allah xeyrə calasın"* - sözlərini çığırır və gəlin yeni mənzilinə çatdıqda oğlan anası çıraq tutana **çıraq xələti** [53] verir. ◆ Sonralar şam-çırağı neft lampası əvəz etdi.

## GƏLİN DƏRNƏSİ

◆ Bir para yerlərin ağzında, toy günləri **qız yengəsilə** [178] yanaşı, gəlin qızın xidmətində durub onu ər evinə müşayiət edən yengə köməkçisi - **dərnənin** [61] başqa adı. Bəzi bölgələrdə isə **yengə** [296] və ya **məşşatəyə** [192] verilən adlardan biri.

## GƏLİN DÖRÜ

◆ Yurdumuzun qərb bölgələrində çaldırılan toy mərasimlərində oğlan evindəki **gəlin otağının** [98] yuxarıbaşında, buraya gətiriləcək gəlin qızın durub oturması üçün hazırlanmış şərəfli guşənin və xüsusi taxtın adı. ◆ Onun digər adı *"dörbaşı"*, *"toyun dörbaşı"*, *"devir // dövr // dör"* və *"paytaxt"*dır.

## GƏLİNƏBAXMA

*"Gəlinə baxmaq savabdı"*
(atalar sözü)

◆ Şəkidə qız və oğlan yengələrinin məhəllə qadınları üçün təşkil etdiyi kiçik bir tamaşanın adı. ◆ **Toyun** [269] sabahı onlar təzəgəlini pəncərə qarşısında oturdur, yaxın qonum-qonşu isə gəlib bir-bir pəncərə qabağından keçərək, gəlinə tamaşa edirlər. ◆ Tədbirin başqa adı *"gəlingördü // gəlingörməsi"* və *"qızgörünməsi"*dir.

## GƏLİNGƏTİRDİ TOYU (XI)

*"Yollara gül döşəyin, yol açın, gəlin gəlir"*
(toy oxumasından)

◆ Üç gün, üç gecə davam edən **oğlan toyunun** [208] ikinci gününə verilən ad. ◆ Ötən çağlarda **ixtilat toyu** [141] adı altında tanınan bu mərasimin axşamı gəlin qız dəbdəbə ilə ər evinə çatdırılır və həmin günün gecəsi oğlan ilə qız ilk dəfə görüşürdülər. Sonralar ixtilat toyu bu mərasimdən ayrılıb toydan bir gün əvvəl **məsləhət** [191] və ya **sərpayı axşamı** [236] adı altında keçirildi, əsl *"oğlan toyu"* isə, onun sabahı qeyd olunmağa başlandı. ◆ Bundan ötrü bir gün əvvəl və ya səhərdən oğlan evinin həyətində müvəqqəti **toyxana** [269], yaxud **mağar** [187] inşa olunur, plov qazanları asılır, məclisə xanəndə, bəzən isə ustad aşıq (yaxud hər ikisi birlikdə) dəvət edilir. Qaydaya görə, **toyçular** [269] toy evinə müəyyən məsafə qalmış zurna-nağaranı səsləndirib (xalq arasında buna **qamət** [160] deyilir), çala-çala, səs-küylə oğlan evinə yaxınlaşırlar. Bəzən zurnaçılar uca bir təpə, qaya üstə və ya oğlan evinin damına qalxıb zurnaları ilə kəndə səs salırlar... ◆ Bu bələdçinin *"qırmızı"* bölməsində [səh. 197] milli toy ənənəmizin **gəlingətirdi toyu [XI]** mərhələsi haqqında daha ətraflı yazılır.



Azərbaycan Milli Kitabxanası

• IV •

# HƏRİALDI

**119.**

◆ Birinci qeyri-rəsmi kişi elçiliyi **hə-yox**da [121] qız tərəfin nikaha ümumiyyətlə etiraz etmədiyindən əmin olduqdan sonra, oğlan tərəfin bu dəfə rəsmi razılıq almaq məqsədilə qız evinə göndərdiyi böyük **kişi elçiliyi**nin [151] adı. ◆ Müəyyən edilmiş gündə və saatda oğlan atası, yenə əvvəlki tərkibdə elçilik - bir neçə yaxın kişi qohumu, ağsaqqalı - yığır və oğlanın anası, yaxud xalası ilə **qız evi**nə [178] yollanır. Qız atası da, birinci elçilikdən fərqli olaraq, bu dəfə yaxın kişi qohumlarından bir neçəsini, ailənin mötəbər ağsaqqallarını məclisə dəvət edir. Elçilərin gəlməsi üçün onun qəti qərarı artıq hazır olur. Bundan ötrü o, birinci elçilikdən sonra **gənəşik** [99] keçirib məsləhətləşir, yaxın qohum-əqrəbanın rəyini və qızın öz fikrini öyrənir, oğlan haqqında lazımi məlumat toplayır. ◆ Məclisin əvvəlində oğlan atası, ilk öncə, onunla gəlmiş və süfrə başında oturan "nümayəndə heyəti" üzvlərinin kimliyini bildirir. Qızgilin ağsaqqalı və ya qız atası da eyni hərəkəti edir. ◆ Qadınlar oturan otaqda isə fürsətdən istifadə edən oğlan anası və ya xalası **nişan üzüyü** [205] sifariş verməkdən ötrü, hər ehtimala qarşı, qızın barmağının ölçüsünü götürməyə çalışır. Amma, el-oba qaydasına görə, əgər "rəsmi razılıq" hələ əldə edilməyibsə, bunu etmək düzgün deyil. Odur ki, əvvəllər qız abır-həya edərək, elçilər gəlməmiş evdən çıxar, yaxın rəfiqəsigilə və ya qonşuya gedərək orada "gizlənərdi". Dədə-baba qaydasına görə, istər oğlanın, istərsə qızın bu tədbirdə iştirakından heç söz də gedə bilməzdi. ◆ Bu biri otaqda isə hər iki evin kişi nümayəndələri müxtəlif mövzularda söhbət edərək qarşı tərəfə müsbət təsir bağışlamağa çalışırlar, iki tərəfin də geniş biliyə, yüksək əxlaqi keyfiyyətlərə, böyük nüfuza və maddi imkanlara malik, bir-birinə layiq olduğunu nümayiş etdirirlər. Bu minvalla bir qədər söhbət etdikdən sonra nəhayət, sözü evlənmək istəyən oğlanın üstünə gətirib çıxarır və hər cəhətdən onu tərifləməyə başlayırlar. ◆ Nəhayət, oğlan tərəfin ağsaqqalı qız evinin qəti və son sözünü bilməkdən ötrü nümayəndə heyəti adından: "indi biz yenə qızınız üçün gəlmişik, bu gün gərək sözümüz iki olmasın"- deyir. **Nikah** [203] qız evini qane edirsə də, qızın dədəsi burada abır-həya gözləyərək və elçilərə ehtiram əlaməti olaraq açıq-aşkar surətdə "razıyam" deməyib susur. Bu dəfə ərə veriləcək qızın əmisi, yaxud dayısı "indi daha qapımıza gəlmisiniz, duz-çörək kəsmişik, fərqi yoxdu, oğlan oğlumuz, qız qızınızdı, qismət olandan sonra nə eyləmək olar" və bu kimi bir qədər minnətli ifadələrlə oğlan tərəfə cavab verir. Bunun əvəzində, oğlan evinin ağsaqqalı: "gəlin ayri oturub düz danışaq, indi deyin görək bizdən nə istəyəcəksiniz?" - deyib, soruşur. ◆ Bundan sonra qız atası toy üçün lazım olan xərcləri bir-bir sadalayır, oğlan evinin ağsaqqalı və oğlanın atası isə, bir qayda olaraq, bir para xərclərin artıq və gərəksiz olduğunu bildirib onları rədd edir. Qızın ailəsi kasıb olduqda, adətən, cehizin miqdarı və ümumi məbləği barədə uzun-uzadı mübahisə gedir və nəhayət, tərəflər razılığa gəlib ümumi dil tapırlar. ◆ Bundan sonra oğlan atası bir az zarafatyana deyir: "atalar demişkən, "indi ki, sən razı, mən razı, daha nə qələt eylər qazı?", sözümüz sözdür, filan gün adamlarınızı çağırın, şirnimizi gətirib gəlirik, inşallah", yaxud "Allah qoysa, nə vaxt şərbət içirik?" (bununla o kiçik nişan - **üzükşal toyu** [282] mərasimi

Azərbaycan Milli Kitabxanası

gününə işarə edir). Onun bu sualına "ayın başında, inşallah" və ya"iki aydan sonra" cavabını aldıqdan sonra elçilər sağollaşıb gedirlər. ◆ Bəzən isə "şirnigətirmə-şərbətiçmə"yə də ehtiyac qalmır və elçilik "nişan mərasimi" səviyyəsində keçirilir. Oğlan tərəf elə bu məclisdə başlığın pulunu çıxarıb qız tərəfin qabağına qoyur. Belə olduqda, süfrəyə isti məxməri çay və qənd, yaxud **dürəng** [75] deyilən çay, bəzən isə baldan hazırlanıb gülab qatılmış ağ şərbət - **ovşala** [211] gətirilir. Qız evi ağsaqqallarından biri qəndi stəkana salıb qarışdırır (bu da artıq razılıq əlamətidir) və ətrafdakılara ucadan: "çayınızı şirin eyləyin" - deyir və sonra: "Allah mübarək eyləsin, Allah sizi şad eyləsin, xoşbəxt olsunlar, qoşa qarısınlar, gün o gün olsun **nişan**ına [205] gələk, **toy şirnisi**ndən [269] yeyək, inşallah" - deməklə, artıq nikaha razılıq əldə olunduğunu bir daha bildirir. Hamı bir ağızdan "amin" dedikdən sonra çaylarına qənd salıb qarışdıraraq içirlər. ◆ Bunun ardınca süfrəyə bir sinidə üç qab gətirilir və ağsaqqallardan biri oğlan atası ilə **çörəkkəsdi** [55] ayinini icra edir. ◆ Bəzi yerlərin adətincə, isti çay, yaxud "şəhdi-şəkər şərbəti" içildikdən sonra mərasim iştirakçıları: "xoş günlərə yetsinlər, həmişə ağ gün içində olsunlar" - deyərək, boş stəkanlara xırda pul atırlar. ◆ Keçmiş çağlarda bu **elçilik** [81] zamanı daha bir ayin icra olunardı. Qızın dədəsi yerə bir qadın örpəyi sərər, oğlan atası isə papağını, xəncərini və kəmərini çıxarıb örpək üstə qoyardu və bununla o, sən demə, həmin gündən etibarən qızın namus-qeyrətini qorumaq vəzifəsini öz öhdəsinə götürdüyünü bildirərdi. Ayin bir ağ qoçun, üzərində dua oxuduqdan sonra kəsilməsi ilə başa vurulardı. ◆ Bir başqa bölgənin adətincə, burada qız dədəsi ilə oğlan atası bir-birinə cib yaylığı, yaxud qurşaq bağışlayırlar. Oğlan atası bəxş edilmiş yaylıq içinə bir qədər pul - "beh" basıb qız atasına qaytarır. ◆ Digər yerlərdə isə qızın dədəsi elçilərin hərəsinə iki-üç ipək cib yaylığı və iynə-sap bağışlayır. Sonra kiçik nişan - üzükşal toyu mərasiminin gününü müəyyənləşdirib, **nişanxərcin**dən [205] tutmuş **böyük toy**un [41] nə vaxt keçiriləcəyinə qədər bütün məsələləri həll edirlər. ◆ Beləliklə, bu məclisdə qızın "həri"si, yaxud "hə"si və ya "hana"sı alınır. Başqa sözlə desək, həm qız ilə oğlanın nikahına rəsmi razılıq əldə edilir, həm də iki yad ev arasında qohumluq əlaqələrinin ilk təməli qoyulur. ◆ Bəzi yerlərin qaydasına görə, qızın "həri"si bu elçilikdən üç gün sonra alınır. ◆ Elçilər: "Allaha əmanət eylədik" - deyib, gedəndən sonra, qızın kiçik bacısı yaxın rəfiqəsigildə, yaxud qonşuda "gizlənən" qızı evə gətirir. Evdə qızın ata-anası və digər qohumları: "a balam, **şirnin** [259] mübarək, ulduzunuz barışsın, arzuna yetəsən, ürəyindən keçəni gözünlə görəsən, o gün olsun nişan gününü görək, inşallah" - və s. arzular deyərək onu təbrik edəndə qız, bir qayda olaraq, ağlayır. ◆ Bəzi yerlərin adətincə, evinə qayıdan oğlan atası və elçilik nümayəndəliyinin başqa üzvləri onlara qız evində bağışlanmış yaylıqları qollarına bağlayır, yaxud, uzaqdan görünsün deyə, yuxarı qaldırıb yelləydirlər, qurşaq bəxş edildikdə isə onları bellərinə sarıyırlar. Evə çatdıqda yaylığı iynə ilə həyət darvazasına sancır, sonra evdən bir tüfəng çıxarıb göyə üç atəş açırlar. Səsə yığılan qonum-qonşu darvazada yaylığı görüb hər şeyi başa düşür, darvaza önündə çalıb-oynayır, oxuyurlar. Sonra hamı oğlanın ata-anasını bu əlamətdar hadisə ilə təbrik edir. ◆ Digər bölgələrdə isə, qızgildən qayıtmış elçilərə, hər şeydən əvvəl, verilən: "qız gəlmisiniz, ya oğlan?", yaxud "oğlanmısan, qızmısan?" - sualına, elçi: "oğlanam" - cavabını verməklə, elçiliyin uğurlu keçdiyini, nikaha razılıq alındığını bildirir. Bu an hamı oğlana, onun ata-anasına "mübarək olsun, Allah arzu-istəyinə çatdırsın, halal südəmmişə ürcah eyləsin, gün o gün



Azərbaycan Milli Kitabxanası

olsun **bəylik taxtı**na [36] çıxasan" - və s. xoş arzular diləyirlər. ◆ Bəzən isə razılıq xəbərini oğlan evinə tez çatdırmaqdan ötrü, oraya bir muştuluqçu göndərilir və elçilər qayıdanda oğlan ailəsində onları artıq sevincdən çırtıq çalıb oynayaraq, təntənə ilə, "qaliblər" təki qarşılayırlar. ◆ Bundan sonra oğlan tərəf **kiçik nişan** [150] mərasiminə hazırlıq işlərilə məşğul olur, oğlanın atası **başlığ**ın [29] miqdarını daha dəqiq müəyyənləşdirməkdən ötrü öz qohumlarından bir neçəsini qızgilə göndərir. ◆ Bu rəsmi kişi elçiliyinə Qazax və Balakəndə "hana // hanaaldı", Borçalıda - "hənə" ("hana // hənə" razılıq deməkdir), Şəkidə - "hanqa", keçmiş Zəngəzurda - "hədeməsi // hədeması", Qubada - "sözkəsdi", Naxçıvanda - "salma", başqa yerlərdə isə "həverma // həriverme", "sövdələşmə", "adelədi // adolundu // addandırma", "şirniiçdi // şirnilikiçmə", "şərbətiçdi" deyilir.

• IV •

Ardı:
ÜZÜKŞAL TOYU ◆ V
(97-ci səhifədə)

Azərbaycan Milli Kitabxanası

## GƏLİNGƏTİRMƏ

◆ Toy mərasimlərində ifa olunan coşğun, oynaq ruhlu, halaysayağı rəqslərdən birinin adı. Rəqs qız evində, gəlini **ər evinə** [89] aparmazdan əvvəl yaşlı bir qadın tərəfindən oynanılır. Sonra rəqsə 2-3 subay qız da qoşulur, onları isə gəlinin yaxın rəfiqələri və **sağdış-soldışı** [225] əvəz edir. Lap axırda gəlin qız özü oynayır.

## GƏLİNGÖRDÜ

◆ Bəzi yerlərin adətinə görə, toydan iki-üç ay sonra qız anasının yaxın adamları ilə birlikdə kürəkən evinə, qudasıgilə gəlməsi. ◆ Burada qonaqlar oğlan evi adamları ilə bir yerdə yeyib-içib şənlənir, axırda qızın anası təzəbəy ilə təzəgəlinə hədiyyə verir. ◆ Digər yerlərdə gəlinin ər evində yeni qohumları - **ərinin** [89] ailə üzvlərilə tanış olması ilə bağlı bir məclis də bu adı daşıyır. Şəkidə toydan sonra çağırılan həm **gəlinəbaxmanın**, həm də **ayaqaçdı** [19] qonağlığının başqa adıdır. Onun əski adı isə *"bəyügörmə"*dir. ◆ *"Gəlingörməsi"* deyiliş şəkli də var.

*"Qız-gəlinin fındıqçası, hənası*
*Həvəslənər anası, qayınanası."*
(M. Şəhriyar)

## GƏLİN XINASI

◆ **Qız toyu** [178] şənliyinin ikinci günü oğlan evindən qızgilə **xınayaxdı toyuna** [135] gətirilmiş xınanın adı. ◆ Oğlan tərəf onu isladıb xəmir halına salaraq 2-3 yumru kündə şəklində bir gümüş sini üstünə qoyur və ora iki şam əlavə edib qız evinə aparır. ◆ Bəzən xına toz halında 0,5 / 1 kq-lıq parça torbada gətirilir və toy günü yerindəcə isladılır. ◆ Ona həmçinin, *"toyluq xına"*, *"qardaş xınası"* da deyilir.

## GƏLİN XONÇASI

◆ **Cehiz günü** [42] (nişanlı qızın dədəsi evində hazırlanmış **gəlinlik cehizi** [98] **ər evinə** [89] aparılmazdan əvvəl "sərgiləndiyi" zaman) oğlan anasının qızgilə gəlib gəlinin yorğan-döşəyini sırıyan **başıbütöv** [29] qadına verdiyi xonça və hədiyyənin adı.

*"Gəlin, qədəmin mübarək olsun"*
(toy oxumasından)

## GƏLİNİ-MÜBARƏK

◆ Muğanda oğlan evi qadınlarının **gəlingətirdi toyu** [98] zamanı ər evinə, gəlin otağına gətirilmiş gəlin qızın başına yığışıb, onunla salamlaşmaları - *"xoşgəldin"*, *"qədəmin mübarək"* təbrik sözlərilə gəlinlə tanış olmaları məqamına verilən ad. Bəzi yerlərdə bu zaman **qız yengəsi** [178] qonaqlardan **üzgörümcəyi** [278] hədiyyəsi alır. ◆ Bu tanışlıq məqamına *"gülvəng"* və *"toymələk"* də deyilir.

## GƏLİNİN CÜLUSU

[ *"gəlinin taxta çıxarılması" anlamındadır* ] ◆ **Gəlinapardı toyu** [98], bəzi yerlərdə isə **xınayaxdı toyunda** [135] nişanlı qızı ər evinə yola salmazdan əvvəl onun atası evində keçirilən, mənşəcə çox qədim tarixə malik olan bir ayinin adı. ◆ Burada ilk öncə məclisin ortasına bir ağ süfrə salıb, üzərinə **bəxt güzgüsü** [34], qoyurlar. Güzgünün qarşısına bir ovuc buğda səpirlər, ətrafına isə bəylə gəlinin adına iki şamdan qoyub

Azərbaycan Milli Kitabxanası

yandırlar. Sonra **gəlinlik taxtı** [98] qurulur. ◆ **Gəlinlik paltarını** [98] geyib bəzənmiş **nişanlı** [205] qız pərdə arxasından çıxıb, qolunda yengə, böyründə sağdış-soldışı məclisə daxil olur və belinə kəmər taxdıqdan sonra həmin *"taxt"*ın üstündə üzü qibləyə əyləşdirilir. Bu vaxt hər tərəfdən: *"gəlin taxtın mübarək"*, *"üzünə gün doğsun"*, *"Allahın kölgəsi üstündən əskik olmasın"*, *"xoşbəxt olasan, muradına çatasan, inşallah"* - və digər xoş sözlər deyir, qızı *"mübarəkbadlıq"* edirlər. Qızın qarşısına, biri oğlan, biri qız evində tutulmuş iki xonça düzülür, onların üzərindəki şamlar yandırılır və sağdışın bəzəyib qaldırdığı **qız şaxı** [178] buraya gətirilir. ◆ Bundan sonra qızın başına yığılmış rəfiqələri iki dəstəyə ayrılıb şax ətrafında müxtəlif rəqslər, oxumalar ifa edir (bunlara el içində *"dingildəmə"* deyilir), qız isə bu zaman öz güzgüsünə baxır və axırda onu öpür. Nişanlı qızın barmağı batırılmış suyu qızlar üstlərinə səpir və ya onu şərbət eləyib içirlər. Qızın yanındakı sağdış-soldış əllərində şam oğlan adamları gələnə kimi qızın yanında ayaq üstə dayanırlar. Yengə, yaxud **məşşatə** [192] bir sini noğul gətirib *"oğullu-qızlı olsun"* - deyərək, qızın başından tökür, ətrafdakılar noğulları yığmağa çalışırlar. ◆ Bununla yanaşı, qadınlardan biri gəlinin başı üstə yeddi rəng sapla *"qayınana ilə baldızın dilini tikir"*, yaxud qırmızı parçadan hazırlanmış insan dilinə oxşar bir şeyi qız oturduğu yerə mismarlaya-mismarlaya *"qayınata-qayınananın, baldızın, qonşuların dillərini mıxladım"* - deyir. Qızın anası gəlinin qoluna qırmızı parça, başına isə həmin parçadan bir çalma dolayır (yengə onu oğlan evində açmalıdır). Toy günü gəlin dalınca gəlmiş oğlan evi adamları yol üstündə olan qızı beləcə **duvaq** [72] altında, taxtda əyləşmiş vəziyyətdə görürlər. ◆ Nişanlı qızın bu cür *"taxta çıxması"* xalq arasında onun ər evində həmişəlik ocaq və bina salıb yaşamaq əzmi, gələcəkdə ərinə üstün gəlib *"hakimi-mütləq"* olmaq arzusu kimi açıqlansa da, əslində bu, ötən çağlar subay qızın *"ərli qadınlar cərgəsinə"* keçməsiylə bağlı bir ayinin qalığı, izidir. ◆ Bir sözlə, nişanlı qızın taxta çıxması ilə onun *"nişanlı"* adlandırılması başa çatır və o, bu andan etibarən ilk övladı olana qədər, *"gəlin qız"*, *"gəlin"* və *"təzəgəlin"* adı daşıyır. ◆ Bəzi yerlərdə bu ayinə *"gəlin taxta qalxdı"*, *"duvaqlama // duvaqtoyu"*, *"üzə duvaq vermə"* (Muğan) deyirlər.

## GƏLİNİN QIRXI

◆ Toydan sonra təzəgəlini gözlə görünən və görünməyən bədxah qüvvələrdən və pis nəzərdən xüsusi qayğı ilə qorumağı tələb edən qırx günlük müddət. ◆ Dədə-baba adətincə, bu müddət ərzində sonsuz gəlin, uşaqları bir-birinin ardınca ölmüş *"həmzatlı arvad"*, qırxı çıxmamış zahı, yas saxlayan qadın və toyu onunla bir gecədə çaldırılmış gəlin qız təzəgəlininlə üz-üzə gəlməməlidirlər. Bu vaxt ərzində o, toy, yas və digər məclislərə getməməlidir, əks təqdirdə gəlin başqasının *"çillə"*sinə düşə bilər. ◆ Əski inama görə o, həmçinin ölü, heyvan, axar su, köklü ağac, daş-qaya, yeddi yolayrıcı və s.-dən də çilləyə düçar ola bilər. Odur ki, bu qırxgünlük *"çillə"* ərzində təzəgəlin özünü hər vəchlə gözləməli, hava qaralandan sonra eşiyə, çölə tək buraxılmamalı, onun tutulmuş dırnaqları və baş tükü yeddi dəfə suya çəkilib əskiyə bükülərək torpağa basdırılmalıdır. Bu tövsiyələrə nəzarət və riayət etmək **oğlan yengəsinə** [208] tapşırılır. ◆ Qırx gündən sonra, həmçinin Novruz bayramı günü, təzəgəlinin qayınanası onu axar sular kənarına aparıb *"çilləsini kəsir"*, sonra qolundan tutub su üzərindən üç dəfə adladır. Bu zaman təzəgəlin *"dərd-azarımı verdim məni istəmiyənlərə"* deməlidir. Adət daha çox Astara bölgəsi üçün səciyyəvidir. ◆ Digər yerlərdə ona *"gəlinin çilləsi"*, *"çillə"* deyilir ki, bu da elə *"qırx gün"* deməkdir.



Azərbaycan Milli Kitabxanası

## GƏLİNİN PİŞVAZI

*"Bizdən sizə gəlin gəlir, əziz tutun"*
(toy oxumasından)

[ *"qabağına çıxma, qarşılama" mənasındadır* ] ◆ **Gəlingətirdi toyu** [98] zamanı ər evinə gətirilmiş gəlin qızın ev astanasında oğlanın ata-anası tərəfindən (**qız yengəsinin** [178] müraciətindən sonra) qarşılanması məqamına verilən ad. Burada qız onlara təzim etdikdən sonra oğlan atası ona bir şey vəd edir, oğlan anası isə onu qucaqlayıb öpür, *"xoşgəldin"* deyir və sağ əlindən tutub evin içinə aparır.

## GƏLİNİN TƏRİFİ

*"Toyxana səni gözlər, dur ayağa süz gəlin"*
(toy oxumasından)

◆ Qız toyunun ikinci və üçüncü günü - **xınayaxdı** [135] və **gəlinapardı toylarında** [98] xanəndə qadının oxuduğu və gəlin qızı vəsf etdiyi silsilə mahnının adı. ◆ Burada *"göyçək gəlin"* in ünvanına cürbəcür təriflər oxunur: o, gah *"xaşxaşgülü"*nə, gah *"ceyran balası"*na tay tutulur, qolları pambıqdan ağ, büzmə dodaqları qaymaq sayılır və s. Mahnı sözlərinin hər bəndi gəlinin yaxın qohumu ilə əlaqələndirilir və qaydaya görə, bu zaman həmin qohum, həmçinin qızın ata-anası, qardaş-bacısı toya nəmər pulu salmalıdırlar. Bundan sonra gəlin qız öz toyunda oynayır. ◆ **Oğlan toyunda** [208] gəlin qız yeni mənzilinə gətirildikdən sonra da onun şəninə tərif mahnıları səslənir. Qız toyunda oxunan tərif mahnılarından fərqli, bu dəfə gəlini vəsf etməklə yanaşı, onun ər evinə gəlişi alqışlanır, ona dönə-dönə *"xoşgəldin, xoşgəldin"* deyilir. ◆ Qız tərifi oxuyan aşıq və xanəndəyə xələt verilir. Aşığın gəlin qızın vəsfinə həsr etdiyi *"gözəlləmə"*də də eyni məqsəd güdülür.

## GƏLİNİN ÜÇGÜNLÜYÜ

◆ Qubada toy mərasimindən üç gün sonra təzəbəy və təzəgəlinin *"pərdeyi-ismət"*-dən çıxıb oğlan evi adamları ilə görüşü münasibətilə çağırılan **üzəçıxdı toyuna** [278] verilən ad. Burada təzəgəlin qadınların qonaqlığında, təzəbəy isə kişilərin məclisində *"üzə çıxıb"* qohumları ilə görüşür. ◆ Masallı, Sabirabad və Lənkəranda onu *"üçgünlük"* adlandırırlar.

## GƏLİN QIZ

*"Bəy oğlanın sağlığına, gəlin qızın sağlığına - hürrey!"*
(toy oxumasından)

◆ Vaxtilə qızın dədəsi evində üç gün bir-birinin ardınca çaldırılan **qız toyunun** [178] ikinci günü - **xınayaxdı toyunda** [135], qayda üzrə **ər evinə** [89] köçməyə hazırlaşan **nişanlı** [205] **qız** [178] üzərində icra olunan bir para ayinlərdən sonra ona verilən ad. ◆ Bəzi bölgələrin dilində o, *"qız gəlin"* kimi də səslənir.

## GƏLİNLİK

*"Gəlinliyim, qızlığım, bir darayı dizliyim"*
(atalar sözü)

◆ El-oba içində *"ərə getmək çağına çatmış qız"* anlamında işlənən deyimlərdən. Bu söz daha çox *"gəlinlik qız"* şəklində işlənir. ◆ Gəlinin **toy paltarı** [269] üçün alınmış qiymətli parça və ondan tikilən **başpaltar** [29] da bu adı daşıyır. ◆ Kənd adət-ənənəsinə görə, bu həm də oğlan atasının **elçilik**dən [81] sonra şəhərdən alıb gətirdiyi al qırmızı ipək parçadan gəlini olacaq qız üçün tikilmiş **toyluq libasının** [269] başqa adıdır. ◆ Bunlarla yanaşı, gəlin köçürülən qıza aidiyyatı olan bir para əşya və tədbirlər də bu deyimlə bağlıdır.

Azərbaycan Milli Kitabxanası

"Oğlan gedib bazara arxalığı göndərəcək"
(toy oxumasından)

## GƏLİNLİK ARXALIĞI

◆ Ötən çağlar **gəlinlik paltarı** [98] dəstinə daxil olub, adətən, bahalı ipək və məxmər parçalardan tikilmiş qadın libasının adı. ◆ Çoxları toydan sonra bu geyimi **duvaqla** [72] birlikdə uzun müddət saxlayır, kasıb ailələrdə isə o, bir qayda olaraq, anadan qıza miras kimi ötürülür. ◆ Bəzi bölgələrdə ona *"oyma arxalıq"* da deyilir.

## GƏLİNLİK BOĞÇASI

◆ Toy ərəfəsində qız evində hazırlanıb, əsas etibarilə **gərdək gecəsi** [100] üçün tutulmuş **cehiz boğçasının** [42] başqa adı. ◆ Bir qayda olaraq, bu boğçaya iki **ərus dəsmalı** [90] ilə yanaşı, oğlanın sağdış-soldışı üçün hədiyyə də qoyulur. Bəzi yerlərin dilində o, *"qız boğçası // gəlin boxçası"* tək səslənir.

## GƏLİNLİK CEHİZİ

◆ Oğlan evindən alınmış **başlığın** [29] hesabına qızın ata-anası tərəfindən hazırlanıb gəlin qızın özüylə təzə mənzilə - **ər evinə** [89] apardığı həyat üçün ən vacib ev əşyaları və avadanlıq toplusu - **cehizə** [42] verilən adlardan biri. ◆ Bir para yerlərdə ona *"qız cihazı"*, *"gəlin cehizi"* və *"cer-cehiz"* də deyirlər.

## GƏLİNLİKÇİ

◆ Gəlin köçürülən qıza toy məclislərinə çıxmaq üçün, bir qayda olaraq, qiymətli parçadan **başpaltar** [29], alt **bəxt köynəyi** [34] və digər paltarları biçib-tikən peşəkar dərzi qadına verilən ad. ◆ Onun işi, adətən, **paltarkəsdi toyu** [215] günü, bəzi hallarda isə ondan əvvəl başlanır və toy günü - **gəlinlik cülusu** zamanı tamamlanır.

## GƏLİNLİK DƏSMALI

◆ Bəzi yerlərin dilində, gəlin qızın **toy** [269] günü dədəsi evindən **cehiz boğçasında** [42] təzə mənzilinə gətirib **gərdək gecəsi** [100] istifadə etdiyi iki **ərus dəsmalının** [90] başqa adı. ◆ Ağ ipək parçadan tikilmiş bu dördbucaq biçimli yaylıqlar bəzən *"qızlıq yaylığı"*, *"gərdək yaylığı"*, *"zifaf ağı"* da adlanırlar.

## GƏLİNLİK DUVAĞI

◆ Qız toyu şənliklərinin üçüncü - **gəlinapardı toyu** [98] günü gəlin taxta çıxdıqdan sonra, **oğlan** [208] adamlarının gəlməyinə bir az qalmış, anası tərəfindən gəlin qızın başına salınan qırmızı rəngli nazik və şəffaf baş örtüyünün adı. ◆ Ona *"üzdüvağı"*, *"gəlin duvağı"*, *"qızlıq duvağı"* və sadəcə *"duvaq"* da deyilir.

"Göndərin hamama, göndərin, gəlini hamama göndərin"
(toy oxumasından)

## GƏLİNLİK HAMAMI

◆ **Gəlinapardı toyu** [98] günü **ər evinə** [89] varan **gəlin qızın** [98] hamama yollanması (əllərinə bir gün öncəki **xınayaxdı toyunda** [135] xına qoymuş qonaqlarla birlikdə) və

Azərbaycan Milli Kitabxanası

burada keçirilən mərasim. ◆ Bir zamanlar orta və kasıb ailələrdə gəlin qızlar **sağdış-soldışları** [225] və bir-iki yaxın qohumu ilə birgə xəlvəti, adətən, səhər tezdən el hamamına gedib yuyunardular. Varlılarda isə, bundan ötrü oğlan evi 5-6 saatlığa hamamı tam icarəyə alardı (bu vaxt oraya kənar adamlar buraxılmazdı), kisə, sabun və s. xərcləri bütünlüklə ödəyərdi. ◆ Oğlan anası öz adından çox vaxt otuza qədər dost-tanışını, əsasən cavan qız-gəlini bu şənliyə dəvət edir. Qızgili də öz növbəsində on-on beş yaxın qohum-qonşunu və qızın rəfiqələrini çağırır. Səhərdən gözəl paltar geyib bəzənmiş qadınlar oğlangildə yığışıb (vaxtilə hamısı ağ çadralara bürünərək), bir-birinə *"oğlunun, qızının gəlinlik hamamına gedək, inşallah"* - deyərək, əllərinə hamam boğçaları, güzgü, bir satıl şərbət götürüb çalğı ilə qızgilə yollanır, burada gəlin qızı geyindirib başına xüsusi zərli örpək salırlar. Təqribən səhər saat 10-da, ortada qız, yanında sağdış-soldışı və subay rəfiqələri, dəstə ilə piyada hamama üz tuturlar. ◆ Bəzi yerlərin adətinə görə, gəlin qız iki yaxın qohumu ilə əvvəlcədən hamama gedib qonaqları orada qarşılayır. ◆ Hamamın *"sərbinə"* deyilən soyunub-geyinən yerində gəlin üçün xüsusi yer ayrılır və o, camadar qadına tapşırılır. Bu qadın isə *"Allah mübarək eyləsin, bədənin bədnəzərdən iraq olsun"* və s. dedikdən sonra *"bismillah"* sözü ilə qızı büsbütün soyundurub fitəyə bürüyür, ayaqlarına taxta *"nəleyin"* keçirib, başına örpək salır, digər iki qadın isə çadradan pərdə tutaraq, xeyir-dua eyləyə-eyləyə gəlin qızı hamamın soyunub-geyinmə yeri, yaxud ortadakı hovuz ətrafına dolandırır və hamı birdən *"ya əziz Allah"* - deyib, hamamın yuyunma yerinə daxil olurlar. Bu zaman qızın ayağı altında bir qoz sındırılır. Ardınca, buradakı *"qurna"* deyilən kiçik hovuzların içinə təzə qəpik-quruş, üzərlik və çörəkotu atılır, hər qonağa oğlan evi adından ətirli sabun paylanır. ◆ Sonra camadar qızın bibisi, xalası və sağdış-soldışını xəlvətxanaya çəkib, qızı xüsusi *"göbəkdaşı"* üzərində oturdaraq yuyundurmağa başlayır. Burada ilk öncə qızın başından zərli örpək götürülür və camadar şəhadət barmağını bir az əhəng və arsen qarışığı - "nürə"də bulayıb *"bismillah"* - deyərək, qızın arxası boyunca, yuxarıdan aşağıya şaquli bir xətt çəkir və bununla guya "hər qadının arxasındakı gözəgörünməz murdar tükləri" yox eyləyir. ◆ Bundan sonra gəlinin başı gilabi və **ləxləxə** [185] deyilən bir məhlul ilə iki dəfə yuyulmaqla qurumuş xınadan təmizlənir. Kimi *"qırxqıfıl"* və ya *"qırxtilsim"* adlanan cam, yaxud piyalə ilə gəlinin üst-başına su tökür, kimi ona kisə-sabun çəkir, kimi qablara düzülmüş şirni, halva və meyvələrdən, bəzən isə plovdan yeyib, şərbət, isti çay içir. ◆ Ötən zamanlarda bu mərasimə xüsusi rəqqasələr - *"hamam mütribləri"* dəvət olunurdu. Onlar və qızın yuyunmaq istəməyən rəfiqələri hamamın soyunub-geyinən yerində oxuyub-oynayır, yaşlı qadınlar isə rəqqasələrin alnına pul yapışdırır, eyni zamanda eylənən subay qızlara diqqətlə tamaşa edərək ərgən oğulları üçün *"gözaltı"* edirdilər. ◆ Qaydaya görə, buradakı hamamçı qadınlara qızgildən xörək gətirilir. Oğlan anası hər qıza bir baş yaylığı, camadar qadına bir dəst təzə alt və üst paltarı bağışlayır, bəy oğlanın atası isə hamam sahibinə bir **xələt** [132] verir. ◆ Qız yuyunub hamamın sərbinəsinə keçən zaman hər tərəfdən ona *"maşallah"*, *"səhhəti-vücud"*, *"canın, başın sağ olsun, Allah səni xəta-bəladan saxlasın"*, *"Allah xoşbəxt eləsin, amin"* - və s. deyilir və yenə iki qadın çadralardan ona pərdə tutur. Pərdə arxasında geyinib-kecinmiş gəlin qızın başına örpək (vaxtilə onun üstündən də çadra) salıb üzünə rübənd tuturlar və o, başqalarından tez, 2-3 qadınla hamamdan çıxdıqda, onun başına şirni və xırda təzə pul tökük xeyir-dua verirlər. O biri qonaqlar isə doyunca yuyunduqdan sonra evlərinə gedirlər. ◆ Gəlin qız dədəsi evinin həyətinə girdikdə, anası, yaxud başqa bir qadın, bədnəzərdən uzaq olsun deyə, onun başına üzərlik otu və ya toxumu dolandırıb yanan manqala atır və qızı onun tüstüsünə verir. ◆ Bundan sonra *"ayağın yüngül olsun"*,

Azərbaycan Milli Kitabxanası

*"qəşəng günə çıxasan"* - və bu kimi sözlər deyib qızın ayağı altında bir buynuzlu qoç, başı üstündə isə bir çörək kəsirlər. Qız anası hamamdan gələnlərə bozbaş və çay verir. ◆ Kənar adamların gözünə görünməsin deyə, gəlin qızı ipək pərdə, çox vaxt isə zərli örpək arxasında oturdub onun üzərində **gəlinbəzəmə** [98] ayini icra edirlər. ◆ Ayrı-ayrı yerlərdə bu mərasimə *"qız hamamı // gəlin hamamı"*, *"gəlinin toy hamamı"*, *"toy hamamı // hamam toyu"* və *"xına hamamı"* da deyirlər.

"Dostlara xəbər getsin, hasil oldu diləklər"
(toy oxumasından)

## GƏLİNLİK GECƏSİ

◆ Masallı və Lənkəran bölgələrində **oğlan evində**ki [208] **gəlingətirdi toyunun** [98] sonunda **gəlinlik otağında** [98], adət-ənənəyə görə, bəy oğlanın gəlin qızla ilk dəfə **nikah** [203] yatağına girdiyi **gərdək gecəsinə** [100] verilən ad. ◆ Bir para yerlərdə onu *"gəlinoldu"*, *"həsrət gecəsi"*, *"vüsal gecəsi"*, *"şəbi-ərus"* də adlandırılır.

"Gün o gün olsun ki, gəlinlik gərdəyi görəsən"
(el xeyir-duası)

## GƏLİNLİK GƏRDƏYİ

◆ El-oba içində, bir qayda olaraq, toy günü gəlinlik otağında hazırlanmış nikah yatağı - **gərdəyə** [100] verilən adlardan biri. ◆ Vaxtilə xalq arasında birinin başqasına pis niyyətlə dediyi *"qızın gəlinlik gərdəyi görməsin"*, *"gəlinlik gərdəyinə girməyəsən"* və ya *"gəlinin gərdəkdə qalsın"* bədduaları çox ağır təhqir sayılmışdır.

"Evin gəlini - evin güzgüsüdür"
(atalar sözü)

## GƏLİNLİK GÜZGÜSÜ

◆ Böyük nişan mərasimi **nişantaxdı toyunda** [205], bir adət-ənənə olaraq, ərə veriləcək qız üçün oğlan evindən gətirilib bütün toy tədbirlərində onu "müşayiət edən", ətrafı qırmızı parça ilə bəzənmiş **bəxt güzgüsünün** [34] başqa adı. ◆ Bir para yerlərdə onu *"nişan güzgüsü"*, *"tale güzgüsü"*, *"bəxt aynası"* da adlandırırlar.

## GƏLİNLİK QAPISI

◆ Muğanda toy günü gəlin qıza **ər evində** [89] ayrılmış xüsusi otağın qapısına verilən ad. Başqalarından fərqlənsin deyə, həmin qapının dəstəyi, adət üzrə, qırmızı qaytanla sarınır, qapının üstü isə həmişə yaşıl budaq və gül-çiçəklə bəzənir. ◆ Əslinə qalarsa, dəstəyə sarınmış qırmızı qaytan otaqdakıları bədxah ruhlardan, bədnəzərdən hifz etmək üçündür.

"Gəlin otağı zinətli olar"
(atalar sözü)

## GƏLİNLİK OTAĞI

◆ Oğlan evində toy gecəsi bəy oğlan ilə gəlin qızı yalqız buraxmaq üçün ayrılmış xüsusi otağın adı. ◆ **Cehizdüzdü** [42] zamanı qız evindən gələn bir neçə qadın bu otağı bədnəzərdən uzaq olsun deyə, ən əvvəl üzərlik tüstüsünə tutur, sonra da onu qızın dədəsi evindən gətirilmiş ev avadanlığı, həmçinin toy zamanı oğlan evi adamlarının qıza və oğlana verdiyi hədiyyə və əşyalarla bəzəyirlər. Bu arada **qız yengəsi** [178] qızın atası evindən gətirdiyi mismarları otağın sağ və sol divarlarına çalıb, onlara bu başdan o başa qırmızı bir ip bağlayır və alabəzək ipək pərdə, çadra və ya qırmızı ipək xaranı (keçmişdə qurama parça) həmin ip üstünə ataraq otağın yuxarıbaşında bəy ilə



Azərbaycan Milli Kitabxanası

gəlinə ayrıca bir guşə - **gərdək** [100] ayırır. ◆ Bəzi yerlərin qaydasına görə, bu guşə **gəlingətirdi toyu** [98] gecəsi qurulur. ◆ Bunun ardınca, **başıbütöv** [29] qadın, bəzən isə elə qız yengəsi özü pərdə arxasındakı **nikah taxtını** [203] hazırlayır. Otağın divarlarına və nikah yatağındakı yorğan-döşəyə, bir qayda kimi, gülab səpilir və gəlinlə gətirilmiş bir tay köhnə ayaqqabı qapı üstünə yerləşdirilir ki, bəy oğlan onun altından keçsin. ◆ Bu otağa sonsuz qadın və qırxı çıxmamış zahı buraxılmır. ◆ Gəlin gələcəkdə *"həmişə oğlan doğub yeddi oğul anası olsun"* - deyə, azyaşlı bir oğlan uşağını üç dəfə nikah yatağının üstünə çıxarıb düşürür, yatağa üzüqoylu uzandırırlar və ya yengə həmin uşaqla (bəzən isə başıbütöv qadınla) yataq üstə *"əlləşib güləşir"*. ◆ **Gəlinlik cehizi** [98] oğlan evinə qız ilə birlikdə gətirildikdə, bu işlər elə **gəlingətirdi toyu** [98] axşamı görülür. ◆ Klassik ədəbiyyatda bu otaq *"mənəssə"*, *"qanqah"*, ayrı-ayrı bölgələrimizdə isə *"ağ otaq // bəy otağı // xan otağı // gəlin otağı // gərdək otağı"*, *"güvəki otağı"*, *"həcləgah"* da adlanır.

## GƏLİNLİK PALTARI

*"Alasan, geydirəsən həmişə yara qırmızı"*
*(toy oxumasından)*

◆ Oğlan evinin gəlin qız üçün xüsusi olaraq toy məclislərində geyilməkdən ötrü tikdirdiyi bütün üst-başın, həmçinin lap üstdən geyilən dəbdəbəli **başpaltarı** [29] dəstinin adı. ◆ Xalqımızın əski adət-ənənəsinə görə, gəlin qız öz toyunda başdan ayağa kimi yalnız oğlan evinin biçib-tikdirdiyi və ya aldığı paltarları geyməlidir. Buraya əsas etibarilə *"zircamə"* deyilən alt tuman-köynək, **bəxt köynəyi** [34], yun şal, yaxud qırmızı məxmər və ya zərxaradan tikilib yaxası pullu, üzəri əl ilə işlənmiş üst paltarı - *"don"* və ya *"nimtənə"* deyilən qolsuz bir gödəkçə, yaxud ətəyinə bafta, qaytan və gümüş pullar tikilmiş *"ətəklik"* adlanan qofta, xara tuman və s. libaslar daxildir. Ötən çağlar bu dəstdə ipək və məxmər parçalardan tikilmiş **gəlinlik arxalığı** [98] da olub. ◆ Bundan başqa, gəlin qıza bir uzunboğaz çəkmə də geydirilir. Onun boğazı, adətən, nazik və yumşaq keçi və ya qoyun dərisi - *"tumac"*dan tikildiyi halda, o biri hissələri yaşıl dəridən olur. Bu cür çəkmə olmazsa, toy günü gəlin qız oğlan evindən ondan ötrü gətirilmiş ata minməyə qəti etiraz edir. ◆ Bəzi yerlərdə isə nişanlı qıza oğlan tərəfin apardığı üç cüt başmaqdan biri - ağ, yaşıl və ya atın sağrı gönündən hazırlanmış bənövşəyi rəngli dikburun *"sağrıbaşmaq"* geydirilir. ◆ Qaydaya görə, gəlinin alt paltarları müxtəlif rəngli parçalardan tikilir, bahalı parçalardan tikilmiş üst paltarının rəngi isə hökmən al qumaşa çalmalıdır (astarı ağ parçadan olmaq şərtilə). Əbəs yerə deyildir ki, xalq ədəbiyyatında gəlin qız bu geyimdə *"xaşxaş"* gülünə bənzədilir. ◆ Əslində, üst paltar və duvaq bütün türk xalqları arasında, adətən, ağ-bəyaz rəngdə olduğu halda, təkcə bizim xalqımızda tarix boyu od-alov və can sağlığının rəmzi sayılan müqəddəs al qırmızı rəngdə olmuşdur. Gəlin aparılan zaman onun qoluna qırmızı parça bağlanması, başına qırmızı çalma vurulmasını da buraya əlavə etsək, deməli ki, bu rəng əski odsevərlik çağlarının əks-sədasıdır. ◆ El-obanın nəzərində, bu rəng od-alovun rəmzi olaraq bütün şər qüvvələrini insandan uzaqlaşdırıb zərərsizləşdirən qoruyucu bir vasitə, etibarlı bir sipər sayılmışdır. ◆ Bir vaxtlar bu toy libası dəsti **paltarkəsdi toyunda** [215] biçilib tikilsə də, sonrakı zamanlarda oğlan evi onu hazır, tikilmiş halda alıb qızgilə gətirir və toy günü bir **başıbütöv** [29] qadın onu gəlin qıza geydirir. ◆ Bəzi yerlərin adətincə, təzəgəlin çox yaşayıb, oğul toyu görsün deyə, toydan sonra bir müddət bu üst paltarı oğlan anası geyməlidir. Çox vaxt isə gəlinin üzündən duvaq götürüldüyü gündən sonra bu *"paltar dəsti"* də çıxarılıb həmişəlik boğçaya bükülür, əvəzində isə adi ev paltarı geyilir. ◆ Ona həmçinin *"bəzənik"*, *"kəfrəm"* (Naxçıvan), *"gəlinlik donu // gəlin libası // toyluq libası"* da deyirlər.

Azərbaycan Milli Kitabxanası

"Gəlin taxta çıxıb sağdış-soldışıyla"
(toy oxumasından)

## GƏLİNLİK TAXTI

◆ Qız toyu şənliklərinin üçüncü günü - **gəlinapardı toyu** [98] və **kəbinkəsdi** [143] mərasimlərində, bəzi yerlərdə **xınayaxdı toyu** [135] zamanı, digər bölgələrdə isə qız yeni mənzilinə çatdıqda, yaxud toydan üç gün sonrakı **üzəçıxdı toyu**nda [278] ərə verilən gəlin qız üçün quraşdırılaraq **gəlinin cülusu** [98] ayinində əyləşdiyi özünəməxsus bir "qurğu"ya verilən ad. ◆ Gəlinlik taxtını quraşdırmaqdan ötrü otağın ortasına ilk öncə yağ-bal ilə dolu (bu, qızın gələcəkdə yağ-bal içində yaşaması üçündür) çırağı, sonralar isə nəlbəkidə yanan bir şamı, yaxud içinə təmiz su tökülmüş bir camı qoyub üstünə üzüqoylu iri bir teşt aşırır, teştin üzərinə isə bir at yəhəri yerləşdirib, üstünə **gərdək** [100] pərdəsini atmaqla "taxt" düzəldirlər. ◆ Dədə-baba əqidəsincə, yəhər at ilə, at isə Günəşlə bağlıdır. Gəlin qız yəhər üstə əyləşməklə rəmzi şəkildə atın, Günəşin, od-alovun himayəsi altına keçir və inama görə, bədbəxtlik gətirən bütün şər qüvvələrdən mühafizə olunurdu. ◆ Bəzi yerlərin adətinə görə, teşt üzərinə yalnız xalça, mütəkkə və döşəkçə atıb, üstünə ipək süzəni çəkərək qarşısında şam yandırırlar. Buradakı xalı, döşək və bütövlüklə taxt gəlinin **ər evini** [89], şam isə onun ağ gününü və xoşbəxt həyat arzusunu təmsil edir. ◆ Bu ad bəzən nikah yatağına da verilir.

"Sevgilimə çataydım, rahat-rahat yataydım"
(el bayatısı)

## GƏLİNOLDU

◆ Axşamdan xeyli keçmiş, **gəlingətirdi toyu** [98] bitdikdən sonra **gəlin qızın** [98] **bəy oğlanla** [36] **gəlinlik otağında** [98] ilk dəfə görüşüb bir yastığa baş qoyduğu **gərdək gecəsinin** [100] başqa adı. ◆ Ayrı-ayrı yerlərdə bu gecəni *"gəlinlik gecəsi // gəlinoldu gecəsi"*, *"vüsal gecəsi"* və s. adlandırırlar.

## GƏLİNPAYI

◆ Qız tərəfin xüsusi olaraq gəlinin qayınatası-qayınanası, qayınları və baldızları üçün ayırdığı və toy günü, yaxud ondan bir-iki gün əvvəl gəlin qızın **cehizi** [42] ilə birlikdə **ər evinə** [89] göndərdiyi hədiyyə və xələtlərə verilən ümumi ad. ◆ **Təzəgəlin** [267] toydan 3-4 gün sonra **üzəçıxdı toyu**nda [278] onları öz sahiblərinə çatdırır.

## GƏLİNPULU

◆ Bəzi yerlərdə bolluq və bərəkət gətirmək arzusu ilə toy məclisində gəlin qız oynayan zaman yaxın qohumlar, dost-tanış və oğlan evi qadınları tərəfindən onun başına səpilən xırda təzə qəpik-quruş - **uğurpulu**na [271] verilən digər ad.

## GƏLİN SAĞDIŞI

◆ Bir para bölgələrimizin dilində qız və oğlan evindəki toy məclislərində ərə verilən gəlin qızın, adətən, sağında duran ən yaxın rəfiqəsi və yaxud ərli bacılığı - cavan qadın **qız sağdışının** [178] adı. ◆ Bəzi yerlərdə o, *"qızyanı"* və *"ərusbər"* adları daşıyır.

## GƏLİN SOLDIŞI

◆ **Qız sağdışının** [178] köməkçisi tək, bütün **toy** [269] tədbirlərində fəal iştirak edib,



Azərbaycan Milli Kitabxanası

bir qayda olaraq, məclislərdə gəlin qızın sol tərəfində əyləşən, yaxud əlində şam onun solunda dayanan **subay** [241] rəfiqəsi - **qız soldışının** [178] adlarından biri.

## GƏLİN ŞAXI

◆ Bir sıra bölgələrin dilində, **qız sağdışının** [178] ər evinə köçürülən gəlin qızın şərəfinə toy ərəfəsində hazırlayıb **xınayaxdı toyu** [135] günü cavanlarla birgə çala-çala, oynaya-oynaya qız evinə gətirdiyi xüsusi toy qurğusu - **qız şaxının** [178] başqa adı.

## GƏLİN ŞƏRBƏTİ

◆ **Qız toyu** [178] şənliklərinin üçüncü günü **dərnənin** [61] həm qızın dədəsi evində (**gəlinapardı toyunda** [98]), həm də bəygildə (**gəlingətirdi toyunda** [98]), əsasən, ərgən qız və oğlanlara payladığı içkinin adı. ◆ Adətən, su, gülab və şəkərdən (keçmişdə onu bal əvəz edərdi) hazırlanan, tərkibinə reyhan toxumu da qatılan bu içki **gəlin bardağı** [98] və ya satıla doldurulur, ona gəlin qızın barmağı batırıldıqdan sonra məclisdəkilərə paylanırdı. Bu da, gəlin qız şərbətlə ərinin qohum-əqrəbasına şirin söhbət, şirin dil gətirmişdir deməkdir. Həm də inanmışlar ki, ərgən qızlar ondan içdikdən sonra tez bir zamanda ərə gedirlər. ◆ Bir para bölgələrdə bu içkiyə *"**ovşala**"* [211] deyilir.

## GƏLİN ŞİRNİSİ

◆ Gəlin qızın dədəsi evində onun təzə mənzilə köçürüldüyü gün çox qısa müddətdə bişirilib hazırlanmış bir **şirni xonçası** [259] növü. El-oba adətincə, bu yemək mütləq toy günü bişirilməlidir. Bəzi yerlərdə **yeddilövün xonçası** [294] da bu adla çağırılır.

## GƏLİN TELİ

◆ **Qız toyu** [178] məclislərinin **gəlinapardı toyu** [98] günü icra olunan **gəlinbəzəmə** [98] zamanı **gəlin qızın** [98] saçına taxılan incə qızılı və ya gümüşü tellərin adı. ◆ Ötən zamanlar varlı ailələrdə **duvaqla** [72] bərabər qızın başından dizinə qədər sallanan, 1-2 mm. qalınlığında, at quyruğuna oxşar uzun qızılı və gümüşü tellər də bu adı daşımışdır. ◆ Ona bəzən *"qız teli"* də demişlər.

## GƏLİN TOYU

◆ Vaxtilə qız evində bir-birinin ardınca üç gün çaldırılan **qız toyu** [178] məclislərinə bəzi yerlərdə verilən adlardan biri. ◆ Ayrı-ayrı bölgələrdə onun *"arvad toyu"* (Abşeron), *"adax toyu"* (Salyan, Biləsuvar) və *"qızaldı toyu"* adları da mövcuddur.

*"Toyda alma atarlar, barmaq üstə tutarlar"*
(el bayatısı)

## GƏLİNVURDU

◆ Ayrı-ayrı bölgələrimizin dilində **gəlingətirdi toyunda** [98] gəlin qız təzə mənzilinə qədəm qoyduğu vaxt bəy oğlanın **sağdış-soldışı** [225] ilə birgə uca bir yerdə dayanaraq aşağıda durmuş gəlinin üzərində icra etdiyi **almaatdı** [9] qədim el adətinin başqa adı.



Azərbaycan Milli Kitabxanası

"Hamamdan çıxdı hacı qızı, başı bağlı qırmızı"
(toy oxumasından)

## GƏLİNYAZMA

◆ Yurdumuzun bəzi yerlərində **gəlinapardı toyu** [98] günü ər evinə köçürüləcək gəlin qızın, bir adət olaraq, üz-gözünü düzəldib müxtəlif boyalar sürtmək və bəzəmək işinə verilən ad. ◆ Başqa sözlə desək, bəzəkçi usta qadın **məşşatə** [192] sənətinin adı. Digər yerlərdə buna *"qabağalma"*, *"yazma"*, *"üzyazma // üzalma"* da deyirlər.

"Toy töhfəsiz, gəlin yengəsiz olmaz"
(atalar sözü)

## GƏLİN YENGƏSİ

◆ Bir para yerlərin dilində, qız evi tərəfindən məsləhətçi tək dəvət edilib, bir qayda olaraq, toy mərasiminin bütün tədbirlərində fəal iştirak edən peşəkar qadın - **qız yengəsinin** [178] adı. ◆ Ayrı-ayrı yerlərdə ona *"elyengəsi"*, *"gəlinbacı"* da deyirlər.

**99.**

"Gənəşikli baş salamat olar"
(atalar sözü)

## ● GƏNƏŞİK // GƏNƏŞMƏ

◆ Rəsmi böyük kişi elçiliyi **hərialdı**dan [119] əvvəl qız atasının məclis qurub, qızın əmisi, dayısı və digər yaxın qohumları ilə görüşüb məsləhətləşməsi, qohumlardan qızı ərə verməyə razılıq alması ilə bağlı bir mərasimin adı. ◆ Bəzi yerlərdə bu məclisə *"gəyişmə // gəyişik"* (Muğan), *"kəmləşmə"* (Saatlı, Sabirabad, Əlibayramlı), *"kənişkə"*, *"kəyişkə"*, *"cəmləşmə"* də deyirlər.

**100.**

"Nişanlın gərdəkdədi, xəbərin yoxdu oğlan"
(toy oxumasından)

## GƏRDƏK

◆ Ötən çağlarda dairəvi bir çadırın adı olub, sonralar toy günü **gəlinlik otağının** [98] bir tərəfində tavandan asılan qırmızı ipək xara və çit pərdədən ibarət girdə biçimli qurğuya verilən ad. Həmçinin həmin otağın yuxarıbaşında, qırmızı pərdə və ya kilim arxasında bəy oğlan və gəlin qız üçün hazırlanmış nikah yatağı. Bu məqsədlə ayrıca alaçıq da qurula bilər. ◆ Əski adət-ənənəyə görə, bu pərdə atasının qızına verdiyi qırmızı, qara və ağ parçalardan üçbucaq, kvadrat və zolaqlar biçimində kəsilmiş tikələrdən *"qurama"* üsulu ilə tikilməlidir. Sonralar bu pərdəni, bir qayda olaraq, qırmızı ipək parçadan (bu rəng, od-alov rəngi tək güclü zərərləşdirici qüvvəyə malikdir) hazırlamağa üstünlük verdilər. ◆ Xalqımızın əqidəsincə, bu pərdə bədxah niyyətlərə qarşı güclü və sehrli mühafizə qüvvəsinə malik olub gəlin qızı hər hansı bir naqis əməldən, pis niyyətdən möhkəm qoruyur. Odur ki, əsas təyinatı **gəlingətirdi toyu** [98] günü gəlinlik otağının tavanından asılmaq olsa da, o, bundan öncə bir çox **toy** [269] mərasimlərində də gəlin qızdan əsla "ayrılmayıb", onu addımbaşı müşayiət və mühafizə edir. ◆ Xınayaxma zamanı qız bu pərdə arxasında xınaya boyanır, **gəlinlik taxtına** [98] qalxdıqda onun üstündə əyləşir, **toy alayında** [269] bu pərdə dörd uzun tirə bənd olunub "çətir" kimi at belindəki qız üzərində tutulur. Gəlin araba, fayton və s. minikdə aparılarsa, pərdə miniyin bir yerinə bərkidilərək, bayraq təki yellənir, atüstü **gərdəkqaçırma-pərdəapardı** [216] oyunu əsnasında isə **atlılar** [18] onu qapıb çaparaq oğlan evinə birinci çatdırmağa tələsirlər. ◆ Nəhayət, gəlinlik otağında bu pərdəni ipdən asmaqla ayrıca bir guşə, xüsusi bir "məkan" yaranır ki, gəlin burada

Azərbaycan Milli Kitabxanası

özünü çox asudə və rahat hiss edir. Qonaq qadınlar gəlinin otağını tərk etdikdən sonra, gəlin qız bu pərdə arxasındakı nikah taxtı üstündə əyləşib bəy oğlanı gözləyir. ◆ Keçmişdə toydan sonra düz bir il bu pərdəyə toxunmayıb yerində saxlayardılar. Sonralar isə onu, heç bir həftə keçməmiş, **təzəgəlin** [267] **həftə hamamına** [117] yollanan zaman, bəzən isə toydan üç gün sonra yığmaq (bu, yengə işi sayılar) və ondan uşaq yorğanı tikmək adəti yayıldı. Həmin yorğanı iydə və ya başqa meyvə ağacının budaqlarına sarıyıb gəlinin ilk övladı olana qədər orada saxlayır, axırda onu körpənin beşiyinə salırlar. ◆ Bu əski deyimə şifahi xalq yaradıcılığının qədim abidəsi - IX-XI yüzillərdə qələmə alınmış "Kitabi Dədə Qorqud"da və Nizami Gəncəvinin əsərlərində də rast gəlinir. ◆ Onun başqa adları *"gəlin gərdəyi // gəlinlik gərdəyi"*, *"zihab // zifaf"*, *"pərdəbağı"*, *"bucaq"*, *"qangah"* və *"həcləgah"*dır.

## GƏRDƏKBAŞI

◆ Toy günü **oğlan evi**ndəki [208] **gəlinlik otağı**nda [98] qurulmuş **gərdəy**in yuxarısını bəzəyən dilikli haşiyənin adı. Adətən, o *"qurama"* üsulu ilə əlvan rəngli, müxtəlif naxışlı parçalardan tikilər, xüsusi diliklər arasından ipək, yaxud gümüşü və ya qızılı saplardan qotazlar asılardı.

## GƏRDƏK GECƏSİ

*"Qardaş girib otağa, qırmızı boyamağa"*
(toy oxumasından)

◆ **Oğlan toyu** [208] şənliklərinin ikinci günü, **gəlingətirdi toyu**nun [98] sonunda nikah taxtında bəy oğlanın gəlin qızla bir yastığa baş qoyduğu ilk gecənin adı. ◆ Toy şənlikləri bitməyə yaxın **gəlinlik otağı**nda [98] qızın başına toplanmış qadınlar hörmət və nəzakətlə qonşu otağa dəvət olunurlar. Hamı çıxdıqdan sonra otaqda qalmış gəlin qız öz **sağdış-soldışı**na [225] minnətdarlığını bildirib onlarla sağollaşır. ◆ Bu əsnada qoltuğunda **cehiz boğçası** [42] tutan **qız yengəsi** [178] içəri daxil olur və əlindəki üzərində şamlar yanan bir sinidən xalça üzərinə noğul-nabat və s. şirni səpələyir. Sonra yenə çıxıb gülabzən, mis aftafa-ləyən, dəsmal və canamaz gətirib onları otağın bir tərəfinə və ya pəncərəyə qoyur, otaqdakı iki şamdan başqa digər çıl-çırağı sağdış-soldışa verib onları otaqdan çıxararaq qapını örtür. ◆ Otağın işığı birə-iki azaldıqdan sonra yengə gəlin qızı pərdə arxasına keçirib onu ayaq üstə, üzü qibləyə saxlayaraq bəy oğlanın gəlişini gözləyir. ◆ Əski dədə-baba adətinə görə, bəyi gəlinin yanına əllərində *"yeddi xələt"* tutmuş yeddi şəxs (üç kişi, dörd qadın: oğlanın atası, bəyin sağdış-soldışı, qızın sağdış-soldışı, oğlan və qız yengələri) ötürərdi. ◆ Yengə hələ **üzükşal toyu** [282] kiçik nişan mərasimi zamanı oğlan evindən gətirilmiş kəlləqəndin başından qırılmış bir parçanı qıza verib ona: *"bəy oğlan duvağı üzündən açmaq istəsə, bunu ona ver, o sənin ayağını basmamışdan əvvəl, çalış, sən onun ayağını bas, onda sənin sözün həmişə ötkəm və kəsərli olar"* - tapşırığını verir. ◆ Divarın o biri tərəfində isə sağdış-soldış bəy oğlanı gəlinlik otağının qapısı ağzına gətirir. Burada dayanmış oğlanın atası qapını astaca taqqıldadaraq işarə edir ki, oğlan artıq buradadır, qapını açmaq olar. Yengə qapını azca açdıqda, ata övladının qolundan tutub qapıya çəkir, oğlanın sağdış-soldışı isə *"bismillah"* deyərək, arxadan bəyi itələyib otağa salır, sonra qapını çəkib ağzında dururlar. ◆ Qız yengəsi otağa girmiş oğlanın əlindən tutub onu **gərdək** [100] arxasına çəkir və *"halal xoşun olsun, Allah xoşbəxt eyləsin, Allah başacan versin"* - deyərək, duvaq altından qızın əlini çıxarıb oğlanın əlinə verir ki, buna da el-oba içində *"tapşırma"* deyilir. Oğlan gəlinə *"xoş gəldin"* dedikdə,

Azərbaycan Milli Kitabxanası

qız duvaq altından onun əlini öpüb geriyə çəkilir. Bu məqamda yengə hər ikisini **üzərlik** [281] tüstüsünə tutur, cavanlar isə bu vaxt barmaqlarını una batırıb bir-birinin alnına sürtürlər. ◆ Bunun ardınca yengə bəy oğlan ilə gəlini qarşı-qarşıya oturdub ilk öncə hər ikisinin ayaqqabısını çıxarır, sonra ağ sapla ayaqlarının baş barmaqlarını (bəzi yerlərdə oğlanın sağ, qızın sol biləklərini) bir-birinə bağlayıb onları tas, yaxud ləyənin içində gülab qatılmış su ilə yuyur. Bu zaman, evdə sözü həmişə birinci olsun deyə, həm bəy oğlan, həm gəlin qız baş barmaqlarını o birisinin barmaqı üstə qoymağa çalışır. Sonra bəy, qayda üzrə, ləyənin içinə yengə üçün nəmər-pul atır. ◆ Bəzi yerlərin qaydasına görə, burada otağa əlində aftafa-ləyən tutmuş kiçik bir qız, yaxud oğlan uşağı daxil olub gəlinin adından bəy oğlanın ayaqlarını yuyur. Burada da bəy uşağa nəmər verir. Əksər hallarda isə bu işi gəlin qız özü görür. O, başında duvaq, bəyin ayaqqabısını çıxarıb ayaqlarının baş barmaqlarını bir-birinə bağlayaraq üzərinə gülab çiləyir (ötənlərdə gəlin bəyin ayaqlarını əməlli-başlı yuyurmuş). ◆ Ardınca yengə cavanların ayaqları yuyulmuş gülablı suyu otağın divarlarına çiləyir ki, otaqdan gözəl ətir iyi gəlsin. ◆ Bir para yerlərin qaydasına görə, bundan sonra yengə qızı gərdək dalına aparıb onu soyundurur (başqa yerlərdə bunu oğlan özü edir), bircə **bəxt köynəyi**ndə [34] və duvaq altında nikah taxtına uzadır. Sonra, oğlanla qızın görüşü şirin olub ürəkləri eşq atəşilə alışıb-yansın deyə, yengə cavanlara isti şirin çay süzür, onun yanına bir kasa bal və ya doşab qoyur, *"Allah xeyir versin, muradınıza çatasınız, ulduzunuz barışsın, qoşa qarıyasınız, Allaha əmanət olun"* və bu kimi xeyir-dualar verdikdən sonra cavanları tək buraxıb otaqdan çıxır və qapı ağzında bəyin anası, oğlan yengəsi və köməkçi **dərnə** [61] ilə birlikdə gözləməyə başlayır. ◆ Oğlan pəncərədən aftafa-ləyən, dəsmal və canamazı götürüb, əl-üzünü, qolunu yuyaraq dəstəmaz alır və iki rəkət *"hacət"* namazı qıldıqdan sonra canamazı yerinə qoyub şirin çayı içir. Gərdək dalına keçərək qıza yaxınlaşıb ehmalca onun belindəki bağı açır və duvağı qaldırıb qızın üzünü görmək istəyir. Bu zaman qız iki əlilə üzünü bərk tutub açmağa qoymur, əlindəki qənd parçasını oğlana uzadaraq gözlənilmədən sağ ayağını oğlanın ayağı üstə qoyur. Məsələni başa düşən bəy oğlan qənd parçasını dişləyib bir yana qoyur, sonra cibindən bir üzük, yaxud digər zinət əşyası çıxarıb qıza **üzgörümcəyi** [278] deyilən bir hədiyyə verir. Qız onu alıb duvağı açaraq utana-utana üzünü oğlana göstərir, yaxud bəy öz əlilə gəlinin duvağını qaldırır. ◆ Bəzi yerlərin adətincə, bütün bu vaxt ərzində gəlin qız yengə tapşırığı kimi ürəyini buz kimi saxlayıb dinməz-söyləməz qalır, necə deyərlər *"qabırğa verir"*, yəni bəyin söz və hərəkətlərinə heç bir məhəl qoymur. Burada da oğlan *"buzu sındırıb"* qızın könlünü ələ almaq, *"ağzını açmaq"* və onu dillənirməkdən ötrü qıza bir *"dişağrısı"* hədiyyəsi təklif edir. Yalnız bundan sonra oğlan dil-dodaq açmış qızla yavaş-yavaş söhbət etməyə başlayır. ◆ Ardınca o, barmağını bala salıb əvvəl özünün, sonra isə qızın dodağına sürtür. Yaxud bəy gəlinin, gəlin isə bəy oğlanın ağzına şirni qoyur və ya qız özü ilə gətirdiyi xurma biçimli bir bişinin (xalq arasında ona **adağlı şirnisi** [1], yaxud *"mütəkkə"* deyirlər) yarısını dişləyib qalanını bəy oğlana verir. Yemək tikələrini bir-birinin ağzına qoyması, birlikdə bir qabdan yemək kişi ilə qadının bundan sonra ər-arvad kimi birgə yaşayacağına işarədir. ◆ Yemək ardınca cavanlar **bəxt güzgüsü**nü [34] götürüb əvvəl onu üç dəfə şam-çıraq və ya lampa başına dolandırır və sonra birlikdə güzgüyə baxıb onu öpürlər. Xalq inamına görə, bəy ilə gəlinin eyni zamanda güzgüyə *"boylanması"*, onların ruhlarının orada bir-birinə qovuşması üçündür. ◆ Sonra söhbət yenə davam edir, hər ikisi kimin nə vaxt, harada bir-birini ilk dəfə görüb seçdiyi anı və s. yada salır və beləliklə, cavanların ürəyi tədricən bir-birinə qızınır. Bir müddətdən sonra bəy oğlan *"bismillah"* deyib qızı ehmalca soyundurmağa

Azərbaycan Milli Kitabxanası

başlayır və i.a. ◆ Bu zaman otağın qapısı ağzında (əski adətə görə, gəlinlik otağının qapısı bu gecə kilidlənməməlidir) dayanmış sağdış-soldış və ya bəyin doğma qardaşları, əllərində silah səhərə kimi təzə evlənənlərin keşiyini çəkirlər. ◆ Bir sözlə, gəlin qız kamına çatıb qadın olduqda, yəni onun qızlığı alınandan sonra, **təzəbəy** [267] taxtdan qalxıb geyinir, döşək altına **gərdəkpulu** [100] qoyub otaqdan çıxır. Qapı ağzında onu gözləyən yengələrə, sağdış-soldışlara, gəlinin vüsala yetdiyini və onların artıq azad olduğunu bildirir. Sonra o, əlini döşünə qoyub onlara müraciətlə: *"o, tək olan Allah bilir, mən də ona şahidəm ki, mənim arvadım qız çıxdı, amin"* - deyib, dəstəmaz almaq üçün çölə çıxır. ◆ Bu vaxt oğlan sağdışı evin damına qalxıb orada əvvəlcədən əlində tüfəng hazır durmuş soldışa işarə edir, o da bu xoş xəbəri hamı eşitsin deyə və hədsiz sevinc ifadəsi tək ov tüfəngindən qoşa atəş açır (bəzən bunu təzəbəy özü edir), bu həmçinin *"gəlinin üzü ağ çıxdı"* deməkdir. ◆ Bu məqamda qız və oğlan yengələri, dərnə, *"ya əziz Allah"* - deyərək, təcili otağa **təzəgəlin**in [267] yanına keçir, döşəkağı və **ərus dəsmalı**nda [90] qan ləkəsi gördükdə tez gəlini qaldırır, yorğan-döşəyini yığıb təmizini salır, gəlini geyindirərək başına bir çadra atıb ayaq üstə saxlayırlar. ◆ Ardınca, qız yengəsi qanlı dəsmalı otaqdan çıxarıb yuxarı qaldırır və *"atalar, analar, gözünüz aydın olsun"* - deyərək, qürurla dəsmalı bəyin anası və bacılarına göstərir. Onlar da dəsmalı alıb əldən-ələ ötürərək, başqalarına göstərməyə çalışırlar. Sonra oğlanın bacıları və digər qadın qohumları otağa keçib, təzəgəlini qucaqlayıb sıx-sıx öpür, ona: *"ananın südü, atanın çörəyi sənə halal olsun"*, *"sağ olsun, təmiz süd əmib"*, yaxud *"sənə süd verən ana bəxtəvərdi, anandan əmdiyin süd halalın olsun"* - və s. deyirlər. ◆ Vaxtilə, bir para yerlərin adətincə, bu məqamda qadınlardan biri gəlinin xınalı barmaqlarını şərbətə batırar, oğlanın ən yaxın adamları isə gəlinin şirəli barmaqlarını yalayar, o birilər isə həmin şərbətdən dadıb *"bəh-bəh, a balam nə şirindi, dadından doymaq olmur, maşallah"* deyərdilər. ◆ Hamı yenə otaqdan çıxır. Qız yengəsi də döşək altındakı pulu qaldırıb cibinə qoyur, **cehiz boğçası**ndan [98] bəyin sağdış-soldışına çatacaq **xələt**ləri [132] götürüb otaqdan çıxaraq hədiyyələri sahiblərinə çatdırır. ◆ Bundan sonra təzəbəy otağa qayıdır və burada tək qalmış təzəgəlinlə şərbət içib yemək yeyir və yeyə-yeyə kəsilmiş söhbəti davam etdirir. Bir azdan hər ikisi yorğan-döşəyə girərək bir-birinə sarmaşıq təki sarılır, baş bir yastığa qoyub yatırlar. ◆ Səhər gəlindən xatircəm olmuş qız yengəsi və **dərnə** [61] təzəgəlini oğlan yengəsinə tapşıraraq, ərus dəsmalı və ya döşəkağını götürüb tələsik gəlinin dədəsi evinə, qızlarının *"alnı açıq, ağbəxt çıxması"* münasibətilə valideynləri təbrik etməyə, muştuluğa yollanırlar. Burada yengə və dərnəyə, bir qayda olaraq, **müjdə xələti** [195] verilir. ◆ Keçmiş əyyamlarda bəy ilə gəlin ayrıca bir otaq və ya çadırda deyil, toy mərasimi keçirilən, hamının yeyib-içib şənləndiyi çadırın, otağın və ya **toyxana**nın [269] bir guşəsində *"çəkilmiş"* gərdək pərdəsi arxasında vüsala yetir və bütün məclis iştirakçıları elə buradaca qızın *"ağbəxt çıxması"*nın şahidi olurdular. Həmin çağlar kənd yerlərində toyun sabahı ərus dəsmalı nağara və ya qaval üzərinə sərilərmiş və onu *"çalmaqla"* bütün kənd camaatını dəsmala tamaşa etməyə çağırarmışlar. ◆ Bəzi yerlərdə və xüsusən indinin özündə qızın bakirə olub-olmamasını belə açıq-saçıq nümayiş etdirmək adəti çox gizli və sakitcə keçir. ◆ Əcdadımız Oğuz türklərinin qədim adətinə görə isə, toy-düyünün ilk gecəsi bəy gəlin qıza yaxınlaşmazdı. **İxtilat toyu** [141] gecəsi cavanlar bir-birinə isinişər, uyuşar, mehriban söhbətlər edərdilər ki, bunu vaxtilə *"hirə"*, yaxud *"hürrə"* adlandırarmışlar. Qonaqlar isə həmin gecə səhərə kimi yatmaz, şənlənərmiş. Ertəsi - **paça günü** [214] yenə qazanlar asılar, musiqi çalınar, yemək-içmək davam edərdi və həmin günün axşamı oğlanla qız *"vüsala yetərdilər"*. Başqa sözlə desək, *"yaxınlaşma"* sonrakı vaxtlarda olduğu

Azərbaycan Milli Kitabxanası

tək, yəni toyun **gəlingətirdi** [98] gecəsi deyil, ondan sonrakı gün - *"paça günü"* həyata keçirilərdi və sabahı qız yengəsi qızın dədəsi evinə **üzağlığı** müjdəsi aparardı. ◆ Toyun sabahı qızgildən vüsala yetənlər və oğlan adamları üçün xəşil, yaxud quymağ və şirin qayğanaq göndərilir. Oğlan evi quymağı və qayğanağı yeyib, bir qayda olaraq, qablara nəmər-pul atıb onları geri göndərirlər. ◆ Adət-ənənəyə görə, cavanlar üç gün, üç gecə *"pərdeyi-ismətdə"* qalmalı, yəni abır-həya pərdəsini güdməlidirlər. Toydan sonra üç gün oğlangilə təzəgəlinin dədəsi evindən yeməklə dolu bir sini gətirilir ki, ona **anapayı** [10] deyirlər. Oğlan anası isə hər gün kiçik bir qız uşağı ilə təzəgəlinə çay, şərbət göndərir. ◆ Bir para yerlərin qaydasınca, toyun sabahı sağdış-soldış təzəbəyi evdən çıxarıb sağdışgilə aparır. ◆ Digər yerlərin adətinə görə, bəy ümumiyyətlə üç gün, üç gecə sağdışı ilə birlikdə başqa bir evdə gecələyir, təzəgəlin isə üç gün gərdək arxasında qalıb yalnız kiçik qız və oğlan yengəsilə təmasda olur. Bu cür "vəziyyət" **üzəçıxdı toyu**na [278] qədər davam edir. ◆ Bu gecənin əski yazılarda təsadüf edilən digər adları bunlardır: *"gərdəyəqoydu // gərdəyəgirmə // gərdəyəsaldı", "güveygirdi // güveyəvermə", "gəlinlik gecəsi // gəlinoldu gecəsi", "zifaf gecəsi // zihab gecəsi", "toy gecəsi", "şəbi-ərusi", "üzgörmə // üzgörümü gecəsi"* və s. Bu deyimə "Kitabi Dədə Qorqud"da da rast gəlinir.

## GƏRDƏKQAÇIRMA

◆ Cənub-qərb bölgələrimizin bəzi kəndlərində **gəlingətirdi toyu** [98] çaldırılan günü **toy alayının** [269] yürüşü əsnasında icra olunan bir atüstü oyunun adı. ◆ Burada bir dəstə atlı arasından birisi **gərdək** [100] pərdəsini, yaxud onu təmsil edən ipək bir çadranı yuxarı qaldıraraq, atını qızgildən oğlan evinə qədər çapır. Digər atlılar pərdəni ondan almağa çalışaraq, hamıdan əvvəl onu qızın yeni mənzilinə yetirməyə can atırlar. ◆ Abşeronda bu oyun *"pərdəapardı"* adlanır.

*"Gəlinin gərdəkdə qalmasın"*
(el xeyir-duası)

## GƏRDƏK OTAĞI

◆ Bir para yerlərin dilində, **oğlan toyu** [208] şənliklərinin ikinci günü - **gəlingətirdi toyunun** [98] gecəsi **bəy oğlanla** [36] **gəlin qızın** [98] ilk görüşü üçün qurulmuş **gəlinlik otağının** [98] adı. ◆ Bu otaqda **nikah taxtı** [203] yerləşir. ◆ Əski yazılar onu *"qangah"*, *"mənəssə"*, *"qüsurə"* adlandırırlar.

## GƏRDƏKPULU

◆ **Oğlan toyu** [208] şənliklərinin ikinci günü - **gəlingətirdi toyunun** [98] sonundakı **gərdək gecəsi** [100] zamanı gəlin qız vüsala yetdikdən sonra, təzəbəyin nikah yatağından qalxıb geyinərək **taxt döşəyi** [262] üstə və ya onun altına qız **yengəsi** [178] üçün ayırıb qoyduğu pulun adı. ◆ Qəbələ bölgəsində isə ona "döşəkpulu" deyirlər.

*"Gərdəkdən görə bilməz, görməsə dözə bilməz"*
(atalar sözü)

## GƏRDƏKTİKDİ

◆ Uzaq keçmişdə yurdumuzda hökm sürən bir adət-ənənəyə görə, toy ərəfəsində *"ata-baba evi"* - alaçıqdan bir ox mənzilində bəy oğlan üçün **güveyi** [108] deyilən bir alaçığın qurulması. Sonralar oğlan evinin nisbətən ən iri bir otağı və ya gəlinlik otağının (qədimdə isə toyxananın) bir guşəsində gərdək quraşdırmaq işi də belə adlan-



Azərbaycan Milli Kitabxanası

dırıldı. ◆ Bu deyimə IX-XI yüzillərdə qələmə alınmış "Kitabi Dədə Qorqud"da da təsadüf olunur. ◆ Ona bəzən *"gərdəkqurdu"* da deyilir.

## GƏRDƏK YAYLIĞI

◆ Bir para yerlərin ağzında, **gəlin qızın** [98] dədəsi evində hazırlanıb toy günü **cehiz boğçasında** [42] **ər evinə** [89] gətirilərək, **gərdək gecəsi** [100] gəlinin istifadə etdiyi iki ağ ipək yaylıq - **ərus dəsmalının** [90] adı. ◆ Ona *"qızlıq yaylığı"* da deyilir.

101.

## GƏZƏK

*[ "gəzək // qazağ" - rusların "kazak" sözünün mənşəcə bu türk sözündən yaranması ehtimal edilir ]* ◆ Cənub torpaqlarımızda **oğlan evində** [208] çaldırılan toy məclislərində, adət üzrə, **bəy oğlanın** [36] sağ-solunda əyləşib ondan *"əl çəkməyən"* **sağdış-soldışın** [225] adlarından biri. ◆ Onun *"qəzəy // qəzək"* tələffüz şəkilləri də mövcuddur.

102.

## GİYO // GİYOV

*"Qızın göyünlə qoşa qarısın"*
*(el xeyir-duası)*

◆ Quba diyarında **üzükşal toyu** [282] kiçik nişan mərasimindən sonra **nişanlı** [205] qızın ata-anası tərəfindən **adaxlı** [1] oğlana verilən ad və ümumiyyətlə, bir para yerlərin dilində, evlənmək əzmində olan oğlan - **"kürəkən"** [153], **"özünəbəy"** [213] anlamında işlənən söz. Şahbuzda ona *"göv"*, Qaxda və Qazaxda - *"göy // göm"*, Şəkidə - *"göyi"*, Naxçıvanda isə *"ciyov"* deyirlər. Onun *"giyev // güyev // güyəv"* tələffüz şəkilləri də var. ◆ Ukraynanın paytaxtı Kiyev şəhərinin adının da, istər tarixi məzmun, istər məna etibarilə bu deyimlə əlaqədar olduğunu ehtimal etmək olar.

103.

## GİZLİNGECƏ

◆ Yurdumuzun cənub torpaqlarında sonuncu şənlik **üzəçıxdı toyundan** [278] sonra, **ayaqaçdı** [19] ziyafətindən əvvəl, təzəgəlinlə bəyin hamıdan gizlincə qızın dədəsi evinə gedib orada keçirdikləri qapalı qonaqlığın adı. ◆ Görüş, bir qayda olaraq, gözlənilmədən, gecə və xəlvəti baş verdiyinə görə qonaqlıq bu adı daşıyır. ◆ Əslində isə, bu, **əlverdi // əlöpdü** [86] ayininin başqa adıdır.

104.

## GÖBƏKKƏSMƏ

*"Qız anadan olanda, gözünü açar, deyər:*
*- Bura bizim ev deyil!"*
*(atalar sözü)*

◆ Ötən çağlar yurdumuzda iki qohum və ya yaxın dostun ailəsində təzəcə doğulmuş körpə oğlan və qız uşağının göbəkləri kəsildiyi zaman, valideynlərin onları bir-birinə



Azərbaycan Milli Kitabxanası

**adağlı** [1] etməsi, nişanlamaq adəti **beşikkərtmənin** [33] digər adı. ◆ Uzaq keçmişdə isə ona *"ərusəkbazlıq"* və *"yavuqluetmə"* demişlər.

**105.**

*"Bir dəfə baxmaq halaldı"*
(atalar sözü)

## GÖRÜCÜ

◆ Bir para bölgələrdə **evlənmək** [84], ailə qurmaq arzusunda olan **subay** [241] oğlan üçün **qız** [178] axtarmaq, yaxud onun bəyənib seçdiyi qızı görməkdən ötrü **qızgördüyə** [178] yollanan oğlan evi nümayəndəsinə verilən ad. O, adətən oğlanın anası, yaxud böyük bacısı və ya bibisi, bəzən isə, **ara arvadı** [11] olur. ◆ Onun başqa adı - *"dünür // dünürçü"*, *"görümcə // görümçü"*dür.

## GÖRÜCÜGETMƏ

◆ **Elçilik** [81] tədbirlərindən əvvəl **qız evinə** [178] üz tutub min cür bəhanə ilə yad qızı və onun ailəsilə təmasda olmaq məqsədi güdən **qızgördü** [178] adətinin başqa adı. ◆ Həmçinin, ötən zamanlarda ərə vermək məqsədilə **ərgən** [89] qızı **evlənmə dəllalına** [84] göstərmək işi. ◆ Bəzi bölgələrimizdə isə, qız tərəfin **nikaha** [203] razılığını almaq arzusu ilə **oğlan evinin** [208] keçirdiyi elçilik tədbirinə verilən ad. ◆ Bu tədbirə *"görücülük // görücügəzmə // görücüyəçıxdı"* da deyirlər.

## GÖRÜMLÜK

◆ Bəzi yerlərin dilində, **böyük nişan** [41] mərasimi **nişantaxdı toyundan** [205] sonra, yaxud Novruz bayramı axşamı keçirilən **bəygörüşü** [36] zamanı **adaxlı** [1] oğlanın **nişanlısına** [205] verdiyi xüsusi sovqat və ya hədiyyə - **üzgörümcəyinin** [278] digər adı. ◆ **Gərdək gecəsi** [100] bəy oğlanın **təzəgəlinə** [267] bağışladığı qiymətli bəxşiş də bu adı daşıyır.

**106.**

## GUŞAYAŞDIQ

◆ Salyanda çaldırılan **gəlingətirdi toyunda** [98] **ər evinə** [89] qədəm basmış gəlin qız üzərinə: *"qoy bu evdə var-dövlətin aşsın-daşsın"* - niyyətilə oğlan anasının un, noğul, taxıl və ya təzə xırda qəpik-quruş səpələməsi ayininin adı. ◆ Başqa yerlərdə ona həmçinin "**heşkivaş**" [114] (Sabirabad) və "**arzu noğulu**" [13] (Basarkeçər) da deyilir.

**107.**

## GÜLLÜ ÇÖRƏK

◆ Qubada **şirniqabağı xonçada** [259] qız evindən oğlangilə **xonçaqayıtdı** [138] məclisinə gətirilən, ancaq **gərdək gecəsi** [100] üçün nəzərdə tutulan xüsusi çörəklərin adı. Adət üzrə onlar bu məclisdə yeyilməyib toy gecəsi üçün saxlanılır. ◆ Bu çörəklərə bəzən *"qızgiyov nəsibi"*, yəni payı da deyirlər.



Azərbaycan Milli Kitabxanası

## GÜLŞAFTALI

◆ Qız evində çaldırılan **gəlinapardı toylarında** [98] gəlin qız üzərində icra olunan **belbağlama** [32] ayini zamanı bəy oğlanın kiçik qardaşı tərəfindən **ərə** [89] varan qızın belinə bağlanan belbağı - kəlağayı və ya yaylığın yurdumuzun Lənkəran, Astara və Muğan bölgələrində işlənən adı. ◆ Onun *"gülşəftəli"* deyiliş tərzi də mövcuddur.

## GÜLÜMEY // GÜLÜM HEY

◆ **Qız toyu** [178] şənliklərinin ikinci günü - **xınayaxdı toyu** [135] məclisində qızların oxuma ilə müşayiət etdiyi qədim yallısayağı oyunun adı. ◆ Burada 8-10 ifaçı əl-ələ tutub dövrə vurur, rəqs edib oxuyurlar. Bəzi hallarda bu oyunda kişilər də iştirak edir. ◆ Əsas etibarilə Naxçıvan toylarında ifa olunan həmin rəqsin digər adı *"dilyallısı"*-dır.

## GÜLVƏNG

[ *bir vaxt dərvişlərin ifa etdikləri ənənəvi "gülbang" oxumasının adı ilə bağlıdır* ] ◆ **Oğlan toyu** [208] şənliklərinin ikinci günü **gəlingətirdi toyunda** [98] gəlin qız öz otağına daxil olduqdan sonra, oğlan evi qadınlarının bir-bir qıza yaxınlaşıb onunla salamlaşaraq qucaqlaşıb tanış olması. ◆ Onun başqa adı *"gəlini-mübarək"*dir (Muğan).

**108.**

## GÜVEY // GÜVEG

*"Gəlinin incə beli düşdü güvey əlinə"*
(toy oxumasından)

◆ Yurdumuzun şimal-qərb bölgələrinin dilində, həm **evlənmə** [84] ərəfəsində olan **adaxlı** [1] oğlan, həm **təzəbəy** [267], həm də **kürəkən** [153] anlamlarında işlənən deyim. Eyni zamanda evlənmək məqsədilə çaldırılan **toy** [269] məclisinə verilən ad. ◆ "Kitabi Dədə Qorqud"da onun *"göykü // giyəkü"* şəkillərinə rast gəlinir. Eyni mənada işlənən *"giyov // güyov"* sözünün başqa deyiliş tərzi olduğu güman edilir.

## GÜVEYİ // GÜVEGİ

◆ Ötən çağlar **bəy oğlanla** [36] **gəlin qız** [98] üçün quraşdırılmış xüsusi çadır - **gərdəyin** [100] adı. O zamanların adətincə, evlənmək arzusunda olan oğlan *"dədəsi evi"*ndən, yəni yaşadığı çadırdan ox atar, ox haraya düşərsə, həmin yerdə yeni çadır qurardı. Sonralar **toy** [269] gecəsi bəy ilə gəlinin ilk dəfə görüşdüyü məkan da *"güvəyi otağı"* adını daşıdı.

## GÜVEYİYƏVERMƏ

◆ Soydaşlarımızın Gürcüstanda çaldırdıqları toy məclislərinin sonunda, bir adət olaraq, bəy oğlan və gəlin qızın **gəlinlik otağına** [98] keçib buradakı **nikah taxtında** [203] baş bir yastığa qoyub vüsala çatmasının adı. ◆ Başqa yerlərdə buna *"güveygirdi"*, *"gərdəyəqoydu // gərdəyəgirmə"* deyirlər.

Azərbaycan Milli Kitabxanası

# • V • ÜZÜKŞAL TOYU

**282.**

◆ Təzəcə yaranmış qohumluq və dostluq əlaqələrinin "ilk daşları"nı qoymaq, ***gəlin*** [98] alınacaq qızı nişanlamaq məqsədilə, ***qız evində*** [178] çağırılan ***hərialdı*** [119] rəsmi böyük kişi elçiliyindən bir ay sonra, hər iki tərəfin qadınlarının yenə qız evində keçirdiyi birinci, yaxud kiçik nişan mərasiminin adı. ◆ Buraya hər iki evdən 5-6 yaxın qohum, məsələn oğlan və qızın anaları, bacıları, xalaları, bibiləri və hər ikisinin xalası və əmisi qızları yığışır. ◆ Bir para yerlərin adətincə, ***oğlan evi*** [208] bu mərasimdən ötrü 2-3 ***kəlləqənd*** [146], bir qədər çay və noğul-nabat alır. Qəndlərin başına al qırmızı yaylıq bağlayırlar. Gündüz-günorta çağı qadınlar bu "***şirnini***" [259] ortalığa qoyub başına dolanaraq bir qədər çalıb oynayırlar. Sonra oğlangildən 2-3 kişi şirnini zənbilə yığıb qız evinə yollanır. ◆ Burada onlar üçün süfrə açılır, çay verilir. Ardınca, biri qız, biri oğlan evindən iki ağsaqqal və ya ***xəlfə*** [133] evin ortasındakı süfrə üstündə ***qəndqırma*** [175] ilə məşğul olur. Doğranmış qəndi noğul-nabata qarışdıraraq nəlbəki və boşqablara yığıb, siniyə düzüb qonşu otaqda əyləşmiş qadınlara göndərirlər. Onlar da: "Allah mübarək eyləsin, Allah fərəc versin, gün o gün olsun ki, toy şirnisini yeyək, toyunda oynayaq, inşallah" - və s. deyə-deyə, nəlbəkilərdəkiləri yaylıqlarına boşaldırlar. Şirni paylandıqdan sonra oğlangildən gəlmiş kişilər sağollaşıb gedirlər. Bu adətə xalq arasında "şirnigətirdi" deyilir və bəzi hallarda o, bu mərasimə bir-iki gün qalmış icra olunur. ◆ Oğlan tərəfin kişiləri getdikdən sonra, təyin olunmuş vaxtda oğlanın yaxın qadın qohumları 2-3 xonça ilə qızgilə gəlir. Gətirilən xonçalarda yalnız bir qaşsız ***həri üzüyü*** [119], bir qırmızı rəngli zərli ***nişan yaylığı*** [205] (çox vaxt bu al duvaq olub üzük onun bir ucuna bağlanır) və bir az şirniyyat olur. ◆ Bəzi yerlərin qaydasına görə, evin astanası, yaxud həyət darvazası ağzında oğlangildən gəlmiş qadınların qabağını kəsən ***qız yengəsi*** [178], yaxud evin qadınlarından biri yanan manqal içinə ***üzərlik*** [281] otu və ya toxumu atıb qonaqları "tüstüyə tutur", sonra onlardan nəmər alıb içəri buraxır. ◆ Beləliklə, oğlangildən gəlmiş qonaqlar xoş sözlərlə qarşılandıqdan sonra, ərə veriləcək qız məclisə gətirilir və o, ayaq üstə, üzü qibləyə saxlanılır. ◆ Bəzi yerlərdə isə qız qonşu otaqda oturur, onun yanına ancaq oğlan evindən gəlmiş bir ağbirçək, ***oğlan yengəsi*** [208], yaxud oğlanın bacısı (xalası, bibisi) keçir, qızı qucaqlayıb öpür və gətirilmiş yaylığı onun başına salır. ◆ Qız məclisə gətirilərsə, üzüyü onun sağ əlinin şəhadət barmağına (bəzi yerlərdə "gəlin barmağı" adlanan orta barmağına) taxaraq nişanlı qıza: "a bala, nişanın çox mübarək, Allah arzu-istəyinə çatdırsın inşallah" - və s. deyərək xeyir-dua verirlər. ◆ Bəzi yerlərdə bu əsnada qızın qucağına bir azyaşlı oğlan uşağı verirlər. Qız bir qədər yerində dayandıqdan sonra qonaqlara baş əyib oğlan yengəsi ilə dal-dalı otaqdan çıxır. ◆ Bundan sonra qız evi oğlangildən xonça gətirənlərə ***xələt*** [132] paylayır. Qonaqlar isə ağızlarını şirin eyləyərək, yeyib-içib, deyib-güldükdən sonra qız evi qadınlarına: "Allah mübarək eyləsin, olmayanlar üçün olsun, görməyənlər görsün, gün o gün olsun toyuna gələk, toy şirnisindən yeyək, inşallah" - deyərək evlərinə gedirlər. ◆ Ötən zamanlarda (indinin özündə bəzi yerlərdə) bu mərasimdə oğlan evi nişan əlaməti olaraq gəlin alınacaq qızın başına yalnız

Azərbaycan Milli Kitabxanası

*bir yaylıq - **şal** [249] bağlayar, əlavə bir güzgü və daraq bağışlayardı, "şirni" isə vur-tut xonçaya qoyulmuş bir kəlləqənddən ibarət olardı. Mərasimdən sonra onu sındıraraq, bir parçasını noğul-nabat və bir boşqab plov ilə oğlan evinə qaytarardılar. ◆ Sonrakı dövrlərdə bir para yerlərdə bu məclisə, əsas etibarilə, ərə veriləcək qızın yaxın rəfiqə və tay-tuşları yığışmağa başladı. Onlar bir otaqda, bəzənmiş bir masa arxasında qızın ətrafında əyləşir, ağbirçək və orta yaşlı qadınlar isə ayrı bir otağa yığışırlar. Məclis başlamazdan əvvəl buraya gəlmiş qonaqlardan adət üzrə oğlanın ərdə olan bacısı qıza: "Allah nişanına xeyir versin, yarıyıb qırmızı duvaq olasan, inşallah" - deyə-deyə, həri üzüyünü qızın barmağına keçirir, zərli baş yaylığı - şalı isə onun çiyninə salır. ◆ Bu vaxt hamı qızı və onun anasını təbrik eyləyərək: "Allah xeyrə calasın, xoşbəxt olsunlar, ağ günlərə qovuşsunlar" - və s. deyirlər. Qız anası isə, bunların cavabında: "istəkli olasınız, oğul toyu görəsiniz, qız köçürəsiniz, nəvə toyunda qol açıb oynayasınız, inşallah" - deyir və sonra bir şirni götürüb qıza dişlədir, yarısını isə onun adaxlısı üçün saxlayır. ◆ Əsl məclis oğlan evi qadınları gedəndən sonra başlayır. Burada yenicə nişanlanmış qız sağ əlini bir-bir **subay** [241] rəfiqələrinin başına qoyub: "sağ əlim sizin başınıza" - deyir və öz yerini onlara verir. Nəhayət, **ərgən** [89] qızlar süfrədən bir az şirni götürüb: "əziz-xələf olasan, zalıma, namərdə rast gəlməyəsən, Allah bütün qızların bəxtini açsın, bizimki də içində" - xeyir-duaları ilə evlərinə dağılırlar. Onlar inanarlar ki, gecə yatanda həmin şirnidən ikisini balışın altına qoyan qız **ərə** [89] gedəcəyi oğlanı yuxusunda görə bilər. ◆ Bu tədbirlə oğlan evi, gəlinləri olacaq qızın yerini "nişanlayıb bələdləyir" və qız bu gündən etibarən **kəbinkəsdi** [143] mərasiminə qədər oğlanın "**nişanlısı**" [205] sayılır. ◆ El-oba adətinə görə, bu nişanlama mərasimindən sonra, qız evdən çıxanda hökmən üzüyü barmağına taxmalı, yaylıq-şalı isə başına salıb **yaşınma**lıydı [291]. Qız nişanlı olduğu müddətdə qayınatasının evinə ayaq basmamalı; o, ər evini ilk dəfə toy günü görməli; onu oğlan adamlarından **adaxlı** [1] oğlanın kiçik qardaşı və bacısından başqa heç kəs görməməlidir. ◆ Bu mərasimdən sonra hər iki evi böyük nişan - **nişantaxdı toyu** [205] gözləyir. ◆ Ayrı-ayrı yerlərdə qadınların keçirdiyi bu kiçik nişan mərasiminə "şal-üzük" (Masallı, Lənkəran), "bağlanışma", "bəlgə // bəlgəqoydu" (şimal-qərb torpaqlarımız), "tanışlıq nişanı", "üzükapardı // üzükgətirmə" (Şəki), "üzük-fitə" (Quba), "üzüktaxdı" (Zəngilan, Qubadlı), "xatircəmlik" (Muğan), "adeləmə // adolma" (Qazax), "şirni apardı // şirinxonça" (Basarkeçər), "şirninişan toyu" (Abşeron), "gəlmə" (Salyan), "şirni // şirni toyu" və s. deyirlər.*

• V •

*Ardı:*
*NİŞANTAXDI TOYU ◆ VI*
*(115-ci səhifədə)*

Azərbaycan Milli Kitabxanası

## GÜVEYLİK

◆ Gürcüstandakı soydaşlarımızın ağzında, həm oğlan evinin qıza **üzük** [282] aparıb onu nişanlaması, həm bundan sonra başlayan **adağlıbazlıq** [1] "vəziyyəti", həm də yenicə toy çaldırıb təzə ailə qurmuş *"təzəbəylik"* və *"kürəkənlik"* anlamlarına gələn söz.

## GÜVEYLİK LİBAS

◆ Bəzi bölgələrimizdə evlənən **bəy oğlana** [36] **toy** [269] şənlikləri zamanı geymək üçün **qız evinin** [178] aldığı və ya tikdirdiyi libas dəsti - **bəylik paltarının** [35] adı. ◆ Keçmiş zamanların adətinə görə, qız tərəf oğlan üçün ən azı iki dəst paltar tikdirməliydi. ◆ Onun başqa adı *"toyluq libası"*dır.

## GÜVEYLİK TİRAŞ

◆ **Oğlan evindəki** [208] birinci və ikinci şənliklər - **ixtilat** [141] və **gəlingətirdi toyu** [98] günü gündüz çağı toyxanada qonaqların gözü önündə bəy oğlanın üzü və başının qırxılıb yeni biçimdə daranması ilə bağlı **bəylik tərașı** [36] mərasiminin başqa adı. ◆ Vaxtilə **bəydurma** [36] mərasiminin üzvü bir hissəsi olmuş bu adətə *"bəy tirașı"* və *"güveytəraşlıq"* da demişlər.

## GÜVEYYEMƏYİ

◆ Bir para yerlərin adət-ənənəsinə görə, toya bir-iki gün qalmış və yaxud **ixtilat toyu** [141] gecəsi oğlan evinin **məsləhətə** [191] dəvət etdiyi yaxın qonum-qonşu, ailə və məhəllə ağsaqqalları üçün açdığı xüsusi süfrə və burada yeyilən xörəyin adı. Digər bölgələrimizdə bu süfrə *"dünürçü yeməyi"* və *"məsləhətaşı"* adını daşıyır.

**109.**

## HAXIŞDA // HAXIŞTA

◆ Naxçıvan diyarında çaldırılan toy-nişan məclislərində qız evində cavan qız-gəlinin ifa etdiyi halaysayağı oyunlardan biri. ◆ 8-12 iştirakçıdan ibarət olan iki dəstə cərgə ilə qabaq-qabağa dayanıb əl-ələ tutur. Sonra ifaçılardan biri sonu *"haxışda"* kəlməsilə bitən bir bayatı oxuyur, o birilər bu sözü təkrar edərək əl çala-çala, oynaya-oynaya qarşı cərgəyə, oradan da əks cərgəyə keçirlər. Oxuya bilməyən sıradan çıxır və bir ayaq üstə atılıb-düşərək rəqs edir.

**110.**

## HALALLIQ

◆ Bəzi bölgələrin dilində, oğlan tərəfin toy ərəfəsində qızın ata-anasına toyqabağı tədarük və **gəlinlik cehizi** [98] toplamaq üçün verdiyi vəsait - **başlığın** [29] adı. Bəzən halallıq gəlin ər evinə köçürülən gün, yaxud ondan bir neçə gün əvvəl ödənilir.

Azərbaycan Milli Kitabxanası

111.

## HALAY

*"Halay gedən qırx qızlar, könül sizi arzular"*
(toy oxumasından)

◆ Mənşə etibarilə çox əski çağlarla bağlı, Astara və Lənkəran bölgələrinin qız evi toy məclislərinə xas olan, oxuma və əlçalma ilə müşayiət edilən kütləvi rəqs növü. ◆ Dairəvi şəkildə düzülüb iki dəstəyə bölünmüş ifaçılar üz-üzə dayanaraq, əl çala-çala bir-birinə doğru hərəkət edib yerlərini dəyişirlər. ◆ İki qavalla müşayiət olunan bu rəqsə xalq içində bəzən *"cütqaval"* da deyilir.

112.

## HALQA

◆ Kiçik nişan **üzükşal toyu** [282] mərasimində oğlan evi qadınlarının ərə veriləcək qızın sağ əlinin orta barmağına *"evlilik timsalı tək"* taxdıqları qaşsız **həri üzüyünün** [119] başqa adı. ◆ Bəzi yerlərdə onu *"barmaqlıq // barmaqca"*, *"bəlgə"* də adlandırırlar. Onun *"həlqə"* deyiliş şəkli də var.

113.

## HAMAM BOĞÇASI

◆ **Qız toyu** [178] şənliklərinin ikinci günü - **xınayaxdı toyu** [135] zamanı axşamçağı qız evindən oğlangilə göndərilən **boğça**nın [39] adı. Bu boğçaya **bəy** [36] üçün darayı ipək fitə, tiftik baş qətifəsi, ayaq qurulamaq üçün süzəni tirmə, ət kisəsi, sabun, lif, həmçinin ipək ağ tuman-köynək, araxçın, pul kisəsi, bir cüt corab, hamam xalçası və s. yerləşdirilir. ◆ Hamam boğçasının yanında bir **xonça** [138] da olur. Qız anası onu **paltarkəsdi toyu**na [215] gətirilmiş **gəlinlik paltarı**nın [98] xonçasında tutur. Bu xonçaya **oğlan sağdış-soldışı**na [208] hamam paltarı və araxçın qoyulur. Bəzən xonçaya oğlanın ailə üzvləri və **xəlfə** [133] üçün **xələtlər** [132] də yerləşdirilir və boğça ilə yanaşı, buraya bir cam islanmış xına, baş yumaq üçün iki yumurta, bişi və bir az şirniyyat da düzülür. ◆ Boğça ilə xonçanı oğlan evinə **ixtilat toyu** [141] gecəsi oğlan yengəsi və bir yeniyetmə oğlan gətirirlər (vaxtilə, bir qayda olaraq, qız evində üçgünlük toy şənliklərinin ikinci günü **xınayaxdı toyu** [135] keçiriləndə, oğlan evində üç gün, üç gecə davam edən **oğlan toyu** [208] şənliklərinin birinci günü - **ixtilat toyu** [141] keçirilərdi). ◆ Onun başqa adı *"bəy boxçası"* və *"qətifə boxçası"*dır.

114.

## HEŞKİVAŞ

◆ Sabirabad bölgəsinin toy tədbirlərində həm qız, həm oğlan evində, bir adət olaraq, gəlin qızın başına səpilən müxtəlif şirniyyatın adı. Bu da gəlinin yeni ailəyə, **ər evinə** [89] bar-bərəkət gətirməsi arzusu ilə bağlıdır. ◆ Başqa yerlərdə ona **"arzu noğulu"** [13] (Basarkeçər), *"guşayaşdıq"* (Salyan) da deyilir. *"Həşkivaş"* deyiliş tərzi də var.

Azərbaycan Milli Kitabxanası

115.

## HEYVANKƏSDİ

◆ Oğlan evində vaxtilə üç gün, üç gecə davam edən **oğlan toyu** [208] şənliklərinin birinci günü - **ixtilat toyu** [141] zamanı gündüz, yaxud onun sabahı - **gəlingətirdi toyu** [98] günü səhər, toydan ötrü oğlan evinə alınmış ətlik heyvanların kəsilməsilə bağlı icra olunan bir ayinin adı. Əski adət-ənənəyə görə, heyvanı gün batanda - axşamçağı kəsməzlər, bu günah sayılar. ◆ İlk əvvəl **bəyin** [36] bir yaxın dostu **toy qoyunlarından** [269] birini dizi altına yıxıb bıçağı yavaşca heyvanın boğazına sürtür və zarafatyana ətrafdakılara: *"ay camaat, bu bıçaq kütdü, kəsmir"* - deyir. Məsələni başa düşən oğlan anası ona **xələt** [132] verdikdən sonra, həmin erkək və onun ardınca **toy** [269] üçün alınmış digər heyvanlar da kəsilirlər. ◆ Bəzi yerlərdə isə erkəyi kəsən adam heyvanın dərisini soyub quyruğunda saxlayır, bıçağın kütlüyünü, yaxud sındığını bəhanə gətirib işini dayandırır və beləcə **oğlan evindən** [208] xələt alır. ◆ Vaxtilə bu mərasimə çalğıçılar dəvət edilərdi, cavanlar çalıb-oynayar, güləşərdilər, **toy toğlusunu** [269] kəsənə, toy cöngəsinin boynunu qırıb yerə yıxana və çalğıçılara oğlan evindən xələt verilərdi. ◆ Ayrı-ayrı yerlərdə bu ayinin adı *"malkəsdi"*, *"kütbıçaq // korbıçaq"*dır.

116.

## HƏCLƏ

[ *"görüş otağı" anlamındadır* ] ◆ Bir vaxtlar toy gecəsi üçün ayrılmış **gəlinlik otağının** [98] bir guşəsində tavandan asılan dairəvi biçimli pərdə qurğusunun adı; **gərdək** [100], **nikah taxtı** [203] və *"gəlinlik otağı"* deyimlərinin qarşılığı. ◆ *"Həcləgah // həcləxana // həcleyi-ərus"* bu deyimin başqa şəkilləridir.

117.

## HƏFTƏ HAMAMI

*"Gəlin hamama gedir, hamampulun hazır qoy"*
(toy oxumasından)

◆ Abşeronda toydan yeddi gün sonra, günorta çağı, təzə evlənənlərin evində çağırılan bir məclisin adı. ◆ Əski adət-ənənəyə görə, həmin gün, ilk öncə, **nikah taxtı** [203] və **gərdək** [100] yığılır. Sonra el hamamı bir-iki saatlıq icarəyə alınır və oğlan anasından başqa, hamı **təzəgəlinlə** [267] birlikdə hamama yollanır. Oraya satılda **şərbət** [256] gətirib hərəyə bir bardaq şərbət verirlər. ◆ Hamamdan qayıdandan sonra, gəlin bəzənib-düzənir, süfrə açılır və qonaqlara yemək paylanır. Süfrə yığıldıqda **sərpayı qadın** [236] məclisə çağırılmış qonaqların təzəgəlin üçün gətirdiyi **xonça** [138], yaxud qiymətli hədiyyələrin qablarını süfrəyə düzüb, hər qaba gəlindən kiçik bir hədiyyə (məsələn, pul kisəsi, ipək yaylıq, yun corab, araxçın və s.) qoyur. Qonaqlar hədiyyə ilə qabı götürüb: *"Allah süfrənizə bərəkət versin, payınız həmişə artıq, eviniz qonaqlı-qaralı olsun"* - və s. xeyir-dualar verə-verə dağılışırlar. Həmin gündən etibarən təzəgəlin *"üzə çıxmış"* sayılır. ◆ Əslinə qalarsa, bu məclisi **üzəçıxdı toyunun** [278] bir başqa adı və ya variantı da adlandırmaq olar.

Azərbaycan Milli Kitabxanası

**118.**

## HƏFTRƏNG

[ *"yeddi cür boya" deməkdir* ] ◆ Qız toyu şənliklərinin üçüncü - **gəlinapardı toyu** [98] günü **üzalma** [278] zamanı **ər evinə** [89] varan gəlin qızın çöhrəsini boyayıb bəzəməkdən ötrü istifadə edilən yeddi növ ənənəvi kosmetik maddədən ibarət **bəzək** [37] toplusu - xına, vəsmə, ənlik (surxab), kirşan (səfitab), sürmə, qaliyə və yapığın ümumi adı.

**119.**

## HƏRİALDI (IV)

◆ Birinci qeyri-rəsmi kişi elçiliyi **hə-yoxda** [121] qız tərəfin nikaha ümumiyyətlə etiraz etmədiyindən əmin olduqdan sonra, oğlan tərəfin bu dəfə rəsmi razılıq almaq məqsədilə qız evinə göndərdiyi böyük **kişi elçiliyinin** [151] adı. ◆ Müəyyən edilmiş gündə və saatda oğlan atası yenə əvvəlki tərkibdə elçilik - bir neçə yaxın kişi qohumu, ağsaqqalı - yığır və oğlanın anası, yaxud xalası ilə qız evinə yollanır. Qız atası da, birinci elçilikdən fərqli olaraq, bu dəfə yaxın kişi qohumlarından bir neçəsini, ailənin mötəbər ağsaqqallarını məclisə dəvət edir. Elçilərin gəlməsi üçün onun qəti qərarı artıq hazır olur. Bundan ötrü o, birinci elçilikdən sonra **gənəşik** [99] keçirib məsləhətləşir, yaxın qohum-əqrəbanın rəyini və qızın öz fikrini öyrənir, oğlan haqqında lazımi məlumat toplayır... ◆ Bələdçinin *"qırmızı"* bölməsində [səh. 77] milli toy ənənəmizin **herialdı** [IV] mərhələsi haqqında daha ətraflı yazılır.

## HƏRİ ÜZÜYÜ

*"Ağ barmağa qızıl üzük taxdın, bərəkallah gəlin"*
(toy oxumasından)

◆ Kiçik nişan **üzükşal toyu** [282] mərasimində gəlin köçəcək qızın sağ əlinin *"gəlin-barmağı"* deyilən orta barmağına (bəzi yerlərdə şəhadət, uzaq keçmişdə isə baş barmağa) *"evlilik əlaməti tək"* taxılan qaşsız qızıl üzüyün adı. ◆ Ötən çağlar dəmirdən hazırlanan bu qalın və ağır üzüyün alt tərəfi düz, üstü qabarıq olurdu. ◆ Bəzi yerlərdə onun dəyirmi və ya dördbucaq biçimli üst hissəsində *"nikah"* sözü yazdırılır. Halqanın iç tərəfinə isə oğlanın adı həkk olunur. Bu üzük həm *"nikah rəmzi"* tək sahibəsini digər subay qızlardan fərqləndirir, həm də başqa oğlanların onunla maraqlanmasının qarşısını alır. ◆ Ayrı-ayrı bölgələrdə ona *"barmaqlıq // barmaqca"* (Quba), *"bəlgə"* (şimal-qərb torpaqlarımız), *"əngiştənə // əşgənə"* (Oğuz), *"halqa"* da deyirlər.

**120.**

## HƏTBAŞ

◆ Ordubad bölgəsində çaldırılan **toy** [269] məclislərinin ikinci günü, yeməkdən sonra, buraya gəlmiş kişi qonaqlardan oğlan atası üçün yığılan pulun adı. ◆ Bu qarşılıqlı maddi yardımın evlənənlərin yeni ev-eşik və təsərrüfat yaratmasında böyük əhəmiyyəti olur. ◆ Onun bir başqa adı *"dizdayağı"*dır. Naxçıvanda isə ona *"ayanat"*, Qarabağda *"aynat"* deyilir. Onun *"hətəbaş"* tələffüz şəkli də var.

Azərbaycan Milli Kitabxanası

121.

"Gəlmişik bağınızdakı o gül üçün"
(toy oxumasından)

## HƏ-YOX (III)

◆ İki **arvad elçiliyində**n [12] sonra **qız evində** [178] keçirilən qeyri-rəsmi ilkin danışıqlar - birinci **kişi elçiliyinin** [151] adı. ◆ Əgər oğlan atası arvad elçiliklərinin nəticələrindən tam xatircəm olmayıb, qız tərəfin rədd cavabını almaqdan ehtiyat edirsə, o, tələsmədən, yaxın qohumlarını toplayıb onlarla məsləhətləşir. Götür-qoy elədikdən sonra oğlan atası **elçilik** [81] üçün kəndin-obanın sözükeçən, çox nüfuzlu şəxslərinə - hörmətli ağsaqqal, bəzən isə məhəllə mollasına üz tutur, onlardan "filan qızın" ata-anasından **nikaha** [203] razılıq almaq üçün elçi düşməyi xahiş edir. Elçilik günü müəyyən olunduqdan sonra **oğlan** [208] atası, üç-dörd yaxın qohumu - oğlanın əmisi, dayısı, böyük qardaşı və kəndin, məhəllənin bir-iki seçmə ağsaqqalı ilə yenə pay-puruşsuz, sovqatsız qız evinə üz tutur... ◆ Bu bələdçinin *"qırmızı"* bölməsində [səh. 57] milli toy ənənəmizin **hə-yox [III]** mərhələsi haqqında daha ətraflı yazılır.

122.

"Bizim elin adətidi, xalça verərlər gəlinə"
(toy oxumasından)

## XALÇABAŞI

[*"xalça başına yığışma" mənasındadır*] ◆ Toya hazırlıq müddətində **gəlinlik cehizi** [98] üçün **qız kilimi** [178] xalçasının toxunmasına başlanması münasibətilə qız evində çağırılan bir qadın məclisinin adı. ◆ Dədə-baba qaydasına görə, kilim-xalçanı nişanlı qız özü öz əlilə və ya onun anası, yaxud **qız sağdışının** [66] vəsaiti hesabına xüsusi xalçatoxuyan - *"kilimçi"* toxumalıdır. Qız anası oğlan anasına *"hana toxunma məclisi"*nin gününü əvvəlcədən xəbər verib onu evlərinə dəvət edir. Oğlan anası bununla əlaqədar bir və ya bir neçə xonça tutub yaxın qadın qohumları ilə qızgilə gəlir və *"Allah mübarək eyləsin"* sözlərilə gətirdiklərini təzəcə qurulmuş *"hana"* dəzgahının üstünə qoyur. Adətə görə, süfrə açılır, hamı yeyib-içir, cavan qızlar *"hana mahnıları"* ifa edirlər. Xonça içinə düzülmüş hədiyyələr nişanlı qıza çatır. ◆ Bəzi yerlərdə bu məclisə *"xanauzatma"*, *"hanabaşı"* da deyirlər. *"Xəlçəbaşı"* deyiliş tərzi də mövcuddur.

123.

## XANDA

[ *"çağırış, dəvət" anlamındadır* ] ◆ Yurdumuzun cənub-şərq bölgələrində toy tədbirlərindən 10-12 gün əvvəl **dəvətçinin** [64] evləri qapı-qapı gəzib əlindəki xurcundan toya çağırdığı adamlara payladığı **toy şirnisinin** [269] adı. Bu ərazidə onun bəzən *"xonda // xandə"* deyiliş tərzinə də rast gəlinir.

## XANDAGƏZƏN

[ *"xanda paylayan" mənasındadır* ] ◆ Lənkəran diyarında **qız toyu** [178] ərəfəsində **toy şirnisi** paylamaqla camaatı toy məclislərinə çağıran dəvətçi qadına verilən ad. ◆ Abşeron kəndlərində onu *"xandagün"*, Salyanda isə *"xandaçı // xondaçı"* adlandırırlar.



Azərbaycan Milli Kitabxanası

**124.**

## XANOTURDU // XANXAN

◆ Vaxtilə toy günü və ya toy ərəfəsində çağırılan **oğlan qonaqlığı** [208], yaxud **bəy-başı** [36] məclisində subay cavanların oynadığı qədim mənşəli bir oyunun adı. ◆ Burada ilk öncə adaxlı oğlanı *"xan"* və ya *"paçça"* (padşah) elan edib hökmdar təki onu taxta çıxarırlar. Sonra **sağdış-soldışı** [225] ona *"vəzir-vəkil"* təyin edir və püşkatma yolu ilə məclisdəkilərdən *"yasavul"*, *"fərraş"*, *"cəllad"* vəzifələrinə də ifaçılar müəyyən edirlər. ◆ Ardınca ortaya çıxan *"şikayətçilər"* yarızarafat, yarıgerçək hökmdar-adaxlı oğlana şikayət edir, o da, onlara diqqətlə qulaq asıb *"müqəssirlərə"* müxtəlif *"cəzalar"* verir. Məsələn, onları döydürür, toyxanadakılara içməyə su gətirtdirir, rəqs etməyə, oxumağa, xoruz təki banlamağa, pişik, keçi, eşşək və digər heyvanlar kimi səs çıxarmağa və s. *"əmr edir"*. Bəzən *"xan"*ın əmrilə *"cəllad"* qayışla müqəssirin əlinin içinə bir neçə şallaq vurur. ◆ Oyunda **evlənmək** [84] ərəfəsində olan **adaxlı** [1] **oğlan**ın [208] müvəqqəti *"hökmdar"* seçilməsi, onu bir günlük, yaxud bir neçə saatlıq *"küllü-ixtiyar sahibi"* edib hökmdarlara məxsus imtiyazlar aşılanması çox əski zamanlarda qəbul edilmiş xüsusi qayda-qanun, yaxud mərasimin qeyri-şüuri təkrarı, təqlididir. XIX yüzildə isə bu oyun öz erkən mahiyyətini itirərək **toyxana**da [269] icra olunan adi bir məzhəkə, əyləncəyə çevrilmişdir. ◆ Xalq arasında bu oyun *"xantikdi // xanetdi // xanyaratdı // xan-vəzir // xan oyunu"*, *"bəy-vəzir // bəydurma // bəyməgizil"* (Salyan) adları altında tanınır.

## XANPULU

[ *"süfrə pulu" mənasındadır* ] ◆ Xanlıqlar dövrü yurdumuzun Qarabağ diyarında zamanın qayda-qanununa müvafiq torpaq və mahal sahibi xan və bəylərin ailələrində **toy** çaldırıldıqda, **gəlinlik cehizi** [98] və **toyxərci** [269] üçün yerli əhalidən toplanan maddi vəsaitin adı. ◆ Burada ona bəzən *"toypulu"* da demişlər.

**125.**

## XASTAKAR

[ *"xastkar" sözündən olub, evlənmək əzmində olan oğlan deməkdir* ] ◆ Cənub-şərq bölgələrimizdəki əhalinin dilində, evlənmək, ailə qurmaq arzusunda olan *"adaxlı oğlan"* və **toyu** [269] vurdurulan "**bəy oğlan**" [36] anlamlarında işlənən sözlərdən. ◆ Ötən çağların yazılarında isə onu *"novşah // novşəh"* adlandırırlar.

## XASTAKARLIQ

[ *əslində "xastkarlıq", yəni elçilik işi deməkdir* ] ◆ Muğan düzü ərazisində oğlanı evləndirmək işini başlayaraq, qız tərəfin **nikaha** [203] razılığını almaq üçün keçirilən "**elçilik**" [81] və "**nişanlama**" [205] tədbirlərinə verilən ad. ◆ Lənkəran və Salyan bölgələrində isə **qız evində** [178] çağırılan qeyri-rəsmi **hə-yox** [121] birinci **kişi elçiliyi** [151] də bu adı daşıyır. Burada onu bəzən *"xastkari"* də adlandırırlar.

Azərbaycan Milli Kitabxanası

126.

## XASTAR

[ *"arzulayan, istəyən" mənasındadır* ] ◆ Əsas etibarilə cənub torpaqlarımız üçün səciyyəvi olub, evlənmək niyyətində olan **subay** [241] oğlana yad bir ailədən qız istəmək və onun valideynlərinin bu **nikaha** [203] razılığını almaq məqsədilə qız evinə yollanan kişi və ya qadın nümayəndə **elçiyə** [81] verilən ad.

127.

## XATƏM

[ *əslində "halqa, üzük" deməkdir* ] ◆ Ötən zamanlar **beşikkərtmə** [33] mərasimində oğlan atasının körpə *"nişanlı qızı"*n beşiyindən asdığı metal sikkə pula xalq içində verilən ad. Bəzi yelərdə isə **nişan üzüyü** [205] anlamında işlənən söz.

128.

## XATİRCƏMLİK

[ *"arxayınlıq" mənasındadır* ] ◆ Muğan düzündə kiçik və böyük (**hə-yox** [121] və **hərialdı** [119]) **kişi elçiliklərindən** [151] sonra, qızı nişanlamaq məqsədilə qadınların keçirdiyi **kiçik nişan** [150] - **üzükşal toyu** [282] mərasiminin adı. **Oğlan evindən** [208] bu məclisə gətirilmiş qaşsız **həri üzüyü** [119], **nişan yaylığı** [205] və digər əşyalar da, bir qayda olaraq, bu adı daşıyırlar.

129.

*"Xeyir iş yerdə qalmaz"*
(atalar sözü)

## XEYİR İŞ

◆ Xalq arasında, adət üzrə, "**nişan** [205], **nikah** [203], **toy** [269] məclisi və **evlənmə** [84]" anlamlarında işlənən sözlərdən biri - bu xoş tədbirlərin ümumi adı. ◆ Dilimizdə tez-tez təsadüf etdiyimiz *"Allah sənin xeyir işinə ruzu göndərsin"* xeyir-duası və ya *"bu xeyir işdə kimlər iştirak edəcəklər?"* ifadəsi, əslində, kiminsə bu yaxınlarda nişan, yaxud toy mərasimi keçirəcəyinə işarədir.

*"Bərəkət üzündə, çörək duvaqında"*
(toy oxumasından)

## XEYİRLİK

◆ Bir vaxtlar üç gün davam edən **qız toyu** [178] şənliklərinin üçüncü günü (bu da üç gün, üç gecə davam edən **oğlan toyu** [208] şənliklərinin ikinci gününə təsadüf edir) qız evində **gəlinapardı toyu** [98] keçirilən zaman oğlan evi adamlarının, adət üzrə, qızgildən xəlvəti bir şey "oğurlamaq" cəhdini qabaqlamaq, buna yol verməməkdən ötrü qız anası və ya atasının gəlin qızın qoltuğuna basdığı çörəyin adı. El-oba qaydasınca, bundan sonra heç cür "oğurluq" etmək olmaz. Həmçinin, bir para yerlərdə *"toy-düyün"* mənasında işlənən deyim.

Azərbaycan Milli Kitabxanası

130.

## XƏBƏRÇİ

◆ Bəzi yerlərin dilində, **oğlan evilə** [208] qızgili arasında vasitəçilik edən yaşlı qadın - **ara arvadının** [11] adı. ◆ Eyni zamanda, **toydan** [269] bir neçə gün əvvəl evləri qapı-qapı gəzərək, tapşırılan camaatı toy-nişan tədbirlərinə çağıran **toy dəvətçisinin** [269] adlarından biri.

131.

## XƏKRİZDƏMƏ

◆ Ağdam, Tərtər, Füzuli və Şuşa bölgələrində **gəlinapardı toyu** [98] zamanı **oğlan evi** [208] adamlarının, əski adət-ənənəyə uyğun olaraq, **qız evindən** [178] xəlvəti əşya götürməsindən ibarət **şeyoğurlama** [253] adətinin adı. İnama görə, bu tədbir gəlinin bir daha dədəsi evinə qayıtmaması üçündür.

132.

## XƏLƏT

*"Xələt versin toya gələnlər"*
(toy oxumasından)

[ *"bahalı libas" mənasındadır* ] ◆ Nişan və toy tədbirlərində oğlan və qız evlərinin bir-birinə, toya gələnlərin isə bəy və gəlinə (bükülü xonça, yaxud boxçada) təqdim etdikləri pay, sovqat və ya qiymətli əşya. ◆ Adət üzrə, hər iki ailə toy tədbirləri üçün əvvəlcədən külli miqdarda müxtəlif növ qiymətli hədiyyə - *"xonça-xələt tədarükü"* edir. ◆ Deyim mənşə etibarilə ötən zamanlarda Şərq hökmdarlarının, *"ali mükafat"* kimi, ayrı-ayrı şəxslərə təqdim etdikləri həddindən qiymətli libasın adı ilə bağlıdır. Sonralar bu ad altında yalnız libas deyil, müxtəlif növ bəzək əşyaları, zərli parça və qızıl pul təsəvvür olunurdu. ◆ Əski mətnlərdə onun *"xələt-barat"* adına da təsadüf edilir. Xalq arasında ona *"bəxşiş // bəxşeyiş"*, *"sovqat"*, *"ərməqan"*, *"töhfə"* də deyirlər.

## XƏLƏTATDI TOYU

◆ **Qız toyu** [178] şənliklərinin birinci - **paltarkəsdi toyu** [215] günü gündüz çağı oğlan evində icra olunan qadın məclisinin adı. ◆ Toplaşanlar nişanlı qızın adına sırğa, qolbağ, geyim və digər **xələt** [132] gətirir, onların ətrafında oxuyub rəqs edərək şənlənirlər. Sonra yığılmış hədiyyələri, habelə qız üçün hazırlanmış pal-paltarı sandığa yığıb qızgilə yollanırlar. ◆ Məclis Lənkəran və Masallı bölgələri üçün daha səciyyəvidir.

133.

## XƏLFƏ

[ *vaxtilə mollaxanadakı molla köməkçisinin adı ilə bağlıdır* ] ◆ XIX əsrin birinci yarısında Abşeronda **kişi toyu** [151] məclislərini idarə edən peşəkar sərəncamçı - **toybəyinin** [269]

Azərbaycan Milli Kitabxanası

adı. ◆ Bu şəxs yalnız toyda deyil, elçiliklə başlanan digər **xeyir işlərində** [129] də fəal iştirak edir. **Nişan** [205] vaxtı o, əlində güzgü və çıraq **elçilərlə** [81] birlikdə qız evinə yollanır, gətirilmiş xonçaları evin ortasına düzür, kəlləqəndləri doğrayıb nəlbəkilərə yığır, yeməkdən əvvəl hamıya aftafa-ləyənlə **əl suyu** [86] verir və bu kimi ənənəvi işlər görməklə mərasimlərin qayda üzrə keçirilməsini təmin edir. Bundan başqa, **toy** [269] ərəfəsində evləri gəzib tapşırılan adamları toya dəvət edir, toy məclislərində isə nizam-intizamı güdür. ◆ İndinin özündə bu şəxs yalnız toya adam çağırmaqla məşğul olur. Onu bəzən *"xəlfəbəy"* də adlandırırlar.

**134.**

## XƏRCGƏTİRMƏ

◆ Toy ərəfəsində oğlan tərəfin qızgilə **toyxərci** [269] - **bazarlıq** [29] ərzağını gətirməsi münasibətilə keçirilən kiçik bir qonaqlığın adı. ◆ Bundan ötrü **qız evində** [178] yemək-içmək hazırlanır, süfrə açılır, ardınca xərci gətirənlərə xələt verilir. ◆ Adət daha çox Gürcüstanda yaşayan soydaşlarımız arasında yayılmışdır. Başqa yerlərdə ona *"yolapardı // yolgöndərmə"* deyirlər.

## XƏRCXƏCƏLƏT

[ *"əvəz haqqı" anlamındadır* ] ◆ Salyan bölgəsində ərə verilən gəlin qız üçün atası evində **başlıq** [29] hesabına alınaraq, yeni mənzilinə köçdüyü zaman ona qoşulan gündəlik həyat və ev-eşik üçün ən zəruri ləvazimat - **gəlinlik cehizinin** [98] başqa adı.

**135.**

*"Xına yaxın əlinə, xəbər getsin obasına, elinə"*
(toy oxumasından)

## XINA

◆ Qədim çağlardan bəri saç-saqqall, əl-ayaq və barmaqları boyamaqdan ötrü istifadə edilən təbii boya maddəsi. ◆ *"Yaşıl əkilib qırmızı bitən"* bir bitkidən hazırlanıb, toz halına salınmış bu maddə toy ərəfəsində isladılıb **ərə** [89] veriləcək qızın saçına, əl-ayağına, **adaxlı** [1] oğlanın - barmağına, məclisə toplaşanların isə ovucuna yaxılır. ◆ Dədə Qorqud çağlarında bu boya **gəlinin** [98] barmaqları və ovucuna büsbütün sürtülməzdi, onunla qızın əl-ayağına yalnız xüsusi rəmzi naxışlar çəkərdilər. Bu cür *"əl-ayaq naxışlama"*nın bir neçə növü olmuşdur. Məsələn, *"sıvama"* (əlləri xınaya tamam bulama mənasında), *"üskük"*, yaxud *"biçək"*, *"fındıqça"*, *"pişik pəncəsi"*, *"dilbər duvağı"*, *"balıqlı"* və *"quşgözü"* adlanan naxış növləri. ◆ Əslinə qalarsa, başa, ayağa xına qoymaq adəti ulu babalarımızın odsevərlik inamı ilə, günəşin yerdəki *"vəkili"* sayılan od-alovun al qırmızı, xınayı rəngə çalması ilə bağlıdır. Od-alovun rəngi olduğu üçün ulu əcdadımız bu boyaya üstünlük verərdi, ona xüsusi ehtiram və rəğbət bəsləyərdilər. ◆ Ümumiyyətlə, bu boya uzun əsrlər boyu xalqımızın əqidəsində *"xoşbəxtlik və gəlinlik"* rəmzi sayılmış, *"xınalı"*, yaxud *"hənalı"* sözü el-oba içində *"gəlin"* deyiminin qarşılığı tək qəbul edilmişdir. ◆ Xalq arasında bu boya maddəsi *"həna"*, *"rəng // rəngühəna"*, toy üçün istifadə edildikdə isə *"toyluq xına"*, *"qardaş xınası"*, *"gəlin xınası"* adları ilə tanınır.



Azərbaycan Milli Kitabxanası

## XINABƏND

◆ **Xınayaxdı cehizinə** [135] daxil olan qırmızı ləçək və ya yaylıqların ümumi adı. **Qız toyu** [178] şənliklərinin ikinci günü - **xınayaxdı toyu** [135] gecəsi xına yaxılmış nişanlı qız yatağına girərkən, yorğan-döşək bulanmasın deyə, onun əl-ayağı bu yaylıqlarla sarınır. Ayrı-ayrı yerlərdə ona *"qaşbənd"*, *"sərqətfə"* və *"qıymaça"* (Şirvan) da deyilir.

## XINA HAMAMI

◆ Ayrı-ayrı bölgələrin dilində, qız toyu şənliklərinin üçüncü - **gəlinapardı toyu** [98] günü **ər evinə** [89] köçürüləcək **gəlin qızın** [98], bir gün əvvəl **xınayaxdı toyunda** [135] əllərinə xına qoyulmuş qonaqlarla birlikdə el hamamına yollanıb orada keçirdiyi **gəlinlik hamamı** [98] mərasiminin adı. ◆ Bəzi yerlərdə ona *"qız hamamı"*, *"toy hamamı"* da deyirlər.

## XINALIQ DONU

◆ Xınayaxma zamanı başqa paltarlar və yorğan-döşək bulanmasın deyə, bir qayda olaraq, ərə veriləcək qıza **qız toyu** [178] mərasimlərinin birinci günü **paltarkəsdi toyunda** [215] digər geyimlərlə yanaşı kəsilib tikilən çox bəsit biçimli bir libasın adı. ◆ Onu *"xınalıq paltarı"* da adlandırırlar.

## XINA NƏĞMƏLƏRİ

◆ Bəzi yerlərin adətincə, **qız toyu** [178] tədbirləri zamanı pərdə arxasında **nişanlı** [205] qızın başına xına yaxdıqdan sonra, rəfiqələri və **oğlan evi** [208] qızlarının onun ətrafında ifa etdikləri xüsusi məzmunlu, qəmli-qüssəli özünəməxsus oxumalara verilən ad. ◆ Digər yerlərdə bu oxumalara *"toy oxşaması"* deyirlər.

## XINA OTAĞI

◆ **Qız toyu** [178] şənliklərinin ikinci - **xınayaxdı toyu** [135] günü ər evinə köçməyə hazırlaşan nişanlı qızın baş-ayağına xına yaxmaqdan ötrü qızın atası evində ayrılmış xüsusi otağın, yaxud elə buradakı **bəzək otağında** [37] pərdə ilə kəsilmiş bir guşənin adı.

## XINA TABAĞI

◆ Adət-ənənəyə uyğun olaraq, nişanlı qızı *"xınaya gətirmək"* üçün oğlangildən **qız evinə** [178] aparılan isladılmış xına qabı, yaxud mərasim zamanı qonaqların gözü qabağında xınanı islatmaqdan ötrü istifadə edilən xüsusi ləyən, teşt, tabaq, yaxud, mis cama verilən ad. ◆ Naxçıvan diyarında ona *"həna təbəği"* deyirlər.

## XINAYAXDI CEHİZİ

[ *"xına qoymaq üçün lazımi əşyalar" anlamındadır* ] ◆ **Qız toyu** [178] mərasimlərinin ikinci günü oğlangildən qızın atası evinə **gəlin xınası** [98] ilə bir xonçada gətirilib **xınayaxdı**



Azərbaycan Milli Kitabxanası

**toyu** məclisində nişanlı qıza xına yaxılan zaman istifadə olunan **xınabənd** [135] - ləçəklər, yaylıq, taxta tabaq və ya cam, sabun və s. ləvazimata verilən ümumi ad.

## XINAYAXDI TOYU (VIII)

*"Gəl bizim əziz gəlin, xına qoyum telinə"*
(toy oxumasından)

◆ Vaxtilə qızın atası evindəki üç günlük **qız toyu**nun [178] ikinci günü çağırılan növbəti toy məclisi. Erkən çağlar el hamamında keçirilən bu məclis sonralar qız toyunun ən əlvan və təmtəraqlı şənliyinə çevrildi - qızgildə başlanıb hamamda tamamlanırdı. ◆ İndi bu mərasim artıq toy günləri deyil, bəzən toya bir neçə gün qalmış oğlan evi qadınları ilə birlikdə keçirilir. ◆ Oğlan tərəf üzərinə zərli örtük salınmış, içində **xınayaxdı cehizi** [178], **gəlin xınası** [98], kiçik kəlləqənd, noğul-nabat, püstə-badam, çay və iki bəzəkli şam olan bir xonçanı 12-13 yaşlı yeniyetmənin başına qoyub dəstə ilə qız evinə *"xınaya"* yollanır. ◆ Uşaq qızgilin qapısına çatdıqda, başındakı xonçanı açıb içindəki şamları yandırır. Qızın anası qudası ilə görüşüb öpüşəndən sonra xonçanı yeniyetmənin başından götürür və şamları xırda yumru qənd ilə söndürərək qonaqları evə dəvət edir... ◆ Bu bələdçinin *"qırmızı"* bölməsində [səh. 153] milli toy ənənəmizin **xınayaxdı toyu** [ VIII ] mərhələsi haqqında daha ətraflı yazılır.

**136.**

## XIRDABA

◆ Lənkəran və Masallı bölgələrimizdə **paltarkəsdi toyu** [215] günü toy üçün gərəkli olan ərzaq - **bazarlığın** [31] və bəzi əşyaların oğlangildən **qız evinə** [178] aparılması mərasiminin adı. ◆ Buraya **gəlinlik paltarı** [98] üçün parça, sabun, güzgü, ətriyyat və bu kimi şeylərlə yanaşı, bəzən teşt, məcməyi, xalça, bir dəst yorğan-döşək, samavar və s. də gətirilir. ◆ Onun *"xırdabo"* və *"hırdabo"* deyiliş tərzləri də var. Elə bu yerlərin adətincə, paltarkəsdiyə - *"birinci hırdabo"*, **toyun** [269] başlanmasına isə *"ikinci hırdabo"* deyilir.

**137.**

## XIZIR XONÇASI

◆ Qışın ən şiddətli vaxtında (2-8 fevral günləri arasında) yaz fəslini, yaşıllığı çağırmaq niyyətilə keçirilən *Xızır // Xıdırnəbi* kütləvi xalq bayramı zamanı oğlan evindən nişanlı qıza göndərilən xonçanın adı. Xonçaya qovut, yaşıl və qırmızı rəngə boyanmış yumurta, şirni, halva düzülür, bəzən bir boşqab plov da yerləşdirilir, üstü yaşıl örpək və ya tirməşalla örtülür. ◆ Onun başqa adı *"xıdır xonçası"* və *"xızırpayı"*dır.

**138.**

## XONÇA

*"Toy bəzəyi xonçadır"*
(atalar sözü)

[ *kiçik süfrə "xançə" sözündəndir* ] ◆ Əsas etibarilə toy-nişan tədbirlərində istifadə edilən, içində ayrı-ayrılıqda pal-paltar, zinət əşyaları və yeməli şeylər yerləşən bağlamanın

Azərbaycan Milli Kitabxanası

adı. **Boğçadan** [39] fərqli olaraq, onun əsasını dördbucaq şəkilli qalın parça, yaxud ağacdan yonulmuş tabaq və ya dəyirmi metal, bəzən qızılı məcməyi, sonralar isə naxışlı sini təşkil edir. Şeylər oraya düzüldükdən sonra o, al qırmızı zərli saçaqlı və ya alabəzək ipək parça, yaxud tirməşala bükülür, ancaq örtüklərin dörd bucağı düyünlənməmiş qalıb sap və ya sancaqla bənd edilir. ◆ Çox vaxt başlarda aparılan bu bağlamalar həm tərkibi, həm zahiri görünüşü, həm də kimlərə çatacağına görə bir-birindən fərqlənirlər. ◆ Adətən, xonçaların böyüyünü evin və ya masanın ortasına qoyur, kiçik xonçaları isə, sayından asılı olaraq böyük xonçanın ətrafına, yaxud yanına düzürlər. Qaydaya görə, **toy** [269] şənlikləri zamanı onların üstünə on ikidən artıq olmayan rəngbərəng şamlar düzülür. ◆ Məlum olan ənənəvi yemək və paltar xonçalarının adları bunlardır: *"ağ xonça"*, *"bayram xonçası"*, *"bəy xonçası"*, *"bəzək xonçası"*, *"çərşənbə xonçası"*, *"gəlin xonçası"*, *"qənd xonçası"*, *"xızır xonçası"*, *"xınayaxdı xonçası"*, *"xuşkəbər xonçası"*, *" nişan xonçası"*, *"novbahar xonçası"*, *"nübar xonçası"*, *"sərpayı xonçası"*, *"şirinxonça // şirniqabağı xonça // şirni xonçası"*, *"toy xonçası"*, *"üzük xonçası"*, *"yeddilövün xonçası"*, *"yengə xonçası"* və s. ◆ Borçalıda bu bağlamaya *"xon"*, Qazaxda isə *"bağlanc"* deyirlər.

## XONÇAƏVƏZİ

◆ Vaxtilə Qubada **oğlan evində** [208] keçirilən **xonçaqayıtdı** [135] məclisindən bir az sonra oğlan tərəfin qızgilin xonçalarında **nişanlı** [205] qıza göndərdiyi hədiyyənin adı. ◆ Oğlangilə **qız evindən** [178] gətirilmiş dörd sinidən birinə bir nimçə plov, o birilərə isə yorğan-döşək və balışüzüdən ötrü alınmış parçalar düzüb xonça tuturlar. Bunları **qız evinə** [178] bir qadın və iki 10-12 yaşlı uşaq aparır. Qız evində həmin qadına şirin çay, **xələt** [132], uşaqlara isə **nəmərpulu** [201] verib yola salırlar.

## XONÇAQAYITDI

◆ Yurdumuzun Quba bölgəsində **qız** [178] atası evində icra olunan böyük kişi elçiliyi **sözkəsdidən** [240] sonra, **elçilərin** [81] gətirdiyi xonçalara qız tərəfin pay qoyub oğlangilə qaytarması və **oğlan evində** [208] bununla bağlı çağırılan kiçik **qabqaytarma** [158] məclisinin adı. ◆ Qız evində iki, yaxud dörd **şirniqabağı xonça** [259] tutub qızın doğma xalasını bir oğlan uşağı ilə birlikdə oğlangilə yollayırlar. Burada gələnlərə gülab verib şirin çay süzürlər, onların qabağına köynək, yaylıq və ya bir örpəkdən ibarət xələt qoyurlar. Qızın xalası çayı içib xələti götürərək *"mübarək olsun, ayağı düşərli olsun, cəmi subaylarınızdan görəsiniz"* və s. deyib qız evinə qayıdır. Qız evindən göndərilmiş hədiyyələr **adaxlı** [1] oğlanın ən yaxın adamları arasında bölüşdürülür. Xonçadakı **güllü çörəklər** [107] isə sandığa qoyulub **gərdək gecəsi** [100] üçün saxlanılır. ◆ Məclisin başqa adı *"xonçaqaytarma"* və *"şirniəvəzi"*dir. Abşeronda isə bu məclisə *"vəzöurd"* deyilir. Onun *"xonçaqeyitdi // xonçaqeytərmə"* deyiliş şəkli də mövcuddur.

## XONÇA TOYU

◆ Lənkəran və Masallı bölgələrində çaldırılan **gəlingətirdi toyu** [98] günü gündüz çağı, məhəllə qadınları və qızların başlarında xonça **oğlan evinə** [208] yığışması. ◆ İri məcməyilərə düyü töküb üzərinə bir neçə qırmızı yumurta, yaxud alma və qənd düz-

Azərbaycan Milli Kitabxanası

dükdən sonra, onları saçaqlı qırmızı parça ilə örtür və dəstələrlə, oxuya-oxuya, oynaya-oynaya **toy** [269] vurulan evin həyətinə daxil olurlar. Bu zaman eyvanda əyləşmiş **bəy oğlan** [36] xonçaları qəbul edib qadınlara öz razılığını bildirir. Gətirilmiş düyü axşam bişirilir, qənd toy məclislərində işlənir, yumurta və qırmızı almalar kiçik uşaqlara paylanır.

*"Xonçaya düzdük noğulu, badamı"*
(toy oxumasından)

## XONÇATUTDU

◆ Vaxtilə toy-nişan tədbirlərində bu və ya digər münasibətlə, bir qayda olaraq, hər iki evdə - ilk öncə **nişanlı** qız [205] və **adaxlı** [1] oğlan, ardınca **nikaha** [203] girmək, evlənmək fikrində olan bəy oğlan və gəlin qız üçün ayrılmış **xələt** [132], hədiyyə və şirniyyatı məcməyi və sinilərə düzmək, onları qırmızı və ya alabəzək ipək zərli-saçaqlı parçalara büküb bəzəmək işinin adı. ◆ Ona *"xonçatutdurma"* da deyilir.

**139.**

*"Gəlin, xoş gəldin, xoş gəldin"*
(toy oxumasından)

## XOŞGƏLDİN

◆ Bir para yerlərin adətincə, **toyun** [269] sabahı günü **təzəgəlinin** [267] yeni mənzilində həm qız, həm oğlan evi cavan qadın və **ərgən** [89] qızlarının keçirdiyi məclisin adı. Burada *"vüsala yetmiş"* gəlin bir almanı dilimləyib onu **subay** [241] rəfiqələrinə: *"sizin də başınıza gəlsin, sizin də bəxtiniz mənimki tək açılsın"* - deyərək paylayır. ◆ Bu məclisə Şəkidə - *"duvax"*, Naxçıvanda - *"boygörmə // boygörümcəyi"*, başqa yerlərdə isə *"qızyığdı"*, *"bəyügörmə"* və *"gəlingörmə"* deyirlər.

**140.**

## İÇGÜVEY

[ *"içəri salınmış kürəkən" mənasındadır* ] ◆ Gürcüstanda yaşayan soydaşlarımızda **toy** [269] mərasimindən bir müddət sonra, **qayınata** [178] evinə köçüb burada həmişəlik məskunlaşan **kürəkənə** [153] verilən ad. ◆ Digər bölgələrdə bu cür kürəkənləri, bir qayda kimi, *"xanədamad"*, *"damadgirmə"* adlandırırlar.

**141.**

*"Toyunda xəlbir ilə su daşıyım"*
(atalar sözü)

## İXTİLAT TOYU (IX)

[ *buradakı "ixtilat" sözü həm qarışmaq, qatılma, həm görüşüb isnişmək anlamındadır* ] ◆ Vaxtilə üç gün, üç gecə davam edən **oğlan toyunun** [208] birinci günü (uzaq keçmişdə gəlin ər evinə bu gün gətirilərdi), sonralar **gəlingətirdi toyundan** [98] bir gün əvvəl oğlan evində çağırılan toy məclisinin adı. ◆ Məclis günorta vaxtı, dəvət olunmuş zurnaçılar dəstəsinin müşayiətilə bir neçə yaxın qohum-qonşunun yığıldığı **heyvankəsdi** [115] mərasimi ilə başlayır. ◆ Həyətin bir tərəfində cavanlar milli oyunlar nümayiş etdirib, güc-qüvvələrini sınamaq üçün güləşirlər... ◆ Bələdçinin *"qırmızı"* bölməsində [səh.171] milli toy ənənəmizin **ixtilat toyu** [IX] mərhələsi haqqında daha ətraflı yazılır.

Azərbaycan Milli Kitabxanası

142.

## İZDİVAC

◆ Əski ədəbiyyatımızda təsadüf olunub, bir qayda olaraq, bir oğlanla bir qızın ailə qurmasının rəsmi şəkilə salınmasını bildirən **nikah** [203], **kəbinkəsdi** [143], **evlənmə** [84] və **ərəgetmə** [89] anlamları qarşılığında işlənən deyimlərdən biridir. *"İzdivac mərasimi"* və *"izdivacetmə"* ifadələri isə vaxtilə *"toy şənliyi, düyün"* kimi başa düşülürdü.

143.

## KƏBİN

[ *əslində "kabin", yəni cehiz, başlıq sözündəndir* ] ◆ Ötən zamanların adətinə görə, oğlan evinin qızgilə vəd etdiyi nikahpulu - **başlığın** [29] əski adlarından biri. ◆ Bəzi yerlərdə ona *"kəbinpulu"* da deyirlər. Həmçinin, **evlənmənin** [84], **nikahın** [203] qanuni şəkilə salınması işi də bu adı daşıyır.

## KƏBİN KAĞIZI

◆ **Nikah** [203] şərtləri qeyd olunan yazılı sənəd, yaxud **evlənmə** [84], **izdivac** [142] haqqında şəhadətnamənin başqa adı. **Gəlinapardı toyunda** [98] qız evi bu sənədi almayınca **gəlini** [98] aparmaqa icazə vermir. ◆ Onun *"nikah kağızı"* adı da var. Əski qaynaqlarda bu sənədin *"əqdnamə // əqd qəbaləsi"* adlarına da rast gəlinir.

*"Kəbinləri göydə kəsilib"*
(atalar sözü)

## KƏBİNKƏSDİ

◆ Bəzi yerlərdə nişanlama mərasimi zamanı, digər yerlərdə **paltarkəsdi toyundan** [215] sonra, çox vaxt isə elə toy günü oğlanla qızın, necə deyərlər, *"ulduzunu birləşdirmək"*, onların **evlənməsinin** [84] rəsmi şəkilə salınması mərasimi. ◆ Bir zamanlar bu mərasim molla yanında, yaxud qızın dədəsi evində keçirilərək oraya bir, bəzən isə iki molla - biri oğlan, biri qız tərəfdən, dəvət edilərdi. ◆ Kəbini hər molla kəsə bilməz. Bu, şəriətdən başı çıxan ruhani olmalıdır. Mərasimdə, bir qayda olaraq, oğlan və qız evindən gəlmiş iki **vəkil** [285] oğlan ilə qızın kəbinə razı olduqlarını molla yanında bildirib şərtlərini irəli sürürdülər. Adətən, burada qızın vəkili oğlan evindən 81, 201, 259, 501, 1001 və s. qızıl məbləğində **kəbinpulu** [143] istəyirdi. Uzun çək-çevirdən sonra tərəflər müəyyən məbləğə razılaşır, molla da şəriətin bütün qaydalarına əməl etməklə, *"fatihə-xeyir"* kəbin duasını oxuyub nikahı kəsirdi. ◆ Mərasim qız evində keçirildikdə, buraya oğlangildən bir neçə mötəbər kişi gəlir. Onlar üçün xüsusi **kəbin süfrəsi** [143] açırlar. Başqa bir otaqda nişanlı qızı üzü qibləyə **gəlinlik taxtına** [98] oturdurlar, yerdəki ağ süfrənin yuxarıbaşına qızın **bəxt güzgüsünü** [34], onun hər böyrünə isə bir şamdan qoyub, bəy və gəlinin adına iki şam yandırırlar. Güzgü qarşısına bir ovuc buğda səpir, iynə sancılmış bir tirməşal üstünə süzənə dəsmalı çəkirlər. ◆ Kişi məclisində çay içildikdən sonra **qudalar** [182] qonaqlar arasından iki *"vəkil"* seçir və ya başqa otaqdakı nişanlı qızın yanına adam göndərərək, onun özündən kimi vəkil seçdiyini öyrənirlər. Ardınca vəkillər həmin otağın qapısı ağzında dayanaraq, üç dəfə qızdan *"filankəsə"* ərə getməyə razı olub-olmamasını soruşurlar.

Azərbaycan Milli Kitabxanası

Qız qapı arxasından *"razıyam"* deyir və hər iki vəkil yenə kişilərin məclisinə qayıdaraq, nişanlı qızın razı olduğunu bildirirlər. ◆ Qız razı olmazsa, məcburi ərə verilərsə, **kəbin** [143] pozulmuş sayılır. ◆ Burada oğlan evilə qız adamları arasında *"kəbinpulu"* ətrafında ənənəvi son danışıqlar aparılır. Tərəflər son razılığa gəldikdən sonra molla kəbini kəsir. Vəkillər: *"mübarək olsun, Allah xeyrə calasın"* - deyərək, kəbin kağızına qol atırlar. Oğlanın vəkili bu kağızı adaxlı oğlana aparıb ona da qol çəkdirir (onun qolu burada olmasa, toy günü qız evi gəlini vermir). Bundan sonra məclisdəkilərə oğlangildən gətirilmiş şərbət (onu bəzən *"nikah suyu"* adlandırırlar), yaxud şirin çay verirlər. ◆ Bəzi yerlərin adətinə görə, məclisə vəkil əvəzinə evlənən oğlanın özü gətirilir. Belə olduqda, molla üç dəfə qıza, yaxud onun vəkilinə verdiyi: *"filankəs oğlu filankəsi, ərliyə qəbul edirsənmi?"* - sualını adaxlı oğlana da verir (oğlandan qız haqda soruşur) və onun razılığını aldıqdan sonra nikahı kəsir. ◆ Kəbin duası oxunan zaman o biri otaqda bir qadın taxtda əyləşmiş nişanlı qızın başı üstə iki kəlləqəndi bir-birinə sürtür - ovuntular qızın paltarına tökülür. Bəzən bu vaxt oğlan adamlarından biri kağız vərəqini qayçı ilə kəsib doğrayır, bununla guya o, *"havada uçub dolaşan bədxah ruhları"* tikə-tikə parçalayır. Sonra bu kağız tikələrini yandıraraq, evlənənləri onun tüstüsünə tuturlar. ◆ Adət-ənənəyə görə, nikah kəsilən zaman gəlin qız hökmən **bəxt güzgüsünə** [34] baxmalı və bu vaxt onun paltarında bir dənə də olsa düyün olmamalıdır. Hətta onun belindəki kəməri belə açıq qalmalıdır. Bu da qızın gələcək həyatında heç bir işin düyünə düşməməsi arzusuna arxalanır. ◆ Ötən çağlarda bəzi yerlərin qaydasınca, kəbin kağızını tərtib etməkdən əvvəl molla hər iki cavandan yeddi arxasının adlarını soruşur, bunu bilməyənlərə kəbin kəsmirdi. ◆ El-obamızın digər əski adətinə görə, kəbin kəsilən zaman hamının barmaqları açıq, qolları yanında olmalıdır. İnanırdılar ki, bu vaxt kiminsə barmaqları və qolları çarpazlanmış olsa, toy gecəsi bəy oğlan *"bağlanıb hərəkətdən düşə bilər"*. Həmçinin əmindilər ki, kəbin duası oxunan zaman digər adam bu duanı tərsinə oxusa, bəy və gəlinə ziyan vurub nikahı poza bilər və s. Odur ki, cadu və ovsunun qorxusundan bəzən bu mərasim toy ərəfəsində və ya toy günü deyil, ara sakit olanda bir-iki yaxın qohum-qardaşın iştirakı ilə, bəzi hallarda isə tam məxfi surətdə icra olunurdu, bəy oğlan isə cox vaxt gizlənib burada görsənmirdi. ◆ Mərasimin sonunda oğlan evi şirinlik üçün mollaya ənənəvi *"üç manat pul, bir kəlləqənd"* və s.-dən ibarət xələt verir. Dədə-baba qaydasına görə, bu andan etibarən gəlin qız oğlana məhrəm, onun *"halal malı"* sayılır. ◆ Bəzi yerlərin adətincə, bu mərasimdən sonra oğlan tərəf toy gününə qədər, hər gün qızgilə şirni və meyvə göndərməlidir. ◆ Digər bölgələrin qaydasına görə, qız evi yalnız kəbin kəsildiyi xəbərini aldıqdan sonra gəlin qızı bəzəməyə başlayır. ◆ Hər cəhətdən bir-birinə layiq və uyğun gəlib *"iki can bir qəlbdə"* yaşayan ər-arvada xalq arasında, bir qayda olaraq, *"onların kəbinləri göydə kəsilib"* - deyirlər. Həmçinin, vaxtilə inanmışlar ki, əmioğlu və əmiqızının kəbinini göydəki mələklər kəsir. ◆ Bu mühüm toy mərasiminin digər adları *"kəbinkəsdirmə"*, *"nikahkəsdi // nikahqıyma // nikahoxutma // nikah toyu"*, *"fatihə toyu"* və s.-dir. Əski yazılarda onun *"əqdbəndi // əqdkəsdi // əqdnikah // əqdxanlıq"*, *"kədxudayi"* və *"qəmər"* adlarına rast gəlinir.

## KƏBİNPULU

◆ Gələcəkdə əgər gəlin boşanarsa, sabiq ərinin ona verəcəyi **mehir** [189] haqqının başqa adı. Onun məbləği **kəbinkəsdi** [143] mərasimində müəyyən edilib kəbin kağızında yazılır. ◆ Bu söz həmçinin, nikahkəsmə haqqının adıdır. Qədim adı *"əqdanə"* olsa da, ona bəzən *"kəbinlik // kəbin haqqı"*, *"varaşuet"* (Lahıc, İsmayıllı) də deyilir.



Azərbaycan Milli Kitabxanası

## KƏBİN SÜFRƏSİ

◆ Oğlan və qızın evlənməsinin qanuniləşdirilməsi ilə bağlı **kəbinkəsdi** [143] mərasimində iştirak edənlər üçün açılan süfrənin adı. ◆ Bu süfrəyə, adətən, Quran nüsxəsi, canamaz (möhür və təsbehlə), şərbətlə dolu qədəh, böyük təndir çörəyi, şirniyyat - noğul-nabat, qoz-fındıq və s. düzülür. Bir **xonçada** [138] pendir, göyərti, müxtəlif meyvə, lavaş, təzə kərə yağı, ağ şanalı arı balı, ayrıca bir siniyə isə kiçik manqalda tüstülənən **üzərlik** [281] və içində yaşıl yarpaq üzən bir kasa saf *"bulaq suyu"*, üstəgəl iki **kəlləqənd** [146], halva və bunlardan əlavə, həvəngdə döyülmüş yeddi növ cövhər və ədviyyat qarışığı və s. qoyulur. ◆ **Nikah** [203] bağlanandan sonra kasadakı suyu gəlinin başına tökür, yanan şamları qızın başmaqları ilə söndürürlər. Bu zaman bir qazanda *"yeddi cür ədviyyat"*la birlikdə iki yumurta bişirilir. Biri, **bəy oğlana** [36], biri - **gəlin qıza** [98]. *"Yeddi ədviyyat"* isə evlənənlərə yeddi övlad arzulamaq niyyətilə bağlıdır. ◆ Sonra bir fındığın içini ovub oraya civə tökür və deşiyini mumla tutub qızın cibinə qoyurlar ki, oğlanın ürəyi toy gününə qədər fındıqdakı civə tək gəlinin eşqilə bir an belə titrəməkdən qalmasın. ◆ Bir para yerlərin qaydasına görə, kəbin kəsildikdən sonra cavanların həyatı şirin keçib onların ürəyi bir-birinə məhəbbət odu ilə alışıb yansın deyə, qız ilə oğlana **şərbət** [256] və ya qəndab içirdirlər. ◆ Bundan əlavə, bir qoçun ürəyini iki paralayıb, onu kabab eyləyərək cavanlara yedirdirlər. Süfrədəki üzərliyin tüstüsü şər qüvvələri qovmaqdan ötrü, pendir-çörək, göyərti isə bərəkət timsalı olub cavanlara bollu nemət, firavan həyat arzulamaq niyyətilə bağlıdır. Buradakı su - aydınlıq, təmizlik və paklığın, bal-yağ isə cavanların güzəranının bal kimi şirin, işlərinin yağ təki rahat olmasına işarədir. ◆ Xalq əqidəsincə, kim bu süfrədəki nemətlərdən bir tikə dadsa, heç vaxt dişi ağrımaz.

**144.**

## ● KƏDXUDA

*"Kədxudalıq çörək verməkdi"*
*(atalar sözü)*

◆ Müəyyən tarixi dövrlərdə yurdumuzun cənub torpaqlarında nikah bağlayıb toy çaldıraraq evlənmək, ailə qurmaq istəyində olan *"bəy oğlan"*, **giyov** [102] və **bəy** [36] anlamlarında işlənən sözlərdən biri. ◆ Bu deyim bəzən *"kətxuda"* və *"novkətxuda"* kimi də səslənmişdir.

## KƏDXUDAYİ

◆ Bir zamanlar xalq arasında **evlənmək** [84], **nikah** [203] bağlamaq niyyətilə çaldırılan təntənəli **toy** [269] mərasimi və oğlanla qızın evlənməsinin rəsmiləşdirilməsi ilə bağlı **kəbinkəsdi** [143] mərasiminə verilən adlardan biri. ◆ Ona bəzən **damadi** [56] də deyirmişlər.

**145.**

## ● KƏFRƏM

[ *əslində "mitil" deməkdir* ] ◆ Naxçıvan diyarında, bir qayda kimi, ərə veriləcək nişanlı qıza xüsusi olaraq toy məclisləri üçün oğlan evinin tikdirdiyi və **paltarkəsdi toyuna**

Azərbaycan Milli Kitabxanası

# • VI • NİŞANTAXDI TOYU

**205.**

◆ *Kiçik nişan mərasimi **üzükşal toyu**ndan [282] bir neçə ay sonra, qız ilə oğlan evləri arasında yaxın ünsiyyət bağlamaq və daha sıx qohumluq və mehribanlıq münasibətləri yaratmaq niyyətilə, oğlan tərəfin qız adamları ilə birlikdə keçirdiyi ikinci, yaxud **böyük nişan** [41] mərasimi.* ◆ *Ötən çağlarda yalnız kişilərin qatıldığı bu **xeyir iş**də [129] söz-söhbətdən, yeyib-içdikdən sonra oğlan adamları **nişan üzüyü** [205] ilə qırmızı **şalı** [249] (sonra, gəlinin **ər evi**nə [89] köçürülən günü həmin şaldan **duvaq** [72] kimi istifadə olunacaqdır) üsulluca qızın dayısına ötürürdülər. Yaxud da ki, oğlan evinin ağsaqqalı üzüyü qız tərəfin ağsaqqalına təqdim etməklə mərasim bitmiş hesab olunurdu.* ◆ *Sonralar isə mərasim tədricən kişili-arvadlı tərkibdə və təmtəraqla icra olunmağa başlandı. **Oğlan evi** [208] tədbirin hansı gün keçiriləcəyini və bu mərasimə onlardan nə qədər adamın gedəcəyini (məsələn, 15-20 nəfər) qabaqcadan qız tərəfə xəbər verdikdən sonra, **qız evi** [178] də bu məclisə yaxın qohumlardan eyni sayda adam çağırır. Bəzən bu tədbirdən ötrü qızgildə bir **toyxana** [269] - mağar da qurulur. Oğlan adamları özləriylə buraya xanəndə və çalğıçılar dəstəsi gətirdikdə isə, mərasim **kiçik toy** [150] şənliyi tək dəbdəbə ilə qeyd olunur.* ◆ *Oğlan adamları tədbir günü əvvəlcə oğlangildə yığışırlar ki, gız evinə bir getsinlər. Çağırılan qadın qohumlar, bir qayda olaraq, **nişanlı** [205] qız üçün hədiyyə və ya **xonça** [138] gətirir. Oğlan evinin özündə də bir neçə xonça tutulur və onların kim tərəfindən aparılacağı qabaqcadan müəyyən edilir. Oğlanın əmisi, yaxud dayısı və ya böyük qardaşına qırmızı ipək kəlağayı və ya şal, üstünə daşlı-qaşlı nişan üzüyü, əlvan noğul-nabat və digər şirniyyat düzülmüş **üzük xonçası** [282], xalası və ya bibisinə **bəxt güzgüsü** [34] tapşırılır. Üzərində **kəlləqənd** [146], gülab, qırmızı yumurta və ya qırmızı qızıləhmədi alma düzülmüş digər xonçalar isə o biri qohum qadınlara verilir.* ◆ *Dədə-baba adətincə, hər xonçaya bir neçə əlvan şam qoyulur. Xonça qırmızı zərli-saçaqlı parça və ya məxmərə bükülür. Kəlləqənd və güzgü qırmızı qaytan ilə sarınır. Kəlləqəndin üstünə qız üçün alınmış bircə dəst paltarlıq parça, yaxud hazır bir **nişan paltarı** [205] qoyulur.* ◆ *Bir para yerlərin adətinə görə, qız evinə aparılan hər xonçaya bir kəlləqənd, hər qəndin başına isə bir dəst paltarlıq parça qoyulur. Bəzən isə burada nişan üzüyü ilə yanaşı, qıza sırğa, boyunbağı, qolbağ və bu kimi qızıl zinət əşyaları da aparılır, amma alıb hazırlanmış başqa paltar və parçalar **paltarkəsdi toyu**na [215] saxlanılır.* ◆ *Bəzi hallarda, oğlan tərəf kasıb olduqda, qız evinin razılığı və sonradan qaytarmaq şərtilə, oğlanın yaxın qohumlarından birovuz, kirəyə alınmış zinət əşyalarını da xonça və mücrülərə düzüb qızgilə gətirir və bu bahalı cəvahiratla qız evi adamlarının gözündən pərdə asırlar.* ◆ *Mərasim əsasən gündüz, təqribən saat 3 ilə 6 arasında keçirilir (bəzən isə gecə). Xonçaları, bir qayda olaraq, boyunlarına yaylıq dolamış 11-12 yaşlı yeniyetmə oğlanlar, bəzən isə cavan qız uşaqları başlarında aparırlar. Lap irəlidə əlində bəxt güzgüsü tutaraq oğlanın xalası yeriyir.* ◆ *Qız evinə yaxınlaşdıqda musiqi çalınır, oğlan evi adamları əllərində və ya başlarında xonça darvaza qarşısında və ya birbaşa toyxanada bir qədər oynadıqdan sonra, qız tərəfdən bir neçə kişi: "buyurun,*

Azərbaycan Milli Kitabxanası

*buyurun, xoş gəldiniz, qədəm əziz eylədiniz, Allah xeyir versin, **subay**larınız* [241] *üçün olsun, əzizlərinizdən görəsiniz" - və s. deyərək, qonaqları evə dəvət edir, qonaqlar isə: "mübarək olsun, Allah xeyirə calasın" - sözlərilə içəri keçirlər.* ◆ *Bir para yerlərin qaydasınca, kişilər və qadınlar ayrı-ayrı otaqlarda, yaxud qadınlar bir qədər aralıda qurulmuş örtülü bir yerdə otururlar.* ◆ *Gətirilmiş xonçalar evin ortasına düzülür, kəlləqəndlər bir tərəfə qoyulur. Qızın bəxt güzgüsünü gətirmiş **oğlan yengəsi*** [208]*, adət üzrə, **xələt*** [132] *almamış əlindəki güzgünü heç kimə vermir.* ◆ *Şəhər yerlərində hamı əyləşdikdən sonra süfrəyə yalnız şirin yeməklər - şərbət, isti şirin çay, şirniyyat və s. düzülür. Kəndlərdə isə yemək-içmək nişan gətirilən yerdən bir az aralıda olur. Hamı yeyib-içdikdən sonra, süfrə yığılır. Nişanlı qızı qadınların olduğu otağa gətirib onu məclisin yuxarı başında oturdaraq, bütün mücrü-xonçaları ətrafına düzüb qarşısına bəxt güzgüsünü qoyur və oradakı şamları yandırırlar.* ◆ *Bəzi yerlərdə bu məqamda qızın qucağına bir oğlan uşağı da oturdurlar.* ◆ *Kişilər yerləşən otaqda isə üzük xonçasını gətirmiş şəxs gəlməklərinin məqsədini açıqladıqdan sonra, ətrafdakılara: "indi icazə verin əvvəlcə üzük xonçasını açaq" - deyir və yerlərdən "buyurun, buyurun" - sözünü eşitdikdə o, "bismillah" - deyərək, xonçanı açır və oradan qaşlı nişan üzüyünü qaldırıb qız evi adamlarına göstərir. Hər tərəfdən: "mübarəkdir, nişanı bəxtli olsun", "Allah nişanına xeyir versin", "xoşbəxt olsunlar, ağ günlərə qovuşsunlar inşallah" - deyə-deyə, hərə növbə ilə üzüyü alıb diqqətlə baxır və sonra onu yanındakına ötürür.* ◆ *"Baxış" qurtardıqdan sonra qadınlar oturan otaqda oğlanın böyük bacısı (bunu oğlanın başqa bir yaxın qadın qohumu da edə bilər) üzüyü qızın sol əlinin adsız barmağına taxıb ona: "nişanında xeyir görəsən, yarıyıb qırmızı duvaq olasan, yarına qovuşasan" - deyərək, xeyir-dua verir. Deyərlər ki, bu vaxt o, qızın başına sığal çəkərsə, gələcəkdə mehribançılıq olar.* ◆ *Sonra o, xonçadakı qırmızı ipək kəlağayını qızın çiyninə, yaxud başına atır və bəxt güzgüsünü öpərək onu qızın üzünə tutur.* ◆ *Ardınca, onları başa qoymaqla ("bunlar sizin də başınıza gəlsin" mənasında) qızgili xonça gətirənlərə **xələt*** [132] *paylayırlar. Oğlan evinin kişilərinə cib dəsmalı, qadınlara isə baş yaylığı, ətir, corab və s. verilir. Hədiyyə almış qadınlar bir az dil-ağız elədikdən sonra xonçalardakı gülabla ətirlənirlər.* ◆ *Bəzi yerlərdə qadınların məclisi daha şən və səsli-küylü keçir, burada oğlan və qızın şəninə mahnılar oxunur, məzəli söhbətlər edilir və s. Bu məclisdə yaxın qohumlardan, təzəcə **toyu*** [269] *olmuş cavan bir gəlini üzə gələn toy üçün qıza **sağdış*** [178] *təyin edirlər.* ◆ *Bu zaman kişi məclisində, bir adət kimi, qızgildən ər evinə daşınacaq avadanlıq - **cehiz*** [42] *barədə danışıqlar aparıldıqdan sonra, toy üçün hər iki evi təmin edəcək bir uğurlu gün seçilir.* ◆ *Bəzi yerlərin adətincə, mərasimin sonunda kişilər otaqlarından çıxıb qadın məclisinə qatılır, qadınları oynadır, onlar da öz növbəsində nişanlı qızı oynadırlar. Bu zaman onun başına **şabaş*** [245] *atılır, qollarına xələt bağlanır, boynuna isə əlvan kəlağayılar sarınır. Sonra hamı bir-birinə: "Allah mübarək eyləsin, ayağı uğurlu olsun, Allah arzu-istəyinə çatdırsın, axtardığı qənşərinə gəlsin, qohumluğumuz qayım-qədim olsun, toylarına gələk, inşallah" - və s. xoş arzular deyərək, evlərinə dağılır.* ◆ *Əski adət-ənənəyə görə, bu mərasimdə nişanlanan oğlan gözə görünməməlidir. Nişan günü qız evində xüsusi olaraq plov bişirib onun üçün göndərirlər (sonralar şəhər yerlərində oğlan da bu mərasimdə iştirak etməyə başladı). Bu gündən etibarən onu hər yerdə artıq "**adaxlı*** [1] *oğlan" adlandırır, qızın ata-anası və qız tərəf üçün o, **giyov*** [102] *və ya **kürəkən*** [153]

sayılır. ◆ Bir neçə gündən sonra qız evi oğlangilin gətirdiyi xonçalara müxtəlif xələt düzüb onları geri göndərir ki, buna da xalq arasında **qabqaytarma** [158] deyirlər. Bunun ardınca hər iki ev **böyük toy** [41] tədbirlərinə, daha doğrusu onların başlanğıcı sayılan **paltarkəsdi toyu**na [215] hazırlaşır. ◆ Xalq arasındakı "nişana qalmayasan", "oğul nişanı görməyəsən" və bu kimi ağır gələn bəddualar əks tərəfdən çox pis qarşılanır. ◆ Bu mərasim ayrı-ayrı yerlərdə müxtəlif adlar, məsələn, "böyük nişan // qaranişan", "nişanapardı // nişanbazlıq // nişanqoydu // nişankərən // nişanlama // nişantaxma" və "xastakarlıq" (Muğan) adları daşıyır.

• VI •

Ardı:
PALTARKƏSDİ TOYU ◆ VII
(135-ci səhifədə)

Azərbaycan Milli Kitabxanası

[215] gətirilib **gəlinapardı toyu** [98] günü **gəlinin cülusu** [98] zamanı ona geydirilən bir dəst dəbdəbəli baş paltar - **gəlinlik paltarına** [98] verilən ad.

**146.**

## KƏLLƏQƏND

◆ Yurdumuzun toy-nişan mərasimlərində oğlan evinin **xonçalarına** [138] yerləşdirilən, biçimcə keçmişdə başa qoyulan *"şişpapağa"* oxşayan konus formalı qənd. ◆ Qız evinə yollanan zaman kəlləqəndin yerləşdiyi xonçanı o biri xonçalardan irəlidə, adət üzrə, dəstə önündə oğlanın kiçik qardaşı aparır. Qızgildə oğlan evi adamları bu qəndləri parça-parça doğrayıb nəlbəkilərə yığır və **şirni** [259] tək qonaqlara paylayırlar. ◆ Toy günü oğlan evində gəlin qız **gərdək pərdəsi** [100] arxasında oturduğu zaman **sağdış-soldış** [225] qızın başı üzərində kəlləqənd tutur. Qənd şirinliyi ilə yanaşı, özünün duru ağ rəngilə saf işığı, ağ günü təmsil edir və inama görə, evlənənlər bu qəndi yalnız ilk övladları olandan sonra parçalayıb yeyə bilərlər. ◆ Əslində şəkər çuğundurundan alınan müasir qənd XVIII əsrin bəhrəsidir. Ondan əvvəl xalqımız şəkər qamışı - *"neyşəkərdən"* hasil olunub ağ sapa düzülmüş bozumtul, yaxud sarı rəngli *"nabat"* parçalarından istifadə etmişdir. ◆ Bəzi yerlərdə onu *"kəlləşəkər // şəkər kəlləsi // qənd kəllə"* də adlandırırlar.

**147.**

## KƏMƏR

*"Ələskər qurbandı belə gəlinə,*
*Sona kimi cumub eşqin gölünə.*
*Gümüş kəmər xub yaraşır belinə,*
*Yaxası qızıldan düyməlenibdi..."*
(Aşıq Ələskər)

[*"belbağı, qayış" mənasındadır*] ◆ Vaxtilə **gəlinlik paltarında** [98] mühüm əhəmiyyət kəsb edib, ərə verilən gəlin qıza ata-anası tərəfindən **cehiz** [42] əşyalarından biri tək bağışlanan belbağının adı. Onsuz qız köçürmək, bir adət olaraq, qeyrətsizlik hesab olunurdu. Onu qızın belinə, qayda üzrə, dədəsi taxırdı. ◆ Sonralar bir para yerlərin adətənənəsinə görə, böyük **nişantaxdı toyu** [205] mərasimində **oğlan evinin** [208] qız üçün apardığı və **gəlinapardı toyu** [98] günü gəlin qızın belinə taxılan *"belbağı"* da bu adı daşıdı. ◆ Uzun dəri qayış və ya qırmızı məxmər zolağın üzərinə tikilmiş üç sıra gümüş və ya qızıl pullardan ibarət olan bu belbağının (ona xalq arasında *"sikkəkəmər"* və ya *"kəsmə kəmər"* deyilir) aşağı sırasındakı pullarına bəzən qısa və nazik qarmaqlardan gümüş *"abbasılıq"*, yaxud xırda qəpik-quruş asılır ki, qadın yeridikdə və ya rəqs etdikdə cingildəsinlər. Bu növ belbağının özünəməxsus biçimli toqqası da olur. ◆ Varlı ailələrdə isə o, zərgərlər tərəfindən büsbütün qızıl və ya gümüşdən hazırlanaraq *"girvənkə toqqa"* (Abşeron) və ya *"suvalaq toqqa"* adlanırdı. Bu cür belbağılar yalnız **ərli** [89] qadınlara məxsus olub onların ailə vəziyyətini əks etdirən əlamət olmuşdur, subay qızlar onu əsla taxa bilməzdilər. ◆ Xalqımızın əqidəsincə, bu xüsusi məna kəsb edən belbağı qeyri-adi gizli qüvvə, sehr-ovsunla bağlı olub hər qadının ana bətnini bədxah qüvvələrdən hifz edən rəmzi bir vasitə, etibarlı bir sipər olmuşdur. Onun üzərindəki metal əşyalar və onların cingiltisi, inama görə, cin-şəyatin və s. şər ruhları qorxuya salıb qadından uzaqlaşdırırmış. ◆ **Bəydurma** [36] mərasimində bəy oğlanın arxalıq üstündən taxdığı belbağı da belə adlanır. O, qadın belbağısından fərqli olaraq, üzəri metal əşyalarla bəzənmiş ensiz və uzun dəri zolağdan ibarət olub, adətən *"çillik toqqa"* adlanırdı. Bu belbağıdan, adətən, xüsusi dəridən və ya parçadan

Azərbaycan Milli Kitabxanası

tikilmiş tütün və qov-çaxmaqdaşı kisələri, pul torbası, xəncər-bıçaq və s. asılırdı. ◆ Keçmişdə varlı ailələrdə bəy oğlan belinə gümüş *"təkbənd"* (bir vaxtlar təkbənd bağlamayan kişini saymazdılar) ilə yanaşı, ipək və keçə qurşaq sarıyır, kasıblar isə adi qayışla kifayətlənirdilər. Bəzən isə bu qayışı bir parça qurşaq əvəz edirdi.

## KƏMƏRTAXDI

*"Gəlinə bax, gəlinə, kəmər taxıb belinə"*
(toy oxumasından)

◆ Erkən çağlar rəmzi məna kəsb edib sonralar **gəlinbəzəmə** [98] və ya **gəlinlik cülusu** [98] zamanı icra olunan qədim mənşəli bir ayinin adı. Burada **nişanlı** [203] qızın belinə taxılan kəmər və ya *"təkbənd"* ər evinə köçürülən qızın subaylığı tərk edib artıq *"ərli-kəbinli qadınlar"* cərgəsinə keçməsini bildirən bir əlamət olurdu. ◆ Evlənən oğlan üçün də kəmərtaxdı olur. **Bəylik hamamında** və ya **bəydurma** [36] mərasimi zamanı çoxlu oğul-nəvə sahibi olan bir kişi qohumu, yaxud məhəllə ağsaqqalı adaxlı oğlanın belinə qurşaq və ya qayış, kəmər və ya toqqa taxıb qabağından üç yaylıq asır. Bu da əski odsevərlik əyyamı ilə bağlı olub, vaxtilə cavan qız və oğlanların belinə yetginlik və müstəqillik timsalı tək sarınan qotazlı, ağ yundan toxunmuş *"kusti"* qurşağının xələfidir. ◆ Hər iki halda məqsəd eynidir. ◆ Bu ayin çox vaxt **belbağlama** [32] ayini ilə eyniləşdirilir, halbuki onlar mahiyyət etibarilə başqa-başqa niyyətlər güdürlər. ◆ Bəzi yerlərdə bu ayin *"qurşaq bağlama // qurşağlama"*, *"kəmərbağlama // kəmərbənd // kəmərləmə"*, *"toqqataxdı // toqqalama"* adları daşıyır.

148.

## KƏSİ-BİÇİ

◆ Goranboy bölgəsində böyük kişi elçiliyi **hərialdı** [119] zamanı qız tərəfin **nikaha** [203] rəsmi razılığı alındıqdan bir həftə sonra, oğlangilin təkrarən qız evinə yollanıb burada qız tərəflə məsləhətləşməsi. ◆ Bu məclisdə **nişana** [205] hazırlıqdan danışılır, onun günü müəyyən edilir və qaydaya görə, oğlan tərəf böyük nişan mərasiminin xərcini öz üzərinə götürür. ◆ Oğlan evi **böyük toya** [41] artıq hazır olduqda, bu toyun nə vaxt və necə keçirilməsi ilə bağlı *"ikinci məsləhətləşmə"* də bu adı daşıyır. ◆ Əslinə qalarsa, bu məclis Lənkərandakı **ağsaqqal toyunun** [3] eynidir. Bir para yerlərdə isə bu adı **paltarkəsdi toyu** [215] daşıyır.

## KƏSİMKƏSMƏ

◆ Gürcüstanda yaşayan soydaşlarımız arasında böyük nişan mərasimindən sonra toy şərtlərini kəsmək və toy-düyün gününü müəyyən etmək məqsədilə qız evində çağırılan məsləhət məclisi. Burada süfrə açılır və **toy** [269] ilə bağlı məsələlər müzakirə edilərək həll olunur. ◆ Cəlilabad bölgəsində isə ona *"kəsmətkəsdi"* deyirlər.

149.

## KƏSMƏT

[*"kəsəmət" sözündəndir*] ◆ Yardımlı bölgəsində oğlan tərəfin toydan bir neçə gün əvvəl



Azərbaycan Milli Kitabxanası

nişanlı qızgilə göndərdiyi toyda sərf ediləcək **toyxərci** [269] və ya ərzaq - **bazarlığın** [31] adı. Gədəbəy, Kəlbəcər və Naxçıvanda bu ərzaqı *"ağamat // ağamət"* adlandırırlar.

150.

## KİÇİK DÜYÜN // KİÇİK TOY

◆ Uzaq keçmişdə yurdumuzda oğlan evi adamlarının qız adamları ilə birlikdə musiqinin müşayiəti ilə keçirdiyi **nişantaxdı toyu** [205] böyük nişan mərasiminə verilən adlardan biri. ◆ IX-XI yüzillərdə yazıya alınmış "Kitabi Dədə Qorqud" dastanlarında da bu ada tez-tez rast gəlinir.

## KİÇİK ELÇİLİK

◆ Bəzi yerlərdə **ağızbildi** [5] və **sözaldı** [240] qeyri-rəsmi arvad elçiliklərindən sonra, qız evində keçirilən **hə-yox** [121] birinci kişi elçiliyinə verilən ad. Tədbir qeyri-rəsmi sayıldığından, burada, adətən, qəti razılıq əldə edilmir. Buna **hərialdı** [119] böyük kişi elçiliyində nail olunur. ◆ Dilimizdə daha çox *"kiçik kişi elçiliyi"* kimi işlənir.

## KİÇİK MƏSLƏHƏT

◆ Bir adət olaraq, Şəki bölgəsində, toydan üç-dörd gün əvvəl, axşamçağı toy şənliklərinə hazırlıq niyyətilə həm **oğlan** [208], həm **qız** [178] evlərində çağırılan məclisin adı. Burada kimin **toy** [269] günü məclisi çay ilə, kimin yemək ilə təmin edəcəyi kimi vəzifələr müəyyən edilir və ayrı-ayrı qohumlara bir para tapşırıqlar verildikdən sonra süfrə açılır. Toy axşamı ikinci - **böyük məsləhət** [41] çağırıldığı üçün bu məclisə çox vaxt *"birinci məsləhət"* də deyirlər.

## KİÇİK NİŞAN

◆ Böyük rəsmi kişi elçiliyi **hərialdı**dan [119] sonra qızgildə **oğlan və qız evi** [208], [178] qadınlarının iştirakı ilə keçirilən **üzükşal toyu** [282] mərasiminin başqa adı. ◆ Ona bəzən *"birinci nişan"* da deyilir. Bir para yerlərdə isə onu *"bəlgə"*, *"gəlmə"* (Salyan), *"bəlyə"* (Ağstafa) və *"xatircəmlik"* (Muğan) də adlandırırlar.

## KİÇİK YANÇI

◆ Şəkidə çaldırılan toy məclislərində bəy oğlanı addımbaşı müşayiət edib şənliklərdə, bir qayda olaraq, onun sol tərəfində əyləşən subay **oğlan soldışının** [208] adı. ◆ Burada onlar bir neçə cavan olub bəyin *"yavəri"*, qoruyucusu vəzifəsini yerinə yetirirlər.

151.

*"Kişini cavan saxlar,*
*yaxşı arvad, yaxşı at!"*
(atalar sözü)

## KİŞİ

◆ Bəzi bölgələrin dilində, qadının və ya gəlinin rəsmi **kəbin** [143] ilə təsdiqlənmiş qa-



Azərbaycan Milli Kitabxanası

nuni ərinə verilən ad. Bu yerlərdə, bir qayda olaraq, səslənən *"filan xanımın kişisi"* və buna bənzər ifadələr bu və ya digər qadının kəbinli əri, *"sahibi"* tək başa düşülür.

## KİŞİ ELÇİLİYİ

◆ Qız evinə **elçi** [81] gedib, orada oğlan tərəfin qohumlaşmaq təklifini *"kişi sözü"* məsuliyyəti ilə səsləndirib, qız tərəfin *"kişi cavabını"* almaq üçün keçirilən iki - birinci kiçik və ikinci böyük - elçiliyin ümumi adı. Kişi elçiliyi mərasimlərinin mərkəzində iki tərəfin (oğlan və qız tərəflərin) kişiləri arasında gedən danışıqlar durur. ◆ Qeyri-rəsmi sayılan birinci kişi elçiliyi **hə-yox**da [121] qız tərəfin nikaha razılığı müəyyən olunmadıqda, bundan bir az sonra keçirilən və rəsmi sayılan ikinci böyük **hərialdı** [119] elçiliyində, qayda üzrə, buna nail olunur.

## KİŞİ TOYU

◆ Bir para yerlərdə oğlan evində üç gün, üç gecə kişilərin iştirakı ilə çaldırılan **oğlan toyu** [208] şənliklərinə verilən ümumi ad. ◆ Başqa yerlərdə və uzaq keçmişdə bu şənliklərə *"ağır düyün // ağır toy"*, *"böyük düyün // böyük toy"*, *"ulu toy"* deyərdilər.

**152.**

## ● KULİKİŞMİŞ

[ *"qaraçı kişmişi" deməkdir* ] ◆ Ötənlərdə **toya** [269] bir gün qalmış bədənindəki tüklərdən təmizlənməkdən ötrü **gəlin qızın** [98] istifadə etdiyi xüsusi üzüm növünün adı. Belə ki, qız suda isladılıb əzilmiş quru üzümü bədəninin bir para yerlərinə yaxıb qurutduqdan sonra, onu tüklərlə qarışıq qoparıb çıxarırdı. Bu çox əzablı və dözülməz işi bəzən qız özü edə bilmirdi. Belə olduqda, bir neçə yaxın qadın onun köməyinə gəlirdi: ikisi onun ayaqlarını tutur, digəri qurumuş kişmişi dəridən qoparırdı. Bir sıra yerlərin qaydasınca, bu əməliyyat, adətən, **gəlinlik hamamında** [98] icra olunurdu. ◆ Həmin üzüm *"kişmişqulu"* da adlanırdı.

**153.**

*"Kürəkən - gül əkən"*
(atalar sözü)

## ● KÜRƏKƏN

[ *"oğul, arxa olub yeni nəsil, kürə əkən" anlamındadır* ] ◆ Evlənmək niyyətində olan oğlanın aldığı qızın ata-anasına qohumluq münasibəti. **Giyovun** [102] bir başqa adı. ◆ Bəzi yerlərdə isə ona *"yeznə"* (Abşeron) və *"dadı"* (cənub torpaqlarımız) da deyirlər.

## KÜRƏKƏNKÜSDÜ

◆ Bəzi yerlərin adətincə, **gəlingətirdi toyunun** [98] sabahı təzəbəyin üç gün, bəzən isə daha çox, evindən və təzəgəlindən uzaqlaşıb, bir qayda olaraq, **sağdış-soldışı** [225] ilə xəlvət yerlərdə - dağ-daşda, bağ-bostanda gəzib dolaşması, bir gün sağdışın, bir gün soldışın evində yeyib-içməklə vaxt keçirməsinin adı.

Azərbaycan Milli Kitabxanası

154.

## KÜTBIÇAQ

◆ Oğlan evində üç gün, üç gecə davam edən **oğlan toyu** [208] şənliklərinin birinci mərasimi **ixtilat toyu** [141] günü, günorta çağı, yaxud onun sabahı, **gəlingətirdi toyu** [98] günü səhər vaxtları, zurnaçıların müşayiətilə icra olunan **heyvankəsdi** [115] ayininin başqa adlarından biri. ◆ Bu ayinə bəzən *"korbıçaq"* və *"malkəsdi"* də deyirlər.

155.

## KÜTƏHÜZDÜ

[ *"çörək parçalamaq mənasındadır"* ] ◆ Quba diyarının bir para kəndlərində **hərialdı** [120] böyük rəsmi kişi elçiliyi zamanı qız evində nikaha razılıq əldə edildikdən sonra, oğlan və qız atalarının, yaxud ağsaqqalların biri ilə oğlan atasının əməl etdiyi qədim **çörəkkəsdi** [55] mərasiminə verilən ad. ◆ Onun *"kutahüzmə"* deyiliş tərzi də var.

156.

## KÜTÜM

◆ Yurdumuzun Şəki və Zaqatala bölgələrində qəbul olunmuş əski adət-ənənəyə görə, **oğlan toyu** [208] şənliklərinin ikinci günü - **gəlingətirdi toyu**nda [98] dədəsi evindən təntənə ilə gətirilmiş gəlin qızın təzə mənzildə öz otağına qədəm basdığı zaman, ona verilən su ilə dolu səhəngi üç dəfə qaldırıb yerə qoyması adətinin adı.

157.

## QABAĞALAN

◆ **Gəlinapardı toyuna** [98] xüsusi dəvət olunub gəlin qızın üz-gözünü müvafiq görkəmə salan peşəkar bəzəkçi qadın - **məşşatənin** [192] adlarından biri. ◆ Bu deyim Quba bölgəsi üçün daha səciyyəvidir. Başqa yerdə ona *"üzalan"* və *"yazıcı"* deyirlər.

*"Gəlin çıxdı hasardan, qurtardıq intizardan"*
(atalar sözü)

## QABAQKƏSDİ

◆ Kənd toylarında gəlin qız başqa kəndə və ya şəhərə köçürüldükdə, kənd və ya məhəllə cahıllarının **toy alayının** [269] qarşısını tutma adət-ənənəsinin adı. Oğlan adamları qızı dədəsi evindən götürüb ər evinə tərəf üz tutduqda, darvaza qabağında, doqqazda, yaxud kəndin qurtaracağında, bəzən isə yolun dar, ceyrankeçməz yerində bir dəstə cavan irəli çıxmaqla, fayton atlarının başını, sonralar isə maşının qabağını tutur. Digər hallarda isə, gəlini aparanların qarşısına kəndir-sicim çəkir, yaxud yolu uzun bir tir ilə kəsir və ya yolun ortasına daş qalayıb üstünə duz-çörək qoyurlar (el adətincə, duz-çörəyin üstündən heç vəchlə keçib getmək olmaz). Toy karvanının qabağını açmaq üçün oğlan evi adamlarından **xələt** [132], xərclik və ya bir pəhləvan tələb edir,

Azərbaycan Milli Kitabxanası

bunları almayınca gəlini aparmağa qoymurlar. ◆ Alayın önündə yeriyən oğlan evi ağsaqqalı və ya **gəlinalan** [98] bunu əvvəlcədən bilib, cavanlara və ya cahılbaşıya bir şey, məsələn, xonça, quzu və ya bir qədər pul-nəmər verib onu razı salır. Əvəzində onlar zarafatyana: *"bu başqa məsələ, atan oldu behiştdə, ver pulun, keçi olsun qulun"* - deyir və *"Allah mübarək eyləsin, Allah xeyrə calasın"* - sözlərilə geriyə çəkilib yolu açırlar və qafilə yoluna davam edir. ◆ Bəzən bu *"yolkəsmə"*lər bir neçə yerdə təkrar olunur. ◆ Oğlan adamları alayın qarşısının heç cür alınmamasına, yolu kəsənləri, nəyin bahasına olursa-olsun, razı salmağa çalışırlar, çünki, xalq əqidəsincə, yolun bağlı olması uğursuzluq əlaməti, bədxah qüvvələrin müdaxiləsi və gəlin qızın *"çilləyə düşməsi"* kimi başa düşülür. ◆ Bu ad və adət daha çox Qazax, Cəbrayıl və Naxçıvan bölgələri üçün səciyyəvidir. Burada onun *"qabağıaldı // qabağtutdu // qabağaçıxdı // qabağboğdu"* deyiliş tərzləri də var. Digər yerlərdə bu əski mənşəli el adəti *"qazaqyana"* (Abşeron), *"sicimtutdu"* (Yardımlı), *"doqqazkəsdi"* (Şəki, Quba), *"yolkəsmə"*, *"karvankəsdi"*, *"kəskiyədüşdü"*, *"hasarçəkdi"* və s. adlanır.

**158.**

## ● QABDÜZDÜ

◆ Vaxtilə Abşeronun bəzi kəndlərində toydan 2-3 gün əvvəl və ya elə toy günü **gəlinlik cehizi** [98] yeni mənzilə gətirildikdə, qızgildən gəlmiş üç-dörd qadının oğlan evindəki **gəlin otağını** bəzəyib səhmana salmaları ilə bağlı **cehizdüzdü** [42] adətinə verilən ad. ◆ Burada ona *"ceyizdüzmə"* də deyilir.

## QABQAYTARMA

◆ Abşeron kəndlərində böyük nişan mərasimi **nişantaxdı toyundan** [205] bir müddət sonra, həmçinin İlaxırçərşənbə günü oğlangildə qız evi qadınlarının iştirakı ilə çağırılan **vəzourt** [287] məclisinin başqa adı. ◆ Digər yerlərdə onu *"nişanqabıqaytardı // süfrəqaytardı // xonçaqaytarma"* adlandırırlar.

**159.**

## ● QALIN

[ *"qalan" sözündən olub, oğlana qalan var-dövlət mənasındadır* ] ◆ **Oğlan evinin** [208] gəlin qızın ata-anasına verdiyi **başlığın** [29] digər adı. Orta Asiyada işlənən *"kalım"* deyimi ilə eyni məna daşıyan bu söz ötən əsrin ədəbi mətnlərində *"cehiz"* və *"başlıq"* anlamlarında işlənən kəlmələrdən biri olmuşdur. ◆ Bəzi yerlərdə **düşərlik** [77] mənasında ona *"qalan"* və *"qalınbaşlıq"* da deyirlər.

**160.**

## ● QAMƏT

◆ Quba və Xaçmaz bölgələrimizdə **gəlingətirdi toyu** [98] günü **toyçu** [269] zurnaçıların

Azərbaycan Milli Kitabxanası

oğlan evinin damına, yaxud yaxınlıqdakı hündür bir təpə və ya uca qaya başına qalxaraq, zurna-nağaranı səsləndirib, *"səhər sazı"*, *"günorta sazı"*, *"axşam sazı"* və bu kimi havalar çalmaqla ətraf camaata **toyun** [269] başlamasını xəbər vermək adətinin adı.

161.

## QANGAH

[*"qan tökülən məkan" anlamındadır*] ◆ Əski ədəbiyyatımızda **oğlan evində** [208] toy gecəsi **bəy oğlan** [208] ilə **gəlin qız** [178] üçün ayrılmış **gəlinlik otağı** [98], elə həmin otaqdakı **gərdək** [100] guşəsi və **nikah taxtı** [203] anlamlarında işlənən deyimlərdən biri. ◆ Onu bəzən *"güsurə"* və *"həcləgah"* da adlandırırlar.

162.

*"Qovma bizi qapıdan, əl çəkmərik yaxandan"*
(toy oxumasından)

## QAPIBASDI

◆ Qız evindəki şənliklərin üçüncü günü **gəlinapardı toyunda** [98] gəlin qız **ər evinə** [89] aparılan zaman icra olunan qədim bir adətin adı. Oğlan evi adamları gəlini oturduğu otağdan çıxaranda, qızgildən biri (adətən, qızın qardaşı və ya bir yaxın qohumu, bəzi yerlərdə isə **qız yengəsi** [178] və ya qızın bacısı, yaxud iki rəfiqəsi) otağın qapısını bağlayıb yarızarafat, yarıciddi gəlin qızı aparmaq üçün oğlan evindən **xələt** [132] və ya nəmər-pul tələb edir. Oğlan adamları, bir qayda olaraq, onlara pul və ya hədiyyə - paltarlıq parça və ya baş yaylığı verməklə məsələni həll edirlər. ◆ Uzaq keçmişdə **oğlan evi** [208] adamları gəlinin oturduğu otağa yaxınlaşdıqda, onun möhkəm bağlı olduğunu görür və həqiqətən güclü müqavimətə rast gəlirmişlər. Burada qız evinin yaşlı və cavan qadınları qızı əsla aparmağa qoymur, oğlan adamları ilə əməlli-başlı dava edib savaşırmışlar. Yalnız oğlan evindən çoxlu xələt aldıqdan sonra, onlar “təslim” olurmuşlar. ◆ Sonralar bu adət bir növ zarafatyana güləşməyə, yaxud vuruşa, bəzən isə *"mübarizə"* oyununa çevrildi. Çox vaxt bunu gözləyən oğlan adamları əvvəlcədən qızın qardaşına *"şirinlik"* verib qızı aparmaq üçün icazə alırlar. ◆ Bu adətə bəzi yerlərdə *"qapıbasması // qapıtutdu"* (Qazax,Goranboy) da deyirlər.

## QAPIQAPALI

[*"bağlı qapı" anlamındadır*] ◆ Bəzi yerlərin adətincə, **gəlingətirdi toyunda** [98] gəlin otağının qapısı ağzında icra olunan bir ayinin adı. Qaydaya görə, gəlin yeni mənzilinə girməmişdən əvvəl qapını üç dəfə açıb örtməlidir. Amma bəzi yerlərdə gəlin qapını iki dəfə ayağı ilə vurub açmaq istədikdə, **qız yengəsi** [178] onu yenidən bağlayır. Üçüncü dəfə gəlin qız yenə ayağı ilə qapını açıb içəri girir. ◆ Digər yerlərdə isə, qız və ya onun yengəsi qapını açmaq istədikdə, kimsə onu içəridən yenidən bağlayır. Belə olduqda, gəlin sağ ayaqqabısının ucunu güclü zərbə ilə qapıya vurub otağa daxil olur. Ardınca otağa onun çiyinləri üstündə şam tutan **qız sağdış-soldışı** [178] girir. Bu zaman ətrafdakı qadınlar gəlinə *"mübarək olsun, qapın heç vaxt qıfıl görməsin, bağlı qapılar həmişə üzünə açılsın, inşallah"* və bu kimi xoş arzu-diləklər söyləyirlər. ◆ Sonra qapının astanasına, qızın ayağı altına *"payəndaz"* deyilən ağır bir metal

Azərbaycan Milli Kitabxanası

əşya, məsələn, balta, ərsin, maşa, at nalı və s. atılır. Bu da uzun müddət intizarla gözlənilən əziz bir adamın ilk dəfə evə, otağa qədəm basması münasibətilə el-oba içində icra olunan qədim bir adətdir. Qız həmin əşya üstündən addımlayır, yaxud onu qaldırıb kənara qoyur. ◆ Bu vaxt **oğlan yengəsi** [208] irəli çıxıb qızın dədəsi evindən gətirdiyi dörd ədəd iri mismarı həmin metal əşya ilə qapıya və ya otağın dörd divarına çalır ki, gəlin qız həmişəlik, ömrünün sonuna qədər bu evə mıxlanıb qalsın, onun daimi sahibi olsun. Burada qız evi qadınlarından biri qapını üç dəfə açıb-örtərək: *"biz gəlini gətirdik, mənzilinə ötürdük, gəlin uğurayaqdı, öz ərinə dayaqdı"*- deyir. Bu ayinə *"qapı ağzında // qapı dalında // qapıaçma"*, *"qapalıqapı"*, *"bağlı qapıaçma"* da deyirlər.

**163.**

*"Top qarabirçək oğlanın toyudu"*
(toy oxumasından)

## ● QARABİRÇƏK

◆ **Qız toyu** [178] məclislərində ifa olunan oyunlardan birinin adı. ◆ İki tərəfin iştirakı ilə keçirilən oyunun əvvəlində iki qadın evin ortasında əl-ələ verir, o birilər isə əllərini yuxarı qaldırırlar. Sonra əlində qaval tutmuş daha iki qadın oxuya-oxuya əl-ələ tutanların əlləri altından keçərək biri sağa, biri sola dönürlər. Qaval çalan qadınlardan biri *"Qarabirçək"* mahnısını oxuyur, o birisi isə əl çala-çala ona cavab verir. Birinci tərəf kəndin adlı-sanlı cavanlarının adlarını çəkir, ikinci tərəf onlara uyğun cavablar tapır. Adı çəkilən cavanlar həqiqətən qabil, əliaçıq və xeyirxah insanlardırsa, ikinci tərəf onları müsbət qiymətləndirir. Yox əgər onlar xoşagəlməzdirsə, *"heç nə verməz, heç nə kəsməz"* deyib etiraz edirlər və s.

## QARAHARAVA

[ *"qara araba", yəni böyük və ya xüsusi araba mənasındadır* ] ◆ Ötən zamanlarda Qazaxda toy alayında, bir qayda olaraq, **ər evinə** [89] köçürülən gəlin qızın əyləşdiyi ikitəkərli araba və ya digər ona bənzər miniyə verilən ad. Gəncə bölgəsində bu arabaya *"taytəkər"*, *"qarasaqqal arabası"*, Şirvan diyarında isə *"tayçarx araba"* deyirlər.

## QARANİŞAN

◆ Bir para bölgələrin dilində, **arvad** [12] və **kişi** [151] elçilikləri, kiçik və böyük **nişan** [205] mərasimlərindən sonra, barmağına **üzük** [282] taxmış **qızın** [178] nişanlısı olan, evlənmək üçün qız ata-anası ilə söz kəsmiş cavan - *"adaxlı oğlan"* anlamında işlənən deyim. Xalq arasında bu, həmçinin *"böyük nişan"* təki başa düşülən sözlərdəndir.

**164.**

*"Gedirəm, gəlsin qardaş, belim bağlasın"*
(toy oxumasından)

## ● QARDAŞBAĞI

◆ Bəzi yerlərin adətinə görə, qız evindəki toy şənliklərinin üçüncü günü **gəlinapardı toyunda** [98] gəlin qız üzərində icra olunan qədim **belbağlama** [32] ayini zamanı gəlinin doğma qardaşı tərəfindən belinə sarınan qırmızı xara, kəlağayı, yaylıq, qurşaq və s. belbağının adı. ◆ Başqa bölgələrimizdə ona *"ailə bağı"*, *"soybağı"* da deyirlər.

Azərbaycan Milli Kitabxanası

## QARDAŞ XINASI

*"Səni görüm qardaş xınası yaxasan"*
(el xeyir-duası)

◆ Qızgildəki toy şənliklərinin ikinci günü, **xınayaxdı toyu** [135] üçün oğlan evindən gətirilmiş **gəlin xınasına** [98] verilən adlardan biri. Bu isladılıb xəmir halına salınmış xına bəy oğlanın böyük bacısı (o, bir adət olaraq həm də **oğlan yengəsi** [208] olur) tərəfindən qızgilə gətirildiyinə görə bu adı daşıyır. ◆ Onun başqa adı *"toyluq xına"*dır.

## QARDAŞLIQ

*"Qardaşlıq zər deməkdi"*
(atalar sözü)

◆ Yurdumuzun Qazax, Ağstafa, Tovuz, Qubadlı, Zəngilan və Şəmkir bölgələrində **oğlan sağdışı** [208], yaxud **oğlan soldışının** [208] daşıdığı ad. ◆ Aralarında heç bir qan qohumluğu olmasa da, bəy oğlanın ən yaxın və səmimi dostu kimi doğma qardaşını əvəz edən bu şəxs, toy tədbirlərində ona əsas dayaq olub xeyir işinin xərci, təşkili və zəhmətini oğlanın ailəsi ilə birlikdə öz üzərinə götürür. Sağdış-soldış yalnız toy günləri bəy oğlanın *"yoldaşı"* olduğu halda, onların bu *"qardaşlaşma"*sı, iki kişinin əhdi kimi ömür boyu davam edir, onların ailələri arasında əsl qohumluq əlaqələri yaranır. Həmin şəxs *"evli sağdış"* olduqda, toy günü bəyin şərəfinə **oğlan şaxı** [208] qaldırır və bəyin doğma qardaşı əvəzinə gəlin qızın belini bağlayır. Əgər o, *"subay soldış"* olarsa, sonralar evlənmək istədikdə, **bəy** [36] eyni fəallıq və can-başla ona əl tutub köməklik göstərir. ◆ Bu deyimin *"qardaşdıq // qardaşdıx"* deyiliş tərzləri də var.

**165.**

## ● QAŞIQDAĞITMA

◆ Vaxtilə yurdumuzun bəzi bölgələrində toya bir-iki həftə qalmış **toy dəvətçisi** [269] tərəfindən toya çağırılan adamlara dəvətnamə əvəzinə adi taxta qaşıq, sonralar isə qənd, sabun və bu kimi xırda əşya və yeməli şeylərin paylanması işinə verilən ad.

**166.**

## QATQI

◆ Bir para yerlərin ağzında, **toy** [269] məclislərinə dəvət olunanların toy günü günortaya qədər, adət üzrə, oğlan və ya qız evlərinə göndərdikləri qoyun, inək və at kimi hədiyyələr və bunlara bənzər digər **xələtlərin** [132] adı. ◆ Başqa yerlərdə bunları *"**dürü**"* [76], *"**evlənməlik**"* [84], *"**toypayı**"* [269] da adlandırırlar.

**167.**

## ● QAYÇIKƏSMƏZ

◆ Ayrı-ayrı bölgələrimizin adətincə, oğlan və qız tərəfi qadınlarının **qız evində** [178] keçirdikləri **paltarkəsdi toyunda** [215] **gəlin qızın** [98] **toyluq libasını** [269] kəsib-biçən dərziyə verilən **xələtin** [132] və ya **nəmərin** [201] adı. ◆ Onu bəzən *"qayçıpayı //qayçıhaqqı // qayçıkəsməz xələti"* də adlandırırlar.

Azərbaycan Milli Kitabxanası

**168.**

"Sənə süd verən anan, olsun mənə qaynana"
(toy oxumasından)

## QAYINANA

◆ Əski zamanlardan bəri yurdumuzda, bir qayda olaraq, **elçilik** [81], **nişan** [205] və **toy** [269] tədbirləri nəticəsində həm evlənən oğlan, həm ərə verilən qızın qohumlaşmış analarına verilən ad. ◆ Onun *"qaynana // qeynana"* (Abşeron), *"qeynənə // qeyinna"* (Şəki) və *"qəyinnənə"* deyiliş şəkilləri də var.

"Ərə gedən qızlara dil altında qənd gərək,
Qayınanalı gəlinə dil altında fənd gərək!"
(atalar sözü)

## QAYINANA-GƏLİN

◆ Vaxtilə **qız toyu** [178] məclislərində, adətən, gəlin qızın subay rəfiqələri tərəfindən ifa edilən, cavan *"Gəlin"*lə yaşlı *"Qayınana"*nın deyişmələrindən ibarət olan bir məzəli oyunun adı. ◆ Onu *"gəlin ilə qayınananın deyişməsi"* adı altında da tanıyırlar.

"Qayınatam sərv ağacı, qapıda bitər"
(toy oxumasından)

## QAYINATA

◆ Xalqımızın adət-ənənəsinə görə, nikah bağlama və evlənmənin nəticəsi kimi, qız və oğlan evləri arasında yaranmış yeni qohumluq əlaqələrindən sonra bəy oğlan və gəlin qız atalarının daşıdığı ad. ◆ Abşeronda ona *"qaynata // qeynata"*, Gürcüstanda yaşayan soydaşlarımız arasında *"qəyinbaba"*, Şəkidə isə *"qəynətə"* deyirlər.

## QAYINLIQ

◆ Yurdumuzun bəzi yerlərinin dilində, toy-nişan tədbirlərindən sonra ortaya çıxmış qohumluq münasibətləri - **qudalıq** [182] anlamında işlənən bir deyim. ◆ Elə həmin yerlərin **nişan**lama [205] mərasimləri zamanı, adətən, oğlangildən qız evinə gətirilən **xonça**lar [138] da bu adı daşıyır.

**169.**

## QAZAĞ

[*"qazağ // gəzək" - ötənlərdə Rusiya-İran sərhədlərini qorumuş könüllü rus əsgərinin "kazak" adlanması mənşəcə bu türk sözü ilə bağlıdır*] ◆ Muğan ərazisində çaldırılan toy şənlikləri və **oğlan qonaqlığında** [208] bəy oğlana və onun başına toplaşmış tay-tuşlarına xidmət edən **ayağüstü**yə [19] verilən ad. Toy günü keçirilən **cıdır**da [43] iştirak edənlərin geydiyi paltar da bu adı daşıyır. Bu ad həm də **oğlan sağdışının** [208] adlarından biridir. ◆ Cənub torpaqlarımızda bu deyimin *"gəzək"* deyiliş şəkli işlənməkdədir.

## QAZAĞYANA

◆ **Qız toyu** [178] şənliklərinin üçüncü günü **gəlinapardı toyu** [98] zamanı məhəllə cahıllarının **toy alayının** [269] yolunu kəsməklə bağlı **qabaqkəsdi** [157] adət-ənənəsinə Abşeronda verilən ad. ◆ Ehtimal olunur ki, bir vaxtlar bu işlə rus kazakları məşğul olduğu üçün adət bu adı daşıyır.

Azərbaycan Milli Kitabxanası

**170.**

## QAZANÜSTÜ

*"Ocağın odlu, qazanın qaynar olsun"*
*(toy oxumasından)*

◆ Toy şənliklərinin **gəlingətirdi toyu** [98] günü **bəylik hamamından** [36] sonra oğlan evində icra olunan bir ayinin adı. ◆ Bəy oğlan atası evinin həyətinə qədəm basdığı zaman, aşpaz dəmə qoyduğu plov qazanlarından birinin ağzını açıb, oradan bir kəfgir düyü götürərək, boşqaba töküb qazan üstə qoyur. **Bəy** [36] həmin düyüdən bir-iki dənə ağzına atıb qazan qapağı üstə nəmər-pul qoyur. Oğlanın ardınca onun **sağdış-soldışı** [225] və digər qonaqlar da düyüdən dadıb, qazan üstünə pul atırlar. Yığılmış pul və qız anasının göndərdiyi **xələt** [132] aşpaza çatır. ◆ Həmçinin, **gəlinapardı toyu** [98] günü buraya təşrif gətirmiş oğlan evi adamlarından biri, bir adət olaraq, qızgildə asılmış qazanlardan plov dadmaq istəyir, aşpaz isə ona: *"qazan üstüörtülü qaynar, onun ağzı açılmaz"* - deməklə, ondan **nəmər** [201] gözlədiyinə işarə edir. Qonaq qazanların qapağı üstünə nəmər atır, yaxud aşpaza *"xuşgəbər xonçası"* və ya *"qazanüstü cehizi"* deyilən bir xələt verir. Bundan sonra qazanların ağzı bir-bir açılır, xörəklərdən dadılır və oğlan evi adamı: *"Allah süfrənizə bərəkət versin, süfrəniz açıq olsun, xeyrin görəsiniz"* - deyir. Ardınca, qazandan bir nimçə plov çəkdirib üstünə sərpuş qoyaraq, bəy oğlan oturan evə göndərirlər. ◆ Bizim günlər Gəncədə qonaqlardan əvvəl dolu qazanlar üstə gəlin qızı gətirirlər. Başqa yerlərdə bu ayinə *"qazanağzıaçdı // qazanaçma // qazanağzı"* və *"dolu qazanüstü"* də deyirlər.

**171.**

## QAZMƏ

◆ Yurdumuzun cənub bölgələrində **evlənmək** [84] niyyətində olan oğlanın **adaxlı** [1] olduqdan sonra, bir qayda olaraq, **nişanlı** [205] qızın ata-anasına **toy** [269] tədarükü və **gəlinlik cehizi** [98] hazırlamaq üçün ödəməli olduğu maddi vəsait - **başlığın** [29] adlarından biri. ◆ Bu deyimin *"qəzmə"* deyiliş şəkli də mövcuddur.

**172.**

## QƏLYAN ŞİRNİSİ

◆ Böyük kişi elçiliyi **hərialdı** [119] zamanı qız evində oğlan adamlarına **nikaha** [203] razılıq əlaməti tək təqdim olunan isti şirin çayın adı. ◆ Bəzi yerlərdə onu oğlangildən gətirilmiş çay və şəkərdən hazırlayırlar. Ötənlərdə isə bu məqamda, çay əvəzinə, gülab qatılmış ağ **şərbət** [256] - *"qəndab"* içilərdi. ◆ Deyim Goranboy ərazisi üçün daha səciyyəvidir.

**173.**

## QƏMƏR

◆ Klassik ədəbiyyatımızda və əski yazılı mətnlərdə təsadüf olunan, ötən zamanlar



Azərbaycan Milli Kitabxanası

*"evlənmə, qanuni nikaha girmə işi"* anlamları qarşılığında işlənən sözlərdən biri. ◆ Ortaçağ yazılarında bu anlamın *"təzəvvüc"*, *"izdivac"* adlarına da rast gəlinir.

**174.**

"Bayraməlisiz toy, qənbərsiz düyün olmaz"
(atalar sözü)

## QƏNBƏR

◆ Keçmiş dövrlərdə eldən-elə, yurddan-yurda gəzib dolaşan el şairi və ya xanəndəyə verilən ad. O, adətən, toy məclislərinə dəvət olunmadan gələrək, qonaqlara məharətini nümayiş etdirib onları əyləndirər və şənliyin sonunda toy sahibindən müəyyən məbləğ **nəmərpulu** [201] və ya **xələt** [132] alardı.

**175.**

## QƏND XONÇASI

◆ Kiçik **nişan** [205] mərasimi **üzükşal toyu**nda [282] **oğlan evi** [208] adamlarının qızgilə gətirdiyi və içində beli qırmızı qaytan ilə sarılmış **kəlləqənd** [146] yerləşdirilən **xonça**nın [138] adı. Onun ətrafına əlvan noğul-nabatla doldurulmuş nimçələr düzərək, üstünü qırmızı məxmərlə örtürlər.

## QƏNDQIRMA

◆ Vaxtilə Qubada qız evindəki **şirni toyu**nda [259] icra olunan bir ayinin adı. Burada oğlangildən gətirilmiş ərzaq ortaya gətirildikdən sonra, biri oğlan, biri qız tərəfindən iki ağsaqqal, süfrə üstündə, yaxud bir az kənarda çəkic və qiyməkeşlə kəlləqəndləri doğrayır. İlk öncə qənddən bir parça (ona *"abluç"* deyirlər) qız anasına, bir parça isə oğlan anasına ayırır, yaxud qəndin *"deyikli"* yerindən bir qarış sındırıb nimçəyə qoyur, başqa bir nimçəyə isə noğul-nabat töküb, hər ikisinin üstünə örtük salaraq, oğlan evinə göndərirlər. Bu ayinə bəzən *"qəndişkəni // qənddişləmə"*, *"şəkərparalama // şəkərparçalama"* da deyirlər.

**176.**

## QIFILBƏND

◆ Bir zamanlar **kəbinkəsdi** [143] mərasimində icra olunan bir adətin adı. ◆ Kəbin duası oxunan zaman qız adamlarından biri əlindəki qıfılı açıb-bağlayır və dua qurtardıqda onu möhkəm qıfıllayırdı. Xalq əqidəsincə, o, bununla oğlanla qızı həmişəlik bir-birinə *"bənd edirdi"* - oğlanın bundan sonra başqa qadın tanımayıb yalnız öz kəbinli arvadı ilə görüşəcəyini təmin edirdi. Həmin qıfıl əməlli-başlı qorunub **gərdək gecəsinə** [100] qədər bağlı qalırdı. ◆ Bu biri tərəfdən inanmışlar ki, elə həmin nikahbağlama vaxtı iki cavanın birləşməsinə mane olmaq niyyətində olanlar paltar altında gizlətdikləri paslı bir qıfılı bağlayıb suya atmaqla, yaxud onu **bəy qapısı** [36] ağzında basdırmaqla *"oğlanı bağlayıb hərəkətdən sala"*, yəni toy gecəsi cavanların bir-birinə qovuşmasını qeyri-mümkün edə bilərlər. Buna görə də gərdək gecəsindən əvvəl bu

Azərbaycan Milli Kitabxanası

*"bədnam qıfıl"*, nəyin bahasına olursa-olsun, tapılıb açılmalıydı. Qıfılbənd ilə əlaqəsi olmayan bu düşmən əməlinə *"bəybağladı"*, *"qıfıllama"* və *"kilidləmə"* deyilir.

**177.**

## QILAVUZ

[ *əslində "bələdçi" deməkdir* ] ◆ Yurdumuzun bir sıra bölgələrində həm qızgilə göndərilən səlahiyyətli nümayəndə - **elçi** [81], həm də toy günləri xidmət və məsləhət üçün gəlin qıza təhkim olunan **yengə** [296] anlamlarında işlənən deyimlərdən biri. ◆ Xalq arasında onun *"qallavuz"* və *"qılağuz"* deyiliş şəkilləri də mövcuddur.

**178.**

*"Qız - qızıl alma, qızı gözdən salma"*
(atalar sözü)

## QIZ

◆ Həddi-buluğa çatmış, ailə qurmaq, gəlin köçmək arzusunda olan bakirə qadın. ◆ Ötənlərdə onun gözəltısı olmadığını qoluna bağladığı qırmızı sarıqdan və üzüksüz barmağından bilmək olurdu. ◆ O, nişanlandıqda - *"nişanlı qız"*, **xınayaxdı toyu** [135] və **kəbinkəsdi** [143] mərasimindən sonra - *"gəlin qız"*, **gəlingətirdi toyu**ndan [98] sonra isə *"təzəgəlin"* adını daşıyır. ◆ Dilimizdə *"qız almaq"*, birinin öz oğluna layiq bir qız seçib nikah yolu ilə onları birləşdirmək kimi, *"qız vermək, qız köçürmək"* isə qızı kəbinlə bir oğlana ərə verib ailəlikcə qohum olmaq kimi başa düşülür. ◆ Ata-baba qaydasınca, ərə getmək vaxtı keçmiş, necə deyərlər, *"un çuvalına tay olmuş"* otuz yaşlı qartımış qızlara toy çaldırılmaz, onlara **gəlinlik paltarı** [98] tikilməzmiş. Bu cür gecikmiş nikahları xalq arasında *"kor toy"* adlandırırlar.

## QIZ ADAMI

◆ Toyqabağı tədbirlər və **qız toyu** [178] şənliklərinin fəal iştirakçısı, adətən, **ərə** [89] verilən qızın yaxın qohumu və ya rəfiqələrindən biri olub **evlənmə** [84] tədbirlərində qız evini təmsil edən şəxsə verilən ad. ◆ Ona həmçinin, *"qız evi adamı"*, *"qız tərəf"* və *"gəlin adamı // gəlin tərəf"* də deyirlər.

## QIZ BARXANASI

◆ Yurdumuzun bir para yerlərində ərə verilən nişanlı qız üçün ata-anası tərəfindən, adətən, **başlıq** [29] hesabına hazırlanan avadanlıq və ev əşyaları - **gəlinlik cehizi**nin [98] başqa adı. Onun sadəcə *"barxana"* (Qazax, Ağstafa) deyiliş şəkli də mövcuddur.

## QIZBAŞI

[ *"qız başına yığışma" mənasındadır* ] ◆ Lənkəran və Masallı bölgələrində **nişantaxdı toyu** [205] böyük nişan mərasimindən sonra, **gəlinapardı toyu** [98] ərəfəsində, bəzən isə elə bu toy günü qız evində çağırılan **qızyığdı** [178] məclisinin başqa adı. ◆ Xalq arasında ona daha çox *"qızbaşı toyu"* deyirlər.

Azərbaycan Milli Kitabxanası

"Anasına bax, qızını al"
(atalar sözü)

## QIZBƏYƏNMƏ // QIZSEÇDİ

◆ Nikah yolu ilə evlənmək, birgə ailə qurmaq niyyətilə **subay** [241] oğlanın **ərgən** [84] qızı görüb bəyənməsi işi. Bu seçmə onun ana-atası tərəfindən təqdir olunarsa, onların qız və onun ailəsi haqda məlumat toplayıb, qızı ilk öncə uzaqdan, sonra isə yaxından görüb tanış olması ilə bağlı ciddi-cəhd də bu adı daşıyır. ◆ **Oğlanın** [208] **qız** [178] ilə tanışlığı ayrı-ayrı dövrlərdə, müxtəlif yerlərdə, cürbəcür vasitə və tədbirlərlə əldə olunurdu. Vaxtilə kütləvi el bayramlarına (meydan tamaşaları, dini mərasimlər, atüstü yarışlara) və sadəcə bulaq başına yığışan ərgən qızlardan birini gözaltı edən oğlan mümkün vasitələrlə qızın diqqətini özünə cəlb etməyə çalışırdı. ◆ El-oba qaydasına görə, qızın, əlində su qabı, bulaq başına yollanması artıq onun *"ərə getmək, gəlin olmaq"* arzusunda olduğuna işarədir. Əgər bulaq başında bir oğlan gözaltı etdiyi qızdan bir neçə dəfə su alıb içərdisə, dolçanın dibindəki suyu qızın üz-gözünə, sinəsinə çiləyən zaman qız qımışıb şuxluq eylərdisə, bu razılıq əlaməti tək qəbul edilərdi. ◆ Oğlanın bəyəndiyi qıza bir alma atması və qızın bu almanı yerdən qaldırması da razılıq işarəsi tək qavranırdı. ◆ Bəzi yerlərin adətincə, qız **nikaha** [203] razılığını başındakı örpəyi oğlana verməklə, yaxud saçından bir tel qoparıb örpəyə bükərək onu oğlana çatdırmaqla bildirərdi. Bununla, sən demə, o, *"öz namusunu"* həmişəlik oğlanın qeyrətinə tapşırardı. **Elçilik** [81] zamanı **oğlan adamları** [208] həmin örpəyi qız evinə göstərdikdə, tərəflər sözsüz, şərtsiz razılığa gələrdilər. ◆ Digər hallarda, oğlan qarşılıqlı razılıqdan sonra, bəyəndiyi qızı rəqiblərindən qorumaq üçün böyük bir kütləvi toplantıda qızın başındakı örpəyi qapıb qaçardı. Nəticə etibarilə, qız el-oba içində artıq həmin oğlanınkı sayılar, daha başqası o qızı almaq fikrinə düşməzdi. ◆ Qızı, bir qayda olaraq, hərə öz zümrəsi içində axtarardı. ◆ Bizim günlər də ailənin gəlini olacaq **yadqızı** [288], əsasən oğlan, bəzi hallarda isə onun ata-anası tərəfindən görülüb seçilir. Bu elçilikqabağı tədbirə ayrı-ayrı yerlərdə *"bəyəniş"*, *"qızbəgənmə // qızxoşlama"*, *"gözaltılama"*, *"nişanlı seçmə"* (Quba) və s. deyirlər.

"Qız qundağda, cehiz sandığda"
(atalar sözü)

## QIZ CEHİZİ

◆ Ərə verilən qızın dədəsi evində, adətən, **başlıq** [29] hesabına hazırlanaraq, gəlinlə təzə mənzilə daşınan gündəlik həyat üçün ən vacib avadanlıq və əşyalar dəsti - **gəlinlik cehizinin** [98] adı. ◆ Bu deyimin *"qız cihazı"* deyiliş şəkli də mövcuddur.

## QIZDƏSİ

[ *"qız dəstəsi" anlamındadır* ] ◆ Yurdumuzun Tovuz bölgəsində üç gün davam edən **qız toyu** [178] şənliklərinin üçüncü - **gəlinapardı toyu** [98] günü, bir qayda olaraq, gündüz çağı, qız evində, ayrıca bir otaqda **ər evinə** [89] köçəcək nişanlı qızın öz rəfiqələri və yaşıdları ilə keçirdiyi **qızyığdı** [178] məclisinin adı. ◆ Lənkəran və Masallıda isə bu məclisə *"qızbaşı // qızbaşı toyu"* deyirlər.

"Qız elçisi, düz elçisi"
(atalar sözü)

## QIZ ELÇİSİ

◆ Qız evinə **elçi** [81] gedib oğlan tərəfin adından qızın ata-anasından bu **nikaha** [203] razılıq almaq istəyən **oğlan evinin** [208] səlahiyyətli nümayəndəsi - oğlan anası, xalası, bibisi, yaxud ağbirçək qadına verilən ad. ◆ Ümumiyyətlə, bu adı eyni məqsədlə qız



Azərbaycan Milli Kitabxanası

evinə yollanan kişi elçi də daşıya bilər. ◆ Ayrı-ayrı yerlərdə onu bəzən *"arvad elçisi", "qızelçiləyən // qızdiləyən // qızistəyən"* də adlandırırlar.

"Qız evi - işvə-naz evi"
(atalar sözü)

## QIZ EVİ

◆ **Elçilik** [81], **toy** [269], **nişan** [205] tədbirlərində **ərə** [89] getmək, ailə qurmaq niyyətində olan **subay** [241] qızın mənafeyini güdən bir dəstə adamın, əsasən onun yaxın qohum-qardaşının, həmçinin **ərgən** [89] **qızın** [178] yaşadığı məkanın müştərək adı. ◆ Buna eyni zamanda *"qız tərəf"* və *"qızgil"* də deyilir.

## QIZƏVƏZİ

◆ Bir para yerlərdə toyqabağı tədbirlərdən biri olub, oğlan tərəfin nişanlı qızın valideynlərinə, bir qayda olaraq, toy tədarükü və **gəlinlik cehizi** [98] hazırlamaq üçün verdiyi pul vəsaiti - **başlığın** [29] adlarından biri. Qubada bu vəsait *"qızpulu"* adı daşıyır.

## QIZ ƏVRƏZİ

◆ Keçmişdə Quba bölgəsinin kəndlərində **adaxlı** [1] oğlanın öz dostları ilə vaxtaşırı qayınatasının zəmisində əkin və taxıl biçimində, ot çalınmasında və s.-də işləməsi. Yurdumuzun başqa yerlərində bu iməciliyə *"bəyəvrəzi"* və *"zoma-koya"* deyirlər.

"Qız imiş qızgəlin"
(toy oxumasından)

## QIZGƏLİN

◆ Bir para bölgələrin dilində, üç gün davam edən **qız toyu** [178] şənliklərinin ikinci mərasimi - **xınayaxdı toyunda** [135] ərə getməyə hazırlaşan **nişanlı** [205] qızın *"gəlin rütbəsi"*nə ucaldıqdan sonra, **gərdək gecəsinə** [100] qədər daşıdığı adı. ◆ Onu bəzən sadəcə *"gəlin"* və *"gəlin qız"* da adlandırırlar.

## QIZGİYOV NƏSİBİ

[ *buradakı "nəsib" sözü pay, sovqat mənasındadır* ] ◆ Qubada, **sözkəsdi** [240] mərasimindən sonra qızgildən oğlan evinə **xonçaqayıtdı** [138] məclisinə (öncə oğlan tərəfin qızgilə göndərdiyi xonçaların içində) gətirilən **güllü çörəklərin** [107] adı. ◆ **Gərdək gecəsi** [100] üçün nəzərdə tutulan bu çörəkləri oğlangildə sandığa yığıb toy gecəsi üçün saxlayırlar.

"At almağa cahıl, qız almağa ahıl"
(atalar sözü)

## QIZGÖRDÜ

◆ **Oğlan** [208] bəyənib-seçdiyi **qızla** [178] evlənmək fikrinə düşdüyünü ata-anasına bildirdikdən sonra, oğlan evində qızın ailəsi haqda kifayət qədər məlumat yoxdursa, oğlan anasının, yaxud onun böyük bacısının (bir yaxın qohumu və ya bundan ötrü dəvət edilmiş **ara arvadının** [11] iştirakı ilə) keçirdiyi elçilikqabağı tədbirin adı. ◆ Bu tədbiri hazırlayıb həyata keçirən, onun haqda daha çox düşünüb-daşınan evin qadınları olsalar da, tədbirin gərəkliyini qadınlara oğlan evinin *"kişi sözü"* sahibi sayılan oğlan atası göstərməlidir. Bir adət olaraq, o, oğlanın anasına qız və onun yaxın qo-



Azərbaycan Milli Kitabxanası

hum-qardaşı haqda lazımi məlumat toplamağı tapşıraraq, ailə üzvlərinə üz tutub belə deyir: *"İndi ki, deyirsiniz qız belə gözəl-göyçəkdi, belə ağıllıdı, onda bir adam tapıb göndərin getsin qonum-qonşudan xəbər tutsun, baxıb görsün kimin qızıdı, əsli-nəcabəti haradandı, neçə yaşı var, bizlərə münasibdirmi, bizə verərlərmi, həm də qızın anasının ağzını arasın. Bunları eylədikdən sonra biz də baxıb görərik, nə eyləyək".* ◆ Bu tapşırıqdan sonra oğlanın yaxın qohumları müxtəlif yol və vasitələrlə qızın özü, valideynləri, nəsli-nəcabəti barədə sorağa çıxır, çox vaxt açıq bildirmədən *"kəşfiyyat"* aparıb, gizli yollarla müəyyən məlumat əldə etməyə çalışırlar. Oğlan evi qadınları yadqızı və onun ailə üzvlərini yaxından görüb təmasda olmaq, qızın bu və ya digər cəhətlərini yerindəcə müşahidə etmək niyyətilə qızgilə üz tuturlar. ◆ Bu *"görüşə"*, bir adət olaraq, səhər tezdən və qəfildən gedilir ki, qız yuxudan oyanandan sonra üz-gözünə bəzək-düzək vurmasın. ◆ Bir sözlə, oğlan evi qadınları **qız qapısını** [178] döyüb yoldan keçən bir *"Allah qonağı"* tək, guya yol azıb öyrənmək, yaxud su içmək və ya *"bizim toyuq sizin həyətə girməyibmi?"* və buna bənzər bəsit bir bəhanə ilə həyətə, bəzən isə evə dəvət olunurlar. İçəriyə daxil olmuş **görücülər** [105] qəsdən heç bir şey üzə vurmur, mətləbə dəxli olmayan müxtəlif söhbətlər edərək, hər vasitə ilə əsas məqsədlərini gizlədir və birdən, guya susuzluqdan ürəkləri yanırmış kimi qız anasına: *"qıza de, bizə bir qurtum su gətirsin, içib gedək"* - deyirlər. Bu zaman gözaltı qızın əl-ayağı, oturub durmağı, yerişi və zahiri görkəminə xüsusi diqqət yetirir, onu mütləq danışdırmağa çalışır, fürsət tapıb başına sığal çəkərək hörüyünün təbii, yoxsa süni olduğunu yoxlayır, bəzən isə bir bəhanə ilə qızın dodağından öpüb ağzında qoxu olub-olmadığını müəyyən edirlər. ◆ Uzaq keçmişdə görücülər bunlarla kifayətlənməyib qızın qulağının yaxşı eşidib-eşitməməsinə, gözünün nə dərəcədə görüb-görməməsinə, əsəblərinin yerində olub-olmamasına əməlli-başlı fikir verirdilər, bunları bilmək üçün min cür "hiyləyə" əl atırdılar. Qızın ev işlərini necə bildiyini öyrənməkdən ötrü, qəsdən bir para xörəklərdən, onların hazırlanmasından söz açırdılar. İstər-istəməz söhbətə qarışan qız həmin yeməklərin necə bişirildiyindən danışırdı. ◆ Bəzən isə görücülər, guya zarafatyana: *"kim yerə bir damcı salmadan məcməyidən aftafaya su tökə bilər"* - deyərək, bir yarış keçirirdilər. Dəqiqlik və ayıqlıq tələb olunan bu "yarış"da qızın nə dərəcədə sağlam, təmkinli və səbirli olması üzə çıxırdı. Qız suyu aftafaya tökdükdə, əlləri əsərsə, deməli onun əsəbləri zəifdir, evdə işə-gücə alışdırılmayıb. Bəzən burada qıza düyü də arıtdırırdılar. ◆ Axırda qız evini tərk edən "Allah qonaqları" geyinən zaman qəfildən qızın ayağı altına kəlağayını salırdılar. Əgər bu kəlağayıya qədəm basmış qızın dabanları çatlaq, kirli olurdusa, kəlağayının zərif ipək sapları mütləq büzülürdü. Bu da qızın özünə qulluq etməməsinə, pinti olmasına işarə idi. ◆ Sonra görücülər bəyənilmiş qızın anasına eyhamla: *"Allah sizə bir yaxşı yerdən qapı açsın, xoşbəxtlik gəlib sizi tapsın, evinizdən şadlıq səsi gəlsin, oğul-qız toyu görəsiniz, inşallah"* - deyib sağollaşır və oğlangilə qayıdaraq bütün gördüklərini və öyrəndiklərini evdəkilərə danışırlar. Məsləhətləşib qızı almaq qərarına gəldikdə, ağbirçək bir qadın tapıb onu **ağızarama**ya [5] göndərirlər. ◆ Ötən zamanlar bəzi cavanların anası gəlin olacaq qızı çılpaq görməkdən ötrü onun el hamamına getməsi gününü və saatını öyrənib ardınca oraya yollanardı. ◆ Bir vaxtlar qız evində **ərgən** [89] qızı ərə vermək niyyətilə onu **evlənmə dəllalı**na [84] göstərmək adəti də bu adı daşımışdır. Evlənmək sahəsində peşəkar vasitəçiliklə məşğul olan bu yaşlı ağbirçək qadın, adətən, hansı qıza hansı oğlanın uyğun olduğunu yaxşı bilirdi. ◆ Yurdumuzun ayrı-ayrı bölgələrində bu elçilikqabağı tədbirə *"qızabaxdı // qızsaraflama"*, *"qızgörümü // qızgörümcəyi"*, *"görümcək // görəli"*, *"görücügetmə // görücügəzmə"*, *"didar"*, *"bəlləmə"* və s. deyilir.



Azərbaycan Milli Kitabxanası

## QIZ HALVASI

◆ Müxtəlif şirniyyat və qırmızı boyanmış yumurtalarla yanaşı **gəlin qızın** [98], bir adət kimi, özü ilə **ər evinə** [89] nimçələrdə apardığı, üzəri darçın və zəfəranla naxışlanmış halvanın adı. ◆ Bu qədim yeməyin adına Nizami Gəncəvinin əsərlərində də rast gəlinir. Xalq arasında ona *"gəlin halvası"* da deyirlər.

*"Hamamdan çıxdı hacı qızı, başı bağlı qırmızı"*
(toy oxumasından)

## QIZ HAMAMI

◆ **Qız toyu** [178] şənliklərinin üçüncü - **gəlinapardı toyu** [98] günü yol üstündə olan gəlin qızın, əllərinə **xına** [135] qoymuş yaxın qohumları ilə birlikdə el hamamına yollanması münasibətilə çağırılan **gəlinlik hamamı** [98] mərasiminin başqa adı. ◆ Bəzi yerlərdə ona *"toy hamamı"* və *"gəlinin toy hamamı"* da deyirlər.

## QIZ KİLİMİ

◆ Oğlan evinin gəlini olacaq **nişanlı** [205] qızın, **toy** [269] mərasimi ərəfəsində, dədəsi evində, **gəlinlik cehizi** [98] üçün özünün toxuduğu kilim və ya xalça-palazın adı. ◆ Bəzi hallarda onu toxumaqdan ötrü qızın anası və ya **qız sağdışı** [178] pul verib xüsusi xalçatoxuyan tutur.

*"İgid ona deyərəm, sevdiyini götürə qaça"*
(toy oxumasından)

## QIZQAÇIRMA

◆ Yurdumuzun bəzi yerlərində ötən çağlarda və indinin özündə belə təsadüf olunan izinsiz və qohumlardan gizli surətdə evlənmə, nikahagirmə adəti. ◆ Keçmiş zamanlarda bir-birinə düşmən kəsilmiş ayrı-ayrı tayfa və nəsillərə, yaxud qonşu məhəllə və ya kəndə mənsub olan iki cavanın - oğlan və qızın, nəyin bahasına olursa-olsun, birləşmək arzusundan doğan bu adətin öz səbəbləri var. Qız, ya da oğlanın ata-anasının bu nikaha qəti etiraz etməsi və ya cavanların başqa-başqa zümrələrə, fərqli məzhəblərə (şiə-sünni) mənsub olması, yaxud bir evin varlı, o birisinin kasıb olması və yaxud qız evinin oğlangildən həddindən çox **başlıq** [29] tələb etməsi və buna oxşar amillər ənənəvi nikahın heç zaman baş tutmayacağını aydın göstərəndə, oğlan qızı götürüb qaçırmaq məcburiyyəti qarşısında qalır. Qız bu cür *"evlənməyə"* razılıq verirsə, qırmızı yaylıq və ya saçından bir tel büküb **ara arvadı** [11] vasitəsilə bəyəndiyi oğlana göndərir və vədələşdikdən sonra, könüllü şəkildə oğlana qoşulub qaçır. Bu da əski adət-ənənəyə görə, ata-ananın iradəsinə qarşı qəti etiraz, bir çevriliş, üsyan sayılırdı. Qaçırılan qızın geriyə alınması isə oğlan üçün çox ağır həqarət idi. Elə bu səbəbdən qaçırma zamanı oğlan əməlli-başlı silahlanır, yaxın dostlarından kömək alırdı. ◆ Əksər hallarda qız qaçırıldıqdan sonra oğlan kəbin kəsdirib toy edir. Məhəllə ağsaqqaları işə qarışıb tərəfləri barışdırsa da, qızın ata-anası artıq övladlarına **cehiz** [42] vermir və o, ömrünün sonuna kimi el içində *"qaçqın gəlin"* adı daşıyır. Qızın və ya oğlanın ata-anası heç cür bununla barışmadıqda, cavanlar həmin kənddən və ya şəhərdən köçməyə məcbur olurlar. ◆ Bir *"saxta qaçırma"* yolu da var ki, burada bu və ya digər səbəbdən qızın valideynlərinin razılığı ilə oğlan qızı *"qaçırdır"*. ◆ Qaçırmanın digər yolu qız evinə silahlı basqın edərək və ya çöldə-bostanda, yolda-küçədə qızı yaxalayaraq, onu zorla oğurlamasıdır. Bu da çox vaxt insan tələfatı ilə nəticələnir. ◆ Bir sözlə, qonum-qonşu, el-oba bu cür üzdəniraq *"evlənmə yolları"*nı heç vaxt bəyən-

Azərbaycan Milli Kitabxanası

# • VII • PALTARKƏSDİ TOYU

**205.**

◆ Ötən çağlar üç gün davam edən ***qız toyu***nun [178] başlanğıcı, onun birinci mərasimi sayılıb oğlan və qız tərəfi qadınlarının qız evində keçirdikləri bir məclisin adı. ◆ Sonralar və indinin özündə bu mərasimi ***gəlinapardı toyu***ndan [98] 2-3 ay, bəzən isə bir-iki həftə əvvəl keçirməyə başladılar. ◆ Bəzi hallarda qızın dədəsi iki ayağını bir başmağa dirəyib qətiyyətlə deyir: "Qızım üçün mən istəyən pal-paltar, qızıl-gümüş gətirilməsə, kəbin kəsilməkdən söz gedə bilməz..." Belə olduqda, ***oğlan evi*** [208] böyük ***nişantaxdı toyu*** [205] mərasimində ***nişanlı*** [205] qıza apardığı zinət əşyalarına əlavə, qıza çatacaq nə varsa hamısını - köynəklik, tumanlıq, vaxtilə isə çarşablıq və s. parçaları, üstəgəl hazır tikilmiş əyinbaş, köynək, boğazaltı yaylıq və digər ***toy*** [269] tədarükünü (qaydaya görə, bu tədarük yeddi cür ***xələt***dən [132] ibarət olmalıdır), bəzən sayı 15-20-yə çatan ***xonça*** [138], ***boxça*** [39] və xüsusi paltarları mücrülərinə yığıb qızgilə aparmağa hazır edir. Çox vaxt artıq nişan mərasimlərində qız üçün aparılmış zinət əşyaları da qız evindən geriyə alınıb bu xonçalara yerləşdirilir. Bundan başqa, buraya qızın anası və bacıları üçün də xüsusi xələtlər əlavə edilir. Ayrıca bir xonçaya hələ işlənməmiş təzə iynə, ipək sap, oymaq, təzə paltarkəsən qayçı (inama görə bu qayçı həm də "oğlanın ağzının kəsərli olması" üçündür) və bir para tikiş ləvazimatı qoyulur. ◆ Bəzi yerlərin qaydasına görə, oğlan tərəf bu mərasimə qadınlardan ibarət kiçik bir çalğıçı dəstəsi aparır - qarmon, qaval və xanəndə. Bəzən isə (adətən, kasıb ailələrdə) məclis ***qız yengəsi*** [178], yaxud digər bir qadının təkcə qaval çalıb oxuması ilə "yola verilir". Bu məclisdə yaslı və sonsuz qadınlar iştirak edə bilməz. ◆ Beləliklə, müəyyən edilmiş gündə oğlan tərəfin qadınları oğlangildə toplaşır, burada bir qədər çalıb-şənlənir və deyilən (əsasən, günorta çağı) saatda qalxıb xonça, boğça və mücrülərlə qızgilə üz tuturlar. ◆ Qızgildə isə çox zaman müvəqqəti toyxana çadırı - ***mağar*** [187] quraşdırılır, oğlan evindən gələn qonaqlar ehtiramla qarşılanır. Musiqi səslənir və bu yerdə oğlanın böyük bacısı - ***oğlan yengəsi*** [208] oynayaraq, başqalarını da rəqsə dəvət edir. ◆ Sonra oğlan evi qadınları yuxarıbaşa dəvət edilib xalça üzərindəki döşəkçələrdə əyləşirlər. Burada oğlan yengəsi qız yengəsilə ilk dəfə görüşüb tanış olur, bir-birinə xüsusi xonça-xələt verirlər. Ardınca qız yengəsi, ***dərnə*** [61], yaxud ***ayağüstü*** [19] qonaqlara gülab paylaya-paylaya qızın ***bəxt güzgüsü***nü [34] onların qarşısına tutur. Qarşısına güzgü tutulan qonaq alnına-üzünə gülab sürtüb salavat çevirir. ◆ Sonra ayağüstü üç sini gətirib onları məclisin ortasına, xalça üstə düzür və ortalığa qələmkar süfrə salır. Oğlan evi qadınları gətirdikləri xonça-boğçanı bu süfrənin üstünə düzərək, keçib öz yerlərində otururlar. ◆ Elə bu məqamda başında oğlan evindən gətirilmiş qırmızı ipək kəlağayı və ya zərli-saçaqlı bir şal, barmaqlarına ***həri üzüyü*** [119] və daş-qaşlı ***nişan üzüyü*** [205] taxıb, əyninə ***nişan paltarı*** [205] geymiş nişanlı qız məclisə gətirilir və bir tərəfdə, ayrıca bir taxt üstündə əyləşdirilir. Bundan sonra oğlanın anası və ya oğlan yengəsi, yaxud ***başıbütöv*** [29] bir qadın "bismillah" deyib, xonça-boğçaları bir-bir açır, oradakı pal-paltarı çıxarıb səliqə ilə sinilərə düzür. Narındiş daraq, bafta qaytan, paltarkəsən qayçı və ipək sap ayrıca bir siniyə qoyulur. ◆ Bu vaxt oğlan

Azərbaycan Milli Kitabxanası

*tərəfin cavan qız-gəlinləri həmin siniləri başlarına qaldırır, sol əllərilə sinini tutaraq, sağ əl ilə fındıqça çala-çala oynayır, ətrafdakılar isə onların ağzına pul verirlər. Rəqs bitdikdə, oynayanlar pulları ağzından çıxarıb ciblərinə basır, siniləri isə öz yerinə qaytarırlar. ◆ Ardınca, oğlan yengəsi ilk əvvəl nişanlı qızın adına alınmış bütün zinət əşyalarını bir-bir qaldırıb məclisdəkilərə göstərərək ucadan deyir: "Bu qızın boğazaltısı, Allah mübarək eyləsin..." Yengə gətirilmiş hədiyyələri sadaladıqca, ətrafdakılar da bir ağızdan: "Allah xeyir versin" - deyərək, ona cavab verirlər. Bəzi yerlərdə bu "baxış" nişantaxdı toyunda baş verir. Oğlan yengəsi sadalayaraq, hər dəfə: "bu, qızın zircaması (yəni, alt tuman-köynəyi), Allah xeyir versin, görənlər görüb, görməyənlər görsün" - və s. dedikdə, məclisdəkilər onun sözlərini təkrar edirlər. ◆ Bunların ardınca o, bu məclisdə biçiləcək paltarlıq parçaları və artıq tikilmiş paltarları qaldırıb elə buradaca qızın boyuna tutur. Bəzən isə burada hazır paltarlar qıza geydirilir. Paltarlardan sonra nişanlı qıza "qaytarmaburun" deyilən qırmızı uzunboğaz çəkmə də geydirilir. ◆ Qızın qohumları və digər qonaqlar əşya və parçalara tamaşa etdikcə: "Allah xeyirə calasın", "ayağı qədəmli olsun", "bədnəzərdən uzaq olsunlar", "ağ günlərə qovuşsunlar", "Allah xoşbəxt eyləsin, gözü tox, alnı açıq olsunlar, inşallah" - və s. arzu-diləklər söyləyirlər. ◆ Bəzən burada oğlan evi qadınlarından biri: "bərəkallah* ***qayınana*** *[168], çox gözəl pal-paltar gətirmisən", sonra məclisdəkilərə: "qayınana gərək belə olsun e... maşallah, baxın görün neçə ilin şeyləridi, necə də saxlanıbdı" - deyərək, həm öz heyrətini bildirir, həm də bununla əşyaların dəyərini üçqat artırır. ◆ Əşyalar nümayiş etdirildikdən sonra, oğlan anasının təşəbbüsü ilə bütün qonaqlar pal-paltar üstünə bir qədər* ***nəmərpulu*** *[201] atır ki, buna da xalq arasında* ***paltarüstü*** *[215] deyirlər. Bəzi hallarda bundan sonra qız tərəf də məclisdəkilərə qızın dədəsi evində hazırlanmış* ***cehizi*** *[42] bir-bir nümayiş etdirir. Sonra məclisə daha bir paltar mücrüsü gətirilir və içindən gəlin qızın ev paltarlarını çıxararaq xonçaların üstünə atırlar. ◆ Parçaların kəsilib-tikilməsinə gəldikdə, son illər bu iş, hazır paltarların bolluğu səbəbindən, bir qədər şərti keçirilməyə başlamışdır. Əski adət-ənənəyə görə, nişanlı qızın* ***toy paltarlarını*** *[269] başıbütöv bir qadın biçib kəsməlidir. Oğlan evi qadınları ilə birlikdə qızgilə gəlmiş həmin başıbütöv "qayçısalan" qadın, yaxud da oğlan yengəsi biçməyi bacarırsa, onda paltarlar qızın mücrüdən çıxarılmış ev paltarları üzərində ölçülüb biçilir. ◆ Qadın bunu bilməzsə, xonçalardakı parçalardan birini götürür və təzə qayçını əlinə alaraq, adətən: "qayçını atağın taxçaya cingildəsin, tez çağırın oğlan bacısın dingildəsin" - sözlərilə başlayan ənənəvi bir mahnı oxuyur və qayçını bir qədər parça üzərində gəzdirib sürtərək, sanki onu kəsməyə hazırlaşır. Sonra ucadan məclisdəkilərə üz tutub deyir: "A balam, bu qayçı kütdü ki, parçanı kəsmir, şirinlik verin kəssin..." ◆ Oğlan evi qadınları işarəni başa düşüb: "a balam, qayçı kəsməz - itiləyərik, bu asan şeydi" - deyərək, xonça və ya parça üstə* ***qayçıkəsməz*** *[167] nəməri atır, qadının boyununa isə bir neçə parça-xələt dolayırlar. O, gülümsəyərək: "bax, indi qayçı kəsər" - deyir və sonra ucadan: "şeytan gözü kor, şeytan qulağı kar" - deyib, parçanın kənarından azca kəsir. Buna el arasında "təzə paltara qayçı qoymaq" deyirlər. Bu məqamda hamı yenə: "mübarək olsun, oğullu-qızlı olsunlar, qoşa qarısınlar, inşallah" - və s. arzu-diləklər deyir - və şirinlik üçün kəsilmiş parçanın üstünə noğul-nabat səpələyirlər. ◆ Bəzən isə paltarbiçmə əməliyyatı sözün həqiqi mənasında keçirilir. Bundan ötrü oğlan evi gəlinlik paltarı kəsib-tikən və* ***gəlinlikçi*** *[98] adı ilə çağırılan peşəkar bir dərzi qadını bu məclisə gətirir. Belə*

Azərbaycan Milli Kitabxanası

olduqda, o, ilk öncə nişanlı qıza xınayaxdı zamanı geymək üçün sadə biçimli xüsusi **xınalıq donu**ndan [135] başlar. Sonra alt tuman-köynək, **bəxt köynəyi** [34], toy məclislərində görünmək və "taxta qalxmaq" üçün **gəlinlik paltarı**ndan [98] tutmuş iki **ərus dəsmalı**na [90] qədər hamısına parça kəsilir. Burada, bir ənənə olaraq, 10-12 parça zolağından ibarət xara tumanın tikilməsi də vacib sayılır. ◆ Dədə-baba adətincə, gəlinlik paltarının biçib-tikməyini hər adama etibar etmək olmaz. Bu səbəbdən bir zamanlar gəlin qızın **ər evi**nə [89] köçürülən gün geyəcəyi "bəxt köynəyi"ni, bir adət olaraq, yeddi **subay** [241] qız və ya yeddi uşaqlı gəlin qırmızı sapla tikməliydilər. Köynək tikilən zaman sap tez-tez qırılarsa, deməli, oğlan qızı çox istəyir. Paltarlar arasında bu köynəyin yaxası kəsilməmiş qalmalı, bir qayda olaraq, gəlin qız yol üstündə olan vaxt açılmalıdır. ◆ Bəzi yerlərdə paltar biçilən zaman subay qızlara paltarlıq parçalardan tikələr paylanır. Bir para bölgələrdə isə əksinə, parça tikələrinin əsla yerə düşməməsinə çalışır, hamısını bir-bir səliqə ilə yığıb qız anasına verirlər. İnanırlar ki, kimsə onlardan götürüb düşmənçiliklə nişanlı qız üçün cadu, yaxud **bəy oğlanı** [36] "bağlamaq"dan ötrü istifadə edə bilər. ◆ Oğlan evi özü ilə dərzi gətirməzsə, xonçalardan çıxarılıb biçilmiş paltarların tikilişi qız evinə həvalə olunur, yaxud həm qız, həm oğlan evindən dərziliyi bacaran qadınlar kəsilib köklənmiş parçaları evlərinə aparıb orada onları təcili surətdə tikirlər. Sapların, paltarların tikilmə xərcini oğlan evi ödəyir, qızgili isə xonçaları gətirənlərə və qayçısalan qadına xələt - corab, dəsmal, yaylıq və s. paylayır. ◆ Paltarlar biçildikdən sonra onları yenidən mücrü, xonça və boğçalara yığıb bir tərəfə qoyur və ayağüstü qadın qələmkar süfrə əvəzinə yemək süfrəsi salıb üzərinə yemək düzür. Hamı "bismillah" deyib, yeməyə başlayır. ◆ Yeyib-içdikdən sonra qonaqlar: "əlhəmdülillah, mübarək olsun, Allah süfrənizə bərəkət versin, evinizdə həmişə şadlıq olsun, inşallah" - deyib, süfrədən çəkilir və bir qədər söhbət etdikdən sonra, ayağa qalxaraq xeyir-dua verə-verə sağollasıb evlərinə dağılışırlar. Oğlan anası vidalaşmaqdan öncə paltar mücrüsünü bağlayıb açarı qızın anasına verir və qapıda ona: "**quda** [182], hazır ol, sabah axşam **xına**mızı [135] gətirəcəyik, qızın başayağına yaxarsınız" - deyərək, oğlan evinin digər qadınlarına qoşulub çıxır. ◆ Bu uzunömürlü toy mərasiminin əski yazılarda qeyd edilən ən qədim adı **urbakəsdi**dir [274]. Ulu əcdadımız Oğuz türklərində bu mərasim qız evinə gətirilən hədiyyələrin ənənəvi sayına uyğun "doqquz toyu" adlanmışdır. Sonralar ona "paltarbiçdi // paltarköklənmə", "parçabiçdi // parçakəsdi", "biçmə-tökmə", "qayçıkəsməz // qayçı kəsmir", "kəsi-biçi", "sərpayı gecəsi" adları vermişlər. ◆ Lənkəran və Salyanda isə ona "birinci xırdaba" deyilir.

• VII •

*Ardı:*
*XINAYAXDI TOYU ◆ VIII*
*(153-cü səhifədə)*

Azərbaycan Milli Kitabxanası

məyib, pis qarşılayıb. Belə nikah üsulu xalqımız arasında geniş yayılmayıb. ◆ Əslinə qalarsa, son əsrlərin toy mərasimləri, özü-özlüyündə, ulu əcdadımız Oğuz türklərinin qədim *"qızqaçırma"* adətinin uzaq əks-sədası, bir növ onun yamsılanmasıdır. Sonralar gəlin aparılan zaman icra olunan **qabaqkəsdi** [157], **qapıbasdı** [162], **pərdəapardı** [216] və s. adətlər, ümumi rəyə görə, həmin əski *"qızqaçırma"*nın izi, qalığıdır.

## QIZ QAPISI

*"Qız qapısı - şah qapısı: mini gələr, biri razı gedər!"*
(atalar sözü)

[ *rəmzi ifadədir, "bu qapının arxasında olanlar" anlamında işlənir* ] ◆ Xalq arasında ərə veriləcək **qızı** [178] olan bir ailəyə və bu ailənin evinə, onun qapısına verilən ad. Qızı bəyənib **nikah** [203] yolu ilə onu almaq arzusunda olan **oğlan** [208] və onun yaxın adamları bu yad, amma yeni qohum ola biləcək ailənin qapısını **elçi** [81] və digər sifətlərdə döyüb (çox vaxt bir neçə dəfə), qız ata-anasının bu nikaha razılığını almalıdırlar. Bu, çox müşkül işdir, nəticəsi isə bəzən əvvəlcədən heç bilinməz. Odur ki, ondan ötrü, adətən, ciddi hazırlıq aparmaq lazım gəlir.

## QIZ QONAQLIĞI

*"Qız qızıldı, qədrini bilsin gərək"*
(atalar sözü)

◆ Şəkidə nişanlı qız şəninə qonşular və rəfiqələr tərəfindən verilən silsilə məclislərin adı. ◆ **Ərə** [89] veriləcək qız növbə ilə qonşuların və tay-tuşlarının evinə dəvət edildikdə, ətrafda yaşayan subay qızlar buraya toplaşıb onun qabağında oxuya-oxuya, fındıqça çala-çala oynayır, *"bir deyib beş gülürlər"*. ◆ Bir para bölgələrdə isə bu məclislərə *"qonaqlıq gəzməyi"* (Goranboy), *"elqonaqlığı"* və *"sıra qonaqlığı"* deyilir. Bəzi yerlərdə bu adı **qızyığdı** [178] məclisi daşıyır.

## QIZ OTAĞI

◆ Qız toyu şənliklərinin üçüncü - **gəlinapardı toyu** [98] günü **qız evində** [178] gəlinin geyinib-kecinməsi üçün ayrılmış **bəzək otağının** [37] bir başqa adı. ◆ Bu otağa bəzi yerlərdə səhvən *"gəlin otağı"* deyirlər, halbuki həmin otaq **ər evində** [89] yerləşərək tamam başqa məqsəd üçün istifadə olunur. ◆ *"Bəyi gətirib qız otağına qatdılar"* ifadəsi də səhvən buradan doğmuşdur.

## QIZOYNATMA

◆ XX əsrin əvvələrində şəhərlərdəki kişi toyu məclislərində müxtəlif millətlərdən qadın rəqqasə və **çəngilərin** [50] rəqs etməsi. Bununla toya daha çox adam cəlb etmək olurdu. Bəzi varlı qonaqlar oyun vaxtı rəqqasələrin alnına qızıl pul yapışdırırdılar.

## QIZ OYUNLARI

◆ Bəzi yerlərdə **xınayaxdı toyu** [135] və **qızyığdı** [178] məclislərində **nişanlı** [205] qızın subay tay-tuşları tərəfindən icra olunan bir sıra məzəli səhnəciklərin ümumi adı. ◆ Cavan *"bəy"*, acgöz *"qayınata"*, şorgöz *"molla"*, qarınqulu *"qazı"*, sədaqətli *"yengə"* və digər surətlərdə çıxış edən qızlar **nişandan** [205] tutmuş **gərdək gecəsinə** [100] qədərki toy tədbirlərini təsvir edir, bəzən isə bunlara heç dəxli olmayan gülməli səhnəciklər göstərirlər. ◆ Oyunlar, bir qayda olaraq, mahnı və rəqslərlə müşayiət olunurlar.



Azərbaycan Milli Kitabxanası

## QIZ SAĞDIŞI

◆ Ərə verilən qızın ən yaxın rəfiqəsi və ya ərli **bacılığı** [22] sayılıb qız və oğlan evlərindəki toy məclislərində, adət üzrə, gəlin qızın sağ tərəfində duran cavan qadına verilən ad. ◆ **Nişantaxdı toyu** [205] mərasimində *"ərli qadınlar"*ın nümayəndəsi tək qız sağdışı seçilən bu cavan gəlin **qız soldışı** [178] ilə bərabər **xınayaxdı toyu**ndan [135] başlayaraq, **gəlin otağına** [98] qədər gəlin qızı müşayiət edir, onun hər arzusunu yerinə yetirir. ◆ Bəzi hallarda o, özündən qat-qat təcrübəli **qız yengəsi**nin [178] vəzifəsini də icra etməli olur. Bəzən nişanlı qızın **gəlinlik cehizinə** [98] *"qız kilimi"* toxumaqdan ötrü pul verib xüsusi xalçatoxuyan da tutur. Bu cavan gəlin xınayaxma zamanı qız yengəsi və **məşşatəyə** [192] yaxından kömək edir, **gəlinlik hamamında** [98] gəlinin yanında olub camadar qadının göstərişlərini yerinə yetirir. **Gəlinbəzəmə, gəlinin cülusu** [98] və oğlan evindəki gəlinlik otağında soldışla yanaşı gəlinin çiyinləri üstündə xüsusi *"vəziri"* şamlar, gəlini **ər evinə** [89] aparan toy karvanında **gəlin çırağını** [98] tutur, gəlin otağında isə yenə soldışla birlikdə qızın başı üstə **kəlləqənd** [146] saxlayır. ◆ Bir para yerlərin adətinə görə, bu cavan qadın gəlin qızın şərəfinə bir *"şax"* bəzəyib xınayaxdı toyu günü onu təntənəli şəkildə qızgilə gətirir. ◆ Xalq arasında bu qadına bəzən *"qızyanı"*, *"ərusbər"* və *"gəlin sağdışı"* da deyirdilər.

## QIZ SOLDIŞI

◆ Qız evində keçirilən bütün toy tədbirlərində **qız sağdışı** [178] ilə yanaşı fəal iştirak edib məclislərdə, bir qayda olaraq, əlində şam, gəlin qızın solunda dayanan, yaxud əyləşən ərgən qızın adı. ◆ O, gəlinin subay **bacılığı** [22] və ya tay-tuşlarından biri olaraq, **qızyığdı** [178] məclisində bu "vəzifəyə" seçilib bundan sonrakı toy mərasimlərində gəlinin subay rəfiqələrini təmsil edir. ◆ Sağdışın köməkçisi olmaqla yanaşı, o, gəlin ətrafında qızların ifa etdikləri rəqs və oxumaların bilicisi və təşkilatçısı tək tanınır, onların hazırlanması və ifasına nəzarət edir. ◆ O, **toy alayında** [269] gəlin qızın **bəxt güzgüsünü** [34] tutur və nəhayət, **gərdək** [100] arxasında sağdış və gəlin qızla birlikdə, əlində şam, bəy oğlanın gəlişini gözləyir. ◆ Toydan sonra həm oğlan, həm qız evi təmənnasız xidmətlərinə görə ona bir neçə hədiyyə verir. ◆ Bəzən onu *"gəlin soldışı"* da adlandırırlar.

## QIZ ŞAXI

◆ Bir para bölgələrin qaydasınca, **qız sağdışı**nın gəlin köçən qızın şərəfinə hazırlayıb bəzədiyi, sərv, küknar ağacını xatırladan xüsusi toy qurğusu - **şaxın** [248] adı. Bəzənilməsi xüsusi mərasimlə müşayiət edilən bu qurğu **xınayaxdı toyu** [135] axşamı adaxlı oğlan, onun sağdış-soldışı və digər cavanların iştirakı ilə qız sağdışının evindən qaldırılıb çala-çala, oxuyub-oynayaraq qız evinə gətirilir. Sabahı - **gəlinapardı toyu** [98] günü bu qurğu oğlan evinə aparılan zaman **toy alayında**kı [269] oğlan adamları, adətən, ondan bir şey qoparmaqa çalışır. ◆ El əqidəsincə, kim ondan qoparılmış şirni və s. yeməli şeylərdən yeyib yatsa, yuxuda öz "qisməti"ni görə bilər. ◆ Digər qaydaya görə, kim bu qurğudan qoparılmış bir əşya ilə oğlan evinə gələrsə, onu qiymətli xələt, at, damazlıq heyvan, yaxud bir dəst paltar gözləyir. Əgər bu şaxdan şey qoparan yaxalanarsa, əşya onun əlindən alınır, özü isə "cəzalanır". ◆ Odur ki, toy günü qurğu oğlangilə aparıldıqda, onu xüsusi "mühafizə dəstəsi" müşayiət edir. Nəhayət, o, oğlan evinə çatdırılıb gəlinlik otağında **oğlan şaxı** [208] ilə yanaşı qoyulur.

Azərbaycan Milli Kitabxanası

◆ Bəzi yerlərdə isə qızın sağdış-soldışı iki şax - biri bəy oğlan, o birisi gəlin qız şərəfinə hazırlayır. ◆ Ona *"gəlin şaxı"* da deyirlər.

## QIZ ŞİRNİSİ

◆ Rəsmi böyük kişi elçiliyi **hərialdıdan** [119] bir ay sonra gəlin alınacaq qızı nişanlamaq niyyətilə qadınların qız evində çağırdığı kiçik nişan mərasimi - **üzükşal toyu**nda [282] məclisdəki qonaqlara, sonra isə qonşulara paylanan **şirni**nin [259] adı. ◆ Bir para yerlərdə isə bu, **nişan** [205] mərasiminin özünə verilən addır. ◆ Ayrı-ayrı bölgələrdə ona "**ağız şirinliyi**" [5], "**nişan şirnisi**" [205] və s. deyirlər.

## QIZ TELİ

◆ **Qız toyu** [178] şənliklərinin üçüncü günü - **gəlinapardı toyu**nda [98] gəlin bəzənən zaman onun yaxın adamlarından birinin qızın saçından kəsərək, anasına verdiyi saç topasının adı. ◆ İbtidası qədim **telliduvaq** [265] ilə bağlı bu adətə bəzən *"gəlin teli"* də deyirlər.

*"Deşələr göy üzündə toy var,*
*qadınlar oraya nərdivan qoyar"*
(atalar sözü)

## QIZ TOYU

◆ Vaxtilə qız evində bir-birinin ardınca üç gün icra olunan **paltarkəsdi** [215], **xınayaxdı** [135] və **gəlinapardı** [98] toy mərasimlərinin ümumi adı. Sonralar onların keçirilmə günləri arasında bir həftə, yaxud üç-dörd günlük fasilələr yaranmış və nəticədə, həmin mərasimlər toyqabağı müstəqil şənliklərə çevrilərək bizim günlərdə də qeyd olunmaqdadırlar. ◆ Əslində isə, onlar böyük bir toy mərasiminin hissələri, necə deyərlər, ayrı-ayrı "pərdə"ləridirlər. Qaydaya görə, gündüz çağı, həm qız, həm oğlan evi qadınlarının iştirakı ilə keçirilən üç toyun "birinci pərdəsi" - *paltarkəsdi toyu*nda gəlinin bütün bəzək və zinət əşyaları, onun üçün alınmış pal-paltar oğlan evindən qızgilə gətirilir və burada çalğı və oxumaların müşayiətilə gəlin qızın **ər evinə** [89] köçürüləcək günü geyəcəyi **gəlinlik paltarı** [98] dəsti biçilib-tikilir. ◆ İkinci mərasim - *xınayaxdı toyu*nda gəlinin saçlarına, əl-ayağına xına yaxmaqla o, rəsmi şəkildə *"gəlinlik rütbəsinə"* nail olur. ◆ Üçüncü mərasim - *gəlinapardı toyu*nda isə gəlin qızın üz-gözü və bədəni lazımi görkəmə salınır, o büsbütün toya layiq tərzdə bəzənərək **gəlinlik taxtına** [98] qalxdıqdan sonra, təntənəli şəkildə, **cehizi**lə [42] bərabər təzə mənzilə - ər evinə köçürülüb oradakı **oğlan toyu**nun [208] iki "qəhrəman"ından birinə çevrilir. ◆ Erkən çağlar qız üçün ayrıca toy məclisi qurmaq dəbdə olmamış, **ulu toy** [272] yalnız oğlan evində çaldırılmışdır. Qızın dədəsi evində isə *xınayaxdı* və ya **qızyığdı** [178] məclislərilə kifayətlənmişlər. ◆ Ayrı-ayrı bölgələrdə bu toy mərasimini *"adax toyu"* (Salyan, Biləsuvar), *"arvad toyu"* (Abşeron), *"qızaldı toyu"*, *"gəlin toyu"*, *"ərus toyu"* və *"xına toyu"* adlandırırlar.

*"Toy toybəyisiz, gəlin yengəsiz olmaz"*
(atalar sözü)

## QIZ YENGƏSİ

◆ Milli toy adət-ənənələrimizin gözəl bilicisi və qoruyucusu kimi, qız evi tərəfindən **toy** [269] mərasiminin bütün mərhələlərində iştirak etmək üçün dəvət edilmiş peşəkar qadına verilən ad. ◆ Xalqımız arasında xüsusi ehtirama və böyük həyat təcrübəsinə malik olan bu yaşlı, ərli qadın, toy tədbirlərini hazırlayıb-keşirməklə əlaqədar qız

Azərbaycan Milli Kitabxanası

evinə dəyərli məsləhətlər verir, çox vaxt **ara arvadı**ndan [11] tutmuş **toy dəvətçisinə** [269] qədər vəzifələri, ehtiyac olarsa *xınayaxma* və *gəlinbəzəmə* işlərini də öz üzərinə götürür. Başqa sözlə desək, o, **qız toyu**na [178] əməlli-başlı rejissorluq edir. ◆ Bir para yerlərin adətincə, toy günü qız yengəsi **gəlin qızı** [98] öz evinə apararaq orada **məşşatə** [192] əvəzinə onu geyindirib-kecindirir və oğlan adamlarının gəlişinə bir az qalmış dədəsi evinə gətirir. Sonra əlində **gəlin çırağı** [98] və **xonça** [138], qızın yanına düşüb onu təzə mənzilinə ötürür və bəy oğlan gələnə qədər gəlin qızla bir otaqda qalıb onu kəbinli ərinə tapşırır. ◆ Əslinə qalarsa, onun ən ümdə vəzifəsi nikah yatağını hazırlamaq, təcrübəsiz cavan qıza məhrəm həyat qaydalarını başa salmaqdır. ◆ Adət üzrə **gərdək gecəsi** [100] o, **oğlan yengəsi** [208] ilə birlikdə gəlin otağının qapısı ağzında durmalı, bütün gecə yatmamalıdır. Toyun sabahı isə o, qızın “üzüağ çıxdığı”-nın müjdəsini onun ata-anasına yetirməlidir. ◆ Onun başqa adları *"qızlıq yengəsi"*, *"elyengəsi // gəlin yengəsi // gəlinbacı"*, *"dərnə"* və *"yançaq"*dır (Naxçıvan).

*"Qız gedər gəlin olar, ay nənə"*
(toy oxumasından)

## QIZYIĞDI

◆ Böyük nişan mərasimi **nişantaxdı toyu**ndan [205] sonra, qız toyunun üçüncü, sonuncu tədbiri - **gəlinapardı toyu** [98] ərəfəsində, bəzən isə elə bu toy günü, günorta çağı qız evində keçirilən kiçik bir məclisin adı. ◆ Burada, evin ayrıca bir otağında, *"ərli qadınlar cərgəsi"*nə keçməyə hazırlaşan nişanlı qız gənclik, subaylıq çağlarının rəfiqələrini, subay tay-tuşlarını başına yığıb onlarla son dəfə şənlənir, vidalaşır. ◆ Süfrəyə yemək gətirilir, hamı yeyib-içir, şən və qayğısız qızlıq illərini yada salır, onların daha təkrar olunmayacağını qeyd edirlər. Bu arada qonaqlara, bir qayda olaraq, cavan gəlin - **qız sağdışı** [178] və ya qızın **bacılığı** [22] xidmət edir. Elə bu məclisdə qızın subay rəfiqələri arasından birini toy üçün gəlin qıza **soldış** [239] seçirlər. ◆ Yeyib-içdikdən sonra qonaqlar zarafatyana və məzəli şəkildə bir *"qız toyu keçirirlər"*. Sağdış **oğlan evi**ndən [208] gətirilmiş şal örpəyi nişanlı qızın başına salır və soldış ilə birlikdə, əllərində şam, qızın qoluna girərək onu həyətə, yaxud qonşu otağa aparır və burada onu guya *"gəlinlik taxtı"*na çıxarırlar. Otağa qaval çala-çala daxil olan o biri qızlar, *"gəlin, taxtın mübarək"* sözləri ilə başlayan bir oxuma ifa edir, sonra *"qayınata önündə uzanıb yatma gəlin, qayınana sözünə sən söz qatma, gəlin..."* və buna bənzər nəsihətvari mahnılar oxuyurlar. Ardınca gülməli səhnələr, **Bacıbacı** [22], *"Günügünü"*, *"Fatmaxanım"* və bu kimi qız oyunları, *"Sındırın qızlar"* rəqsi ifa olunur. ◆ Adətən, burada qızlardan biri “nanay, nanay” deyir-oxuyur, digəri məcməyi, ləyən və ya mis teşt çalır, bir başqası isə əlindəki açarları cingildədir. Sonra qızlar bayatı-şer deyişmələri keçirir və arabir ayrılıq çağını yada salaraq, kövrəlib ağlayırlar. *"Taxt"*da əyləşmiş nişanlı qız bunlardan təsirlənsə də, bıçaqla qabağındakı almalardan dilim-dilim kəsərək, ona yaxınlaşan subay qızlara paylayır ki, onların da bəxti açılsın, onlar da tez bir zamanda ərə getsinlər. ◆ Bir para yerlərin qaydasınca isə, süfrə yığıldıqdan sonra sağdış barmağını bir kasaya salıb oradakı xına ilə qızın sağ əlinə adaxlı oğlanın adının, sol əlinə isə qızın öz adının baş hərflərini yazır. Bundan sonra digər ərgən qızlar istəklilərinin adının baş hərfini ovuclarına yazırlar (bəzi yerlərdə bu adət **xınayaxdı toyu**nda [135] icra olunur). ◆ Çox vaxt isə bu məclis əvvəlcədən razılaşdırılaraq oğlan evində keçirilən **oğlan qonaqlığı** [208] ilə üst-üstə düşür. Bu zaman qız tərəf həmin qonaqlığa müxtəlif hədiyyə ilə dolu xonça və bir qazan plov göndərir. ◆ Qonaqlar bir az əyləndikdən sonra nişanlı qızla sağollaşıb evlərinə qayıdır və əski qaydaya görə, sonrakı toy tədbirlərində əsla iştirak etmirlər. Amma bir para yerlərdə, məclis toy günü keçirildikdə, onun sonunda qonaqlar, qız, sağdış-soldışı ilə birlikdə



Azərbaycan Milli Kitabxanası

**toyxanaya** [269] yollanırlar. ◆ Digər yerlərin adətinə görə isə, bu qonaqlıqdan sonra qızın yaxın rəfiqələri növbə ilə öz evlərində nişanlı qızın şərəfinə ziyafət (həmin qonaqlıqlar da eyni adı daşıyırlar) verərək, qızı və onun **subay** [241] tay-tuşlarını oraya dəvət edirlər. ◆ Bəzi yerlərdə *xınayaxdı toyu* bu adı daşıyır. ◆ Lənkəran və Masallıda bu məclisə *"qızbaşı"*, *"qızbaşı toyu"*, Tovuz bölgəsində - *"qızdəsi"*, Şəkidə - *"qız qonaqlığı"*, Quba və Abşeronda - *"yığva // yığvə"*, başqa yerlərdə isə *"qız məclisi"*, yaxud *"qızlar məclisi"*, *"qızyığnağı"* deyilir. ◆ Toydan sonra **təzəgəlinin** [267] yeni mənzilində qızların yığıldığı bir məclis də bu adı daşıyır.

## QIZYOLU

◆ Bir para bölgələrimizin dilində, toyqabağı tədarük və **gəlinlik cehizi** [98] hazırlamaqdan ötrü oğlan tərəfin nişanlı qızın valideynlərinə toy ərəfəsində verdiyi maddi vəsait - **başlığın** [29] adlarından biri. ◆ Bu deyimə "Kitabi Dədə Qorqud" dastanlarında da rast gəlinir. ◆ Onu bəzən *"qızəvəzi"* və *"qızpulu"* (Quba) da adlandırırlar.

**179.**

## QOHUMPAYI

◆ **Qız toyundan** [178] bir neçə gün əvvəl oğlan evinin qızgilə göndərdiyi **bazarlıqdan** [31] başqa, oğlan anasının gəlin qızın ata-anası, bacı və qardaşları üçün ayırdığı xüsusi payların adı. ◆ Bir para yerlərdə bu paylara *"qohumkərə"* və *"görəlgə"* də deyirlər.

**180.**

## QONAQLIQ

◆ **Evlənmə** [84] ilə bağlı əhəmiyyətli bir hadisə, bir mərhələ münasibətilə qız və ya oğlan evinin bu tədbirə qonum-qonşunu, yaxın tanışları yığmaqla keçirdiyi ziyafət, yeyib-içmə məclisi. ◆ Buraya **"bəy qonaqlığı"** [36], **"el qonaqlığı"** [80], **"qız qonaqlığı"** [178], **"quda qonaqlığı"** [182], **"oğlan qonaqlığı"** [208], **"yengə qonaqlığı"** [296] və s. məclislər daxildir. ◆ Onun *"qunaqlıq"* (Quba) deyiliş şəkli də var.

## QONAQLIQ GƏZMƏYİ

◆ Yurdumuzun Goranboy bölgəsində toyqabağı müddət ərzində **ər evinə** [89] köçməyə hazırlaşan **nişanlı** [205] qızın qonum-qonşu və yaxın rəfiqələrinin evlərinə, bir qayda olaraq, növbə ilə qonaq çağırılması ilə bağlı **el qonaqlığı** [80] silsilə məclislərin başqa adı. ◆ Şəkidə ona *"qız qonaqlığı"* deyirlər.

**181.**

## QUAL

[ *"qaval" sözünün təhrifidir* ] ◆ Oğlan evi tərəfindən **oğlan toyunun** [208] üç mərasiminə

Azərbaycan Milli Kitabxanası

dəvət olunub, adət üzrə, buradakı bütün tədbirlərdə çalıb-oxuyaraq qonaqları əyləndirən peşəkar çalğıçı üçlüyünə Abşeron kəndlərində verilən ad. ◆ Əslinə qalarsa, bu **toyçu**nun [269] bir başqa adıdır.

**182.**

*"Xalq qız verib quda qazanır"*
(atalar sözü)

## QUDA

◆ Xalq arasında yaşayan əski adət-ənənəyə görə, **oğlan**la [208] **qızın** [178] **toy** [269] çaldırıb **evlənməsi** [84], **nikah** [203] bağlaması nəticəsində ortaya çıxan yaxın qohumluq münasibətlərinə işarə olaraq, **bəy oğlan** [36] və **gəlin qızın** [98] ata-anasının bir-birini çağırdıqları ad. ◆ Bəzi yerlərdə ona *"düngür // dünür"* deyilir.

*"Qudaaşı, könül xoşu"*
(atalar sözü)

## QUDAAŞI

◆ Oğlan evində keçirilən **vəzourt** [287] // **qabqaytarma** [158] məclisindən bir müddət sonra oğlan tərəfin qızgilə göndərdiyi südlüplov, yaxud cücəplova verilən ad. ◆ Onu iri bir qaba və ya qazana çəkib evin kiçik oğlu, yaxud qohum qadınla qız evinə göndərirlər. Bəzən plov əvəzinə lazımi miqdarda düyü, qoyun əti, kərə yağı və s. ərzaqdan ibarət xonçalar tutulur və ya yarpaq dolması aparılır. Qız evi isə plov və ərzaq gətirənlərə, bir qayda olaraq, xələt verir. ◆ Abşeronda bu plova *"nişanaşı"* deyirlər.

*"Quda qudurub, qızın aparıb"*
(atalar sözü)

## QUDA QONAQLIĞI

◆ Vaxtilə Abşeronda **gəlingətirdi toyun**dan [98] qırx gün keçmiş, bizim zamanda isə **həftə hamamın**dan [117] sonra, həm qız, həm oğlan evində çağırılan qonaqlıqların adı. ◆ Bu qonaqlığa qız atası **quda**larını [182], təzəbəyin qardaş və bacılarını, qızı və kürəkənini dəvət edir. Həmin qonaqlıqdan beş-on gün keçmiş, bəyin atası da bu cür ziyafət verir. Bu ziyafətlərdən sonra **təzəgəlin** [267] daha heç kəsdən *"yaşınmır"*. ◆ Başqa yerlərdə buna *"ayağaçdı"* da deyirlər.

*"Quda olanda dövlətə baxmazlar,
böyütdüyü övlada baxarlar"*
(atalar sözü)

## QUDALAŞMA

◆ Evlənən cavanların valideynlərinin bir-birinə *"təzə qohum"* - **quda** [182] olması işinin adı. ◆ Ayrı-ayrı yerlərdə bunu *"dünürləşmə"*, yaxud *"qayınlaşma"* da adlandırırlar.

## QUDALIQ

◆ Adamlar bir-birinə **quda** [182] olduqdan sonra, onların arasında yaranan sıx ünsiyyət, qohumluq əlaqələri anlamında işlənən söz. ◆ Həmçinin, kiçik nişan - **üzükşal toyu** [282] və böyük nişan - **nişantaxdı toyu** [205] mərasimləri zamanı oğlan evindən qızgilə aparılan xüsusi xonçaların adı. Onların başqa adı *"qayınlıq"* və *"dünürlük"*dür.

## QUDAPAYI

◆ Yurdumuzun milli bayramlar günü, bir qayda olaraq, hər iki evdən qudaların qar-

Azərbaycan Milli Kitabxanası

şılıqlı şəkildə bir-birinə göndərdikləri şorqoğal, şəkərbura, paxlava, nübar meyvə və digər yeməklərdən ibarət sovqatın adı. Bəzən bu yeməklərə **bayramaşı** [30] deyilən bir sini plov da əlavə olunur. Adət Abşeron kəndləri üçün daha səciyyəvidir.

**183.**

## QURBANKƏSMƏ

*"Yoxsa ki, göydən enibsən, kəsirlər qurbanı sənə"*
(toy oxumasından)

◆ Toy tədbirlərində və Qurban bayramı zamanı bəy oğlan və gəlin qızın ayağı altında qoç, toğlu və ya başqa heyvan (düyə, cöngə) kəsmək adəti. ◆ **Gəlinlik hamamından** [98] sonra nişanlı qız atası evinin həyətinə qədəm basdıqda, **gəlingətirdi toyu** [98] zamanı isə **ər evinin** [89] darvazası ağzında, yaxud minik qabağında onun ayağı altında, **bəydurma** [36] vaxtı isə bəy oğlanın ayağı altında qurbanlıq heyvanı, bəzən isə bir neçəsini yerə sərir, heyvanın ağzına bir tikə nabat qoyub çıxardıqdan sonra, başını qibləyə çevirərək ona güzgü göstərib başını kəsirlər. Sonra heyvanın qanını qara örtüklə örtür, ciyərini isə qara əskiyə büküb, adətən, tez içəri aparırlar ki, "göyüzünü görməsin". ◆ Adət-ənənəyə görə, bunu əsasən tək oğlu olanlar edir və xalq inamına görə bu heyvanın ətindən bəy oğlan və gəlin qız əsla yeməməlidir. ◆ Uzaq keçmişdə qurban kəsilmiş heyvanın qaraciyərinə baxıb, təzə evlənənlərin gələcək taleyini öyrənmək üçün fal açırdılar.

## QURBANLIQ

*"Bayramda atdan, qurbanda ətdən"*
(atalar sözü)

◆ Qurban bayramı vaxtı **oğlan evindən** [208] **nişanlı** [205] qızgilə göndərilən buynuzlu erkək, yaxud kəsilmiş qoyun ətindən ayrılan xüsusi payın adı. ◆ Ümumiyyətlə, qurbanlıq heyvan ancaq təmiz və sağlam olmalıdır. Onun boynuna, buynuzlarına və belinin ortasına qırmızı lent bağlayır, yaxud başına və ayağlarına xına yaxır, boynuna al qırmızı ləçək dolayırlar. ◆ Ötən çağlarda isə erkəyin buynuzlarına büsbütün nazik zərvərəq yapışdırılır, alnına və ya boynuna kiçik güzgü, yaxud həmayıl və şirni asılır, gözlərinə sürmə çəkilirdi. **Qız evində** [178] heyvangətirənə, adət üzrə, **xələt** [132] verilir, kəsilmiş ətin yarısı isə geri qaytarılır. Burada həm qız, həm oğlan tərəf öz paylarından *"yeddi tikə"* ayırıb, *"yeddi evə"* paylayırlar. ◆ Bəzi yerlərdə isə qız evi öz payından lüləkəbab, gürzə və dolma bişirib yenidən oğlangilə göndərir. Bu pay həmçinin *"bayramlıq"*, *"qurbanpayı"* və *"yeddipay"* da adlanır.

**184.**

## QURŞAQ

◆ Toy günü **bəydurma** [36] mərasimi zamanı və ya **bəylik hamamında** [36] **sağdış** [225] və ya məhəllə ağsaqqalı tərəfindən **adaxlı** [1] oğlanın belinə arxalıq və ya çuxa üstündən, bəzən isə kəmər əvəzinə sarılan uzun və ensiz parçaya (ipək, məxmər və s.) və ya kəlağayıya verilən ad. ◆ Bir vaxtlar beli sıx tutmaq üçün sarılan bu belbağı növü həm kişi, həm də qadın libasında çox önəmli olub. Kişilər həmin sarıqdan cib kimi də istifadə edərək, onun büzmələri arasında xəncər-bıçaq, tənbəki və pul kisəsi, saat və açar yerləşdiriblər. Belinə qurşaq bağlayan **bəy oğlan** [36], bir qayda olaraq, onun ön tərəfindən üç yaylıq sallayırmış.

Azərbaycan Milli Kitabxanası

## QURŞAQBAĞLAMA // QURŞAQLAMA

◆ Ərə veriləcək qız üzərində **gəlinbəzəmə** [98] zamanı, evlənən adaxlı oğlan üzərində isə **bəydurma** [36] mərasimində icra olunan **kəmərtaxdı** [147] ayininin başqa adı. ◆ Bəzi bölgələrdə təzəgəlinin **ər evinə** [89] köçüb gəlməsi münasibətilə bəyin yaxın qohumlarının onun şərəfinə verdiyi qonaqlıq da belə adlanır. Çox vaxt **belbağlama** [32] ayini də bu adla çağırılır. ◆ Onun *"qurşaqvurma // qurşanma"* deyiliş şəkli də var.

**185.**

## LƏXLƏXƏ

◆ Əski çağlar **gəlin qızın** [98] **gəlinlik hamamında** [98] istifadə etdiyi xoşqoxulu, özünəməxsus bir ətir məhlulunun adı. ◆ Tərkibi boz kəhrəba, ud ağacı, zümrüd yağı, gülxətmi şirəsi və ceyran mədəsinin qarışığından ibarət olan bu məhlul insan bədənindəki tükləri büsbütün təmizləməklə yanaşı, dərini ağ, zərif və yumşaq edirdi.

**186.**

## LOTU

◆ XIX yüzilin sonu, keçən əsrin əvvəllərində qədim məsqərəbazlıq ənənələrini davam etdirən komik oyunçu-təlxəyə verilən ad. ◆ **Toy** [269] məclislərinə dəvət olunan bu təlxək gözbağlıca göstərib meyxana, qaravəlli söyləyirdi. Bundan başqa o, oyun vaxtı yamsılama yolu ilə müxtəlif insan və heyvan cildinə girir, əhliləşdirilmiş meymun, ayı və tutuquşudan istifadə edib məclisdəkiləri əyləndirirdi.

## LOTUBEÇƏ

◆ Ötən zamanlar toy məclislərində, bir qayda kimi, məsqərəbaz və təlxək - **lotu** [186] ilə birlikdə çıxış edən kiçikyaşlı oğlan uşağının və ya cırtdan kişinin adı. ◆ Oyun zamanı o, həm lotuya kömək edir, həm də öz gödək boyu və eybəcər görkəmi ilə tamaşaçıları güldürürdü. ◆ Ona *"bala lotu"* və *"lotubala"* da deyirdilər.

## LOTU TOYU

◆ Keçən yüzilin əvvəllərində şəhərlərdə çaldırılan toy məclisi növü. ◆ Bu məclisdə iri muğam dəstgahlarının ifasına əsla fikir verilməz, buraya bir zurnaçı dəstəsi və bir xanəndə çağırılar, çox pul toplamaq məqsədilə *"qız oynadılar"*dı. Təlxək-**lotu** [186] (onların ən məşhuru Məşədi Cabbar olmuşdur), rəqqasə və **mütrüb** [198] məclisdəkiləri məşğul edib əyləndirirdi. ◆ Bu cür toylar Bakı üçün daha səciyyəvi olmuşdur.

**187.**

## MAĞAR // MAĞARDAMI

[ *"mağara" sözündən götürüldüyü güman edilir* ] ◆ Yurdumuzun kənd yerlərində çaldırılan

Azərbaycan Milli Kitabxanası

**toy** [269] şənlikləri üçün müvəqqəti qurulmuş xüsusi qurğu - böyük bir çadır, yaxud bir neçə çadırın adı. ◆ Bəzi yerlərdə isə **toyxana**ya [269] verilən ad. ◆ Qazax, Ağdam, Oğuz bölgələrində bu deyim *"toy məclisi"* anlamında işlənən bir sözdür. Borçalıda toyda salınan pul, **sağdış-soldış** [225] və toyda verilən yemək də bu adı daşıyır.

## MAĞARBAŞI

◆ Bir para yerlərin dilində **oğlan və qız toylarını** [208], [178] idarə edən peşəkar sərəncamçı - **toybəyi** [269] (o çox vaxt bu işdən ötrü dəvət edilir), bəzənsə evlənmək, **nikaha** [203] girmək münasibətilə çaldırılan təntənəli *"toy-düyün məclisi"* mənasında işlənən deyim. ◆ Onun başqa adı *"düyünbaşı"* və *"toybaşı"*dır.

188.

## MAHİ-ƏSƏLİ

[ *"bal ayı" anlamındadır* ] ◆ Daha çox klassik ədəbiyyatımızda təsadüf edilib toy şənliklərindən sonra təzəbəylə gəlinin birlikdə yaşadığı bir ay müddətinin adı. ◆ Bu vaxt ərzində imkanlı yeni evlənənlər, bir qayda olaraq, uzaq yerlərə səyahətə çıxır, görmədikləri şəhərləri gəzirlər. ◆ Sonralar bu müddətə *"bal ayı"* və ya *"ballı ay"* dedilər.

189.

## MEHİR // MEHR

[ *"məhr, məhriyyə" sözündən olub, nikahpulu deməkdir* ] ◆ Miqdarı **kəbinkəsdi** [143] mərasimində təsdiq olunub təzə mənzilə köçürüləcək gəlinə, gələcəkdə o boşanarsa, ərinin ona verəcəyi pulun adı. ◆ Babalarımızın inancına görə, mehriyyəsiz kəbin batildir. Başqa sözlə, bu, **kəbin kağızında** [143] *"talaq"* üçün müəyyən edilmiş kəbinhaqqıdır. ◆ Onun miqdarı toydan çox-çox qabaq, elçilik vaxtı, oğlan evinin maddi vəziyyətindən asılı olaraq müəyyən olunur və heç vaxt geriyə alınmır. Qız tərəf, adətən, onun yüksək olmasına, oğlan evi isə onun aşağı salınmasına çalışır. ◆ Qaydaya görə, bu məbləğ toydan bir neçə gün əvvəl ödənilməlidir, amma çox vaxt oğlan evi buna yalnız söz verməklə kifayətlənir, molla da kəbin kağızında bunları qeyd edərək imzalayır. Həmin vəsait qadının şəxsi mülkiyyəti sayılır, boşanma qadının təşəbbüsü ilə baş verərsə, qayda-qanuna görə, o bu pulun yalnız yarısını alır. ◆ Vaxtilə bəzi varlı ailələrdə pul əvəzinə yarızarafat, yarıgerçək sayaraq, həyatda mümkün olmayan miqdarda, məsələn, bir pud söyüd ağacının külü, yaxud quru soğan qabığı, bəzən isə 22 pud mis yazdırılır. Bəllidir ki, söyüd ağacı yandırıldıqda onun heç vaxt külü qalmır, soğanın qabığı isə çox yüngül olduğuna görə, boşanma zamanı kişi qadına bu "miqdarda" kül-qabığı vermək iqtidarında olmur. ◆ Şəki və Zaqatalada bu deyim *"mihir"* kimi, başqa yerlərdə isə *"mehriyyə"* və *"mehrpulu"* tək tələffüz edilir.

## MEHİR KAĞIZI

◆ Əsas etibarilə **toy** [269] günü keçirilən **kəbinkəsdi** [143] mərasimində tərtib olunub



Azərbaycan Milli Kitabxanası

evlənmə işini rəsmi şəkilə salan **izdivac** [142] şəhadətnaməsi - **kəbin kağızının** [143] başqa adı. ◆ Xalq ağzında bu ad bəzən təhrif olunaraq *"möhür kağızı"* tək səslənir. Vaxtilə isə ona *"əqd qəbaləsi // əqdnamə // əqd kağızı"* və *"nikah kağızı"* da demişlər.

**190.**

## MEYXANA

◆ Abşeron kəndlərində **oğlan evində** [208] çaldırılan **ixtilat toyu** [141] gecəsində və ya **gəlingətirdi toyu**nun [98] sonunda cavan qonaqların keçirdiyi şer məclisinin və burada ifa olunan məzəli şer növünün adı. ◆ Azı iki məhəllə şairi toyxana ortasında əyləşib (birinin əlində qaval və ya nağara, bəzən isə çalğısız, yaxud qavalı bir başqası çalır) deyişmə şəklində, məclisin ruhuna, qonaqların səviyyəsinə uyğun bədahətən şerlər qoşurlar, səslənən nəqərat isə məclisdəkilər tərəfindən bir ağızdan təkrar olunur. Bu, adətən, həcv səciyyəli, oynaq və şux ovqatlı deyişmələrdə məclisə qatılan ayrı-ayrı şəxslərdən, onların peşə, xasiyyət, görkəm və davranışlarındakı bəzi qüsurlardan, yaxud kənddə, məhəllədə baş vermiş qeyri-adi və ya məzəli hadisələrdən danışılır. Bu şerlərdə adları çəkilən şəxslər, qaydaya görə, **şabaş** [245] verməlidirlər. ◆ El-oba içində bu növ şerə bəzən *"bədyə"* (*"bədihə"* sözündəndir) də deyirlər.

## MEYXANAÇI

◆ Bəzi yerlərin qaydasınca, **oğlan evindəki** [208] toy şənliklərinin axırında, qonaqların çoxu dağılandan sonra keçirilən **meyxana** [190] məclisində iştirak edən və bir qayda olaraq, qabaqcadan hazırlaşmadan, monoloq şəklində, yaxud başqa ifaçılarla deyişərək, bədahətən şer söyləyən məhəllə şairi və ya məzhəkəçiyə verilən ad. ◆ Xalq arasında ona hərdən *"bədyəçi // bədihəçi"* də deyirlər.

**191.**

## MƏSLƏHƏT

◆ Abşeronda **oğlan evində** [208] üç gün davam edən toy şənliklərinin birinci gününə - **ixtilat toyuna** [141] verilən ad. Başqa yerlərdə isə toydan bir gün əvvəl həm oğlan, həm də qız evində çağırılan bir toy tədbirinin adı. ◆ Vaxtilə bu məclisə, bir adət olaraq, kişilər, o cümlədən məhəllə ağsaqqalları, kəndxuda və yüzbaşı da dəvət olunurdu. ◆ Bəzi yerlərdə isə bu tədbir iki hissədən - **kiçik və böyük məsləhət**dən [150], [41] ibarət olur. *"Kiçik məsləhət"*ə ancaq yaxın qohumlar toplandığı halda, *"böyük məsləhət"*ə daha çox adam yığılır, onlar üçün süfrə açılır, yemək verilir. Yeməkdən sonra isə toy günü kimin hansı iş görəcəyi, toya nə qədər adam çağırılacağı, toyxananın harada və necə qurulacağı müəyyənləşdirilir. ◆ Bu tədbirə *"məsləhət toyu"*, *"ixtilat axşamı // ixtilat gecəsi"*, *"məsləhət-məşvərət"*, *"sərpayı axşamı // toy axşamı"* da deyilir.

*"Məsləhətli aş dadlı olar"*
(atalar sözü)

## MƏSLƏHƏTAŞI

◆ Bir para yerlərin adətincə **ixtilat toyu** [141] gecəsi oğlan evinə **böyük məsləhətə**



Azərbaycan Milli Kitabxanası

[41] dəvət edilmiş qonum-qonşu və məhəllə ağsaqqalları üçün açılan süfrə və burada yeyilən plovun adı. ◆ Abşeronun bəzi kəndlərində bu adı bütöv bir gecə daşıyır. ◆ Digər bölgələrdə bu süfrəni *"düyünçü çayı"*, *"güvey yeməyi"* adlandırırlar. ◆ Onun *"məsləhətli aş"* deyiliş şəkli də var.

**192.**

*"Zəhməti məşşatə çəkər, ləzzəti damad aparar"*
(atalar sözü)

## MƏŞŞATƏ

◆ **Gəlin qızın** [98] *"ağız-burnunu düzəltmək"*, onu müvafiq görkəmə salmaq üçün qız toyuna dəvət edilən peşəkar bəzəkçi qadının adı. ◆ Bəzən onlar iki nəfər olur. Xalq arasında bu ustaya daha çox **bəzəkçi** [37], **başbəzəyən** [29], **dərnə** [61], **düzgüçü** [79], **yazıcı** [293], **üzalan** [278] və s. deyirlər. ◆ Qədim tarixə malik bu sənət və adın el-oba içində *"meşşatə"* tələffüz şəkli də var. Klassik ədəbiyyatda isə o, bir qayda olaraq, *"bəndəndaz"*, *"çöhrəpira"* adı ilə çağırılır.

**193.**

## MƏTBƏXXƏRCİ

◆ Qız evində icra olunan **paltarkəsdi** [215], **xınayaxdı** [135] və digər toy məclislərində bişiriləcək yemək üçün oğlangildən göndərilən ərzaq - ət, yağ, düyü və s. **bazarlıq** [31], yaxud onun əvəzində verilən nəqd pula verilən ad. ◆ Əslində bu deyim və adət Abşeron üçün daha səciyyəvidir. Burada onun *"mitmaxxərci"* deyiliş şəkli də var.

**194.**

## MİNNƏTÇİ

[ *"özgə üçün bir şey xahiş edən"* mənasındadır ] ◆ Bəzi bölgələrimizin dilində **oğlan** [208] evləndirmək, başqa bir ailədən ona **qız** [178] istəmək məqsədilə ata-ananın tapşırığı ilə qızgilə yollanan və **elçi** [81] vəzifəsini yerinə yetirən qadın və ya kişiyə verilən ad. ◆ Onu bəzən *"minnətli"* də adlandırırlar.

## MİNNƏTÇİLİK

[ *"vasitəçilik"* anlamındadır ] ◆ Yurdumuzun ayrı-ayrı yerlərində **oğlan və qız evləri** [208], [178] arasında ünsiyyət yaratmaqla istənilən qızın valideynlərinin **nikaha** [203] razılığını almağa çalışan **elçilik** [81] işinin başqa adı. ◆ Xalq arasında ona həmçinin, *"minnətçidüşmə // minnətçigetmə"* də deyirlər.

**195.**

*"Aşıqlara müjdə xələt verərlər"*
(toy oxumasından)

## MÜJDƏ XƏLƏT

◆ **Oğlan toyu** [208] şənliklərinin ikinci günü - **gəlingətirdi toyunda** [98] oğlan evinə

Azərbaycan Milli Kitabxanası

birinci çatıb toy karvanının artıq yaxınlaşdığını xəbər verən **atlıya** [18], həmçinin toy məclislərində **bəyi** [36] tərifləyən **aşıq** [16] və xanəndəyə çatan hədiyyənin adı. ◆ **Gərdək gecəsinin** [100] sabahı **qız yengəsinin** [178] **gəlinin** [98] üzüağ çıxması münasibətilə qızın dədəsi evindən aldığı **xələt** [132] də bu adı daşıyır.

## MÜJDƏ YASTIĞI

[ *"muştuluq balışı" mənasındadır* ] ◆ Bəzi yerlərin adətincə, **gəlinapardı toyu** [98] günü toy karvanında qız ilə birlikdə **ər evinə** [89] gətirilən qırmızı rəngli kiçik ipək yastığın adı. ◆ Üstünə iynə-sap sancılmış bu yastığı gəlinin dədəsi evindən ən əvvəl çıxarılan çıraq və güzgüdən sonra azyaşlı bir qız və ya oğlan uşağı aparır. Sonra **toy alayının** [269] atlı iştirakçılarından biri həmin balışı qapıb o biri atlılara göstərərək, onu **bəy qapısına** [36] çatdıracağını bildirir və oğlan evinə tərəf çapır. O biri atlılar onun ardınca çaparaq yastığı ondan almağa çalışırlar. Hamıdan əvvəl özünü bəy qapısına yetirmiş atlı balışı bəy oğlana atır (və ya **oğlan yengəsinə** [208] verir). Bəy onu havada tutub əvəzində atlıya **nəmərpulu** [201] (ona **müjdə xələt** [195] deyilir) verir, atının boynuna isə bir yaylıq bağlayır, yaxud atın alnına bir yumurta çırpır. ◆ Əslində bu balışı qaçırmaq o qədər də asan deyil, çünki toy karvanında həm qız, həm oğlan adamları onu möhkəm qoruyurlar. ◆ Onun başqa adları *"qızyastığı // gəlinyastığı // qulaqyastığı"*, *"nalçə"* və *"nimdər"*dir.

**196.**

*"Mürüvvətə əndazə olmaz"*
(atalar sözü)

## ● MÜRVƏT TOYU

[ *şəfqət anlamında işlənən "mürüvvət" sözündəndir* ] ◆ Kənd yerlərində, əsas etibarilə Novruz günü, **toy** [269] toylayıb ailə qurmaq imkanı olmayan, atasız-anasız **oğlan** [208] və **qızlar** [178] üçün çaldırılan toy məclisinin adı. Kəndin ağsaqqalları və ağbirçəklərinin təşəbbüsü və iştirakı ilə hər kəs öz imkanı çərçivəsində yeni ailə qurmaq arzulayanlara təmənnasız ətlik mal, düyü, yağ və digər ərzaq ayırır, evi olmayanlara elliklə ev-eşik tikirlər. ◆ Bəzi bölgələrimizdə buna *"hoy // höy"* deyilir.

**197.**

## ● MÜSAHİB

[ *burada "dost, rəfiq, yoldaş" mənasındadır* ] ◆ Bir para bölgələrimizin dilində toy çaldıran bəy oğlanın etibarlı dostu, çox vaxt *"qardaşlığı"* sayılıb **toy** [269] tədbirlərində çox məsuliyyətli bir vəzifə daşıyan **oğlan sağdışının** [208] adı. ◆ Toy məclislərində o, bir qayda olaraq, bəyin sağında əyləşir. ◆ Onun *"müsaib"* deyiliş tərzi də var.

**198.**

## ● MÜTRİB // MÜTRÜB

◆ Orta çağların **toy** [269] şənliklərində, bir qayda olaraq, qonaqları əyləndirən aşıq,



Azərbaycan Milli Kitabxanası

çalğıçı, oynayıb-oxuyan xanəndə və ümumiyyətlə, vaxtilə *"sazəndə-çalğıçı"* anlamında işlənən deyim. ◆ Ötənlərdə təlxək, **lotu** [186] və bu kimi oyunçular da el-oba içində bu adla çağırılmışlar. ◆ XIX yüzilin sonu, keçən əsrin əvvəllərindəki toy məclislərində, adətən qadın paltarı geyib, çalıb-oxumaqla məşğul olan 16-20 yaşlı rəqqas oğlan da bu cür adlanırdı. Gözlərinə qatı sürmə və qalın qaş yaxmış bu rəqqasın ənlik-kirşanlı sifətini fındıq içi boyda süni bir xal bəzəyirdi. Dırnaqları xınalı, belində gümüş belbağı, boynunda həmayıl, sinəsində gümüş zəncir olan mütrüb dikdaban ayaqqabıda oynayaraq, barmaqlarındakı mis parçalarını bir-birinə vurur, kəmərindən asılmış ceyran buynuzlarını tərpədib-şaqqıldadırdı. Bəziləri isə kiçik ərköyün qızlar tək, özünü əzib-büzür, hərdənbir *"gərdənbazlıq"*la da məşğul olurdu. ◆ Xalq arasında onun *"mütrüf // mütrüp // mətrəb"* deyiliş şəkilləri də mövcuddur.

199.

## ● NAMZƏD

[ *"namizəd" sözünün təhrifidir* ] ◆ Yurdumuzun cənub-şərq bölgələrində kiçik nişan mərasimi **üzükşal toyu** [282] zamanı üzük taxmaqla **nişanlı** [205] qız və **adaxlı** [1] oğlan olan, bəzən isə toy çaldırmaqla ərə verilən **gəlin qız** [98] və **bəy oğlan** [36] olan şəxs anlamlarında işlənən deyim. ◆ Bu yerlərdə o, bəzən *"namzət"* kimi də səslənir.

## NAMZƏDBAZLIQ

◆ Keçmiş zamanlar bəzi yerlərin ağzında, **adaxlı** [1] oğlanın toy mərasimindən qabaq **nişanlı** [203] qızla vaxtaşırı, gecə vaxtı və gizli, qızın valideynlərindən xəbərsiz görüşməsi - **adaxlıbazlıq** [1], **nişanbazlıq** [205] deyimi qarşılığında istifadə olunan sözlərdən biri. ◆ Hərdən **nişan** [205] mərasimi də bu adı daşıyır.

200.

## ● NƏXİL // NƏXL

[ *əslində "xurma ağacı" deməkdir, amma bir zamanlar "hədiyyə" və "cehiz" mənalarında da işlənmişdir* ] ◆ Ötənlərdə **cehiz alayında** [42] gəzdirilən, biçimcə sərv ağacı və ya xurmaya bənzəyən bir ağac təsvirinin adı. Sonralar ortaya çıxan **şax** [248] və ya *"şaxbudağ"*ın sələfi sayılan bu təsvir əfsanəvi *Varlıq Ağacının* rəmzlərindən biri olaraq orta çağlarda, əsasən saraylara məxsus, həddindən artıq təmtəraqlı, dəbdəbəli toy mərasimlərindən ötrü hazırlanardı və **toyda** [269] nümayiş etdirilərdi. Boyu 6-15 m. arasında dəyişərək, dəmir əsas üzərində mumdan düzəldilən bu qurğu müxtəlif heyvan, gül-çiçək, meyvə fiqurları, asma güzgü və parlaq ulduzlarla bəzənərdi. Toyda nəxil gəzdirmək evlənənlərə firavanlıq içində yaşamaq, var-dövlətdən, bar-nemətdən heç nəyə ehtiyac duymadan həyat sürmək arzulamağın ifadəsi idi. **Cehiz** [42] daşınan zaman belə nəxili ən möhtəşəm və görümlü bir ünsür kimi alayın önündə, çiyin və əllərdə bayraq tək gəzdirərdilər. ◆ Onların nisbətən daha kiçik olanları da hazırlanardı. Kiçik nəxilləri gül dibçəyi, şamlarla bəzəyərək şirniyyatla dolu iri sini, tabaq və vazlar üzərinə yerləşdirib baş üstündə aparardılar. ◆ Bir vaxtlar xalq arasında bu qurğu *"toy-düyün şamı"* adı ilə də tanınmışdır. XVII yüzildən sonra onu *"şax"* əvəz elədi.

Azərbaycan Milli Kitabxanası

201.

## NƏMƏR // NƏMƏRPULU

◆ Bəzi yerlərin adətincə, **toya** [269] dəvət olunmuş qonaqların toy sahibinə verdiyi pulun və həmçinin toyda aşığa və çalğıçılara çatan haqqın adı. ◆ Toy-nişan tədbirlərində paylanan **şirni** [259], pul və s. hədiyyələr də çox vaxt bu adı daşıyırlar. **Oğlan sağdışının** [208] **gəlin qız** [98] üçün gətirdiyi pay da bu cür adlanır. ◆ Deyim Qazax, Gəncə, Laçın və Sabirabad bölgələri üçün daha səciyyəvidir. *"Nəməl"* (Qazax) və *"məmər"* deyiliş şəkilləri də var. ◆ Şəki və Zaqatala bölgələrində ona *"baxrı"* deyirlər.

202.

## NƏVƏ

[ *burada pay anlamındadır* ] ◆ Toy mərasimi ərəfəsində qapı-qapı evləri gəzib siyahı üzrə tapşırılan adamlara **toy şirnisi** [269] paylamaqla onları oğlan və qız toyu şənliklərinə çağıran **toy dəvətçisinə** [269] Naxçıvan diyarında verilən ad. ◆ Bir vaxtlar **ər evinə** [89] köçürülən gəlin qız da bu adla çağırılmışdır.

203.

*"Nikah ailənin haqq açarıdı"*
(atalar sözü)

## NİKAH

[ *"evlənmək, izdivac" mənasındadır* ] ◆ İki cavanın - oğlanla qızın ailə qurmasına, bir evdə, bir dam altında yaşayıb birgə həyat sürməsinə təminat verən qanuni sənədləşdirilmənin adı. Eyni zamanda bu, **adaxlı** [1] oğlanın qıza, yaxud onun ata-anasına boyun olduğu maddi vəsaitə verilən addır. ◆ Bu işə *"nikahlama // nikaholma // nikahqıyma"* da deyilir. *"Nekah"* və *"nigəh"* tələffüz şəkilləri də var.

## NİKAH KAĞIZI

◆ Toy günü evlənmə işinin rəsmi şəklə salınması məqsədilə keçirilən **kəbinkəsdi** [143] mərasimi zamanı tərtib olunaraq **bəylə** [36] **gəlinin** [98] birləşməsini qanuniləşdirməklə özündə nikah şərtlərini qeyd edən **izdivac** [142], **evlənmə** [84] haqqında yazılı sənəd - **kəbin kağızının** [143] adlarından biri. ◆ Bəzi yerlərdə ona *"əqdnamə // əqd kağızı"* da deyilir.

## NİKAH TAXTI

◆ Oğlan evindəki **gəlinlik otağında** [98] **gərdək** [100] pərdəsi arxasında yerləşdirilib **toy** [269] gecəsi **bəylə** [36] **gəlinin** [98] baş bir yastığa qoyduğu yatağın adı. ◆ Qayda üzrə, **cehizdüzdü** [42] zamanı **başıbütöv** [29] qadın bu taxta əvvəlcə gəlinin gətirdiyi qırmızı məxmər üzlü **taxt döşəyini** [220], üstündən isə bəy oğlanın qırmızı döşəyini salıb üzərinə kənarları qırmızı haşiyəli böyük bir döşəkağı çəkir. Sonra qızın dədəsi evindən gətirilmiş **cehiz boxçasından** [42] iki **ərus dəsmalını** [90] çıxarıb döşəkağı üs-



Azərbaycan Milli Kitabxanası

tünə salır. Ardınca, qızın ən yaxşı yorğanlarından birini onların üzərinə çəkib baş tərəfdən üstünə bir nazbalınc, üzü zərli mütəkkə və püşti döşək atır. ◆ Bir para yerlərin adətincə, yatağın üzərində bəyin xəncəri asılır, yaxud onu balış altına qoyurlar. Bir para bölgələrdə ona *"nikah yatağı"* deyirlər.

## NİKAH TOYU

◆ Bəzi yerlərin dilində, bir qayda olaraq, **toy** [269] günü, molla yanında, yaxud qızın dədəsi evində **bəy oğlanla** [36] **gəlin qızın** [98] **evlənməsini** [84] rəsmiləşdirmək məqsədilə icra olunan **kəbinkəsdi** [143] mərasiminin adı. ◆ Ayrı-ayrı yerlərdə onu *"fatihə toyu"*, *"nikahkəsdi toyu // nikahoxutma"* və s. adlandırırlar.

204.

## NİSAR

[ *"saçma, səpmə, çiləmə" deməkdir* ] ◆ Orta çağ klassik ədəbiyyatımızda təsadüf olunub, o zamanların toy-nişan məclislərində, adət üzrə, rəqs edənlərin, xüsusən **bəy oğlan** [36] və **gəlin qızın** [98] başına və ya ayağı altına səpilən təzə qəpik-quruş, sonralar isə əskinaz kağız pul - **şabaşın** [245] qədim adı. ◆ Onun *"nəsar"* deyiliş şəkli də olmuşdur.

205.

## NİŞAN

*"Ay qız, nişanın gəlir, qırmızı şalın gəlir"*
(toy oxumasından)

[ *"əlamət" mənasındadır* ] ◆ **Elçilik** [81] vaxtı, **nikaha** [203] rəsmi razılıq alındıqdan sonra, **ərə** [89] veriləcək qızı nişanlamaq, necə deyərlər, üzərinə *"ad qoymaq"* və qohumluq əlaqələrini rəsmiləşdirmək məqsədilə **oğlan evi** [208] adamlarının qızın dədəsi evində keçirdiyi iki mühüm tədbirin adı. ◆ Birinci, yalnız qadınların iştirakı ilə çağırılan kiçik nişan - **üzükşal toyu** [282] mərasimində oğlan evi qızın başına şal salıb barmağına **həri üzüyü** [119] taxır. ◆ İkinci, kişili-arvadlı keçirilən böyük nişan - **nişantaxdı toyu** [205] mərasimində ərə verilən qıza artıq daşlı-qaşlı **nişan üzüyü** [205], ipək şal, **bəxt güzgüsü** [34], **nişan paltarı** [205] və bir para zinət əşyaları təqdim olunur. ◆ Nişan mərasimlərinin digər niyyəti də **elçiliklə** [81] **toy** [269] arasında müəyyən ara yaradaraq, oğlan evinə bu müddət ərzində lazımi qaydada toy mərasimlərinə hazırlaşmaq, qız evinə isə **gəlinlik cehizini** [98] toplamaq imkanı verməkdir. ◆ Yurdumuzun bir çox yerlərində, bir qayda olaraq, **böyük nişan** [41] keçirilmir, toy şənlikləri əsas etibarilə **kiçik nişanla** [150] başlayır. Digər yerlərin adətincə, *"nişan"* adını həm nişantaxdı toyunun özü, həm oğlan evindən gətirilən bəzək şeyləri daşıyır. ◆ Xalq arasında bu tədbirə eyni zamanda *"nişan günü // nişanlama // nişanlanış"*, *"şirninişan toyu"*, *"bağlanışma"*, *"adeləmə"* (Qazax), *"quyruxlama"* (Borçalı) da deyirlər.

## NİŞANAŞI

◆ Abşeronda yalnız qadınların iştirakı ilə **oğlan evində** [208] keçirilən **vəzourt** [287] // **qabqaytarma** [159] məclisindən bir müddət sonra oğlan tərəfin evin kiçik oğlu, yaxud

Azərbaycan Milli Kitabxanası

# • VIII • XINAYAXDI TOYU

**135.**

◆ *Vaxtilə qızın atası evindəki üçgünlük **qız toyu**nun [178] ikinci günü çağırılan növbəti toy məclisi. ◆ Erkən çağlar, adətən, el hamamında təşkil edilən bu məclis sonralar qız toyunun ən əlvan və təmtəraqlı bir şənliyinə çevrilərək qızgildə başlanır, sabahısı isə hamamda tamamlanırdı. ◆ İndinin özündə bu mərasim artıq toy günləri deyil, bəzən ona bir neçə gün qalmış və **oğlan evi** [208] qadınları ilə birlikdə keçirilir. Bu "xına" məclisinə gedən oğlan tərəf **qız evi**nə [178] dəstə ilə, 12-13 yaşlı bir yeniyetmənin başında **xonça** [138] apararaq yollanır. Üzərinə zərli örtük salınmış bu xonçanın içində **xınayaxdı cehizi** [135], **gəlin xınası** [98], kiçik **kəlləqənd** [146], noğul-nabat, püstə-badam, çay və iki bəzəkli şam olur. ◆ Qızgilin qapısına çatdıqda, oğlan adamları uşağın başındakı xonçanı açıb içindəki şamları yandırır və beləcə qız evinə daxil olurlar. Qızın anası öz **quda**sı [182] ilə görüşüb-öpüşəndən sonra xonçanı yeniyetmənin başından götürür və oradakı şamları xırda yumru qənd ilə söndürərək qonaqları evə dəvət edir. ◆ Bir adət olaraq, yalnız qadınların iştirak etdiyi bu toy məclisinə qız tərəf iki-üç ahıl qadın və bir neçə cavan gəlin dəvət etdiyindən, məclis çox sakit, çalçağırsız da keçə bilər. Amma, əksər hallarda buraya qadın xanəndə və çalğıçılar gətirilir və qız-gəlin istədiyi qədər oynayıb-şənlənir. ◆ Kənd yerlərində bəzən iki qadın iri bir mis teşti üzüqoylu dizləri üstə qoyub topuqlu başmaqla "cıqqada-cıqqa", "üç badam bir qoz" və s. ahəngdə onu döyəcləyirlər. Məclisin əsas diqqət mərkəzində isə sabah və ya bir neçə gündən sonra **ər evi**nə [89] köçürüləcək **nişanlı** [205] qız olur. ◆ Ötən çağlar o, başında zərli örpək, büsbütün çadraya bürünmüş halda və musiqi sədaları altında məclisə gətirilirdi. Burada **qız yengəsi** [178] onun sağ əlini çadradan çıxarıb ovucuna bir az tər xına qoyur və qız əlini yumub yanına salırdı. Ancaq bir az keçməmiş yengə oğlan anasına müraciətlə: "indi izn ver, gəlinini aparaq" - deyir, o da: "nə deyirəm, apar, Allah mübarək eyləsin, ayağı düşərli olsun, Allah istəyinə çatdırsın, inşallah" - dedikdən sonra, yengə qızı qonşu otağa aparırdı. Gecə hamı evlərinə dağıldıqdan sonra, yengə "a balam, daha gecdi, gəlin qızın əl-ayağına xına yaxaq, bu yazıq da yatmaq istəyir" - deyərək, qızı öz yatağına uzadıb əl-ayağına xına yaxır və sonra xınayaxdı cehizindən kiçik al ipək yaylıq - **xınabənd**ləri [135] çıxararaq yorğan-döşək bulanmasın deyə, onlarla qızın xına yaxılmış əl-ayağını bağlayıb yorğanı üstünə çəkirdi. ◆ Sonrakı zamanlar, bəzi yerlərin adətincə, **bəzək otağı**nda [37] **gəlinlik paltarını** [98] geymiş nişanlı qızı, bir qolundan **oğlan yengəsi** [208], o birisindən qız yengəsi tutaraq, çala-çala qonaq otağına gətirirlər. Qız üç dəfə başı ilə qonaqlara salam verib təzim etdikdən sonra qonaqlar hər tərəfdən "ay əleyküssalam, ay maşallah, ay bərəkallah, xoşqədəm olasan, Allah səni pis gözlərdən saxlasın, Allah səni xoşbəxt eyləsin, amin" və s. xoş arzular deyirlər. ◆ Qaydaya görə, nişanlı qızdan ötrü divar dibində salınmış döşəkçə üstündə əvvəlcədən üç-dörd yaşlı bir oğlan uşağı oturdurlar, qız içəri girdikdə isə uşağa şirni verib qaldırırlar. Bundan sonra qız divar dibində döşəkçə üzərində ayaq üstə üzü qibləyə saxlanır, **qızın sağdış-soldışı** [178], əllərində şam, onun sağ-solunda, oğlan evi qadınları isə, adət üzrə, qızın sağ*

Azərbaycan Milli Kitabxanası

*tərəfində dururlar. Nişanlı qızın qarşısına* ***bəxt güzgüsü*** [34] *və biri oğlan, biri qız evində tutulmuş şirniyyatla dolu iki xonça qoyulur. Qız yengəsi isə iri mis ləyən (ona bəzi yerlərdə "dəhmərdə" deyirlər), yaxud böyük teşt və ya tabaqdakı xına ilə qız önündəki güzgünün sağında əyləşir. Ardınca, yengə və sağdış-soldışa çatacaq hədiyyələr də buraya gətirilir və oğlan evi qadınları nişanlı qızın ətrafında oynamağa başlayırlar.* ◆ *Bir az keçmiş yengə qıza işarə edərək: "a balam, bu yazıq ayaq üstə durmaqdan əldən düşdü, qurtarın görək, siz sağdış-soldışı oynadın" - deyir və qızın rəfiqələri əllərindəki şamları iki başqa qız uşağına verib onun ətrafında oynayırlar. Bu zaman, adət üzrə, oynayanların başına* ***şabaş*** [245] *səpilir, bəziləri isə pulu oynayanların ağzına verirlər. Yengə ona verilən şabaşı alıb ucadan elan edir: "Qız bibisi beş manat, ay şabaş!"* ◆ *Bu arada qız yengəsi (bu* ***məşşatə*** [192], ***dərnə*** [61] *və ya xüsusi xınayaxan qadın da ola bilər) qonaqların gözü qabağında oğlan evindən gətirilmiş xınanı ləyəndə və ya taxta tabaqda isladır. Çox zaman isə xına oğlangildən elə isladılmış halda gətirilir. Sonra yengə iki cam (yaxud kasa və ya nəlbəki) çıxarıb yalnız birini xına ilə doldurur, hər ikisini iri bir siniyə qoyub oynaya-oynaya onu oğlan evi qadınlarının önünə tutur. Qonaqlar sinidəki boş cama* ***nəmərpulu*** [201] *atıb, xına ilə dolu kasanı götürürlər (o sonra adaxlı oğlan üçün aparılır).* ◆ *Bu müddət ərzində qızın xalası və ya bibisi, yaxud hər ikisi birlikdə otağın bir guşəsində ipək ağ çadradan bir pərdə (vaxtilə bu* ***gərdək*** [100] *pərdəsi olmuşdur) asır və yengə musiqi sədaları altında qızı həmin pərdənin arxasına keçirir, bəzən isə başqa bir otağa aparır.* ◆ *Burada o, qızın toy libasını çıxarıb* ***xınalıq donu****nu* [135] *geydirir və onu divar dibində üstünə süzəni salınmış bir kətildə, üzü qibləyə oturdub ayaqları altına bir teşt su, qabağına isə bəxt güzgüsünü qoyur. Ardınca, yengə xonçalardakı şamları yandırır və qızın sol əlinin ovucuna bir qənd parçası basıb: "bismillah" - deyərək, sağ ovucunun içinə xına yaxır.* ◆ *Bəzi yerlərin qaydasınca, bu zaman oğlan anası pərdə arxasına keçib qızın barmağına bir üzük keçirir. Bundan sonra yengə qızın sağ əlini büküb qırmızı yaylıqla sarıyır (başqa yerlərdə, sabahı günü oğlan anası bu ləçəyi açıb qızın ovucuna qiymətli bir əşya basır) və şirin dilini işə salıb qıza: "qadan mənə gəlsin, yaxşı gün yaraşığın olsun, xəta-bəladan uzaq olasan, xoşbəxtlik gəlib səni tapsın", "səni görüm kəklik təki cüt gəzəsən, kəklik kimi sevilәsən, kəkotu tək dəmlənəsən" və s. sözlər deyə-deyə, onun sağ əlini üç dəfə başına qoyub-götürür.* ◆ *Bunun ardınca, qızın barmaqlarının uclarına, ayaqlarının yalnız baş barmaqlarının üstünə xına yaxır və "gözəllikdən ötrü" xınadan bir xal ayağı üstünə qoyur. Yaxud, qızın ayaqlarına iplik sarımaqla "balıq xına" deyilən bir bəzək vurur.* ◆ *Nəhayət, yengə yenə dil-ağız edə-edə, qızın uzun hörüklərini açıb onları daraya-daraya, saçları üç dəfə xınaya boyayır.* ◆ *Bu işlər görüldükcə, pərdənin o biri tərəfində xanəndə qadın "oxşama" və "gəlinin tərifi"ni oxuyur. Nişanlı qızın subay rəfiqələri isə qəmli-qüssəli* ***xına nəğmələri*** [135] *ifa edərək, qız ilə birlikdə kövrəlib ağlayırlar. Buna el-oba içində* ***gəlinağlatma*** [98] *deyilir.* ◆ *Qız pərdə dalında xınalandıqdan sonra ayağa qalxır. Yengə onun əynindəki xınaya bulanmış donunu çıxarıb təmizini geydirir, başına qırmızı örpək sarıyır, sonra da ətrafdakıların: "mübarək olsun, Allah xeyrə calasın, ağ günlərə qovuşasan, odlu-ocaqlı olasan" - sədaları altında nişanlı qızı, əvvəlcə sağ ayağını atmaqla, pərdə arxasından çıxarır (bəzi yerlərin qaydasınca, bundan sonra* ***gəlinin cülusu*** [98] *mərasimi icra olunur). Bu anda hər tərəfdən yengəyə* ***xələt*** [132] *atılır, qız isə, bir adət olaraq, bir-*



Azərbaycan Milli Kitabxanası

bir yaşlı qadınlara yanaşıb onların əlini öpür. ◆ Burada hamı qızın xınalı ayaq barmaqlarını basmağa çalışır ki, bu da, sən demə, onun "muradına yetməsi" üçündür. Bundan sonra məclisdə iştirak edən qonaqlar - kiçik qız və oğlan uşaqlarından tutmuş qız-gəlinə qədər hamısı - bir-bir sağ əllərinin ovucu içinə Günəş timsalı sayılan "dəyirmi" xına yaxıb qurumasını gözləyir, ağbirçək qadınlar isə yalnız barmaqlarının ucuna "fındıqça" xına qoymaqla kifayətlənirlər (sonradan yengə həmin xınadan qız sağdış-soldışının başına da yaxır). ◆ Burada qızın anası **sağdış-soldışa** [225] çatacaq xələtləri (adətən, bu ipək baş yaylığı olur) onların boynuna salır. Sonra o, qız yengəsi və ya xınayaxan qadının (o, məşşatə də ola bilər) qarşısında müxtəlif şirniyyat və bahalı paltarlıq parçadan ibarət olan bir xonça açır ki, bu da yengənin haqqı, qazancı hesab olunur. Qaydaya görə, bu xonçaya başqa adam əl vurmamalıdır, amma çox vaxt qız anası xonçanı açıb içindəkiləri ətrafdakılara göstərir və hamı "mübarək olsun" - deyir. Yengə də öz növbəsində nişanlı qıza bir hədiyyə bağışlayır. ◆ Qonaqlar yeyib-içdikdən sonra yengə, "a balam daha bəsdi, qızın anası da, qızın özü də, hamı yorulub, gəlin dağılaq" - deyir və hamı qalxıb evlərinə gedir. ◆ Amma bir para yerlərin sonrakı adətincə, qız evində çağırılan bu toy məclisində adaxlı oğlan da şəxsən iştirak edir. O, ilk əvvəl sağdış-soldışı və digər cavanlarla qız sağdışının evindən **qız şaxını** [178] qaldırıb, çal-çağırla qızgilə gətirir və məclisin yuxarı başında nişanlısı ilə yan-yana əyləşdirilir. Bundan sonra xına ilə dolu iki qabın birisi cavanlara, digəri isə qonaqlara təqdim olunur. Sonra qız oğlanın, oğlan da qızın çeçələ barmağını xınaya bulayıb onunla sağ ovuclarına bir-birinin adının baş hərflərini yazırlar. Xalq arasında bu adət "adyazma" adlanır. Ardınca, bəyin sağdış-soldışı ilə qızın sağdış-soldışı da bir-birinin ovucuna xına yaxırlar. ◆ Ümumiyyətlə, bu mərasimdə yemək-içmək şərt deyil, el-oba adətinə görə, xına yaxılan zaman evdə silah, patron olmamalı, burada yandırılan şam-çıraq söndürülməməli, gecə yarısına kimi yandırılmalıdır. Qızın tay-tuşları qəmli mahnılarla onu bir qədər ağlatdıqdan sonra hər vasitə ilə əyləndirməyə çalışır, növbə ilə onun paltarlarını, yaxud adi kişi paltarı geyib gülməli rəqslər ifa edir, qız-gəlinə məxsus qaravəlli və lətifələr danışır, kiçik məzəli səhnələr göstərirlər. ◆ Bəzi bölgələrimizdə bu məclis oğlan evində keçirilən **ixtilat toyu** [141] gecəsi ilə üst-üstə düşür. Odur ki, bu məclis vaxtı şirin xəmirdən yağda nazik bir qoğal qızardılır, onu qırmızı yumurta və şirniylə xonçaya düzüb bir qazan plov, bir cam xına və **hamam boğçasını** [113] oğlan evindəki məclisə oğlan yengəsi və bir uşaqla yola salırlar. ◆ Nəhayət, bir qədər əyləndikdən sonra hamı dağılıb evlərinə gedir, amma əllərinə xına yaxmış yaxın qohum, qız-gəlin burada qalıb gecələyir, xınayaxdının sabahı keçirilən **gəlinlik hamamından** [98] sonra qızı ər evinə yola salmağa hazırlaşırlar. ◆ Bəzi yerlərdə isə qızı elə bu gecə bir neçə qadınla hamama göndərir və yaxud evdə çimdirirlər. ◆ Digər yerlərin adətincə, nişanlı qızı daş-qaya yanına aparıb, qaya üzərində bitib xına tək boya verən (bu növ boya "daşxınası" adlanır) yosunu qızın əl-ayağına yaxırlar. ◆ Ümumiyyətlə, bu mərasim ərə verilən qızın ömründə baş vermiş ən ciddi dönüş, əhəmiyyətli bir hadisə tək qiymətləndirilir. **Qızyığdı** [178] məclisində öz **subay** [241] tay-tuşları ilə vidalaşmış qız bu mərasimdə artıq "ərli qadınlar cərgəsi"nə keçmiş sayılır. Bu da "yetkinlik sınağı" kimi ən qədim bir ayinin qalıqları tək izah edilir. ◆ Başqa sözlə desək, tər xınaya "boyanmış" nişanlı qız bu gündən etibarən "**gəlinə**" [98] dönür, daha doğrusu "gəlinlik" rütbəsi, "gəlinlik taxtı"na ucalır və

*bundan sonra o, yad bir ailənin üzvü, onun qanuni gəlini sayılır və ömrünün sonuna qədər bu adı daşıyır. Əbəs yerə deyildir ki, bir vaxtlar "gəlinin cülusu" ayini gəlin aparılan gün deyil, məhz bu məclisdə icra olunurdu. ◆ Elə bizim günlərə kimi el-oba içində gəzib-dolaşan "qızının əli xına görməsin" bədduası insan heysiyyatına toxunan ən ağır təhqir sayılır. ◆ Yurdumuzun ayrı-ayrı yerlərində bu qız toyu mərasiminin müxtəlif adları mövcuddur. Onlardan "xinənəhan gecəsi // xinəyaxan // xınanəan // xınanahan" (Bakı), "xınayaxan toy // xınaya gətirmə // xına toyu // xına düyunü // xına-xına", "xına günü // xına gecəsi // xınagələn gecə // xınabənd // xınavənd gecəsi // xınavurdu // xınaqoyma // xınasürtdü // xınaya oturma", "hənanaan // hənayaxma gecəsi // hənayaxımı"nın adlarını çəkmək olar. ◆ Bəzi yerlərdə isə bu məzmunlu toy mərasiminə "qızyığdı" deyilir.*

**• VIII •**

*Ardı:*
***İXTİLAT TOYU ◆ IX***
*(171-ci səhifədə)*

Azərbaycan Milli Kitabxanası

bir qohum qadınla iri qabda və ya qazanda qızgilə göndərdiyi **qudaaşı** [182] - südlü-plov, yaxud cücəplova verilən ad. Adət üzrə, **qız evi** [178] plov gətirənə mütləq **xələt** [132] verməlidir.

*"Nişanın bəxtli olsun"*
(el xeyir-duası)

## NİŞANBAXTI

◆ Bir para bölgələrimizdə **nişantaxdı toyu** [205] mərasimi günü oğlangildən qızın atası evinə aparılan bir neçə **xonçanın** [138] ümumi adı. Onlardan birinə kəlağayı-şal və **nişan üzüyü** [205], digərlərinə isə **kəlləqənd** [146], qırmızı yumurta və müxtəlif şirniyyat növü düzülür. ◆ Başqa yerlərdə bu xonçalara *"nişan xonçası // üzük xonçası"* deyilir. Onun *"nişanbəxti"* deyiliş şəkli də bəllidir.

*"Gözlərin aydın olsun, nişanlın bu gün gələr"*
(toy oxumasından)

## NİŞANBAZLIQ

◆ El-oba içində, toydan əvvəl adaxlı oğlanın öz nişanlısı ilə görüşü - **adağlıbazlıq** [1] və oğlan evi ilə qız evinin bir-birilə qohum olmağı - **qudalıq** [182] anlamları qarşılığında işlənən deyimlərdən biri. ◆ Bəzi yerlərdə isə bu, **böyük nişan** [41] mərasimi - **nişantaxdı toyuna** [205] verilən addır.

## NİŞANDƏYİŞMƏ

◆ Bəzi yerlərin adətincə, nişanlama zamanı oğlanın **nişanlı** [205] qızın barmağına, qızın isə **adaxlı** [1] oğlanın barmağına **nişan üzüyü** [205] taxması. Bu adət, şübhəsiz, bizim xalq üçün səciyyəvi olmayıb sonradan qonşu xalqlardan keçmişdir. ◆ Bu sözün *"nişandəgişmə"* deyiliş şəkli də var.

*"Önünə nişan güzgüsü tutum"*
(el xeyir-duası)

## NİŞAN GÜZGÜSÜ

◆ Ayrı-ayrı bölgələrin dilində, **nişantaxdı toyu** [205] mərasimində **oğlan evindən** [208], **üzük** [282] və zinət əşyaları ilə yanaşı **nişanlı** [205] qıza gətirilib, bütün **toy** [269] tədbirlərində, həmçinin **ər evinə** [89] varan zaman onun qabağında tutulan **bəxt güzgüsünə** [34] verilən adlardan biri. ◆ Ona bəzən *"tale güzgüsü"* də deyirlər.

## NİŞANXƏRCİ

◆ Vaxtilə və indinin özündə kəndlərimizdə, əvvəlcədən kəsilmiş şərtlər əsasında oğlan tərəfin **nişan** [205] mərasimlərinin bütün xərcini öz üzərinə götürüb **qız evinə** [178] müxtəlif ərzaq - ət, un, düyü, yağ və s. göndərməsi adətinin adı. Bəzən qızgilə bu ərzaqla yanaşı boynuna qırmızı kəlağayı bağlanıb, başına xına yaxılmış buynuzlu bir erkək də aparılır. Şəhər yerlərində isə bu mərasimlərin xərcini, əsas etibarilə, qız evinin özü çəkir.

## NİŞAN XONÇASI

◆ Bəzi yerlərin ağzında, böyük **nişantaxdı toyu** [205] mərasimi günü oğlan evindən qızgilə gətirilmiş bir neçə **xonçanın** [138] və onlar arasındakı **nişan üzüyü** [205] və qır-

Azərbaycan Milli Kitabxanası

mızı **şal** [249] yerləşdirilmiş **üzük xonçasının** [282] adı. ◆ Bir para bölgələrimizdə bu xonçaları *"nişanbaxtı // nişanbəxti"* adlandırırlar.

## NİŞANQAYTARDI

◆ Ayrı-ayrı bölgələrimizdə **qız toyu** [178] ərəfəsində icra olunan özünəməxsus bir adətin adı. ◆ Burada qız üçün nişanlama zamanı aparılmış **üzük** [282] və **şaldan** [249] başqa bütün zinət əşyaları və digər qiymətli hədiyyələr **oğlan evi** [208] tərəfindən geriyə alınır və pal-paltarla birlikdə yenidən **xonça** [138] və **boğçalara** [39] düzülərək təntənəli şəkildə qızgildəki **paltarkəsdi toyuna** [215] gətirilir.

*"Nişanlı qızlar yatmaz"*
(toy oxumasından)

## NİŞANLI

◆ Kiçik nişan - **üzükşal toyu** [282] mərasimindən sonra evlənmək üçün söz kəsib üzük taxmış, **ərə** [89] veriləcək qızın daşıdığı ad. ◆ Bir para yerlərdə, müxtəlif vaxtlar ona *"bəynişan"*, *"deyikli"*, *"yavuqlu"*, *"namzəd"*, *"novşah"*, *"oxlu"*, *"sözlü"* demişlər. Xalq arasında daha çox *"nişanlı qız"* şəklində işlənir. Əski ədəbi mətnlərdə onun *"məxtub"* adına da təsadüf olunur.

*"Nişanlandım, geydirdilər zövq-səfa köynəyini"*
(atalar sözü)

## NİŞAN PALTARI

◆ **Nişan**lama [205] mərasimi zamanı oğlan tərəfin **bəxt üzüyü** [34] və **şal** [249] ilə yanaşı, **gəlin** [98] aparılacaq qıza gətirdiyi hazır libas, yaxud bir dəst paltarlıq parçanın adı. ◆ Xalqımızın əski adətincə, nişanlanmış qız dədəsi evində olduğu müddətdə onun paltar ehtiyaclarını **oğlan evi** [208] ödəməlidir. ◆ Bu paltarın başqa adı *"nişanlıq libas"*dır.

*"Nişan günü süfrələrə şirni, şərbət düzərlər"*
(toy oxumasından)

## NİŞAN ŞİRNİSİ

◆ Toyqabağı kiçik və böyük **nişan** [205] mərasimlərində oğlan evindən gəlmiş qonaqlara, sonra isə qonum-qonşuya paylanan şirniyyatın adı. ◆ Xalq əqidəsincə, hər bir **ərgən** [89] qız həmin **şirni**dən [259] bir neçəsini götürüb yatanda başı altına qoysa, üç gündən sonra yuxuda öz qismətini görə bilər. ◆ Ayrı-ayrı yerlərdə ona *"şirnilik"*, *"ağız şirinliyi"*, *"qız şirnisi"*, *"nabatlıq"* da deyirlər.

*"Qız idim, soltan idim, nişanlandım xan oldum"*
(atalar sözü)

## NİŞANTAXDI TOYU (VI)

◆ Kiçik nişan mərasimi **üzükşal toyu**ndan [282] bir neçə ay sonra qız ilə oğlan evləri arasında yaxın ünsiyyət bağlamaq və daha sıx qohumluq münasibətləri yaratmaq niyyətilə oğlan tərəfin qız adamları ilə birlikdə keçirdiyi ikinci, yaxud böyük nişan mərasimi. ◆ Ötən çağlarda yalnız kişilərin qatıldığı bu **xeyir işdə** [129], söz-söhbətdən, yeyib-içdikdən sonra oğlan adamları **nişan üzüyü** [205] ilə qırmızı **şalı** [249] qızın dayısına ötürürdülər. Bəzən isə mərasim elə üzüyün qız tərəfin ağsaqqalına təqdim edilməsi ilə də bitirdi. ◆ Tədricən mərasim kişili-arvadlı tərkibdə və təmtəraqla icra olunmağa başlandı... ◆ Bələdçinin *"qırmızı"* bölməsində [səh. 115] milli toy ənənəmizin **nişantaxdı toyu** [VI] mərhələsi haqqında daha ətraflı yazılır.



Azərbaycan Milli Kitabxanası

"Ağ barmağa qızıl üzük taxdın, bərəkallah gəlin"
(toy oxumasından)

## NİŞAN ÜZÜYÜ

◆ Böyük nişan mərasimi **nişantaxdı toyu**nda [205] oğlan evindən gətirilib, *"hər qız bir oğlanın"* olduğunu bildirən əlamət tək, qızın sol əlinin adsız barmağına (xalq arasında ona *"nişan barmağı"*, *"soltannigar barmağı"*, yaxud *"xəzinə barmağı"* da deyirlər) taxılan üzük, halqanın adı. ◆ Sadə biçimli qaşsız **həri üzüyü**ndən [119] fərqli olaraq, bu üzüyün üç və ya beş qaşı olur. Dədə-baba adətincə, qız onu nişan günündən başlayaraq bütün evlilik boyu barmağında gəzdirməlidir. Məhəbbət rəmzi, mənəvi mehr və bağlılıq əlaməti kimi qiymətləndirilən bu üzüyü özgəyə vermək və ya girov qoymaq olmaz. ◆ Dul qadınlar onu sol əlin şəhadət barmağında gəzdirirlər. ◆ Bəzi yerlərdə ona *"nişan halqası // nişanlıq üzük"*, *"böyük üzük"*, *"bəxt üzüyü"* və *"əyrəmcə"* də deyirlər.

## NİŞAN YAYLIĞI

◆ Rəsmi böyük kişi elçiliyi **hərialdı**dan [119] sonra çağırılıb qadınların iştirakı ilə keçən kiçik nişan - **üzükşal toyu** [282] mərasimində qızın başına salınan və əski çağların adət-ənənəsinə görə, **nişan**dan [205] sonra üzünü yad kişilərdən gizlətmək məqsədilə qızın **yaşmaq** [291] tutması üçün vacib sayılan kələğayı və ya **şal**ın [249] adı.

**206.**

"Baharın barı qapında bardaş qursun"
(el xeyir-duası)

## NOVBAHAR XONÇA

◆ Baharın əvvəllərində, əsasən İlaxır çərşənbə və Novruz bayramı axşamı, bir adət olaraq, oğlan evi qadınlarının üç-dörd xonçada cah-cəlalla nişanlı qızgilə apardığı **bayramlıq** [30] sovqatının başqa adı. ◆ Bəzi yerlərdə ona *"novruzluq // novruzpayı // bayrampayı // bayram xonçası"* və *"bayram şirnisi"* də deyirlər. ◆ Onun *"novbəhər xonçə"* deyiliş şəkli də məlumdur.

"Nubarın nuş olsun"
(el xeyir-duası)

## NOVBARLIQ

◆ Kənd yerlərində yeni meyvə mövsümü zamanı oğlan evində erkən yetişmiş gilas, qarpız, üzüm və s. təzətər meyvə-yemişdən xonça tutub, *"novbarın mübarək olsun, təzə günə, təzə novbara çıxasan"* - xeyir-duası ilə **nişanlı** [205] qıza aparılan pay, bağ novbarı. ◆ Xalq arasında ona *"bağbaşı"* (Abşeron), *"bakurə"*, *"nubardaddı // nubaraçatdı // nübarlıq // nübar xonçası // nübarə"* və *"nükbar"* da deyilir.

## NOVDAMAD

◆ Bəzi bölgələrimizdə, əsasən də cənub torpaqlarımızda, evlənən, **toy** [269] vurduran **bəy oğlan** [36], yaxud toyundan sonra evlilik həyatı yaşayan **təzəbəy** [267] anlamlarında işlənən söz. ◆ Bu deyimin sadəcə *"damad"* tələffüz tərzi də var.

## NOVƏRUS

◆ Ötən dövrlərin yazılarında, adət üzrə, toy şənlikləri zamanı yeni mənzilinə köç-

Azərbaycan Milli Kitabxanası

məklə arzu-kamına yetib təzəcə ailə qurmuş gəlin qız - **ərusun** [90] **üzəçıxdı toyun**dan [278] sonra övladı olana qədər daşıdığı **təzəgəlin** [267] adının sinonimi, qarşılığı.

## NOVKƏTXUDA

[ *əslində, "özgəsinin işlərinə qarışan yeni məmur" anlamındadır* ] ◆ Yurdumuzun cənub torpaqlarında, bir qayda kimi, **qız** [178] üzərinə ad qoyub onu almaq əzmində olan **eniştə** [82], **kürəkən** [153] və **bəy** [36] deyimləri ilə eyni məna daşıyan sözlərdən biri. ◆ Bu deyimin *"kədxuda"* deyiliş şəklinə də təsadüf edilir.

## NOVŞAH

◆ Keçmiş çağlarda cənub torpaqlarımızda **hərialdı** [119] rəsmi **kişi elçiliyində** [151] **nikaha** [203] razılıq alındıqdan sonra, evlənmək istəyən **oğlana** [208] verilən adlardan biri. ◆ Sonralar onu **adağlı // adaxlı** [1], bəzən isə **namzəd** [199] çağırmağa başladılar. Onun *"novşəh"* tələffüz forması da olmuşdur.

**207.**

## ODUN ƏVRƏZİ

◆ Kənd yerlərində **toy** [269] mərasiminə yemək hazırlamaq üçün yanacaq toplamaq məqsədi güdüb iməcilik yolu ilə keçirilən bir tədbirin adı. ◆ Burada toy sahibi kəndin bir dəstə cavanını evinə toplayıb ən əvvəl onlar üçün süfrə açır. Sonra hərə öz atı, eşşəyi və ya kirşəsi ilə meşəyə yollanır və müəyyən miqdarda çırpı-odun yığaraq, toy sahibinin qapısına gətirir. ◆ Bu adət yurdumuzun meşələrlə zəngin olan şimal-şərq bölgələri üçün daha səciyyəvidir.

**208.**

## OĞLAN

*"Qayda budu, oğlan qıza bənd olar"*
(toy oxumasından)

◆ Yetkinlik yaşına çatıb hələ evlənməmiş cavan kişiyə verilən ad. ◆ O, evlənmək, ev-eşik sahibi olmaq niyyətilə seçdiyi subay **qızla** [178] nişanlandıqdan sonra *"adaxlı oğlan"*, **kəbinkəsdi** [143] mərasimi və ya **ixtilat toyundan** [141] sonra - *"bəy oğlan"*, **"bəy"** [36], yaxud **"özündənbəy"** [213], toydan sonra isə **"təzəbəy"** [267] adı daşıyır.

## OĞLAN ADAMI

*"Gəldi oğlan adamı, ağam sındır badamı"*
(toy oxumasından)

◆ Toyqabağı tədbirlərdə **oğlan evini** [208] təmsil edən, əsas **toy** [269] mərasimlərində canla-başla çalışan şəxsə verilən ad. ◆ O, evlənən oğlanın qohumu, yaxud onun yaxın dostu, yoldaşı ola bilər. Əslində, onu daha çox *"oğlan evi adamı"* adlandırırlar.

## OĞLANCIQ

◆ Həm qız, həm oğlan evində əski türk adət-ənənəsinə dayanan çağdaş **toy** [269] təd-



Azərbaycan Milli Kitabxanası

birləri zamanı *"gəlinin qucağı oğlan qundaqlı olsun"* deyə, yəni onun gələcəkdə oğlan uşağı doğmağını arzu edərək, gəlin qızın, bəzi yerlərdə isə həmçinin bəy oğlanın qucağına atılan 3-4 yaşlı atalı-analı oğlan uşağına verilən ad. ◆ Bu uşaq ilk dəfə **nişantaxdı toyu**nda [205] **nişan üzüyü**nü [205] təzəcə taxmış qızın qucağına atılır. **Xınayaxdı toyu** [135] zamanı qız üçün salınmış ayrıca döşəkçənin üstündə ilk əvvəl həmin uşağı oturdurlar, nişanlı qız gəldikdə isə uşaq qaldırılır və qız həmin döşəkçədə əyləşir. ◆ Toy günü oğlan evindəki **gəlinlik otağı**nda [98] nikah yatağı hazırlanandan sonra, bu uşağı üç dəfə yataq üstünə çıxarıb düşürürlər. ◆ Bir vaxtlar, **gəlinapardı toyu**nun [98] axşamı gəlin qızın minməsi üçün nəzərdə tutulmuş atın üstündə, gəlin ona minənə qədər çulu boş qalmasın deyə, bir uşaq oturdur, qız ata əyləşdikdə isə uşaq onun arxasına, atın tərkinə mindirilirdi. Sonra **toy alayı** [269] yeridikcə, yol boyu cavan gəlinlər qızın qucağına azyaşlı oğlan uşağı verərək bir müddət yanaşı yeridikdən sonra onu geri alırdılar. ◆ Ardınca, ər evinə çatanda da gəlinin qucağına bir uşaq verirlər - həyət darvazası və ya oğlan evinin qapısı ağzında, sonra isə **gəlinlik otağı**nın [98] astanasında. ◆ Gəlin qız **gərdək** [100] arxasındakı taxt üstündə əyləşdikdə, onun dizi üstünə yenə bir oğlan uşağı oturdurlar. Bəzən uşaq sandıq, yaxud taxt üstə əvvəlcədən oturdulur və burada qız onu qucağına alıb əyləşir. Bir azdan **oğlan yengəsi** [208] gəlinin qucağındakı uşağa araqçın, şirni və digər hədiyyə verib onu qızdan alır. ◆ Nəhayət, toydan sonra yenə oğlan yengəsi *"pərdeyi-ismətdə"* oturmuş təzəgəlinin ağuşuna hər gün bir uşaq atır. ◆ Onun *"oğlancuq"* deyiliş şəkli də var.

*"Çatıb oğlan evinə, alıb muradın gəlin"*
(toy oxumasından)

## OĞLAN EVİ

◆ Elçilik və toy-nişan tədbirlərində **oğlanın** [208] mənafeyi və xeyrini güdən tərəfə, ilk növbədə onun ata-anası, vəkili və digər yaxın qohumlarına, eləcə də oğlanın yaşadığı yerə (evə) verilən ümumi ad. ◆ Bir para yerlərdə buna *"oğlangil"* deyilir.

*"Toy elə, gəlim toyuna, ay oğlan"*
(toy oxumasından)

## OĞLAN QONAQLIĞI

◆ **Gəlingətirdi toyu**ndan [98] əvvəl - həmin gün günorta çağı, yaxud **ixtilat toyu** [141] axşamı, oğlan evinin ayrıca bir otağında adaxlı oğlanın ən yaxın dost-tanışı və **subay** [241] yaşıdları ilə keçirdiyi kiçik bir ziyafətin adı. ◆ Oğlan artıq *"evli-arvadlı kişilər cərgəsinə"* (onlara xalq arasında *"başıbağlılar"* deyilir) keçmək ərəfəsində olduğu üçün qonaqlıq onun subaylıq, gənclik dostları ilə vida görüşü sayılır. ◆ Məclis toydan bir qədər əvvəl keçirilərsə, buraya çalğıçılar da dəvət edilir. Bu qonaqlıqda adaxlı oğlana subay tay-tuşlarından **oğlan soldışı** [208] təyin olunur. Bəzi hallarda bu qonaqlıq, qız evində eyni niyyətlə keçirilən **qızyığdı** [178] məclisi ilə üst-üstə düşür və bu münasibətlə qızgildən gətirilmiş müxtəlif hədiyyə və yeməklərlə dolu xonça və bir qazan plov ilə "yola verilir". ◆ Bir para yerlərin adətincə, adaxlı oğlanı araya almış tay-tuşu yeyib-içdikdən sonra, son dəfə *"üzük-üzük"*, *"dirədöymə"*, *"turna-turna"*, nərdtaxta və bu kimi oyunlar oynayır və məclisin sonuna yaxın **meyxana** [190] deyərək, bədyələşirlər. ◆ Sonra **oğlan sağdışı** [208], yaxud cavanlardan biri, barmağını **oğlan yengəsi**nin [208] qız evindən cam və ya tabaqda gətirdiyi xınaya batırıb onunla adaxlı oğlanın sağ əlinə nişanlı qızın adının baş hərfini, sol əlinə isə oğlanın öz adını yazır. ◆ Yurdumuzun cənub-şərq bölgələrində ona *"bəybaşı // bəybaşı toyu"*, Tovuzda - *"bəydəsi"*, Qazax və Borçalıda - *"şamartı"*, başqa yerlərdə isə *"oğlan məclisi // oğlan yığnağı"*, *"yığın"*, *"gənclər toyu // subaylar toyu // cavanlıq toyu"* deyirlər.

Azərbaycan Milli Kitabxanası

## OĞLAN SAĞDIŞI

◆ Toyu çaldırılan bəy oğlanın ən yaxın dostu, sirdaşı və bəzən **qardaşlığı** [164] sayılıb, toy məclislərində onun sağında əyləşən cavan **kişiyə** [151] verilən ad. ◆ Müəyyən həyat və ailə təcrübəsinə, eləcə də yüksək nüfuza malik olan bu şəxs **oğlan evi** [208] tərəfindən **nişantaxdı toyundan** [205] sonra təyin olunur. **Toy** [269] günü o, naşı cavan bəyi öz himayəsinə götürüb ona gərək olan hər şeyi dərhal tapdırıb gətirdir, onu *"qadınla birgə həyatın"* sirlərilə tanış edir - psixoloji cəhətdən **gərdək gecəsinə** [100] hazırlayır. ◆ O, bir para adət və ayinlərin icrasına dair lazımi göstəriş və tövsiyələr verir, bəy oğlanı **bəylik hamamına** [36] müşayiət edir, toy günü isə atası evindən bir müddətlik çıxarıb öz evində saxlayır. ◆ O, həm də **oğlan soldışı** [208] ilə birlikdə gəlin qızın **ər evinə** [89] sağ-salamat gətirilməsinə cavabdehdir. Bəzən o, **gəlinapardı toyunda** [98] gəlin qızın belini bağlayır, ona at üstə qalxmaqda kömək edir, atının yüyənindən tutub arxasınca aparır. ◆ Bir para yerlərdə o, bəy oğlanın şərəfinə xüsusi **oğlan şaxı** [208] hazırlayır və qız sağdışına nəmər-pul verib ondan **qız şaxını** [178] alır. Çox vaxt bu şəxs toyun xərci və təşkilini bəyin ailəsilə birlikdə öz üzərinə götürür. ◆ Bəzi hallarda isə o, **toybəyi** [269] vəzifəsini də öz öhdəsinə götürür və nəhayət, toyun sonuna yaxın bəy oğlanı təntənəli surətdə toyxanaya gətirib **bəylik taxtına** [36] oturdur. Sonra o, soldışla birlikdə bəyi **gəlinlik otağına** [98] salıb səhərə kimi qapı ağzında, keşikdə durur - kişilərdən yalnız o, gəlinlik otağına çəkilmiş bəylə görüşür. ◆ Bir para yerlərdə isə, toyun sabahı o, təzəbəyi soldışla bərabər yenə öz evinə aparıb üç gün burada qonaq edir. ◆ Bir sözlə, oğlan sağdışı, bəy oğlanın *"toy yoldaşı"* tək, qız yengəsinin gəlin qıza etdiyi xidməti bəy oğlana göstərir. ◆ Ayrı-ayrı yerlərdə onu *"bəy sağdışı"*, *"kişi sağdışı"*, *"şahbala // şəhbala"*, *"balbağan"* (Zaqatala, Qax), *"müsahib"*, *"böyük yançı"* (Şəki), *"gəzək"* və s. adlarla çağırırlar.

## OĞLAN SOLDIŞI

◆ Oğlan evində keçirilən bütün **toy** [269] tədbirlərində bəy oğlanı müşayiət edib məclislərdə onun sol böyründə oturan oğlanın daşıdığı ad. ◆ O, bəyin subay dostlarından biri, bəzən isə **qardaşlığı** [164] olaraq, cavan tay-tuşları arasında nisbətən boy-buxunu, qaməti, ürəkliliyi və qoçaqlığı ilə fərqlənərək, toy günləri bəyin əsas mühafizəçisi, *"yavəri"*nə çevrilir. ◆ Bu şəxs, bir qayda olaraq, özüylə silah gəzdirib bəy oğlana qarşı yönələn hər mümkün həmlənin qarşısını almağa həmişə hazır olur. Toy günləri o, **oğlan sağdışı** [208] ilə birlikdə **bəylik tıraşı** [36] zamanı və **bəylik hamamında** [36] hər yolla bəyin qayğısına qalıb mühafizəsində durur. **Gəlin** [98] aparılan zaman isə, heç kəsə düşmənçilik məqsədilə bəyin papağını qaçırmağa, müxtəlif vasitə ilə gəlinin *"bəxtini bağlamağa"* cəhd göstərməyə imkan vermir. ◆ Bəzi hallarda o, **cilovdar** [45] təki gəlinin mindiyi atın yüyənindən tutub çəkir, yaxud qızın qolundan tutub minikdən yerə düşürür. **Gərdək gecəsi** [100] isə sağdış ilə, yenə əlində silah, təzə evlənənlərin keşiyini çəkdiyi zaman qızın üzüağ çıxması xəbərini eşidib evin damında ov tüfəngindən atəş açır. Toyun sabahı isə bəyi sağdışgilə aparıb **bəy qonaqlığına** [36] qədər ondan ayrılmır. ◆ Onu bəzən *"bəy soldışı"*, *"kiçik yançı"* (Şəki) da adlandırırlar.

## OĞLAN ŞAXI

*"Toy gecəsi oğlan qabağında şax gedər"*
(toy oxumasından)

◆ Bir para bölgələrimizin adətinə görə, **toy** [269] ərəfəsində **oğlan sağdışının** [208]



Azərbaycan Milli Kitabxanası

bəy oğlanın şərəfinə hazırladığı sərv, ya küknar ağacına bənzəyən özünəməxsus bir bəzək qurğusunun adı. ◆ **Qız şaxından** [178] fərqli olaraq, bu qurğunun şamlar, güzgü parçaları, əlvan qırqovul, tovuz lələkləri və s. ilə bəzənmiş orta budağına, qayda üzrə, qızardılmış xoruz (el-oba içində buna *"xoruzgöyərmə"* deyilir) sancılır. ◆ Bəzi yerlərdə qurğunun başına diri qırqovul, yaxud al-əlvan rəngli xoruz bağlanır. Qurğu, **ixtilat toyu** [141] gecəsi və ya **gəlingətirdi toyu** [98] günü axşamüstü, sağdışın evindən qaldırılıb izdiham şəklində, ətrafında məşəl, çal-çağrı ilə bəy oğlangilə gətirilir. Burada ilk öncə **bəydurma** [36] mərasimində nümayiş etdirilir, sonra toyxananın ortasına və ya bəyin oturduğu taxtın qarşısındakı bir tabaq meyvənin ortasına sancılır, oradan isə **gəlinlik otağına** [98] aparılır. ◆ Bu çox qədim mənşəli milli toy bəzəyinə hərdən *"bəy şaxı // oğlan şaxbudağı"* da deyirlər.

*"Oğul toyu görəsən, qız köçürəsən"*
(el xeyir-duası)

## OĞLAN TOYU

◆ Vaxtilə oğlan evində üç gün, üç gecə çaldırılan toy mərasimlərinin (birinci gün - **ixtilat toyu** [141], ikinci gün **gəlingətirdi toyu** [98] və üçüncü gün **üzəçıxdı toyu** [278]) ümumi adı. ◆ Ötən çağların birinci toy məclisində, axşamüstü gəlin qız artıq **ər evinə** [89] gətirilirdi. Hamı çalıb-oynayır, bəy ilə gəlin isə ilk dəfə görüşüb söhbət edir, bir-birinə isinişirdilər. ◆ İkinci gün (əcdadımız Oğuz türkləri ona **"paça günü"**[214] demişlər) müxtəlif oyun və yarışlar keçirilir, ustad ozan-aşığın ifasında qədim el havaları dinlənir və bu günün gecəsi bəylə gəlin vüsala yetirdilər. ◆ Üçüncü - *"üzəçıxdı toyu"* günü hamı yenə yeyib-içir, gəlin ilə təzəbəy gərdəkdən çıxır, bəy öz toyunda oynayır və təzə evlənənlər yaxın qohumları, tayfa üzvləri tərəfindən qəbilənin, ailənin tamhüquqlu üzvləri tək qəbul olunurdular. ◆ Sonrakı dövrlərdə bu toy kəndlərdə üç gün - cümə, şənbə və bazar günləri, şəhərlərdə isə bir gün, bir gecə davam edir və burada keçmiş dövrlərin üç toy mərasimi birləşdirilir. ◆ Bəzi yerlərin adətincə, ilk öncə qızın dədəsi evində **qız toyu** [178] çaldırılır. Ondan 2-3 gün sonra isə, gəlin qız **ər evinə** [89] gətirildikdə, bəy oğlan üçün də toy toylanır. ◆ İndinin özündə toy şənlikləri, əsasən, **qız evində** [178] başlayaraq (kişilər və qadınlar üçün ayrı-ayrılıqda), günün ikinci yarısı gəlin qızla birlikdə **oğlan evinə** [178] köçürülür və buradakı tədbirlər ancaq kişilərin iştirakı ilə keçirilir. ◆ Bu oğlan toyu mərasiminə vaxtilə xalq ağzında *"ulu toy // ulu düyün"*, sonralar *"bəy oğlan toyu"*, *"böyük toy"*, *"kişi toyu"*, Yardımlıda isə *"aşıq"* deyirlər.

## OĞLAN YENGƏSİ

◆ Oğlan və qız evləri arasında vasitəçilik edən və toy-nişan tədbirlərində **gəlin qıza** [98] bələdçilik etmək üçün ona təhkim olunan iki **yengədən** [296] biri - **oğlan evi** [208] tərəfindən təyin edilmiş və onun səlahiyyətli nümayəndəsi sayılan qadın. ◆ Bu, adətən, oğlanın böyük bacısı, qardaşı arvadı, əmidostusu, yaxud dayısı arvadı olur. ◆ **Arvad elçiliyində** [12] o, qızın barmağına üzük taxır. **Paltarkəsdi toyunda** [215] oğlan evindən gətirilmiş pal-paltarı ətrafdakılara nümayiş etdirir. **Xınayaxdı toyunda** [135] qızgilə xına gətirib onunla qızı və qonaqları xınalayır, sonra oğlangilə qayıdıb bəyin yaxın dostlarının barmaqlarını boyayır. ◆ Toy günü bəy oğlan, bir qayda olaraq, onun evində "gizlənir", qız dalınca yollandıqda isə bu qadın oğlan evi qadınlarının başında durur. Burada o, **qız yengəsi** [178] üçün nəzərdə tutulan **başbəzəyi** [29] deyilən pulu gəlinin başına qoyur, ona **şirni xonçası** [259] bağışlayır. ◆ Bunlardan əlavə, o, qız



Azərbaycan Milli Kitabxanası

evindən dörd mismar, qatıq çalmaqdan ötrü maya, çörək və boşqab alır. Boşqabı vurub sındırır və bununla guya qızın bütün dərd-qəmini dədəsi evində qoyur. Gəlin aparılan zaman o, minikdə qızın qabaq-qənşərində, sol tərəfdə oturub əlində gəlinin qırmızı örtüklü **bəxt güzgüsünü** [34] tutur və oğlan evinə çatdıqda, qızın anasından aldığı dörd mismarı **gəlinlik otağının** [98] dörd divarına çalır ki, qızın yeri möhkəm və daimi olsun. ◆ O, həmçinin **gərdək gecəsi** [100] qız yengəsi və **dərnə** [61] ilə birlikdə qızın "keşiyini" çəkir və gəlinin üzüağ çıxdığına şahid olur. ◆ Toydan sonra bu qadın üç gün ərzində gündüzlər qız yengəsini əvəz edərək, *"pərdeyi-ismət"*də oturmuş təzəgəlinin qulluğunda durur, su töküb əl-üzünü yuyur, paltarlarını geyinib-soyunmağa kömək edir, hər gün üzünə bəzək-düzək vurub onu axşama, bəyin gəlişinə hazırlayır. ◆ **Üzəçıxdı toyunda** [278] isə o, gəlinin qoluna girib onu məclisdəkilərə təqdim edir və zəhmətinin əvəzində oğlan anasından **yengəyolu** [296] deyilən xüsusi bir xələt alır. ◆ Bu qadın bəzi yerlərdə *"bəy yengəsi"* və *"teyzə"* adı daşıyır.

**209.**

## OXAMAC

[*"ox-hədəf" mənasındadır*] ◆ Ulu əcdadımız Oğuz türklərində, bir adət olaraq, **toy** [269] şənlikləri zamanı icra olunan bir oxatma yarışının adı. ◆ Əvvəlcə bir üzüyü, yaxud halqanı at quyruğu tükünə keçirib ağacdan asırdılar, ardınca isə iştirakçılar altı addımlıq məsafədən oxla tükü vurub üzüyü yerə salırdılar. ◆ Bu yarış "Kitabi Dədə Qorqud" dastanlarında *"göykü ox"* adı ilə qeyd olunur. ◆ Ona *"ox cığırı"* da deyilirmiş.

## OXLU

◆ Uzaq keçmişdə **nişan** [205] mərasimlərindən sonra *"nişanlı qız"* və onunla evlənmək niyyətində olan *"adaxlı oğlan"* anlamları qarşılığında işlənən deyimlərdən biri. ◆ Bu sözə, bir qayda olaraq, əski çağların ədəbi mətnlərində, həmçinin IX-XI yüzillərin yazılı abidəsi sayılan ulu "Kitabi Dədə Qorqud" dastanlarında rast gəlinir.

**210.**

## OXU

[ *"çağırış anlamındadır"* ] ◆ Bir vaxtlar yurdumuzda toy-nişan şənliklərinə 10-15 gün qalmış kəndin, məhəllənin evlərini qapı-qapı gəzərək, adamları toy-düyün məclisinə çağırmaq işinin, eləcə də bu münasibətlə çağırılanlara **şirni** [259] ilə yanaşı paylanan **dəvətiyyə** [64] çağırış vərəqəsinin başqa adı. ◆ Ayrı-ayrı dövrlərdə buna *"səla"* və *"səda"* da demişlər.

## OXUYUCU

◆ Toy-nişan tədbirlərindən bir neçə gün əvvəl el-obanı bu şənliyə çağıran **toy dəvətçisinin** [269] əski mətnlərdə təsadüf edilən ən qədim adlarından biri. ◆ Burada bir cavan, yaxud yaşlı kişi ata minib kəndi başdan-başa çapır, tapşırılan adamlara



Azərbaycan Milli Kitabxanası

dəvətnamə paylayaraq, qonum-qonşu və kənd sakinlərinin **oğlan toyuna** [208] vədəsini alırdı. ◆ Sonralar onu *"carçı"*, *"harayçı"* və s. deyə çağırdılar.

**211.**

## ● OVŞALA

◆ Bəzi yerlərin **toy-nişan** [269], [205] tədbirlərində isti şirin çay əvəzinə su, şəkər, gülab və lumu turşusu, yaxud sirkədən hazırlanıb qonaqlara paylanan **gəlin şərbətinə** [98] verilən ad. ◆ Onu bəzən baldan hazırlayıb içinə gülab qatırlar. ◆ Onun *"oşala"* (Quba, Salyan, Şamaxı), *"oşara"* (Göyçay, Şəki), *"əhşələ"* (Abşeron) deyiliş şəkilləri də var. ◆ Başqa adı *"qəndab"*dır.

**212.**

## ● ÖLLÜX - DİRİLIX

[ *"ölülük-dirilik" sözündəndir* ] ◆ Quba diyarında **oğlan evinin** [208] ərə verilən **nişanlı** [205] qızın ata-anasına toyqabağı tədarük və cehiz alınması üçün verdiyi **başlıq** [29], həmçinin gəlin qızın özüylə təzə mənzilinə apardığı həyat üçün ən vacib sayılan ev əşyaları və avadanlıq toplusu - **gəlinlik cehizinə** [98] verilən ad.

**213.**

## ● ÖZÜNƏBƏY

[ *"müvəqqəti, saxta bəy" mənasındadır* ] ◆ **Nikah** [203] bağlayıb **evlənmək** [84], ailə qurmaq məqsədilə **toy** [269] məclisi quran adaxlı oğlana **ixtilat toyu** [141], yaxud **bəydurma** [36] mərasimindən sonra verilən adlardan biri. ◆ *"Bəy"* [36] sözünün başqa şəkli tək, bu adın müvəqqəti olduğunu, adama xüsusi *"bəylik"* imtiyazlarının yalnız toy günləri üçün verildiyini bildirir. ◆ Onun *"özündənbəy"* deyiliş şəkli də var.

## ÖZÜNƏBƏYLƏR

[ *"özünəbəyin dəstəsi" kimi izah olunur* ] ◆ Yurdumuzun Qazax və Tovuz bölgələrində **toy** [269] mərasiminin **gəlingətirdi toyu** [98] günü gəlin qızı yeni mənzilinə gətirmək üçün **oğlan evindən** [208] qızgilə yollanan nümayəndə heyəti - **toy alayı** [269] iştirakçılarına verilən ümumi ad. ◆ Digər yerlərdə onları *"**atlılar**"* [18] (Gürcüstanda yaşayan soydaşlarımız) və *"**cıdırçılar**"* [43] (Gəncə) adlandırırlar.

**214.**

## ● PAÇA GÜNÜ

[ *"padşah günü" anlamındadır* ] ◆ Bir para yerlərin qaydasına görə **oğlan toyunun** [208] ikinci günü çağırılan kiçik bir məclisin adı. ◆ Burada **xanoturdu** [124] oyununda olduğu

Azərbaycan Milli Kitabxanası

tək, bəy oğlanı zarafatyana *"taxta"* çıxarıb onu *"paçça"*, yaxud *"şah"* adlandıraraq, ona *"vəzir-vəkil"* seçir və s. edirlər. ◆ Eyni zamanda bu, həmin məclisdə oynanılan bir rəqsin adıdır. ◆ Bəzi yerlərdə toyun ertəsi günü qonaqlara *"paçalıq // paça şorbası"* (xalq arasında ona *"başayaq"* da deyirlər) verilən bir ziyafət də belə adlanır. Zaqatalada bu günə və məclisə *"əttiy"*, cənub torpaqlarımızda isə *"sabahda"* deyirlər.

## PAÇALIQ

[ *"padşahlıq, padşaha layiq" deməkdir* ] ◆ Bəzi bölgələrimizdə toyun sabahı keçirilən **paça günü** [214] məclisində bir gün əvvəl **gəlin qızın** [98] ayağı altında qurban kəsilmiş buynuzlu erkəyin başından və qıçlarından bişirilib yeyilən, *"kəlləpaça // başayaq"* xörəyinin qədim adı. ◆ Toyun sabahı təzəgəlinin geydiyi bir libas da bu adı daşıyır. ◆ Onun başqa adı *"paça şorbası"* və *"üzduvax"*dır (Qax, Zaqatala).

**215.**

*"Xonçada tirmə gələr qızımçün"*
(toy oxumasından)

## PALTARAPARMA

◆ Keçən yüzilin əvvəllərində Qubada **kiçik nişan** [150] mərasimi **üzükşal toyun**dan [282] 20-25 gün sonra oğlan tərəfin **nişanlı** [205] qız üçün parça-paltar aparması münasibətilə **qız evində** [178] çağırılan qadın məclisinin adı. Bəzi yerlərdə ikinci **böyük nişan** [41] mərasimi **nişantaxdı toyu** [205] da bu adı daşıyır. ◆ Məclis, həmçinin *"paltargətirmə"* və *"urbagötürmə"* adı ilə də tanınır.

*"Qayçını atağın taxçaya cingildəsin"*
(toy oxumasından)

## PALTARKƏSDİ TOYU ( VII )

◆ Ötən çağlar üç gün davam edən **qız toyu**nun [178] başlanğıcı, onun birinci mərasimi sayılıb oğlan və qız tərəfi qadınlarının qız evində keçirdikləri bir məclisin adı. ◆ Sonralar və indinin özündə bu mərasimi **gəlinapardı toyu**ndan [98] 2-3 ay, bəzən isə bir-iki həftə əvvəl keçirməyə başladılar. Bəzi hallarda qızın dədəsi iki ayağını bir başmağa dirəyib qətiyyətlə deyir: *"Qızım üçün mən istəyən pal-paltar, qızıl-gümüş gətirilməsə, kəbin kəsilməkdən söz gedə bilməz..."* Belə olduqda, oğlan evi böyük **nişantaxdı toyu** [205] mərasimində nişanlı qıza apardığı zinət əşyalarına əlavə, qıza çatacaq nə varsa hamısını - köynəklik, tumanlıq, vaxtilə isə çarşablıq və s. parçaları, üstəgəl hazır tikilmiş əyinbaş, köynək, boğazaltı, yaylıq və digər toy tədarükünü bəzən sayı 15-20-yə çatan **xonça** [138], **boxça** [39] və xüsusi paltar mücrülərinə yığıb qızgilə aparır... ◆ Bu bələdçinin *"qırmızı"* bölməsində [səh.135] milli toy ənənəmizin **paltarkəsdi toyu [ VII ]** mərhələsi haqqında daha ətraflı yazılır.

## PALTARÜSTÜ

◆ Qız evində çağırılan **paltarkəsdi toyu** [215] və Qubadakı **paltaraparma** [215] məclisində qonaqların oğlangildən gətirilmiş parça-paltar üzərinə pulsalma adətinin adı. Mücrü və xonçalardan çıxarılmış şeylər qız tərəfə göstərildikdən sonra, məclisdəki qadınlar, başda oğlan anası olmaqla, pal-paltar üstünə pul atırlar. ◆ Bəzi yerlərin qaydasına görə, yığılan pullar çox vaxt əşyaları saxlayan kasıb bir arvada çatır.

Azərbaycan Milli Kitabxanası

216.

## PƏRDƏ

◆ Qız toyu şənliklərinin ikinci günü - **xınayaxdı toyunda** [135] qızın yaxın rəfiqələri-lə arxasında oturduğu, gəlin köçürülən günü isə **ər evindəki** [89] **gəlinlik otağının** [98] bir tərəfində tavandan asılaraq, təzə evlənənlər üçün çadır tək quraşdırılan **gərdəyin** [100] adlarından biri. ◆ Vaxtilə qurama üsulu ilə parça tikələrindən hazırlanmış bu asqı, xalq əqidəsincə, gəlin qızı bədnəzər və şər qüvvələrin təsirindən qorumaqdan ötrü güclü bir vasitə, sipərdir. ◆ Ona bəzən *"pərdəbağı"* da deyirlər.

## PƏRDƏAPARDI

◆ Vaxtilə Abşeronda **gəlinapardı toyu** [98] zamanı gəlin qızı bir kənddən başqasına və ya şəhərə köçürəndə onun ətrafında icra olunan bir ənənəvi atüstü yarışın adı. ◆ Burada gəlini dədəsi evindən çıxararaq **ər evinə** [89] aparmaq üçün ata, yaxud qeyri miniyə əyləşdirib **toy alayı** [269] şəklində yola düzəldikdə, atlılardan biri **qız evindən** [178] **gərdək** [100] pərdəsini alıb onu əlində tutaraq çapmağa başlayır. Digər 15-20 atlı ona çatmaq üçün çapa-çapa ötüşür, pərdəni öncə ondan, sonra da bir-birinin əlindən almağa çalışırlar. Yarışma pərdə oğlan evinə çatdırılana qədər davam edir. **Bəy qapısına** [36] əvvəl çatmış, əlində *gərdək pərdəsini* gətirmiş atlıya **oğlan yengəsi** [208] xüsusi **müjdə xələt** [195] verir, atın alnına isə yumurta çırpılır. ◆ Başqa yerlərdə bu yarış *"pərdəbağıapardı // pərdəqapma"*, *"yaylıqqaçırdı // yaylıq oyunu"* adı daşıyır.

## PƏRDƏDƏOTURMA

◆ Toydan sonra təzəgəlinin **ər evində** [89] abır-həya gözləyərək, adətən, üç gün, üç gecə, bəzən isə bir həftə **gəlinlik otağında** [98] qalıb eşiyə çıxmaması. ◆ Dədə-baba qaydasına görə, bu müddət ərzində onu yalnız **oğlan yengəsi** [208] və oğlan anasının göndərdiyi kiçik bir qız uşağı görüb söhbət edə bilərdi. ◆ Adətə görə, bu günlər təzəgəlinin yanında mütləq şam-çıraq yanmalı, güzgü olmalıdır. Elimizin əski inamına görə, şam-çıraq (şər qüvvələr od-işıqdan qorxduğu üçün) və güzgü (gəlinin ruhu güzgüdə əks olunduğundan) - hər ikisi **təzəgəlini** [267] ziyan gətirən bədxah ruhlardan qoruyurlar. ◆ Bəzi yerlərdə bu adəti *"pərdədəqalma // pərdeyi-ismətdə oturma"*, *"gərdəkarxası // gərdəkdəoturma"*, *"pərdənişini"* də adlandırırlar.

217.

## PƏRVAZƏ

◆ Orta çağların ədəbi mətnlərində təsadüf olunub, bir vaxtlar **toy** [269] təntənələrinin əksər mərasim və tədbirlərində **gəlin qız** [98] qarşısında tutulan od-alov - çıraq, şamdan, məşəl və bu kimi işıq mənbələrinin ümumi adı. ◆ Həmçinin qız önündə yandırılıb onun başına dolandırılan **üzərlik** [281] otunun tüstüsü və ümumiyyətlə, toylarda gəlinin başına səpilən **şabaş** [245] və ya zərli kağız qırıntısına verilən ad. ◆ Onun *"bərvazə"* tələffüz şəkli də var.

Azərbaycan Milli Kitabxanası

218.

## PUÇUR

◆ Yurdumuzun Muğan bölgəsində **gəlinapardı toyu** [98] günü **ər evinə** [89] varan gəlin qızın **toy alayında** [269] mindiyi arabanı idarə edən adama verilən ad. ◆ Bu şəxs, adət üzrə, qızın kiçik qardaşı və ya dayısı, yaxud **oğlan sağdışı** [208] olur. Qardaş və ya dayı gəlini yeni mənzilinə çatdırdıqdan sonra geri, qızın dədəsi evinə qayıdır.

219.

*"Əskinazı sayarlar, pul qabına qoyarlar"*
(toy oxumasından)

## PULSALMA

◆ **Toy** [269] məclisinə gələn **dəvətlilərin** [64], bir adət olaraq, toy sahibinə pul ilə qarşılıqlı yardım etməsi. ◆ İki-üç möhtərəm ağsaqqalı toy məclisinin girəcəyində *"pul üstündə"* oturdurlar. Onlar pulu qonaqlardan qəbul edərək, bir-bir pul verən şəxslərin adını və verdiyi pulun miqdarını yazıb siyahı tuturlar. *"Yazılanlar"* burada duran sinidən bir az **şirni** [259] götürüb toyxanaya keçirlər. Toplanmış vəsait siyahı ilə birgə toyun sonunda toy sahibinə təhvil verilir. Bu pullar, əsasən, toy xərcini ödəmək üçün işlənir. ◆ Bəzi məclislərdə isə yemək yeyən qonaqların qabağına qırmızı süfrə ilə örtülmüş bir sini və ya nimçə qoyulur və hərə öz imkanına görə oraya pul atır. ◆ Toy sahibinə çatan pullar borc sayılır və gələcəkdə borc sahibinin toy şənliyində ona qaytarılır. ◆ Bir para yerlərdə qız evindəki **paltarkəsdi toyu** [215] zamanı qadınların xonçalara pul atması da bu adı daşıyır. ◆ Ona həmçinin *"pulüstü // pulatma"* da deyirlər.

220.

## RİZAALDI

[ *"razı olub-olmadığını öyrənmək" anlamındadır* ] ◆ Qızın ata-anasının rəyini öyrənmək və qabaqcadan onlara qız üçün elçiliyə kimlərin və nə vaxt gələcəyini xəbər yetirməkdən ötrü oğlan evinin təşkil etdiyi **ağızarama** [5] görüşünün əski adlarından biri. ◆ Bəzi bölgələrdə bu görüş *"rizaməndlik alma"* və *"saziş"* adları daşıyır.

## RİZA SÜFRƏSİ

[ *"razılıq süfrəsi" deməkdir* ] ◆ Böyük kişi elçiliyi **hərialdı**da [119] nikaha rəsmi razılıq əldə olunduqdan sonra, həmçinin **üzükşal toyu** [282] kiçik nişan mərasimində elçilər üçün isti məxməri çay və ya şərbətlə yanaşı açılan **şirni süfrəsi**nin [259] adlarından biri. ◆ Xalqımızın ağzında bu deyim bəzən *"irza süfrəsi // rza süfrəsi"* tək səslənir.

221.

## RUNƏMA

◆ **Oğlan toyu** [208] şənliklərinin ikinci günü - **gəlingətirdi toyunun** [98] sonundakı

Azərbaycan Milli Kitabxanası

**gərdək gecəsində** [100] gəlin qızın üzünü bəy oğlanın açması və bu zaman bəyin, bir qayda olaraq, qıza bəxş etdiyi qiymətli zinət əşyası - **üzgörümlük** [278] deyilən hədiyyənin lap qədim adı. ◆ Onun başqa adı *"üzgörümcəyi"* və *"cilvə"*dir.

222.

## ● SABAHDA

◆ Əslində, yalnız cənub torpaqlarımız üçün səciyyəvi olub bu ərazidə çaldırılan **oğlan toyu** [208] mərasimlərinin səhəri oğlan evində arzu-kamına yetmiş **təzəbəyin** [267] yaxın qohumları tərəfindən hədiyyə və **xələtlər** [132] qəbul etməsilə bağlı kiçik bir məclisə verilən ad. ◆ Bu məclisə Zaqatala bölgəsində *" əttik"*, başqa yerlərdə isə *"paça günü"* deyirlər.

223.

## ● SAÇI // SAÇIQILMA

[ *"səpələmək" mənasındadır* ] ◆ Toy mərasimləri zamanı gəlin qızın başına səpilən şirni, arpa, buğda, gül-çiçək, təp-təzə qəpik-quruş, **şabaş** [245] və bu kimi şeylərin adı. ◆ Klassik ədəbiyyatımızda onlar **nisar** [204] adlanırlar. ◆ Bundan başqa, **qaşıqdağıtmadan** [165] sonra, toy günü **dəvətlilər** [64] tərəfindən **oğlan evinə** [208] göndərilən erkək, dana və s. toy hədiyyələri də bu adı daşıyır. ◆ Onun başqa adı *"saçılış // saçıatma"*dır.

224.

*"Kimi ay qabağa siyah tel düzər,*
*Kimi qaş oynadar, gözlərin süzər..."*
(Aşıq Alı)

## ● SAÇKƏSDİ

◆ Toy günü qız evində keçirilən **gəlinbəzəmə** [98] ayini zamanı ərə verilən qızın ömründə ilk dəfə saçlarının ərli qadınlara məxsus yeni biçimdə kəsilib-daranması işinə verilən ad. ◆ Ulu babalarımızın düşünüşünə görə, toy günü qıza aid bütün paltar, boğça və s. əşyaları açmaqla, *"düyünlərdən azad etməklə"* əngəlsiz, maneəsiz açıq yol və sərbəst hərəkətlərə nail olmaq olar. Təkcə elə bu səbəbdən gəlin qızı yeni mənzilinə heç cür saçıhörüklü buraxmaq olmaz. Digər tərəfdən, qız bu gündən etibarən **ərli** [89] qadınlar cərgəsinə keçdiyi üçün onun saçları artıq başqa cür daranmalı, başına başqa biçimli örpək salınmalıdır. ◆ Odur ki, bu əməliyyat üçün dəvət edilmiş **məşşatə** [192] və ya **qız yengəsi** [178] işə başlarkən, ilk öncə, gəlin qızın qabağına bir önlük taxır, sonra onun bu günə qədər arxaya atdığı hörüklərini açıb darayır, dalınca qızın qaşları ortasından bir tağ ayırıb *"bismillah"* deyərək qayçını işə salır. Adətən, bu vaxt gəlin qız kövrəlib ağlayır. ◆ Ardınca, məşşatə saçın alın üstə tökülən tellərindən çətir kəsib *"birçək boğur"* (bəzi yerlərdə buna *"cığa"*, *"cığcığ"* deyirlər), yəni onu buta şəklinə salır. Sonra saçın gicgah hissəsindən müəyyən qədər tel ayırıb burur, qulağın ardından keçirərək, ucunu əyib qaşın axırından bir az aşağı *"qoç buynuzu"* biçimli *"balabirçək"* düzəldir. ◆ Yerdə qalan tellərin uclarını boyunun arxasında yumrulayıb ipli bir ləçək - *"çutqu"*nun içinə salır, yaxud qızın başına ipək ləçək bağlayır. Sonra qıza: *"maşallah, maşallah ananın südü, atanın çörəyi sənə halal olsun, hamı baxsın boyuna, ellər gəlsin toyuna"* - deyərək, çutqu üstündən gəlin qızın başına

Azərbaycan Milli Kitabxanası

*"dördrəng"* deyilən kiçik ipək yaylıq (başqa yerlərdə ona *"dingə"* deyirlər) bağlayıb dövrün cavan gəlinlərinə məxsus bir saç biçimi darayır. ◆ Qaydaya görə, kəsilmiş hörüklər, saç telləri səliqə ilə bir qaba və ya qutuya yığılmalı, gizlin bir yerdə torpağa basdırılmalıdır. ◆ Bir para yerlərin qaydasına görə, məşşatə işinə başlamazdan əvvəl qızın saçlarını kəsmək üçün qayçını **qız adamları**ndan [178] *"pulla"* alır. ◆ Digər bölgələrin adətincə isə, qızın saçı kəsilməzdən əvvəl, uğur olsun deyə, qızın yaxın qohumlarından **subay** [241] bir qız gəlinin saçından bir tel qoparıb qızın anasına verərək əvəzində şirinlik alır. Qızın anası həmin teli qızın cehizlik balışı, yaxud döşəyinin içinə tikir. Xalq etiqadına görə, həmin tel öz yerində nə qədər çox qalsa, xeyir-bərəkət də bir o qədər çox olar. ◆ Naxçıvanda isə məclisdəki yeddi qızın hər biri gəlin qızın saçından bir tel qoparır. Sonra onları dəstələyib qızın anasına verirlər. Ana da onları balışın içinə tikib **ər evinə** [89] göndərir. ◆ Bu işə *"saçkəsmə"*, *"birçəkkəsdi"*, *"çığakəsdi // çığaboğma"* da deyirlər.

**225.**

## SAĞDIŞ

◆ Oğlan və qız evlərində keçirilən **toy** [269] tədbirlərində təzə evlənənlərin sağında addımlayan və ya əyləşən cavan kişi və qadına verilən ad. ◆ Bu qədim mənşəli ada "Kitabi Dədə Qorqud"da da rast gəlinir. ◆ Ayrı-ayrılıqda **oğlan sağdışı** [208] və **qız sağdışı** [178] adları ilə çağırılan hər ikisi, adət üzrə bəy oğlan və gəlin qızın yaxın qohumlarından biri, yaxud oğlanın **qardaşlığı** [164], qızın isə **bacılığı** [22] olur, el içində cavan ailə sahibləri tək tanınırlar. ◆ Əgər bu şəxslər evlənənlərə qohum deyillərsə, qaydaya görə, bundan sonra artıq qohum sayılırlar. ◆ Bəzi yerlərin adətincə, hər ikisi, ayrı-ayrılıqda bəy və gəlinə bir **şax** [248] bəzək qurğusu hazırlayıb, təntənəli şəkildə onları oğlan və qız evlərinə çatdıraraq, cavanlara təqdim edirlər. ◆ Bu şəxslərin toy günü çəkdiyi təmənnasız zəhmət, bir vaxtlar xalq arasında "qoyulan əməyə dəyməyən nahaq və ən faydasız bir iş" sayılmışdır. ◆ Ayrı-ayrı dövrlərdə, başqa-başqa yerlərdə ona *"balbağan"* (Zaqatala, Qax), *"böyük yançı"* (Şəki), *"qardaşlıq"* (Qazax, Tovuz, Şəmkir), *"qanus"*, *"dəsbəra"*, *"ərusbər"*, *"gəzək"*, *"müsahib"*, *"şahbala"* və s. demişlər. Onun *"sağdiş"* (Ordubad), *"sağduş // sağdıç"* (cənub torpaqlarımız), *"sağduç // sağdüş // sağdöş"* deyiliş formaları da mövcuddur.

## SAĞDIŞPAYI

◆ Toy tədbirlərinin sonunda, bir adət olaraq, gəlin qız anasının **qız sağdışı**na [178], bəy oğlan anası və təzəgəlinin isə **oğlan sağdışı**na [208] bəxş etdikləri köynək, cib yaylığı, sabun və şirniyyatdan ibarət xüsusi **xələt**lərin [132] adı. ◆ Xələtlər oğlangildə sağdış-soldışın bəy oğlan ilə bir masa arxasında oturub yemək yedikləri vaxt təqdim olunur. ◆ Adət və deyim daha çox Astara diyarı üçün səciyyəvidir.

## SAĞDIŞ-SOLDIŞ

*"Sağdışın sağ yanında, soldışın solundadı"*
(toy oxumasından)

◆ Xalqımızın əski adət-ənənəsinə görə, oğlan və qız evlərindəki toy məclislərində canla-başla iştirak edərək toyun şən və intizamlı keçməsi üçün çalışan, ayrı-ayrılıqda şənliklərdə həm gəlin qız, həm bəy oğlanın sağ və sol tərəflərində əyləşən dörd



Azərbaycan Milli Kitabxanası

# • IX • İXTİLAT TOYU

**141.**

[ buradakı "ixtilat" sözü həm qarışmaq, qatılmaq, həm görüşüb isnişmək anlamındadır ] ◆ *Vaxtilə üç gün, üç gecə davam edən **oğlan toyu**nun [208] birinci günü (uzaq keçmişdə gəlin **ər evinə** [89] bu gün gətirilərdi), sonralar **gəlingətirdi toyu**ndan [98] bir gün əvvəl oğlan evində çağırılan toy məclisinin adı. ◆ Məclis günorta vaxtı, dəvət olunmuş zurnaçılar dəstəsinin müşayiətilə, bir neçə yaxın qonum-qonşunun yığıldığı **heyvankəsdi** [115] mərasimi ilə başlayır. İlk öncə burada "toy cöngəsi"nin boynunu qırıb yerə sərirlər və sonra toy üçün alınmış digər toyluq heyvanlar kəsilir. ◆ Həyətin bir tərəfində isə cavanlar bir para milli oyunlar nümayiş etdirib, güc-qüvvələrini sınamaq üçün güləşməyə başlayırlar. Bəzi yerlərdə qonşu kəndlərin dəvət olunmamış pəhləvanları da bu sınağa təşrif gətirirlər. Güləşi idarə etmək üçün nüfuzlu ağsaqqallardan biri "münsif" (bir para bölgələrdə ona "tavın" deyilir) seçilir. Toy sahibi qalib üçün əvvəlcədən bir tabaqda **xonça** [138] tutdurur. Oraya yağlı təndir çörəyi, halva, şirni, qızardılmış toyuq, bir neçə bişmiş qırmızı yumurta və meyvə qoyub, üstünə toxunma yun corab, yaxud köynək və ya parça - **xələt** [132] yerləşdirir. ◆ Xonça meydanın ortasına qoyulduqdan sonra, ona sahib olmaq istəyənlər qurşağa qədər soyunub şalvarını çırmalayır və "Cəngi" oyun havasının sədaları altında meydana girirlər. Güləşçilərdən biri dövrə vurduqdan sonra, kənardan diz üstə sürünüb xonçaya yaxınlaşır və onun yanında diz çökərək xonçanı öpür, alnını ona vurur, sonra yenə dövrə vurub rəqibini gözləyir, bu vaxt meydana çıxan olarsa, onunla güləşir. ◆ Dədə-baba qaydasına görə, üstün gələn pəhləvan gedib o birisinin qolundan tutub rəqsə dəvət etməlidir. Burada boyun qaçırmaq, etiraz etmək olmaz. ◆ Sonuncu qalib pəhləvan xonçanı qaldırıb meydandan çıxandan sonra "Koroğlu" havası çalınır və kəndin atçaparları yarışa çıxırlar. Mənzilə tez gəlib çatmış atın alnına bir yumurta çaxır, sonra atın ağzını aralayıb bir yumurtanı da boğazına atırlar. Qalib atlıya isə bir az əvvəl kəsilmiş ən iri heyvanın dərisi bağışlanır. Hədiyyəni qalibə **oğlan yengəsi** [208] verir. Bəzi hallarda atçapma yarışlarında **bəy oğlan** [36] da iştirak edir. ◆ Əslində, yurdumuzda toy-düyün zamanı keçirilən bu atçapma yarışı əcdadımız Oğuz türklərindən qalma adətdir. ◆ Oğlan evinə axışıb-gələn uşaqlı-uşaqsız qohum qız-gəlin düyü arıtlayır, soğan doğrayır, ət qovurur, qazanları isti su ilə doldurub toyuq ütür və s. işlər görürlər. Bir böyük otağı xalça-palazla bəzəyib oraya samavar qoyur, lazımi tədarük görürlər. ◆ Axşam məhəllə və ailə ağsaqqalları buraya **məsləhətə** [191] yığışıb, ilk öncə, toy şənliklərini idarə etmək üçün **toybəyi** [269], yaxud **sərpayını** [236] müəyyən edirlər. Elə bu səbəbdən bəzi yerlərdə bu məclis **sərpayı axşamı** [236] adlanır. ◆ Bir para yerlərin adətinə görə, bu toy məclisində ortaya böyük bir stəkanda isti şirin çay gətirilir, qonaqlardan kim onu götürüb içərsə, həmin adam "toybəyi" vəzifəsini öz üzərinə götürmüş hesab edilir. ◆ Sonra toya hazırlıq işləri bir daha yoxlanıb dəqiqləşdirilir, sabahkı gəlingətirdi toyu tədbirlərində kimin nə iş görəcəyi müəyyən edilir. Ayrı-ayrı adamlara müxtəlif işlər, məsələn, toya lazım olan su və odun daşımaq, qızgilə odun aparıb doğramaq, **toyxana-mağar** [269], [187] qurmaq, qonaqları qarşılamaq, qonşu kəndlərdən və şəhərdən gələcək qonaqların*



Azərbaycan Milli Kitabxanası

yerləşdirilməsi, yemək işlərinə nəzarət və s. tapşırılır, çayçı və aşpaz dəvət olunur. Sonra məsləhətə gələnlər üçün süfrə açılır. ◆ Ayrıca bir otaqda isə **adaxlı** [1] oğlan öz sağdış-soldışı ilə **oğlan qonaqlığı** [208] verərək ən yaxın tay-tuşları, **subay** [241] dost-tanışı ilə son dəfə birgə əylənib şənlənir. Sonra hamı həyətə çıxıb orada qalanmış tonqal üstündən hoppanaraq subaylıq, gənclik çağlarının dostu ilə "vidalaşırlar". Adət-ənənəyə görə, bu gecə qızın dədəsi evində **xınayaxdı toyu** [135] və ya **qızyığdı** [178] məclisi keçirilir. Oğlan evi bu axşam oraya **oğlan yengəsi** [208] ilə birlikdə, bir uşağın başında zərli parça ilə örtülü xonça göndərir. Bir az keçmiş, yengə və uşaq geri qayıdır, xonça əvəzinə onlara verilənləri - qız anasının adaxlı oğlan üçün tutduğu **hamam boğçası**nı [113], içinə "bişi" deyilən nazik bir qoğal, qırmızı yumurta və şirni düzülmüş xonçanı və bir qazan plovu gətirirlər. ◆ Adətən, xınayaxdı toyundan qayıtmış oğlan evi qadınları qızgildəki **gəlin xınası**ndan [98] bir az "oğurlayıb" bir camda oğlan evinə gətirirlər. Adaxlı oğlan çeçələ barmağını xınaya batırıb dabanına sürtür, yaxud **oğlan sağdışı** [208] oğlanın ovucu və barmaqlarının ucuna həmin xınadan yaxır. Sonra məclisdəkilər də bir-bir çeçələ barmaqlarını camdakı xınaya bulayırlar. Elə bu səbəbdən bu qonaqlıq çox vaxt "oğlan evində xına gecəsi" adlanır. ◆ Gecəyə yaxın hamı evlərinə dağıldıqdan sonra, adaxlı oğlanın yaxın dostları üçün xüsusi süfrə açılır, onlar yeyib-içirlər. Sağdış ilə soldış qız evindən gətirilmiş yumurta və şirniyyatı yeyir, xonçanı gətirən uşağa isə xələt və ya **nəmər** [201] verirlər. ◆ Bəzi yerlərdə, bu məqamda bir nəfər qızgildən təcili isti **dürəng** [75] çayı gətirib oğlan və onun dostları qarşısına qoyur. Məclisdəkilər çayı qarışdırıb içir, boş nəlbəkilərə nəmər atırlar. ◆ Sonra cavanlar "turna-turna", "**üzük-üzük**" [282] və bu kimi oyunlar oynayırlar. Gecəyarısı hamı evlərinə qayıdır və sabahkı toy şənliklərinə hazırlaşırlar. ◆ Bəllidir ki, din xadimləri, ruhanilər, səs-küylü, şux şənlikləri sevmir və bir qayda olaraq, onlardan boyun qaçırırlar. Həmin şəxslər üçün ayrıca təşkil edilmiş məclis, həmçinin din xadimlərinin öz evlərində keçirdiyi "evlənmə mərasimi" də bu adı daşıyır. ◆ Ayrı-ayrı yerlərdə bu toy məclisi "ixtilat gecəsi", "toy axşamı", "sərpayı axşamı // sərpayı gecəsi", "böyük məsləhət" (Şəki), "dünürçü çayı" (cənub-qərb bölgələrimiz), "məşvərət", "oğlan evində tədarük" və ya "xına gecəsi", "xınagöndərdi" adlanır.

**• IX •**

*Ardı:*
***GƏLİNAPARDI TOYU ◆ X***
*(189-cu səhifədə)*

Azərbaycan Milli Kitabxanası

şəxsə verilən ümumi ad. ◆ Bir para yerlərin qaydasınca, **qız sağdışı** [178] - oğlan tərəfin, **qız soldışı** [178] isə qız evinin adamı olmalıdır (burada artıq **oğlan yengəsinə** [208] ehtiyac qalmır). ◆ Bəzi yerlərdə bəy oğlanın toy yoldaşlarının hər ikisi subay olur. ◆ Əslinə qalarsa, buradakı iki **sağdış** [225] evli - bəylə gəlinin daxil olacağı **başıbağlılar** [29], yəni arvadlı kişilər və ərli qadınlar zümrəsinin nümayəndəsi olduğu halda, o biri iki nəfər - **subay** [241] **soldışlar** [239], oğlanla qızın artıq tərk etdikləri *"subaylar cərgəsi"*ni təmsil edirlər. ◆ Belə bir mülahizə də var ki, onlar, islam dininə görə insanın sağ və sol çiynində əyləşmiş iki gözəgörünməz qoruyucu mələyin canlı təcəssümüdürlər. Əslində isə, bu dördlüyün toyda iştirakı bəy oğlan və gəlin qızın rahatlığı və təhlükəsizliyi ilə bağlı olan zəruri bir tədbirdir. Əbəs yerə deyildir ki, vaxtilə toy günləri oğlanın *"toy yoldaşları"*, bir adət olaraq, silahlanmışlar. ◆ Bu şəxslər vəzifələrinin icrasına, qayda üzrə, qollarına qırmızı ipək parça bağlayaraq başlar, bütün toy şənlikləri zamanı təzə evlənənlərdən bir an belə ayrılmayıb hər yerdə, hər addımda onları müşayiət edərək qayğısına qalır, qoruyurlar. ◆ Adət-ənənəyə görə, toydan sonrakı **bəygörüşünə** [36] qədər oğlanın yalnız bu *"toy yoldaşları"* **gəlinlik otağına** [98] çəkilmiş **təzəbəylə** [267] ünsiyyətdə ola bilər, onunla ətraf bağ-bağçaya çıxıb gəzə bilərlər. ◆ Onlar çəkdikləri təmənnasız zəhmətin müqabilində heç bir qarşılıq gözləmirlər. Buna baxmayaraq, toydan sonra oğlan və qız evləri bu dörd *"fədakara"* **xələt** [132] verməklə onlara öz razılıq və minnətdarlığını bildirir. ◆ Onların digər adları *"bəyyanı"*, *"vəzirlər"*, *"yançılar"* (Şəki), *"saqqallar"*dır. Bu deyimin *"sağdöş-soldöş"* tələffüz tərzi də mövcuddur.

**226.**

## SAQQALLAR

[ *"sağ əllər" anlamındadır* ] ◆ Beyləqan və Ağcabədi bölgələrimizdə **oğlan evində** [208] vurdurulan **toy** [269] məclislərində, bir qayda olaraq, bəy oğlanı addımbaşı müşayiət edib onun sağ və sol tərəfində əyləşən iki *"toy yoldaşı"* - **sağdış-soldışa** [225] verilən ad. ◆ Şəkidə onları *"yançılar"*, başqa yerlərdə isə *"bəyyanı"*, *"vəzirlər"* və s. adlandırırlar. ◆ Onun *"saqqallılar"* deyiliş şəklinə də təsadür olunur.

**227.**

## SALOVÇU

◆ Yurdumuzun Masallı və Lənkəran bölgələrində toy-nişan şənliklərinə bir neçə gün qalmış el-obanı tapşırılan siyahı ilə qapı-qapı gəzərək **şirni** [259] və **dəvətiyyə** [64] paylamaqla camaatı bu tədbirlərə çağıran **toy dəvətçisi** [269] - yeniyetmə qız və ya cavan oğlana, bəzən isə yaşlı bir kişiyə verilən ad.

**228.**

## SANDIQPAYI

◆ Bəzi yerlərin adətincə, **gəlinapardı toyu** [98] günü gəlin qız **ər evinə** [89] yola salınan zaman cehizi ilə yanaşı ona verilən xüsusi pay, daha doğrusu, yeddi növ şirniy-

Azərbaycan Milli Kitabxanası

yatdan ibarət **xonçanın** [138] adı. ◆ Bu pay, adətən, **cehiz sandığında** [42] yerləşdirilir. ◆ Bəzi yerlərdə ona *"şirin xonça // şirni xonçası"* da deyirlər.

## SANDIQÜSTÜ

◆ Həyat üçün vacib ev əşyaları və avadanlıq toplusu - **gəlinlik cehizinin** [98] qızgildən **ər evinə** [89] daşındığı günü icra olunan bir adətin adı. ◆ Burada gəlin qızın qardaşı və ya dayısı oğlu, əlində açar, güzgülü **cehiz sandığının** [42] üstündə əyləşib durmur, oğlan adamlarından *"düşərlik haqqı"* tələb edir. Bəy oğlanın böyük qardaşı və ya **sağdış** [125] ona pul verdikdən sonra, sandıq və onun açarı oğlan adamlarına təqdim olunur.

**229.**

## SAVÇİ

◆ Uzaq keçmişdə ulu əcdadımız Oğuz türklərinin həm xeyir işi tədbirlərində *"carçı"*, yəni **dəvətçi** [64], həm də *"**elçi**"* [81] anlamlarında işlətdikləri kəlmələrdən biri. ◆ Vaxtilə bu şəxs, toydan çox-çox əvvəl bir vasitəçi kimi **oğlan evi** [208] ilə qızgili arasında bilavasitə əlaqə saxlamış, **adaxlı** [1] oğlanın **nişanlı** [205] qızla məktublarını bir-birinə aparıb-gətirmiş və s. etmişdir. ◆ Onun *"sabçı"* deyiliş şəklinə də rast gəlinir.

**230.**

## SAYA TOY

◆ Bir vaxtlar yurdumuzun Kürdəmir bölgəsində aşıqsız, yalnız zurnaçı, xanəndə və sazəndələrin iştirak etdiyi **evlənmə** [84] məclislərinə verilən ad. ◆ Əslinə qalarsa, adlı-sanlı el aşıqları dəstələrini toy şənliklərinə dəvət etməyə ancaq varlıların imkanı olduğu üçün, adi kasıb ailələr bunu edə bilmirdi.

**231.**

*"Yarıma söyləyin mənə saz alsın,*
*onu çalım dərdü-qəmim azalsın"*
(xalq mahnısından)

## SAZ

◆ Keçmiş zamanlarda, əsasən, **qız toyu** [178] məclislərində qadın çalğıçılarının istifadə etdiyi yeddi, bəzən on dilli, varlı toylarda isə on iki dilli, açılıb-yığılan körüklərdən ibarət bəsit musiqi aləti - kiçik bir qarmonun adı. ◆ İfa zamanı onu qoşa-nağara və dəf-qaval müşayiət etmişdir. ◆ Bu musiqi alətini Şamaxıda *"nay"*, Qubada *"miskan"*, Tovuzda *"mizqon"*, Qazax və Ağstafada *"vizqon"*, Şəki və Cəbrayılda isə *"mizqan"* adlandırıblar.

**232.**

## SƏCDƏ

[ *"baş endirmə, təzim" mənasındadır* ] ◆ Ötən çağlar bəzi yerlərin adətincə, **üzəçıxdı to-**

Azərbaycan Milli Kitabxanası

**yunun** [278] səhəri, ağzı **yaşmaqlı** [291] **təzəgəlinin** [267] icra etdiyi qədim bir ayinin adı. Burada təzəgəlin ilk öncə **qayınatası** [168] qabağında diz çöküb oturaraq, onun sağ əlini öpüb gözü üstünə qoyur. Buna *"birinci səcdə"* demişlər. Sonra o, eyni qayda ilə **qayınanası** [168] və böyük qaynının qarşısında ikinci və üçüncü *"səcdə qılır"*. Bəzi bölgələrdə isə təzəgəlin aftafa-ləyən gətirib qayınata və qayınananın əlinə su tökür. ◆ Bu əski mərasimin *"səcdəqıldı // səcdədüşdü"* adları da mövcuddur.

233.

## ● SƏDA

[ *"səs, haray" mənasındadır* ] ◆ Əski ədəbi mətnlərə görə, **oğlan və qız evlərindəki** [208], [178] toy-nişan məclislərinə bir-iki həftə qalmış evbəev gəzib adamlara siyahı üzrə dəvətnamə paylayaraq **evlənmə** [84] şənliklərinə *"səsləmək"*, çağırmaq işinə verilən ad. ◆ Ona, həmçinin *"oxu"*, *"səla"* və *"çağırış"* da demişlər.

234.

## ● SƏDAQ

[ *əslində "evlənmə pulu" deməkdir* ] ◆ **Qız evində** [178] toyqabağı tədarük və nişanlı qıza **gəlinlik cehizi** [98] hazırlamaqdan ötrü, bir qayda olaraq, **nişan** [205] mərasimlərinin birində qız dədəsinin oğlan evindən aldığı, pul və ya mal-ərzaqla ifadə olunan ödənc haqqı - **başlığın** [29] ən qədim adlarından biri. ◆ Onun *"sədəq"* tələffüz şəkli də var.

235.

## ● SƏDƏQƏ

[ *"dilənçi payı" mənasındadır* ] ◆ Uzaq keçmişin yazılarında, oğlan evindən alınmış **başlıq** [29] hesabına gəlin qızın ata-anası tərəfindən hazırlanıb qızın özüylə birlikdə **ər evinə** [89] yola salınan ən gərəkli ev əşyaları və avadanlıq - **gəlinlik cehizi** [98] anlamında işlənən deyimlərdən biri. ◆ Başqa adı *"tuti"*dir.

236.

## ● SƏRXEYİR

[ *"xeyir işin başçısı" deməkdir* ] ◆ Muğan düzündə **nişantaxdı toyu** [205] böyük nişan mərasimində **qız toyu** [178] üçün dəvət edilən peşəkar qadın **toybəyiyə** [269] verilən ad. ◆ O, təkbaşına, əlinə bir çubuq alıb **toyxananı** [269] başdan-başa gəzərək, hamıya və hər şeyə fikir verir: qonaqlara da, onlara xidmət edənlərə də, musiqiçilərə də. Onun vəzifəsi - bir tərəfdən, burada keçirilən şənliyin şuxluğunu, səngiməməsini, o biri tərəfdən isə onun səliqə-səhmanını, nizam-intizamını qorumaqdır. Çox vaxt o, ayrı-ayrılıqda hər qonağı öz arzuladığı havada oynatmağa çalışır. Ona çatacaq xələt, adətən, toyxananın mərkəzindəki sütuna dolanır. ◆ Bu adın *"sarxeyir"* deyiliş tərzi də var.

Azərbaycan Milli Kitabxanası

## SƏRPAYI

[ *"ən yüksək rütbə" anlamındadır* ] ◆ İstər qız, istər oğlan evində keçirilən toy-nişan məclislərində yeri süpürüb süfrə salaraq qonaqlara xidmət edən **ayağüstünün** [19], eləcə də toyu idarə edən sərəncamçı **toybəyinin** [269] adlarından biri. ◆ Toy şənliklərindən sonra toy sahibləri bu şəxsə pul və xüsusi tutulmuş **sərpayı xonçası** [236] verirlər. ◆ *"Sarpayı"* və *"sərpayə"* deyiliş şəkilləri də var.

## SƏRPAYI AXŞAMI

◆ XIX əsrin ortasına qədər Abşeronda qız evindəki **xınayaxdı toyu** [135] ilə eyni vaxtda oğlangildə çağırılan bir məclisin adı. ◆ Burada, adət üzrə, **toybəyi** [269] / **sərpayı** [236] müəyyən edildiyi üçün və həmin şəxs hamının diqqət mərkəzində olduğu üçün məclis belə adlanır. ◆ Əslinə qalarsa bu **oğlan toyunun** [208] birinci günü - **ixtilat toyunun** [141] bir başqa adıdır. ◆ Onun *"sərpayı gecəsi"* adına da rast gəlinir.

## SƏRPAYI XONÇASI

◆ Oğlan və qız evlərində keçirilən toy-nişan tədbirlərində qonaqlara xidmət göstərən **ayağüstü** [19] və toy məclislərini idarə etmək üçün dəvət edilmiş peşəkar sərəncamçı **toybəyi/sərpayıya** [269], [236] toy mərasiminin sonunda, bir qayda olaraq, həm qız, həm oğlan anasının, puldan əlavə bağışladığı xüsusi **xonçanın** [138] adı.

## SƏRTAXTI

◆ Bəzi yerlərin adətinə görə, **gəlingətirdi toyu** [98] gecəsi və onun ertəsi günü təzəbəyin yaxın qohumlarının, bir qayda olaraq, gəlin qızın *"alnı açıq, ağbəxt çıxması"* münasibətilə **gərdək** [100] pərdəsi arxasındakı nikah yatağının baş tərəfinə gəlindən ötrü qoyduqları xələt və ya qiymətli hədiyyənin adı. Digər yerlərdə ona *"paytaxti"*, *"sərtəxti"* və *"taxtpayı"* deyirlər.

**237.**

## ● SƏSDİ TOY

[ *əslində, "səsli toy" olmalıdır* ] ◆ Vaxtilə Quba bölgəsində həm **aşıqlar** [16] dəstəsi, həm xanəndə, həm də çalğıçıların iştirakı ilə keçirilib hədsiz təmtəraq və səs-küylə müşayiət edilən varlıların **toy** [269] məclislərinə verilən ad. ◆ Başqa yerlərdə onu *"**dəbdəbəli toy**"* [58] (Kürdəmir) adlandırırlar.

## SƏSSİZ TOY

◆ Yurdumuzun bir para yerlərində bu və ya digər səbəbdən çalğısız, səs-küysüz və sakit şəraitdə keçirilən **evlənmə** [84] mərasiminə verilən ad. ◆ Əslində, çalğı çalmadan *"toy toylamaq"* vaxtilə xalq arasında naqislik sayılardı. Bu cür evlənməyə *"kar toy"* deyərək, **bəy oğlanla** [36] **gəlin qızın** [98] haqqında çoxlu xoşagəlməz rəvayət və fərziyyələr yayar, qızın *"üzüağ çıxması"*nı şübhə altına alardılar.



Azərbaycan Milli Kitabxanası

238.

## SİNİSÜFRƏ

◆ Qubada qız evinə böyük nişan mərasimi **nişantaxdı toyunda** [205] oğlangildən gətirilmiş xonça-qabların bir müddət sonra qaytarılması münasibətilə hər iki tərəfin qadınlarının iştirakı ilə oğlan evində çağırılan **vəzourt** [287] məclisinə verilən adlardan biri. ◆ Bu məclisin digər adları *"qabqaytardı // süfrəqaytardı // xonçaqaytarma"*dır.

239.

"Görüm a bəy, toyun mübarək olsun,
sağdışına, soldışına borc olsun"
(toy oxumasından)

## SOLDIŞ

[*əsli "soldaş"dır*] ◆ **Toy** [269] şənlikləri zamanı oğlan evində bəyin solunda oturan **subay** [241] oğlan, qızgildə isə gəlinin solunda əyləşən **ərgən** [89] rəfiqəsinə verilən ad. ◆ Ayrı-ayrılıqda **oğlan soldışı** [208] və **qız soldışı** [178] adları daşıyan bu şəxslər **nişan** [205] mərasimindən sonra **oğlan qonaqlığı** [208] və **qızyığdı** [178] məclislərində bu vəzifəyə seçilərək, bütün *"subay cavanlar"*ı təmsil edirlər. Toy günləri onlar **sağdış** [225] ilə birlikdə bəy oğlan və gəlin qızdan ayrılmayıb onları müşayiət və mühafizə edirlər. ◆ Xalq əqidəsincə, bu "vəzifəni" icra etdikdən sonra onların bəxtləri açılmalı, oğlan tezliklə evlənməli, qız ərə getməlidir. ◆ Şəkidə onu *"kiçik yançı"* adlandırırlar. Onun *"soldiş"* (Ordubad), *"soldeş // solduş // solduc"* deyiliş şəkilləri də var.

## SOLDIŞPAYI

◆ Toy günlərində qız və oğlan analarının, həmçinin gəlin qızın, şəxsən **oğlan və qız soldışları** [208], [178] üçün hazırladıqları və bir qayda olaraq, **gəlingətirdi toyunun** [98] sonunda, bəy oğlanın onlarla bir yerdə oturub yemək yediyi zaman bağışladığı köynək, dəsmal, sabun və şirniyyatdan ibarət bir **xələtin** [132] adı.

240.

"Söz almağa, söz verməyə gəlmişik"
(toy oxumasından)

## SÖZALDI (II)

[ *"dilləşməklə, rəy öyrənmək" mənasındadır* ] ◆ Birinci qeyri-rəsmi arvad elçiliyi **ağızbildidən** [5] sonra oğlan evinin həyata keçirdiyi ikinci **arvad elçiliyinin** [12] adı. ◆ Qızgilin artıq məsləhətləşdiyindən xəbər tutan **oğlan** [208] anası və digər elçilər bu dəfə qız evinə qabaqcadan xəbər verildikdən sonra, müəyyən olunmuş gündə, vaxtda və hökmən bundan əvvəlki tərkibdə, paysız-pürüşsüz, hədiyyəsiz (ötən əsrdə isə yalnız bir gül-çiçək dəstəsi ilə) təkrarən yollanırlar. ◆ Əgər qız tərəf ərə veriləcək qızın rəyini öyrənib, evlənmək istəyən oğlanın şəxsi keyfiyyətləri, maddi imkanları və ata-anası barədə məlumat toplayandan sonra oğlan evilə qohum olacağını qət eyləyibsə, bu dəfə məclisə öz qohumlarından bir neçə ağbirçəyi dəvət edir. Birinci elçilikdən fərqli olaraq, bu dəfə qonaqlara açıq-aşkar meyl göstərirlər: elçilərin üzünə xoş baxıb onları artıq köhnə və mötəbər tanış kimi otağın yuxarıbaşına keçirərək, süfrə açıb qabaqlarına isti çay, şirni qoyurlar... ◆ Bu bələdçinin *"qırmızı"* bölməsində [səh. 35] milli toy ənənəmizin **sözaldı [ II ]** mərhələsi haqqında daha ətraflı yazılır.

Azərbaycan Milli Kitabxanası

## SÖZKƏSDİ

*"Kişinin sözü bir olar"*
(atalar sözü)

◆ Qubada birinci qeyri-rəsmi **kişi elçiliyi** [151] **hə-yoxun** [121] ardınca **nikaha** [203] qəti razılıq almaq niyyətilə oğlan tərəfin təkrarən **qız evinə** [178] yollanıb orada keçirdiyi böyük kişi elçiliyi - **hərialdı** [119] məclisinə verilən ad. Burada ona bəzən *"sözverdi"* və *"sukəsmə"* də deyirlər.

## SÖZKƏSƏN

◆ Qax, Zaqatala və Şəki bölgələrimizdə qız evində keçirilən **hərialdı** [119] böyük kişi elçiliyi zamanı qızla oğlanın nikahına rəsmi razılıq əldə olunub, iki ev arasında qohumluq əlaqələri yarandıqdan sonra, bir qayda olaraq, süfrə başında **oğlan evi** [208] adamlarının çıxarıb qız tərəfin qabağına qoyduğu beh pulu - **bəlgəəvəzinin** [35] adı. ◆ Xalq arasında bu adət, **ərgən** [89] qızın artıq rəsmi şəkildə *"**adaxlısının** [1] olduğunu"* hələ **nişana** [205] qədər təsdiq edilməsi kimi başa düşülür.

## SÖZLÜ

[ *"bir-birinə söz vermiş" mənasındadır* ] ◆ Ötən çağlarda bir para yerlərin dilində **elçilik** [81] və **nişan** [205] mərasimlərindən sonra üzük taxıb üzərinə ad qoyulmuş *"nişanlı qız"* və onunla evlənməyə hazırlaşan *"adaxlı oğlan"* anlamları qarşılığında işlənən kəlmələrdən biri. ◆ Onun başqa adları "**yavuqlu**"[292], "**deyikli**"[57] və "**oxlu**"dur [209].

241.

## SUBAY

*"Subaydım soltandım, nişanlandım xan oldum"*
(atalar sözü)

◆ Yaşından asılı olmayaraq, hələ evlənməyib oğul-uşaq sahibi olmayan kişiyə və ərə getməmiş, ailəsiz qadına el içində verilən ad. ◆ Xalq əqidəsincə, çörəyini evdə tək oturub yeyən, yatağına tək-tənha girən insana Allahtəala lənət oxuyubdur. İstər **qız** [178], istər **oğlanın** [208] tək qalıb ailə qurmaması, bundan yayınması tarix boyu el-oba arasında böyük günah sayılardı. Ətrafdakılar belə cavanlara acıyar, onlardan uzaq gəzər, tez-tez ələ salıb dolayardılar. Odur ki, bu cavanın ata-anası, yaxın qohumları və dost-tanışı ona təsir və təzyiq göstərərək, *"subaylığın daşını ətəyindən tökməyə"*, ərə getməyə, evlənməyə vadar edərdilər, bəzən isə məcburi şəkildə evləndirərdilər. ◆ Dilimizdə bu deyim daha çox *"subay qız"*, *"subay oğlan"* və ya *"subay kişi"* şəkillərində işlənir. Bəzi yerlərdə ona *"bekar // bikara"* və *"dəliqanlı"* da deyirlər.

242.

## SUKƏSMƏ

[ *"tərəflərin bir qərara gəlməsi" deməkdir* ] ◆ Bəzi yerlərin ağzında qız evində keçirilən **elçilik** [81] zamanı ərə veriləcək qızın ata-anasının oğlan evi **elçilərinə** [84] **nikaha** [203] qəti və rəsmi *"hə"* cavabı verməsinin adı. ◆ Başqa sözlə desək, **hərialdı** [119] // **sözkəsdi** [240] böyük **kişi elçiliyinin** [151] adlarından biri.

Azərbaycan Milli Kitabxanası

## SUYAÇIXARDI

◆ Kənd yerlərində **toy**dan [269] qırx gün sonra və Novruzun birinci günü **gərdək**dən [100] çıxmış təzəgəlinin qayınana və ya baldızı ilə, yaxud **başıbütöv** [29] bir qadınla çay, göl, yaxud bulaq başına yollanması. ◆ Bir adət olaraq, səhənginə qırmızı yaylıq və ya sap sarımış gəlin burada sulara ehtiramla salam verib səhəngi su ilə doldurduqdan sonra, bulaq başına gümüş pul salır (bu pulu həmin yerdə yaşayan atalı-analı bir oğlan uşağı götürməlidir). Sonra təzəgəlin axar sular üzərindən üç dəfə addımlayaraq, necə deyərlər, keçmiş illərin *"çilləsini kəsir"*. ◆ Bəzi yerlərdə bulağa getməzdən əvvəl qayınana gəlini evdə üç dəfə ocaq başına dolandırır. ◆ El içində bu adətə *"suyaçıxma // suya ayağaçdı // sugöstərmə"*, *"ayağaçma"*, *"bulaqüstəgetdi"* də deyilir.

**243.**

## SUR // SURNAMA

◆ Daha çox orta çağların qaynaqlarında təsadüf olunan, *"toy məclisi"*, *"toy-düyün büsatı"* və *"ziyafət, qonaqlıq"* mənalarında işlənən sözlərdən biri. ◆ Bunlarla yanaşı, ötənlərdə bu deyim, öküz buynuzundan hazırlanıb, əsas etibarilə, təntənəli dövlət tədbirlərində səslənən böyük bir şeypurun adı olmuşdur.

## SURGAH

[ *"şadlıq yeri" mənasındadır* ] ◆ Əski zamanların ədəbi yazılarında rastlanan, çoxqonaqlı toy-nişan şənlikləri və buna oxşar kütləvi tədbirlər keçirmək üçün həyətdə, küçədə və ya meydanda ayrılan yer, yaxud burada müvəqqəti qurulan xüsusi çadır - **toyxana** [269], **mağar** [187] deyimləri qarşılığında işlənən kəlmə.

## SURPAPAQ

[ *"toy papağı" anlamındadır* ] ◆ Vaxtilə, kütləvi kənd şənliyi və **toy** [269] mərasimləri zamanı papaq ilə oynanılan bir atüstü oyunun adı. ◆ Burada böyük bir meydanda iki dəstəyə bölünmüş atlılar içi samanla doldurulmuş bir papağı ələ keçirməkdən ötrü kəskin mübarizə aparırmışlar. ◆ Onun *"sürpapaq"* deyiliş şəkli də var.

**244.**

*"Əmdiyin süd halal olsun"*
(el xeyir-duası)

## SÜDPULU

◆ Döş südünün halallığı, qızı böyüdüb ərsəyə çatdırmasının haqqı kimi oğlan evinin **qız** [178] anasına verdiyi pulun adlarından biri. ◆ Onun məbləğini **toy** [269] ərəfəsində oğlan tərəf özü müəyyən edir və o, heç bir halda geri qaytarılmır. ◆ Ötən çağlar kənd-mahal sahibi xan və ya bəyin ailəsində toy çaldırılan zaman **gəlinlik cehizi** [98] üçün əhalidən yığılan pul da bu adı daşımışdır. ◆ El-oba içində bu pula *"südhaqqı"* və *"halallıq"* da deyirlər. Tovuzda ona *"süd nəməri"*, Qubada - *"əmcəkpulu"*, başqa yerlərdə *"qızpulu"*, *"yolpulu"*, cənub torpaqlarımızda isə *"şirbəha"* və s. deyirlər.

Azərbaycan Milli Kitabxanası

245.

## ŞABAŞ

[ *əslində "şadbaş" sözü olub, "həmişə şad olasan" mənasındadır* ] ◆ **Toy** [269] və **nişan** [205] məclislərində rəqs edənlərin başı üzərində havaya atılan, onların ayağı altına səpilən, yaxud ağzına, əlinə verilən, eləcə də xanəndə və çalğıçıları həvəsləndirmək üçün onların önünə atılan kağız pul. ◆ Bir qayda olaraq, yığılan şabaş ya musiqiçilərə, ya da toy sahibinə çatır - onlar bunu öz aralarında toydan əvvəl razılaşdırırlar. ◆ Rəqs bitdikdə, oynayanlar əllərindəki pulları çalğıçıların qabağına, adətən, burada açıq qoyulmuş bir musiqi alətinin (dəfin, qarmonun) qabına atırlar. Yerə səpələnmiş pulları da bu vaxt yığıb həmin qutuya atırlar (bu iş, adətən, bir-iki gəncin öhdəsində olur). Bəzi qonaqlar onlara verilən şabaşı özlərində saxlayırlar. Bəzən də rəqs bitdikdə toyxanın ortasında *"zirək"* uşaqlar peyda olurlar: yerə səpələnmiş pullardan bir az yığıb tez aradan çıxmağa cəhd göstərirlər. Adətən, əli çubuqlu **fərraşdan** [94] başqa bu uşaqları qovan olmur. ◆ Şabaş vermək məclisdə rəqs edən qohum-qardaşın, yaxın dost-tanışın, və ya rəqqasın gözəl oyununu qiymətləndirmək, ona həmişə şadlıq içində yaşamağı arzulamaq hissindən ani doğan hərəkətdir. Hər iki tərəf onu həmişə sevinc və razılıq hissilə qarşılayır və əksinə, oynayan şəxsə heç kəs pul verməzsə, o çox pərt olub xəcalət çəkir. ◆ Qaydaya görə, rəqs edən şəxs tanışının qabağında dayanıb bir müddət yerində oynayarsa, həmin "tanış" ona pul verməlidir. ◆ Bəy oğlan və gəlin ayrı-ayrılıqda (ötən zamanlar onların bir yerdə rəqs etməsi qəbahət və hörmətsizlik sayılardı) öz toylarında oynadığı zaman bu adət ən yüksək zirvəyə çatır. **Qız toyunda** [178] gəlin oynadıqda onun yengəsi: *"ay şabaş, gəlin başına verin a..., toy yiyəsinin başına, ay şabaş, qız bacısının başına, verin a... bu oynayan gözəl xanımın başına, ay şabaş verin a..."*, yaxud *"ay şabaş, gəl yavaş-yavaş! Sağ olsun şabaş verənlər, var olsun oynayanlar, ay şabaş"* və s. sözlərlə hay-haray salaraq, məclisdəkiləri pul verməyə təhrik edir, sonra ucadan *"qız anası gəlin başına beş manat, ay şabaş"* - deyərək, pulun kim tərəfindən verildiyini bildirir. ◆ **Oğlan toyunda** [208] isə bəy oğlan oynamağa başladıqda onun ən əziz adamları, bir qayda olaraq, ona pul verməyə can atırlar. Bəziləri, hamı görsün deyə, bəyin papağını qaldırıb pulu onun alnına yapışdırır, digərləri isə onu öpüb pulu astaca cibinə basırlar. Bəy isə onları xanəndə və çalğıçıların üstünə atır, bəzən isə özünə götürür. ◆ Keçmişdə bəyin boynuna **xələt** [132] salmaqla kifayətlənmişlər. Ötən çağların varlı toylarında xanəndə və rəqqaslara pul atmaq təhqir sayılmışdır. ◆ Əski ədəbi mətnlərdə **nisar** [204] adı ilə qeyd olunan bu tədbirdə metal pul (qəpik-quruş), çiçək yarpağı biçimində xırda və nazik qızıl təbəqələrdən istifadə olunmuşdur. ◆ Ayrı-ayrı yerlərdə onun *"şabbaş // şavaş // şeyşavaş"* (Şəki) və *"haşşabaş"* deyiliş tərzləri də mövcuddur.

246.

## ŞADİ

[ *"şadlıq, sevinc" anlamındadır* ] ◆ Bəzi bölgələrin dilində, bir qayda olaraq, **evlənmək** [84], **nikah** [203] bağlamaq, **oğlanla qızı** [178] birləşdirmək məqsədi güdən **xeyir iş** [129] - *"toy-nişan mərasimi"*, *"toy-düyün məclisi"*, *"toy büsatı"* anlamlarının qarşılığı tək işlənən sözlərdən. ◆ Bir vaxtlar onlar *"sur"* və *"şülən"* adları daşımışlar.



Azərbaycan Milli Kitabxanası

## ŞADİMÜBARƏK

[ *"uğurlu olsun deməkdir"* ] ◆ Ötən çağlar xalqımız arasında, adət-ənənəyə görə, qonaqların həm **toy** [269] məclisinin əvvəlində, həm sonunda ilk əvvəl bir-birini, sonra isə toy sahibini, evlənənlərin ata-anasını, onların yaxın qohumlarını xeyir iş, toy münasibətilə təbrik etmələri, gözaydınlığı verərək, xoş arzular diləmələri mənasında işlənən əski kəlmələrdən biri. ◆ Ona bəzən *"mübarəkbadlıq"* da demişlər.

**247.**

## ● ŞAH

◆ Klassik ədəbiyyatımızda təsadüf olunub bir zamanlar **"bəy"** [36] və **"güvey"** [108] anlamında işlənən deyimlərdən biri. Sonralar xalq arasında bu adı toy məclislərini idarə etmək üçün dəvət olunan peşəkar sərəncamçı - **sərpayı** [236] və **toybəyi** [269] daşımağa başladı. ◆ Deyilənə görə, onun *"şəh"* tələffüz şəkli də olmuşdur.

## ŞAHANƏ

[ *"şahlara layiq" deməkdir* ] ◆ Cənub torpaqlarımızda evlənmək, ailə qurmaq məqsədilə **toy** [269] çaldıran bəy oğlanın şənliklər zamanı geydiyi libas dəsti - **bəylik paltarının** [36] adı. ◆ Əski çağların qayda-qanununa görə, **qız evi** [178] oğlan üçün ən azı iki dəst paltar hazırlamalı idi. Vaxtilə bu libasa *"qoftan"* və *"ərgənlik"* də deyilmişdi.

## ŞAHBALA

[ *əslində "şahın qanadı" deməkdir* ] ◆ Ötən çağlar **oğlan toyu** [208] məclislərində canla-başla iştirak edib, adət üzrə, şənliklərdə **bəy oğlan**ın [36] sağında addımlayan və onun sağ tərəfində əyləşən, bəyin yaxın dostu cavan kişi **oğlan sağdışının** [208] daşıdığı adlardan biri. ◆ Ayrı-ayrı yerlərdə bunun *"şahbəla // şəhbalə"* deyiliş tərzi də olmuşdur.

## ŞAHDAMAD

◆ Keçmiş zamanlarda **oğlan toyu**nun [208] birinci mərasimi **ixtilat toyu**ndan [141] sonra *"adaxlı oğlan"*, həmçinin *"bəy oğlan"* və *"kürəkən"*ə verilən adlardan biri. ◆ Əski zamanların adət-ənənəsinə görə, Yaxın Şərqdə hökmdarın qızına evlənmiş hər bir kəs bu adı daşıyırdı. ◆ Ona bəzən *"şəhdamat"* da demişlər.

**248.**

## ● ŞAX

[ *"ağac budağı" anlamındadır* ] ◆ Yurdumuzun bir para bölgələrində **oğlan** və **qız sağdışları**nın [208], [178] ayrı-ayrılıqda **bəy** [36] və **gəlin**in [98] şərəfinə hazırladığı ənənəvi bir qurğu, **toy** [269] bəzəyinin adı. ◆ Bu türk mənşəli bəzək və onunla bağlı mərasim barədə ilk məlumata IX yüzilin yazılarında təsadüf edilir. Qurğunu hazırlamaqdan ötrü

Azərbaycan Milli Kitabxanası

armud, iydə, çinar, palıd və ya başqa ağacın (barsız ağacdan şax düzəltmək qəti olmaz) orta dik budağı seçilib kəsilir. Yay, yaz ayları və payızın əvvəlində, bir qayda olaraq, onların yarpaqlarına toxunulmur. Yaxud, təxminən bir metr uzunluğunda ağacı səliqə ilə yonub təmizləyərək, ətrafına bir neçə adi ağac budağı bərkitməklə maral buynuzu və ya küknara oxşar bir qurğu alınır. ◆ Bəzi yerlərdə isə bu, büsbütün odundan hazırlanıb 1-1,5 m. hündürlüyündə başıaşağı konus, yaxud hücrə biçimli bir qurğudur. Onun yerdə dayanması üçün gövdəsi xaçvari taxtanın ortasındakı deşiyə keçirilir. Bütün qol-budaq çıxıntılarına mismar çalınır. Bu mismarlara müxtəlif şirniyyat, bəzək əşyaları və əl işləri asılır. ◆ Ağaca, onun göyərmə və barvermə qabiliyyətinə pərəstiş ulu əcdadımızın, ümumiyyətlə müqəddəs varlıq ağacları *"ərəslərə"* qədim inamı ilə bağlıdır. Bu özünəməxsus qurğu vaxtilə Oğuz türklərinin toy-düyün üçün hazırladıqları **nəxilin** [200] sonrakı xələfi olub bar-bərəkət, var-dövlət və hədsiz sevinc və səadətlə dolu həyatın timsalı sayılmış, onunla gəlin qız və bəy oğlana *"barlı ağac tək"* çoxlu övlad arzu olunmuşdur. ◆ Bəzi yerlərdə oğlan və qız sağdışları tərəfindən bəy və gəlin üçün tutulan xüsusi bir **xonça** [138] da bu adı daşıyır. ◆ Bu qurğuya bəzən *"şaxbudaq // şaxsar"*, *"qırmızı şax"* da deyirlər.

## ŞAXBƏZƏMƏ

*"Toyunda şax bəzəyim"*
(el xeyir-duası)

◆ Toy ərəfəsində **qız sağdışının** [178] evində təzə mənzilə köçürülən **gəlin qız** [98] üçün hazırlanmış **şaxın** [248] bəzənməsilə bağlı mərasimin adı. ◆ Adət üzrə, bəzəmə işi xüsusi məharətlə və ancaq sağdışın əli ilə görülməlidir. ◆ Uzun tədarükdən sonra bu münasibətlə məclisə toplanmış gəlin qız və onun rəfiqələri üçün süfrə açılır. Şax bəzənməyə başlandıqda isə onun ətrafında şux ovqatlı rəqslər, oxumalar ifa olunur. ◆ Yurdumuzun ayrı-ayrı yerlərində bu toy qurğusu müxtəlif tərzdə süslənir. Bəzi yerlərin adətincə, burada sağdış ilk öncə budağın oturacağına, bəzən isə hər tərəfinə səliqə ilə şam düzüb, qurğunun lap yuxarı başına iri bir güzgü parçası bərdir. Budaqların mismarlarından əlvan yumurta, müxtəlif şirniyyat, alma-armud qurusu və qoz-badam ləpələrindən düzümlər asır. Sonra qurğu büsbütün əlvan lent, qaytan və qotazlarla bəzənir. ◆ Bir para yerlərdə isə onun budaqlarına taxıl növləri ilə dolu kiçik torbalar asılır, digər bölgələrdə onun orta budağına qızardılmış bir xoruz bərkidilir və s. ◆ Təbiidir ki, qız sağdışının bəzədiyi qurğu **oğlan sağdışının** [208] hazırladığı şaxdan fərqlənir. Buraya, əsasən, qız sağdışının öz əli ilə hazırladığı incə tikmələr, naxışlı yun corablar, müxtəlif dəsmal, yaylıq və bəzək əşyaları bərkidilir. ◆ Axırda **gəlinlik otağında** [98] yerləşdirilən hər iki qurğunun üzərindəki şirniyyat və digər yeməli şeylər toydan sonra üç gün, üç gecə *"pərdədə oturmuş"* **təzəbəylə** [267] **təzəgəlin** [267] tərəfindən yeyilir. ◆ Bəzi yerlərin qaydasına görə, toyun sonunda onları uşaqlara və qonum-qonşuya paylayırlar, oğlan şaxının başındakı qırqovul və ya xoruz isə bəy oğlana çatır. ◆ Bu adın *"şaxbəzətmə"* deyiliş şəkli də mövcuddur.

## ŞAXQALDIRMA

◆ Bir para bölgələrin adət-ənənəsinə görə, **xınayaxdı toyunun** [135] axşamı - **qız şaxının** [178], sabahı isə **oğlan şaxının** [208] ayrı-ayrılıqda qız və oğlan sağdışlarının evlərindən qaldırılması ilə bağlı mərasimlərin adı. ◆ Xınayaxma axşamı qız evinin cavanları və onlara qoşulmuş bəy oğlan öz **sağdış-soldışı** [225] ilə birlikdə *qız sağdışının evinə* yollanır. Burada həyətdə lopa, tonqal alışdırılır, onların ətrafında bir qə-



Azərbaycan Milli Kitabxanası

dər oxuyub oynadıqdan sonra, qızın sağdış-soldışı *"bismillah"* deyib şaxı qaldırır və hamı çala-çala, tüfəng ata-ata, lap qabaqda şax, arxasınca sağdış-soldışı ilə bəy oğlan gəlin qızgilə qayıdıb şaxı ona təqdim edirlər. ◆ Qız evində yeyib-içdikdən sonra **oğlan sağdışı** [208] nəmər verib şaxı qız sağdışından almaq istəyir. Amma qız sağdışı, bir qayda olaraq, onunla razılaşmır və ona *"yordu-yordu"* oynamağı təklif edir. Sonra hər ikisi yorulana qədər oynayır və qız sağdışı yorulub qız şaxını oğlan sağdışına verir. ◆ Sabahı isə - **gəlingətirdi toyu** [98] axşamı, gəlini **ər evinə** [89] gətirməzdən əvvəl, bir dəstə cavan *oğlan sağdışının evinə* şax dalınca yollanır. Sağdışın ən yaxın dostu qurğunu bir bayraq təki başına qaldırıb aparır. Hamı dəstə şəklində təntənə ilə bəy oğlanın evinə üz tutur. Dəstənin lap önündə uzun bir ağacın başında lopa - **şamal** [250] alovlanır. Lopanın yanan hissəsindən bir qədər aşağıda, kənara uzadılmış budaqdan sapa keçirilmiş bir neçə fındıq və iydə asılır. Lopa tutan cavanın yanında isə, adət üzrə, mükafat-nəmər aparılır. Yaxşı tüfəng atan cavanlar müəyyən yerlərdə məşəlin işığında budağdakı fındıq və iydələrə atəş açır və birincilik qazanıb sağdış tərəfindən nəmər alırlar. ◆ Oğlan evində şax hədsiz sevinclə qarşılanır, bundan ötrü sağdışa **xələt** [132] verilir. Burada sağdış-soldış bəy oğlanı araya alır, bəylə sağdış qucaqlaşıb öpüşür və bu *"şax qardaşlığı"* onların ömürlərinin sonuna qədər davam edir. ◆ Ardınca şax təntənəli şəkildə toyxanaya aparılıb **bəylik taxtının** [36] önündə qurulur, sonra oradan **gəlinlik otağına** [98] aparılaraq, buraya gətirilmiş qız şaxı ilə yanaşı öz *"qanuni"* yerini tutur. ◆ Elimizin adətincə, şax qaldırmış hər iki sağdış, bəy ilə gəlindən sonra toy məclisinin ən hörmətli şəxsi sayılırlar. ◆ Toy mərasimlərimizin bu qədim və maraqlı adətinə *"şaxapardı // şaxagetmə // şaxgətirmə // şaxköçürmə"* də deyirlər.

**249.**

## ŞAL

*"Ay qız, nişanın gəlir, qırmızı şalın gəlir"*
(toy oxumasından)

◆ Kiçik nişan mərasimi **üzükşal toyu**nda [282] ərə veriləcək qız üçün üzüklə yanaşı oğlan evindən gətirilmiş qırmızı rəngli baş örtüyünə verilən ad. ◆ İpək saçaqlı şal və ya tirməşal, ya da adi kəlağayı tək nəzərdə tutulan bu baş örtüyü bir vaxtlar çadra, yaxud al qırmızı **duvaq** [72] olmuşdur. Bu örtüklə oğlan evi nişanlı qızın namus-qeyrətinin qorunmasını öz üzərinə götürür. Ata-baba qaydasına görə, bundan sonra qız evdən çıxanda hökmən bu örpəyi başına salmalıdır. ◆ Qubadlı və Zəngilan əhalisi arasında ona *"şəmaxi"*, Naxçıvan və Gəncədə isə *"diryə // düryə"* deyirlər.

## ŞALÜZÜK TOYU

◆ Lənkəran və Masallı bölgələrimizdə **hərialdı** [119] rəsmi böyük **kişi elçiliyi**ndən [151] bir qədər sonra qızın dədəsi evində qız-gəlinin iştirakilə keçirilən birinci, yaxud **kiçik nişan** [150] mərasimi - **üzükşal toyuna** [282] verilən ad. ◆ Qubada bu **nişan** [205] mərasimini *"üzük-fitə"* adlandırırlar.

**250.**

## ŞAMAL

◆ Gürcüstanda məskunlaşmış soydaşlarımızın **toy** [269] məclislərində, bir qayda ola-

Azərbaycan Milli Kitabxanası

raq, **mağar** [187] önündə alışdırılan neftə bulanmış keçə topası. ◆ Uzun dəstəkli dəmir yaba və ya ağac başına bərkidilib alovlanan bu *"məşəl"*dən **şaxqaldırma** [248] mərasimi zamanı da istifadə olunur. Burada o, təntənəli izdihamın önündə aparılaraq uzun müddət sönməz qalır. ◆ Qazax və Ağstafa bölgələrində ona *"lopa"* deyirlər.

**251.**

## ŞAMARTI

[ *"şam yeməyinin ardı, davamı" deməkdir* ] ◆ Borçalı, Qazax və Tovuz bölgələrimizdəki **gəlingətirdi toyu** [98] ərəfəsində, bəzən **ixtilat toyu** [41] günü axşam **oğlan yengəsi** [208] və ya **sağdışın** [225], yaxud yaxın qonşunun evində, bəzi hallarda isə bundan ötrü qurulmuş ayrıca alaçıqda **adaxlı** [1] oğlanın **subay** [241] tay-tuşları ilə keçirdiyi kiçik ziyafət - **oğlan qonaqlığına** [208] verilən ad.

**252.**

## ŞEYLAN

[ *"əşyalar toplusu" anlamındadır* ] ◆ Əski zamanlarda və indinin özündə yurdumuzun cənub-qərb bölgələrində **ər evinə** [89] varan gəlin qızın dədəsi evində, oğlan tərəfdən alınmış **başlıq** [29] hesabına hazırlanıb, bir qayda olaraq, qızın yeni mənzilinə daşınan ev avadanlığı - **gəlinlik cehizi** [98] anlamında işlənən deyim.

**253.**

## ŞEYOĞURLADI

◆ Qız toyu şənliklərinin üçüncü günü, **gəlinapardı toyu** [98] mərasimi zamanı, qədim adət-ənənəyə uyğun olaraq, **oğlan evi** [208] adamlarının, xüsusilə **oğlan yengəsinin** [208] xəlvəti qızgilin əşyalarından götürməsi. Burada ələ bir şey düşməzsə, heç olmasa divardan bir mismar çıxarılır, yaxud ocaqdan bir çimdik kül aparılır. ◆ Bir para yerlərdə oğlan evi qızgildən ancaq bir xoruz və bir çıraq, yaxud lampa *"oğurlamağa"* çalışır. ◆ Erkən çağlar **cehiz** [42] aparılan zaman icra olunan bu adət, sən demə, cehizin bir daha qızın dədəsi evinə qayıtmaması üçünmüş. Xalqımızın əqidəsincə, yola çıxanın çantasından, yaxud ev-eşikdən sahibinin xəbəri olmadan xəlvəti bir əşya aparılarsa, o bir daha həmin yerə qayıtmaz. Odur ki, **gəlin qızın** [98] dədəsi evindən gizlicə götürülmüş hər bir şey qızın özünə çatır və sonralar onu **təzəgəlinə** [267] qaytardıqda əvəzində **xələt** [132] almaq mümkündür. ◆ Qız tərəf bunu yaxşı bildiyi üçün, **oğlan adamları** [208] lap zarafatla da olsa, evdən bir şey aparmasınlar deyə, toy günü göz qabağında *"oğurlanmalı"* əşya qoymur. ◆ Bəzən, oğlan yengəsi bir şey aparmasın deyə, qızın anası sinidə bir stəkan şərbəti qaşığı ilə bərabər onun qabağına tutur. Yengə şərbəti içərək stəkanı və qaşığı cibinə qoyur, sinini isə çadrasının altına basır. Bunlara baxmayaraq, yenə fürsət düşərsə, oğlan yengəsi xalça-palaz, qazan və bu kimi şeyləri də xəlvəti götürüb apara bilər. ◆ Bəzən isə, qızın ata-anası gəlini aparmağa gələnləri qabaqcadan xəbərdar edərək: *"arxayın olun, biz qızımızı çörəklə yola*

Azərbaycan Milli Kitabxanası

*salırıq"* - deyə, övladlarını **xeyirlik** [129] adlanan bir çörək altından keçirib çörəyi ona verirlər. Bu da qızın bir daha geri dönməməsi və toydan sonra bir müddət *"ata çörəyi"* ilə qidalanması üçündür. ◆ Bəzi yerlərdə qızın anası çörək əvəzinə gəlinə bir çimdik ocaq külü verir. Bütün bunlara baxmayaraq, toy alayı oğlan evinə tərəf yönələn kimi, qız evindən *"oğurlanmış"* əşyalar ətrafdakılara göstərilir. ◆ Bu özünəməxsus adətin başqa adları *"şeyoğurluğu"*, *"xəspuşluq"*, *"xəkrizdəmə"* (Ağdam, Füzuli, Şuşa, Tərtər), *"çıpıtma"* (Laçın, Cəbrayıl), *"xırsızlıq"*, *"sirqət"*dir.

254.

## ŞƏKƏRPARALAMA

◆ Rəsmi böyük **kişi elçiliyi**ndən [151] sonra qadınların qız evində keçirdiyi kiçik nişan - **üzükşal toyu** [282] mərasimi zamanı icra olunan **qəndqırma** [175] ayininin başqa adı. ◆ Burada oğlangildən gətirilmiş kəlləqənd, iki ağsaqqal - biri qız, biri oğlan tərəfindən, süfrə üstündə qiyməkeşlə doğranır. ◆ Onun *"şəkərparçaladı"* deyiliş şəkli də var.

## ŞƏKƏRRİZ

[ *"şəkər yağdırma, şirni səpələmə" deməkdir* ] ◆ Ötən zamanların toy-nişan məclislərində, bir qayda olaraq, rəqs edənlərin başına və ayağı altına səpilən müxtəlif şirniyyat, təzə xırda qəpik-quruş və digər şeylərə, həmçinin **oğlan evindən** [208] qızgilə göndərilən bütün hədiyyələrə verilən müştərək ad.

255.

## ŞƏLƏMZAR

◆ Vaxtilə İrəvan, Muğan və Cəlilabadda nişan mərasimlərindən sonra oğlan tərəfin qız evinə **toy** [269] tədbirlərində sərf etmək üçün göndərdiyi ərzaq və ya onun xərci - **bazarlığın** [31] adı. **Bəy** [36] oğlanın gəlin qıza verdiyi bir sovqat da bu adı daşıyır. ◆ Onun *"şələmzər"* deyiliş şəkli də mövcuddur.

256.

## ŞƏRBƏT

◆ Adi suya, yaxud meyvə şirəsinə şəkər və ya bal qatmaqla (ona *"şəhdab"* və ya *"şəhdi- şərbəti"* deyilir) alınan sərinləşdirici şirin içkinin adı. ◆ Onu hazırladıqda, arzu olunarsa, tərkibinə lumu, reyhan, ətirli ot-çiçək, zəfəran, mixək, hil, darçın, gülab və bu kimi ədviyyat da qatıla bilər. Müxtəlif əlavələri qatmaqla dəyişik tam və rəngdə şərbət hazırlamaq olur. Bu içki xalqımız arasında bədənin qüvvətləndirilməsi üçün ən yaxşı vasitə sayılaraq, bir adət kimi, elçilik və nişan mərasimlərində qonaqlara paylanır. Cavanlara dadlı, şirin həyat, xoşbəxt ömür arzusu ilə **gərdək gecəsi** [100] bu içkidən bəy oğlan və gəlin qızın da yanına qoyulur. ◆ Ayrı-ayrı yerlərdə ona *"ovşala"*, *"qəndab"*, *"şəkərab"* və s. deyirlər.

Azərbaycan Milli Kitabxanası

## ŞƏRBƏTİÇDİ

◆ Böyük kişi elçiliyi **hərialdıda** [119] hər iki tərəf razılığa gəldikdə, bunun şərəfinə şərbət içmək adəti. ◆ Ötən çağlar hər iki tərəfin sözü bir yerə qoymasını, yeni ailə təməlinin qoyulmasını təsdiqləyərək, hamının ümumi qabdan - iri kasa və camdan şərbət içməsi bir adət idi. Sonralar bu adət *"salma"* şirin çay içməklə əvəz olundu. ◆ Onun başqa adları *"şərbətiçildi"*, *"şirniiçildi // şirniiçmə // şirnilik içmə"*dir.

**257.**

## ŞİLƏN // ŞÜLƏN

◆ IX-XI yüzillərə aid yazılı abidəmiz "Kitabi Dədə Qorqud"da *"toy süfrəsi"* mənasında işlənsə də, sonrakı zamanlar məcazi mənada - *"kütləvi şənlik"* təki başa düşülmüşdür. Vaxtilə Abşeronda *"**toy**"* [269], həmçinin *"**qonaqlıq**"* [180], *"ziyafət"* anlamlarında işlənən bu söz, bəzi bölgələrimizdə **xınayaxdı toyuna** [135] verilən bir addır.

**258.**

## ŞİRİNXONÇA

◆ Basarkeçər bölgəsinin adətincə, **hərialdı** [119] böyük kişi elçiliyindən bir müddət sonra **gəlin** [98] alınacaq qızı *"nişanlamaq"* niyyətilə **qız evində** [178] hər iki tərəfin qadınlarının iştirakı ilə keçirilən **kiçik nişan** [150] - **üzükşal toyu** [282] mərasiminə verilən ad. Burada ona çox vaxt *"şirniapardı toyu"* da deyirlər.

## ŞİRİNXORAN

[ *"şirni dadmaq" anlamındadır* ] ◆ Əsas etibarilə cənub bölgələrimizdə həm nişanlama ilə bağlı **üzükşal toyu** [282] mərasimi, həm nikaha razılıq əlaməti olaraq burada yeyilən şirniyyat, həm də toy-nişan münasibətilə gəlin qıza verilən hədiyyələrin müştərək adı. Onun həmçinin *"şirini-xoran // şirinxordun // şirinxorluq"* adları da mövcuddur.

**259.**

## ŞİRNİ

◆ Bir para yerlərin dilində, üzükaparma ilə bağlı **nişan** [205] mərasimlərinin, orada içilən isti şirin çayın, kəlləqəndlərin və ümumiyyətlə, bütün toy-nişan tədbirlərində xonçalara düzülən şirniyyatın ümumi adı. ◆ Əslində bu deyim bizim günlər hamıya tanış şirniyyat - *"qənnadı məmulatı"* anlamında başa düşülməməlidir. Şəkər çuğundurundan alınan hazırki *"şəkər // qənd"* XVIII yüzildə ortaya gəlməmişdən əvvəl, VI yüzildən başlayaraq ulu babalarımız şəkər qamışı - *"neyşəkər"*dən hazırlanan bozumtul nabatla yanaşı, arı balı, əncir, üzüm, xurma və ağ tutdan alınan şərbət və doşablardan şirniyyat təki istifadə etmişlər. Sonrakı dövrlər bu şirniyyat növü qismən ağ şəkər - kəlləqənd, qənnadı məmulatı və həlviyyat ilə əvəz olunmuşdur. ◆ Ümumiy-

Azərbaycan Milli Kitabxanası

yətlə, keçmişin nişan və toy məclislərində həm cavanlara, həm onların yaxın qohum-qardaşına yeddi cür **çərəz** [51] paylanmışdır. Bu adət, xalq arasında tut qurusu və doşabın, mövüc, püstə, iydə, qaysı qurusu, qoz-fındıq və bişmiş yumurtanın nəsilartırma və bar-bərəkət timsalı kimi tanınmasından yaranmışdır. Bir tərəfdən, yeni evlənənlərdə nəsil artımına güclü meyl oyatmaq, o biri tərəfdən isə, təzəcə yaranan qohumluq əlaqələrinə şirinlik gətirmək, mehriban münasibətlər qurmaq niyyətilə də bağlıdır. ◆ Onun bu və ya digər toy tədbirilə bağlı müxtəlif tərkibli növ və adları var: *"adaxlı şirnisi"*, *"bayram şirnisi"*, *"qız şirnisi"*, *"nişan şirnisi"*, *"toy şirnisi"*, *"xonça şirnisi"* və s.

## ŞİRNİ XONÇASI

◆ **Toy-nişan** [269], [205] tədbirlərində, **oğlan evinin** [208] qızgili üçün tutub, bir adət olaraq, içərisinə yeddi cür ənənəvi şirni - **yeddilövün** [294] düzülmüş **xonçanın** [138] adı. Həmin xonçaların sayı da yeddiyə çatmalıdır. ◆ Bəzi yerlərdə ona *"şirinxonça // xonça şirnisi // gəlin şirnisi"*, Naxçıvan diyarında isə *"yeddilövün xonçası"* deyirlər.

## ŞİRNİİÇMƏ

◆ **Qız evində** [178] keçirilən birinci rəsmi kişi elçiliyi **hərialdı** [119] və ondan sonra çağırılan **nişan** [205] mərasimlərinə bəzi yerlərdə verilən ümumi ad. ◆ Onu həmçinin, *"şirniiçilmə // şirniiçildi // şirinlikiçmə"*, *"şərbətiçmə // şərbətiçildi"* də adlandırırlar.

*"Nişanında şirniklik içim"*
*(el xeyir-duası)*

## ŞİRNİKLİK

[ *"şirinlik" sözündəndir* ] ◆ Bəzi yerlərin ağzında toyqabağı **nişan** [205] mərasimlərində **oğlan evindən** [208] qızgilə gətirilib qonaqlara və yaxın qonum-qonşuya paylanan müxtəlif növ şirniyyat - **nişan şirnisinin** [205] bir başqa adı. ◆ Onu *"şirnipayı"* da adlandırırlar. Gürcüstanda yaşayan soydaşlarımızın **urbaaçma** [274] mərasimi zamanı qonaqların **qız evinə** [178] verdiyi pul da eyni adı daşıyır.

## ŞİRNİQABAĞI XONÇA

[ *"şirni əvəzi xonça" deməkdir* ] ◆ Quba bölgəsində icra olunan **xonçaqayıtdı** [138] mərasimində oğlan evinin qızgilə gətirdiyi şirni xonçaları əvəzində qız evindən oğlangilə göndərilən xüsusi xonçanın adı. ◆ Dörd hədiyyə - araxçın, qırmızı ipək yaylıq, tənbəki kisəsi və bir şəkərbağı (şalvara keçirilən uzun qaytan) hazırlayıb, onları dörd nimçə şirniyyatla birlikdə siniyə düzərək üzərini zərli parça, yaxud qələmkar süfrə ilə örtürlər. Bu xonçadakı şəkərbura, şəkərtıxma və bu kimi çörəklərin üstü xüsusi güllərlə naxışlandığı üçün onlara **güllü çörək** [107] deyilir. ◆ Xalq arasında o, daha çox *"şirniqabı xonça"* adı ilə tanınır.

## ŞİRNİNİŞAN TOYU

◆ Abşeron kəndlərində qadınların keçirdiyi kiçik nişan - **üzükşal** [282] və musiqinin müşayiətilə, kişili-arvadlı keçirilən böyük nişan - **nişantaxdı toyu** [205] mərasimlərinə verilən ümumi ad. ◆ Bəzən sadəcə olaraq *"şirni"* və ya *"üzükapardı"* da deyirlər.



Azərbaycan Milli Kitabxanası

## ŞİRNİ SİYAHISI

◆ Vaxtilə Qubada **sözkəsdi** [240] böyük kişi elçiliyndən sonra **qız evində** [178] çağırılan **şirni toyu** üçün tutulan qonaqların siyahısına verilən ad. ◆ Hər iki ev bu məclisə adam çağırmaq üçün xüsusi **dəvətçi** [64] tutur, o da lazım bilinən şəxslərin adlarını siyahıya salaraq, onları tapıb bu məclisə çağırır.

## ŞİRNİ SÜFRƏSİ

◆ Yurdumuzun toy-nişan mərasimlərində məclis keçirilən zaman qonaqlara, bir qayda olaraq, bayram süfrəsinə yaraşıq gətirən çeşidli qablarda cürbəcür şirniyyat vermək adətinin adı. Şirni süfrəsinə ənənəvi və müasir qənd məmulatları ilə yanaşı, keçmişdə *"həlviyyat"* adlandırılan müxtəlif yağlı şəkər bişmişləri (şəkərbura, paxlava, badambura, şəkərçörəyi, ovmafətir, tıxma və s.) düzülür - növbənöv, ayrı-ayrı bulud, nimçə və vazlarda. Burada çox vaxt meyvə də olur. Qonaqlara davamlı çay təklif edilir.

## ŞİRNİ TOYU

◆ Ötən çağlarda Quba diyarında **sözkəsdi** [240] böyük kişi **elçiliyindən** [81] sonrakı **üzükşal toyu** [282] (burada ona *"üzükfitə"* deyilir) kiçik **nişan** [205] mərasimi ərəfəsində, yaxud elə bu mərasim günü qız evində çağırılan bir məclisin adı. ◆ **Oğlan evinin** [208] kişiləri 2-3 kəlləqənd, çay və noğul-nabat götürüb qızgilə yollanır. Burada onlar süfrə üstündə **qəndqırma** [175] ilə məşğul olur və oğlan evi üçün iki nimçə doğranmış qənd ayırdıqdan sonra, yerdə qalanını noğul-nabat ilə qarışdırıb nəlbəki və boşqablara düzür, bir-bir məclisdəkilərə paylayırlar. Hərə: *"mübarək olsun"* - deyərək, şirnini yaylığına doldurur, boşqabı geri qaytarır və dil-ağız eyləyə-eyləyə durub evinə gedir. ◆ Xalq arasında bu məclisə bəzən *"şirnigətirdi // şirnipaylama // şirnigöndərdi"* və *"qız şirnisi"* də deyirlər.

## ŞİRNİYEDİ

◆ Bizim zamanlar Lənkəran və Masallı toy məclislərində, gündüz çağı qonaqların şirniyyatla dolu **xonçalarla** [138] oğlan evinə axışması adətinin adı. ◆ Burada xonçalar oğlan evi adamları tərəfindən qaldırılıb qızgilə aparılır. Axşam yenə hamı oğlangilə yığışaraq şirni yeyir, qız-gəlin isə toy oxumaları ilə məclisdəkiləri əyləndirir. Keçmişdə bu mərasim yalnız qız evində baş verirdi. ◆ Onu *"şirni toyu"* da adlandırırlar.

**260.**

## ● TABAQQIRAĞİ

◆ Vaxtilə və indinin özündə Qubada çaldırılan toy mərasimi ərəfəsində, böyük nişandan sonra oğlan evindən **nişanlı** [205] qızgilə göndərilən və burada **qız toyu** [178] şənliklərində bişiriləcək yemək üçün sərf olunan ərzaq və ya onun xərci **bazarlığın** [31] adı. ◆ Abşeronda ona *"**mitmaxxərci**"* [193] və *"**toyxərci**"* [269], Naxçıvanda isə *"**ağamat**"* [2] deyirlər. ◆ Bu deyimin *"təbəqqırağİ"* tələffüz forması da var.

Azərbaycan Milli Kitabxanası

# • X • GƏLİNAPARDI TOYU

**98.**

◆ Üç günlük ***qız toyu****nun* [178] *sonuncu və həlledici mərasimi. Əski zamanlar əcdadımız Oğuz türklərində* ***xınayaxdı toyu****ndan* [135] *sonra keçirilən və bir qayda olaraq, yalnız qadınların iştirak etdiyi ən dəbdəbəli toy məclisi də bu adı daşımışdır.* ◆ *Sonralar bu şənlik oğlangildə çaldırılan* ***gəlingətirdi toyu*** [98] *ilə eyni gündə keçirilməyə başlandı. Bəzi yerlərdə isə bu mərasim oğlan evindəki toydan 2-3 gün və ya bir həftə əvvəl keçirilir.* ◆ *Həmin gün qızgilin həyətindəki böyük ocaqlar üstündə iri qazanlar asılır, toy üçün yemək bişirilir. Əski adət-ənənəyə görə, bu toyda on iki yaşından yuxarı və on iki nəfərdən artıq kişi (yeniyetmə) olmamalıdır. Onlar toyun keçirilməsinə müəyyən yardım - ətlik heyvanların kəsilib soyulması, odunun doğranılması, od-ocağın qalanması kimi işlərdə kömək edə bilərlər. Bizim günlər bəzi bölgələrdə bu şənliyə kişilər də çağırılır. Onlar qadınlardan ayrı oturub yeyib-içirlər.* ◆ *Bir para yerlərin qaydasınca, bu toyda oğlan evi qadınlarından başqa digər qonaqlara yemək verilmir.* ◆ *Bəzi yerlərdə, əgər bu toy oğlan evindəki gəlingətirdi toyu ilə üst-üstə düşmürsə, gündüz çağı bəy oğlan özü,* ***sağdış-soldışı*** [225] *ilə buraya gəlir, qız evinin qonşuluğunda oturub toyun ancaq səs-küyünü eşidir. Ona toy süfrəsi üçün bişirilmiş yeməklərdən pay göndərirlər. Amma yeməkdən əvvəl oğlan evinin kişilərindən biri qazanların qapağı üstünə* ***qazanüstü*** [170] *deyilən pul atır.* ◆ *Başqa bölgələrin adətincə, bəy oğlan öz adamları ilə buraya gəlib qonşuluqda deyil, bilavasitə toy məclisində oturur və axşamüstü qız evinin cavanları ilə birlikdə* ***qız sağdışı****nın* [178] *evinə yollanıb oradakı* ***qız şaxı****nın* [178] *qaldırılmasında iştirak edir. Bundan ötrü oğlan evi qabaqcadan qızgilə ağzı-ayağı xınalı, boynuna qırmızı yaylıq sarınmış ağ və qara qoç göndərir.* ◆ *Digər yerlərin adətincə, bu günün səhəri ər evinə köçürüləcək gəlin* ***qız yengəsi****lə* [178] *birlikdə kəndin və ya şəhərin yaxınlığındakı müqəddəs bir ocağı - piri ziyarət etməli (bəzən, burada onun belini bağlayırlar) və ardınca* ***gəlinlik hamamı****na* [98] *yollanmalıdır. Hamamdan qayıtdıqda qız üzərində* ***gəlinbəzəmə*** [98] *ayini icra olunur.* ◆ *Bunlarla yanaşı, gündüz çağı qız evi həyətində qurulmuş toyxanaya qırmızı və açıq rəngli paltarlarda dəstə-dəstə qadın qohumlar, məhəllə və kəndin ərgən qızları toplaşır. Qonaqlar* ***gəlinlik cehizi*** [98] *üçün qab-qacaq gətirir, bəziləri bu münasibətlə* ***xonça*** [138] *tutur, digərləri isə qız anasına* ***nəmərpulu*** [201] *verirlər. Bəzi yerlərdə gəlinin cehizi bu gün ər evinə yola salınır.* ◆ *Bu toya, bir qayda olaraq, qadın çalğıçıları - qarmon, qaval, qoşanağara çalan və xanəndə gətirilir. Keçmişdə* ***arvad toyu****na* [12] *dəvət edilmiş kişi çalğıçılar qız-gəlinə tamaşa etməsinlər deyə, qalın pərdə arxasında əyləşib çalırmışlar. Uzaq keçmişdə özünə qız seçmək istəyən bəzi cəsur cavanlar büsbütöv çadraya bürünüb qadın qonaqlarla birlikdə toy məclisinə daxil olaraq oradakı əhvalatları əvvəldən axıra kimi müşahidə edirdilər.* ◆ *Sonra qıza* ***gəlinlik paltarı*** [98] *geydirib sağdış-soldışı ilə toyxanaya, qonaqların qarşısına çıxarırlar. Qonaqlar onun ətrafında oynayır. Qızın başına* ***şabaş*** [245] *atdıqca, qız yengəsi ucadan onun kim tərəfindən atıldığını bildirir. Toya dəvət edilmiş oğlan evi qadınları burada gəlin qızı oynadıb onun başına küllü miqdarda şabaş yağdırır, qoluna* ***xələt*** [132] *bağlayırlar.*

Azərbaycan Milli Kitabxanası

◆ *Qaydaya görə, xələt gəlinin boynuna atılarsa - çalğıçılara, qoluna sarınarsa - özünə çatır.* ◆ *Uzaq keçmişdə və sonralar bəzi yerlərdə qız üçün ayrıca toy məclisi qurmaq, çalğı çaldırmaq dəbdə olmamış, bununla belə burada gülüşə, şadyanalığa çox yer vermişlər. Bir para yerlərin adətincə, toy günü qız yengəsi gəlin qızı öz evində geyindirib-keçindirib oğlan adamlarının gəlişinə yaxın yenə dədəsi evinə gətirir.* ◆ *Oğlan adamlarının gəlməsinə bir az qalmış qız evi qadınlarından biri: "a balam, bu saat oğlan adamı kəsdirəcək qapını, tez olun qızı taxta çıxardın görək" - dedikdən sonra, qız* ***gəlinlik taxtı****na* [98] *əyləşdirilir (el-oba içində bunu "****gəlinin cülusu****"* [98] *adlandırırlar). Bundan sonra qızın ata-anası ona yaxınlaşıb, naxələf olmamağı,* ***ər evin****də* [89] *özünü ləyaqətlə aparmağı, dilinin şirin olmasını tapşırırlar. Digər öyüd-nəsihət və xeyir-dualar verdikdən sonra dədəsi qızın gözlərindən, qız isə onun əlindən öpüb, başına* ***duvaq*** [72] *salmaq üçün atasından izn istəyir.* ◆ *Bundan sonra qızın anası, yaxud yengəsi və ya* ***məşşatə*** [192] *qırmızı şəffaf duvağı (bəzən qırmızı kəlağayı və ya fatanı) qızın başına salır və: "a bala, köçün uğurlu olsun, getdiyin evə xoşbəxtlik aparasan, ayağın düşərli olsun, getdiyin yerdən yarıyasan" - və buna bənzər xeyir-dualar verə-verə duvaq üstündən gəlinin başına bir* ***arvad silsiləsi*** [12] *sancır.* ◆ *Dədə-baba qaydasına görə, oğlan evindən gəlini aparmağa gələnlər onun üzünü görməməlidirlər. Onlar isə, adət üzrə, şər qarışandan əvvəl (kəndlərdə gündüz çağı) gəlirlər.* ◆ *İlk əvvəl uzaqdan zurna səsi eşidilir. Sonra qızgilə yaxınlaşan* ***toy alayı*** [269] *el-oba qaydasınca, ov tüfəngi və tapançalardan yaylım atəşi açır. Bunun müqabilində gəlinin dədəsi evindən, "məhəbbət və sülh işarəsi" tək üç dəfə cavab atəşi açılır, həyətdə iri bir tonqal alışdırılır.* ◆ *Bəzi yerlərdə isə, qız evi bu zaman bir ağacın başına soğan keçirir. Qaydaya görə, oğlan adamları onu nişan alıb vurmalıdırlar. Bu arada qız yengəsi qızın rəfiqələri və qohumlarını tələsdirərək: "a balam, tez qıza xeyir-dua verin, bəxti açılsın" - deyir. Bundan sonra yaxın və uzaq qadın qohumlar, qızın tay-tuşları bir-bir ona yaxınlaşıb: "ulduzunuz barışsın", "istəkli olasan", "ayağın sayalı olsun" - və bu kimi xoş arzular deyə-deyə, qızla sağollaşıb otaqdan çıxırlar. Otaqda qız və onun yengəsi qalır.* ◆ *Oğlan adamları qızgilin həyət qapısı ağzında dayanaraq, miniklərdən düşür və "****Vağzalı****"* [283] *havasının sədaları altında evin həyətinə daxil olurlar. Bəzi yerlərin qaydasına görə, oğlan tərəf* ***qız qapısı****na* [178] *yaxınlaşdıqda onlardan* ***torpaqbasdı*** [268] *deyilən bir xələt və ya nəmər tələb olunur. Sonra qızın əmisi, dayısı və böyük qardaşları gələnlərin qarşısına çıxır. Bu vaxt hər tərəfdən "şərbət verin, gülab gətirin" sözləri eşidilir. Qız toyunun* ***sərpayısı*** [236] *bir əlində satıl, yaxud* ***gəlinbardağı*** [268]*, o birisində gülabzən həyətə düşüb oğlan evi adamlarına ilk öncə gülab, sonra* ***şərbət*** [256] *paylayır. Onlar isə şərbət içərək "Allah mübarək eləsin, xoşbəxt olsunlar, qoşa qarısınlar, oğullu-qızlı olsunlar" və s. arzu-diləklərlə qız tərəfi təbrik edirlər.* ◆ *Bəzi yerlərin adətincə, oğlangildən gəlmiş qadınlar başlarında gəzdirdiyi xonçaları bir-birinin başına ötürərək həyətdə gəlin qızın yaxın qadın qohumları ilə rəqs edir (burada qadınların kişilərlə bir yerdə oynamaqları bəyənilmir), qız evi isə oynayan qonaqların qol-boynuna xələt dolayır.* ◆ *Əski adət-ənənəyə görə, bu məqamda qızın ata-anası, böyük qardaşları və yaşlı kişi qohumları imkan daxilində gözə görünməməyə çalışır, istər sevinc, istər kədərlərini heç cür biruzə vermirlər. Onların toyda atılıb-düşməsi ətrafdakılar tərəfindən, bir qayda olaraq, pis qarşılanır. Gəlin qız da toy günü qəmli-qüssəli görünməli, arabir göz yaşı axıtmalıydı ki, bu da qızın sadəlövhlüyünü, təmizliyini,*

Azərbaycan Milli Kitabxanası

*utancaqlığını və o qədər də ərə getməyə can atmadığını göstərir. Amma onun subay bacılarının, kiçik qardaşlarının, əmidostusunun, əmisi, bibisi, xalası və dayısı qızlarının oynayıb şadlanması, əksinə, şənliyə xüsusi ovqat verir.* ◆ *Bir qədər həyatdə çalıb-oynadıqdan sonra* ***oğlan yengəsi*** [208] *(eyni zamanda bəyin böyük bacısı) "oğlanın adamıyıq, aparmaqa gəlmişik" sözlərilə başlayan ənənəvi mahnı oxuyur. Bunun ardınca* ***gəlinalan*** [98] *(oğlanın dayısı və ya əmisi, yaxud böyük qardaşı) gəlini götürmək üçün yengə ilə birlikdə onun yanına qalxırlar. Başda oğlan yengəsi olmaqla, oğlan evi qadınları da qız dalınca yollanır (digər oğlan adamları həyətdə və küçədə qalıb, gəlinin "çıxışı"nı gözləyirlər), ancaq gəlinin taxtda oturduğu* ***bəzək otağının*** [37] *qapısını, adət üzrə, bağlı görüb dayanırlar. Bəlli olur ki, oğlan evi qız adamlarına xələt verməyincə (əgər "torpaqbasdı" nəməri alınıbsa, bu adət burada keçirilmir) onları otağa buraxmayacaqlar (el içində bu adətə* ***qapıbasdı*** [162] *deyilir). Nəhayət, qapını tutanlara nəmər verdikdən sonra oğlan adamları "bismillah" deyib, maneəsiz bəzək otağına daxil olub duvaq altında taxtda əyləşmiş gəlin qızın başına yığışırlar. Bunun ardınca oğlan yengəsi qız yengəsinə və yaxud məşşatəyə* ***başbəzəyi*** [29] *haqqı və* ***şirni xonçası*** [259] *verir və qız anasından oğlan evinin divarına çalmaqdan ötrü dörd ədəd mismar alır. Bu vaxt qızı yola hazırlamağa başlayan qız yengəsi oğlan yengəsinə: "a bala, bu qızın belini kim bağlayacaq, gəlsin bağlasın, görək" - dedikdən sonra, bəyin kiçik qardaşı və yaxud bundan ötrü oğlangildən gəlmiş bir yeniyetmə* ***belbağlama*** [32] *ayinini icra edir.* ◆ *Qızın anası uşağın hədiyyəsini verib üzünü oğlan evi qadınlarına tutaraq kədərli səslə: "kor-kor, gör-gör, baxın, saçlı-birçəkli, boylu-buxunlu, ədəbli-ərkanlı, gözəl-göyçək bir qız böyütmüşəm, mənim balamı yaxşı saxlayın" - deyir və sözünü daha davam edə bilməyərək, kövrəlib ağlayır. Bu zaman taxtda əyləşmiş gəlin qız duvaq altında oxşamağa başlayanda anası, bacıları, ətrafdakı qohum qadınlar ona qoşulub hönkür-hönkür ağlayırlar. Əski xalq əqidəsincə, böyüyüb başa çatdığı doğma ailədən ayrılan qız guya dədəsi evi üçün həmişəlik itirilir, heç-puç olur.* ◆ *Onları sakitləşdirdikdən sonra qız anası ağlaya-ağlaya gəlinin cibinə kiçik bir mismar və ya daş qoyub qızına: "bax,* ***ər evində*** [89] *bu daş kimi qalasan, atılan top kimi geri qayıtmayasan" - tapşırır. Gəlin qız təbiətcə çox danışan, dilli-dilavərdisə, onun əlinə bir daş parçası və ya qıfıl da bağlayırlar ki, (buna "dildən daşasma" deyilir) ər evində dili "qıfıllansın". Oğlan yengəsi qız anasının dediyi bütün sözlərin əvəzində: "sənin balan, bizim balamız, nə fərqi var?" - deyir və sonra ucadan: "müxtəsər, gəlinimizi aparırıq" - sözlərilə hamını xəbərdar edir.* ◆ *Ardınca,* ***kəbin kağızını*** [143] *yanında gəzdirən oğlanın dayısı və ya əmisi, qızın dədəsi və ya böyük qardaşına yaxınlaşıb kağızı ona verir. Əslində, bu kağız* ***cehiz*** [42] *daşınan zaman təqdim olunmalıdır və adət-ənənəyə görə, kəbin kağızı və ya orada oğlanın imzası olmadıqda qız verilmir.* ◆ *Bu aralıqda ərgən qızlardan birisi qızın sağ ovcuna bir qədər düyü basır. Qız yengəsi isə gəlin üçün bişirilmiş şəkərçörəyindən bir qədər boşqaba yığır və onu boğçaya büküb əlinə alır. Küçədə və həyətdə gəlinin "çıxışı"nı gözləyən oğlan evi adamları arasında bu zaman: "gəlin bəzənincə toy əldən getdi", "qurtarın görək, daha vaxt gecdir" - və s. şikayətlər eşidilir. Qızın dədəsi qadınlara: "kişiləri küçədə saxlamayın" (və ya "məəttəl eyləməyin") - dedikdən sonra gəlin qız əyləşdiyi taxtdan düşür, yengə onun qolundan tutub teştin üstündən keçirir, yaxud gəlin döşəmədə qoyulmuş bir qabı ayağı ilə vurub suyunu dağıdır və qapı ağzında ayaq saxlayır. Sən demə, bununla qız düşmənin bədnəzərini,*

Azərbaycan Milli Kitabxanası

*baş verə biləcək xətəri vurub yox edir.* ◆ *Burada atası ona yaxınlaşıb üç dəfə başına "bismillah" qoyub, qıza: "get qızım, Allah səni xoşbəxt eyləsin, əlin könlün istəyənə yetsin, xoş sorağın gəlsin, Allah əmanətində ol!" - deyərək, qızının başına sığal çəkib halallaşır və onu iki yengə ilə* ***dərnə****nin* [61] *ixtiyarına verir. Bundan sonra, qızın əmiləri, yaxud doğma qardaşları (başqa yerlərdə isə qızın atası və "belbağlayan" yeniyetmə) iki tərəfdən qırmızı duvaq altındakı qızın qoluna girir və: "getdiyin ev-eşik işıqlı, isti olub evinin çırağı heç vaxt sönməsin" - deyərək, qızı üç dəfə evin ortasına qoyulmuş güzgü, un və çörək (bəzən isə onlardan biri, yaxud xəmir və ya yanan şam-çıraq) ətrafına dolandırırlar, "get bacı, qədəmin şükümlü* (yəni düşərli, bərəkətli - Red.) *olsun" - deyib, qızın sol ovcuna pul basırlar.* ◆ *Başqa yerlərin qaydasınca, gəlin qızın özünü şam-çıraq ətrafına deyil, əksinə,* ***gəlinlik çırağı****nı* [98] *dədəsi evindəki ocaqdan alışdırıb onun başı üstündə üç dəfə hərlədirlər. Bunun ardınca gəlin qızı miçətkan altına salıb və ya başı üzərində ağ çətir tutaraq otaqdan çıxarırlar.* ◆ *Bir para yerlərdə isə bunu qızın əlini una, yaxud xəmirə bulayıb, onunla qapının üst çərçivəsini "ağartdıqdan" sonra edirlər. Bu arada onun başına su, ayağı altına isə bir ovuc buğda atırlar.* ◆ *Qızdan əvvəl qız yengəsi - əlində alışıb yanan gəlin çırağı (əslində neft lampası, şamdan, çilçıraq və s.), ardınca, oğlan yengəsi - əlində üstü qırmızı örtüklü* ***bəxt güzgüsü*** [34]*, onların arxasınca isə, əlində üstünə iynə-sap sancılmış qırmızı rəngli* ***müjdə yastığı*** [195] *(onu toy alayındakı atçaparlar qapıb oğlan evinə çatdıracaqlar) tutmuş bir qız uşağı addımlayır. Qızın* ***sağdış-soldışı*** [178] *da burada, gəlinin çiyinləri üzərində şam tutaraq yeriyirlər.* ◆ *Qızın dədəsi qapıda duraraq, əllərində bir kasa bal və duz-çörək tutaraq övladını onların altından keçirdir. Anası isə, qızını bədnəzərdən qorumaqdan ötrü, içində* ***üzərlik*** [281] *toxumu yanan manqalın tüstüsünü üç dəfə qızın başına dolandırır, yaxud bir çimdik duzu onun başına çevirib ocağa atır və onun çatıltısına qulaq asır.* ◆ *Elə bu əsnada qadınlardan biri "mübarək olsun, Allah xeyir versin" - deyərək, qızın başı üstə bir çörəyi iki paralayıb yarısını qız anasına, o biri yarısını gəlin qıza verib onu oğlan anasına çatdırmağı tapşırır. Sonra: "oğullu-qızlı olsun"- deyərək, gəlinin başına şirni, taxıl (buğda, darı və s.) tökür, ətrafdakıların üstünə isə dönə-dönə gülab səpirlər.* ◆ *Bəzi yerlərin adətinə görə, artıq evin həyatinə çıxarılmış gəlinin qolundan tutan qız yengəsi onun başını üç dəfə astaca ocağın bacasına vurur, yaxud qız buradakı təndir-ocağın ətrafına dolanaraq "başına dolanıb gedirəm" - deyib, onu öpür.* ◆ *Bir para bölgələrdə isə gəlin qız üç dəfə təndir-ocaq başına hərləndikdə, hər dəfə əlindəki şişi ocağa və ya torpaq döşəməyə sancıb keçir. Ağbirçəklər onun başına üzərlik çevirib "odlu-ocaqlı olasan, getdiyin ocağın çırağını sönməyə qoymayasan" - deyirlər. Bu da qızın "dədə-baba ocağı ilə vidalaşması"dır.* ◆ *Digər yerlərdə evin qapısı ağzında qızın qucağına bir* ***oğlancıq*** [208] *verib tez götürürlər.* ◆ *Əski adət-ənənəyə görə, gəlin qız dədəsi evinin qapısından sol ayağı ilə çıxmalı və yeni mənzilinə qədər iki adam arasından keçməməlidir. O, bir qayda olaraq, çıraq və güzgüdən qabaqda yeriməli, ətrafdakılar kənara çəkilib gəlinə yol verməlidirlər. Bundan sonra gəlin qız at üstə mindirilir ki, buna da el içində* ***gəlinatlandı*** [98] *deyirlər.* ◆ *Bir para yerlərin adətincə, gəlin ata mindirildikdən sonra bəy oğlan və gəlin qızın dədələri bir çörəyi yarı kəsib yeyirlər. Bu vaxt qız tərəf oğlan evi adamlarına yenə* ***gəlin şərbəti*** [98] *paylayır.* ◆ *Gəlin qız bu kənddən o biri kəndə, yaxud şəhərə köçürüldükdə, o, ya bəyin böyük qardaşının, ya da* ***oğlan sağdışı****nın* [208] *qolundan tutub,*

Azərbaycan Milli Kitabxanası

*qayda üzrə, yenə sol tərəfdən araba, qazalaq, kareta və ya gül-çiçəklə bəzənmiş faytona (uzaq keçmişdə isə dəvə üzərindəki kəcavəyə) minir. Bəzi hallarda gəlin qız atası evindən həyətə deyil, birbaşa küçəyə çıxıb miniyə əyləşməli olur. Belə olduqda, ətrafdakılar gəlini görməsin deyə, oğlan adamları qızın həyət qapısından miniyə qədər gedəcəyi yola iki tərəfdən çadra və ya kəlağayılardan pərdə tutur ki, buna da xalq arasında* ***çarşabyolu*** [49] *deyirlər. Gəlin qız həmin "yol" ilə gedə-gedə yavaşca* ***subay*** [241] *rəfiqələrinin adını çəkir və ovucundakı düyüləri bir-bir yerə atır. Bu da, "qoy bu qızların da bəxti mənimki tək açılsın, onlar da ağ günə çıxsınlar" deməkdir.* ◆ *Nəhayət, qızgildən hədiyyə aldıqları yaylıqları boyunlarına sarımış zurnaçılar çalmağa başlayır.* ◆ *Bəzi yerlərin adətincə, bu zaman fayton qarşısında oğlan və qız tərəfdən iki cavan "güləşə çıxır". Oğlan evi adamları hər ikisinə nəmər verib razı salırlar. Bundan sonra oğlan sağdışı və ya oğlan adamlarından biri gəlinin mindiyi atın və ya araba-faytonun yanında* ***qız şaxını*** [178] *qaldırır. Ardınca, bədxah ruhlar yaxın gəlməsinlər deyə, məşəl və lopalar alışdırılır, havaya fişəng, ov tüfəngi, tapança atılır, taraqqa partladılır. Əlində şam-çıraq, sevincindən papağını göyə atıb-tutan, ucadan "hürrey" çəkən toy iştirakçıları bir-birinə: "gəlinin ayağı düşərli olsun, getdiyi evə xoşbəxtlik aparsın, inşallah" - deyərək, atlara, miniklərə qalxıb hay-küy və "Allah-Allah" ilə* ***bəy qapısına*** [36] *üz tuturlar.* ◆ *Yerdə qalan məhəllə adamları qızın dədəsi evindən ayrılan toy karvanı arxasınca, adət üzrə, daş-kəsək atırlar. Bunu əvvəlcədən bilən oğlan evi məhəllə ağsaqqalları ilə danışaraq, onları "razı salırlar". Buna baxmayaraq, "gedişi olsun, gəlişi olmasın" - deyə, qız evi adamları yerə daş atırlar. Bunlar gəlinin getdiyi yerdən qayıtmaması, orada yerinin möhkəm olması üçün edilir. Anası qızının yolu işıqlı olsun arzusu ilə "bismillah" deyib qafilə ardınca* ***uğur suyu*** [271] *səpir, "qızın çörəyi bol olsun, yansın çırağı, gəlsin sorağı" - niyyətilə yola buğda və şirni atır.* ◆ *Kənd yerlərində bu dəmdə yağış yağmağa başlarsa, adamlar "gəlinin ayağı sayalıdır, məhsulumuz bol olacaq" - deyə, sevinirlər. Qızın dədəsi evində gecəyarısına qədər şamlar yanır, bu da qızın ər evindəki həyatının işıqlı olması üçündür.* ◆ *Ulu əcdadımız Oğuz türklərində qız ata mindirilib yeni mənzilinə aparılan zaman onu doğulub boya-başa çatdığı dədəsi evinin - "alaçığ"ın ətrafına üç, bəzən isə yeddi dəfə dolandırır, sonra nazik taxtalardan müvəqqəti hazırlanmış bir "darvaza" altından keçirirdilər.* ◆ *Elimiz içində bu toy mərasimi "qız köçü // qız köçürən toy", "gəlinaparan toy // gəlinatlanan toy // gəlinköçən toy // gəlinköçürdü toyu // gəlingetdi // gəlinçıxarma toyu" adları altında da tanınır.*

• **X** •

*Ardı:*
***GƏLİNGƏTİRDİ TOYU*** ◆ ***XI***
*(197-ci səhifədə)*



Azərbaycan Milli Kitabxanası

**261.**

## TAC

◆ Bəzi yerlərin adətincə, **gəlin qızın** [98] başına **duvaq** [72] üstündən taxılıb ətəyindən pullar sallanan tacşəkilli, daş-qaşlı qadın bəzəyinin adı. ◆ O, *"tökməqəlib"* üsulu ilə büsbütün gümüşdən tökülərək, əlvan daşlarla bəzənir. Ona bərkidilən bədii zəncirlər ortadakı *"ay-ulduz"*la birləşib bir tor əmələ gətirir. Bu zinət əşyası vaxtilə Şəki, Balakən və Zaqatala bölgələrimizdəki varlı ailələrdə çaldırılan **toy**lar [269] üçün daha səciyyəvi olmuşdur. ◆ Ordubadda onu *"oraşın"*, başqa yerlərdə isə *"dingə"* adlandırırlar.

**262.**

## TAXT

◆ Söykənci olmayan, **toy** [269] mərasimi günü həm qız, həm oğlan evində quraşdırılan iki kürsü və ya enli divanın adı. ◆ **Gəlinlik taxtı** [98] qeyri-adi və özünəməxsus qurğudan ibarət olduğu halda, oğlan evində toyxanada qoyulmuş **bəylik taxtı** [36] əslində ətrafı gül-çiçəklə bəzənmiş adi kürsüdür. Əski çağlar o, əsl hökmdar taxtını xatırladan bər-bəzəkli, zəngin bir kürsü olmuşdur. ◆ Bəzi yerlərin dilində **gəlinlik otağı**nda [98] qurulan nikah yatağı da bu adı daşıyır. Ona bəzən *"ovrəng"* də deyirlər.

## TAXTDÖŞƏYİ

◆ Ər evinə **gəlinlik cehizi** [98] ilə birlikdə gətirilərək **başıbütöv** [29] qadın tərəfindən **nikah taxtı**na [203] salınan iki döşəyin adı. ◆ Biri **qız** [178] anası, o birisi **oğlan** [208] anasının hazırladığı bu döşəklərin çitdən tikilmiş mitillərinə, adət üzrə, sırıq atılır, amma astarı (hər cür parçadan olur) sırınmır, üzü hökmən al qırmızı məxmərdən tikilir. İnama görə, od-alov rəngi qırmızı qoruyucu rəng sayıldığı üçün döşəkdə yatanlar bədxah qüvvələrdən mühafizə olunmuş hesab edilirlər.

## TAXTPAYI

◆ Qız toyu şənliklərinin üçüncü - **gəlinapardı toyu** [98] günü **gəlinin cülusu** [98] ilə əlaqədar **qızın** [178] yaxın qohum və rəfiqələri **taxta** [262] yanaşıb onu təbrik etdikdən sonra, gəlin qıza verdikləri hədiyyələrin ümumi adı. ◆ Bəzi yerlərdə isə **gərdək gecəsinin** [100] ertəsi günü təzəbəyin qohumlarının gəlinin *"alnı açıq, üzüağ çıxması"* münasibətilə **nikah taxtı**nın [203] baş tərəfinə qoyduqları **xələt**lər [132] də bu adı daşıyır. ◆ Əski ədəbiyyatda bəzən onu *"paytəxti"* və *"sərtaxti"* adlandırırlar.

**263.**

## TALİB

[ *"axtaran, istəyən" deməkdir* ] ◆ Klassik ədəbiyyatımızda, xüsusilə Füzuli, Nəsimi və

Azərbaycan Milli Kitabxanası

Hüseyn Cavidin yaradıcılığında bir **qızla** [178] evlənmək, ailə qurmaq niyyətində olan **oğlan** [208], **kişi** [151] və ya birinə **ərə** [89] getməyə can atan qız, yaxud qadına verilən ad. ◆ Buradakı *"talib olmaq"* ifadəsi evlənmək və ərə getmək arzusunda olmaq kimi mənalandırılır.

**264.**

## ● TAMADA

[ *türk deyimi olub "ev-eşiyin atası" (damata) deməkdir* ] ◆ **Toy** [269] şənliklərinə dəvət olunan **toybəyinin** [269] xələflərindən biri kimi bizim günlər şəhər mühitində keçirilən ziyafət və qonaqlıqların başçısı, toy məclislərini idarə edən peşəkar sərəncamçı *"masabəyi"*yə verilən ad. ◆ Ona bəzən *"süfrəbəyi"* də deyirlər. ◆ *"Tamada seçilmək"*, *"tamadalıq etmək"* ifadələri, əslində elə toybəyinin işini görməkdir.

**265.**

## ● TELLİDUVAQ

◆ Ötən zamanlar varlı ailələrdə **gəlin qızın** [98] başına salınan bir əski duvaq növü. ◆ Bu baş örtüyü başdan dizə qədər uzanaraq *"at quyruğu"* şəklində olub 1-2 mm qalınlığında **gəlin teli** [98] deyilən çox incə gümüş və qızıl tellərdən ibarət olurdu. **Toy** [269] günü **ərgən** [89] qızlar bu tellərdən qoparıb öz başlarına taxırdılar ki, onların da bəxti açılsın. Bir vaxtlar hər **nişanlı** [205] qızın ən böyük arzusu bu duvaqda **ər evinə** [89] köçmək olmuşdur. Naxçıvandakı toylarda yeddi **subay** [241] qızın gəlinin saçından bir **qız teli** [178] qoparmaq adətinin əsasını bu duvaq ilə bağlayırlar.

**266.**

*"Toy teyzəsiz olmaz, gəlin yengəsiz"*
(atalar sözü)

## ● TEYZƏ

[ *əslində "xala" deməkdir* ] ◆ Bir para yerlərin dilində, evlənmək arzusunda olan oğlanın evilə qızgili arasında elçilikdən əvvəl vasitəçilik edən dünyagörmüş təcrübəli ağbirçək qadın - **ara arvadının** [11], çox vaxt isə bəy oğlanın xalası və ya əmidostusu **oğlan yengəsinin** [208] adı. ◆ Həmin yerlərdə bu deyim, bir qayda olaraq, *"teyzə qadın"*, *"tayfa qadını"*, *"toy teyzəsi"* şəklində də səslənir.

**267.**

*"Təzəbəydən köhnə bəyə bir xələt"*
(atalar sözü)

## ● TƏZƏBƏY

◆ **Nikah** [203] bağlandıqdan sonra **toy** [269] çaldırmaqla, **gəlini** [98] öz evinə gətirib təzə ailə qurmuş cavan kişiyə toydan sonra xalq arasında verilən ad. ◆ Başqa sözlə, *"evlənmə yolu"*nda ilk əvvəl **adaxlı oğlan** [1], sonra isə **bəy** və ya **bəy oğlan** [36] adları daşımış şəxsin **üzəçıxdı toyu**ndan [278] sonra daşıdığı ad. ◆ Cənub torpaqlarımızda onu *"novdamad"* və *"şah"* çağırırlar.

Azərbaycan Milli Kitabxanası

## TƏZƏGƏLİN

*"Təzəgəlin açılmamış sandıqdı"*
*(atalar sözü)*

◆ Toy mərasimi zamanı **ər evinə** [89] gətirilib arzu-kamına çatmış və bəy oğlanla ailə qurmuş **nişanlı** [205] qıza toydan bir az sonra **üzəçıxdı toyu** [278] zamanı verilən ad. O, bu adı ilk övladı olana kimi daşımalıdır. ◆ Ötən çağlarda yurdumuzun bəzi yerlərində ona, adətən, *"novərus"* demişlər. Bu deyimin *"tazəgəlin"* tələffüz şəkli də var.

**268.**

## TORPAQBASDI

◆ Tovuz bölgəsində çaldırılan **qız toyu** [178] şənliklərinin **gəlinapardı toy**larında [98] oğlan evi adamlarının gəlin qızın yaşadığı məhəlləyə, yaxud qızgilin həyətinə daxil olduğu zaman, bir adət kimi, onlardan məhəllə və ya qız evi cavanları tərəfindən tələb olunan müəyyən maddi vəsait, nəmərin adı. Əslində, bu deyim keçmişdə bu və ya digər hakimin tabeliyində olan əraziyə qədəm basıldıqda alınan rüsumun adı ilə bağlıdır. ◆ Bu, həmçinin bəzi yerlərdə **qabaqkəsdi** [157] adətinə verilən bir addır.

**269.**

## TOY

*"Burda bir toy qurulub, əcəb tamaşası var"*
*(toy oxumasından)*

◆ Yurdumuzda **evlənmək** [84], **nikah** [203] bağlamaq münasibətilə keçirilib **oğlan**la [208] **qızı** [178] birləşdirmək məqsədi güdən təntənəli silsilə şənliklərin adı. ◆ Əski türklərdə kütləvi el bayramı, dövlət məclisi, eləcə də kiçik bir ailə çərçivəsində keçirilən *"yeyib-içmək məclisi"*, **qonaqlıq** [180], ziyafətlərin hamısı bu ad ilə çağırılmış və mahiyyət etibarilə, demək olar ki, bir-birindən fərqlənməmişlər. Zaman keçdikcə bu deyimin mənası daralaraq, əsas etibarilə, çalğı ilə müşayiət edilən *"evlənmə mərasimi"* kimi başa düşülməyə başlanmışdır. Eyni zamanda hər tədbir ayrı-ayrılıqda öz məqsəd və mahiyyəti, iştirakçı və müşayiət edənləri ilə səciyyələnərək bu adı daşıyır. Tutalım, məclisə toplaşan iştirakçıların yaşına görə - *ağsaqqal toyu, ürəfa toyu, cavanlıq toyu, subaylar toyu* və s. Yaxud, şənliyi müşayiət edən sənətçilərlə bağlı - *aşıq toyu, dərviş toyu, lotu toyu*. Digər məclis növlərinin adı onun təşkili, təmtərağı və zahiri görümü ilə əlaqəlidir. Onlardan - *kor toy, səssiz toy, saya toy*, yaxud *dəbdəbəli toy, səsdi toy* və s. Qədim *"doqquz toyu", şirni toyu, xonça toyu, əslaf və mürvət toyları* isə özünəməxsus xüsusiyyətləri ilə o birilərdən fərqlənmişlər. ◆ İndinin özündə **oğlan və qız evlərində** [208], [178] icra olunan bir neçə toyqabağı tədbirlərin adı olmaqla bərabər, bu deyim *"düyün-bayram"* sözünün qarşılığı kimi həm **nişan** [205], həm adverma və sünnət mərasimlərinin müştərək adı tək yaşamaqdadır. ◆ Evlənmə ilə bağlı şadlıq məclislərinin keçirilmə müddəti bir vaxtlar 3, 7, bəzən isə 40 gün, 40 gecəyə (bu rəqəm öz əksini nağıllarımızda tapmışdır) bərabər olduğu halda, ötən əsrin birinci yarısında bu mərasim ümumiyyətlə, qız evindəki **"qız toyu"** [178] adı ilə birləşirdi. Burada üç gün davam edən **paltarkəsdi** [215], **xınayaxdı** [135] və **gəlinapardı toy**ları [98] ilə başlayıb sonra oğlan evinə köçürülərək orada **"oğlan toyu"** [208] adı altında yenə üç gün, üç gecə - **ixtilat** [141], **gəlingətirdi** [98] və **üzəçıxdı** toyları [278] ilə tamamlanırdı. ◆ Sonralar və bizim zamanlarda bu mərasim yalnız bir və ya iki gün davam etməkdədir. Amma toyağzı *"qızbəyənmə"*dən başlayaraq, *"üzəçıxdı*

Azərbaycan Milli Kitabxanası

# • XI • GƏLİNGƏTİRDİ TOYU

**98.**

◆ *Üç gün, üç gecə davam edən **oğlan toyu**nun [208] ikinci gününə verilən ad.* ◆ *Ötən çağlarda i**xtilat toyu** [141] adı altında tanınan bu mərasimin axşamı **gəlin qız** [98] dəbdəbə ilə ər evinə çatdırılır və həmin günün gecəsi oğlanla qız ilk dəfə görüşürdülər. Sonralar ixtilat toyu bu mərasimdən ayrılıb toydan bir gün əvvəl **məsləhət** [191] və ya **sərpayı axşamı** [236] adı altında keçirildi, əsl "oğlan toyu" isə, onun sabahı qeyd olunmağa başlandı.* ◆ *Bundan ötrü bir gün əvvəl və ya səhərdən oğlan evinin həyatində müvəqqəti **toyxana** [269], yaxud **mağar** [187] inşa olunur, plov qazanları asılır, məclisə xanəndə, bəzən isə ustad aşıq (yaxud hər ikisi birlikdə) dəvət edilir. Qaydaya görə, **toyçu**lar [269] toy evinə müəyyən məsafə qalmış zurna-nağaranı səsləndirib (xalq arasında buna **qamət** [160] deyilir), çala-çala, səs-küylə oğlan evinə yaxınlaşırlar. Bəzən zurnaçılar uca bir təpə, qaya üstə və ya oğlan evinin damına qalxıb zurnaları ilə ətraflara səs salırlar. Sonra bir dəstə **oğlan adamı** [208] minik və çalğı ilə qızgilə yollanaraq, buradakı **gəlinlik cehizi**ni [98] siyahıya aldıqdan sonra oğlan evinə gətirirlər.* ◆ *Bu vaxt ərzində **bəy oğlan** [36] sağdış-soldışı və yeddi atlı yoldaşı ilə birlikdə yaxınlıqdakı müqəddəs pirlərdən birini ziyarət edib başına dolandıqdan sonra qayıdır toyxanaya və burada **bəydurma** [36] mərasimi icra edilir.* ◆ *Bu gün qız anasından oğlan evinə **xonça**da [138] bir tənbəki kisəsi, araxçın və bir yaylıq düzülmüş üç dəst **xələt** [132], üstəgəl bəy oğlan üçün al qırmızı ipək yaylıq gətirilir. Onlardan biri dəlləyə, biri hamam sahibinə, biri isə toyun aşpazına çatmalıdır.* ◆ *Saat 2 və ya 3 radələrində bəy oğlan **sağdış-soldış**ı [225] və yaxın dostları ilə birlikdə, çalğının müşayiətilə **bəylik hamamı**na [36] yollanır.* ◆ *Yuyunub hamamdan atası evinə qayıdandan sonra bəy öz sağdış-soldışı ilə qonşunun və ya **oğlan yengəsi**nin [208] evində ayrılmış **bəylik otağı**na [36] üz tutur. Adət-ənənəyə görə, o, axşama qədər burada qohum və dost-tanışdan gizlənməli, onun harada olmasını heç kəs bilməməlidir.* ◆ *Bəzi yerlərin qaydasınca isə, bu tədbirin ardınca bəyin dostları sağdışgilə, onun bəy oğlanın şərəfinə bəzədiyi **oğlan şaxı** [208] dalınca yollanırlar. Orada bir qədər çalıb-oynadıqdan sonra şaxı qaldırıb təntənə ilə oğlan evinə gətirir və ilk əvvəl onu toyxanaya, **bəylik taxtı**nın [36] önünə qoyur, axşam isə bəy ilə birlikdə **gəlinlik otağı**na [98] aparırlar.* ◆ *Bu biri tərəfdən toy evinin qarşısında iri bir tonqal qalanır və küçə qapısında yerə neftlə hopdurulub yumrulanmış cındır əski və ya keçədən hazırlanan bir neçə böyük məşəl - "lopa" sancılır. Elə bu dəm oğlan evi tərəfindən çağırılmış kişi qonaqlar yavaş-yavaş toy məclisinə yığışmağa başlayırlar. Onlar ilk öncə ayrıca bir otaqda və ya çadırda yeyib-içir, sonra toyxanaya keçirlər.* ◆ *Gələnləri, adətən, bəy oğlanın böyük qardaşı, yaxud doğma dayısı və ya əmisi qarşılayır, burada xanəndə, **aşıq** [16] və digər toyçular çalıb oxuyur, məclisi isə **toybəyi** [269] idarə edir. Toyxanadan bir az aralı kəndin cavanları güləşir. Bəzi yerlərdə isə bu güləşmə, adətən, **ixtilat toyu** [141] günü keçirilir.* ◆ *Oğlan evinin bir otağında isə məhəllə ağsaqqalları üçün ayrıca süfrə açılır. Onlar yeyib-içdikdən sonra: "əlhəmdülillah, Allah bərəkət versin, Allah mübarək eyləsin" - deyərək, süfrədən çəkilirlər və çox zaman onlardan biri məclisdəkilərə:*

Azərbaycan Milli Kitabxanası

*"vaxt tənglaşib, nə deyirsiniz, gedək gəlinimizi gətirək" - deyərək, ayağa qalxmaq istəyir. Toy sahibi isə ona: "siz zəhmət çəkməyin, biz sizə əziyyət verməyə razı olmarıq, özümüz gedərik" - deyir.* ◆ *Bu sözdən sonra ağsaqqallar bir-bir ayağa qalxır, bəziləri xeyir-dua verə-verə evlərinə, digərləri isə toyxanaya gedib oradakı məclisə qoşulurlar.* ◆ *Əski qayda-qanuna görə, gəlin* ***ər evinə*** [89] *şər qarışandan əvvəl yola düşməlidir. Odur ki, bəy oğlanın böyük və kiçik qardaşı, bir neçə mötəbər kişi qohumu, sağdış-soldışı və kəndin, məhəllənin bir dəstə cavanı tələsik atlanıb digər miniklərlə birlikdə gəlin qız dalınca yollanırlar. Onların qız evindən gəlin qızı alıb-aparmaları həmin vaxt qızgildə keçirilən* ***gəlinapardı toyu****nun* [98] *bir hissəsi olur. Qız dalınca gedənlər arasında* ***oğlan yengəsi*** [208] *vəzifəsini icra edən oğlanın böyük bacısı, qardaşı arvadı, yaxud xalası və ya bibisi, onların qızları və o cümlədən gəlin qızın belini bağlamaqdan ötrü yaxın qohumlardan 14-15 yaşlı bir yeniyetmə də olur.* ◆ *Dədə-baba adətincə, toyu çaldırılan bəy oğlan qızgilə əsla yollanmamalı, toy günü o yaxın qonşunun, yaxud oğlan yengəsinin və ya sağdışının evində oturub gəlini gözləməlidir. Onun ata-anası da qız dalınca getməməlidir. Amma XX yüzilin əvvəllərindən başlayaraq, bəy də, onun dədəsi də, bir qayda olaraq, gəlin dalınca yollanırlar. Belə olduqda, bəy oğlan üçün zəngin bəzəkli bir köhlən at seçilir, sağdış-soldış bəyi qorumaqdan ötrü əlləri silahlı at üstə qalxırlar.* ◆ *Bəzi yerlərin qaydasına görə, bu məqamda anası bəyin qoltuğuna bir xoruz və ya toyuq verir (sonrakı günlər qız evi bu quşun bişmişini* ***təzəbəyə*** [267] *qaytaracaqlar).* ◆ *Bir müddətdən sonra gəlin dalınca gedənlər hay-küylə qayıdırlar. Hamı oğlan evi qarşısında at və miniklərdən düşür. Yenə fişəng, ov tüfəngi atılır, "hürrey" səslənir, ayna çağırılır, evin həyətində, yaxud küçə qapısının yanında böyük tonqal alışdırılır. Mənzil başına çatmış gəlin qız çox zaman elə at üstündə qapı ağzında alovlanan tonqal ətrafına dolandırılır. Gəlin minikdə olarsa, elə miniklə qarışıq tonqal üzərindən aşırılır, yaxud iki çıraq və ya məşəl arasından keçirilərək, birbaşa evin həyətinə daxil olduqda, çoxlu məşəl və çıraqlarla qarşılanır.* ◆ *Bir para yerlərin qaydasınca, oğlan adamları buraya qırmızı lentlərlə bəzənmiş buynuzlu bir qoç gətirir və at üstündəki qızı üç dəfə bu heyvan ətrafına dolandırırlar.* ◆ *Adət üzrə, gəlin qızın dayısı* ***cilovdar*** [45] *olaraq, bütün yolu onun yanınca addımlamalı və ər evində onu atdan yerə endirməlidir. Digər yerlərdə isə bunu oğlanın böyük qardaşı, yaxud* ***oğlan sağdışı*** [208] *etməlidir. Burada qızdan "düşərlik vədəsi" alındıqdan sonra onu atdan düşürürlər.* ◆ *Qız evində icra olunan bir çox hərəkətlər gəlin yeni mənzilinə gətirildikdə burada təkrarlanır. Atın başı yenə qibləyə tərəf tutulur, qız isə bu dəfə atın sağ tərəfindən (dədəsi evində o sol tərəfdən at üstə qalxmışdı) yerə endirilir. Yenə bəyin qardaşı və ya sağdış dizini bükür və gəlin ayağını onun dizinə qoyub atdan düşür. Bu vaxt,* ***üzəngiçi****lər* [280] *yəhər boş qalmasın deyə, atın üzəngisini qaldırıb yəhərin üstünə qoyurlar.* ◆ *Əski zamanlarda isə qız atdan endikdə üç dəfə ata sağdan minib soldan düşür, soldan minib sağdan düşürdü və bu yerdə onun ayağı altına* ***qayınatası****nın* [168] *kürkü atılır və gəlin ona "qədəm basmaqla" soyun və tayfanın himayəsi altına keçirdi.* ◆ *Bir sıra bölgələrin qaydasına görə, gəlin qız atdan, yaxud faytondan düşməzdən əvvəl* ***qız yengəsi*** [178] *oğlanın dayısı və ya əmisinə yanaşıb, hamı eşitsin deyə, ucadan: "a kişilər, gəlininiz iki ayağın bir başmağa dirəyib atdan (və ya "faytondan") enmək istəmir, indi siz ona nə bağışlarsınız ki, o düşsün?", yaxud: "a balam, qız evə girmir, indi buna bir əlac tapınız"- deyir. Oğlanın dayısı qıza yaxınlaşıb, adət üzrə,*



Azərbaycan Milli Kitabxanası

*ona bir şey vəd edir və bundan sonra gəlin atdan və ya faytondan enməyə razılıq verir. ◆ Bundan başqa, gəlin qız həyətdə deyil, küçədə atdan və ya minikdən endirilərsə, bir neçə oğlan adamı, adətən oğlanın sağdış-soldışı, gəlinin sağ əlindən tutub minikdən yerə salır və bu əsnada qızın ayağı altına üzüqoylu bir qazan, onun üstünə isə taxta qaşıq və ya üzüqoylu bir nəlbəki qoyulur. Adətə görə, gəlin qız bunları sağ ayağı ilə basıb sındırmalıdır. Sonra o, "**Vağzalı**" [283] sədaları altında, öz sağdış-soldışı, oğlan və qız yengəsilə birlikdə, düşdüyü yerdən darvaza və ya **bəy qapısı**na [36] qədər yerə döşənmiş xalça-palaz və **çarşab yolu** [49] ilə addımlayır. Əhvalat gündüz-günorta çağı baş verirsə, bu vaxt oğlan adamlarından biri "gəlinin üzünə həmişə gün doğsun, onun çöhrəsindən nur əskik olmasın" arzusu ilə gəlin qızın üzünə güzgü işığı, günəş ləkəsi salır. ◆ Qapı və ya darvaza ağzında isə bəyin böyük qardaşı gəlin qız qarşısında bir az oynadıqdan sonra onun ayağı altında, bəzən isə fayton və ya digər minik qabağında buynuzlu qoç **qurban** [183] kəsir. Ardınca gəlin qız bu evdə həmişə doğma və istəkli olsun deyə, "ya, əziz Allah" və ya "bismillah" deyib heyvanın kəsilib ayrılmış kəlləsi ilə bədəni arasından addımlayır. Mərasimin bu yerində bəyin qardaşı əlilə heyvanın isti qanından götürüb **duvaq** [72] üstündən qızın alnına, qaşları arasına, paltarına və ayaqlarına sürtür ki, gəlin istiqanlı olub ər evinə tez qaynayıb-qarışsın (əslində, bu çox qədim mənşəli "ölüb yenidən dirilmə, xortlama" ayini ilə bağlıdır). ◆ Əski dədə-baba qaydasına görə, gəlin qız ər evinə daxil olduğu zaman, bəy oğlan uca bir yerdə, gəlinin daxil olacağı qapı, darvaza yaxud evin damı üstündə və ya yüksək bir eyvanda dayanmalıdır. Aşağıda, qapıdan içəri addımlayan qız, istər-istəməz oğlanın ayaqları altından keçməli olur. İnanırlar ki, bununla bəy əvvəlcədən arvadı üzərində öz hökmranlığını təmin edir.◆ Bundan əlavə, qız qapıya yaxınlaşan zaman yüksəklikdə yerləşmiş bəy oğlan gəlinin başına bir sini un və xırda qəpik-quruş qarışığı yağdırır (sonralar bunu kiçik uşaqlar və sağdış-soldış etdi). Yaxud o, içi qabaqcadan ovulub təp-təzə qəpik və düyü ilə doldurulmuş bir fətiri, bəzən isə adi çörəyi parçalayıb içindəkiləri gəlinin başına tökür. Bu da "qoy bu evdə sənin var-dövlətin aşsın-daşsın, üzün həmişə un kimi ağ, əlin bərəkətli, ruzulu olsun" arzu-diləyi ilə bağlıdır. ◆ Digər yerlərin qaydasınca, gəlin qız həyətə girdikdə, bəy oğlan onun üzərində **almaatdı** [9] ayini icra edir. ◆ Beləliklə, gəlin ər evinin astanasına çatdırılıb oğlan evinin qadınlarına "təhvil verilir". Bundan sonra gəlin qızı buraya gətirmiş kişi qonaqlar və **toy alayı** [269] iştirakçıları toyxanaya qayıdıb yenidən buradakı şənliyə qoşulurlar. ◆ Hər iki evin qadınları isə "gəlin qızın ayağı sayalı olub gəldiyi evə xeyir-bərəkət gətirsin, ocağı həmişə odlu, qazanı qaynar olsun" - deyə, onu içi çörəklə dolu tabaq, yaxud bir qazan zəfəranlı plov üstünə apararaq, üç dəfə onun ətrafına dolandırırlar. Ardınca, təsəddüq (sədəqə - Red.) təki qızın başı üstə duz, yaxud unla dolu bir çanaq tutulur. ◆ Ancaq çox hallarda ər evinin astanasına çatmış gəlin qız yenə "ayaqlarını yerə vurub" içəri əsla girmək istəmir. Belə olduqda, əlində çıraq tutmuş qız yengəsi irəli çıxıb ucadan oğlan evi qadınlarına müraciətlə: "a balam, hanı bu gəlinin qayınatası-qayınanası?" - deyə, soruşur. ◆ Bu yerdə oğlanın ata-anası **gəlinin pişvazı**na [98] çıxır, qız isə evin astanasında onlara təzim edir. Yengə yenə ucadan oğlan atasına: "budur, gəlinin sənə baş əyib salam verdi, indi sən ona nə verirsən?"- deyir. Qayınata isə: "bu ev-eşik, mal-dövlət peşkəşdi gəlinə, halal südü halalı olsun, cavan canı sağ" - sözlərilə qıza yaxınlaşır, sonra ona: "qızım, xoş gəldin, xoş gəldin" - deyərək, papağını çıxarıb gəlinin başına*



Azərbaycan Milli Kitabxanası

*qoyur və ona bir şey - ev, mal-qara, yaxud bağ-bostan vəd etdikdən sonra papağını qızın başından götürür. Gəlin qız təkrarən qayınataya baş əyir. ◆ Bundan sonra oğlanın anası (bəzi yerlərin adətincə, bir əlində çömçə, bir əlində kəfkir) irəli çıxıb bir qədər qız önündə oynayıb-süzdükdən sonra qıza: "sənin üçün ər doğub böyütmüşəm, kürəyimi səhərə kimi ayaza verib laylay çalmışam, zəhmətini çəkib bu yerə yetirmişəm, gözümün ağı-qarası oğlumu bağışlayıram sənə, bu ev-eşik də sənin, bu təndir-ocaq da sənin, dördəki (yəni evin yuxarı başındakı) beşik də sənin" - deyib, onu qucaqlayır. Duvaq üstündən alnından və ya əlindən öpüb qıza: "xoş gəldin, qədəmin mübarək" - deyir, sonra onun sağ əlindən tutub evin içərisinə, gəlin üçün ayrılmış xüsusi otağa aparır. ◆ Bəzi yerlərin adətincə, burada gəlin qızın üzərində* ***çörəkyığdı*** [55] *deyilən bir ayin icra olunur. Digər yerlərdə isə həmin ayin gəlinlik otağında keçirilir. ◆ Nəhayət, gəlin qız "öz otağı"nın astanasına gəlib çatır. Oğlan yengəsi* [208] *qızı qapı ağzında bir an saxlayıb "bismillah" deyərək, onun sağ əlini yuxarı qaldırıb başı üzərində bir çörək parçalayır. ◆ Elimizin əski adət-ənənəsinə görə, "sol ayağı" ilə dədəsi evindən çıxmış qız və qonaqlar gəlin otağının astanasından hökmən sağ ayaqları ilə (xalqımız arasında "sağ qədəm" şükümlü (yəni düşərli, bərəkətli - Red.) sayılır) içəri girməlidirlər. Qaydaya görə, gəlindən əvvəl və ya onunla birlikdə başqa bir qız və qadın içəri daxil ola bilməz. ◆ Bəzi yerlərin adətincə, burada bir* ***qapıqapalı*** [162] *ayini də icra olunur. Gəlinin ayağı düşərli olsun deyə, qapı ağzında üzüqoylu bir saxsı boşqab qoyulur və gəlin sağ ayaqqabısı ilə onu möhkəm təkanla basıb sındırır (bu ayin gəlin minikdən düşürülən zaman icra olunursa, burada ona ehtiyac qalmır). Gəlin qızın ardınca otağa daxil olmuş yengələr* ***gəlinin çırağını*** *və* ***güzgüsü****nü* [98], [98] *pəncərəyə qoyurlar. Bunlar, xalq əqidəsincə, "qoy bədnəzər, şər qüvvələrin xətaları sınıq şüşə üzərinə köçürülsün, qoy bu evdən həmişəlik xəta-bəla sovuşsun, gəlin bu evə güzgü təki təmiz pak niyyətlə gəlmiş, o bu ailəni nura qərq etmək üçün müqəddəs od-alov gətirmişdir" deməkdir. Otağa sonsuz gəlin və qırxı çıxmamış zahı daxil ola bilməz. ◆ Ardınca, oğlan yengəsi gəlin qarşısına bir kasa bal, bir kasa yağ qoyub qızın barmaqlarını yağa-bala batırır və onlarla qapı astanasının yuxarı və aşağısını yağ-bala bulayır ki, bu da "ev-eşikdə həmişə şirinlik, mehribançılıq olsun, qızın bir əli yağda, bir əli balda olsun" deməkdir. Bundan sonra gəlin qız otağın bir tərəfində və yaxud onun* ***dör*** [69] *deyilən yuxarıbaşında, divar dibində üzü qibləyə və camaata doğru, ayaq üstə, "nalça" adlı döşəkçədə, (keçmişdə isə bir az əvvəl qurban kəsilmiş qoyunun dərisi üzərində) durur. Qızın sağdış-soldışı isə əllərində şam, onun sağ və solunda dayanırlar. ◆ Ətrafdakı qadınlar divar dibində salınmış döşəkçələrdə oturur, gəlin qızın ayaq üstə qaldığını görən oğlan anası qıza yaxınlaşaraq mehribanlıq olsun deyə, onun başı və ya sağrısına sığal çəkib gəlininə* ***düzayağı*** [79] *hədiyyəsi (bəzi yerlərdə ona "dizdayağı" deyirlər və kəndlərdə bu, adətən, xırda və ya iribuynuzlu dişi heyvan olur) verir və sandıq üstə qoyulmuş nazbalınc, yaxud* ***gərdək*** [100] *pərdəsi arxasında hazırlanmış taxt üstündə əyləşmək üçün qıza yer göstərir. Gəlin qız isə, el-oba qaydasınca, üç dəfə oturub qalxdıqdan sonra, nəhayət öz yerində əyləşir. Onun sağdış-soldışı indi şam əvəzinə onun başı üzərində* ***kəlləqənd*** [146] *tutur (xalq əqidəsincə, ağ rəng, ağ şirni hifzedici, ovsun təsirinə malik bir qüvvədir). Bu dəmdə "qucağı oğlan qundağlı olsun", yəni, gəlinin əksər övladı oğlan olsun deyə, qızın dizi üstünə və ya qucağına 3-4 yaşlı atalı-analı bir* ***oğlancıq*** [208] *verirlər (bəzi hallarda bunu darvaza ağzında, yaxud*

*evin və ya otağın astanasında edirlər).* ◆ *Bəzən isə uşaq əvvəlcədən orada oturur, gəlin qız onu qucağına alıb əyləşir. Bu arada qız evi qadınlarından biri gəlin ev-eşiyinə həmişəlik bağlansın deyə, xəlvəti qızın paltarını sapla yüngülcə oturduğu döşəkçəyə tikir, yaxud başına xırda mıx səpir.* ◆ *Bundan sonra, qayda üzrə, oğlan yengəsi hamıya məlum "**Xoşgəldin**" [139] havasını ifa edir. Bu vaxt oğlanın bir neçə yaxın qohumu və bacıları qızın önündə oynayaraq növbə ilə müxtəlif oxumalar ifa edirlər. Ardınca, oğlan anası gəlinin başı üstündə yenə bir çörək parçalayıb onun tikələrini bir fincan bal ilə məcməyiyə düzərək, oğlan evinin **ərgən** [89] qızları qarşısına qoyur. Onlar da: "gəlinin qədəmi mübarək olsun, min yaşasın", "ayağı düşərli olsun", "yansın çırağı, gəlsin sorağı, inşallah" - sözlərilə çörək tikələrini fincandakı bala batırıb yeyirlər.* ◆ *Sonra oğlan evi qadınları bir-bir qıza yaxınlaşır, onunla tanış olub: "xoşgəldin, qədəmin mübarək olsun" - deyirlər. Vaxtilə burada **dişləkalma** [67] deyilən bir ayin də icra olunurmuş. Nəhayət, süfrə salınır və gəlin başına toplanmış bütün qız-gəlinə yemək verilir.* ◆ *Həyətdəki toyxanada isə bu vaxt şənlik davam edir. Qız evindən buraya gəlmiş kişi qonaqlar bir qədər oturub evlərinə qayıdırlar. Qonşunun (və ya oğlan yengəsi, yaxud sağdışın) evində oturmuş bəy oğlan isə toydan gətirilmiş plovu yeyib dostları ilə əylənir. Toyun sonuna yaxın bəy oğlan sağdış-soldışı ilə birlikdə "Vağzalı" havasının sədaları altında ikinci dəfə toyxanaya gətirilir. Hamı ayağa qalxıb bəyi alqışlayır, o da başı ilə salam verib məclisin yuxarıbaşında onun üçün ayrılmış "bəylik taxtında" əyləşir. Əgər o, gec gələrsə onun taxtında oturmuş bir cavan, bəy və ya sağdışdan **nəmərpulu** [201] alıb yerini sahibinə verir. Toybəyi onun önünə düzülmüş iki xonçadakı şamları yandırdıqdan sonra xanəndə **bəyin tərifi**nə [36] başlayır.* ◆ *Elimizin əski adətinə görə, bəy oğlan, həmçinin gəlin-qız toy şənliklərində kirimişcə oturub dinməməlidir. Nəinki dinməməli, həm də gülməməlidir. Bunu bilən bəyin yaxın dostları ondan "cərimə" qoparmaq üçün bəy oğlanı güldürməyə çalışır, bəhsə girib bundan ötrü min cür hiylə və vasitəyə əl ataraq, məzəli sözlər və əhvalatlar danışır, gülməli hərəkətlər edirlər.* ◆ *Bəzi yerlərin qaydasınca, burada **xanoturdu** [124] mərasimi icra olunur, toybəyi bəy oğlanın xeyrinə "rəiyyəti" cərimə edir və s. Axırda "bolluq və ucuzluq olsun" deyə, bəy, bir qayda olaraq, öz toyunda oynayır (hamı onun başına **şabaş** [245] tökür) və yenə "Vağzalı" sədaları altında gəlin otağına yola salınır.* ◆ *Bu biri tərəfdən **oğlan sağdışı** [208] gəlinlik otağındakı yengələrə xəbər göndərir ki, "artıq gecdi, tez olun qurtarın". Yengələr də qonaqlara: "a balam, görürsünüz sağdış xəbər göndərib tələsdirir bizi" - dedikdə, hamı tez "əlhəmdülillah", "Allah süfrənizə bərəkət versin" - deyərək, yemək-içməyi qurtarıb süfrəni yığırlar.* ◆ *Ən əvvəl qız evinin qadınları yerlərindən qalxıb oğlanın anasına deyirlər: "Allah mübarək eləsin, arzu-istəyə, murada çatsınlar, xoşbəxt yaşasınlar, oğul-uşaq sahibi olub ağ günlərə qovuşsunlar, görməyənlər görsün, inşallah". Bu kimi xoş sözlərin əvəzində oğlan anası: "dil-ağız üçün var olasınız" - dedikdən sonra, qonaqlar və **qız sağdış-soldışı** [178] gəlin qızla vidalaşıb dağılırlar. Beləliklə, qız evi adamları toydan çıxıb gəlinin dədəsi evinə qayıdır və ata-anasına qızın artıq "tapşırıldığını" xəbər verirlər.* ◆ *Toyxanada isə toyun sonu yaxınlaşır, burada bəy oynadılır, məclisdəkilərin hamısı onun başına xəzəl təki, şabaş yağdırır, toybəyi sağdış-soldışa **xələt** [132] təqdim edir və s.* ◆ *Bəzi yerlərin adətincə, toyun sonunda bəy oğlan da qab sındırır. Sonra o, irəlidə oğlan şaxı, sağdış-soldışı ilə birlikdə, toyxanadan çıxıb gəlin otağına üz tutur.* ◆ *Həmin müddət ərzində gəlin otağında*

Azərbaycan Milli Kitabxanası

*qız yengəsi gərdək guşəsini hazırlayıb qurtardıqdan sonra gəlin qız onun arxasına keçir. Amma əksər hallarda bu "guşə" ertədən, **cehizdüzdü** [42] zamanı qurulur. ◆ Bir sözlə, axşamdan xeyli keçmiş bəy oğlan sağdış-soldışı ilə gəlin otağının qapısı ağzını alır... (ardı - **gərdək gecəsi**ndə [100]). ◆ Sonrakı dövrlərin toy məclislərində gəlin qız və bəy oğlan, bir qayda kimi, yan-yana oturur və guya cavanların "utanmasını yüngülləşdirmək" məqsədilə onların önünə güzgü qoyurlar. İnama görə, bu "güzgüdə" hər iki cavanın bəxti, taleyi və ruhları həmişəlik birləşməliydi. ◆ Bunun ardınca, bəy oğlan hamının gözü qarşısında gəlinin ağzına bir az yağ, gəlin isə oğlanın ağzına bir az bal qoyur. Bu cür toy məclislərində bəy ilə gəlin, adətən, beş dəqiqədən artıq oturmayıb çıxırlar. ◆ Toyxanada isə hamı toy münasibətilə bir-birinə və toy sahibinə: "Allah mübarək eyləsin, ayağı şükümlü olsun, Allah gətirdiyin gəlini oğullu-qızlı eyləsin, həmişə toy-bayram içində olasınız, neçə-neçə belə toylar görəsiniz, inşallah" - deyərək, bu kimi sözlərlə gözaydınlığı verib mübarəkbadlıq edirlər (vaxtilə bu məqamı "**şadimübarək**" [246] adlandırmışlar). Sonra oğlan atasını oğlunun **kürəkən** [153] olması münasibətilə təbrik edirlər. Əvəzində toy sahibindən: "arzularınız yerinə yetsin, xeyirduanız qəbul olunsun, gün o gün olsun ki, sizinkilər üçün olsun, məni də çağırasınız", yaxud: "o gün olsun ki, siz də övlad toyu görəsiniz, qız köçürəsiniz, nəvə-nəticə toyunda əl-qol açıb oynayasınız, inşallah" - cavabını aldıqdan sonra hərə öz evinə yollanır. ◆ Elimiz içində bu toyun digər adları bunlardır: "gəlingələn toy // gəlingəldi toyu // gəlingətirmə", "kişi toyu // oğlan toyu // oğlan evi toyu", "ağır düyün // ağır toy // böyük toy", "ulu düyün // ulu toy".*

**• XI •**

*Ardı:*
***ÜZƏÇIXDI TOYU* ◆ *XII***
*(219-cu səhifədə)*

Azərbaycan Milli Kitabxanası

*toyu*"na qədərki tədbirlər maddi imkan, yerli adət və şəraitdən asılı olaraq, bəzən bir-iki il davam edir, bəzən isə, əksinə, çox qısa müddətdə (məsələn bir ay ərzində) həyata keçirilir. Adətən, bu tədbirlər mart, aprel aylarında başlayıb payızda bitir. ◆ Ümumiyyətlə, elimizin adət-ənənəsinə görə, toy məclislərini payızda, qışda və yazda, xüsusən Novruz bayramına bir az qalmış, yaxud yazın son aylarında keçirmək daha münasib sayılır. Məhərrəm, səfər və ramazan aylarında toy vurdurulmur. ◆ Xalq arasında *"səni görüm oğul toyuna həsrət qalasan"* və ya *"toy gününü görməyəsən, toyun yarımçıq qalsın"* və bu kimi qarğışlar, bir qayda olaraq, pis niyyət və düşmənçiliklə deyilən bəddualardandır. ◆ Bunlarla yanaşı, Qazax bölgəmizdəki toy mərasimlərində aşıq, düdükçü və dümbəkçalandan ibarət *"çalğı üçlüyü"*, eləcə də çubuqla çalınan *"dümbək"* çalğı aləti də bu adı daşıyır. ◆ Yurdumuzun bir para yerlərində bu **xeyir iş** [129] - *"toy-düyün // toy-bayram // toy-büsat // toylama"*, *"evlənmə törəni"*, *"sur"*, *"şadi"*, *"şilən // şülən"*, *"damadi"* adlanır. Onun *"tuy"* (Quba) deyiliş şəkli də var.

*"Başına döndüyüm toy adamları,*
*Siz də deyin, toya gələn oynasın"*
(Aşıq Hüseyn Şəmkirli)

## TOY ADAMI

◆ El-oba içində istər oğlan, istər qız evindəki **toy** [269] büsatının hazırlanması və onların keçirilməsində hər cür köməklik göstərib bu işdə yaxından iştirak edən şəxslərə (bunlar, bir qayda olaraq, bəy oğlan və gəlin qızın yaxın qohum-tanışı olur) və həmçinin **oğlan** və **qız toyu** [208], [178] məclislərinə çağırılmış qonaqlara verilən ad. ◆ Bu qonaqları bəzi yerlərdə *"dəvətli"* adlandırırlar. ◆ Adət üzrə, onları *"qız adamı"* və *"oğlan adamı"*na ayırırlar.

*"Gəlin getdiyi yollar, görüm çil-çıraq olsun"*
(toy oxumasından)

## TOY ALAYI

◆ **Oğlan toyu** [208] şənliklərinin ikinci - **gəlingətirdi toyu** [98] günü ərə verilmiş qızı dədəsi evindən yeni mənzilinə gətirmək üçün oğlan tərəfin oraya yolladığı nümayəndə heyəti - **atlılar** [18] dəstəsi və ya miniklərdən ibarət qafilənin adı. ◆ Kənd yerlərində **oğlan evi** [208] qızgilə yaxın məsafədə yerləşdikdə, bütün qafilə iştirakçıları qızgilə və geriyə, çala-çala, oynaya-oynaya piyada yollanırlar. Şəhər şəraitində isə evlər yaxın olduqda qafilə iştirakçıları, bir adət olaraq, hökmən şəhərin bir neçə baş küçəsindən keçib-getməliydilər. ◆ Bununla belə, uzaq keçmişdə gəlin qız **ər evinə** [89], bir qayda kimi, çiyinlərdə gəzdirilən təxtirəvanda, yaxud dəvə üzərində qurulmuş kəcavədə aparılırdı. Bir vaxtlar (bizim günlər bəzi yerlərdə) gəlinin at-arabaya yığılmış **cehizi** [42] də bu qafilədə aparılırdı. ◆ Uzun bir tarix boyu kənd mühitində gəlin qız yeni mənzilinə, qədim adət-ənənəyə uyğun olaraq, at üstündə aparılmışdır. Bundan ötrü gözəl və daima kişnəyən, rənginə görə qafilənin başqa atlarından fərqlənən bir at seçilir. Tutalım, qafilənin əksər atları ağ-bəyaz rəngdə olarsa, gəlin üçün ayrılmış at qırmızı, kəhər rəngli, o biri atlar müxtəlif rənglərdə olarsa, gəlinin atı ağ rəngdə (keçmişdə belə at *"murad, arzu atı"* mənasında işlənən *"xing"* və ya *"xingi-murad"* adı daşımışdır) olmalıdır. Atın yalı, quyruğu, qarnı və ayaqları, bir adət olaraq, qabaqcadan xınaya boyanmalı, qırmızı parça, zəngin bəzəkli zinpuşla örtülüb boynuna qırmızı yaylıq, alnına, yaxud sinəsinə dairəvi şəkilli bir güzgü, *"heykəl"* deyilən üçbucaq biçimli bir bəzək, qırxa qədər zınqrov asılmalıdır. İnama görə, bu, bədxah qüvvələri gəlindən, onu aparan atdan uzaqlaşdırmaq üçündür. ◆ Bu ata **qız evinə** [178] qədər heç kəs minmir, onu yedəkdə aparırlar. ◆ Ümumiyyətlə, sonralar gəlin gətirməkdən ötrü ayrılmış və çox vaxt yalnız ağ atlara qoşulan araba və qeyri

Azərbaycan Milli Kitabxanası

miniklər, adət üzrə qırmızı lent və yaylıqlarla bəzənir, hər atın boynuna ağ və ya qırmızı kələğayı sarınır. Qafilə hava qaraldıqdan sonra hərəkət etdikdə, onun ön cərgələrində əlində məşəl tutmuş 5-10 atlı gedir. ◆ Bəzi yerlərin adətincə, iki nəfər cavan toy karvanının önündə ağ və qırmızı rəngli atı çapır. ◆ İstər uzaq keçmişin, istər sonrakı dövrlərin etiqadına əsasən, toy qafiləsində gəlin önündə yeriyən atların rəngi ağbəyaz və kəhər rəngdə olarsa, qız *"ağ günə, xoşbəxtliyə çatdırılır"*. Əski zamanların düşünüşünə görə, ağ at *"saf ağ işıq"* və *ulu Günəşi* təmsil edən rəmzi heyvan tək, gəlin qızın yolunun aydın, işıqlı və uğurlu olmasına zəmanət verir. Qırmızı at isə odalov varlığına, onun həm yandırıb, məhv edən, həm də hifzedici, qoruyucu qüvvəsinə inam ilə əlaqədardır. ◆ Xalqımızın qədim əqidəsincə, atlarla, alovlanan məşəllərlə üzləşən şər ruhlar, fəna qüvvələr dərhal qaçıb yox olmalıdırlar. Gəlin qızın özünün ağ və ya qırmızı ata qalxması, əslində, onun büsbütün ulu Günəşin himayəsi altına keçməsi, qəzəbli ruhların xətərindən hərtərəfli hifz olunması etiqadına arxalanır. ◆ Beləliklə, gəlin qızı dədəsi evindən götürüb ər evinə aparan təntənəli qafilə iştirakçıları uzun bir qatar, karvan şəklində, bir-birinin ardınca düzülərək bəy qapısına üz tuturlar. Karvanın lap önündə, at üstündə karvanın başçısı, oğlanın doğma dayısı və ya əmisi - **gəlinalan** [98] gedir. Onun yanınca, at üstə, əlində iri məşəl tutmuş bir cavan, ardınca isə **gəlin çırağını** [98] aparan bir oğlan uşağı yeriyir. Bu uşaq yolboyu tez-tez və ucadan: *"Allah mübarək eyləsin, Allah xeyirə calasın"* - çığırır. Ondan sonra, atlılardan biri iki bıçağa keçirilmiş çörək və qızardılıb zəfəranlanmış çolpa aparır. ◆ Bir para yerlərin adətincə, bunlardan sonra **qız şaxı** [178] (bəzən isə adicə yaşıl budaq) qaldırılır. ◆ Şaxın ardınca, at üstə gəlin qız özü yeriyir. Onun üzərində **gərdək** [100] pərdəsinin əlvan parça tikələrindən hazırlanmış, dörd ucuna dəmir *"ay-ulduz"* sancılmış dörd şüyüldən ibarət bir çətir tutulur, gəlinin qabağında isə, bir qayda kimi, **bəxt güzgüsü** [34] aparılır. Yolboyu gəlinin sağında-solunda bəyin ən yaxın iki adamı - **üzəngiçi** [280] addımlayaraq, gəlinin ayaqları keçirilmiş üzəngiləri tuturlar. Çox vaxt qızın doğma dayısı **cilovdar** [45] kimi, atın ağ kələğayı bağlanmış yüyənindən tutub çəkir. ◆ Bəzi yerlərdə isə bu iş oğlanın atası, əmisi, yaxud dayısı və ya **oğlan sağdışının** [208] öhdəsinə düşür (inama görə, *"xing atı"*n yüyəni altından keçmək şükümlü sayılır). ◆ Bir sözlə, at üstündəki gəlini hər tərəfdən, həm qızın, həm oğlanın ən yaxın, ən mötəbər qohum-qardaşı, bəzi hallarda isə bəy oğlan şəxsən özü hifz edib qoruyur. Qaydaya görə, bəy oğlan özü də at üstündə olmalı, daima gəlinin mindiyi atın və ya oturduğu miniyin ətrafına dolanmalıdır. ◆ Gəlin uzaq yerə - qonşu kəndə, yaxud şəhərə köçürüldükdə, təbiidir ki, o, araba, fayton, kareta və s. təkərli miniyə mindirilir. Bu minikdə onun qabaq-qənşərində, sağ tərəfdə, əlində çıraq (sonralar şamdan, lampa və s.) tutmuş **qız yengəsi** [178], yaxud **qız sağdışı** [178], sol tərəfdə isə əlində bəxt güzgüsünü saxlayan **oğlan yengəsi** [208] və ya **qız soldışı** [178] əyləşirlər. ◆ Bəzən gəlin qızın güzgüsü faytonçu yanında əyləşmiş bir oğlan uşağına (çox vaxt bu, gəlinin belini bağlamış yeniyetmə olur) həvalə edilir. ◆ Bir para yerlərdə qız sağdış-soldışının əlində bolluq timsalı - düyü ilə dolu bir stəkan olur. ◆ Bəzi yerlərin qaydasına görə, gəlini ər evinə yalnız qız və oğlan yengələri müşayiət edir. Qızın sağdış-soldışı və oğlan yengəsi olmadıqda, qız yengəsi faytonçunun arxasında, gəlinlə üzbəüz oturaraq əlindəki güzgünü onun üzünə tutur. **Dərnə** [61] isə şərbətlə dolu gəlin bardağı və **cehiz boğçası** [42] ilə gəlinin yanında oturur. ◆ Bəzən yengə və ya dərnə qızın başı üzərində bir ağ çətir də tutur. Faytonun üstünə ağ miçətkan çəkilir, yaxud onun çətiri büsbütün örtüldükdən sonra miniyin qabağı pərdə ilə tutulur. Gəlin xoşbəxt olsun deyə, onun köhnə başmaqlarından bir tayını miniyə yerləşdirir, qızın ayağı altına isə bir ovuc buğda səpirlər. ◆ Bəzi yerlərdə ovsun və hifzetmə

Azərbaycan Milli Kitabxanası

məqsədilə gəlinin üstünə yolboyu, ər evinə çatana qədər su çilənir. ◆ Bir para yerlərin adətincə isə, gəlin qızın yeni mənzilinə sağ-salamat çatması üçün bir gülləni iki bölüb hissələrini qız evinin həyət darvazasının iki tərəfinə qoyaraq, gəlini onların arasından keçirirlər. ◆ Bəzən burada, bir adət olaraq, **bəylik papağını** [36] zarafatyana götürüb qaçmaq cəhdləri də baş verir. Papağı qaçırıb qız evinə çatdıran adama əvəzində bir araxçın və ya köynək verilir, bəy oğlan isə el-oba içində, necə deyərlər, *"rüsvayi-cahan"* - biabır olur. ◆ Uzaq keçmişdə əcdadımız Oğuz türklərinin arasında toy büsatı vaxtı, rəqibin gəlini yeni mənzilə aparıldıqda, yaxud **gərdəyə** [100] girdiyi zaman onu qaçırmaq böyük şücaət, igidlik sayılmışdır. Evlənən şəxsin mənliyi üçün isə bu ən böyük təhqir kimi qiymətləndirilirdi. Ümumiyyətlə, bir vaxtlar təcavüz və zorakılıq toy-evlənmə mərasimi çərçivəsində məqbul sayılmış, yaşamaq hüququ qazanaraq, qanuniləşdirilmişdi. Bu səbəbdən ötən zamanlarda qaçaq-quldurun, rəqib və düşmənin zorla gəlin qızı ələ keçirmək cəhdlərinə və qan intiqamı ilə bağlı toy günü bəyin öldürülməsi və ya oğurlanması hallarına tez-tez təsadüf olunmuşdur. Buna görə, qafilədə gəlini müşayiət edən oğlan və qız adamları, bəy və onun yaxın dostları, xüsusən oğlanın sağdış-soldışı düşmənin bəyə qarşı edə biləcəyi həmlənin qarşısını almaqdan ötrü, əməlli-başlı silahlanırdılar. ◆ Vaxtilə bəy ilə gəlinin öz toylarında iştirak etməməsi, bəyin toy günü və ondan sonra sağdış-soldışıyla xəlvəti bir yerdə *"gizlənməsi"*, toy qafiləsində arabir tüfəng atılması və s. tədbirlər məhz bununla izah olunur. ◆ Bunlarla yanaşı, qafilə **bəy qapısına** [36] üz tutduqda, onun qarşısını, bir qayda olaraq, məhəllə cahılları kəsir (buna el içində **qabaqkəsdi** [157] deyirlər). Oğlan adamları onlara nəmər-pul verib *"yolu açdırırlar"*. ◆ Qafilə yeriyən zaman yolboyu ətraf yerlərin tanınmış pəhləvanları karvanın qabağını kəsib *"bu meydan, bu da şeytan"* - deyərək, oğlan evini güləşə çağırırlar. Burada ya oğlan evi adamlarından birisi pəhləvanla güləşə çıxmalı, yaxud da nəmər verilməlidir ki, qafilə yoluna davam etsin. ◆ Bir az sonra birisi alayın keçəcəyi yolun üstünə diri və ya kəsilmiş bir erkək çıxarır ki, buna da **yolaçıxarma** [297] deyilir. O da *"haqqını"* alıb geri çəkilir. ◆ Atlılar yürüş vaxtı yolda qoyun sürüsünə rast gəldikdə, çox vaxt əyilib bir erkəyi yəhərə qaldırırlar. Sürü sahibi və ya baş çoban (sərkər) bundan heç narahat olmur, əksinə sevinir. Beləliklə, qafilə hər hansı bir evin, həyətin qapısı ağzından keçdikdə, gəlin qızın qarşısına, bir adət kimi, duz-çörək, güzgü qoyur, qızın üzünə güzgü və ya yanan şam-çıraq tutur, bəzi ev sahibləri, xüsusən qadınlar küçəyə çıxıb gəlin qıza hədiyyə verir, onun atının boynuna yaylıq, kəlağayı bağlayırlar. Qucağı oğlan uşaqlı cavan gəlinlər isə yolboyu körpələrini qızın ağuşuna verib bir müddət onunla yanaşı yeridikdən sonra geri götürürlər. ◆ Qızın qohum-qardaşı, adət üzrə, onu kəndin çıxışına qədər ötürür, sonra *"Allaha əmanət etdik, Allahın gözü üstündə olsun"* - deyir, oğlan adamları ilə öpüşüb qızlarını onlara tapşıraraq geriyə qayıdırlar. Bəzi yerlərdə isə onlar gəlini yeni mənzilinə qədər müşayiət edirlər. ◆ Qafilənin yolu yaxınlığında müqəddəs pir və ya ocaq yerləşirsə, karvan iştirakçıları bir an ayaq saxlayaraq, hökmən pir üstünə bir şey - halva-çörək, pul, meyvə və s. qoyurlar. ◆ El-obamızın əski qayda-qanununa görə, qafilə oğlan evinə qədər yolunu saparaq üç yerdə dəyişməlidir ki, gəlin gəldiyi yolla geri qayıtmasın, getdiyi evdə bitib qalsın. ◆ Digər el adətincə, karvanın getdiyi yolun əks istiqamətində digər toy alayı əsla keçməməlidir, başqa sözlə, iki gəlin yolda üz-üzə gəlməməlidir. Bu yaxşı əlamət sayılmırdı. ◆ Əhvalat günorta çağı baş verərsə, atlılar yol boyu qılınc oynadır, atüstü **surpapaq** [243] və **pərdəapardı** [216] oyunları keçirir və axırda atqovduya çıxırlar. Adət üzrə, bu yarışlarda heç kəs gəlinin oturduğu miniyi ötməməlidir. ◆ Bəzən alaydan üç-dörd atlı ayrılıb qafilə başında aparılan **müjdə yastığını** [195], yaxud iki bıçağa sancılmış çörək

Azərbaycan Milli Kitabxanası

və toyuğu (və ya ət tikəsini) qaparaq bəy qapısına, muştuluğa tələsirlər, digərləri isə onların ardınca çapır. Gəlinin artıq yaxınlaşdığını xəbər verən atlıya oğlan evi xüsusi **müjdə xələt** [195] verib atının alnına yumurta çırpır, digər atlılara isə nəmər paylayır. ◆ Yaxud biri gəlin qızın ayaqqabısının tayını götürüb qabağa düşür, hamıdan əvvəl bəy qapısına çatır və ayaqqabını oğlan anasına göstərib: *"muştuluğumu ver, gəlinin gəlir"* - deyir. Oğlan anası da ona **xələt** [132] verməlidir. ◆ Nəhayət, gəlin qız yeni mənzili - ər evinə çatdırılır. ◆ Bəzi yerlərin qaydasına görə, bəy qapısına 30-40 addım qala-qalmaya qafilə dayanır və bəy oğlan **gəlinin pişvazına** [98] çıxır. Adət üzrə, burada qız adamları hər vasitə ilə onu atası evindən uzaqlaşdırmağa çalışır, ancaq bəy buna heç cür razılaşmır və uzun çək-çevirdən sonra o, gəlin oturan miniyə yaxınlaşaraq qıza təzim eyləyib dərhal geri qayıdır və i.a. (ardı - **gəlingətirdi toyunda** [98]). ◆ Yurdumuzun bəzi yerlərində bu təntənəli qafilə *"karvanşadi"* (yəni şadlıq karvanı), *"toy qatarı // toy qafiləsi // toy karvanı"*, *"düyün karvanı"*, *"gəlin karvanı // gəlin alayı // gəlin qatarı // gəlin köçü"*, alay iştirakçıları isə *"atlılar"*, *"dünürçülər"*, *"cıdırçılar"*, *"özünəbəylər"* və s. adlanırlar.

## TOYAŞI

◆ Yurdumuzda çaldırılan **toy** [269] məclislərində xalqımızın əski adət-ənənəsinə görə, qonaqlar üçün açılmış mərasim süfrəsinə verilən müxtəlif plov növlərinin ümumi adı. ◆ Bir para yerlərin qaydasınca, üç gün davam edən **oğlan toyu**nun [208] ikinci - **aş günündə** [15] yeyilən plovdan sonra ortalığa qaval gətirilir və qonaqlar oraya pul salırlar. ◆ Bu plova bəzən *"dünüraşı"* da deyilir.

## TOY BAZARLIĞI

◆ Oğlan və qız evlərində böyük **nişantaxdı toyu** [205] mərasimindən sonra aparılan toyqabağı tədarük işlərinə verilən ad. ◆ Kənd yerlərində **adaxlı** [1] oğlanın atası bir neçə yaxın qohumu ilə birlikdə şəhərə yollanıb **nişanlı** [205] qız üçün lazımi pal-paltar, parça, bir para zinət əşyası, iki torba xına, toy tədbirləri və **xonça-xələt** [138], [132] üçün çay, qənd, noğul-nabat, püstə-badam və s. gərəkli ərzağı alır. **Qız evi** [178] isə bu müddət ərzində oğlangildən aldığı **başlıq** [29] pulu hesabına qızın **gəlinlik cehizi** [98] üçün avadanlıq toplamaqla məşğul olur. Bu iş, bir adət olaraq, qızın dədəsi, yaxud qardaşı və ya digər ailə üzvünə həvalə olunur. Bütün bu hazırlıq işlərinin bəhrəsi qız evində çağırılan **paltarkəsdi** [215], **xınayaxdı** [135] və **gəlinapardı toy**larında [98] üzə çıxır. ◆ Bu işi *"toy tədarükü"* adlandıranlar da var.

## TOYBEÇƏ

[ *"kiçik toy məclisi" mənasındadır* ] ◆ Bir para yerlərin dilində, **gəlingətirdi toyu**ndan [98] üç-dörd gün sonra oğlan evi qadınlarının təzəgəlinin şərəfinə təşkil etdiyi **üzəçıxdı toyunda** [278] icra olunan **duvaqqapdı** [72] mərasiminin başqa adı. ◆ Bu mərasimdən sonra təzəgəlin daha heç kimdən yaşınıb gizlənmir, **gəlinlik paltarını** [98] çıxarıb onu həmişəlik sandığa qoyur.



Azərbaycan Milli Kitabxanası

"Toy toybəyisiz, gəlin yengəsiz olmaz"
(atalar sözü)

## TOYBƏYİ

◆ Oğlan və qız toylarını idarə etmək üçün yaxın qohumlar arasından (bu, çox vaxt oğlanın doğma dayısı olur) seçilmiş, yaxud bu işdən ötrü dəvət edilmiş peşəkar sərəncamçının adı. ◆ Bir para yerlərin adətincə, **oğlan toyu** [208] şənliklərinin birinci günü - **ixtilat toyu** [141] axşamı toy sahibi böyük bardağa tökülmüş şirin çayı süfrənin ortasına qoyur. Kim onu qaldırıb içərsə, həmin adam bu ağır vəzifəni öz üzərinə götürmüş sayılır. Yerli əhali arasında böyük hörmət və nüfuza malik olub, bir sözü iki olmayan bu şəxs toy şənliyinin intizamlı keçməsinə zəmanət verir və adət-ənənəyə görə, toyun böyüyü - *"padşahı"* sayılır. O, əlində çubuq, **toyxana**da [269] vargəl eyləyərək, yersiz gülüb ucadan danışmaqla məclisin gedişinə mane olanlara, özlərini ləyaqətsiz aparanlara xəbərdarlıq edir, bəzən isə beləsinə hətta ehmalca çubuq vurmaqla, toyxanadan çıxmasını da tələb etməli olur. O, həmçinin toya gələn qonaqları qarşılayıb, toyxanada oturmaq üçün hərəyə layiq yer göstərir, rəqs etmək istəyənlərin sifarişini çalğıçılara çatdırır, oynayanların rəqsinə, çalğıçıların oxuyub çalmalarına nəzarət edir. ◆ Bəzi yerlərdə onun əmrlərini **fərraş** [94], **eşikağası** [83] və ya **əmirbəyi** [87] adlı köməkçilər yerinə yetirirlər. Toydan sonra toy sahibi ona və köməkçilərə pul və **xələt** [132] verir. ◆ Yurdumuzun ayrı-ayrı yerlərində bu sərəncamçını *"toyağası // toybabası // toybavası"* (Qazax, Borçalı), *"toybaşı // toypadşahı // toyşinas"* (Şəki), *"padşah"*, *"xan // xandağ"*, *"düyünbaşı"*, *"mağarbaşı"*, bəzən isə *"sərpayı"*, *"ayaqçı"* və *"kələntər"* adları ilə tanıyırlar.

"Toyçu olasan, öz toyun da ola"
(atalar sözü)

## TOYÇU

◆ Toy məclislərini aparan, çalıb-oxumaqla qonaqları əyləndirən çalğıçılar üçlüyünün üzvü, peşəkar musiqiçiyə verilən adlardan biri. ◆ Ən azı toydan qırx gün əvvəl toy sahibi onunla danışıb behini verir. ◆ Naxçıvanda bu adı həm çalğıçı üçlüyü, həm nağaraçalan daşıyır. Əslində, bu əski çağlardakı **mütrüb**lərin [198] xələfləri, onların peşələrini davam etdirən sənətkarların adıdır. Bəzi yerlərdə onları sadəcə **"aşıqçı"** [16] və *"toybəstər"* çağırırlar. Abşeronda isə ona *"qual"* deyirlər.

## TOY ÇUXASI

◆ Vaxtilə toy günü **bəydurma** [36] mərasimi zamanı **bəy oğlanın** [36] əyninə geydirilən xüsusi üst paltarının adı. ◆ Bu libasın rəngi, adətən, altdan geyinilən arxalığın rəngilə uzlaşdırılmalıdır. Əgər arxalıq açıq rəngdədirsə, çuxa tünd parçadan tikilir və əksinə. Onun qolları arxaya qatlanaraq çuxanın kürəyinə bəndlənir və aşağı salladılır. Buna görə də ona *"atmaqol çuxa"*, bəzən isə *"bəylik çuxası"*, *"çərkəzi çuxa"* və ya *"toyluq çuxa"* da deyirlər.

## TOYDAĞITMASI

◆ Bir para yerlərin adətincə, oğlan evindəki **gəlingətirdi toyu**nda [98] aşığın oxuduğu **duvaqqapma** [72] və ya xanəndənin yastı balabanın müşayiətilə oxuduğu mahnıdan sonra məclisdəkilərin toy sahibini təbrik etməsi (buna vaxtilə **"şadimübarək"** [246] və *"mübarəkbadlıq"* demişlər) və evlərə dağılması ilə bağlı toy şənliyinin son mərhələsinə verilən ad. ◆ Ona *"xitam // xitamverdi"* də deyirlər.



Azərbaycan Milli Kitabxanası

## TOYDAMI

◆ Borçalı və Cəbrayıl bölgələrimizdə toy mərasimi keçirmək üçün **oğlan** və **qız evlərində** [208], [178], həyətdə, küçədə və ya yaxınlıqdakı meydançada müvəqqəti qurulmuş **toyxana**ya [269] verilən ad. Bu münasibətlə, bir qayda olaraq, böyük çadırdan istifadə olunur. ◆ Uzaq keçmişdə ona bəzən "**surgah**" [243] demiş, sonralar isə xalq içində bu qurğunu "**ərusçüxana**" [90], "**mağar**" [187] və "*toy evi*", "**düyün evi**" [78] adlandırmışlar.

*"Xəbər getsin qohumuna, elinə"*
(toy oxumasından)

## TOY DƏVƏTÇİSİ

◆ Toydan bir-iki həftə əvvəl siyahı üzrə tapşırılan adamları **oğlan toyu** [208] və **qız toyu** [178] məclislərinə çağıran şəxsə verilən ad. ◆ Qız evində çalınan toy şənliklərində toy dəvətçisi, ya iki qadın, ya da həddi-buluğa çatmış iki qız (biri gəlin qızın qohumu, digəri onun yaxın rəfiqəsi, **bacılığı** [22]) olur. Qadınlar başlarını qara kəlağayı ilə örtdüyü halda, qızlar qırmızı paltar geyib, biri əlində içi **toy şirnisi** [269] ilə dolu kiçik xurcun, o birisi isə zənbil tutaraq, qapı-qapı evləri gəzir, kənd və məhəllə qadınlarını toya dəvət eyləyirlər. ◆ Bu zaman onlar ailə üzvlərinin sayına uyğun xurcundakı şirnidən noğul-nabat, yaxud qənd, bəzi yerlərdə isə taxta qaşıq, sabun və bu kimi xırda əşyaları nəlbəkiyə qoyub, toya çağırılan ev sahibinə uzadaraq: *"subaylarınız üçün olsun, balalarınızdan görəsiniz"* - deyir, sonra onun kimin toyuna çağırıldığını, toyun yerini və vaxtını bildirirlər. ◆ Dəvət olunanlar da öz növbəsində: *"çox mübarəkdi, xoşbəxt olsunlar, Allah sizə də toy-nişan qismət eyləsin, gün o gün olsun, sizin toy şirninizi yeyək, inşallah"* - deyərək, həmin nəlbəkiyə pul, meyvə və ya yumurta, bəzi yerlərdə isə düyü qoyub nəlbəkini qaytarırlar. ◆ Kişi toylarında isə bir cavan, yaxud yaşlı kişi boynuna sarı və ya qırmızı kəlağayı sarılmış atını minib kəndi başdan-başa çaparaq qonum-qonşu və kənd sakinlərinə dəvətnamə paylayır, sonra toy sahibinin adını deyib, necə deyərlər, onların toya gəlmək *"vədəsi"*ni alır. ◆ Əksər hallarda hər kəndin, elin-obanın daimi və səriştəli bir xəbərçisi olur. Hər dəfə toy şənliyinə hamını o çağırır və dəvət olunmuş şəxs bu *"peşəkara"* müəyyən bəxşiş verir. Vaxtilə qadınları **xeyir işə** [129] **el yengəsi** [80], kişiləri isə **xəlfə** [134] çağırırdı. ◆ Ayrı-ayrı yerlərdə bu dəvətçiyə *"adamçağıran"* (Abşeron), *"çağırıqçı"* (Qazax), *"çağırışçı"* (Quba), *"xandagəzən"* (Lənkəran), *"xondaçı"* (Salyan), *"nəvə"* (Naxçıvan), *"təlifçi // təklifçi"* (Şahbuz), *"salovçu"* (Masallı), həmçinin *"ayaqçı"*, *"düyünçü"*, *"oxuyucu"*, *"xəbərçi"*, *"harayçı"*, *"carçı"* və s. deyirlər.

## TOY GECƏSİ

◆ Bir para yerlərin dilində, **gəlingətirdi toyu**nun [98] sonunda **gəlinlik otağı**ndakı [98] **gərdək** [100] pərdəsi arxasında **bəy oğlanla** [36] **gəlin qızın** [98] ilk dəfə yatağa girib bir yastığa baş qoyduğu gecənin, başqa sözlə desək, **nikahın** [203] ilk gecəsi, evliliyin başlanğıc nöqtəsinin adı. ◆ Bu gecənin *"gəlinoldu gecəsi"*, *"vüsal gecəsi // həsrət gecəsi"* və s. adları var.

## TOY HAMAMI

◆ Yurdumuzun bəzi bölgələrinin qaydasına görə, ötən zamanlar **gəlinapardı** [98] və

Azərbaycan Milli Kitabxanası

**gəlingətirdi toy**ları [98] günü, ayrı-ayrılıqda bəy oğlan və gəlin qızın təntənəli şəkildə qonaqlarla birlikdə (kişilər çalğı ilə) boğça-xonça ilə el hamamına yollanıb burada keçirdikləri **bəylik** [36] və **gəlinlik hamamı** [98] mərasimlərinə verilən ümumi ad. ◆ Bundan ötrü hamam iki-üç saatlıq icarəyə alınırdı.

"Toyxana səni gözləyir, düş ortaya süz, gəlin"
(toy oxumasından)

## TOYXANA

◆ **Oğlan** və **qız evlərində** [208], [178] **toy** [269] şənlikləri üçün ayrıca hazırlanmış, çoxlu adam yerləşə bilən, çalıb-oynamaq, güləşmək və buna oxşar tədbirlər keçirmək üçün yararlı yer - otaq, çadır və s. qurğunun adı. ◆ İyirminci yüzilin əvvəllərində şəhər mühitində bundan ötrü bəzən köhnə qazarma, böyük dükan və iri anbarlardan istifadə olunurdu. Kənd yerlərində isə yay vaxtı, gündüzlər evin həyətində, yaxud açıq havada, evə yaxın hamar bir çəmənlikdə, çöldə, düzdə, küçə meydanında dördbucaq şəkilli meydança ətrafına tirlər basdıraraq, aralarından kəndir çəkib xalça-palaz asırlar. Havalar yağıntılı və soyuq olduqda, yaxud məclislər axşamçağı keçirildikdə müvəqqəti böyük bir çadır, yaxud bir neçə çadır inşa edilir. Bu cür qurğulara, adətən, **mağar** [87], yaxud *"mağardamı"* deyirlər. ◆ Maldarlar arasında isə bundan ötrü bir deyil, üç ayrıca çadır qurulur: kişilər, qadınlar və **bəy oğlan**la [36] tay-tuşu üçün. Kəndlərdə belə qurğular **oğlan toyu** [208] günlərindən bir-iki gün əvvəl qurulmağa başlanır, qız evində isə **gəlinapardı toyu** [98] günü səhər-səhər inşa olunur. ◆ Burada yerə basdırılmış dirəklər üzərində tikilən çadırların yan tərəfləri və üstü örtülür, yerliyi və “divarları” qonum-qonşudan toplanmış xalça-palaz ilə bəzənir, divarların dibində dövrə oturacaqlar quraraq üstünə xalça salınır. Yer süpürülüb təmizlənir. ◆ Çadırın yuxarı başında **toyçu**lar [269] üçün xüsusi yer ayırılır, oraya döşəkçə salıb qabaqlarına qaval-dumbul qızdırmaqdan ötrü 2-3 manqal qoyulur, onların sağ və sol tərəfində isə hörmətli qonaqlar üçün ayrıca döşəkçələr salınır. Elə burada da üstü şirniyyatla bəzənib güzgü qoyulmuş ayrıca bir masa və **bəylik taxtı** [36] yerləşdirilir. Taxtın ətrafını gül-çiçək dibçəklərilə bəzəyirlər. ◆ Sonra dirək və şalbanlardan güclü işıq mənbələri - keçmişdə neft, sonralar isə elektrik lampa-fanarları asırlar. Toy gecəsi çadırın girəcəyinin yanında böyük tonqal, yaxud *"lopa"* məşəl alışdırılır. ◆ Bir vaxtlar bu qurğunun içinə on beş yaşından kiçik (ötənlərdə bu yaşlı yeniyetmələr artıq həddi-buluğa dolmuş sayılırdılar) oğlan uşaqları buraxılmırdılar. ◆ Qurğunun digər adları - *"toydamı // toyevi // düyün evi"*, *"mağar"*, *"ərüsçüxana"*, *"surgah"*dır. Onun *"tuyxana"* (Quba) deyiliş tərzi də var.

## TOYXƏRCİ

◆ Abşeronda oğlan evinin üzərinə düşən ərzaq xərcliyi - **bazarlığa** [31] verilən ad. ◆ Burada ona *"mitmax xərci"* (yəni mətbəx xərci) də deyirlər. Qaydaya görə, qız anası həmin xərcliyi gətirən adama **xələt** [132] verməlidir. Əski zamanların qayda-qanununa görə, kəndlinin ailəsində toy çaldırılan vaxt xan və bəyin xeyrinə toplanan xüsusi maddi vəsait də bu adı daşımışdır. Ona bəzən "**toypulu**" [269] da demişlər.

## TOY XINASI

◆ **Qız toyu**nun [178] ikinci şənliyi - **xınayaxdı toyunda** [135] oğlangildən **qız evinə** [178] gətirilmiş **gəlin xınasının** [98] başqa adı. ◆ Xalq arasında birinin başqasına pis niyyətlə



Azərbaycan Milli Kitabxanası

dediyi *"əllərindəki toy xınasını gözlərinin yaşı yuyub aparsın"* qarğılaması çox ağır təhqir sayılır. ◆ Ona həmçinin *"toyluq xına // toyluq həna"* da deyirlər.

## TOY XONÇASI

◆ Əsas etibarilə, toy-nişan tədbirləri ərəfəsində və **gəlinapardı toyu** [98] günü oğlan evində ayrı-ayrı bəzəkli və dəyirmi sinilərin içinə ərə veriləcək qıza hədiyyələr - pal-paltar, zinət əşyaları və yeməli şeylər düzərək, al qırmızı zərli parça və tirməşala büküldükdən sonra qızgilə aparılan bağlama - **xonçalara** [138] verilən ümumi ad.

## TOY QOYUNU

*"Qardaşımın toy qoyunu, bıçaq gətir kəs boyunu"*
(toy oxumasından)

◆ Oğlan və qız evlərində toy süfrəsindən ötrü alınmış və qonum-qonşu tərəfindən **toy** [269] sahibinə hədiyyə verilmiş qoyun-quzuya verilən ad. ◆ Bu qoyunların belinə müxtəlif rənglər vurulur, yaxud bir-iki gün əvvəl baş-ayağına xına yaxıldıqdan sonra **ixtilat** [141] və **gəlinapardı-gəlingətirdi toy**ları [98] günü boyunlarına al-qırmızı yaylıq bağlayıb toy vurdurulan yerə gətirir, **heyvankəsdi** [115] ayini zamanı onları kəsib toy məclisi üçün yemək hazırlayırlar. ◆ Bu heyvanları *"toy toğlusu // toyluq"* da adlandırırlar.

## TOY OXŞAMASI

*"Mən sənin balan deyiləm, ay nənə"*
(toy oxumasından)

◆ Yurdumuzun bəzi yerlərində qız evində çağırılan **xınayaxdı** [135] və **gəlinapardı** [98] toylarında övladını ər evinə köçürən qız anasına təskinlik verən oxumaların adı. Həm xanəndə qadın, həm qızın tay-tuşları tərəfindən ifa olunan bu oxumaların bir hissəsi qızın, digərləri isə onun anası adından söylənir. ◆ Oxumaların mətnlərində artıq yaxın qohumlarla ayrılıq, vidalaşma vaxtının çatdığı, sabah ananın balasını yola salacağı, qızın köçüb qərib bir yerə düşəcəyi - bir sözlə, qızın *"gedərgi bir qonaq"* olduğu bildirilir. ◆ Nəticədə, qız evi qadınları ananın ayrılıq kədərinə şərik çıxaraq kövrəlib hönkürür, oğlangildən gələn qonaqlar da onlara qoşulurlar. ◆ Xınayaxma zamanı ifa olunan bu cür mahnılara bəzən *"xına oxumaları"* da deyirlər.

## TOY PALTARI

◆ Oğlan evi tərəfindən toy mərasimi üçün nişanlı qıza tikilmiş **gəlinlik paltarı** [98] dəstinin başqa adı. ◆ Həmçinin, bəy oğlana **qız evi** [178] tərəfindən eyni məqsədlə tikilən təzə **bəylik paltarı**na [36] bəzi yerlərdə verilən ad. Gəlin qızın və bəy oğlanın yaxın qohumlarının xüsusi olaraq toy üçün tikdirdikləri paltarlar da bu adı daşıyır. Bəzi yerlərdə ona *"toyluq libas"* deyirlər.

## TOY PARÇASI

◆ Kənd yerlərində, bir adət-ənənə olaraq, oğlan atasının toy ərəfəsində şəhərə yollanıb orada **nişanlı** [205] qıza aldığı bahalı parçalara verilən ad. ◆ Həmin parçalar **paltarkəsdi toyu**nda [215] oğlangildən qız evinə gətirilir və burada onlardan nişanlı qıza **gəlinlik paltarı** [98] kəsib tikirlər.

Azərbaycan Milli Kitabxanası

## TOYPAYI

◆ Toyqabağı bəy oğlanın yaxın qohumları və dost-tanışının **oğlan evinə** [208] gətirdiyi müəyyən ərzaq, əksər hallarda isə ətlik heyvana verilən ad. Həmçinin, bu məclislərdə paylanan hər bir hədiyyə və **xələtin** [132] adı. ◆ Ötənlərdə toy çaldıran hər bir evin, ailənin mülkədar, yüzbaşı və kəndxuda evlərinə göndərdikləri xüsusi pay və sovqat da bu cür adlanırdı. ◆ Bundan əlavə, bir vaxtlar saraylarda vurdurulan toy mərasimləri münasibətilə əhalidən toplanan vəsait də bu adı daşımışdır. ◆ Ona *"düyün hədiyyəsi"*, *"düşərlik"*, *"görəlgə"*, *"nəmərpulu"* və *"toypulu"* da demişlər.

*"And olsun oğlunun toy süfrəsinə"*
(and-qəsəmə)

## TOY SÜFRƏSİ

◆ Bir adət olaraq, toy mərasimləri zamanı qonaqlar üçün açılmış, xüsusi yeməklər düzülmüş süfrənin adı. ◆ Ötən əsrin ortalarına qədər bunlar əsasən şərbət, plov və bozbaş kimi ənənəvi milli yeməklər olsa da, sonrakı illər süfrəyə qovurma və kabab kimi xörəklər, müxtəlif şoraba, balıq, göyərti və s. qəlyanaltı da əlavə edildi. ◆ Onun başqa adı *"düyün süfrəsi"*dir, uzaq keçmişdə isə həmin süfrəni *"şülən"* adlandırmışlar.

*"Balanın toy şirnisindən yeyəsən"*
(el xeyir duası)

## TOY ŞİRNİSİ

◆ Toy mərasimlərindən bir-iki həftə əvvəl əhalini siyahı üzrə **oğlan** və **qız toyu** [208], [178] məclislərinə çağıran **toy dəvətçisinin** [269] əlindəki kiçik xurcundan çıxarıb toya çağırılanlara nəlbəkidə payladığı noğul-nabat, qənd və digər şirniyyata verilən ümumi ad. ◆ Yurdumuzun cənub-şərq bölgələrində bu şirniyyata *"xanda"* deyirlər.

*"Başlandı toy yuxası, ayrılıq gerçəkləndi"*
(toy oxumasından)

## TOY YUXASI

◆ Kənd yerlərində çaldırılan toy məclislərinə 3-4 gün qalmış, həm oğlan, həm də qız evlərində, **yuxaüstü** [299] mərasimində, cavan və yaşlı qadınların sac üstə və təndirdə bişirdikləri toyda yeyiləcək hər hansı bir çörək növü və nazik yuxa-yaymanın adı.

**270.**

*"Tutisiz toy olmaz"*
(atalar sözü)

## ● TUTİ

◆ Orta çağların ədəbi mətnlərində təsadüf olunub valideynlər tərəfindən **başlıq** [29] hesabına hazırlanaraq gəlin qızın özüylə birlikdə təzə mənzilinə daşınan, gündəlik həyat, ev-eşik üçün ən zəruri sayılan ləvazimat - **gəlinlik cehizi** [98] anlamında işlənən əski deyimlərdən biri. ◆ Bu deyimin *"tutu"* deyiliş şəkli də olmuşdur.

**271.**

## ● UĞURPULU

◆ Toy məclislərində gəlin qız oynayan zaman, qohumları tərəfindən onun başından bolluq-bərəkət əlaməti təki səpilən xırda təzə qəpik-quruşa verilən ad. ◆ Yerə düş-

Azərbaycan Milli Kitabxanası

müş bu pulları uşaqlar və yaşlılar qaldırıb təbərrük təki (guya xoşbəxtlik, uğur gətirən müqəddəs və ya az tapılan, az ələ düşən şeydir - *Red.*) saxlayırlar. ◆ Yurdumuzun bəzi yerlərində ona *"gəlinpulu"* da deyirlər.

## UĞURSUYU

◆ Ötən çağların adətincə, **qız toyu** [178] şənliklərinin üçüncü - **gəlinapardı toyu** [98] günü gəlin qızın dədəsi evində doldurulub ev avadanlığı və əşyalarla birlikdə **ər evinə** [89] çatdırılan bir səhəng içməli suyun adı. ◆ Elə həmin **toy** [269] günü qız anasının, gəlinin yolu işıqlı olsun deyə, oğlan evinə üz tutmuş gəlin köçünün ardınca atdığı su da bu adı daşıyır.

**272.**

## ULU TOY

◆ Bir zamanlar oğlan evində yalnız kişilərin iştirakı ilə keçirilən *"kişi toyu"*, *"ağır toy"*, *"böyük düyün"* mərasimi mənalarında işlənən deyim. ◆ IX-XI yüzillərin yazılı ədəbi abidəsi "Kitabi Dədə Qorqud" dastanlarında da bu deyimə tez-tez təsadüf olunur.

**273.**

## UNLAMA

◆ **Qız evində** [178] çaldırılan **gəlinapardı toyu**ndakı [98] **belbağlama** [32] ayini zamanı gəlin qızın belini qurşaqlayan şəxsin üstünü buğda ununa bulayıb ağartması. ◆ Burada qız evinin qadınları (xüsusən **subay** [241] qızlardan biri) gəlinin belini sarımış belbağlayana, ağ gün və firavan həyat arzulamaq niyyətilə, onun üst-başına un səpə-səpə: *"qızın bəxti ağ olsun, qohumları sağ olsun"* və ya: *"həmişə ağ gün içində varasan, ağ çörəkli olasan"* - deyirlər. ◆ Bu çox qədim tarixə malik adət əcdadımız Oğuz türklərində **elçilər** [81] qızgilə gəldiyi zaman qapı ağzında onların üzərinə un səpmək və alınlarına unla ağ zolaqlar çəkməkdə özünü göstərmişdir. Maldarlar isə un əvəzinə süd və ya ayran çiləyirdilər. ◆ Sonralar gəlin qız **ər evinə** [89] qədəm basdıqda, **qayınana** [168] onun alnına un çəkmiş, evlənənlərin başına isə unla qarışıq təzə qəpik-quruş səpilmişdir. Bu da, xalq inamına görə, cavanlara bolluq, var-dövlət, asudə həyat, ailə münasibətlərində düzlük, təmizlik və xoşbəxtlik diləmək arzusu ilə bağlıdır. ◆ Əslinə qalsa, əski günsevərlik inamında un və süd *"saf işıq, ağ gün, ulu Günəşin pak nurunu"* təmsil edən müqəddəs ağ-bəyaz rəngə tapınmaya söykənir. Bu əski adətə *"ağartma"* da deyilir.

**274.**

## URBAAÇMA

[ *qədim türklərdə "urbaq", "opraq" sözləri "pal-paltar", "geyilmiş paltar" demək idi* ] ◆ Ötən çağlarda **gəlinapardı toyu** [98] günü gündüz, gəlin qızın paltarları, ev libası və bəzəklərinin

Azərbaycan Milli Kitabxanası

qohum-qonşuya nümayişi. ◆ Bundan ötrü toya dəvət edilmiş qadınlar bir otaqda qızı araya alıb bir-bir onun geyimlərilə tanış olurlar. ◆ Adət Gürcüstanda yaşayan soydaşlarımız üçün daha səciyyəvidir. Burada qonaqların **qız evinə** [178] **şirniklik** [259] pulu verməsi *"urbaya qatılma"* adı daşıyır.

## URBABİÇMƏ

◆ Əski yazı mətnlərində təsadüf olunub ulu əcdadımız Oğuz türklərində, bir qayda olaraq, üç gün davam etmiş **qız toyu**nun [178] birinci mərasimi günü qızın dədəsi evində oğlan və qız tərəfi qadınlarının birlikdə keçirdikləri **paltarkəsdi toyu** [215] məclisinin ən qədim adı. ◆ Bu mərasimə bəzən *"urbakəsdi"* və *"doqquz toyu"* da demişlər.

## URBAGƏTİRMƏ

◆ Uzaq keçmişdə yalnız qadınların iştirakı ilə keçirilən kiçik nişan - **üzükşal toyu** [282] mərasimindən bir müddət sonra **oğlan evi**nin [208] **nişanlı** [205] qız üçün parça-paltar aparması münasibətilə qızgildə çağırılan **paltaraparma** [215] məclisinin əski adlarından biri. ◆ Onun *"urbagötürdü"* deyiliş tərzi də olmuşdur.

**275.**

*"Oturun qızlar, oturun, evdən xəbər gətirin"*
(toy oxumasından)

## ● ÜÇGÜNLÜK

◆ Masallı, Lənkəran və Sabirabad bölgələrində **gəlingətirdi toyu**ndan [98] üç gün sonra çağırılan **üzəçıxdı toyu**na [278] verilən ad. ◆ Bu gün təzəgəlinin doğma bacıları və **bacılığı** [22] onun yanına gəlib üçüncü günün **anapayısını** [10] və dədəsi evində ayaqqabıdan başqa nə qalıbsa, hamısını yığıb ona gətirirlər. Təzəgəlinlə hal-əhval tutub onun anasına xəbər aparırlar. ◆ Qubada bunu *"gəlinin üçgünlüyü"* adlandırırlar.

## ÜÇ ÖPÜB BİR DİŞLƏMƏ

◆ Ulu babalarımız Oğuz türklərində **nişan** [205] zamanı icra olunan bir ayinin adı. ◆ Əski adət-ənənəyə görə, burada nişanlanmış qız və oğlan üç dəfə bir-birini öpür, qulaqlarının aşağı, ətli hissəsi - *"mərcək"*dən dişləyir, sonra isə qızın qulağı deşilir və oraya çöp keçirilirdi. ◆ Həmin ayinə ulu "Kitabi Dədə Qorqud" dastanlarında da rast gəlmək olar. ◆ Ona, həmçinin *"üç öpüş-bir dişlək"*, *"qulaqdişləmə // mərcəkdişlədi"* də demişlər.

**276.**

## ● ÜRƏFA TOYU

[ *"ariflər, aqillər toyu" deməkdir* ] ◆ Ötən yüzilin əvvəllərində yurdumuzun şəhərlərində çaldırılan bir **toy** [269] növü. ◆ Bu məclisə ancaq el-oba içində böyük şöhrət tapmış, adlı-sanlı çalğıçı və xanəndələr dəvət edilir, burada yalnız ciddi musiqi - iri muğam dəsgahları ifa olunurdu. ◆ Vaxtilə bu növ toylar *"yekəl axşamı"* adı ilə də çağırılırdı.

Azərbaycan Milli Kitabxanası

**277.**

## ÜSKÜK

[ *"iynə batmamaq üçün barmağa taxılan oymaq" mənasındadır* ] ◆ **Qız toyunun** [178] ikinci şənliyi **xınayaxdı toyu** [135] mərasimində **oğlan evindən** [208] gətirilmiş **xına** [135] ilə bəzi qonaqların yalnız barmaq uclarının boyanması tərzinə verilən ad. **Oğlan qonaqlığı** [208] zamanı cavanların çeçələ barmaqlarını qız evindən gətirilmiş xınaya bulaması da bu adı daşıyır. ◆ Onun başqa adları *"oymaq"* və *"fındıqça xına"*dır.

**278.**

## ÜZAÇDI

◆ Qəbələ bölgəsində toydan üç-dörd gün sonra **təzəgəlinin** [267] *"pərdeyi-ismətdən"* çıxması və oğlanın yaxın qadın qohumları ilə görüşü münasibətilə **oğlan evində** [208] yaşlı və ağbirçək qadınların iştirakı ilə çağırılan **üzəçıxdı toyuna** [278] verilən adlardan biri. ◆ Başqa yerlərdə ona *"üzgördü // üzəçıxardı // üzgörüşü"* deyirlər.

*"Üzün ağ olsun gəlin, yengən sağ olsun gəlin"*
(toy oxumasından)

## ÜZAĞLIĞI

[ *"fəxr etməyə layiq, təmiz vicdanlı" mənasındadır* ] ◆ **Gəlingətirdi toyunun** [98] ertəsi günü **qız yengəsinin** [178] təzə gəlinin dədəsi evinə yollanıb, onun ata-anasına qızlarının *"üzağlığı"*nın şahidi olduğunu xəbər verməsinin və bu zaman, adət üzrə, qız anasının yengəyə verdiyi **xələtin** [132] adı. ◆ Ona *"üzüağlıq // üzağlığı müjdəsi"* də deyirlər.

## ÜZALAN

◆ Qız evindəki **toy** [269] mərasimindən sonra ər evinə varacaq gəlin qızın üz-gözünü müvafiq görkəmə salmaq üçün, bir qayda olaraq, **qız toyuna** [178] dəvət edilmiş peşəkar usta bəzəkçi qadın **məşşatəyə** [192] verilən adlardan biri. ◆ Əski yazılarda o, adətən, *"bəndəndaz"* və *"cöhrəpira"* da adlandırılır.

## ÜZALMA // ÜZYAZMA

◆ Toy günü qız evində keçirilən **gəlinbəzəmə** [98] mərasimi zamanı **saçkəsdidən** [224] sonra, ərə verilən qızın ömründə birinci dəfə qaş-göz və ağız-burununun boyalanıb bəzənməsi işi. ◆ Burada ilk əvvəl qızın saçını kəsib cavan ərli gadınlara məxsus saç şəklində daradıqdan sonra, bəzəkçi qadın - **məşşatə** [192], yaxud **qız yengəsi** [178] onun qabaq-qənşərində əyləşir. Əlini nəlbəkidəki soyuq suya batırıb gəlinin alnına sürtərək, ona: *"ayağın düşərli olsun, qədəmin yarısın, qəşəng günə çıxasan, oğullu-qızlı olasan, inşallah"* - və s. deyə-deyə, qızın alnında, qaşlarında və üst dodağı üstündə bitən artıq tükləri maqqaşla dartıb çıxarır (bəzən bunu o, iti bıçaqla eləyir). Sifətindəki xırda tükləri isə ipək və ya keçi sapını ilmələyərək yolub təmizləyir. İki-üç tük yolduqdan sonra, adət üzrə, qızın alnına bir qızıl pul yapışdırılır. ◆ Əski qaydaya görə, üzündə anadangəlmə xalı olmayan qız bu dəmdə hökmən sifətində süni,

Azərbaycan Milli Kitabxanası

*"qoyma xal"* döydürməliydi. İnanırdılar ki, xallı qız daha xoşbəxt olur. ◆ Sonra qızın yanaqlarına *"düməşir"* və **həftrəng** [118] deyilən yeddi cür kosmetik maddə sürtülür. Qaşların altına *"qəleyi-kirşan"* (xalq arasında ona *"qaşdaşı"* deyilir), yanaqlarına isə al boya - *"ənlik"* çəkilir. Ardınca fındığı, yaxud qozu yandırıb onun qarasını və ya qara boya *"vəsmə"*ni (ona *"qaşqarası"* da deyilir) qızın qaşlarına çəkməklə, onu çatmaqaş edir və gözləri nurlu olsun deyə, gözlərinin haşiyəsinə *"sürmə"* (rastıq) yaxırlar. ◆ Bunun dalınca, qızın sifətinə ağ-sarı pərəklər yapışdırılır. Sonra gəlin qızın geyinib boyun-boğazının süslənməsi işinə başlayırlar. ◆ Bəzi yerlərdə bu vacib "əməliyyat" **gəlinlik hamamında** [98] keçirilir. ◆ Xalq arasında ona həmçinin *"gəlin üzü yazma"*, *"əl-ayaq qayırma"*, *"qaşalma // qaşaldırma"*, *"qabaqlama"*, *"yazma"* da deyirlər.

## ÜZDUVAX

[ *"üz duvağı" deməkdir* ] ◆ Zaqatala və Qax bölgələrinin qaydasına görə, **oğlan toyu**nun [208] ikinci günü çağırılan kiçik bir məclis - **paça günündə** [214] bişirilib qonaqlara verilən xüsusi yeməyin adı. **Gəlingətirdi toyu**nun [98] sabahı təzəgəlinin başına salınan ayrıca bir **duvaq** [72] da belə adlanır.

*"Gəlin çıxdı hasardan, qurtardıq intizardan"*
(atalar sözü)

## ÜZƏÇIXDI TOYU (XII)

◆ Bir vaxtlar üç gün, üç gecə davam edən **oğlan toyu**nun [208] axırıncı günü və yekunu sayılıb **nikahı** [203] tamamlayan mərasim. Sonralar **gəlingətirdi toyu**ndan [98] 3-4 gün keçdikdə, bizim günlər isə elə toyun sabahı **təzəbəy və təzəgəlin**in [267] oğlangilin yaxın qohumları ilə görüşü münasibətilə çağırılan böyük məclisin adı. ◆ Dədə-baba adətincə, istər bəy, istər gəlin toydan sonra bir neçə gün (bəzi yerlərdə 7, digərlərində isə 10-15 gün) bəy oğlanın ən yaxın qohum-qardaşından belə "qaçıb-gizlənməli" - onların gözünə görünməməliydilər. Bu da el arasında **pərdədəoturma** [216] və ya *"pərdeyi-ismətdə qalmaq"* adlanır. ◆ Beləliklə, **gərdək gecəsi**ndən [100] sonra təzəgəlin öz otağında qapanıb yaşınaraq, **oğlan yengəsi** [208] və oğlan evinin kiçik bir qız uşağından başqa, ərinin digər qohumları ilə təmasda olmamağa, heç kimlə danışmamağa çalışır. Bu da ötən çağların ədəb-əxlaq qayda-qanununa görə, gəlinin tərbiyəli, abır-həyalı olduğuna dəlalət edir... ◆ Bələdçinin *"qırmızı"* bölməsində [səh.219] milli toy ənənəmizin **üzəçıxdı toyu [XII]** haqqında daha ətraflı yazılır.

*"O gözəl camalını bizdən gizlətmə, gəlin"*
(toy oxumasından)

## ÜZGÖRMƏ // ÜZGÖRÜMÜ

◆ Yurdumuzun bəzi yerlərində, bir adət olaraq, toy məclislərinin sonunda baş verən bəy oğlanla gəlin qızın görüşü - **gərdək gecəsinə** [100] verilən ad. ◆ Gürcüstanda yaşayan soydaşlarımızda oğlanın ata-anasının toya qədər **gəlin qızı** [98] görmək üçün hər cümə axşamı **qız evinə** [178] yollanması adəti də bu adı daşıyır. ◆ Onun başqa adları *"üzaçdı // üzaçar // üzgörməsi // üzgörümü gecəsi"*dir.

## ÜZGÖRÜMLÜK // ÜZGÖRÜMCƏYİ

◆ **Oğlan evindəki** [208] **gəlingətirdi** [98] toy şənliyinin axırı - **gərdək gecəsində** [100] bəy oğlanın gəlin qıza bağışladığı qiymətli hədiyyə - qızıl saat, sırğa, qolbağ və s. zi-

Azərbaycan Milli Kitabxanası

nət əşyasının adı. ◆ Bir para yerlərin adətincə, toyun sabahı və ya 3-4 gün sonra təzəgəlinin başına toplaşan cavan gəlin və subay qızların keçirdiyi **xoşgəldin** [139] və **duvaqqapdı** [72] ayinləri zamanı məclisdəkilərin təzəgəlinə verdikləri hədiyyələr də belə adlanır. Bu hədiyyənin başqa adları *"görümlük"*, *"üzgöyçəkliyi // üzgörümlüyü // üzgörümpulu // üzgörümçə"*, *"runəma"* və *"cilvə"*dir.

## ÜZYAZISI

[ *"sifətə lazımi surət vermək" mənasındadır* ] ◆ Bir para bölgələrimizin dilində **gəlinapardı toyu** [98] günü bəzəkçi qadın usta **məşşatənin** [192] gəlin qızın üzərində apardığı qaşalma, xal döydürmə, bir para kosmetik vasitələrin yaxılması, saç-birçəyin ərli cavan qadınlara məxsus biçimdə daranması və digər *"çöhrəbəzəmə"* işlərinin ümumi adı.

**279.**

## ÜZƏNƏKÇİ

[ *"ayrıca qayğı tələb edən adam" deməkdir* ] ◆ Bəzi bölgələrin qaydasına görə, **gəlingətirdi toyu** [98] günü günorta çağı **oğlan evinə** [208] qızgildən gəlmiş üç kişiyə verilən ad. Bu qonaqlar qız tərəfin səlahiyyətli nümayəndələri tək, əllərində xüsusi nişan tutur. Bir neçə **oğlan adamı** [208] bu şəxslərin ayrıca xidmətində durmalı, onların bütün sifariş və şıltaqlıqlarını sözsüz yerinə yetirməlidir. Əks halda, **gəlin qız** [178] aparılarkən onlar qızın oturduğu otağın qapısı ağzını kəsib iki dəfə artıq **nəmər** [201] almaqla əvəzini çıxa bilərlər. ◆ Digər bölgələrdə bunlara *"ərköyün qonaq"*, *"məqər"* deyirlər.

**280.**

## ÜZƏNGİÇİ

◆ Oğlan evinə tərəf üz tutmuş **toy alayı** [269] iştirakçıları arasında gəlin qızın ağ at belində, çətir altında getdiyi zaman, yolboyu onun sağ və sol tərəfində yeriyərək, qızın ayaqlarını yəhərin iki yanından asılan üzəngilərdə saxlayan bəyin ən etibarlı və yaxın iki dostuna verilən ad. **Ər evinə** [89] çatmış gəlin atdan düşdükdə, at üzərindəki yəhər boş qalmasın deyə, üzəngilər, adət üzrə, qaldırılıb yəhər üstə qoyulur.

**281.**

## ÜZƏRLİK

*"Üzərliksən havasan, çox dərdlərə davasan"*
(toy oxumasından)

◆ Bədxah qüvvələri qovub dəf etmək üçün bir çox toy tədbirlərində (**bəylik** və **gəlinlik hamam**larında [36], [98], evdə-eşikdə) toxumu, yarpağı və ya quru gövdəsi manqalda yandırılan xüsusi otun adı. Qaydaya görə, manqalda bu otun qırx toxumu yandırılır və bu vaxt qızlar cərgəyə düzülüb manqal ətrafında oxuyub-oynayaraq, manqaldan qalxan tüstünü donlarının ətəklərilə gəlin qız və bəy oğlan üzərinə yellədib onları xətər yetirə biləcək pisniyyətli gözlərdən yayındırırlar. ◆ Əski yazılarda bu otu çox vaxt *"ispənd // isfənd"* adlandırırlar. *"Üzərrik"*, *"üzərik"* deyiliş şəkilləri də var.

Azərbaycan Milli Kitabxanası

282.

"Üzüyün qaşı gözəl, yaqutdu daşı, gözəl"
(toy oxumasından)

## ÜZÜK

◆ Əslində qızıldan hazırlanıb qadınların bəzək kimi istifadə etdikləri, toy-nişan tədbirlərində isə təntənəli şəkildə "evlilik nişanı tək" **ərə** [89] verilən qızın barmağına taxılan halqanın adı. Xüsusi hazırlanmış kiçik qutu - üzükqabıda yerləşdirilən bu halqa brilyant, zümrüd, yaqut və digər daş-qaşla da bəzənilə bilər. Bir para yerlərdə ona *"barmaqlıq"*, *"əngiştənə // əşgənə"* də deyilir.

"Üzük ismətdi, nişan qismət"
(atalar sözü)

## ÜZÜKAPARDI

◆ Qız evilə nikaha razılıq əldə edildikdən sonra oğlan tərəfin qızgilə **həri üzüyü** [119] ilə yanaşı, saçaqlı ipək örpək - **şal** [249] və şirni aparması adətinə bəzi bölgələrdə verilən ad. Burada qızın artıq üzərinə "ad qoyulub" nişanlı olduğunu bir daha təsdiqləmək üçün onun barmağına halqa-üzük taxaraq rəmzi şəkildə, sanki zəncirin bir hissəciyi sayılan bu halqa ilə cavanları bir-birinə *"zəncirləyirlər"*. Mərasim, adət üzrə toya bir il, bir ay, yaxud bir gün qalmış da icra oluna bilər. Bu ad əslində kiçik nişan **üzükşal toyu** [282], həmçinin böyük **nişantaxtı toyu** [205] mərasimlərinin başqa adı olsa da, onun *"üzükgətirmə // üzüktaxdı"* (Qubadlı, Zəngilan), *"deyikləmə"* (Qazax, Ağstafa), *"nişanlama"*, *"əlbasdı // eləfdi"* (Sabirabad) adları da bəllidir.

## ÜZÜK XONÇASI

◆ Böyük **nişantaxdı toyu** [205] mərasimində qızgilə aparılan xonçalar arasında içində saçaqlı baş yaylığı - **şal** [249] və **nişan üzüyü** - yerləşdirilmiş **nişan xonçasının** [205] başqa adı. Oğlanın əmisi, yaxud doğma dayısının apardığı bu xonçaya, şal və üzüklə yanaşı noğul-nabat da səpilir. Bu xonça indiki Abşeron toyları üçün daha səciyyəvidir. Lənkəranda isə nişan üzüyünü həmin **xonça**ya [138] qoyulmuş bir balığın ağzına keçirirlər. Bu da bərəkət, uğurlu **nikah** [203], uzunömürlülük arzusu ilə bağlıdır. Xonçanın bir başqa adı *"nişanbaxtı"*dır.

## ÜZÜKQABI

◆ Abşeronun kəndlərində böyük **nişantaxtı toyu** [205] mərasimindən bir müddət sonra "üzük qabları", yəni bir neçə gün əvvəl oğlangildən ərə veriləcək qıza gətirilmiş **nişan xonçalarının** [205] (bəzi yerlərdə onlara *"nişanbaxtı"* deyirlər) qaytarılması münasibətilə oğlan evində hər iki tərəfin qadınlarının iştirakı ilə keçirilən **vəzourt** [287] məclisinin adlarından biri.

"Gün o gün olsun nişan gününü görək"
(el xeyir-duası)

## ÜZÜKŞAL TOYU (V)

◆ Qız evində çağırılan **hərialdı** [119] rəsmi böyük **kişi elçiliyindən** [151] bir ay sonra hər iki tərəfin qadınlarının yenə qız evində keçirdiyi birinci, yaxud **kiçik nişan** [150] mərasiminin adı. ◆ Bu tədbirə hər iki evdən 5-6 yaxın qohum - oğlan və qızın anaları, bacıları, xalaları, bibiləri, eləcə də xala və əmi qızları yığışır. ◆ Adətən, oğlan



Azərbaycan Milli Kitabxanası

evi bu mərasimdən ötrü 2-3 kəlləqənd, bir qədər çay və noğul-nabat alır. Qəndlərin başına al qırmızı yaylıq bağlayırlar. Gündüz-günorta çağı **oğlan evi**nin [208] qadınları oğlangildə yığışır, bu **şirni**ni [259] ortalığa qoyub başına dolanaraq bir qədər çalıb oynayırlar. Sonra 2-3 nəfər kişi həmin şirnini zənbilə yığıb qız evinə yollanır. Qadınlar isə qızgilə bunun ardınca, az sonra, 2-3 xonça ilə gəlirlər. ◆ Qızgildə oğlan adamları üçün süfrə açılır, çay verilir. Biri qız, biri oğlan evindən iki ağsaqqal və ya **xəlfə** [133] evin ortasındakı süfrə üstündə **qəndqırma** [175] ilə məşğul olurlar. Doğranmış qəndi noğul-nabata qarışdıraraq nəlbəki və boşqablara yığıb, siniyə düzüb qonşu otaqda əyləşmiş qadınlara göndərirlər... ◆ Bələdçinin *"qırmızı"* bölməsində [səh. 97] milli toy ənənəmizin **üzükşal toyu** [V] mərhələsi haqqında daha ətraflı yazılır.

## ÜZÜK-ÜZÜK

◆ Əsas etibarilə **oğlan toyu**nun [208] birinci - **ixtilat toyu** [141] məclisindəki **oğlan qonaqlığı** [208] zamanı və toy mərasiminin sonunda **subay** [241] cavanların oynadığı, bürünc, yaxud mis bir halqanın sinidə üzüqoylu düzülmüş fincanların birinin altında gizlədilib-tapılmasından ibarət olan bir oyunun adı. ◆ Bu oyun *"üzükgizlətdi // üzük oyunu"*, *"gül oyunu"*, *"fincan-fincan"* (Abşeron) adı altında da tanınır.

**283.**

## VAĞZALI

◆ Yurdumuzun toy-nişan tədbirlərində dönə-dönə səslənən ənənəvi bir rəqs havasının adı. ◆ El-obada bu vaxta qədər elə bir **toy** [269] vurdurulmayıb ki, orada bu hava səslənməsin. Bu musiqi ilə toy başlanır, onunla da başa çatdırılır. Başqa sözlə desək, bu hava milli *"Azərbaycan toyu"*nun təntənəli üvertürası, musiqi emblemidir. Onun musiqisinin əsasını bir vaxtlar toyun sonunda bəylə gəlinin oynadığı *"Qarabağ ağırı"* adlı qədim bir oyun havası təşkil edir.

**284.**

## VARAŞUET

◆ Gəlin köçən qızın boşanması halında ərindən alacağı kəbinpulunun - **mehir**in [189] adı. ◆ İsmayıllı bölgəsinin **toy** [269] adət-ənənələri üçün səciyyəvidir. Miqdarı elçilik vaxtı, yaxud **kəbinkəsdi** [143] mərasimi zamanı oğlan evinin maddi vəziyyətindən asılı olaraq müəyyən edilir.

**285.**

*"Qardaş bir qız seçibdi, kimdi onun vəkili"*
(toy oxumasından)

## VƏKİL

◆ Oğlanla qızın evlənməsini rəsmi şəkilə salan **kəbinkəsdi** [143] mərasimində həm oğlan, həm qız evi tərəfindən molla yanına göndərilən, burada oğlanla qızın nikaha razı olduqlarını təsdiq edən iki şəxsə verilən ad. ◆ Bəzi yerlərdə böyük kişi elçiliyi

Azərbaycan Milli Kitabxanası

# • XII • ÜZƏÇIXDI TOYU

**278.**

◆ *Bir vaxtlar üç gün, üç gecə davam edən **oğlan toyu**nun [208] axırıncı günü və yekunu sayılıb **nikahı** [203] tamamlayan mərasimin, sonralar **gəlingətirdi toyu**ndan [98] 3-4 gün keçdikdə, bizim günlər isə elə toyun sabahı **təzəbəy** [267] və **təzəgəlin**in [267] oğlangilin yaxın qohumları ilə görüşü münasibətilə çağırılan böyük məclisin adı.* ◆ *Dədə-baba adətincə, istər bəy, istər gəlin toydan sonra bir neçə gün (bəzi yerlərdə 7, digərlərində isə 10-15 gün) hamıdan, hətta bəyin ən yaxın qohum-qardaşından "qaçıb-gizlənməli", onların gözünə görünməməliydilər. Bu da el arasında **pərdədəoturma** [216] və ya "pərdeyi-ismətdə qalmaq" adlanır.* ◆ *Beləliklə, **gərdək gecəsi**ndən [100] sonra təzəgəlin öz otağında qapanıb yaşınaraq, **oğlan yengəsi** [208] (qayda üzrə o, hər gün gəlinin qucağına kiçik bir oğlan uşağı atıb-götürməliydi) və oğlan evinin kiçik bir qız uşağından başqa, **ərinin** [89] digər qohumları ilə heç bir vəchlə təmasda olmamağa, heç kimlə danışmamağa çalışır. Bu da ötən çağların ədəb-əxlaq qayda-qanununa görə, gəlinin hədsiz dərəcədə tərbiyəli, abır-həyalı olduğuna dəlalət edirdi.* ◆ *Təzəbəy isə toy gününün sabahı, bir para yerlərin adətincə, həyətdə, gəlinin pəncərəsi önündə, oğlanın **sağdış-soldışı** [225] tərəfindən kəndirlə bir yerə bağlanıb zarafatyana "döyülür". Təzəgəlin bəyi xilas etmək üçün sağdış-soldışa müəyyən miqdar nəmər-pul vəd edib ərini bu "əzablar"dan qurtarır. Bundan sonra təzəbəy üç gün (bəzən isə daha çox) səhər tezdən sağdış-soldışı ilə atası evini və təzəgəlini tərk edir və necə deyərlər, "yaza çıxan dana kimi", xəlvəti yerlərə - kəndin-şəhərin ətrafına, qaya-dağ başına çəkilir, axar suları və çəməni olan gözəl mənzərələri, bağ-bağçaları seyr edir. Buna da xalq içində **kürəkənküsdü** [153] deyirlər.* ◆ *Beləliklə, təzəbəy bir gün sağdışın, o biri gün soldışın evində onun şərəfinə verilən ziyafətlərdə yeyib-içməklə vaxt keçirir, gününü axşam eyləyib hava qaraldıqda yenə sağdış-soldışın müşayiətilə, əlində gəlin üçün aldırdığı çərəz, gizli yollarla atası evinə, təzəgəlinin yanına qayıdır və bütün gecəni onun yanında qalır. Səhər isə yenə sağdış-soldışı ilə dağı-daşı gəzməyə yollanır.* ◆ *Bəzi yerlərdə isə təzəbəy evinə heç qayıtmayıb üç gün, üç gecə sağdışı ilə birlikdə başqa bir evdə gecələyir.* ◆ *Bir sözlə, toydan sonra çağırılan bu mərasimdə, bəzi yerlərin qaydasınca, təzəbəy ilə təzəgəlin eyni zamanda - qadınlar və kişilər ayrı-ayrı otaqlarda əyləşərək, digər bölgələrdə isə, onlar bir-birilə üzləşməsin deyə, təzəgəlin - gündüz vaxtı qadınların qonaqlığında, təzəbəy isə axşamçağı kişilərin məclisində "üzə çıxıb" qohumlarla görüşürlər.* ◆ *Əski el adətinə görə, qadınların toplandığı məclislərə sonsuz qadın, qırxı çıxmamış zahı və yaslı qadınlar əsla dəvət edilmir, onların bu tədbirdə iştirakına hər cür mane olunur.* ◆ *Bir para yerlərdə isə, bu görüşlər bir-birindən ayrılaraq bir silsilə qonaqlıqlar, məsələn: **həftə hamamı** [117], **ayağaçdı** [19] qonaqlığı və bu kimi məclislərlə üst-üstə düşüb başqa-başqa günlərdə, ayrı-ayrı adlar altında icra olunmaqdadırlar. Təbii ki, burada mərasim tədricən öz erkən məqsəd və məzmunundan yayınaraq, keçirilmə tərzinə görə də müxtəlifləşmişdir.* ◆ *Ötən çağlar oğlan evinin yaşlı və ağbirçək qadınlarının iştirakı ilə çağırılan bu mərasimdə yemək-içməkdən əvvəl oğlan yengəsi ilə məclisə gətirilən təzəgəlinin əynində al qırmızı **gəlinlik paltarı** [98], ağzında*

Azərbaycan Milli Kitabxanası

***yaşmaq*** *[291], başında çadra və ya* ***duvaq*** *[72] əlində isə aftafa-ləyən və dəsmal olardı. Otağa daxil olub başı ilə məclisdəkilərə salam verdikdən sonra, hər qonağın qarşısında sağ dizi üstə əyləşib "bismillah" deyər, qonağın əlinə su (xalq arasında buna "əlsuyu" demişlər) tökərdi. Qonaq, əllərini yuya-yuya gəlinə: "a gülüm, maşallah, maşallah, a bala, bərəkallah"- deyər, gəlindən dəsmalı alıb əllərini silərdi. ◆ Başqa yerlərin adətincə, təzəgəlin məclisə qədəm basan zaman əlini içi pulla, yaxud düyü və ya unla dolu xurcun və ya torbaya salmalıdır ki, bu da, inama görə, ailəyə xoşbəxtlik və firavanlıq gətirməlidir. ◆ Digər yerlərdə isə, təzəgəlin ədəblə* ***qayınana****nın [168] əlini öpdükdən sonra təkcə onun əlinə su tökür, o isə: "qızım, qədəmin yarısın, ayağın şükümlü olsun" - və s. deyərək, ona pul və ya qızıl bir zinət bağışlayıb alnından öpür. ◆ Bəzi bölgələrdə təzəgəlin su əvəzinə qayınana və qonaqlara gülab paylayır. Hər gülab alan onu üz-gözünə sürtüb salavat çevirir, sonra gəlinə: "ulduzunuz barışsın, oğullu-qızlı olasınız, qoşa qarıyasınız" və bu kimi xoş arzular söyləyir. ◆ Başqa yerlərin qaydasınca, təzəgəlin ərinin qohumlarına süfrə ortasına qoyulmuş teştdən taxta qaşıqla "****ovşala****" [211] - şərbət və gülab payladığdan sonra keçib bir tərəfdə ayaq üstə dayanır. Bunu görən bəyin anası ona süfrə başında əyləşmək üçün yer göstərir. ◆ Öz yerinə oturan təzəgəlinin üzərində icra olunan* ***duvaqqapdı*** *[72] ayini ilə rəsmi olaraq duvaq həmişəlik onun başından götürülür. Ardınca, çay süfrəsi salınır və onun ortasına bir boş sini və ya məcməyi qoyulur və hər kəs bu görüşə təzəgəlin üçün gətirdiyi hədiyyəni - üzük, sırğa, şal və s. qoyur. Adətən, bu vaxt bəyin anası pərt olub utana-utana: "a balam, mən sizi bu şeylərə görə çağırmamışdım ki..." - deyir və sonra: "gün o gün olsun, sizin oğul-qızınız üçün olsun, mən də sizin xəcalətinizdən çıxım, inşallah" - və bu kimi sözlərlə dil-ağız edir. ◆ Çay içildikdən sonra süfrədəki sini götürülür. Bir az söhbətləşdikdən sonra, qonaqlar təzəgəlinə və təzəbəyə müraciətlə: "Allah başa versin, xoşbəxt olasan, qədəmin mübarək olsun" və s. xeyir-dualar verərək, qalxıb evlərinə gedirlər. ◆ Digər bölgələrin adətincə isə, bu mərasimdə təzəgəlini müəyyən bir "sınaq" gözləyir. Başında duvaq, əlində təzə bardaq olan gəlin, ilk öncə,* ***ər evi****nin [89] həyət-bacası ilə tanış edilir. O, oğlan yengəsi ilə birlikdə ən əvvəl su quyusuna yaxınlaşıb əlindəki bardağı su ilə doldurur. Sonra bu evin çörəyi isti, suyu sərin olsun deyə, təndir və quyu üstünə iynə, pul qoyur, ardınca həyəti süpürüb bir para təmizlik işləri görür. Bəzən isə oğlan evi qadınları qabaqcadan həyətə və gəlinin keçəcəyi yola müxtəlif əşyalar, məsələn: süpürgə, ağac qırığı, daş-kəsək və s. atıb hədsiz maraqla gəlinin belə hallarda necə hərəkət edəcəyini gözləyirlər. Belə olduqda, gəlin ətrafdakıların: "ay bərəkallah, ay maşallah" - sözlərinin müşayiətilə həmin əşyaları qaldıraraq yığır, sonra əlindəki bardağın suyunu yerə süzə-süzə gətirib evin qabağına qoyur və: "ya əziz Allah" - sözlərilə bardaqdan qayınananın əlinə su tökür, o isə əvəzində gəlinin alnından öpür. ◆ Sonralar mərasim get-gedə ailə çərçivəsindən kənara çıxmayan bir məclisə çevrildi. Burada təzəbəyin anası bütün ailə üzvlərini və ən yaxın ev adamlarını süfrə başına çağırdıqda, təzəgəlindən başqa hamı gəlib öz yerində əyləşir. Bəyin anası bir daha gəlini adı ilə səsləyir və sonra özü gedib təzəgəlini otağından çıxarıb məclisə gətirir. Ardınca o, gəlinə qiymətli bir hədiyyə bağışlayıb, onun bu ailənin ən əziz üzvü olduğunu bildirir və süfrə başında oturmağı təklif edir. ◆ Bundan sonra təzəgəlin dədəsi evindən gətirdiyi* ***gəlinpayı****larını [98] qayınata-qayınana, qayın və baldızlarına paylayır. Xörək ardınca süfrəyə gəlinin dədəsi evində bişirilib gətirilmiş "həlviyyat" - halva, şəkərbura, paxlava*

Azərbaycan Milli Kitabxanası

*və s. düzülür. Məclisdəki qonaqlar yeyib-içdikdən sonra: "ocağınız mehirli, süfrəniz varlı-nemətli olsun, mehribançılıq, ülfət bürüsün ev-eşiyinizi, gün-güzəranları ağ olsun, kefdamaqları çağ olsun, inşallah" - və bu kimi xoş arzular deyib evlərinə gedirlər. Bu gündən təzəgəlin artıq başına duvaq salmır, gəlinlik paltarını çıxarıb onu duvaqla birlikdə büküb həmişəlik sandığa basır və əl-qol açıb ev paltarında, sərbəst şəkildə ev-eşikdə dolanır və s.* ◆ *Bir para yerlərin qaydasına görə, elə həmin gün, bəzən isə bir başqa günün axşamı təzəbəyin yaxın kişi qohum-qardaşı və dost-tanışı oğlan evinə yığışır (bu məclisə adətən* ***bəy qonaqlığı // bəygörümcəyi*** [36] *də deyilir). Bir erkək kəsilir, yemək bişirilir. Məclisə gələnlər ağsaqqalların şirin və maraqlı söhbətlərini dinləsələr də, intizarla təzəbəyin gəlişini gözləyir, "bunun gəlməyi lap xangəldiyə döndü" - deyib, gileylənirlər.* ◆ *Ötən çağlar bəzi bölgələrimizdə bu gün təzəbəy sağdış-soldışla yenə təbiət qoynuna, dağa-daşa çəkilib gizlənirdi. Qohum-qardaş hər yeri ələk-vələk eyləyib onu axtarır və nəhayət, tapıb təntənə ilə evinə gətirirdi.* ◆ *Bir sözlə, təzəbəy kefi kök, damağı çağ, sağdış-soldışı yanında məclisə daxil olub başı ilə qonaqları salamlayaraq hamıya: "xoş gəldiniz" - deyir və sonra bir əli döşündə, bir əlində gülabzən, ilk öncə atasına yaxınlaşıb onun əlini öpüb gülab verir. Atası isə onu qucaqlayıb: "Allah xoşbəxt eyləsin, Allah heç vaxt səni evindən ayırmasın, həmişə ağ gün içində olasan, inşallah" - deyir. Ardınca təzəbəy bir-bir qonaqların əlinə gülab tökür, onlar da bəyə: "ağ günə çıxasan, ayağın yüngül, günün xoş olsun, oğul-uşaq sahibi olasan" - deyərək, onunla görüşüb öpüşürlər. Sonra bəy sağdış-soldışı ilə məclisi tərk edir, bəzən isə onu məcburən süfrə başında oturdurlar.* ◆ *Dalınca, ortalığa gəlinin dədəsi evindən gətirdiyi mal dərisindən hazırlanmış, yaxud çitdən tikilmiş süfrə salınır və yeyib-içmək başlanır.* ◆ *Ət yeməklərindən sonra süfrəyə gəlinin gətirdiyi çörək, şirniyyat düzülür. Bir az da keçdikdən sonra bəyin atası və yaşlı qonaqlar: "əlhəmdülillah" - deyib süfrədən çəkilir və: "Allah süfrənizə bərəkət versin, gəlinin qədəmi sayalı olsun, nəvəli-nəticəli olsunlar, evinizdən həmişə şadlıq səsi gəlsin, inşallah" - deyə-deyə, evlərinə gedirlər.* ◆ *Təzəbəy isə (əvvəl çıxmışdısa, yenidən məclisə qayıdır) evli-arvadlı tay-tuşları, cavan qohum-qardaşı ilə qalıb ziyafəti gecə yarısına kimi davam etdirir.* ◆ *Bəzən burada təzəbəyin iştirakı ilə "****xanxan****"* [124] *oyunu oynanılır, bəyi, bir qayda olaraq, zarafatyana "paçça", yəni "padşah" deyə çağırırlar. Axırda, sağdış təzəbəyə yanaşıb: "daha bəsdir, get otağına rahatlan" - deyir. O da, hamı ilə sağollaşıb* ***gəlinlik otağı****na* [98] *üz tutur.* ◆ *Bu məclisdən sonra bəy artıq el içinə çıxmaq hüququnu qazanır, açıq-aşkar sağdış-soldışsız gəzib dolanır və iş-gücünə başlayaraq, onu görənlərin təbrikini qəbul eyləyir.* ◆ *Bir sözlə, bu son toy mərasimi ilə evlənmiş oğlan artıq "****başıbağlı****lar"* [29] *cərgəsinə keçirsə də, gəlin bu yad ailənin, soyun hələlik tam hüquqlu üzvü sayılmır. Dədə-baba adətinə görə, bundan ötrü onun övladı olmalıdır.* ◆ *Bəzi yerlərdə toyun sabahı təzəbəyin yaxın dostları ilə hamama yollanması da bu adı daşıyır.* ◆ *Bu son toy mərasimi elimiz içində "üzaçdı // üzgördü // üzgörüşü // üzəçıxma // üzəçıxardı", "gəlin gördü", "eləçıxdı // elgördü" (cənub torpaqlarımızda), "düzayağı // dizdayağı" (Abşeron), "eniştəlik" (Gürcüstanda yaşayan soydaşlarımızda), "paça günü", "üçgünlük // gəlinin üçgünlüyü" (Quba, Lənkəran, Masallı), "xangəldi" və s. adlar altında da tanınır.*

• XII •

Azərbaycan Milli Kitabxanası

**hərialdı**dan [119] sonra **nişanlı** [205] qızın *"vəkaləti"* ilə iş görməyə seçilən qızın yaxın qohumlarından biri (əmi, dayı, xalanın və ya bibinin əri) də bu adı daşıyır. Adət-ənənəyə görə, xoşbəxt ailə qurmuş bu orta yaşlı şəxs elçilikdən sonra **qız evi** [178] ilə oğlan tərəfin arasında aparılan bütün danışıq və tədbirlərdə hökmən iştirak etməlidir.

**286.**

## ● VƏLİMƏ

◆ Əski ədəbi mətnlərdə təsadüf edilir. Həm qanuni **nikah** [203] bağlamaq yolu ilə qız almaq - *"**evlənmək**"* [84], həm də bu münasibətlə çaldırılan *"**toy** [269] mərasimi"* anlamlarında işlənən sözdür. Bəzi yazılarda onun *"vəlimə məclisi // vəlimə cəmiyyəti"* adlarına da rast gəlinir. *"Vəlimətürürs"* kimi mürəkkəb deyiliş şəkli də olub.

**287.**

## ● VƏZOURT // VƏZÖURD

[ *"əvəz-avərd", yəni əvəzini qaytarmaq ifadəsinin təhrifidir* ] ◆ Böyük **nişantaxdı toyu** [205] mərasimindən bir qədər sonra, həmçinin İlaxırçərşənbə və Qurban bayramı günləri, qızgilə **bayramlıq** [30] aparılan günün sabahı **oğlan evində** [208] qadınların iştirakı ilə keçirilən məclisin adı. ◆ Burada ilk öncə **qız evindən** [178] oğlangilə xəbər çatdırılır ki, *"filan gün, filan saat qabları qaytaracayıq, hazırlaşın"*. Oğlan tərəf buna tədarük görərək, qonum-qonşudan bu məclisə 4-5 qadın çağırır. ◆ Qız evi isə, **nişan** [205] günü oğlan evindən gətirilmiş **xonça** [138] qablarına 101 ədəd şəkərbura, paxlava, şorqoğalı və suda bişirilmiş yenə 101 (Gəncədə isə 51) qırmızı boyanmış yumurta düzür. Bunlardan əlavə, nişan günü oğlangildən xonça gətirmiş şəxslərə, ayrı-ayrılıqda **xələtlər** [132]: qadınlara - parça, örpək, ətir; kişilərə - köynək, cib yaylığı, corab hazırlayıb xonçalara düzür və üzərinə bir az **şirni** [259] və noğul-nabat tökürlər. Adaxlı oğlandan ötrü isə içində bahalı köynək olan ayrıca bir xonça tutulur. ◆ Günortaçağı qız evindən 5-6 qadın, əllərində xonça, təntənəli şəkildə oğlangilə yollanır. Burada yeyib-içdikdən sonra onlardan biri xonçaları bir-bir açıb kimə nə çatacağını bildirir. Oğlan anası qız evi adamlarına: *"payınız həmişə artıq olsun, həmişə xoş gün görəsiniz, şadlıq, toy-bayram içində olasınız"* - deyərək, dil-ağız edir, sonra da qızın yaxın qohumlarına hədiyyələr verir. Gətirilmiş **ağız şirinliyi** [5] qonum-qonşuya paylanır. ◆ Bizim günlərdə daha çox Abşeron kəndlərində təsadüf olunan bu adətə bəzən sadəcə *"vezeo"* və ya *"vezeoqabı"*, yaxud *"vəzəord//vəzaurd//vəzoud"*, *"üzükqabı"* da deyirlər. ◆ Yurdumuzun digər yerlərində onu *"qabqaytardı // nişanqabı qaytardı"*, *"bəypayı"* (Şəki), *"xonçaqaytarma // xonçaəvəzi"*, *"süfrəqaytardı"*, *"sinisüfrə"* (Quba), *"yüzbir"* və *"əllibir"* (Gəncə) də adlandırırlar.

**288.**

## ● YADQIZI

◆ Ulu əcdadımız Oğuz türklərinin *"**nikah** [203] bağlamaq yolu ilə yad ailədən gətirilən **gəlin** [98]"* anlamında işlətdikləri deyim. ◆ Keçmiş çağlarda qohum qəbilə və

Azərbaycan Milli Kitabxanası

soylar arasında nikahların qəti yasaq olunması səbəbindən oğuzlar, bir qayda olaraq, özlərinə uzaq yad qəbilələrdən arvad seçməyə məcbur idilər.

**289.**

## YANÇAQ

◆ Naxçıvan diyarında çaldırılan qız toylarına dəvət edilib, qız evinin bütün tədbirlərində, **gəlin qızı** [98] müşayiət edərək ona dəyərli məsləhətlər verən, onu öz evinə aparıb orada geyindirib-keçindirən, cavan qıza məhrəm həyat qaydalarını başa salan peşəkar qadının - **qız yengəsinin** [178] adı.

*"Nə qəşəng geyinibdi yanında duran yançılar"*
(toy oxumasından)

## YANÇI

[ *"köməkçi" mənasındadır* ] ◆ Şəkinin **oğlan toyu** [208] məclislərində həm **sağdış** [225], həm də **soldışa** [239] verilən müştərək ad. Buradakı sağdış - **böyük yançı** [41], soldış isə **kiçik yançı** [150] adı daşıyır. Toy günü ikisi də səhərdən-axşama kimi hər yerdə bəy oğlanın yanında olur, heç kəsi ona kənardan yanaşıb ağır söz deməyə qoymurlar. Bu məkanda onları daha çox *"yançılar"* adı ilə tanıyırlar.

**290.**

*"Qoyma xaldan xal olmaz, xal özü əsli gərək"*
(toy oxumasından)

## YAPIQ

◆ Vaxtilə, bir qayda olaraq, **gəlinbəzəmə** [98] zamanı gəlin qızın çöhrəsinə döyülən saxta xalın, həmçinin məxmər və ya atlaz üzərinə tikilmiş xırda çiçək şəkilli qızıl tel və mirvaridən ibarət bir üz bəzəyinin adı. Bu bəzək yalnız varlı ailələrə mənsub olan gəlinlərin alın, yanaq və ya çənəsinin müxtəlif yerinə yapışdırılırdı. Buna görə ona daha çox *"yapışdırma"* deyirdilər. Bu deyimin *"yapuq"* tələffüz şəklinə də rast gəlinir.

**291.**

*"Qız öz istəklisindən necə qaçıb yaşına, ay nənə?"*
(toy oxumasından)

## YAŞINMA // YAŞIRMA

◆ Əski çağlar böyük **nişantaxtı toyu** [205] mərasimindən sonra nişanlanmış **qızın** [178] dədəsi evindən kənara çıxdığı zaman üzünün gözdən aşağı hissəsini baş örpəyinin ucuyla yad kişilərdən gizlətməsi, örtünməsi, yaşınması - **boygizlətmə** [40] adətinin digər adı. ◆ Keçmişdə buna *"yaşmaqvurdu // yaşmaqtutma // yaşmaqlanma // yaşmama // yaşmanma"* da deyirdilər.

*"Gəlinsən, tut yaşmağını"*
(toy oxumasından)

## YAŞMAQ

[ *"yayınmaq, yaşınmaq" sözündəndir* ] ◆ Ötən çağlar **nişanlı** [205] qız və **ərli** [89] gəlinlərin çöhrəsinin alt hissəsini, ağzını və burnunun ucunu *"naməhrəm"* yad kişilərdən gizlədərək örtdükləri yaylıq və ya kəlağayının adı. Əski adət üzrə, onu yalnız nişanlı qızın adaxlısı və arvadın qanuni əri aça bilərdi. ◆ Onun *"yamşaq"* deyiliş şəkli də olub.



Azərbaycan Milli Kitabxanası

## YAŞMAQLI

[ *"üzünə yaşmaq tutmuş" deməkdir* ] ◆ Bir para yerlərin dilində, evlənmək üçün söz kəsib **üzük** [282] taxmış "**nişanlı** [205] *qız*" anlamı əvəzində işlənən deyim. ◆ Keçmiş dövrlərin qayda-qanununa görə, artıq **adaxlısı** [1] olan qız həm nişan mərasimindən, həm də **ər evinə** [89] köçdükdən sonra müəyyən müddət burun, ağız və çənəsini yaşmaq örpəklə gizlətməliydi. ◆ Onlara bəzən *"ağzı yaşmaqlı"*, *"yaşmaqlı qız"* da deyiblər.

**292.**

## ● YAVUQLAMA

[ *"yaxın qohum olmaq" deməkdir* ] ◆ Əski yazılarda təsadüf olunub həm **qız** [178] üzərinə ad qoyub onun barmağına üzük taxma ilə bağlı "**adağlama** [1], **nişan***lama* [205]", həm də bundan sonra ortaya çıxmış **oğlan və qız evləri** [208], [178] arasındakı əlaqələrin rəsmləşdirilməsilə əlaqədar *"qayınlaşma"* anlamlarına yaxın gələn kəlmə. ◆ Vaxtilə onun *"yavuqluq // yavuqluqetmə"* şəkilləri də olmuşdur.

## YAVUQLU

[ *"adaxlanmış, nişanlanmış" mənasındadır* ] ◆ Uzaq keçmişdə "**adağlı** [1], **deyikli** [57]" anlamı ilə eyni mənada işlənən söz. "Kitabi Dədə Qorqud" dastanlarında da təsadüf olunur. Daha çox **beşikkərtmə** [33] gənclərə aid edilir. ◆ Bəzən *"yavıqlı"* kimi də səslənir.

**293.**

## ● YAZICI

◆ Bəzi yerlərdə **qız toyu** [178] şənliklərinin üçüncü - **gəlinapardı toyu** [98] gününə xüsusi dəvət edilib, gəlin qızın üz-gözünü boyayıb bəzəməklə onu müvafiq görkəmə salan peşəkar bəzəkçi usta qadın - **məşşatənin** [192] adlarından biri. ◆ Xalq arasında ona çox vaxt *"yazıcı qadın"*, *"üzalan"*, *"düzgüçü"* də deyirlər.

## YAZMA

◆ Bir para yerlərin dilində **gəlinapardı toyu** [98] günü **bəzək** [37] ustası **məşşatə** [192] tərəfindən yol üstündə olan gəlin qızın çöhrəsini *"süsləmək, bəzəmək"* işini bildirən sözlərdən biri. ◆ Başqa yerlərdə isə ona *"qabaqalma"*, *"gəlin üzü yazma"*, *"üzalma // üzyazma"* da deyirlər.

**294.**

## ● YEDDİLİK

◆ **Toy** [269] mərasimindən bir həftə keçmiş **təzəbəyin** [267] **təzəgəlinə** [267] bağışladığı xüsusi paltarın adı. ◆ **Oğlan evi** [208] bu münasibətlə kiçik bir **qonaqlıq** [180] verir.

Azərbaycan Milli Kitabxanası

Bəzi bölgələrimizdə həmin gün təzəgəlinin anası bir neçə yaxın qadın qohumu ilə birlikdə qızının təzə mənzilinə gələrək, müəyyən xörək, şirniyyat və **xələt** [132] gətirir və burada onları yerə sərilmiş bəzəkli bir namazlığın üzərinə düzürlər.

## YEDDİLÖVÜN XONÇASI

[ *"yeddi növ şirniyyatdan ibarət xonça" anlamındadır* ] ◆ Naxçıvan diyarında **üzükşal toyu** [282] kiçik nişan mərasimi zamanı **oğlan evinin** [208] qızgilə gətirdiyi və sayı yeddidən artıq olmayan **şirni xonçalarının** [259] adı. ◆ Oraya, bir qayda olaraq, yeddi növ **şirni** [259], məsələn: paxlava, şəkərbura, xurma, kişmiş, qaysı qurusu, mövüc, miyanpur düzülür. Bunlardan biri tapılmadıqda - ağ tut qurusu, püstə, iydə, qoz-fındıq ilə əvəz olunurlar.

**295.**

## YELƏTMƏ // YELLƏTMƏ

[ *"aparmaq, yola salmaq" mənasındadır* ] ◆ Bəzi yerlərin adətincə, **qız toyu** [178] şənliklərinin üçüncü - **gəlinapardı toyu** [98] günü gəlin qızın **ər evinə** [89] yola düşdüyü zaman çaldırılan olduqca qədim oyun havasının adı. ◆ Bu ada IX-XI yüzillərə aid yazılı abidə “Kitabi Dədə Qorqud” dastanlarında da rast gəlinir. Həmin oyun havasını bəlkə də çağdaş *"***Vağzalı***"* [283] havasının uzaq sələfi saymaq olar.

**296.**

*"Yengən sağ olsun, ay gəlin"*
(toy oxumasından)

## YENGƏ

[ *əslində "dayıdostu, əmiarvadı" deməkdir* ] ◆ Toy tədbirlərində xidmət və məsləhət üçün **gəlin qıza** [98] həm qız, həm oğlan tərəfindən (**qız yengəsi** [178] və **oğlan yengəsi** [208]) təhkim olunmuş iki qadına verilən ad. ◆ Oğlan yengəsi adaxlı oğlanın ən yaxın qadın qohumlarından - böyük bacısı, xala, bibi, dayıdostu, əmiarvadı olduğu halda, qız yengəsi, bir qayda olaraq, tədbirlərə peşəkar kimi dəvət olunmuş və bu işdə saçbirçəyini ağartmış, xüsusi bilik və səriştəyə malik olan bir qadındır. ◆ Hər ikisi ərə veriləcək cavan naşı qızı qorxuya sala bilən həyəcanlardan, bədxah insanların pis niyyətli hərəkətlərindən qorumaqla yanaşı, yaxın və təcrübəli bir bələdçi kimi, toy günləri qızın davranışı və hərəkətlərinə də nəzarət edib, yerində ona lazımi məsləhətlər verir, **sağdış-soldış** [225] olmadıqda onların işini görürlər. Bununla belə, oğlan yengəsi ilə müqayisədə, qız yengəsi bu vəzifədə daha fəal olmuş, el-oba içində onun işi vaxtilə çox ağır və məsuliyyətli iş sayılmışdır. ◆ Bəzi yerlərdə isə bircə qız yengəsilə kifayətlənirlər. Güman edilir ki, bu qadın uzaq keçmişdə qədim türklərdə eyni işi yerinə yetirən qadın şaman *"qamxatun"* un xələfidir. ◆ Xalq arasında bu cür xüsusi təcrübəyə malik qadınlar *"elyengəsi"*, *"gəlinbacı"*, *"yengəxanım"* adlanırlar.

*"Dursun, oynasın hörmətli yengə"*
(toy oxumasından)

## YENGƏ QONAQLIĞI

◆ Şəki diyarında toy mərasimlərindən bir həftə keçmiş oğlan evinin toy şənlikləri zamanı gəlin qıza təhkim edilmiş iki **yengə** [296] şərəfinə verdiyi kiçik ziyafətin adı.

Azərbaycan Milli Kitabxanası

Oğlan tərəf bu məclisə **oğlan yengəsini** [208] çağırır, **qız yengəsi** [178] və digər qonaqları isə qız evi dəvət eyləyir. Qonaqlıq vaxtı hər iki yengə təzəgəlinə **yengəpayı** [296] deyilən hədiyyə bağışlayır.

## YENGƏLİK

◆ **Toy** [269] məclislərində **yengə** [296] qadının vəzifəsi və bu işlərlə məşğul olan özünəməxsus peşənin adı. Ana dilimizdəki *"yengə durmaq"*, *"yengəlik etmək"* ifadələri vaxtilə savab və şərəfli bir iş sayılan *"yengə"* vəzifəsini icra etmək kimi başa düşülür. ◆ Bu vəzifəyə aid xüsusi paltar və **xələt** [132] də həmin adla çağırılır.

## YENGƏPAYI

◆ Toy şənliklərindən yeddi gün sonra Şəkidə çağırılan **yengə qonaqlığı**nda [296] qız və oğlan yengəsinin **təzəgəlinə** [267] təqdim etdikləri və içinə, adətən, ətriyyat, sabun, iynə, üskük, daraq, saçayıran sancaq və yelpazə düzülmüş xüsusi xonçanın adı. ◆ Ayrı-ayrı bölgələrdə bu hədiyyəyə *"yengəyolu"* və *"yengə xonçası"* da deyilir.

## YENGƏYOLU

[*buradakı "yol" zəhmət haqqı, pul mənasındadır*] ◆ Gəncədə **toy** [269] mərasimi tədbirlərinin sonunda oğlan tərəfin, adət üzrə, **qız** və **oğlan yengələrinə** [178], [208] çəkdikləri zəhmətin əvəzində bağışladığı paltarlıq parça, corab, dəsmal, şirni və s.-dən ibarət xüsusi **xonça** [138] və **xələtin** [132] adı. ◆ Bunun *"yengəlik // yengəpulu"* adları da var.

**297.**

## ● YOL // YOLPULU

◆ Yurdumuzun cənub-qərb bölgələrində, həmçinin Quba diyarında toy ərəfəsində keçirilən tədbirlərin birində oğlan tərəfin nişanlı qızın dədəsi evinə toyqabağı hazırlıq və ənənəvi **gəlinlik cehizi** [98] hazırlamaqdan ötrü verdiyi ödənc haqqı - **başlığın** [29] adı. ◆ Burada onu bəzən *"rahpulu"*, *"qızpulu"*, *"yolparası"* da adlandırırlar.

## YOLAÇIXARMA

◆ **Ərə** [89] verilən qızı yeni mənzilinə aparan, **atlılar** [18] dəstəsindən ibarət **toy alayı**nın [269] yolu üstünə bir çobanın buynuzlu erkək çıxarmasından ibarət olan qədim adətin adı. ◆ Qaydaya görə, **gəlin qız** [98] atdan aşağı enmədən əyilərək həmin erkəyin boynundan yapışıb yerdən qaldırarsa, heyvan ona çatır, qaldıra bilməzsə, **oğlan evi** [208] qoç sahibinə (çobana) heyvanın dəyərində **xələt** [132] verməlidir.

## YOLAPARDI

◆ Bir para yerlərin dilində, bir qayda olaraq, toy mərasimi ərəfəsində nişanlı qızgilə

Azərbaycan Milli Kitabxanası

**oğlan evi** [208] adamları tərəfindən **toyxərcinin** [269] və yaxud burada sərf olunacaq ərzaq - **bazarlığın** [31] gətirilməsi münasibətilə qız evində çağırılan **xərcgətirmə** [134] qonaqlığının başqa adı. ◆ Ona hərdən *"yolgöndərdi // yolpulu gətirmə"* də deyirlər.

## YOLKƏSDİ

◆ Kənd toylarında gəlin aparılan zaman, bir adət-ənənə kimi, məhəllə cavanlarının kəndir-sicim ilə **toy alayının** [269] qarşısını kəsmək adəti - **qabaqkəsdinin** [157] başqa adı. ◆ Eyni zamanda, burada yolu kəsmiş cavanlara oğlan evi adamları tərəfindən verilən **nəmərin** [201] adlarından biri. Ona daha çox *"yolkəsdi nəməri"* deyirlər.

**298.**

## YORIQÇI

◆ Ötən çağlarda əcdadımız Oğuz türklərində **ərgən** [89] oğlan üçün başqa ailə, özgə soydan **qız** [178] diləmək üçün oraya göndərilən *"elçi"* mənasında işlənən sözlərdən. O, adətən, böyük nüfuza malik, yaşlı bir şəxs olmalı idi. Bu deyim Mahmud Kaşqarinin lüğətində də qeyd edilir. Onun *"yörüqçü // yoruqçı"* deyiliş şəkilləri də mövcuddur.

**299.**

*Bu gün sənin toyundu, nazik yuxa yay, gəlin"*
(toy oxumasından)

## YUXAÜSTÜ

[ *"yuxa" - mayasız xəmirdən nazik yayılaraq sacda bişirilən qədim çörək növüdür* ] ◆ Yurdumuzun kənd yerlərində toy ərəfəsində (ən azı 3-4 gün qabaq) oğlan və qız evlərinin **toy süfrəsi** [269] üçün müxtəlif növ çörək tədarükü və **toy yuxası** [269] bişirməsilə bağlı mərasimin adı. ◆ Ayrı-ayrılıqda hər iki evdə səhər tezdən təndir və ocaqlar qalanır. Köməyə gəlmiş qadınlar və cavan qız-gəlin işə başlamazdan əvvəl özlərini pak edir, ayrıca bir otağda xeyir-dua verib işə başlayırlar. Qadınlar **nişanlı** [205] qızın iştirakı ilə bir gün ərzində xəmir yoğurub kündə kəsir, nazik yuxa, lavaş yayır, sacda və təndirdə yayma, fətirqatlama, fətirnazik, təndir çörəyi və s. bişirirlər, cavan qızlar isə çörək bişirən qadınlara xidmət edirlər. ◆ El-oba adətinə görə, bu işdən ötrü kəndin ən kasıb, kimsəsiz və dul qadınları dəvət olunur, bütün kənd camaatı isə vaxt tapıb bu mərasimə gəlir və bişirilmiş yuxa üstünə pul-nəmər ataraq, isti yuxadan bir tikə kəsib: *"Allah mübarək eyləsin, el-obaya əmin-amanlıq, bolluq gətirsin"* - deyərək, xeyir-dua verirlər. Yığılan pullar mərasimdə çalışan qadınlar arasında bölünür. Toy sahibi yuxaçılara ayrıca əmək haqqı da verir. ◆ Qızgildə çörək bişirilən zaman **bəy oğlanın** [36] anası bir neçə qadınla buraya gəlib *"ocağınız mehirli, süfrəniz varlı-nemətli, çörəyiniz isti olsun"* və s. arzularla çörək bişirənlərə **fətirüstü** [95] deyilən xələtlər paylayır. ◆ İlk bişirilmiş yuxa kimsəsiz, yetim uşağlara verilir. Sonra ilk bişmiş çörəklərdən oğlan və qız anasına da təqdim olunur. ◆ Toy günü gəlin qızın anası həmin çörəklərdən birini qızın qoltuğuna basıb, ona: *"a bala, bunu sənə verirəm ki, həmişə bolluqda yaşayasan, Allah süfrəni bol eyləsin"* - deyir. ◆ Bunlardan əlavə, əski adət-ənənəmizə görə, hər gəlin toy günü özüylə **ər** [89] evindəki **şirni süfrəsi** [259] üçün yağlı şəkər bişmişləri (şəkərbura, paxlava, şəkərçörəyi və s. - keçmişdə bunlara



Azərbaycan Milli Kitabxanası

*"həlviyyat"* demişlər) aparmalıdır ki, təzə mənzilində onun həyatı firavan keçsin, qapı-bacasından bolluq-bərəkət yağsın. ◆ El-oba içində bu adəti *"ətməkyapdı"*, *"yuxa günü // yuxasaldı"*, *"fətirüstü"*, *"çörəkbişirdi // çörəkyapdı"* da adlandırırlar.

**300.**

## ZİFAF

[ *"ilk görüş" deməkdir* ] ◆ Evlənib ailə quran iki cavan - **oğlan** [208] və **qızın** [178] ilk görüşü, ilk tanışlığı. Əski zamanlar bu görüş yalnız **toy gecəsi** [269] baş verirdi. Sonrakı çağlar cavanlar **nişantaxdı toyu** [205] mərasimindən bir az keçmiş, qız anasının təşəbbüsü ilə, xüsusi bir qonaqlıqda tanış olurdular. ◆ Bu deyimin *"zəfaf // züfaf"* şəkli də mövcuddur. Onun digər adları isə *"ayağaçdı"* və *"üzgörüm"*dür.

## ZİFAF AĞI

◆ Bir para yerlərin dilində, **oğlan toyu** [208] şənliklərinin ikinci günü - **gəlingətirdi toyunun** [98] sonunda **gərdək gecəsi** [100] zamanı bəy oğlanla gəlinin yatacağı döşək üzərinə sərilən iki **ərus dəsmalının** [90] adı. ◆ Xalq arasında bu deyimin *"züfaf ağı"* deyiliş şəkli də mövcuddur.

*"İkimiz bir köynəkdə, yaxası dar olaydı"*
(toy oxumasından)

## ZİFAF AXŞAMI // ZİFAF GECƏSİ

◆ **Nikahın** [205] ilk gecəsi, evliliyin başlanğıc nöqtəsi sayılan **gəlingətirdi toyunun** [98] sonunda bəy oğlan və gəlin qızın pərdə arxasında bir yatağa girdikləri **gərdək gecəsinin** [100] ən qədim adı. ◆ Bu gecənin əski yazılarda təsadüf olunan adları bunlardır: *"zihab gecəsi // züfaf gecəsi"*, *"şəbi-zifaf"*, *"leyleyi-zifaf"*, *"cilvə"*, *"şəbi-gərdək"* və s.

## ZİFAF OTAĞI

◆ **Toy** [269] günü oğlan evində gəlinlə bəy üçün ayrılıb qız evindən gətirilmiş **cehizlə** [42] bəzənmiş **gəlinlik otağının** [98] ən qədim adı. ◆ Ayrı-ayrı yerlərdə, başqa-başqa dövrlərdə bu otağa *"ağ otaq"*, *"bəy otağı"*, *"gərdək otağı"*, *"güvəgi otağı"*, *"xan otağı"*, *"həcləgah // həcləxana"* da demişlər. ◆ Klassik ədəbiyyatda isə o, *"qangah"*, *"qüsurə"* və *"mənəssə"* adları altında qeyd olunur.

**301.**

## ZOMAGOYA

[ *"zomoa goya" sözündən olub "yeznənin köməyi" deməkdir* ] ◆ Astara və Lənkəran bölgələrində qızın **nişanlı** [205] olduğu müddətdə, bir adət olaraq, **adaxlı** [1] oğlanın vaxtaşırı öz dostları ilə **qayınatasına** [168] bu və ya digər işdə kömək etməsi. ◆ Burada ev sahibi işləyənlər üçün bir erkək kəsir. Bu cür iməcilik, qarşılıqlı kömək çox vaxt **qız evi** [178] tərəfindən də təşkil olunur. ◆ Yurdumuzun başqa yerlərində bu iməciliyə *"bəyəvrəzi"* və *"qızəvrəzi"* deyirlər.

Azərbaycan Milli Kitabxanası

EVİNİZDƏN HƏMİŞƏ ŞADLIQ SƏSİ GƏLSİN,

HƏMİŞƏ TOY-NİŞAN İÇİNDƏ OLASINIZ,

OĞUL TOYU GÖRƏSİNİZ,

QIZ KÖÇÜRƏSİNİZ,

NƏVƏ-NƏTİCƏ TOYUNDA ƏL-QOL AÇIB

OYNAYASINIZ, İNŞALLAH!



Azərbaycan Milli Kitabxanası

# Azərbaycan toyu

toy mədəniyyətimizə dair deyimlər


A

1. ◆ adağ // adax (səh. 5)
◆ adağagetmə (səh. 5)
◆ adağlama // adaxlama (səh. 5)
◆ adağlı // adaxlı (səh. 5)
◆ adağlıbazlıq (səh. 5)
◆ adağlı oxşaması (səh. 6)
◆ adağlı şirnisi (səh. 6)
◆ adağ toyu (səh. 6)

2. ◆ ağamət // ağammətlik (səh. 6)

3. ◆ ağcadaban (səh. 6)
◆ ağ xonça (səh. 7)
◆ ağpapaq (səh. 7)
◆ ağsaqqal toyu (səh. 7)

4. ◆ ağırdonlu (səh. 7)
◆ ağır düyün // ağır toy (səh. 7)
◆ ağırlıq (səh. 7)

5. ◆ ağızarama (səh. 8)
◆ [ I ] ağızbildi (səh. 8)
◆ ağız şirinliyi (səh. 8)

6. ◆ ailə bağı (səh. 9)

7. ◆ alafa (səh. 9)

8. ◆ aldım-verdim (səh. 9)

9. ◆ almaatdı (səh. 9)

10. ◆ anapayı (səh. 10)
◆ anayolu (səh. 10)

11. ◆ ara arvadı // aralıq arvadı (səh. 10)
◆ arakəsmə (səh. 10)
◆ ara adamı // aralıq adamı (səh. 10)

12. ◆ arvad (səh. 11)
◆ arvad elçiliyi (səh. 11)
◆ arvad elçisi (səh. 11)
◆ arvad silsiləsi (səh. 11)
◆ arvad toyu (səh. 11)

13. ◆ arzu noğulu ◆ səh. 11

14. ◆ asqı (səh. 12)
◆ asqıçı (səh. 12)
◆ asmakəsmə (səh. 12)

15. ◆ aş günü (səh. 12)

16. ◆ aşıq (səh. 12)
◆ aşıqçı (səh. 13)
◆ aşıq toyu (səh. 13)

17. ◆ atalıq (səh. 13)
◆ atamalı (səh. 13)

18. ◆ atlılar (səh. 13)

19. ◆ ayağaçdı (səh. 13)
◆ ayağüstü // ayağçı (səh. 15)
◆ ayağüstülük (səh. 15)

20. ◆ ayanat // aynat (səh. 15)

21. ◆ aynaçağırdı (səh. 15)
◆ aynatutan // aynaçı (səh. 15)

B

22. ◆ bacıbacı (səh. 16)
◆ bacılıq (səh. 16)

23. ◆ bağbaşı (səh. 16)

24. ◆ bağlanc (səh. 19)
◆ bağlanışma (səh. 19)

25. ◆ bal ayı (səh. 19)
◆ bal gəzintisi (səh. 19)

26. ◆ balbağan (səh. 19)

27. ◆ barxana (səh. 19)

28. ◆ barmaqlıq (səh. 20)

29. ◆ başbəzəmə (səh. 20)
◆ başbəzəyən (səh. 20)
◆ başbəzəyi (səh. 20)
◆ başıbağlı (səh. 20)
◆ başıbütöv (səh. 20)
◆ başqırxdı (səh. 21)
◆ başlıq (səh. 21)
◆ başlıqvermə // başlıqödəmə (s.21)
◆ başpaltar (səh. 22)

30. ◆ bayramaşı (səh. 22)
◆ bayramlıq // bayrampayı (s.22)

31. ◆ bazarlıq (səh. 23)

32. ◆ belbağı (səh. 23)
◆ belbağlama (səh. 23)

33. ◆ beşikkərtiyi (səh. 24)


Azərbaycan Milli Kitabxanası

◆ beşikkərtmə // beşikkəsmə (s.24)

34. ◆ bəxtaçdı (səh. 25)
◆ bəxtbağlama (səh. 25)
◆ bəxt güzgüsü (səh. 26)
◆ bəxt köynəyi (səh. 26)
◆ bəxt üzüyü (səh. 27)

35. ◆ bəlgə // bəlgəqoydu (səh. 27)
◆ bəlgəəvəzi (səh. 27)
◆ bəlgələmə (səh. 27)

36. ◆ bəy (səh. 27)
◆ bəybağladı (səh. 28)
◆ bəybaşı (səh. 28)
◆ bəy boğçası (səh. 28)
◆ bəydəsi (səh. 29)
◆ bəydurma // bəyçıxması (s.29)
◆ bəyəvrəzi (səh. 30)
◆ bəygörümcəyi (səh. 30)
◆ bəygörüşü (səh. 30)
◆ bəy xonçası (səh. 30)
◆ bəyin tərifi (səh. 31)
◆ bəy qapısı (səh. 31)
◆ bəy qonaqlığı (səh. 31)
◆ bəylik çuxası (səh. 31)
◆ bəylik hamamı (səh. 31)
◆ bəylik otağı (səh. 33)
◆ bəylik paltarı (səh. 33)
◆ bəylik papağı (səh. 34)
◆ bəylik taxtı (səh. 34)
◆ bəylik təraşı // bəy tiraşı (s.37)
◆ bəy oğlan (səh. 38)
◆ bəyoynatma (səh. 38)
◆ bəypayı (səh. 38)
◆ bəy sağdışı (səh. 38)
◆ bəy soldışı (səh. 38)
◆ bəy şaxı (səh. 38)
◆ bəyü // bəyükə (səh. 38)
◆ bəyügörmə (səh. 39)
◆ bəyyanı (səh. 39)
◆ bəy yengəsi (səh. 39)

37. ◆ bəzək (səh. 39)
◆ bəzəkçi // bəzəməçi (səh. 39)
◆ bəzək xonçası (səh. 40)
◆ bəzək otağı (səh. 40)
◆ bəzəkpulu (səh. 40)
◆ bəzəkvurdu (səh. 40)

38. ◆ bibiyolu (səh. 40)

39. ◆ boğça // boxça (səh. 40)

40. ◆ boygizlətmə (səh. 41)
◆ boygördüsü (səh. 41)
◆ boygörmə (səh. 41)

41. ◆ böyük elçilik (səh. 41)
◆ böyük məsləhət (səh. 41)
◆ böyük nişan (səh. 42)
◆ böyük toy (səh. 42)
◆ böyük üzük (səh. 42)
◆ böyük yançı (səh. 42)

C

42. ◆ cehiz (səh. 42)
◆ cehiz alayı (səh. 43)
◆ cehiz boğçası (səh. 44)
◆ cehizcəmən (səh. 45)
◆ cehizçi (səh. 45)
◆ cehizdüzdü (səh. 45)
◆ cehiz günü (səh. 45)
◆ cehiz xəlaiqi (səh. 45)
◆ cehizlik (səh. 46)
◆ cehizpulu (səh. 46)
◆ cehiz sandığı (səh. 46)
◆ cehiz siyahısı (səh. 46)
◆ cehizüstü (səh. 46)
◆ cehizyazma (səh. 47)

43. ◆ cıdır (səh. 47)
◆ cıdırağac (səh. 47)
◆ cıdırçı (səh. 47)

44. ◆ cığcığa (səh. 47)
◆ cığcığalama (səh. 48)

45. ◆ cilovdar (səh. 48)

46. ◆ cilvə (səh. 48)

47. ◆ cüməlik (səh. 48)

Ç

48. ◆ çağırışçı (səh. 48)

49. ◆ çarşabyolu (səh. 49)

50. ◆ çəngi (səh. 49)
◆ çəngibaşı (səh. 49)

51. ◆ çərəz (səh. 49)


Azərbaycan Milli Kitabxanası

◆ çərəzoynatma (səh. 50)
52. ◆ çərşənbə xonçası (səh. 50)
53. ◆ çıraq xələti (səh. 50)
54. ◆ çikilə (səh. 50)
55. ◆ çörəkkəsdi (səh. 50)
◆ çörəkyapdı (səh. 51)
◆ çörəkyığdı (səh. 51)

D

56. ◆ damad // damat (səh. 51)
◆ damadgirmə (səh. 51)
◆ damadi (səh. 52)
57. ◆ deyikləmə (səh. 52)
◆ deyikli (səh. 52)
58. ◆ dəbdəbəli toy (səh. 52)
59. ◆ dədəverdi (səh. 52)
60. ◆ dəllalə (səh. 52)
61. ◆ dərnə (səh. 53)
62. ◆ dərviş (səh. 53)
◆ dərviş toyu (səh. 53)
63. ◆ dəsturaşı (səh. 54)
64. ◆ dəvətçi (səh. 54)
◆ dəvətiyyə (səh. 54)
◆ dəvətli (səh. 54)
65. ◆ diləkçi (səh. 54)
◆ diləkçilik (səh. 54)
66. ◆ diringə // diringi (səh. 55)
67. ◆ dişləkalma // dişləkvurdu (s.55)
68. ◆ doqqazkəsdi (səh. 55)
69. ◆ dör // dörbaşı (səh. 55)
◆ dördöşəyi (səh. 55)
70. ◆ döşəkpulu (səh. 56)
71. ◆ dövran (səh. 56)
72. ◆ duvaq (səh. 56)
◆ duvaqaşı (səh. 59)
◆ duvaqçı (səh. 59)
◆ duvaqqapdı (səh. 59)
◆ duvaqqapma (səh. 60)
◆ duvaqlıq (səh. 60)
73. ◆ dünür // dünürçü (səh. 60)
◆ dünürçü çayı (səh. 60)
◆ dünürdüşdü (səh. 61)
◆ dünürləşmə (səh. 61)
74. ◆ dünyayagirmə (səh. 61)
75. ◆ dürəng (səh. 61)
76. ◆ dürü (səh. 62)
77. ◆ düşərgə // düşərlik (səh. 62)
78. ◆ düyün (səh. 62)
◆ düyün alayı (səh. 62)
◆ düyünbaşı (səh. 62)
◆ düyünçü (səh. 62)
◆ düyündərnək (səh. 63)
◆ düyün evi (səh. 63)
79. ◆ düzayağı (səh. 63)
◆ düzgü (səh. 63)
◆ düzgüçü (səh. 63)

E

80. ◆ elağası (səh. 63)
◆ elgördü (səh. 64)
◆ el qonaqlığı (səh. 64)
◆ elyengəsi (səh. 64)
81. ◆ elçi (səh. 64)
◆ elçidaşı (səh. 64)
◆ elçilik (səh. 65)
◆ elçiplov (səh. 65)
82. ◆ eniştə (səh. 65)
◆ eniştəlik (səh. 65)
83. ◆ eşikağası (səh. 65)
84. ◆ ev adamı (səh. 66)
◆ evərmə (səh. 66)
◆ evlənmə (səh. 66)
◆ evlənmə dəllalı (səh. 66)
◆ evlənmə kağızı (səh. 66)
◆ evlənməlik (səh. 66)
◆ evlənmə töréni (səh. 67)

Ə

85. ◆ əqd (səh. 67)
◆ əqdanə (səh. 67)
◆ əqdbəndi (səh. 67)
◆ əqdnamə (səh. 67)
86. ◆ əlsuyu (səh. 67)
◆ əltutdu (səh. 68)
◆ əlverdi // əlöpdü (s.68)
87. ◆ əmirbəyi (səh. 68)
88. ◆ ənlik-kirşan (səh. 68)
89. ◆ ər (səh. 69)
◆ ər evi (səh. 69)
◆ ərgən // ərgəncə (səh. 69)
◆ ərgənlik (səh. 69)
90. ◆ ərus (səh. 69)

Azərbaycan Milli Kitabxanası

◆ ərusbər (səh. 70)
◆ əruscu (səh. 70)
◆ əruscuxana (səh. 70)
◆ ərus dəllalı (səh. 70)
◆ ərus dəsmalı (səh. 70)
◆ ərusi (səh. 70)

91. ◆ əsnaf toyu (səh. 71)

92. ◆ əttik (səh. 71)

93. ◆ əyrəmçə (səh. 71)

F 94. ◆ fərraş (səh. 71)

95. ◆ fətirüstü (səh. 71)

96. ◆ gecəkəsdi (səh. 72)

G 97. ◆ gəhənşaşi (səh. 72)

98. ◆ gəlin (səh. 72)
◆ gəlinağlatma (səh. 73)
◆ gəlinalan (səh. 73)
◆ gəlin alayı (səh. 73)
◆ [ X ] gəlinapardı toyu (səh. 73)
◆ gəlinatlandı (səh. 74)
◆ gəlinbacı (səh. 74)
◆ gəlinbardağı (səh. 74)
◆ gəlinbəzəmə (səh. 74)
◆ gəlin çırağı (səh. 75)
◆ gəlin dərnəsi (səh. 76)
◆ gəlin dörü (səh. 76)
◆ gəlinəbaxma (səh. 76)
◆ [ XI ] gəlingətirdi toyu (səh. 76)
◆ gəlingətirmə (səh. 80)
◆ gəlingördü (səh. 80)
◆ gəlin xınası (səh. 80)
◆ gəlin xonçası (səh. 80)
◆ gəlini-mübarək (səh. 80)
◆ gəlinin cülusu (səh. 80)
◆ gəlinin qırxı (səh. 81)
◆ gəlinin pişvazı (səh. 82)
◆ gəlinin tərifi (səh. 82)
◆ gəlinin üçgünlüyü (səh. 82)
◆ gəlin qız (səh. 82)
◆ gəlinlik (səh. 82)
◆ gəlinlik arxalığı (səh. 83)
◆ gəlinlik boğçası (səh. 83)
◆ gəlinlik cehizi (səh. 83)
◆ gəlinlikçi (səh. 83)
◆ gəlinlik dəsmalı (səh. 83)
◆ gəlinlik duvağı (səh. 83)
◆ gəlinlik hamamı (səh. 83)
◆ gəlinlik gecəsi (səh. 85)
◆ gəlinlik gərdəyi (səh. 85)
◆ gəlinlik güzgüsü (səh. 85)
◆ gəlinlik qapısı (səh. 85)
◆ gəlinlik otağı (səh. 85)
◆ gəlinlik paltarı (səh. 86)
◆ gəlinlik taxtı (səh. 87)
◆ gəlinoldu (səh. 87)
◆ gəlinpayı (səh. 87)
◆ gəlinpulu (səh. 87)
◆ gəlin sağdışı (səh. 87)
◆ gəlin soldışı (səh. 87)
◆ gəlin şaxı (səh. 88)
◆ gəlin şərbəti (səh. 88)
◆ gəlin şirnisi (səh. 88)
◆ gəlin teli (səh. 88)
◆ gəlin toyu (səh. 88)
◆ gəlinvurdu (səh. 88)
◆ gəlinyazma (səh. 89)
◆ gəlin yengəsi (səh. 89)

99. ◆ gənəşik // gənəşmə (səh. 89)

100. ◆ gərdək (səh. 89)
◆ gərdəkbaşı (səh. 90)
◆ gərdək gecəsi (səh. 90)
◆ gərdəkqaçırma (səh. 93)
◆ gərdək otağı (səh. 93)
◆ gərdəkpulu (səh. 93)
◆ gərdəktikdi (səh. 93)
◆ gərdək yaylığı (səh. 94)

101. ◆ gəzək (səh. 94)

102. ◆ giyo // giyov (səh. 94)

103. ◆ gizlingecə (səh. 94)

104. ◆ göbəkkəsmə (səh. 94)

105. ◆ görücü (səh. 95)
◆ görücügetmə (səh. 95)
◆ görümlük (səh. 95)

106. ◆ guşayaşdıq (səh. 95)

107. ◆ güllü çörək (səh. 95)
◆ gülşaftalı (səh. 96)
◆ gülümey // gülüm hey (səh. 96)
◆ gülvəng (səh. 96)

108. ◆ güvey // güveg (səh. 96)
◆ güveyi // güvegi (səh. 96)
◆ güveyiyəvermə (səh. 96)
◆ güveylik (səh. 99)
◆ güveylik libas (səh. 99)
◆ güveylik tiraş (səh. 99)
◆ güveyyeməyi (səh. 99)

H 109. ◆ haxışda // haxışta (səh. 99)


Azərbaycan Milli Kitabxanası

110. ◆ halallıq (səh. 99)
111. ◆ halay (səh. 100)
112. ◆ halqa (səh. 100)
113. ◆ hamam boğçası (səh. 100)
114. ◆ heşkivaş (səh. 100)
115. ◆ heyvankəsdi (səh. 101)
116. ◆ həclə (səh. 101)
117. ◆ həftə hamamı (səh. 101)
118. ◆ həftrəng (səh. 102)
119. ◆ [ IV ] hərialdı (səh. 102)
◆ həri üzüyü (səh. 102)
120. ◆ hətbaş (səh. 102)
121. ◆ [ III ] hə-yox (səh. 103)

X

122. ◆ xalçabaşı (səh. 103)
123. ◆ xanda (səh. 103)
◆ xandagəzən (səh. 103)
124. ◆ xanoturdu // xanxan (səh. 104)
◆ xanpulu (səh. 104)
125. ◆ xastakar (səh. 104)
◆ xastakarlıq (səh. 104)
126. ◆ xastar (səh. 105)
127. ◆ xatəm (səh. 105)
128. ◆ xatircəmlik (səh. 105)
129. ◆ xeyir iş (səh. 105)
◆ xeyirlik (səh. 105)
130. ◆ xəbərçi (səh. 106)
131. ◆ xəkrizdəmə (səh. 106)
132. ◆ xələt (səh. 106)
◆ xələtatdı toyu (səh. 106)
133. ◆ xəlfə (səh. 106)
134. ◆ xərcgətirmə (səh. 107)
◆ xərcxəcələt (səh. 107)
135. ◆ xına (səh. 107)
◆ xınabənd (səh. 108)
◆ xına hamamı (səh. 108)
◆ xınalıq donu (səh. 108)
◆ xına nəğmələri (səh. 108)
◆ xına otağı (səh. 108)
◆ xına tabağı (səh. 108)
◆ xınayaxdı cehizi (səh. 108)
◆ [ VIII ] xınayaxdı toyu (s.109)
136. ◆ xırdaba (səh. 109)
137. ◆ xızır xonçası (səh. 109)
138. ◆ xonça (səh. 109)
◆ xonçaəvəzi (səh. 110)
◆ xonçaqayıtdı (səh. 110)
◆ xonça toyu (səh. 110)
◆ xonçatutdu (səh. 111)
139. ◆ xoşgəldin (səh. 111)

İ

140. ◆ içgüvey (səh. 111)
141. ◆ [ IX ] ixtilat toyu (səh. 111)
142. ◆ izdivac (səh. 112)

K

143. ◆ kəbin (səh. 112)
◆ kəbin kağızı (səh. 112)
◆ kəbinkəsdi (səh. 112)
◆ kəbinpulu (səh. 113)
◆ kəbin süfrəsi (səh. 114)
144. ◆ kədxuda (səh. 114)
◆ kəxudayi (səh. 114)
145. ◆ kəfrəm (səh. 114)
146. ◆ kəlləqənd (səh. 118)
147. ◆ kəmər (səh. 118)
◆ kəmərtaxdı (səh. 119)
148. ◆ kəsi-biçi (səh. 119)
◆ kəsimkəsmə (səh. 119)
149. ◆ kəsmət (səh. 119)
150. ◆ kiçik düyün // kiçik toy (s.120)
◆ kiçik elçilik (səh. 120)
◆ kiçik məsləhət (səh. 120)
◆ kiçik nişan (səh. 120)
◆ kiçik yançı (səh. 120)
151. ◆ kişi (səh. 120)
◆ kişi elçiliyi (səh. 121)
◆ kişi toyu (səh. 121)
152. ◆ kulikişmiş (səh. 121)
153. ◆ kürəkən (səh. 121)
◆ kürəkənküsdü (səh. 121)
154. ◆ kütbıçaq (səh. 122)
155. ◆ kütəhüzdü (səh. 122)
156. ◆ kütüm (səh. 122)

Azərbaycan Milli Kitabxanası

**Q**

157. ◆ qabağalan (səh. 122)
◆ qabaqkəsdi (səh. 122)

158. ◆ qabdüzdü (səh. 123)
◆ qabqaytarma (səh. 123)

159. ◆ qalın (səh. 123)

160. ◆ qamət (səh. 123)

161. ◆ qangah (səh. 124)

162. ◆ qapıbasdı (səh. 124)
◆ qapıqapalı (səh. 124)

163. ◆ qarabirçək (səh. 125)
◆ qaraharava (səh. 125)
◆ qaranişan (səh. 125)

164. ◆ qardaşbağı (səh. 125)
◆ qardaş xınası (səh. 126)
◆ qardaşlıq (səh. 126)

165. ◆ qaşıqdağıtma (səh. 126)

166. ◆ qatqı (səh. 126)

167. ◆ qayçıkəsməz (səh. 126)

168. ◆ qayınana (səh. 127)
◆ qayınana-gəlin (səh. 127)
◆ qayınata (səh. 127)
◆ qayınlıq (səh. 127)

169. ◆ qazağ (səh. 127)
◆ qazağyana (səh. 127)

170. ◆ qazanüstü (səh. 128)

171. ◆ qazmə (səh. 128)

172. ◆ qəlyan şirnisi (səh. 128)

173. ◆ qəmər (səh. 128)

174. ◆ qənbər (səh. 129)

175. ◆ qənd xonçası (səh. 129)
◆ qəndqırma (səh. 129)

176. ◆ qıfılbənd (səh. 129)

177. ◆ qılavuz (səh. 130)

178. ◆ qız (səh. 130)
◆ qız adamı (səh. 130)
◆ qız barxanası (səh. 130)
◆ qızbaşı (səh. 130)
◆ qızbəyənmə // qızseçdi (səh. 131)
◆ qız cehizi (səh. 131)
◆ qızdəsi (səh. 131)
◆ qız elçisi (səh. 131)
◆ qız evi (səh. 132)
◆ qızəvəzi (səh. 132)
◆ qız əvrəzi (səh. 132)
◆ qızgəlin (səh. 132)
◆ qızgiyov nəsibi (səh. 132)
◆ qızgördü (səh. 132)
◆ qız halvası (səh. 134)
◆ qız hamamı (səh. 134)
◆ qız kilimi (səh. 134)
◆ qızqaçırma (səh. 134)
◆ qız qapısı (səh. 138)
◆ qız qonaqlığı (səh. 138)
◆ qız otağı (səh. 138)
◆ qızoynatma (səh. 138)
◆ qız oyunları (səh. 138)
◆ qız sağdışı (səh. 139)
◆ qız soldışı (səh. 139)
◆ qız şaxı (səh. 139)
◆ qız şirnisi (səh. 140)
◆ qız teli (səh. 140)
◆ qız toyu (səh. 140)
◆ qız yengəsi (səh. 140)
◆ qızyığdı (səh. 141)
◆ qızyolu (səh. 142)

179. ◆ qohumpayı (səh. 142)

180. ◆ qonaqlıq (səh. 142)
◆ qonaqlıq gəzməyi (səh. 142)

181. ◆ qual (səh. 142)

182. ◆ quda (səh. 143)
◆ qudaaşı (səh. 143)
◆ quda qonaqlığı (səh. 143)
◆ qudalaşma (səh. 143)
◆ qudalıq (səh. 143)
◆ qudapayı (səh. 143)

183. ◆ qurbankəsmə (səh. 144)
◆ qurbanlıq (səh. 144)

184. ◆ qurşaq (səh. 144)
◆ qurşaqbağlama // qurşaqlama (s. 145)

**L**

185. ◆ ləxləxə (səh. 145)

186. ◆ lotu (səh. 145)
◆ lotubeçə (səh. 145)
◆ lotu toyu (səh. 145)

**M**

187. ◆ mağar // mağardamı (səh. 145)
◆ mağarbaşı (səh. 146)

188. ◆ mahi-əsəli (səh. 146)

189. ◆ mehir // mehr (səh. 146)
◆ mehir kağızı (səh. 146)

Azərbaycan Milli Kitabxanası

**190.** ◆ meyxana (səh. 147)
◆ meyxanaçı (səh. 147)

**191.** ◆ məsləhət (səh. 147)
◆ məsləhətaşı (səh. 147)

**192.** ◆ məşşatə (səh. 148)

**193.** ◆ mətbəxxərci (səh. 148)

**194.** ◆ minnətçi (səh. 148)
◆ minnətçilik (səh. 148)

**195.** ◆ müjdə xələt (səh. 148)
◆ müjdə yastığı (səh. 149)

**196.** ◆ mürvət toyu (səh. 149)

**197.** ◆ müsahib (səh. 149)

**198.** ◆ mütrib // mütrüb (səh. 149)

N

**199.** ◆ namzəd (səh. 150)
◆ namzədbazlıq (səh. 150)

**200.** ◆ nəxil // nəxl (səh. 150)

**201.** ◆ nəmər // nəmərpulu (səh. 151)

**202.** ◆ nəvə (səh. 151)

**203.** ◆ nikah (səh. 151)
◆ nikah kağızı (səh. 151)
◆ nikah taxtı (səh. 151)
◆ nikah toyu (səh. 152)

**204.** ◆ nisar (səh. 152)

**205.** ◆ nişan (səh. 152)
◆ nişanaşı (səh. 152)
◆ nişanbaxtı (səh. 157)
◆ nişanbazlıq (səh. 157)
◆ nişandəyişmə (səh. 157)
◆ nişan güzgüsü (səh. 157)
◆ nişanxərci (səh. 157)
◆ nişan xonçası (səh. 157)
◆ nişanqaytardı (səh. 158)
◆ nişanlı (səh. 158)
◆ nişan paltarı (səh. 158)
◆ nişan şirnisi (səh. 158)
◆ [ VI ] nişantaxdı toyu (səh. 158)
◆ nişan üzüyü (səh. 159)
◆ nişan yaylığı (səh. 159)

**206.** ◆ novbahar xonça (səh. 159)
◆ novbarlıq (səh. 159)
◆ novdamad (səh. 159)
◆ novərus (səh. 159)
◆ novkətxuda (səh. 160)
◆ novşah (səh. 160)

O

**207.** ◆ odunəvrəzi (səh. 160)

**208.** ◆ oğlan (səh. 160)
◆ oğlan adamı (səh. 160)
◆ oğlancıq (səh. 160)
◆ oğlan evi (səh. 161)
◆ oğlan qonaqlığı (səh. 161)
◆ oğlan sağdışı (səh. 162)
◆ oğlan soldışı (səh. 162)
◆ oğlan şaxı (səh. 162)
◆ oğlan toyu (səh. 163)
◆ oğlan yengəsi (səh. 163)

**209.** ◆ oxamac (səh. 164)
◆ oxlu (səh. 164)

**210.** ◆ oxu (səh. 164)
◆ oxuyucu (səh. 164)

**211.** ◆ ovşala (səh. 165)

Ö

**212.** ◆ öllüx-dirilıx (səh. 165)

**213.** ◆ özünəbəy (səh. 165)
◆ özünəbəylər (səh. 165)

P

**214.** ◆ paça günü (səh. 165)
◆ paçalıq (səh. 166)

**215.** ◆ paltaraparma (səh. 166)
◆ [ VII ] paltarkəsdi toyu (səh. 166)
◆ paltarüstü (səh. 166)

**216.** ◆ pərdə (səh. 167)
◆ pərdəapardı (səh. 167)
◆ pərdədəoturma (səh. 167)

**217.** ◆ pərvazə (səh. 167)

**218.** ◆ puçur (səh. 168)

**219.** ◆ pulsalma (səh. 168)

R

**220.** ◆ rizaaldı (səh. 168)
◆ riza süfrəsi (səh. 168)

**221.** ◆ runəma (səh. 168)

S

**222.** ◆ sabahda (səh. 169)

**223.** ◆ saçı // saçıqılma (səh. 169)

**224.** ◆ saçkəsdi (səh. 169)

**225.** ◆ sağdış (səh. 170)
◆ sağdışpayı (səh. 170)
◆ sağdış-soldış (səh. 170)

**226.** ◆ saqqallar (səh. 173)

**227.** ◆ salovçu (səh. 173)

**228.** ◆ sandıqpayı (səh. 173)

Azərbaycan Milli Kitabxanası

◆ sandıqüstü (səh. 174)
229. ◆ savçi (səh. 174)
230. ◆ saya toy (səh. 174)
231. ◆ saz (səh. 174)
232. ◆ səcdə (səh. 174)
233. ◆ səda (səh. 175)
234. ◆ sədaq (səh. 175)
235. ◆ sədəqə (səh. 175)
236. ◆ sərxeyir (səh. 175)
◆ sərpayı (səh. 176)
◆ sərpayı axşamı (səh. 176)
◆ sərpayı xonçası (səh. 176)
◆ sərtaxtı (səh. 176)
237. ◆ səsdi toy (səh. 176)
◆ səssiz toy (səh. 176)
238. ◆ sinisüfrə (səh. 177)
239. ◆ soldış (səh. 177)
◆ soldışpayı (səh. 177)
240. ◆ [ II ] sözaldı (səh. 177)
◆ sözkəsdi (səh. 178)
◆ sözkəsən (səh. 178)
◆ sözlü (səh. 178)
241. ◆ subay (səh. 178)
242 ◆ sukəsmə (səh. 178)
◆ suyaçıxardı (səh. 179)
243. ◆ sur // surnama (səh. 179)
◆ surgah (səh. 179)
◆ surpapaq (səh. 179)
244. ◆ südpulu (səh. 179)

Ş

245. ◆ şabaş (səh. 180)
246. ◆ şadi (səh. 180)
◆ şadimübarək (səh. 181)
257. ◆ şah (səh. 181)
◆ şahanə (səh. 181)
◆ şahbala (səh. 181)
◆ şahdamad (səh. 181)
248. ◆ şax (səh. 181)
◆ şaxbəzəmə (səh. 182)
◆ şaxqaldırma (səh. 182)
249. ◆ şal (səh. 183)
◆ şalüzük toyu (səh. 183)
250. ◆ şamal (səh. 183)
251. ◆ şamartı (səh. 184)
252. ◆ şeylan (səh. 184)
253. ◆ şeyoğurladı (səh. 184)
254. ◆ şəkərparalama (səh. 185)
◆ şəkərriz (səh. 185)
255. ◆ şələmzar (səh. 185)
256. ◆ şərbət (səh. 185)
◆ şərbətiçdi (səh. 186)
257. ◆ şilən // şülən (səh. 186)
258. ◆ şirinxonça (səh. 186)
◆ şirinxoran (səh. 186)
259. ◆ şirni (səh. 186)
◆ şirni xonçası (səh. 187)
◆ şirniiçmə (səh. 187)
◆ şirniklik (səh. 187)
◆ şirniqabağı xonça (səh. 187)
◆ şirninişan toyu (səh. 187)
◆ şirni siyahısı (səh. 188)
◆ şirni süfrəsi (səh. 188)
◆ şirni toyu (səh. 188)
◆ şirniyedi (səh. 188)

T

260. ◆ tabaqqırağı (səh. 188)
261. ◆ tac (səh. 194)
262. ◆ taxt (səh. 194)
◆ taxtdöşəyi (səh. 194)
◆ taxtpayı (səh. 194)
263. ◆ talib (səh. 194)
264. ◆ tamada (səh. 195)
265. ◆ telliduvaq (səh. 195)
266. ◆ teyzə (səh. 195)
267. ◆ təzəbəy (səh. 195)
◆ təzəgəlin (səh. 196)
268. ◆ torpaqbasdı (səh. 196)
269. ◆ toy (səh. 196)
◆ toy adamı (səh. 203)
◆ toy alayı (səh. 203)
◆ toyaşı (səh. 206)
◆ toy bazarlığı (səh. 206)
◆ toybeçə (səh. 206)
◆ toybəyi (səh. 207)
◆ toyçu (səh. 207)

Azərbaycan Milli Kitabxanası

◆ toy çuxası (səh. 207)
◆ toydağıtması (səh. 207)
◆ toydamı (səh. 208)
◆ toy dəvətçisi (səh. 208)
◆ toy gecəsi (səh. 208)
◆ toy hamamı (səh. 208)
◆ toyxana (səh. 209)
◆ toyxərci (səh. 209)
◆ toy xınası (səh. 209)
◆ toy xonçası (səh. 210)
◆ toy qoyunu (səh. 210)
◆ toy oxşaması (səh. 210)
◆ toy paltarı (səh. 210)
◆ toy parçası (səh. 210)
◆ toypayı (səh. 211)
◆ toy süfrəsi (səh. 211)
◆ toy şirnisi (səh. 211)
◆ toy yuxası (səh. 211)

270. ◆ tuti (səh. 211)

U

271. ◆ uğurpulu (səh. 211)
◆ uğursuyu (səh. 212)

272. ◆ ulu toy (səh. 212)

273. ◆ unlama (səh. 212)

274. ◆ urbaaçma (səh. 212)
◆ urbabiçmə // urbakəsdi (səh. 213)
◆ urbagətirmə (səh. 213)

Ü

275. ◆ üçgünlük (səh. 213)
◆ üç öpüb bir dişləmə (səh. 213)

276. ◆ ürəfa toyu (səh. 213)

277. ◆ üskük (səh. 214)

278. ◆ üzaçdı (səh. 214)
◆ üzağlığı (səh. 214)
◆ üzalan (səh. 214)
◆ üzalma // üzyazma (səh. 214)
◆ üzduvax (səh. 215)
◆ [ XII ] üzəçıxdı toyu (səh. 215)
◆ üzgörmə // üzgörümü (səh. 215)
◆ üzgörümlük // üzgörümcəyi (səh. 215)
◆ üzyazısı (səh. 216)

279. ◆ üzənəkçi (səh. 216)

280. ◆ üzəngiçi (səh. 216)

281. ◆ üzərlik (səh. 216)

282. ◆ üzük (səh. 217)
◆ üzükapardı (səh. 217)
◆ üzük xonçası (səh. 217)
◆ üzükqabı (səh. 217)
◆ [ V ] üzükşal toyu (səh. 217)
◆ üzük-üzük (səh. 218)

V

283. ◆ vağzalı (səh. 218)

284. ◆ varaşuet (səh. 218)

285. ◆ vəkil (səh. 218)

286. ◆ vəlimə (səh. 222)

287. ◆ vəzourt // vəzöurd (səh. 222)

Y

288. ◆ yadqızı (səh. 222)

289. ◆ yançaq (səh. 223)
◆ yançı (səh. 223)

290. ◆ yapıq (səh. 223)

291. ◆ yaşınma // yaşırma (səh. 223)
◆ yaşmaq (səh. 223)
◆ yaşmaqlı (səh. 224)

292. ◆ yavuqlama (səh. 224)
◆ yavuqlu (səh. 224)

293. ◆ yazıcı (səh. 224)
◆ yazma (səh. 224)

294. ◆ yeddilik (səh. 224)
◆ yeddilövün xonçası (səh. 225)

295. ◆ yelətmə // yellətmə (səh. 225)

296. ◆ yengə (səh. 225)
◆ yengə qonaqlığı (səh. 225)
◆ yengəlik (səh. 226)
◆ yengəpayı (səh. 226)
◆ yengəyolu (səh. 226)

297. ◆ yol // yolpulu (səh. 226)
◆ yolaçıxarma (səh. 226)
◆ yolapardı (səh. 226)
◆ yolkəsdi (səh. 227)

298. ◆ yorıqçı (səh. 227)

299. ◆ yuxaüstü (səh. 227)

Z

300. ◆ zifaf (səh. 228)
◆ zifaf ağı (səh. 228)
◆ zifaf axşamı // zifaf gecəsi (s.228)
◆ zifaf otağı (səh. 228)

301. ◆ zomagoya (səh. 228)

Azərbaycan Milli Kitabxanası

# Qırmızı səhifələr

## Ənənəvi toy tədbirlərinin on iki mərhələsi


I ◆ **AĞIZBİLDİ** [ *birinci qeyri-rəsmi arvad elçiliyi* ] . . . . . . . . . . . . . . . . . . . . 17
II ◆ **SÖZALDI** [ *ikinci qeyri-rəsmi arvad elçiliyi* ] . . . . . . . . . . . . . . . . . . . . . 35
III ◆ **HƏ-YOX** [ *qeyri-rəsmi kiçik kişi elçiliyi* ] . . . . . . . . . . . . . . . . . . . . . 57
IV ◆ **HƏRİALDI** [ *rəsmi böyük kişi elçiliyi* ] . . . . . . . . . . . . . . . . . . . . . 77
V ◆ **ÜZÜKŞAL TOYU** [ *kiçik nişan mərasimi* ] . . . . . . . . . . . . . . . . . . 97
VI ◆ **NİŞANTAXDI TOYU** [ *böyük nişan mərasimi* ] . . . . . . . . . . . . . . . . 115
VII ◆ **PALTARKƏSDİ TOYU** [ *qız toyu şənliklərinin birinci günü* ] . . . . . . . . 135
VIII ◆ **XINAYAXDI TOYU** [ *qız toyu şənliklərinin ikinci günü* ] . . . . . . . . 153
IX ◆ **İXTİLAT TOYU** [ *oğlan toyu şənliklərinin birinci günü* ] . . . . . . . . 171
X ◆ **GƏLİNAPARDI TOYU** [ *qız toyu şənliklərinin üçüncü günü* ] . . . . . . . . 189
XI ◆ **GƏLİNGƏTİRDİ TOYU** [ *oğlan toyu şənliklərinin ikinci günü* ] . . . . . . . . 197
XII ◆ **ÜZƏÇIXDI TOYU** [ *oğlan toyu şənliklərinin üçüncü günü* ] . . . . . . 219


Azərbaycan Milli Kitabxanası

### ƏSAS QAYNAQLAR


◆ Abdullayev B., *"Haqqın səsi"*, B. 1989
◆ *Azərbaycan dilinin dialektoloji lüğəti*, B. 1964
◆ *Azərbaycan dilinin izahlı lüğəti* (4 cildlik), B. 1964-1983
◆ *Azərbaycan folkloru antologiyası*, B. 1969
◆ Babayev İ., Əfəndiyev Y., *"Azərbaycan şifahi xalq ədəbiyyatı"*, B. 1970
◆ Babayeva R., *"Quba şəhərinin toy adətləri"*, B. 1946
◆ Cəbrayılova M. Ə., *"Toy mərasimi haqqında. Azərbaycan tarixinə dair materiallar"*, 4-cü cild, B. 1968
◆ Hacaloğlu R. A., *"Azəri türkçəsi dil qılavuzu"*, A. 1992
◆ Həkimov M., *"Xalqımızın deyimləri və duyumları"*, B. 1986
◆ Həvilov H., *"Azərbaycan etnorqrafiyası"*, B. 1992
◆ Qeybullayev Q., *"Azərbaycanlılarda ailə və nikah"* B. 1994
◆ Quliyev H., *"Məişətimizdə adət və ənənələr"*, B. 1976
◆ Nəbiyev A., *"El nəğmələri, xalq oyunları"*, B. 1988
◆ Nəbiyev A., *"Mərasimlər, adətlər, alqışlar"*, B. 1993
◆ Sarabski H., *"Köhnə Bakı"*, B. 1958
◆ Səlimov-Şağani T., *"Abşeronlular"*, B. 1993
◆ Şahsoylu B., *"Toy və halay mahnıları"*, B. 1980
◆ Vəliyev V., *"Azərbaycan folkloru"*, B. 1985
◆ Aqadjanov S. Q., *"Stranı i narodı Vostoka"* vıp. XXII, *"Braçnıye i svadebnıye obryadı oquzov v IX-XIII vv."*, (rus dilində) M. 1980
◆ Babaeva R., *"Materialı dlya izuçeniya svadebnıx obryadov na Abşerone v proşlom. Azerbaydjanskiy etnorqrafiçeskiy sbornik"*, (rus dilində), B. 1964

**AZƏRBAYCAN TOYU**

**Birinci nəşr**

Elçin Aslanov (mətn)
Tərlan Qorçu (bədii tərtibat)
Sevda İsmayıllı (redaktor)
Hikmət Aydınoğlu (kompüter düzümü)

© *TUTU* nəşriyyatı, Bakı, 2003-cü il

*http://www.tutu.az*
*e-mail: main@tutubooks.az*

Türkiyədə çap olunub

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanunsuzdur.

**WEDDING TRADITION OF AZERBAIJAN**

**First Edition**

Elchin Aslanov (text)
Tarlan Gorchu (book design)
Sevda Ismayilli (editing)
Hikmat Aydinoghlu (computer layout)

© 2003, *TUTU* Publishers, Baku

Printed in Turkey

All rights reserved. No part of this publication may be reproduced, translated, stored in a retrival sistem, or transmitted, in any form or by any means, without permission.

ISBN 9952-410-00-4

Azərbaycan Milli Kitabxanası

# AZƏRBAYCAN TOYU



Azərbaycan Milli Kitabxanası